

MİR CƏLAL

ADİLOĞLU
www.adiloglu.az

# MİR CƏLAL

Seçilmiş əsərləri
5 cilddə

HEKAYƏLƏR
FELYETONLAR
ŞEİRLƏR
OÇERKLƏR
TƏRCÜMƏLƏR
XATİRƏLƏR

# MİR CƏLAL

Seçilmiş əsərləri

HEKAYƏLƏR

II CİLD

Tərtib edənlər: **Nərgiz Paşayeva**
**Təhsin Mütəllimov**

Redaktor: **Şəmsəddin Axundov**
Rəssam: **Nüsrət Süleymanoğlu**

**MİR CƏLAL. ƏSƏRLƏRİ. 5 CİLDDƏ. II CİLD.**
Bakı, ADİLOĞLU nəşriyyatı, 2013, 444 səh.

ISBN: 978-9952-25-128-9
© ADİLOĞLU, 2013

# ANALARIN ÜSYANI

Avqustun axşam bürküsündə qəsəbədən çölə, meşələrə doğru yollanan dəstədə Mariya da var idi. Qırmızılar çəkiləndən sonra bir bəla kimi şəhərə dolan faşist soldatları ələ keçən hər kəsi öldürür, haraya isə, nə üçünsə aparırdılar.

Mariya uzaq, qaranlıq meşələrə gedə bilməyəcək, getməyəcəkdi. Onu nə güllə, nə süngü, nə də dar ağacı qorxudurdu. Düşdüyü vəziyyət hər hanki ölümdən müdhiş idi: biryaşlı körpəsini evdə nənənin yanında qoyub çıxmışdı. Mariya balasını şəhərdə, düşmən əlində qoymaq istəmirdi.

Qaranlıq, səssiz bir matəm kimi yerlərə çökəndə Mariya dəstədən yayındı. O, kəklik kimi kollara, daşlar dibinə sığınacaq, qan-tərini siləcək, nəfəsini dərəcək, yolu bələdləyib gecə, ağacların arası ilə şəhərə qayıdacaq, ailəni alıb oradan çıxacaq, özünü Qızıl Ordu hissəsinə yetirəcək idi. Dəstədən heç iki addım ayrılmamış, bu şirin niyyət hələ xəyalından

silinməmişdi ki, məlun güllələrdən biri də açıldı. Mariya üzü üstə yıxılıb əlini yarasına basdı... Dəstə yoluna davam edirdi. Güllə Mariyanın vücuduna alov salmışdı. İndicə bu alov onu saracaq, gənc ana qəlbini şam kimi söndürəcək idi. Yox, Mariya intizar və həsrət dolu qəlb ilə məzara getməzdi. Hələ taqətdən düşməmiş o yaralı ceyran bütün gecəni mələdi, balasını axtardı. Gecənin zülmətində, ölüm tənhalığında hər ağaca, hər kola, üzünü göylərə çevirərək, hər ulduza, şırıldayıb axan sulara yalvardı: "Ey qüdrətli qüvvələr, ey insan üçün olan kainat, amanda qaldığım bu yaman gündə məni balama, balamı mənə yetirin!.." Əlini süd ilə dolu qanlı döşlərinə vurdu. Həmişə bu zaman uşaq yatağında səslənib anasını istərdi.

Mariyanın qəlbi kabab kimi qovrulur, bütün vücudu alışıb yanırdı. Ürəkdən böyük bir parça qopub düşmüşdü. Bədən Mariyada, ruh isə o parçada qalmışdı. Mariya xəzəllər üzərində sürüşən bir xəyal, bir kölgə, bir yuxu kimi axtarırdı. O, ürəyini, ruhunu, həyatını axtarırdı. Gah ümid ilə güllə səslərinə tərəf gedir, orada faşist silahlarının dilləndiyini eşidərək qərbə, özümüzünkülərə sarı dönürdü, gah da möhkəm səngərlərə rast gəlib dayanırdı.

Üç gündür ki, o, nə aclıq, nə susuzluq, nə yorğunluq hiss edir. Uzun yollar gedir, nə çaylar, nə bataqlıqlar, nə divarlar, nə çəpərlər, nə atəş xətləri ona mane ola bilmirdi. Mariya şəhər kənarından ötüb şərqə, Qızıl Ordu olan tərəfə addamaq, oradan şəhərə dönmək istəyirdi. Sərgərdanlığının üçüncü günü meşədə ona bir səs:

– Dayan! – dedi.

Mariya dayandı, ətrafa baxındı. Günün günorta çağı idi. Kölgələri qısalmış ağaclardan, rütubət basmış xəzəllərdən başqa heç nə görünmürdü. Mariya bu səsin göydən gəldiyini güman etdi. Lakin ağacların başında heç nə yox idi. Mariya başını endirəndə qarşısında əlisilahlı dayanmış qızıl əsgəri gördü.

Əsgər Mariyanı tanıyandan sonra ona şad bir xəbər verdi:

– Bacı, – dedi, – sizin şəhərdən düşmən qovulmuşdur. Buyurub evinizə gedə bilərsiniz?!



Mariya bilmədi sevindiyindən nə desin, əsgərə necə təşəkkür eləsin. Əsgər ona bələdçilik edib yola saldı. Mariya fürsət düşəndə bu yaxşılığın xəcalətindən çıxmaq üçün əsgərin adını, yerini soruşdu. Əsgər razılıq etdi:

– Çox sağ ol, bacı, bizim vəzifəmiz belədir. Vətənimizə, vətəndaşlarımıza qulluq edirik.

Dayanmalı vaxt deyildi. Mariya sevincdən doğan bir hərəkət, sürət ilə yeridi, axşama yaxın özünü şəhərə yetirdi.

Şəhər Mariyanın qoyub getdiyi deyildi. Binalar uçmuş, körpülər dağılmışdı. Yenicə qayıdan qaçqınların kimisi adamını, kimisi bombalarla göyə sovrulmuş xanimanını, var-yoxunu, bəzisi də üç gün əvvəl qoyub getdiyi gözəl və abad şəhərini axtarırdı.

Mariyanın isə nəyi və kimi axtardığı məlumdur. Həyətə girəndə evlərinin uçurulmadığını görüb sevindi. Ürəyi döyündü və bir uşaq sevinci ilə özünü pilləkənlərdən otağa atdı:

– Balam hanı?

Mariya belə fərz edirdi ki, nənəsi ona cavab verəcək, "budur, uşağın qucağımda!" deyəcəkdir. Biz də yəqin edirik. Yəqinimizdir ki, nəvəsini öz canından artıq istəyən qadın, qızının intizarına son qoymağa tələsər, Mariyaya səs verərdi. Ancaq nənənin dinməyə dili yox idi. O, evin ortasında, üzü üstə uzanmışdı. Sağ qolunu uşağın meyitinə tərəf uzatmışdı. Sanki, onu qucaqlamaq, qorumaq istəyirdi. Balasının o zərif, ağ döşündən vurulan süngü yarasını görəndə, sanki, dünya Mariyanın başına dolandı. Mariya müdhiş və yandırıcı bir nalə çəkdi. Onun səsinə bütün məhəllə camaatı töküldü. Gələnlər bulud kimi göz yaşı tökən, saçlarını yolan, sifətini parçalayan ananı, çiçək kimi solub-saralmış körpəni gördülər. Ürəklər dözmədi, gözlər baxa bilmədi. Mariya nə düşündüsə, balasını götürüb həyətə, oradan da küçəyə qaçdı. Adamlar qadının dəli olduğunu, şüurunu itirdiyini zənn etdilər. Bəziləri də ananın, meyiti qəbiristanlığa apardığını deyirdi. Kişilər Mariyanı saxlamaq, sakit etmək istədilər. Mariya isə şəhər meydanına qədər yüyürdü.

Axşam idi, batmaqda olan günəşin, sanki, hiddətdən rəngi qıpqır-

mızı qızarmışdı. Sanki, o da ananın fəryadını eşitmək, bu faciələri görmək istəmirdi. Sanki o da dağların, dənizlərin, üfüqlərin arxasına çəkilmək meylində idi. Ancaq Mariya buna mane oldu. Balasını, qəlbi parçalanmış oğlunu iki əli üstünə alıb qaldırdı, uca tutdu:

– Şahid ol! Şahid ol! – dedi, – ey kainatın çılğın axşamı! Üfüqlər, dağlar, daşlar, düzlər, sular, ağaclar, çiçəklər, şahid olun! Meşələrin heyvanları, quşlar, şahid olun!

Mariya bunu deyib bir qədər sükut etdi. Sanki o, dindirdiyi kainatın cavabını gözləyirdi. Sonra üzünü şəhərə döndərdi:

– İntiqam, intiqam! – deyə iki dəfə səsləndi. Üçüncüdə onun sözü eşidilməz oldu. Çünki, yerlər də, göylər də hərəkətə gəlmişdi. Mariyanın həzin, haqlı ana fəryadı bir ildırım kimi ellərə yayılmışdı. Dünyanın bütün qadınları, bəşəriyyəti bəsləyib böyüdənlər, insanlığın dayələri, dahilərin, alilmərin, filosofların, şairlərin anaları, köksü saf, təmiz hisslər yatağı olan qadınlar böyükdən kiçiyə, şərqdən qərbə, cənubdan şimala hamısı ayağa qalxmışdı. Dünyada birinci və axırıncı dəfə olaraq anaların müqəddəs qiyamı başlanırdı. Dənizlər çəkilir, dağlar baş əyir, üfüqlər açılır, hər şey bu həyəcan selinə yol verirdi. Analar indi müsəlləh və qəzəbli bir ordu kimi əl-ələ, səs-səsə verirdilər. Ağsaçlı nəvə sahibləri bütün nəsillərini vuruşa çağırırdı. Kəndli qadın əlində alakeş, kürək, toxa gəlirdi. Fəhlə qadın yumruğunu düyünləyərək, bayraq kimi qaldırırdı. Müəllimə kitabını silahla dəyişir, yazanlar qələmini süngüyə çevirirdi. Dəniz kimi dalğalanan, vulkan kimi coşan bu hərəkət getdikcə böyüyür, böyüdükcə sürətlə yeriyirdi. Əliyalınlar yerdən daş götürür, ağac alır, ümumi düşmənə, insanlığın düşməninə, faşist başkəsənlərə qarşı yüyürürdü...

Mariya o müsibətli ana, özünü bu birlik dalğalarında görüb təsəlli duyur, addımlarını daha da möhkəm ataraq deyirdi:

"Gedək, analar! Bəşər övladını yırtıcılardan xilas edən Qızıl Orduya köməyə gedək!"

*1940*



# ANANIN KÖYNƏYİ

Oğlunu orduya yola salandan sonra, ananın qərarı gəlmirdi. Evdə otura bilmirdi. Qonşusu dərzi Cahangirin yanına getdi, artelə girmək üçün ondan kömək istədi. İki gün sonra ana yüzlərlə fəhlə qadınla yanaşı fabrikada, tikiş maşınının dalında əyləşmişdi. Bu maşın, bu sənət ona çoxdan tanış və yaxın idi. Cavanlıqda onun tikmə köynəkləri, əl işləri, sap ilə vurduğu naxışlar məşhur idi. Hər yerdə söylənər, təriflənərdi.

Sonradan başı ailəyə, övlad böyütməyə qarışdı. Maşını bir tərəfə atdı.

İndi o, yenə gəncliyindəki sənətə qayıtmalıdır. İndi arteldə naxışlı köynək, ya məhrəba hazırlamırdılar. İndi – qışqabağı yun parçalar kəsilir, isti paltar tikilir. Ana bu işə çox tez alışdı. Yoldaşları da, sex ustası da onun işinə diqqət yetirir, kömək edirdilər.

Ana maşının dalına keçən kimi gənclik günləri gəlib gözünün qabağında durdu. Maşının çarxı hərlənən kimi, deyəsən, o xatirələri çağıran mahnı səslənirdi. Ancaq indi heç bir xatirə, heç bir xəyal ananı oğlu

qədər, Tahir qədər məşğul etmirdi.

Ona elə gəlirdi ki, tikdiyi bu köynəklərin hamısı Tahir üçündür. İlki və sonu olan, yeganə balası Tahirin şümşad kimi boyu, enli kürəkləri, uzun qolları gözünün qabağında idi. Az qalırdı verilən ölçülərin hamısını bir kənara qoysun, oğlunun boyunu əsas alsın. Parça kəsildikcə, tikiş xətti parlaq bir xəyal kimi parça üzərində uzandıqca ananın xəyalı uzaqlaşır, gurultulu cəbhə xəttinə gedirdi. Tahiri həmin köynək əynində, aslan kimi düşmən üstünə cuman görürdü. Ana, tikdiyi paltarların düyməsini, ilmə yerini möhkəm etmək üçün çox yoldaşlarından artıq çalışırdı. "Bir düymə, – deyirdi, – əsgəri vacib işindən qoya bilər!" Ananın fikrinə gəlmişdi ki, Tahir bir adamdır, bir köynək geyəcəkdir. Ona görə də ana bir köynəyin yaxasında tikiş xəttini artıq vurur, xüsusi nişan qoyurdu. Düşünürdü ki, Tahirə yazaram: "Bala, köynəyin yaxasına diqqət ver. O nişanı görürsənmi, orada ananın əlləri gəzmişdir..."

Ancaq ana bir yox, çox köynəyə belə nişan vururdu. Çünki, hansının Tahirə qismət olacağını təyin edə bilmirdi.

Ana artelə işə girəndən sonra əməlli-başlı ictimai adam olmuşdu. Səhər tezdən onu, "oğlundan" xəbər eşitmək üçün radio qabağında dayanıb qulaq asan görərdiniz. Cəbhə xəbərlərini eşitməmiş rahat olmazdı. Özü savadsız olsa da, gündə üç şahı verib bir "Kommunist" almağı var idi. Qəzeti çervon kimi qatlayıb qoltuq cibində gizlədər, axşam işdən başı ayılanda Cahangirə, ya məktəb uşaqlarından birinə oxudardı.

Qəzeti oxuyandan sonra ana Cahangirdən soruşardı:

– Bala, Hitlerin qoşunu bəs havaxt qırılıb qurtaracaq, o barədə nə yazırlar?

■ ■ ■

Cahangir də bilirdi ki, ana nə üçün bunu soruşur. Tahir ilk məktubunda, anasının görüşmək arzularına belə cavab vermişdi. "Ana, düşməni tamam məhv edəndən sonra görüşərik, nigaran olma..."

Ana son məktubunda köynək məsələsini yazdırdı: "Oğul, yaz, xəbər ver görüm, öz əlimlə tikdiyim köynək sənə yetişdimi? Bala, onu ayrı həvəslə tikmişəm, istidir. Möhkəmdir. Gərək səni saxlasın..."



Ana məktubunu poçt qutusuna salandan sonra bir xəyal olub yollara düşür, kağız ilə özü də gedirdi. Öz hesabında məktubun çatmağına, oxunmağına, cavabının gəlməsinə vaxt verirdi. Günləri sayırdı. Vaxtdan bir gün keçəndə darıxır, təkrar məktub yazdırırdı.

Hərdən də ürəyinə gəlirdi ki, "səngərdi, davadı, göydən od yağır. Yazıq Tahir havaxt tüfəngi yerə qoyub qələm götürsün. Sənin kimi stul üstündə rahat oturmayıb ha!.."

Qəzetin İnformasiya Bürosunun xəbərləri anaya Tahirdən gələn məktub kimi idi. Ana hər əsgərin rəşadətini, igidliyini Tahirinki bilir, sevinirdi. Anaya gözəlcə məlum idi ki, Tahir piyada qoşunundadır. Amma nədənsə topçunun da, təyyarəçinin, tankçının, pulemyotçunun, süvarinin də adını eşidəndə ananın gözündə Tahir canlanırdı. Ona elə gəlirdi ki, ya Tahir bu sənətlərin hamısında vardır, ya da bu sənətdə olanların hamısı Tahir kimi ona yaxın, doğma can-ciyərdirlər.

Bir gün anaya "qəzetdə Tahirin şəkli var!" dedilər. Səhər tezdən alıb qoynuna qoyduğu qəzeti çıxarıb qatını açdı. Başında ulduzlu papaq, boynu qırmızı nişanlı, əli silahlı, ucaboy, igid bir oğlan ananın üzünə baxıb gülürdü. Sanki gülə-gülə soruşurdu:

– Necədir, ana, yaraşırmı?

Ananın gözləri yaşardı, yanaqları qızardı. Aylardan bəri ayrıldığı oğlunu bağrına basdı. Şəkli güzgü kimi gözü önündə saxladı. Baxdı, baxdı, ixtiyarsız dilindən bu sözlər qopdu:

– Mübarək olsun, bala, paltarın mübarək, nişanın mübarək!

İndi ananın yeni bir aləmi var idi. Oğlunun, Tahirin bomba ilə üç düşmən tankını dağıtdığını, böyük bir dəstəni vahiməyə salıb qaçırtdığını yazırdılar, danışırdılar. Gün olmurdu ki, Tahirin adını çəkib onun əlini sıxmasınlar, göz aydınlığı verməsinlər, çağırmasınlar, müsahibə etməsinlər, fotoaparat qabağında dayandırmasınlar. Buna görə də ana Tahir ilə yaşayırdı. Bəzən o, Tahirin cəbhə işlərindən, yürüşlərindən, vuruşlarından da danışırdı. Bir nəfər soruşsa ki, "ay xala, sən ki oralarda olmamısan, bunları nədən bilirsən?", ana qürurla cavab verərdi:

– Tahirin ayaq basdığı torpaqlar evim-eşiyim kimi mənə tanışdır. Oğlumun işlərini ürəyim duyur, ürəyim deyir.

Doğrudan da ananın ürəyi, xüsusilə son zamanlar bir kitab kimi

mənalarla dolmuşdu. Ana bu kitab ilə dilləşdikcə həzz alır, rahatlanır, iftixar hissi duyur, canında, hərəkətlərində bundan doğan bir möhkəmlik görürdü.

Ana Tahirin qəzetdəki şəklinə bir də o cəhətdən diqqət yetirdi ki, tikdiyi köynəyi görsün. Ancaq Tahirin əynində, deyəsən, yüngül, nazik köynək var idi. Bir axşam ana işdən sonra söhbət üçün qonşu həyətə keçmişdi. Gəlib çağırdılar. Poçtalyon kağız gətirmişdi.

Bu məktubunda Tahir anasına cavab yazırdı:

"Ana, oğlunun qalibiyyətinə, tezliklə görüşəcəyimizə tamam arxayın ola bilərsən. Biz hamımız öz anamızın köynəyini geyinmişik. Bu köynəyin hər tikişində sənin mehriban və bəsləyən əllərin, hər səliqəsində sənin tükənməz qayğıların görünür. Ana, köynəyin, sən dediyin kimi, poladdan möhkəm, günəşdən istidir. Sənə bir muştuluq da verim. Köynəyimin yaxasında, döşündə, anamın əlləri gəzən yerlərdə atamın də əlləri gəzdi. Sovet dövlətinin başçısı üç gün əvvəl döşümə "Qızıl Bayraq" nişanı taxdı. Arxayın ol, daha bu ürəyə düşmən zərbəsi kar eləməz. Biz indi düşmənin səflərini yarmaq üçün hücuma hazırlaşırıq, komandirin əmrini gözləyirik. Sən də arxada möhkəm ol. Vətən oğullarına köynəklər tik. Stalin qayğısı görmüş, vətən köynəyi geymiş bir əsgər üçün nə qış, nə də faşist qorxuludur..."

Ana indi Tahir ilə görüşmüş, onu qucaqlamış, öpmüş kimi idi. Bu gündən sonra onun hərəkətlərində, yerişində, baxışında, danışığında cavanlar kimi çəldlik, igidlik və qətiyyət aşkar idi.

*1940*



# GÜLGƏZ

## I

Gülgəz əlindəki badam çubuğunun puçurlarını təmizləyə-təmizləyə otağa girdi.

Alı baba nəvəsinə acıqlandı:

– Tullasana çölə, çubuğu nə üçün yuxarı başa keçirirsən?

Gülgəz dedi:

– Müəllim istəyib, lazımdır.

– Neynir müəllim? İndi də köhnə zəmanə deyil ki, uşaq döyə.

– Dərs öyrədəcək.

– Çubuqdan nə dərs?

– Peyvənd eləyəcəyik!

Peyvənd adı gələndə Alı babanın baxışı və səsi dəyişdi.

– Onu mənə görüm! Peyvənd?!

O, yumşaq divandan qalxıb irəli, nəvəsinə sarı gəldi. Badam ağacından kəsilmiş çubuğu əlinə alıb diqqət etdi, sonra Gülgəzin üzünə bax-

dı.

– Bu peyvəndə yaramaz, bala! Bir az naziyi gərək ola. Puçurlarını da tökübsən, bunun harası göyərsin?

Alı baba bir az susdu. Sanki dediklərinin cavabını gözləyir, yaxud məsləhətinin bağışladığı təsiri yoxlayırdı. Nədənsə bir də təkrar etdi:

– Yox, bu peyvəndə yaramaz!

Gülgəz babasına nə isə demək istəyirdi. Ala və girdə gözləri ilə bir-iki dəfə altdan-yuxarı baxdı, dinməz-söyləməz çubuğu alıb sumkasının yanına, küncə qoydu ki, səhər məktəbə gedəndə yadından çıxmasın.

Gülgəz niyə dinmədi? Ona görə ki, babasının dediklərinə inanmadı.

Güman etməyin ki, Gülgəz babasına inanmırdı. Yox, Gülgəz Alı babaya inanır, ona hörmət edir, onu bərk sevirdi. Alı baba desə ki, bala, bu axşam oynamağa getmə, soyuq dəyər, Gülgəz yerində oturar. Alı babanın başı ağrıyanda Gülgəz də məyus, kefsiz olar, bir kəsə qoşulmaz, babasının yanını kəsər, həkim çağırar, aptekə qaçar, ona qulluq edər. Hərdən də balaca və sərin əllərini onun ağarmış başına qoyaraq deyər: "Baba, yaxşı olmusan, daha ayağa dura bilərsən."

Bəs Gülgəz Alı babanın sözünə niyə inanmadı? Bəlkə o, peyvənd işini babasından yaxşı bilir? Yox, bu da deyil. Gülgəzin inanmamağında, əslinə baxsan, Alı babanın özü müqəssirdir. Gülgəzin indi on bir yaşı var. Gözünü açan gündən evdə Alı babanı görüb, onun mehriban qucağında böyüyüb, onun nəsihəti, tərbiyəsi ilə, əlindən dadlı meyvələr, bahalı qəribə şirnilər yeyərək, gətirdiyi peşkəşlərdən sevinərək, fərəhlənib böyüyübdür.

Gülgəzin atası "M.F.Axundov" gəmisində çalışırdı. Həftənin çoxunu dənizdə, su üzərində səyahətdə keçirərdi. Evə gələndə də Gülgəz ona az yovuşardı. Alı baba özünü uşağa elə sevdirmişdi ki, nə ata, nə ana yada düşərdi. Uşaq babası ilə oynayar, babası da nəvəsi ilə əylənər, qocalıq günlərində, sanki uşaqlıq həyatını yenidən təkrar edərək, ləzzət alardı.

Gün olmazdı ki, Alı baba onun yanına əliboş gəlsin. İçəri girən kimi, əlini gödəkcəsinin cibinə salardı. Gülgəz zirək bir pişik balası kimi,



onun üstünə dırmaşar, cibindəkini götürmək istərdi. Baba əlini möhkəm saxlar, Gülgəzin zənnini yoxlardı:

– Tap görüm, ovcumda nə var?

Gülgəz üzünə tökülən, gözünü örtən saçlarını kənar etmək üçün başını silkər, gülə-gülə deyərdi:

– Konfet!

– Yox!

– Şokolad!

– Olmadı!

– Noğuldurmu?!

– Tapmadın!

– Fındıq?

– Deyil!

– Bu nədi axı?..

Uşağın intizarına dözməyən kişi bir də görərdin, əlini ehmalca cibindən çıxardı, ovcunda bir sığırçın balası civildədi.

Gülgəz quşu bağrına basanda, sevincindən gözləri parıldar, rəngi pul kimi qızarar, deməyə söz tapmaz, yoldaşlarını çağırar, şirin-şirin gülərdi. Alı baba uşağın başını tumarlar, ömrü boyu heç şeydən duymadığı bir nəşə alardı.

Bəs Gülgəz Alı babanın bugünkü sözünə niyə inanmasın?

Gülgəz məktəbə gedəndən bəri kitaba çox meyil bağlamışdı. Babası ilə oynayanda da kitabı əlindən qoymazdı. Barmağını kitabın vərəqlərinə qoyub soruşardı:

– Baba, bu nə hərfidir?

Alı baba məyus cavab verərdi:

– Bilmirəm, qızım!

– Baba, bu sözü oxu da!

Baba başa salardı:

– Qızım, mən savadsızam, dərsdən başım çıxmaz. Belə şeyləri sən məndən yaxşı bilirsən.

– Niyə savadsızsan, ay baba?

– Çünki bizi oxutmayıblar. Köhnə zamanın üzü qara olsun. Yaxşı-

ca kor qoydu babanı...

Babasının bu sözlərini eşidəndə Gülgəz də qüssələnərdi. Uşaq babasının gücsüzlüyünü ilk dəfə görər, ilk dəfə duyardı. Dərs soruşduğuna, babasını qüssələndirdiyinə peşman olardı və ondan bir daha heç nə soruşmazdı. Dərsi çətinə düşəndə qonşusunu, pioner Qurbanı çağırardı.

O idi ki, babası badam çubuğundan, peyvənddən danışanda Gülgəz inanmadı. İstədi babasına cavab qaytarsın, desin, "Sən oxumamısan, nə bilirsən?" Lakin hörmətini saxladı. Heç nə demədi. Ürəyində qət etdi ki, qoy nə deyir-desin, sabah mən çubuğu müəllimə verərəm, özü baxar, görüm nə deyər.

Gülgəz elə də etdi. Sabah portfel qoltuğunda, badam çubuğu əlində birbaş müəllimlər otağına, Məhiş müəllimin yanına getdi.

– Müəllim, çubuq gətirmişəm ki, peyvənd eləyək! – dedi.

Məhiş müəllim çubuğu diqqətlə nəzərdən keçirdi, gülümsündü:

– Bunu kim kəsib?

– Özüm.

– Tumurcuqlarını kim yolub?

– Mən.

– Çox səliqə ilə təmizləmisən, amma nahaq iş görmüşsən. Qızım, bil, tumurcuqsuz qabıqdan edilən peyvənd tutmaz! Bəs o haradan göyərsin? Kəsib calasaq, bu qabıq təzədən tumurcuq gətirməz. Gərək heç olmasa, bir-iki tumurcuq qalaydı. Özü də bu canlıdır, hələ ağacı bərkiməmiş budaqlar olur, tutub belə əyirsən ha, onlardan kəsmək lazımdır.

Gülgəz gördü ki, müəllim də Alı baba deyənləri deyir. Soruşdu:

– Müəllim, babam sizinlə danışmayıb ki?

– Yox, nə barədə?

– Elə bu barədə babam nə deyib?

Müəllim bir şey duymadı:

– Yox, – dedi, – mənə bir şey deyən olmayıb. Necə bəyəm?

Gülgəz: "heç" – deyib otaqdan çıxdı, badam çubuğunu qırıb, küçəyə atdı.



## II

Gülgəz düşünürdü ki, babam, bilməsə də, yəqin məktəbə getmişdir. Ona haradasa dərs veriblər.

Dərs verməsəydilər, müəllim bilənləri necə bilərdi? Anasından soruşdu:

– Babama kim dərs verib?

– Heç kəs, baban harada oxudu ki?

– Oxumayıb bəs haradan bilir?

– Nəyi bilir, ay qız, gücnən əlif-bey bilir.

– Əlif-bey yox ey, botanika!

Anası uşağın qolundan tutub, babasının yanına apardı.

– Özün cavab ver buna, gör nə soruşur?

– Baba, bəs sən deyirdin ki, savadım yoxdur.

– Yoxdu da, qızım, bəs savadım var, adımı niyə çətin yaza bilirəm?

– Yoxdu, bəs botanikanı nə bilirsən?

Alı baba duruxdu:

– Nə, botinika?

– Botinika yox ey, botanika.

– Botanika nədi?

– Peyvəndi nə bilirsən bəs?

Alı babanı gülmək tutdu. Uşağın başını tumarladı, başa saldı:

– Peyvəndin savada nə dəxli, qızım? Peyvənd mənim sənətimdir. Saçımı, saqqalımı bağ-bağça işində ağartmışam, onu da yaxşı bilməyim? Onu da mənə çox görürsən? Bu, bizim ata-baba peşəmizdir. Gözümüzü açandan bağ-bağçada böyüməmişikmi? Düzdü, kağızdan, kitabdan başım çıxmır, ancaq görürsən o uzun ağacı?

Alı baba Gülgəzi pəncərənin qabağına çağırdı, şəhadət barmağını bağçaya tərəf uzatdı:

– Görürsən o uzun ağacı? Qələmədir. Həyətdə ondan ucası yoxdur. Dörd verstlikdən görünür. Ucalığına baxma, ancaq boy-buxunu var. Uzandıqca uzanır. Çiçəyi yox, meyvəsi yox, yarpağı acı, mal yeməz, çubuğu pis, dirəyi davamsız. Di gəl onun forsuna bax! Boynunu həmişə dik tutar. Başqa ağaclara gün vermək istəməz. Amma yanındakı xırda ağacı

görürsən, badam ağacıdır. Qıraqdan kola oxşayır. Altıca yaşı var. Yaz açılandan payız qovuşana qədər həmişə bar verir. Çağalasını yemisən, yetişəndə özü qabıqdan çıxır, ağacı silkən kimi badam tökülür. Qabığı da karsız deyil. Yaxşı qov hazırlamaq olur. İçindəki badam başdan-ayağa yağdır. Sındırıb iç eləyirsən, qabığını da peçdə yandırırsan, daş kömür kimi közü düşür. Badam yarpağı qoyun-quzu üçün yağ-piydir. Ətirli çiçəyindən arılar bal əmir, çubuğu zoğaldan möhkəm olur, gövdəsi yapışqan verir ki, idarələrə lazım olur. Kölgəsi də sıx, bulaq başı kimi sərin!..

## III

Müəllim bar verən ağaclardan danışanda Gülgəz yerində narahat idi. O, müəllimin sözünü kəsmək, babasından öyrəndiklərini demək istəyirdi. Gülgəz bununla özünü göstərmək, biliyi ilə lovğalanmaq istəmirdi. O, xəyalında qoymuşdu ki: "Babam deyənləri danışaram, görüm müəllim təsdiqləyəcək, ya yox..."

Ancaq müəllim həvəslə danışır, uşaqların hamısı diqqətlə qulaq asırdı. Gülgəz danışa bilməyəcəkdi. Danışsa da onu dinləyən kim idi? Ürəyində çox götür-qoy elədi. Sağa baxdı, sola baxdı, danışmağa imkan tapmadı. Müəllim, sözünü gətirib badam ağacına yetirəndə Gülgəz özünü saxlaya bilmədi. Yerindən qalxdı, heyrət göstərən bir ahənglə soruşdu:

– Müəllim bunların hamısı kitabda yazılıb?

Gülgəzin bu gözlənilməz və qəribə sualını eşidən bütün uşaqlar ona tərəf döndülər. Uşaqlar ona, o, müəllimə, müəllim də ona baxırdı. Lakin müəllim sözünü dayandırmadı. Danışa-danışa, yavaş-yavaş Gülgəzin skamyasına yanaşdı. Hamının gözü müəllimdə idi. Gülgəzə nə deyəcəyini gözləyirdilər.

Müəllim dedi:

– Bəli, Gülgəz, bunların hamısı kitabda yazılıbdır. Ancaq adam dərs arasında sual verməz. Qoy mən qurtarım, sonra barmaq qaldırarsan, istədiyin sualı verərsən. Elə deyilmi?

– Bəli, elədir.



Gülgəz bir az utandısa da, müəllimin sözlərini sakitcə dinlədi. Ürəyində suallarını düzəltdi, dərsin axırını gözlədi.

Müəllim danışandan sonra kitabları açdırdı, şəkilləri göstərdi. Bir şəkil böyüdüb divara vurmağı sinifkoma tapşırdı. Sonra əllərinin təbaşirini çırpıb dayandı. Üzünü uşaqlara tutub dedi:

– İndi kimin sualı var?

Gülgəz söz alıb ayağa qalxdı:

– Müəllim, deyirsiniz kitabdadır. Bunların hamısını babam danışır.

Müəllim maraqlandı:

– Danışanda nə olar! Daha yaxşı yadında qalar.

– Yox, müəllim, babam kitab oxuya bilmir, bəs siz deyənləri haradan bilir?

– Baban kimdir?

– Alı baba.

– Alı baba nəyi bilir?

– Ağacları, gülləri. Peyvənd də eləyə bilir.

Gülgəzin sualı müəllimin xoşuna gəldi:

– Qızım, baban oxumaq bilməsə də, təcrübəlidir. Alı babanın neçə yaşı var?

– Nə bilim, müəllim, altmışdan çox.

– Altmış yaşında kişi dünyagörmüş adamdır. Bağ işində, görünür, təcrübəsi çoxdur.

Gülgəz bir də soruşdu:

– Dərs verməsələr nə biləcək?

– Qulaq as, bala, dərs göydən düşmür. Kitabı, dərsi yazan da bilikli, təcrübəli adamlardır. Bağbanların çoxu savadsız idi. Əkinçilərdən eləsi var məktəb görməyib, yazı bilmir, amma əkin işini aqronom kimi bilir. Nə üçün? Təcrübə sayəsində, öz zəhməti sayəsində, işə diqqətlə göz qoyması sayəsində. – Müəllim üzünü uşaqlara tutub dedi: – Biz zəhmətlə biliyi, elmi ayırmırıq. Çünki, biz zəhmətlə dəyişən, insan əməyilə düzələn dünyanı öyrənirik. Uşaqlar, bəzi qocalar savadsız olsalar da, uzun ömür sürüblər, təcrübə eləyiblər. Mən bir arı saxlayan tanıyıram ki, kitab yazanlar ondan öyrənirlər. Aqronomlar uzaq şəhərlərdən onun

yanına gəlirlər. Amma kişinin özü oxumaq bilmir. Otuz il arılara qulluq eləyibdir. Onların xörəyini, səsini, yaşayışını, şan bağlamalarını ovucunun içi kimi bilir, uzaqdan arıların uçuşuna baxan kimi deyir: "Bunların anası naxoşdur". Nədən bilir? Təcrübədən, bir işin dalında sümük sındırmaqdan! Gülgəzin babası da elə, bağ işində çalışmaqdan botanikanı təcrübə yolu ilə bilir. Elə deyilmi?

Gülgəz razılıqla başını tərpətdi:

– Bəli, müəllim.

Bu dərsdən sonra Alı baba Gülgəzin gözündə daha da böyüdü: indiyə kimi uşaq, Alı babanı ancaq bir baba kimi tanıyırdı. Baba səhər zənbili götürüb bazara getməlidir, günaşırı həyət bağçasında, ləklərin arasında qurdalanmalıdır. Yer belləməli, tənək kəsməli, ağac gövdələrinə dərman vurmalıdır, axşam ya şəhərə çıxıb, nəvəsinə çərəzdən-zaddan almalı, ya eyvanda oturub, evə gələn qonaqları qarşılamalı, çubuq çəkməli, söhbət etməlidir, bayramda hədiyyə gətirməli, qış gecələrində nağıl danışmalıdır. Alı baba budur, bunun üçün yaranmışdır.

İndi Gülgəz babasını ayrı cür tanıyırdı.

Bu alçaqboy, ağsaqqal, qarapaltar kişiyə baxanda Gülgəzin yadına müəllim, məktəb, botanika dərsi düşürdü. Gülgəz onun zahirində dərsdən heç bir əlamət görmürdü. Ancaq onun ağacları göstərən şəhadət barmağı, bel, qayçı, mişar tutan bərk əlləri, gəlin kimi bəzənmiş həyət bağçası, babanı müəllimə, kitaba yanaşdırırdı.

Alı baba əlində bel arxın qırağında dayananda Gülgəzin gözünə qədim, qalın və qiymətli bir kitab kimi görünürdü. Bu kitabda öyrənməli, götürməli çox şeylər var. Bunları seçib çıxarmaq, yeni əlifbada – yeni və təmiz xətlə dümağ, düz cızıqlı dəftərlərə yazmaq lazımdır.

Bu məqsədlə Gülgəz babasının yanında oturanda, həmişə torpaqdan, ağacdan, bitkilərdən söhbət salardı. Alı baba isə böyük həvəslə danışardı.

*1940*



# MƏŞRİQ

Yay axşamıdır. Ucaboy, uzunpaltar bir kişi zəmilərin içi ilə, başıaşağı, daş-kəsəyi, kol-kosu basa-basa yeyin yeriyir. Keyimiş qıçlarını əsa kimi qabağa atır, ayaqladığı daş-torpağı hiss etmir. Düz yolu qoyub dağa-daşa düşməyindən, qaraltı görcək yayınıb kənar getməyindən adam şübhələnir.

Bu, saçı-saqqalı qar kimi ağarmış, sifətinə yuxu kimi qaranlıq çökmüş yüz yaşlı bir qoca idi. Elə quru, arıq bir adamdı ki, yeriməsə, canlılığına inanmazsan, deyərsən kölgədir, ya xəyaldır.

Bu paltarlı skeletin iti çiyin sümükləri ağ əbanı asqı kimi saxlayır. Külrəngli üz dərisi sümüyə yapışmış, göz çuxurlarını qaşlar örtmüşdür. Əyilib baxmayınca çuxurlarda işıldayan və sönməkdə olan həyat qığılcımını görməzsən...

Bu qoca kimdir, haradan gəlir, haraya gedir, nə üçün təlaş içindədir?

I

"...Mən sizin naşı işinizdən danışıram. Neçə ildir dəzgah başındasınız, yenə əyri xal, yenə düyün, yenə kis! Bilin ki, mənim üçün adam qəhətliyi deyil. Qapımda dilini bir qarış çıxardıb yalvaranlar var. Daha heç birinizə yazığım gəlməyəcək!.."

Ərbab ağzına gələni öz toxucularına dedi, onları işdən qovmaqla hədələdi. Fəhlələr karxana həyətindən çıxanda ərbab Ləbbeyki saxladı. Onu kontora çağırdı, qapını örtdü, yanında əyləşdirib dedi:

– Sənə bir iş verəcəyəm, amma qorxuram.

– Ağa, nəyimdən qorxursunuz?

– Qorxuram ki, mayanı batırasan!

– Ağa, bu nə sözdü...

Ərbab əlini Ləbbeykin çiyninə qoyub, səsini alçaltdı:

– Vacib mətləb var. Səni ləyaqətli bilib çağırtdırmışam. Görüm etibarını. Əvvəla, budur ki, səninlə xüsusilikdə olan söhbətimizi heç kəs bilməyəcək, bir sən, bir mən, bir də o, – Ərbab "o" deyə şəhadət barmağını göyə qaldırdı, Allaha işarə elədi. – İkinci budur ki, sənin işin gərək xəlvət gedə, heç kim bilməyə...

Ləbbeyk çox maraqlandı, başını qaldırıb öz ağasına – arıq və uzunsifət tacirə baxdı, bir şey demədi.

Sahibkar Ləbbeyki iki kəlmə ilə ələ aldığını bilib sevinmiş və məharətindən razı qalmışdı. Əmələsinin ürəyinə şübhə və vahimə gəlməsin deyə son sözünü bir qədər şərh elədi.

– Xəlvət deyəndə, burada dinə-şəriətə, ya dövlətə aidiyyəti olan günah bir fəqərə yoxdur. Ticarət oyunudur, özünə gərək yaxşı məlum ola ki, mən səliqə sevən adamam. Ürəyim tutan sevda ziyan da gətirsə dönmərəm, bir şey ki beynimə düşdü, gərək eləyəm.

Ləbbeyk ağasını dinləyir, ancaq sözün uzanmağına darıxırdı. Gözləyirdi ki, görsün ona nə iş tapşıracaqlar. Bir xeyir gələcəkmi?

Sahibkar əmələsinin müntəzir baxışlarında bu sualları oxudu və ayağa qalxıb stolunun gözündən bir qırmızı kitab çıxartdı. İlk varağını çevirdi, başıaçıq, yay kostyumu geyinmiş, gülərüz bir kişinin qurşaqdan yuxarı şəklini göstərdi və dedi:



– Bu şəkli toxuyacaqsan?

O bu cümləni elə ciddi, qəti və mənalı dedi ki, Ləbbeyk cavab tapmadı, kitabı əlinə alıb, diqqətlə baxdı və:

– Ağa, bu kimdir? – deyə soruşdu.

Sahibkar Ləbbeykin sualını eşitmirdi. Əl-qolunu ölçüb, barmaqlarını oynadaraq, gah əyilib, gah düzəlib tapşırıqlarını verirdi.

– Rəngi sənin öhdənə, nə vurursan vur, ancaq qəşəng elə! Elə elə ki, zərif, isbatlı bir şey olsun. Səndən xalça istəyirəm: kağız kimi şax, ipək kimi yumşaq! Lülələyəndə ağac kimi dümdüz dursun, açanda ayna kimi işıq salsın, xalları naxış kimi aydın, dürüst, qəşəng!

Sahibkar sözünü bitirdi, sanki dediklərinin təsirini görmək üçün əmələsinin üzünə baxdı. Ləbbeyk şəklə yaxından, uzaqdan, kənardan nəzər saldı, bir də soruşdu:

– Ağa, bu kimdir?

– Urusdur!

– Nə əcəb, ağa, urusu toxutdurursan? Yoxsa böyük urusdur?

Sahibkar sinəsini irəli verdi, boynunu şax tutub məğrur və inandırıcı bir əda ilə dedi:

– Bəli, çox böyük urusdur. Külli xaki-Urusiyətin pişvası, – Ərbab səsini dəyişib soruşdu: – De görüm, belə avropalılara layiq iş görə biləcəksən ya yox?

– Niyə, ağa, toxuyarıq baxarsınız!..

– Baxmağına baxacağam, elə olmasın ki, baxım məyus olum.

– Nə ki bacarığımız var, əsirgəmərik. Eni, uzunu nə sayaq olacaq?

– Cargül, adamboyu!

Ləbbeyk üçün şəkil toxumaq asan bir işdir. Beş ildən çoxdur, dəzgah başında çalışır, neçə-neçə şəkillər toxumuş, əlindən neçə-neçə gözəl naxışlı xalılar çıxmışdır. Onun işlərini göydə götürürlər. Ancaq ağasının indiki təcili işi Ləbbeykə birtəhər gəldi. O, şəklini toxuyacağı adamı tanımaq istəyirdi. Doğrudur, bunun günəmuzd əmələyə dəxli yoxdur. Onun borcu ağasının sözünə qulaq asmaqdır. Lakin Ləbbeyk hər işdə aydınlıq sevən oğlandır. O, Yusif-Züleyxa, Leyli-Məcnun, Rüstəm-Söhrab, Fərhad-Şirin şəkillərini, hacıların ziyarət mərasimini, mələklərin ibadətini, peyğəmbərin meracını toxumuşdur. Bunlar hamısı ona məlum

şeylərdir. O, indi istəyirdi ki, qırmızı kitabdakı şəkli tanısın.

Ləbbeyk fikirdə ikən ağası dilləndi:

– Açılan ayın əvvəllərində şəhərimizdə yarmarka başlanır, Urusiyətin handa bir alıcı tacirləri gələcək, bu malı bir ətək qızıla satacağam. Sənin də peşkəşin olacaq!

Ləbbeyk kitabı açır, dönə-dönə şəklə baxırdı. Başıaçıq, sakit duruşlu, bahar geyimli rus, sanki ,onun üzünə gülürdü. Ləbbeyk şəklin hər cizgisinə, hər nöqtəsinə diqqət yetirir, xəyalında rəngləri quraşdırırdı. "Bu firəngi paltardır, tünd boya tutmaz, kostyum ilə köynəyin rəngi ayrı olsun gərək, ən çətini bu sadə çöhrə və mənalı baxışdır. Bu baxışı eynilə saxlamağı bacarsam, soluxmağa qoymasam, işim işdir, hünərim hünər".

– Ağa, altından adı-zadı olmayacaq ki?

– Bə nə! Odur, kitabda necə var, elə!

– Ağa, mən urusca nə başa düşürəm!

– Məddi-mənası nəyinə gərək. Hərfləri bir-bir cərgə ilə toxu getsin!

Ləbbeyk kitabı qoltuğuna qoydu, istədi soruşsun:

"Ağa, xəlvət niyə?" Münasib görmədi, daha vacib şey xatırladı:

– Ağa, onda səhər işi gətirəcəklərmi?

– Karxanaya heç bir şey gəlməyəcək. Bayaq dedim, xəlvətdir, evində toxuyacaqsan. Mahmuda de, dəzgahı qursun, nə lazımdırsa versin. Şəkli heç kəsə göstərmə!

## II

Ləbbeyk evin işıq səmtində, arşın yarım endə bir dəzgah qurmuşdu. On beş gün idi ki, gecəli-gündüzlü çalışır, boyaqdan yenicə çıxmış əlvan ipləri yan-yörəsinə tökür, urusun şəklini qabağına qoyur, həvəni qayışına taxır, yumaqları top kimi oynada-oynada həvəslə işləyirdi. Bəzən nahara da durmurdu. Qoca atası Məşriq kişi, onun çörəyini də, suyunu da dəzgah başında verirdi.

Sahibkar hər iki-üç gündə Ləbbeykin işinə tamaşa edir, kürəyinə



əl vurur, sevinə-sevinə gedirdi. Çox çəkmədi, Ləbbeyk xalçanı başa vurdu.

Bir axşam Ləbbeykgilin qapısını döydülər. Məşriq kişi sahibkarı görəndə baş əydi və:

– Döymək nə üçün, buyurun! – dedi.

Doğrudur, ağa nökər qapısı döyməz, lakin ərbab bu dəfə ona görə döyürdü ki, özü ilə müştərilər gəlmişdi. Bir də yanındakılar adi müştəri deyil, əcnəbi vilayətin adamları idilər. Ərbab onların yanında nəzakətli tərpənirdi.

Müştərilər Ləbbeykin hünərinə heyran qaldılar. Onların biri ucaboy, qarayanız, ortayaşlı firəngilibas bir kişi idi. İkincisi lap cavan, ağbəniz, nazik oğlandı. Hər ikisi Ləbbeykin əlini sıxdı, qabiliyyətinə afərin dedi. Firəngilibas kişi farsca bilirdi.

Gülə-gülə Ləbbeykə dedi:

– Bilirsən kimin şəklini toxuyursan?

– Bəli, urusdur.

– Urusluğunu bilmək azdır, onu tanımaq lazımdır.

– Tanımıram, xeyr!

– Bil: o, Lenindir, Lenin! Sənin bu xalçana Moskvada milyonlar baxacaq. Bizim həssas, qədirbilən bir xalqımız var. Səni şəxsən tanımasa da, sənətinə mərhəba deyəcək, alqışlayacaqdır. Sən bizim rəhbərin şəklini yaratmısan. Sağ ol, çox zəhmət çəkmisən!

Sahibkar, Ləbbeykin müştəriləri maraqla dinlədiyini hiss etmişdi. Xəlvəti gözünü ağartdı, çağırıb kimin dalısıncasa göndərdi, başdan elədi. Müştərilər xalçaya bir də baxdılar, ölçdülər, rusca nə isə danışdılar, sonra ərbabla sövdələşib, beh verdilər ki, bu bizim malımızdır, xahiş edirik, tez əldən çıxardasınız.

Ağası Ləbbeyki karxanaya göndərdi ki, görsün gələsi müştərilər oradadır, ya yox. Ləbbeyk isə bu bəhanəni hiss etmişdi. Bilirdi ki, ağası onu əkmək, firəngilərdən aralamaq istəyir. Xalçanın baha qiymətə getdiyini görməsin deyə, qulluğa göndərdi. Bir də düşündü ki, belə deyil, sahibkar sövdəsini məndən gizlətsəydi, heç müştəriləri dəzgahıma gətirməzdi. Yox, ağa sövdədən qorxmur, o, kişilərin şəkil barəsində söhbətindən cinləndi, urusun adını mənə deyəndə, ərbabın kefi pozuldu.

Mənə göz ağartdı, araya söz qatdı. Hə, əlbət ki, hərif qorxur.

Ləbbeyk bu fikirlərlə karxanaya getdi. Orada, söz yox, sahibkarı axtaran heç bir müştəri-filan görmədi. Tələsə-tələsə evə üz qoydu, firəngiləri görməyə, uzun və mehriban kişi ilə, fars dilini danışan o qonaqla bir də söhbətə can atırdı. Ondan eşitdiyi sözləri xəyalında təkrarlayır və deyirdi. "Lenin! Şəkli məndə olan kişi, sən demə, kasıbların rəhbəriymiş, ona görə xalçanı göydə götürdülər. Ona görə ərbab belə dəsgah başlamışdır."

Ləbbeyk öz əlindən çıxan bir işin belə qarşılanmasına, kasıblar atasının şəklini toxumasına sevinirdi. Lakin bu sevinc ani bir ildırım işığı kimi onun tutqun, yoxsulluq və nökərlik qayğıları içərisində sönüb gedirdi. "Nə fayda, çox da iş mənimdir, pul gücünə alıb aparacaqlar, mənə yenə bu qabarlı əl qalacaq."

Ləbbeyk qayıdanda müştərilər çıxıb getmişdilər. Xalçanın satıldığını atasından öyrəndi. Həm ağasının sövdəindən xəbər bilmək, həm də karxanada adam görmədiyini demək üçün kontora getdi. Ağası razılıq etdi:

– Dağını görməyim, ay Ləbbeyk! Xalçanı bəyəndilər. Ancaq gərək sabah axşama kəsək, dəzgahdan çıxaraq, çünki onlar yola düşəcəklər.

Ləbbeyk sabah günortaya işi qurtaracağına söz verdi və qayıtdı. Qayıdan kimi dəzgaha oturub, son haşiyəni bitirməyə çalışdı. Sabaha yalnız saçaqlar, bir də kəsmə işi qaldı.

İndi xalça onun öz əl işi kimi yox, haradansa gətirilmiş hazır və gözəl bir şəkil kimi görünürdü. Sanki o mərhəmətli kişi, həvəslə çalışan toxucuya baxır, mənalı sükutu ilə ona sözlər deyirdi. Ləbbeyk bir ilmə vurur, bir də başını qaldırıb şəklə baxır, özünü saxlaya bilmirdi. Üzünü şəklə tutub dedi:

– Əziz qonağım, az qalıb, sabah ayrılırıq. Səni mən böyük bir həvəslə, tükənməz bir əməklə toxuyub hazırladım. Mənim evimdə də başım üstə yerin olardı. Əlac nədir, sahibkar səni məndən alacaq... – Ləbbeykin səsindən bir ah qopdu, dönüb qapıya tərəf baxdı. Yenə davam etdi: – Deyirlər kasıbların böyüyü sənsən. Kasıbların da xoşbəxti varmış. Yəqin Urusiyətdən uzaqlarda, Girman şəhərində gözü ilə od üfürən bir toxucudan, onun ac-yalavac həyatından sən xəbərsizsən. Bəlkə sənin dostların bu xalçanı sənin hüzuruna gətirdilər. Görürəm, həmvətənlərin səni çox əzizləyirlər. Bu xalça sənə çatanda yəqin məndən xəbər tutacaq və soruşacaqsan. Onu da deyim ki, kiçik qardaşım Salam çoxdan o tayda, sizin torpaqdadır. Onun sağ əli mənim başıma. And olsun bu qeybi tanışlığımıza və söhbətimizə, mən səni unutmayacağam. Səni yaxşı tanımağa çalışacağam. Arayıb axtaracağam. Gördüm ki, adına nə hörmətlər var. Sənin həmvətənlərindən çox razıyam, dünyada adamın sənin kimi böyüyü, onlar kimi də həmvətəni olaydı!

Səhərisi gün ərbab xalçanı götürüb, müştərilərə aparanda Ləbbeyki anlaşılmaz bir kədər basdı. İndi daha artıq hiss etdi ki, Leninlə möhkəm ünsiyyət bağlamışdır, o, şəkildən ayrılmağa çətinlik çəkirdi. Birdən yadına düşdü ki: " Kitab məndədir, kitabı birtəhər edim, ərbab almasın, bəlkə də yadından çıxıb..."

Ərbab xalçanı aparıb getdi. Ləbbeyk qayıdıb, kitabı vərəqlədi. Uzun zəhmətdən sonra ələ keçirtdiyi bir dost şəkli kimi baxdıqca baxdı, yazılara diqqət yetirdi. Əvvəldən-axıra qədər sanki bu yazılar arasında nə isə axtarırdı. Leninin sözlərini, ya Leninin barəsində deyilənləri axtarırdı. Lakin nizamla yan-yana düzülən və bir-birinə oxşayan hərflər Ləbbeyklə danışmırdı. O, kitabı qatlayıb əlinə aldı, öz-özünə dedi: "Görəsən burada nə yazılıb?"

Bu suala cavab tapa bilmədi, ürəyində rusca oxuya bilən bir yoldaş arzuladı:

– Deyəsən, bu kitab Leninnamədir. Leninnamə olmasaydı, şəklini başda vurmazdılar. Bu sözlər yəqin o kişinin olacaq. Bu sözlər, öyrənməli şeylərdir. Ax, oxuya biləydim! – Ləbbeyk yenə üzünü şəklə tutdu: "Yazılar mənimlə danışmır. Ey Lenin! Ey böyük adam, dillənsənə? Aləmə dediklərindən mənə də, bu kasıb toxucuya da danış. Axı mən də iş əhliyəm. Mənim də dərdim var..."

Ərbabın kontorçusu qapıda göründü. Ləbbeyk kitabı gizlədə-gizlədə:

– Buyurun, buyurun! – deyə onu içəri dəvət elədi. Kontorçu içəri gəlmədi, tələsik dedi:

– Ərbab deyir ondakı əmanəti gətirsin!

Bu tələbdən Ləbbeykin ürəyi qopdu. Bildi ki, kitabı alacaqlar.

– Get, – dedi, – özüm gəlirəm.

Ləbbeyk ürəyində qoymuşdu ki, iki-üç gün möhlət alaram, deyərəm kitab məndə qalsın. Sonra bunu məsləhət görmədi: "Deyər niyə qalsın? Sən iki gündə yeni bir xalça toxuyacaqsan? Kitabı oxuyası da deyilsən. Saxlamaqda nə hiylən var? Yoxsa bir adama göstərəcəksən?"

Belə bir bəhanənin qorxusu da var idi. Ərbab adamın yaxasından yapışa bilər ki, "Leninin kitabını niyə saxlayırsan? Görünür, sənin bunu oxuyan adamın var."

Üzrünün möhkəm olmadığını dərk edəndə Ləbbeyk çaşbaş qaldı, bilmədi neyləsin. Sonra özünə cəsarət verdi. "Açıqca deyərəm, itib. Xalçanı kəsəndə həyətdə qoymuşdum, bilmirəm kim götürüb... Bərkə qalar, pulunu çıxsın..."

Bu rəy xoşuna gəldi. Kitabı taxt altında gizlətdi, kontora getdi.

Sahibkarın yanında adam vardı. Haqq-hesab çəkib kisə-kisə pul sayırdılar.

Sahibkar gözünün ucu ilə Ləbbeykə baxıb dedi:

– Ver kontorçuya!

Ləbbeyk duruxdu:

– Nəyi?

– Əmanəti gətirməmişsən?

– Ağa, itirmişəm.

– Necə itirmişəm, ədə?

– Ağa, vallah, itib... Dünən həyətdən...

Sahibkar işarə elədi:

– İçəri gəl görüm, ədə! Necə yəni itirmişəm, bilirsən onun qiyməti on iki tümənden yuxarıdır?

Ləbbeyk dinmədi. Ərbab bir az da bərkdən qışqırdı:

– İstəyirsən, əl muzdunu da əmanətin cəriməsinə çıxım?

– Ağa, kim istər cərimə versin? İşdir, olanda olur da. Axtararam, qonum-qonşudan soraqlaşaram. Bəlkə tapılacaq. Amma indilikdə deyirəm itib.

– Ədə, bilirsənmi ki, on iki tümən qiyməti var onun?

– Ağa, lap əlli iki tümən də olsa, əlacım nədir, itəndən sonra...

Sahibkar Ləbbeykin sözünə inanırdı. Bilirdi ki, o, avam fəhlədir, ailəsi də arxayın ailədir. Yüzyaşlı bir qoca atadan başqa kimsəsi yoxdur. Ancaq həmişə ac və ehtiyacda yaşayan əmələnin on iki tümən cərimәyə ağrımaması ərbabı şübhəyə salırdı. Halbuki, ərbab belə izah edirdi: "Yəqin Ləbbeyk ayrı xəyaldadır. Bu xalçadan xüsusi peşkəş umur. Odur ki, cəriməni vecinə almır." Sonra istədi ona xatırlatsın: "Oğul, peşkəşə-zada müştəbih olma. Kitabın pulu sənin xalis günəmuzdundan çıxılacaq, kefinə bax."

Sahibkar bu sözləri deyə bilmədi, çünki Ləbbeyk getmişdi.

Ləbbeyk canını dişinə tutub, cəriməni boynuna götürəndən sonra kitabla daha artıq maraqlandı, qoltuğuna vurub, cümə günü düz şəhərə gəldi.

## III

Axşam çıraqlar yananda Məşriq kişinin evinə bir məmur gəldi. Ləbbeyki çağırıb dedi:

– Mənimlə divanxanaya gedəcəyik!

– Xeyir ola?

– Orada deyərlər.

Ləbbeyk məmurun qabağına düşüb getdi və o gedən getdi. Bir neçə ay həbsxanalarda yatdı. Məmurlar qabağında saatlarla dayanıb cavab verməli, polislər qabağında şəhərdən-şəhərə getməli oldu. Axırda hər şeyə göz yumub, canını dişinə tutur, zülmət bir gecədə qarovul gözündən yayındı. Nə arxasınca atılan güllələr, nə qaçışan ayaq səsləri onu tapdı. Ləbbeyk qardaşı Salamın izincə aradan çıxdı.

Məşriq kişi divanxana qapılarında get-gələ düşdü, bəziləri oğlunun tez buraxılacağını dedi, bəziləri hələ işinə baxılmadığını, kimisi də sürgün olunduğunu xəbər verib, atanın bağrını yardı. İki aydı dustağın yeri-yurdu məlum deyildi. Yazıq kişi ac-susuz, ayaqyalın, başıaçıq, gözüyaşlı, ağzıdualı qapı-qapı gəzib, divan adamlarına yalvarırdı. Ləbbeykin ağası kişinin əlindən zara gəlib qovmuşdu:

– Açıl başımdan, oğlun xain çıxıb, cəzasını çəkəcək, heç atılıb düşmə!

Məşriq kişi əsasına söykənir, altdan-yuxarı ağanın – o qansız və insafsız adamın sərt üzünə baxıb, özünə cürət verirdi:

– Oğlum nə xəyanət eləyib axı?

Sahibkar məmur kimi danışırdı:

– Leninpərəst imiş. Onun dalınca gedirmiş.

– Gedəndə nə olar? On il sənin dalınca gedib, ağ günə çıxıb?

Sahibkar qocanı qorxudurdu:

– A kişi, başın gora titrəyir, çıx get, qanını boynumıza salarsan!

– Elədiyin qanların hansını vermişsən, ay cəllad!

Məşriq kişi həyatini girov qoyub pul tapdı, ərizə yazan mirzələrdən birini şəhər polisinə vasitəçi saldı. Nəticə də vermədi. Dedilər müqəssirdi, gərək cəzasını çəkə.

Hər yerdən əli üzüləndən sonra böyük və köhnə şəhərin dar və isti küçələrində mat, məyus, yorğun və taqətsiz qaldı. Güc-bəla ilə özünü böyük məscidin həyatinə saldı. Dəstəmaz alıb, iki rükət namaz qıldı. Əlindən getmiş iki balasını göylərdən istədi. Qüssəli və yanıqlı ürəyini açıb, Allaha şikayət elədi. Hönkür-hönkür ağladı. Başını möhürə qoyub səcdəyə getdi.

Fikrində Ləbbeyk, ürəyində dərd, dilində dua, gözlərində yaş olan qoca elə xəyala qapılmışdı ki, kənardan baxan onun vurulduğunu, həyatını itirdiyini yəqin edərdi. O, daş kimi hissizdi. Uzun iztirab, uzaq yol, üzücü xahişlər, üzüboz məmurlar, üzülməz göz yaşları kişinin taqətini almışdı. Başı səcdəyə enəndə ağır bir yuxu onu götürüb, kim bilir, hansı aləmlərə aparmışdı. Şirin və dadlı röyalar onu payız yarpağı kimi yerdən-yerə atırdı. Lakin onu oğlundan, itirdiyi ümidindən ayıra bilmirdi.

Gecənin oğlan vaxtında bütün aləm sükuta bürünüb yatanda Məşriq kişi məscidin mehrabına tərəf yüyürür və qışqırırdı:

– Oğlumu, gözümün işığını səndən istəyirəm. Yarəbbim! Evindən çıxmayacağam, oğlumu ver!

Kişinin səsinə adamlar ayağa qalxdılar, minbərdə əyləşən bir əmmaməlinin işarəsi ilə xidmətçilər Məşriqi hop götürüb küçəyə atdılar. Bu, küçə deyil, daş hasardı. Hasarın pəncərəsindən Ləbbeyk baxır, əlindəki kitabı bayraq kimi qaldırıb atasını çağırırdı.



– Məşriq, oğlum Ləbbeyk! – deyə pəncərəyə yüyürür, Ləbbeyk hay verirdi:

– Ata, ata, düşmənlərə yalvarma! Ay ata, qardaşıma bildir. Məni Lenindən istə!

Qoca Məşriq qollarını qaldırıb, yumruqlarını göydə sıxır, sanki damarlarını silkələyib, gənclik günlərini xatırlayır, ürəyindən qüvvət istəyirdi. Oğluna qovuşmağa can atırdı. Kimsə onun uzun ətəyindən çəkir, əbasını siyirib, yerə salır, başmaqlarını çıxarırdı. Kişi quş kimi qıvraq olur, qalxmaq istəyəndə məscid xadimi ayağından yapışır, bərk-bərk qılçasına sarmaşır, buraxmırdı. Məşriq hirsindən dodağını dişləyib, təpiyini elə silkdi ki, xadim yerə düşdü:

– Əl çək, alçaq!..

Məşriq qan-tər içində yuxudan qalxanda məscid mücavirlərini başı üstündə gördü. Mücavir qoca müsafiri namaza oyadırdı. Möminlər dəstəmaz alırdılar. Məşriq təsirdən bir müddət hərəkətsiz qaldı. Şirin yuxusunu bir də təsəvvürün gətirdi. Ümid və nicat aləmindən buraya, kəsalət və kəsafətə düşdüyündən heyifsiləndi, mücaviri söyə-söyə həyatdən çıxdı. Dar küçələrdən dikələn uca, sıxgünbəzli daş binalar kişiyə bir qala kimi gəldi. Bu qala nə üçündür? Kimi qorumaq, kimdən qorunmaq üçündür?

Qoca xəyalında dolanan bu təsəvvürləri seçə bilmir, oğlu ölmüş kimi yaxasını açır, çomağını yerə vurur, başını göyə qaldırır, sanki, əli hər yerdən üzülən kişi göylərdə bir şey axtarırdı. Üfüqlərdə – məscidlər, minarələrin arxasından, uca minbərlərdən, pərdəli pəncərələrdən, ağır qapılardan o yanda işıq, günəş görünürdü. Kişi dolağını bağladı, çarıq bağlarını bərkidib yeyinlədi. Tezliklə bu cansıxan aləmdən çıxmaq, heç olmasa, kənd düzlərinin saf havasında arxayın qüssələnmək, oğlunun – o ciyərparəsinin xəyalı ilə yaşamaq istəyirdi.

O, şəhərdən çıxanda günəş də dağların dalından qalxır, qalxdıqca ocaq kimi şəfəq püskürürdü. Qəribədir, sanki o, Məşriq kişiyə salama gəlirdi. Onlar bu saat yaxınlaşacaq, bir-birinə qovuşacaqlar, bu, həmişəki günəş Məşriq kişinin dərd və qüssələrinə etinasız olan, saymaz gəlib-gedən günəş deyil, sanki, bu qocanın müsibətlərindən xəbər tutub qəzəblənən, həm də himayə qanadı açan bir pənahdır. O, bədbəxt atanı səadət kimi bürüməyə gəlir. Məşriq kişinin itirdiyi gənclik həyatını, ba-

lalarını, işaran ümidlərini, şirin xəyallarını, arzularını bir qızıl nur çanağında gətirir.

Məşriq kişi bu günəşin eşqi ilə yeriyir, sirrini kimsəyə demir, kimsədən kömək istəmir, Ləbbeyk və Salam üçün onların dalınca, onların yolu ilə gedirdi.

## IV

Qoca min bir həvəslə yoluna işıq salan bir həqiqətə, ürəyinə daman bir nicata doğru gedirdi. Əsirlik, zülm və təcavüzlərin acısından odlu bir şikayət aparırdı. Bu yolda nə qocalıq, nə yorğunluq, nə tənhalıq duyulurdu. Gecələri gündüzlərə vurur, soyuğa-istiyə baxmır, nə dinir, nə dayanır, tənha və qorxulu çöllərdə bir vahimə kimi, çomağını ataraq gedirdi. Başqa bir zaman Məşriq bu yerlərə düşsəydi, bağrı çatlardı. Lakin indi o, bütün bu yolları dərin bir qətiyyətlə ötürdü. Yəqin etmişdi ki, ağ gün bunların, bu bəlalı yerlərin dalında, ağrı və əzabların sonundadır. Ləbbeyk indi qocanın qabağına fənər tutan bir bələdçi kimi dururdu. Əlindəki kitabın qızıl vərəqləri parıldayır, "işıq" deyə çağırırdı. Məşriq yorulub yolda qalsa, vücudu tab gətirməyib məhv olsa da, onun intiqam və ümid dolu qəlbi köksündən çıxacaq, bahara uçan bir qaranquş kimi, üfüqləri süzüb arzularına qovuşacaqdır.

Kişi buna əmin olduğu üçün ayaq saxlamır, son nəfəsinə qədər yüyürmək, tale üfüqlərində gördüyü işığa qovuşmaq istəyirdi.

■ ■ ■

Bir axşam qızıl sərhəd qarovulları qocanı maşına əyləşdirib, zastavaya gətirdilər. Yorğunluq onun vücudunu buz kimi dondurmuşdu. Dünəndən bəri onu yerdən-yerə aparırdılar. Başına adamlar yığılırdı. Ancaq özünün heç nədən xəbəri yoxdu. Əzablar görən həyatı sanki bir müddət qəlbinə, ürəyinin dinc bir küncünə çəkilmişdi. Ya da bu şirin yuxu aləmində kişinin bütün duyğuları özünə gəlirdi.

Tapşırığa görə onu çarpayıya saldılar. Oyanıncaya qədər gözlədilər. Kişi gözünü açanda özünü rahat bir yerdə, mehriban adamlar arasında görəndə Lenin torpağına ayaq basdığını bilmiş və sevincindən ağlamışdı.



■ ■ ■

Məşriqi yaxşı tanıyandan sonra şəhərə, icraiyyə komitəsi sədrinin yanına göndərdilər.

Sədr bu nurani qocanın gəlişinə qalxdı, əlini sıxıb yer göstərdi. Onun kefini, səhhətini soruşdu:

Məşriq həsrət dilini açdı:

– Lenini görəcəyəm.

Sədr dedi:

– Yəqin ki, şikayətiniz var?

– Balalarımı axtarıram.

Qapı açıldı, cavan və təmiz geyimli bir oğlan içəri girdi. Sədr qocaya sarı döndü:

– Bu oğlanı gərək ki, tanıyırsınız?

Məşriq başını qaldıranda, Ləbbeyki bayram libasında görəndə sevincindən dili bağlandı, qolları açıldı, Ləbbeyk özünü atasının qucağına atdı:

– Ata, – dedi, – gözün aydın, xilaskarlar vətənindəyik!

– Oğul, Salamdan mənə bir xəbər!

Ləbbeyk onun qoluna girdi. Maşına oturdular. Şəhərin gen, kölgəli küçələri ilə süzüb getdilər. Böyük bir binanın qabağında maşın dayandı. Bağ-bağçaya oxşayan bir həyətdə dəstə ilə əli kitablı uşaqlar görünürdülər. Ləbbeyk atasını eyvana, oradan da səliqəli bir otağa apardı. Salam atasını görən kimi qalxdı, qollarını açdı.

Kişidən ixtiyarsız bir nida çıxdı:

– Balam, burada nə edirsən?

Salam dedi:

– Ata, uşaqları oxuduram.

Məşriq kişinin gözü divardakı xalçaya sataşanda sifətində qəribə bir işıq oynadı. Bir kiçik oğluna, bir böyük oğluna, bir də onun toxuduğu xalçaya baxdı.

– Bu, qardaşımın və bütün Şərqin mənə və azad vətənimə unudul-

maz hədiyyəsidir.

Salamın bu sözündən qocanın fərəhi qat-qat artdı. Özünü evindəki kimi rahat bildi. Ləbbeykdən soruşdu:

– Bala, Leninnamə hanı?

Ləbbeyk qızıl kitabı qoltuğundan çıxartdı. Məşriq onu Ləbbeykdən aldı və öpüb gözlərinə sürtdü.

– Oğul, bəs Lenini harada görəcəyik? – deyə soruşdu.

Salam kişinin qolundan tutdu, pəncərəyə yaxın gətirdi. Böyük və əzəmətli şəhəri, qaynar həyatı göstərərək dedi:

– Ata, Lenini ana torpağımızın hər qarışında, xalqımızın açılan baharında, qocaların gülüşündə, gənclərin rəşadətində, uşaqların xoş baxışında, körpələrin parlaq gözlərində görə bilərsən. Hər dəqiqə onun həyat və nicat verən səsini eşidərsən.

Qoca daha artıq maraqla pəncərəyə yanaşdı. Heyrətlə baxdı. Dahinin Şərqi göstərən heykəlini görür, sovet nəslinin mahnısını eşidir, əllərini çırpınan qəlbinə qoyur, sədrin qarşısında əyilmək istəyirdi.

– Qoyun əlinizdən öpüm, oğul!

Sədr onun qolundan tutub ayağa qaldırdı, oğlanları ilə yanaşı tutub dedi:

– Sizi bura gətirən qüvvə bükülmüş belinizi də düzəldəcəkdir!

*1940*



# BOZ ADAM

Komandir soruşanda ağzımdan çıxdı ki: "Mən gedərəm!" Deyəsən, rəhmətliyin oğlu çoxdan ürəyində məni tutubmuş. Qırağa çəkib tapşırıq verdi. Mən də təkrar edib xudahafizləşdim.

Gedirdim, çox çətin işə gedirdim. Mən hara, kəşfiyyat hara!.. Özü də necə kəşfiyyat! Gərək təkbaşıma soxulam düşmən qərargahına, vəziyyəti öyrənəm, işlərindən halı olam, dörd saatacan xəbər gətirəm. Almanların da elə zamanıdır ki, hirslərindən cilov gəmirirlər. Üç gündür səngərlərimizə dalbadal güc vururlar, hər gələndə bir-iki yüz soldat papağını boş qoyub qaçmağa məcbur olur. İşləri fırıq olanda gedib bir-birini danlayırlar, təzə əmrlər yazırlar. Biz də sabahısı gün bu əmri ölülərin cibindən çıxarıb "işə tikirik." Ona görə deyirəm ki, almanlar bu saat qızıl əsgər qanına susayıblar. Ələ düşsən, tikə-tikə doğrayacaqlar.

Doğranmağımın dərdini çəkmirəm. Bəs xəbəri kim gətirəcək? Gərək mənim dalımca da başqasını göndərsinlər...

Eh, əsgərlikdə adam belə şeylərə baxsa, çaşbaş qalar. Əmrin dalınca yüyürəndə hər şey öz-özünə həll olunur.

Mən kəndli paltarında "bismillah" deyib, almanların qərargahına keçəndə gün əyilmişdi. Hava seyrək buludluq idi. Cavan qovaq ağaclarının altında, dizəcən otluq, kölgəlik yerdə beş addım yeriyir, ətrafıma baxınırdım. Özümü içərilərə salandan sonra kənddən-kəndə gedən köç yoluna çıxdım. Yolun bir tərəfi qarğıdalı zəmisi, o biri tərəfi boş yer idi. Açıqlıqda məni görə bilərdilər. Lap özümü kəndliliyə qoydum. Əlimdə ağac ehmalca yeriyirdim. Zəminin dalında evlər görünür, hərdən səs gəlirdi. Deyəsən top təkəri səslənirdi. Ağacların arasından, nə təhərsə çılpaq buraxılmış bir top lüləsindən, maskalanmış tankı seçə bildim. Deyəsən, hariflər ön xəttə qüvvə yığırdılar. Daha da diqqət yetirmək istəyəndə xəyalıma gəldi ki, birdən mənə də diqqət yetirən olar. Başımı aşağı salıb bir az da getdim. Dayanmağa qorxurdum, getməyin də mənası yox idi. Hərifin nə fəndi varsa, bu aralarda olacaq. Birdən üstümü kəsdilər:

– Əllər yuxarı!

Mən eşitməzliyə vurub, yoluma davam etmək istədim. Səs qışqırdı:

– Kimsən, dayan!

Dönəndə bir boz soldatın üstümə süngü çəkdiyini gördüm:

– Ay urus, dayan! Nəçisən?

– Kəndliyəm, əkinçi.

– Haradan gəlirsən?

– Banadar kəndindən.

– Hara gedirsən?

– Öz evimə, budur, bu kəndə.

– Banadarda nə gəzirdin?

– Atımı alıblar, dalınca getmişdim.

– Bəs hanı?

– Bolşeviklər indi adama at verər?

Boz adam dinmədi. Nə fikirləşdisə, yaxın gəldi.

– Cibində nəyin var?

Ürəyim qopdu. Axtarsa əngəl olacaqdı. Üstümə əl atan kimi onu qamarlayıb işini bitirəcək idim. Ancaq baxırdım görüm yoldaşı-zadı varmı. Sən demə, bunu yol keşikçisi qoyublarmış.

İstədim xirtdəkləyim. Amma bir şey öyrənməmiş qayıtmağın mənası yox idi. Əlimi cibimə saldım:

– Nəyim olacaq, 60 manat çervonum.

– Çervon niyə?

– Çervon olmamış qızıl olmayacaq ha!

– Papirosun varmı?

Mən çıxarıb verdim. Damağına qoydu, bir qullab vuran kimi, gözlərini qırpdı.

– Sizin tütün niyə acı olur?

– Bundan da acısı var, qismət olsa görərsiniz!

Boz adam dinmədi. Güman etdim ki, məni saxlamaq istəmir.

– Evimizə gedə bilərəmmi?

– Yox, səni zabitə göstərəcəyəm.

– Zabit neynir məni?

– Özü bilər. Nə çox danışan urussan!

– Gəl apar göstər, kasıb adamam, işim-gücüm var.

Tüfəngin qundağı ilə məni itələdi:

– Otur yerə, kolxoz! Tərpənsən vuracağam!

Mən zabitin yanına getməyə lap razı idim. Çünki o tərəflərdə görməli çox şeylər var idi. Boz adamın yanına başqa bir soldat gəldi. Deyəsən, növbə dəyişirdilər. Öz dillərində danışdılar. Sonra boz adam məni qabağına qatdı: "Yeri!"

"Deyəsən, bu məni buraxmayacaq. Aparıb dama-zada salacaq. Qərargahımızda məni gözləyirlər. İşim-gücüm tökülüb qalacaq..."

Boz adamın silahını alıb qaçmaq mümkün idi. Çünki o məni küt bir kəndli sayır, ehtiyat eləmirdi. Ancaq haraya apardığını seçə bilməmişdim. Gördüm ki, bu qərargahdır. Ağaclar altında üç tank var idi. Ondan o yana hündür ot tayası vurulmuşdu. Tayanın dalısı ağaclıq idi, bir şey görünmürdü. Qabaq tərəfdə iki yük maşını var idi. Birisi tayanın yanında qurdalanırdı, deyəsən, nəyi isə düzəldirdi...

Boz adam məni maşınların yanına gətirdi.

– Əyil!

Belimə iki yeşik patron yığıb qabağına qatdı. Mən ömrümdə belə ağır şey götürməmişdim.

– Zabit, – dedim, – bizlərdə adama yük çatmazlar.

– Bizlərdə də çatmazlar.

– Bəs bu yük deyil, nədir?

– O yükdür, altındakı adam deyil!

Mənim dinəcək təhərim yox idi. Lap səngərlərə yaxın gəldik. Yükümü boşaltdılar. Anladım ki, bu ağaclı yaşıllıqlar altında xeylək adam gizlənib. Budaqların başı, yarpaqlı tərəfi yeri örtsə də, qıraq tərəfdən aşkar görünürdü. Cibimdəki bomba məni qıdıqlayırdı: "Nə fürsətdir!"

Komandirin qorxusundan heç bir şey eləmədim.

Boz adam məni qabağına qatıb arxa səmtə apardı.

– Bizim kəndimiz bu yanda qaldı axı!

– Çox danışma!

Hərif bir tüfəng dürtməsi də vuranda lap hirsləndim. Xəyalımda dedim: "Vaxtdır, qoy hesablaşım, qurtaraq..."

Yenə tapşırıq, komandir yadıma düşdü, özümü toxtatdım. Boz adam məni iki kilometr qədər arxaya aparıb buraxdı:

– Geri qayıtsan vuracağam, düz get!

Mənə aydın oldu ki, düşmən təzə hücuma hazırlaşır. Hər halda bu gecə başlayacaqdır...

Xirtdəkləyib arxa saldım, boğdum, silahı alıb götürüldüm.

İçərilərə doğru yeyinlədim, ağaclıqlar dalında köhnə qobu var idi. Özümü qobuya salıb, qərbə doğru daban aldım. Uzaqda atışma səsi eşidilirdi. Qaranlıq çökür, hava yavaş-yavaş çiskinləyirdi. Mən gizlənmədən, ehtiyat etmədən yeyinləyirdim. Ürəyimdə tutmuşdum ki, rast gələn olsa, bomba ilə danışacağam. Qoy komandir deməsin ki, fərsizsən, düşmənin sovqatını verə bilməmisən.

Komandirin təyin etdiyindən yarım saat gecikmişdim. Ancaq özümü qan-tər içində qərargaha salanda uşaqlar sevinmişdilər. Əhvalatı komandirə danışdım. Boz adam ilə olan söhbətimizi söylədim. Onun tütün barəsindəki şikayətini də unutmadım.

Komandir güldü:



– Bizim tütünün acısını, – dedi, – bu gecə yaxşı dadarlar.

O gündən sonra mən əməlli-başlı kəşfiyyatçı olmuşam. Öyrənməkdən asılı imiş. Adam istəsə hər sənəti öyrənər.

*1941*

# FİTNƏ

Bəhram şahın ay üzlü, çöhrəsindən min bir gözəllik yağan bir kənizi var idi. Bu kənizin adı Fitnə idi.

Fitnə zirək, qıvraq, ağıllı-kamallı qız idi. Sifəti cənnət yazı kimi təzə və zərif, yerişi göy zəmi üzərindən süzən yel kimi aram, xoş idi. Üzündən-gözündən məlahət yağırdı. Fitnə yaxşı kaman çalar və rəqs edərdi. Bülbül kimi şirin, təsirli səsi var idi. Kaman ilə səs-səsə verib oxuyanda quşları göydən endirərdi. O, şaha vurulmuşdu. Şah da ona aşiq idi.

Çalğı və içki məclisində, ovda şah Fitnəni dinləməkdən ləzzət alar, rahatlanardı. Fitnənin çalğısı çəng*, şahın çalğısı ox idi. Fitnə çəng vurardı, şah ov vurardı. Bir gün şah çöldə, dağ-dərədə ov etmək istədi, Fitnəni də özü ilə götürdü, maral dırnaqlı qara atını çölə çapdı.

Şah ov gördükcə nərə çəkib dağa-daşa səs salır, ox ilə ceyranları vurub yıxırdı. Şahın atlıları da hər tərəfdən çölü əhatə etmişdilər, ceyranları şah olan səmtə qovurdular.

* Çəng – musiqi alətidir.



Bəhram şah isə şir kimi pusquda durmuşdu. Atı altında oynaqlayırdı, əli isə ceyranların başına ox yağdırırdı. Tez-tez kirişi boşaldıb kamanını doldururdu. Oxun polad ucu gah ceyranları yerə sərirdi, gah daşa dəyib od qoparırdı. Sanki bu od ceyran ətini kabab bişirmək üçün lazım idi. Doğrudan da, şah oxu dəyən ovu kabab edirdi. Şah qabağına çıxan heç bir ovu buraxmırdı, ya vurur, ya tuturdu. Birdən çöldən bir neçə ceyran qalxdı. Şah qızmış şir kimi kamanı əlinə aldı, atın başını buraxdı, ceyranlara çatanda hədəfi tuşlayıb atdı, ox ceyranın buduna sancıldı. Ceyran ağzı üstə yıxılıb torpağı öpdü. Beləliklə, şah ceyranların bir neçəsini öldürdü, bir neçəsini tutdu.

Onun bu şücaəti aləmi heyrətə salır, bədnəzərlərin isə gözünü tökürdü. Fitnə şahın bu igidlik və qoçaqlığına susurdu: nazındanmı, hiyləsindənmi, nədənsə şaha tərif demirdi. Şah bunu hiss edirdisə də gözləyirdi.

Birdən uzaqdan bir ceyran qaçmağa başladı. Şah qıza dedi:

– Deyəsən, bizim ovçuluq şücaətimizi görmürsən. Elə olar, bizim məharətimiz tərifdən yüksəkdir. Dar gözlər onu seçməz... Budur, bir ceyran gəlir, təpədən-dırnağa qədər – harasını deyirsən nişan alım?

Fitnənin incə dodaqları tərpəndi:

– Gərək, – dedi, – məharət göstərəsən, bu ceyranın dırnağını başına tikəsən.

Şah onun dediyini yerinə yetirmək istədi, tez kaman tələb etdi, ağır və yuvarlaq mazını kamana qoydu, atdı. Mazı ceyranın beynini qızışdırdı. Yazıq ceyran dırnağını başına qaldırdı ki, ağrıyan yerini qaşısın, bu zaman şahın ildırım kimi aləmi işıqlandıran oxu ceyranın dırnağını başına tikdi. Ceyran üzüüstə yıxıldı. Şah Fitnəyə tərəf döndü:

– Necə atıram?

Qız dedi:

– Şah bunu vərdiş etmişdir. Adət edilən heç şey çətin olmaz. Adam vərdiş ilə hər bir işi edə bilər. Şahın düz vurması güc və ya məharətdən deyil, ancaq vərdişdəndir.

Fitnənin cavabı şaha çox ağır gəldi, iti balta ağacı kəsən kimi, onu kəsdi və qəzəbləndirdi. Şahın ürəyində Fitnəyə qarşı dərin bir kin doğ-

du.

Şahlar ürəklərindəki intiqam hissini qan ilə söndürərlər, ova acıqlandıqda atın üzəngisini qoparar və itin dərisini soymaq istərlər. Bəhram şah ürəyində deyirdi:

"Bu hayıfı kənizdə qoymaq olmaz, onunla hesablaşmaq lazımdır." Ancaq kənizi öldürməyə şahın əli gəlmirdi, çünki qadın öldürməyi özü üçün əskiklik sayırdı. Onun fikrincə qadın kişiyə tay, hərif deyil.

Şahın böyük bir sərkərdəsi var idi. Şah onu yanına çağırdı.

– Get, – dedi, – bu kənizin başını bədənindən üz. Bu bizim dövlət sarayımızın fitnəsidir. Fitnəni dəf eləmək ağıllı işdir.

Sadə və adil xasiyyətli sərkərdə Fitnəni qabağına salıb öz evinə apardı, onun başını bədənindən ayırmaq istədi. Qız ağladı və dedi:

– Ey sərkərdə, belə çirkin işi özünə layiq bilmə. Öz şərəfinə düşmən deyilsənsə, mənim kimi günahsız bir qızın nahaq qanını boynuna götürmə. Mən şahın ən yaxın adamı, müsahibi, kənizlərin seçilmişiyəm. O, məclislərində məndən başqası ilə maraqlanmazdı. Ərköyünlük məni aldatdı, şeytan məni yoldan çıxartdı. Kiçik bir hərəkətim şaha xoş gəlmədi. O mənə qəzəbləndi və ölümə hökm verdi. Sən gəl məni öldürməyə bu qədər tələsmə. Bir neçə gün səbir et, döz. Şaha de ki, onu öldürdüm. Şah bu xəbərdən sevinsə, qayıt məni öldür, qanımı sənə halal edirəm, əgər mənim ölüm xəbərimdən şah qüssələnsə, sən məni öldürmədiyindən qorxma, sənə heç nə olmaz. Sən şahın qəzəbindən qurtararsan, mən də ölümdən xilas olaram. Doğrudur, layiqli bir adam deyiləm, lakin bir gün gələr ki, bu yaxşılığının əvəzini verərəm. Sənin yanında xəcalətli olmaram.

Qız bunu deyib, balaca bir düyünçə açdı. Sərkərdənin qabağına yeddi parça ləl qoydu. Bu daşların hər birinin qiyməti bir ölkənin gəlirinə bərabərdi. Ümman dənizinin bütün gəliri o daşların yarı qiyməti qədər olmazdı.

Sərkərdə o gözəlin ağıllı məsləhətini dinləyib qanından keçdi və dedi:

– Amandır, söz burada qalsın. Heç kəsin yanında şahın adını çəkmə. Qoy səni mənim evimdə qulluqçu bilsinlər. Öz işində ol, bəxtim kömək eləsə, mən hər şeyi düzəldəcəyəm.



Onlar bu şərtləşməyə söz verib and içdilər. Sərkərdə zülm əməlindən, qız isə zəncirdən qurtardı.

Bir həftə sonra şah sərkərdəni gördü, ondan Fitnənin işini soruşdu:

– Ay necə oldu?

Sərkərdə cavab verdi:

– Ayı əjdahaya tapşırdım, ancaq qan bahasını göz yaşımla verdim.

Şah Fitnənin ölüm xəbərindən qüssələndi, gözü yaşardı. Sərkərdə şahın bu halını görüb sevindi, qızı öldürmədiyi üçün ürəyi sakit oldu.

Şəhərdən uzaq, kənar yerdə sərkərdənin abad bir kəndi və göyün bir qatına yüksəlmiş köşkü var idi. Sərkərdə altmış pilləli sarayın eyvanında Fitnəyə yer eləmişdi. Fitnə həmişə orada yaşayırdı. Həmin günlərdə sərkərdənin inəyi qəşəng bir buzov doğmuşdu. Fitnənin buzovdan xoşu gəlirdi. Hər gün onu boynuna alıb, ayaqlarını döşünə sıxar, pillələrdən qaldırıb eyvana aparardı. Buzov isə get-gedə böyüyürdü, kökəlirdi. Fitnə də öz adətindən əl çəkmirdi. Gün o gün oldu ki, buzov altı yaşlı bir böyük öküz oldu. Fitnə yenə onu yerdən dama qaldırırdı, buna adət etdiyi üçün əziyyət çəkmir, ağırlıq hiss etmirdi. Öküz kökəlib ağırlaşdıqca, Fitnənin də qüvvəti artırdı.

Günlərin birində Fitnə ilə sərkərdə əyləşib dərdləşirdilər. Qız qulağındakı cavahirlərdən dörd dənəsini açıb sərkərdəyə verdi:

– Apar, – dedi, – bunları sat, puluna gülab ilə suvarılan kök qoyunlar al. Dünyanın naz-nemətindən ürəyin nə istəyirsə al, şam, şərab, şirni, noğul! Cənnət bağı kimi gözəl və böyük bir qonaqlıq məclisi düzəlt. Şahın bu tərəflərə yolu düşəndə üzəngisindən asıl, onu qonaq çağır. O, mehriban və nəcib adamdır. Sənin xahişini yerə salmaz, bizə gələr və başımızı ucaldar. Bu yüksək, qonaq sarayımızda qonaqpərəstlik edib şaha süd və şərbət içirdərik. Belə bir tədbir baş tutsa, hər iş düzələr.

Sərkərdə Fitnənin məsləhətini bəyəndi. Ancaq cavahirləri götürmədi, çünki onun min o qədər dövləti var idi. O, gizlin xəzinəsinin ağzını açdı, qonaqlıq dəsgahının hamısını düzəltdi – özü də şaha layiq şeylər düzəltdi: quş, balıq, erkək quzu ətindən bişirilmiş növbənöv ləzzətli xörəklər, şərbətlər, ətirli şirnilər, məclis bəzəyən gül və çiçəklər...

Bəhram şah adəti üzrə ova çıxmışdı. Çox gəzdi, çox ov vurdu, an-

caq görün Fitnə qız onun özünü necə ovladı.

Şah sərkərdənin sarayı olan kənddən ötəndə çox münasib bir istirahət yeri gördü. Hər yan başdan-başa yaşıllıq və kölgəlikdi. Şah soruşdu ki, bu yer kimindir. Sərkərdə baş əyib şahın üzəngisindən öpdü və dedi:

– Şahım sağ olsun, qulunuza bağışladığınız kənddir. Şahım o kəndi xoşlasa, qulunun başını ucaldar, uğurlu qədəmini bu qulun evinə bassa, məni dünyanın başıucalarından edər. Sayənizdə başı göylərə dəyən bir köşküm var. Ətrafı sıx bağlar, güllər-çiçəklər, meyvə ağacları ilə örtülmüşdür. Sarayımın yanında cənnət bağları və behişt otaqları yalandır. Şah bu sarayda şərab buyurarsa, ulduzlar mənim astanamı öpər. Şahın qədəmi evimə ənbər iyi səpər, bəxtim açılar, milçəyim bal, öküzüm süd verər.

Şah sərkərdənin xahişini qəbul edib dedi:

– Get hazırlaş, ovdan qayıdanda sənin sarayında düşəcəyəm.

Sərkərdə baş əyib sevincək qayıtdı. Sarayını qiymətli fərşlərlə döşətdirdi, rum parçaları, çin qumaşları ilə bəzədi. Sarayın hər tərəfi parpar parıldayırdı.

Ev sahibi şahın qədəmlərinə cavahirat səpdi. Şah altmış pilləli eyvana çıxanda başı göylərə dəyən, kainata şəfəq salan Xəvərnəqin* bütün gözəlliklərini əks edən bir eyvan gördü. Sarayda şadlıq məclisi quruldu. Yemək-içməklə məşğul oldular.

Şah bir-iki qədəh içəndən sonra qəmi dağıldı, kefi açıldı, üzünü ev sahibinə tutub dedi:

– Ey mənim qızıl eyvanlı, qonaqcıl Sərkərdəm! Sarayın genişdir və yeri çox xoşdur. Lakin, de görüm, göylərin bir qatına qalxan bu eyvana necə çıxıb-düşə bilirsən? Sənin ki yaşın altmışı keçmişdir.

Sərkərdə dedi:

– Şahın ömrü uzun olsun, mənim çıxıb-düşməyim təəccüblü deyildir. Mən kişiyəm, bu pillələrdə yorulmuram. Təəccüblü mənim ay üzlü qızımdır ki, özü qumaş kimi zərif və incə ola-ola, hər gün dağ boyda bir öküzü başına götürüb yemləmək üçün bu eyvana çıxarır. Öküz

* Ən gözəl qəsrlərdən biridir.



nə öküz, fil kimi! And içə bilərəm ki, bu qoşundan heç kəs onu birnəfəsə yerdən qaldıra bilməz. Qız isə bu altmış pilləni yaydan qurtarmış ox kimi çıxır, pillələrin birində də dayanıb nəfəsini dərmir. Əsl təəccüblü iş budur!

Şah sərkərdədən tələb etdi ki, dediyini isbat eləsin. Sərkərdə aşağı enib əhvalatı Fitnəyə söylədi.

Sərkərdənin sözündən şah heyrətə gəldi:

– Bu necə ola bilər, gözümlə görməsəm buna inanmaram.

Ay üzlü qız fürsətdən istifadə edib, qabaqcadan hazırlanmışdı. Çinli qızlara məxsus bəzək-düzəyini taxdı, üzünə səyqəl verdi, gözünə sürmə çəkdi, mişk iyli tellərini ay üzünə haşiyə çəkdi, sərv boyuna qırmızı don geydi, lalə kimi göründü, ay kimi gümüş gərdəninə dürrdən boyunbağı taxdı. Xoş bir vəziyyət aldı, dodaqlarında təbəssüm oynatdı, sədəf dişləri göründü. Ənbər saçlarını çiyninə tökdü, zənci rəngli saçı hindi xalı ilə sanki vuruşmaq üçün qarşı-qarşıya dayandı. Fitnənin xurma dodağının üstündəki qara xal gözəlliyini bir qat daha artırırdı. Başındakı daş-qaş ulduz kimi parıldayırdı. Qulağının gövhər sırğası aşiqlər bazarının ən qiymətli matahı idi. Ay üzünü yasəmən arasındakı gül kimi ağ örtüdə gizlətdi. Yeddi bəzəklə yaraşığını tamamlayandan sonra, nazla hərəkət edərək öküzə doğru getdi. Başını əyib öküzü boynuna götürdü. Fitnə ildırım kimi pillələri çıxdı. Bəhram şahın taxtı qarşısına yeridi, ayaq üstə ədəblə dayandı.

Bəhram şah öküzü görüb heyrətindən ayağa qalxdı. O, öz kənizini tanımadı. Fitnə öküzü boynundan yerə qoydu və dedi:

– Mən sənin və bütün məclisinin hüzurunda bu hünəri göstərdim. Əgər bacarırsınızsa dünyada bir güclü igid tapın ki, bu öküzü eyvandan aşağıya apara bilsin.

Şah dedi:

– Bu sənin güclü olduğunu göstərmir, əvvəldən adət etdiyin üçün bacarırsan. Bu bir hünər deyil, uzun illər yavaş-yavaş vərdiş etmisən, odur ki, bir əziyyət görmürsən.

Ay üzlü, gümüş bədənli Fitnə baş əyib şaha dua oxudu və dedi:

– Çox qəribədir ki, öküz adət ilə olur, ceyran isə hünər ilə. Nədəndir mənim öküz götürməyim adət sayılır, şahın ceyran vurmağına adət

deyənlər cəzalanırlar?

Şah kinayəli sözündən Fitnəni tanıdı. Qızın yanına gəldi, rübəndi açdı, onun gül camalına baxdı, qucaqlayıb ağladı. Göz yaşları ay üzünə mirvari təki səpildi. Şah qızdan üzr istədi, Fitnə isə nərgiz gözlərindən gülab yağdırdı. Şah evi xəlvət edib gözəl pərisinə gileylənirdi:

– Səni zindana saldırmağıma min dəfə üzr istəyirəm. Bağışla məni, ağılsızlıq edib yandırdığım odda özüm qovruldum. Sən isə şükür ki, salamatsan.

Şah Fitnəni öz yanında əyləşdirib qolunu boynuna saldı, Fitnə də ürəyinin sözünü dedi:

– Sevimli şahım, ey məni ayrılığı ilə öldürən, mehribanlığı ilə dirildən sirdaşım, ayrılıq məni şam kimi əritdi. Qəm, dağı yerindən qoparar. Sənə olan məhəbbətim sayəsində az qaldı həyatım getsin. Sən ovlaqda ceyranın dırnağını qulağına tikəndə hünərinə yerlər deyil, göylər də afərin dedi. Mən şahı tərifləməkdə qəsdən gecikdim, səbir elədim. Bədnəzəri şahdan uzaqlaşdırmaq üçün tərifə dil açmadım. Tərifli şeyə hər zaman bədnəzərin gözü dəyə bilər. Lakin nə edim ki, fələk məhəbbətim əvəzində mənə əziyyət və töhmət qismət elədi.

Fitnənin bu sözü şaha çox xoş gəldi. Şah dedi:

– Haqqın var! Sənin vəfana inanıram. Bu hünərə sahib olan qızın dünyada əvəzi yoxdur. Sərkərdəm qorumasaydı, mənim bu gövhərimi daşlar parçalamışdı.

Şah sərkərdəni çağırıb razılıq etdi, qolunu onun boynuna salıb şaha layiq xələt və baxşışlar verdirdi, yaxşılığına birə-min əvəz elədi, onu çox əzizlədi və Rey mülkünü tamam ona bağışladı.

Şah böyük şadyanalıqla öz şəhərinə qayıdıb məclisinə şirin sözlü şairlər çağırdı. Ruhani başçılarını çağırıb Fitnənin kəbinini özünə kəsdirdi. Hər ikisi kef-ləzzətlə gün keçirməyə başladılar.

*1941*



# ATA

Zəng çalınandan sonra müəllimlər otağı boşaldı. Yalnız məktəbin 20 ildən bəri daimi gözətçisi olan Salman kişi peçə odun qoyur, səliqə-sahman eləyir, sonra da kürsünü altına çəkib divar dibində, xəritə qabağında əyləşir, hansı bir maraqlasa uzun müddət nəzərini xəritədən, bu əlvan kağızın qarışıq yazılarından, saysız-hesabsız cızıqlarından ayıra bilmir.

Salman kişini bu vəziyyətdə görənlər ona coğrafiya müəllimi, yaxud dünya səyyahı deyərdilər. Əslində isə Salman kişinin heç ibtidai savadı da yoxdur. Ancaq məktəbdəki iş təcrübəsi sayəsində bəzi hərfləri və rəqəmləri tanımış, qol çəkməyi öyrənmişdir. Coğrafiyadan başı çıxmaz, hətta dünyanı "qarpız kimi" yumru sayan bir "dərsə" inanmazdı da.

Səyyahlıqdan da xəbəri yoxdur. Çünki, o ömründə Xaçmaz ilə Soğanlı stansiyasından qırağa çıxmamışdır. Cavanlıqda, əmisi fayton işlədən zaman bəzən miniklər ilə gedib-gəlməli, atları idarə etməli olurdu. Ancaq fayton da, məlumdur ki, nə qədər çox və yeyin getsə, dünya sə-

yahəti üçün yaramaz.

Bəs Salman kişinin xəritəyə baxmaqda məqsədi nədir? Bir baxmır, iki baxmır, əlini çənəsinə qoyub gözünü divara zilləyir, sanki, o, rənglər, yazılar arasında vacib bir şey axtarır. Bir də görürsən şəhadət barmağını aparıb bir nöqtə üzərinə qoydu, əyilib gözünü o yerə zillədi, köksünü ötürdü, dodaqlarında bir şey mızıldadı...

Bunun səbəbini tapmaq üçün Salman kişinin ailə həyatından bəzi şeyləri bilməliyik. Bilməliyik ki, Salman kişinin təmiz və mehriban bir ailəsi vardır. On bir yaşlı qızı Rübabə, özünün qulluq etdiyi məktəbdə oxuyur. 17 yaşlı kiçik oğlu Əsgər traktor sürür. Böyük oğlu İsfəndiyar beş aydan artıqdır ki, ordudadır.

Salman kişinin bu oğlu əsgərliyə getməzdən qabaq da çox hörmət sahibi idi. İndi daha onu atası ilə yox, atasını onunla tanıyırdılar. Məktəbə nabələd adam gələndə, Salman kişi, özünə qarşı lazımi etinanı görmədikdə dillənməyə məcbur olurdu:

– Tanımırsınız, İsfəndiyarın atasıyam da, Ağayev İfəndiyarın... Ağayev İsfəndiyar!

Salman kişinin xəritəyə olan marağı da həmin İsfəndiyar ilə, əziz oğlu ilə əlaqədardır. İsfəndiyarın Qərb cəbhəsində olduğunu bilir və ona görə də bərk həyəcan keçirir.

Xüsusilə son hadisələr. Faşist ordularının Şərqə doğru yürüş cidd-cəhdi Salman kişini əsəbiləşdirir. Hər gün qəzetdə oxunanları, radioda danışılanları eşitdikcə oğlu İsfəndiyar gəlib gözünün qabağında dayanır. Bir gün Salman kişi radiodan eşitdi ki, quduz düşmən vətənimizin paytaxtına, qızıl Moskvaya doğru can atır. Varını-yoxunu, soldatını, zabitini, topunu, təyyarəsini bu tərəflərə töküb. Qızıl əsgərlər, dizlərini yerə verib gələni qırırlar. Faşistlərin Moskvaya doğru üz qoyduğu yollarda nemes meyiti qalaq-qalaqdır. Ancaq onlar buna baxmırlar. Onların Yezid kimi zalım zabitləri var. Soldatı hey qabağa itələyirlər.

Moskva ətrafında gedən vuruşmaların şiddətini və dəhşətini düşünəndə Salman kişi xəritəni öyrənmək istəmişdi. Bilal müəllim, uzanan cızıqların birləşdiyi böyük və qırmızı bir ulduzu göstərib başa salırdı:

– Salman əmi, bunu görürsənmi, bu yer paytaxtımızdır, Moskvadır. Düşmən qoşunları o yandan, gün batan tərəfdən Moskvaya can atırlar.



– Bəs bizim qoşun hayandan atışır?

– Bəyəm bizim qoşun bir yandan atışır? Düşmənin meyitini yerə sərmək üçün qoşunumuz göydə də, suda da, quruda da qızğın vuruşur. Təyyarələrimiz hər gün faşistlərin başına yüzlərlə bombalar yağdırır.

– Bəs, ay Bilal müəllim, bu cızıqlar nədir? Ulduzun o yan-bu yanındakı bu xətlər nə deməkdir?

– Bunlar Moskvadan çıxan dəmiryollardır. Görürsən, hər tərəfdən neçə-neçə dəmiryollar gəlir. Faşistlər gün batan tərəfdən yeriyib bəzi yollarımızı tutmaq istəyirlər. Bu saat qızıl əsgərlərimizin qəhrəmanlığı da elə bundan, düşmənin quduz axınının qabağını almaqdan ibarətdir. Burada sovet igidləri vuruşur ki, biri bir bölüyə güc gələr!

Salman kişi xəritənin bu yerini yaxşıca bəlləmişdi. Gündə neçə dəfə baxırdı. Qəzetdə faşist ordularına vurulan zərbə, onlardan alınan silah, sursat haqqında oxuyan kimi, Salmanı xəritə qabağında görərdin. O, elə ehtirasla baxır ki, deyirsən, cəbhədə əmələ gələn hadisələri burada da görəcəkdir. O, bu yollara, paytaxtı ümumi sovet torpağı ilə birləşdirən yollara elə baxır ki, deyirsən, hərəkət edən orduları, maşınları, qatarları, təyyarələri görəcəkdir. Deyəsən, İsfəndiyarı, ağır və odlu topunu bu yerdən o yerə çəkən, hər faşist tankını dağıtdıqca ürəyindən tikan çıxan igid oğlunu da burada görmək istəyirmiş.

Salman kişi, doğrudur, xəritədə, divarda vurulmuş adi bir kağız üzərində oğlunu görə bilməyəcək idi və görə də bilməzdi. Ancaq hansı bir hiss, hansı bir qayibanə xəbərsə ona deyir ki, "İsfəndiyar buradadır!" Bəlkə Salman kişinin həqiqi vətəndaşlıq hissi bunu xəbər verirdi. Bəlkə Salman kişi hər bir hücum edən qızıl əsgəri, ordumuzun hər bir nəfərini oğlu İsfəndiyar qədər əziz və doğma görürdü. Onların hər biri haqqında eşitdikdə öz oğlundan aldığı xəbər kimi qəbul edir, həyəcanlanırdı.

Bunların hamısı doğrudur, hamısı təbiidir. Bu mehriban atanın, oğlundan aldığı son xəbər daha maraqlıdır. Bu elə bir xəbərdir ki, onu camaat atadan tez bilmiş, tez xəbər tutmuşdur.

Bu səhər, birinci dərsə zəng vurulandan sonra Salman kişi öz adə-

ti üzrə xəritənin qabağında oturub onu seyrə dalmışdı. Gözünü qırmızı ulduza dikib durmuşdu. Xəyalı ilə də cəbhələri, vuruşma meydanlarını, barıt qoxulu göyləri, gurultulu çölləri, partlayışlı suları gəzirdi.

Həmin bu dəqiqədə beşcə addım məktəbdən kənarda, damda səslənən radio aləmə səs salıb İsfəndiyardan, Salman kişinin oğlundan danışırdı. Radio bilsə idi ki, həmin igid oğlanın atası bu saat xəritə qabağında dayanıb cəbhənin nigarançılığını çəkir, ağzını məktəb həyətinə çevirib kişini çağırardı. Salman kişi bu dəqiqə bilsə idi ki, radio onun öz oğlu haqqında söhbət edir, İsfəndiyarın Moskva ətrafında on bir faşist tankını böyür-böyürə yıxdığını bir muştuluq xəbəri kimi ucadan sevinclə söyləyər, təpəsi üstdə küçəyə qaçardı.

Çox çəkmədi ki, radiodakılar Salman kişini tapdıqları kimi, Salman kişi də İsfəndiyardan gələn xəbərləri eşitdi. Qəzetin bugünkü nömrəsini alıb uşaq kimi evə yüyürdü. İsfəndiyarın anası, kürd qızı Mahı çay ağzında oturub paltar suya çəkirdi. Salman kişi həyət qapısından qışqırdı:

– A Mahı, bir bəri gəl!

Mahı ərinin səsinə dönüb baxdı, amma durmaq istəmədi:

– Əlimdə iş görürəm, nə deyirsən?

– Bura bax, a qız, oğlundan xəbər var!

Mahı oğlunun adını eşidəndə dik qalxdı. İri addımlarla kişiyə yaxınlaşdı, intizar və ürək döyüntüsü ilə soruşdu:

– Nə xəbərdi? Hanı?

Salman kişi arvadının həyəcanını çox gözəl duyurdu. Əlini uzadıb onun soyuqdan göyərmiş biləyindən tutdu:

– Qorxma, a qız, xoş xəbərdi! İsfəndiyar faşistləri qırıb töküb!

Mahının gözlərində ildırımlar çaxdı. İxtiyarsız əlini sinəsinə döydü:

– Nə deyirsən, a kişi!..

Salman kişinin sifətini məsud bir təbəssüm işıqlandırdı.

– Vallah!

Eyni təbəssüm Mahının çöhrəsində də göründü. O, sevincdən yaşarmış gözlərini ərinin əlinə sarı çevirdi:

– Hanı? Harada?



Deyəsən o, bu şad xəbəri gətirən vasitəni arayırdı. Ərinin əlində məktub, ya teleqramma olacağını güman edirdi. Salman kişi əlini qoltuq cibinə atıb qəzeti çıxaranda Mahı sevincindən qızardı:

– Qəzetə vurulub?

– Bə nə! Şəhər hamısı oxuyub!

Mahı çəkib qəzeti ərinin əlindən aldı. Balkona qaçdı. Divardan boylanıb qonşu qızını səslədi:

– Tutu, ay Tutu! Bir oxu görüm! Oxu, İsfəndiyarı yazıblar, oxu!

Qonşu qız Sovet İnformasiya Bürosunun Moskva ətrafında gedən döyüşlər haqqında məlumatını oxudu. İsfəndiyarın adı gələndə Mahı dözə bilmədi:

– Can, – dedi, – bala! Vuran əllərin var olsun, bala! Uzun qollarına anan qurban, oğul!

Salman kişi də özünü saxlaya bilmədi. Gözlərindən iki damcı fərəh yaşı axdı. Ər-arvad evlərinə qayıtdılar. Qəzeti bir də oxutmaq, İsfəndiyar haqqında daha çox şeylər eşitmək istədilər. Ancaq qapı döyülürdü. Qəzetçilər İsfəndiyarın atasını, anasını axtarırdılar. Hərbi komissariatdan gələn cavan və şinelli oğlan onları təbrik edir, vətəni üçün qəhrəman oğul böyütdüklərinə görə təşəkkür edirdi.

Həmin axşam bütün ölkə İsfəndiyarın atasının səsini, qoca məktəb xadiminin səsini eşitdi.

Salman kişi böyük bir iftixarla, haqlı bir ictimai ləzzət hissi ilə mikrofon qabağında dayanıb vətənə və oğluna deyirdi:

– İsfəndiyar, əməyim sənə halal olsun! Halal olsun sənə ananın südü! Halal olsun sənə qızıl əsgər adı! Atanın üzünü ağ elədin, həmişə üzün ağ olsun!

*1941*

# QARDAŞ QANI

Komandir ilə mənim aramda əyri bitmiş, sıx kölgəli bir qarağac var idi. Sanki, komandirin işarəsini görüm deyə, ağac gövdəsini sağa tərəf yayındırmışdı. Mən komandirimin düz, cəld uzanan və bir istiqamət göstərən əlini, xüsusilə hədəfə tutulmuş süngü kimi şax dayanan şəhadət barmağını gördüm, tez yola düzəldim.

Biz yaralılar üçün gedirdik. Onları dərhal şose yoluna, sanitar maşınına gətirməli idik. Axtarış yerlərimiz isə başdan-ayağa atəş xətti idi. Yaralı axtardığımız hər addım torpağa hər dəqiqə ölüm yağırdı.

Günortaya yaxın idi. Günəş, sanki silahları daha da qızdırmaq üçün lap aşağılara enmişdi. Bəlkə də o, xalqlara fəlakət gətirən qəsbkar təyyarələri yandırmaq istəyirdi. Deyəsən, bunu döyüşçülərimiz də hiss etmişdilər. Onlar havada səslənən bu qızdırma milçəklərini məhv etmək üçün nə lazımsa edirdilər.

Mən daldalanmaq mümkün olmayan yerlərdə üzüüstə sürünürəm. Toplar nərildəyir, pulemyotlar tələsir, təkər səsləri dəmirçi bazarını xatırladır. Göy, yer bir-birinə qarışmışdır. Üfüqləri kəsif və bulanıq bir hava örtmüşdür. Adam çox eşidir, az görür. Güman edirsən ki, sənin sağında, solunda, arxanda, qarşında, başın üstündə və ayağın altında, hətta qəlbində, beynində alovlanan çarpışmaları, bütün bu gurultu və dəhşətləri müəyyən bir pərdə örtmüşdür.



Bunu düşünməyə vaxt hanı? Qulağıma sızıltı səsi gəlir. İstiqamətini seçə bilmirəm. Dalda bir yerdə gülədən qorunub başımı qaldırıram. Bütün vücudumla qulaq kəsilib dinləyirəm. Ancaq gurultudan heç nə seçilmir. Atəş xəttinə baxanda bizim dəstələrin irəliyə yüyürdüyünü görürəm. Odur, Bəhramın bütün bədəni ilə dartınaraq düşmən tərəfə əl bombası tulladığını görürəm. Bunları, bu iş və ürək yoldaşlarımı mən həmişə belə görmək istəyirəm. Nə üçün mən yaralı axtarıram? Niyə sanitar çantası əvəzinə əl bombası daşımayım?.. Hansı bir hiss iləsə yüyürmək istəyirəm. Sapand daşı kimi yarpaqları biçən güllələr yenə məni sürünməyə məcbur edir. Bayaqkı sızıltı yenə qulağımdadır. Deyəsən, zərbələr, döyüşlər, odlar, alovlar altında yer sim kimi titrəyir, inildəyirdi.

Mən gözümü dəstəmizdən ayıra bilmirəm. Deyəsən, orada, döyüşçülərimizin can-baş ilə vuruşduğu yerdə bu saat nə isə qeyri-adi bir şey olacaqdır. Bəlkə də, olmuşdur. Yaralı görmədikdə mən daha da ürəklənir, daha da sürətlə yeriyirəm. Birdən diqqətimi Bəhramın, zirək gəncin hərəkətləri cəlb etdi. O, yerə sinib atır, qalxır, yüyürmək istəyir, ancaq yüyürə bilmirdi. Əl hərəkətləri, baxışı və tüfəng atışı ilə o həmin Bəhram idi. On beş il mənimlə yoldaşlıq edən, mənimlə bir oxuyan və birlikdə cəbhəyə gələn Bəhram idi. Lakin ayağa qalxanda nə isə yerişinə bir ləngər və ağırlıq gəldiyini hiss edirdim. Bu əbəs deyilmiş: Bəhramın sol qıçı dizindən aşağı al qana boyanmışdı. Bu dəqiqəni, mənə qardaşdan yaxın və əziz olan Bəhramın yaralandığını gördüyüm vaxtı heç bir zaman unutmayacağam. Ürəyim dayanan kimi oldu. Axıb gedən bu qızıl qanda bütün əziz günlərimin, xatirələrimin, parlaq ümidlərimin getdiyini zənn etdim. İxtiyarsız qışqırdım, Bəhrama tərəf qaçdım.

Bəhram yarasının ağrısını ancaq indi hiss etdi. Mən təkid ilə onu səngərdən ayırdım. Yarasını bağlamaq istədim. Düşmən gülləri dolu kimi yağmağa başladı. Amansız bir güllə mənim sanitar çantamı sök-

dü. Bir də baş barmağımı apardı. Deyəsən, düşmən Bəhram kimi bir igid əsgərin ölümdən xilas olduğunu görmüş, quduraraq, bütün gücü ilə hücuma keçmişdi.

Bu hiss məni daha da əsəbiləşdirdi. Həyatımı itirsəm də, Bəhramı atəş xəttindən çıxarmağı qət etdim. Onun etirazına baxmayıb, qıçları tərpənməsin deyə bərk-bərk tüfəngə bağladım. Qolumu enli kürəklərinə doladım, böyrüm üstə sürünə-sürünə getdim.

Ətrafımız düşməndir. Bəlkə də pusquda duranlar var, səs çıxarmaq xatalıdır.

Bəhram da yəqin ki, buna görə susmuşdu. Mən hərdənbir onun üzünə baxır, itirdiyi qana heyifsilənirdim. Ancaq gözlərindəki dirilik və çevik hərəkət mənə ümid verirdi. Həkim məntəqəsinə çatmaq üçün tələsir, var gücümlə sürünürdüm.

Mənə elə gəldi ki, bu yeriş Bəhramı incidir, onun yarasını yenidən aça bilər. Bu xəstəni mən xərəkdə aparmalı idim. Buna imkan yox idi. Məntəqəyə az qalsa da, qarşıdakı yol eniş-yoxuşdur, yaralı əziyyət çəkəcəkdir.

Mən yaralını kənar bir qaya altına, kölgəliyə çəkirəm. Budaqlar, otlar ilə örtürəm. Bəhram, nə etmək istədiyimi düşünür, onun quru və solğun dodaqları tərpənir:

– Yanıram, su!

■ ■ ■

Bəhramı cərrah stoluna qoyanda həkim məni arxayın saldı.

– Qorxusu yoxdur. Bu ürəkdə əsgərdən ölüm uzaqdır.

Mən də bunu istəyirdim.

Bəhram igid bir əsgərdir, vətənin əziz oğludur. Bundan başqa Bəhram mənim həyatımın, gəncliyimin, arzu və ümidlərimin yarısı deməkdir. Xoş günlərim, qayğısız vaxtlarım deməkdir. Ona yaralı vaxtında kömək etmək və bu köməyin yaxşı nəticəsini görmək nə qədər xoşdur! Həkimin sözündən sonra Bəhramı təzədən diriltmiş kimi sevinirəm. Dizimə qüvvət, gözümə işıq, ürəyimə fərəh gəldi. Həkimi də, yaralını da, görməyə gələn işçiləri də qucaqlayıb öpmək istəyirəm. Həkimə kömək edən bacının mənə tərəf bir tüfəng gətirdiyini gördüm. Bu, təzə, parlaq,



həm də qanlı bir silah idi.

Bu silahı sahibsiz görəndə məni, nədənsə, ani bir kədər bürüdü. Onun gövdəsində Bəhramın qüvvətli əllərini, çaxmağında yoldaşımın şax barmaqlarını aradım. Deyəsən, mən duyanı şəfqət bacısı da duymuşdu. Yoxsa tüfəngi mənə verəndə mənalı-mənalı baxmazdı. Yoxsa heç tüfəngi mənə verməzdi.

Mən tüfəngi müqəddəs bir əmanət kimi ikiəlli tutmuşdum. Onu gözüm önünə gətirib baxır, sanki işıldayan dəmirlərdə, parıldayan ağacda nəyi isə oxumaq istəyirdim.

Mən çox durmadım, çox düşünmədim. Buna vaxt yox idi, komandirin hüzuruna gəldim, silahı göstərib icazə istədim.

– İzin verin hələlik Bəhramı əvəz edim. Dəstədə onun yeri boşdur.

Komandir xahişimi yerə salmadı. Məni sanitar dəstəsindən atıcılar dəstəsinə göndərdi.

Mən səngərlərdə silahı bağrıma basanda qardaşımdan əziz olan Bəhramı yanımda hiss edirdim. Silah səslənəndə Bəhramın dindiyini duyurdum. Silaha qulluq edəndə Bəhrama qulluq edirmiş kimi həzz alırdım. Ancaq tüfəngin qundağında möhür kimi qalan bir damla qanı silməmişdim və silməyəcəkdim. Bu, qardaş qanının əlaməti idi. Bu, Bəhramın, sanki, mənə qoyub getdiyi bir yaddaş idi. Mən düşməndən intiqam almalı idim. Bunu bacarmasam, nə vətən, nə komandir, nə Bəhram, nə də onun sevimli silahı məndən razı qalmazdı.

*1941*

# QORXU

Aşağıdan, ev idarəsinin balaca klubundan musiqi səsi gəlirdi. Hərdən musiqi yavaşıyır, kim isə fərəhli bir mahnı oxuyurdu. Oxuyanı Rəşid səsindən tanıdı. İskəndər idi. Rəşid bildi ki, uşaqlar çalıb-oynamağa yığılıblar. Sevincdən bilmədi nə etsin. Tez papağını başına qoydu, atasına dedi:

– Ata, İskəndərgil klubdadırlar, mən də gedirəm.

Atasının başı nəyə isə qarışıq idi. Dönüb baxmadan, yavaşca izin verdi:

– Get.

Rəşid işıqlı şüşəbənddən ötüb, üçüncü mərtəbədən aşağı düşməli idi. Ancaq dəhlizdə işıq yanmırdı, pilləkənlər qaranlıq idi.

Rəşidin gözü qaranlığa sataşanda ürəyinə qorxu düşdü. Pilləkənləri enməyə cürət etmədi. Elə güman etdi ki, pilləkənlərə ayaq qoysa xortdan tutub onu yeyəcək. Şüşəbəndin qapısında bir az dayanmamışdı ki, ürəyi daha da qorxuya düşdü. Tez qapını basıb geri qayıtdı. İstədi, qorxusunu atasına desin. Utandı.



Rəşid bilirdi ki, atası qorxaqları sevmir. Atası içəri otaqdan gələndə musiqinin səsi daha da ucalırdı. Həyətin uşaqları, qarmonçu Mişkaya oyun havası çaldırır, dəstə ilə oynayırdılar. Rəşidin atası pəncərəyə yanaşıb qulaq asmaq istəyirdi. Bir də gördü Rəşid qapının küncündə dayanıbdır. Elə bildi ki, Rəşid çalğıdan xoşlanmayaraq, qayıdıb gəlmişdir:

– Niyə qayıtdın?

Rəşid dinmədi. Atası yaxınlaşdı, onun üzünə baxdı:

– Bəs aşağı düşməmişdin?

– Yox!

Atası Rəşidin dərdini anladı:

– Yoxsa qorxursan, qaranlıqdanmı qorxursan?

Rəşid utandığından başını aşağı saldı:

– Yox, – dedi, – qaranlıqdan qorxmuram.

– Bəs nədən qorxursan?

– Xortdandan!

Atası qəhqəhə çəkib güldü. Rəşidin qolundan tutub kluba apardı.

– Bala, – dedi, – ay qırışmal, qaranlıq olanda nə olar? Gündə on dəfə çıxıb-düşdüyün pilləkənlərin nəyindən qorxursan, özünün də səkkiz yaşın var.

Rəşid yenə inandırmaq istədi:

– Qaranlıqdan qorxmuram, xortdan-zad olur.

– Deməli, xortdandan qorxursan. Yaxşı, Mişkaya bunu deyərəm.

Mişka qarmonçalan idi. Həm də zarafatcıl oğlan idi. Həyətin bütün uşaqları ilə dost idi. Görərdin, sözvaxtı onları başına yığıb, halay vuraraq söhbət edirdilər. Mişka haradansa bir kino aparatı tapmışdı. Həyətin divarına yekə ağ təlis mıxlamışdı. Aparatla işıq salır, həyətdə pulsuz kino göstərirdi. Mişka Rəşidin də xatirini çox istərdi. Hələ bir dəfə ona iki lent də bağışlamışdı.

Rəşid atasının əlindən tutaraq:

– Yox, ata, demə. Mişkaya demə.

Atası razı oldu.

– Mişkaya, – dedi, – söyləmərəm, amma sən xortdandan qorxmağı tərgit. Yoldaşların bilər, ayıbdır.

Rəşid kluba girəndə Mişka qarmonu yerə qoymuşdu. Uşaqlar iki

dəstə olub, əl-ələ vermişdilər. Oyun oynayırdılar. Rəşidi görən kimi Rüstəm İskəndərin əlini buraxdı, aralıqda Rəşidə yer elədilər. O da başqaları kimi əl-ələ tutdu.

Bir az oynayandan sonra, Mişka uşaqlara dedi:

– Oturun, yoldaşlar, nağıl deyəcəyəm.

Uşaqlar Mişkanın şirin nağıllarını çox eşitmişdilər. Tez stullarda oturdular. Bir-birinə macal vermədən qışqırdılar:

– Əsgərin nağılını danış!

– Koroğlunu!

– Məlikməmməd yaxşıdır.

Rəşid də xahiş edirdi:

– Pilotu de, pilot buluda gedir ha!

Mişka gəlib Rəşidin qabağında dayandı. Diqqətlə onun üzünə baxdı. Rəşid, güman etdi ki, "Pilotu" danışacaq, onun xahişinə əməl edəcək.

Amma Mişka, deyəsən, ayrı söz demək istəyirdi.

Rəşidin atası əhvalatı ona pıçıldamışdı.

– Uşaqlar, xortdanı kim görüb?

Uşaqlar gülüşdülər, Rəşid istədi desin "mən görmüşəm", birdən xəyalına gəldi ki, "görməmişəm axı, necə deyim görmüşəm".

Mişka sualına cavab gözləmədi, klubun orta tərəfinə çəkilib dedi:

– Bu saat xortdanı sizə göstərəcəyəm.

Uşaqlar sevindilər, dal cərgələrdə oturanlar qalxıb qabağa keçdilər. Bayaqdan çıxıb getmək üçün qapı ağzına çəkilənlər qayıdıb oturdular. Danışanlar, gülüşənlər kiridilər. Hamı dörd gözlə Mişkanın üzünə baxır, onun nə edəcəyini səbirsizliklə gözləyirdi.

Mişka bütün klubu sakit görüb, stol üstündəki külqabını götürdü.

– Uşaqlar, – dedi, – bunun içində nə var?

Uşaqlar cavab verdilər:

– Çöp!

Mişka uşaqlara yanaşdı. Bir əlini qulağının dalına tutdu, başını qabağa tərəf əyib diqqətlə qulaq asdı.

– Nə?

Uşaqlar bir də cavab verdilər:



– Çöp!

Mişka narazılığını bildirmək üçün başını tovladı:

– Yox!

İkinci cərgədəkilərdən soruşdu, "kibrit çöpü" dedilər. Mişka yenə razı olmadı. Üçüncü cərgədə oturanlar "spiçka" dedilər. Mişka əlini tovladı ki, "bilmədiniz".

Mişka qayıdıb qabaq tərəfdə dayandı, külqabıdakı çöplərə işarə edərək dedi:

– Bilmirsiniz, bunlar nədir?

Rəşid bu işə lap heyran qalmışdı. Yerindən qalxıb qabağa keçdi. Mişkanın lap yanına gəldi. Külqabının içinə diqqətlə baxdı. Dönüb dik-dik Mişkanın üzünə baxdı.

– Bu kibrit çöpüdür də, yoldaş Mişka.

Mişka gülümsədi və şəhadət barmağını sağa-sola tərəf tərpədərək, rədd etdi.

– Yox, yox. Sən də bilmədin.

– Bəs nədi? Özün de!

Mişka üzünü uşaqlara tutdu:

– Yoldaşlar, indi ki bilən olmadı, qoyun özüm deyim. Bax, bu külqabının içində gördükləriniz xortdandır.

Bu sözü deyən kimi uşaqlar gülüşdülər. Mişka heç qımışmadı da. Danışmağa başladı:

– Bəli, yoldaşlar, bu xortdandır. O ki sizin bəzilərinizi qorxudur, gecə çölə çıxmağa qoymur ha, o xortdan həmin budur ki, var.

Mişka bir kibrit çöpünü iki barmağı arasına alıb yuxarı qaldırdı, hamı gördü, hamı eşitdi, amma heç kəs inanmadı.

Mişka əli ilə sakitlik işarəsi verdi, başa saldı:

– Bilirəm, – dedi, – siz çox bərk adamsınız. İnanmayacaqsınız, sözümün canı var, sizə bu xortdandan bir nağıl danışım, görün dediyim düzdür, ya yox.

Uşaqlar sakitcə oturub dinləməyə başladılar. Mişka keçib qabaq stolun dalında oturdu. Danışdı:

– Mən kənddə olanda odun satırdım. Meşədən çırpı, meyvə yığıb gətirirdim. Biyan kökü var ey, şirin olur, çuğundur kimi qırmızı. Bizim

yerdə ondan çox var. Bir kişi öyrətmişdi. Yığıb gətirir, şəhərdə satırdım. Bir gün payız idi. Bir xurcun biyan kökünü satıb, sevincək evimizə qayıdırdım. Gecə idi. Piyada, tək gəlirdim...

Burada Mişka Rəşidin üzünə baxdı, nədənsə gülümsəyən kimi oldu. Əlavə etdi:

– Xortdandan-zaddan da qorxmurdum. Yolum qozlu meşədən düşdü. Hava soyuq idi. Ancaq əynim qalın idi, anam bir cilitka tikmişdi, kürəyinə də yun döşəmişdi. Onu geyinəndə elə qızışırdım ki, deyəsən, belimdə ocaq qalanıb. Başımda dəri papaq, ayağımda çarıq, yeyin gedirdim. Dünyada gözümə heç nə görünmürdü. Anamı düşünürdüm ki, evə tez çatım. Biyanın pulunu verim, getsin un alsın. Yolumdakı suya-batdağa da baxmırdım. Ayaqlarım qızışmışdı, rütubəti duymurdum. Qozlu meşə də çox böyük idi.

Rəşidin səbri tükəndi:

– Bəs xortdan necə oldu?

Mişka gülümsədi:

– Xortdan gələcək, ancaq özünü bərk saxla, qorxub qaçma!

Uşaqlar gülüşdülər. Rəşid qızardı, başını aşağı saldı. Mişka əllərini ovuşdura-ovuşdura danışığına davam etdi:

– Qozlu meşənin kəsilən yeri, böyük açıq bir taladır. Mən gecə ağacların arası ilə həmin talayacan gəldim. Açıqlığa çıxan kimi, ay da buluddan çıxdı, özünün süd işığı ilə aləmi boyadı. Mən bu açıqlıq və aydınlıqda bir az dayanmaq, rahatlanmaq istəyirdim. Bir xışıltı eşitdim. Ürəyim birtəhər oldu. O saat uşaq vaxtı anamın "xortdan" deyib məni qorxutduğu günlər yadıma düşdü. Dayanmadım, yoluma düzəldim, bir az da yeyinlədim.

– Yeyinləyəndən sonra, uşaqlar, nə görsəm yaxşıdır?

Mişkanın sualına heç kəsdən səs çıxmadı. Çünki hamı maraq və səbirsizliklə dinləyir, kibrit çöpünün, ya da xortdanın ortaya gəlməyini gözləyirdi.

Mişka davam etdi:

– Yeyinləyəndən sonra bir də gördüm ki, qabağımda bir şey oynayır. Diqqətimi yığıb baxdım: uzunqılça, adama oxşayan bir şeydir, ancaq başı görünmür. Mən yeridikcə o da qabağımda atıla-atıla gedirdi.



Canımı vahimə aldı, nə aldı. Durduğum yerdə hərəkətsiz qaldım. Yəqin elədim ki, qabağımdakı xortdandır. İstədim bərk qışqıram, səsim çıxmadı. İstədim qayıdıb qaçım. Buna da ürəyim gəlmədi. Bir neçə dəqiqə durdum, xortdan yox oldu. Yola ha baxdım, bir şey görə bilmədim, gözlərimi ovuşdurdum, öz-özümə güldüm. Dedim... Yəqin məni qara basırmış. Ürəkləndim, qalxıb yoluma düzəldim. Yenə beş-altı addım getmişdim ki, gördüm, budur ha xortdan qabağımda oynayır. Özü də uzun qılçalarını ata-ata məndən beş-altı addım irəlidə, səssiz-səmirsiz oynaya-oynaya gedir. Ancaq yenə başı görünmürdü. Mən özümə cürət verdim, əyilib yerdən yekə bir daş götürdüm. "Yaramaz heyvan, məndən nə istəyirsən?" dedim, daşı onun kürəyinə çırpmaq istədim. Qolumu qaldırdım ki, atım, gördüm ki, xortdan yoxdur. O yana xortdan, bu yana xortdan, yoxa çıxdı ki, çıxdı. Yoldan çıxıb, ağacların daldasına baxdım, kolları araladım ki, görüm xortdan qaçıb gizlənməyib ki. Heç bir şey görmədim. Dönüb yoluma davam elədim. İkicə addım getməmişdim bir də gördüm xortdan səliqə ilə qabağımda oynamaqdadır.

Nağılın burasında uşaqlar gülüşdülər. Mişka sözünü saxlamadı:

– Bu dəfə lap qorxuya düşdüm. Bütün bədənimi tər basdı. Papağımı çıxarıb üzümü sildim, bir göz açımında xortdan yenə yox oldu. Yenə ətrafı axtardım, səs elədim, əyilib bir neçə daş götürdüm, qabağa, dala tərəf atdım. Yolum ilə yeriməyə başladım. Gedirdim, hər addımda xortdanın qabağıma çıxacağını gözləyir, diqqətimi yoldan ayırmırdım. Ancaq xortdan görünmürdü. Xəyalımda dedim: "Daş atmışam qaçıb, ya səsimdən qorxub." Bir az da gedəndən sonra xortdanın məndən əl çəkdiyinə arxayın oldum. Başımın üşüdüyünü hiss etdim. Papağımı başıma basdım, yeyinlədim. Gecədən xeyli keçmişdi. Mən özümü qonşu kəndə salmaq, orada dincəlmək xəyalında idim. Başımı qaldıranda yenə xortdanın qabağımda oynadığını gördüm. İndi o, bir qıçının üstündə oynayırdı. Hərdən uçuna-uçuna dayanırdı. Məni təəccüb götürdü. "Bu nə olan şeydir? Belə də həyasız xortdan olarmı? Buna heç zad kar salmır, görəsən, necə eləyim?.." Durduğum yerdə fikirləşir, fikirləşdikcə vahimələnirdim. Papağımı əlimə alanda xortdan yenə yox oldu. Mən yəqin elədim ki, xortdan papaqdan qorxur. Papağı əlimdə tutub yeridim. Kəndin işıqları görünəndə ürəyim yerinə gəldi, daha qorxudan çıx-

dım. Bildim ki, xortdan cürət eləyib camaatın içinə gəlməz. Kənddə Haşım adlı yaxşı dostum var idi. Onun qapısına tərəf yönəldim. Tələsirdim ki, tez çatım, bu gecə başıma gələnləri dostuma danışım. Yaxınlaşanda papağı başıma qoydum, üst-başımı çırpdım. Ürəyimdə qoydum ki, dostumdan soruşacağam, görüm, xortdan papaqdan niyə qorxur? Haşımın darvazasına çatmağa beş-on addım qalanda xortdanın qabağımda atılıb-düşdüyünü görüb, heyran qaldım. Az qaldım özümdən gedəm. Bu heyvan, deyəsən, mənim ürəyimdən xəbər verirdi. Onun haqqında düşünən kimi, gəlib göz qabağında dikəlirdi. İstədim papağı əlimə alım, qaçsın. Bir də ürəyimə gəldi ki, "dəymə, qoy görək, mənimlə qonaq evinə girəcək, ya yox?" Mən ehtiyatla yeriyir, gözümü ondan ayırmır, onun hər hərəkətini izləyirdim. İzləyirdim, çünki, onu itirməmək, mümkün olsa, Haşıma da göstərmək lazım idi. Deyəsən, xortdan da mən gedən evə gedirdi. Mən fikir verirdim, Haşımgilin dar və yoxuşa doğru çıxan küçəsi ilə dırmaşdıqca xortdan da mənimlə dırmaşır, sanki mənə bələdçilik edirdi.

Mən Haşımın qapısında dayananda xortdan da dayandı. Darvazanın dəmirini tərpətdim, o saat Haşımın lampası yandı. Kişi qabağıma çıxdı. Məni görüb sevindi, görüşdü. Həyətə keçəndə mən qabağa diqqət elədim, başıyox xortdan qaçmamışdı, amma daha əvvəlki kimi oynaya bilmirdi. Yəqin elədim ki, xortdan qaçmayacaq. Qorxur, ya üşüyür. Rahat və dalda yer axtarır, qoy Haşımın evində xəlvətə salıb tutaq. Haşımdan xahiş elədim, lampaya xod verdi. Xortdan qabaqda, mən də onun dalınca qonaq otağına girdik. Gözüm kəlləmə çıxdı. Haşım döşəkcə qoyur, yasdıq gətirir, ha "əyləş", "əyləş" deyirdi. Ancaq mən ayaq üstdə mat qalmışdım, gözlərimi qaşlarıma sarı bərəltmişdim. Haşım elə bilmişdi ki, mən evin səqfinə baxıram.

– Yox, – deyirdi – aşna, gecikmisən, bandaqların hamısını yedik.

O, güman edirdi ki, mən asılmış üzüm bandaqlarını axtarıram. Mən papağımı çıxartdım. Qabaq tərəfdən sallanan, ortasından sınmış bir kibrit çöpünü əlimə aldım. Bu kibrit çöpünü ancaq indi, çıraq işığında yaxşıca tanımaq və necə bir xortdan olmasını seçmək mümkün idi. Kibrit çöpü, sən demə, papağımın qılından sallanır, mən yeridikcə atılıb düşürmüş. Götürüb baxdıqca qorxaqlığımdan utanırdım. Xeyli vaxt



heç nə demədim. Haşım çox soruşdu, çox bənd oldu, demək istəmədim.

Ancaq səhər, çay zamanı ürəyimdə söz saxlaya bilmədim, xortdan əhvalatını açdım.

Haşım da güldü və dedi:

– Bəli, dostum, xortdan elə belə-belə şeylərdir. Qorxan adamların gözündə kibrit çöpü bir xortdan, saman çöpü bir əjdaha olur. Qorxu bilməyən, cürətli adam üçün isə nə xortdan var, nə əjdaha. Onun gözünə tir də görünsə qorxmaz.

Mişka nağılını qurtardı, stol üstündəki kitabları yenidən barmağı ilə göstərib dedi:

– Uşaqlar xortdan-xortdan ki, deyirlər, elə budur ki, var. Meşə əhvalatından sonra mənim gözüm açılıb. Bir də elə mövhumata inanmaram.

Mişka sözünü bu yerə yetirəndə nədənsə dönüb Rəşidin üzünə baxdı. Rəşidin rəngi qızarmış, qaşları çatılmışdı. Mişka Rəşiddən ötüb İskəndərin qabağında dayandı.

– Yoldaş İskəndər, – dedi, – indi bildin xortdan nədir, ya yox?

İskəndər gülümsədi, heç nə demədi. Mişka keçib qarmonu əlinə aldı, döşünə basıb, yenə aləmə səs saldı.

Rəşid isə artıq qarmonu eşitməyə qalmadı. Qalxıb atasının yanına gəldi. Mişkadan eşitdiklərini bir-bir danışdı.

Atası da bu söhbəti təsdiq etdi. Ondan sonra Rəşid daha qorxmazdı. Gecə vaxtı təkcə pilləkənləri enib-qalxar, dərs oxumağa, oynamağa gələn yoldaşlarını təkbaşına yola salardı. Hər kəs xortdandan söhbət açsa, kibrit çöpünü əlinə alar, ortadan iki bölüb göstərərdi:

– Xortdan budur. Əllisi bir şahıya satılan xortdandan da adam qorxarmı?!

*1941*

# SUSUZLUQ

Payız yeni girmişdi. Ancaq yayın yandırıcı istisi, boğucu bürküsü davam edirdi. Biz şəhərdən çıxmış, yaxın kəndlərin birinə doğru yol almışdıq. Yolun hər iki tərəfi də quraqlıq və bomboş idi. Uzaq dağların döşündə saralan küləşli zəmilərdən, boz və sıldırım yarğanlardan başqa heç nə görünmürdü.

Ətrafda göyərti adında heç bir şey qalmamışdı. İsti bitkiləri qurutmuşdu. Sanki ətraf bu saat alışıb-yanacaqdı. Quraqlıq ucundan bu çöllərdə həyat əlaməti görünmürdü. Arabir daş və ya kol dibindən qalxan quşlar havada dayana bilməyib, dərhal yerə enirdilər. Onların uçuşu oda düşmüş, yanmaq qorxusundan çırpınan, çapalayan bir məxluqu xatırladırdı. Yalnız cırcıramaların səsi eşidilirdi ki, bu səs də adama nədənsə "yandım-yandım!" fəryadı kimi gəlirdi. Qaynayan hava təndirdən qalxan alov kimi titrək dalğalarla göyə çəkilirdi. Sanki bu saat yerdə hava qurtaracaqdı.

Burada, bu mənzərə qarşısında adamı yaxalayan susuzluq adi su-





suzluğa bənzəmir, burada ümumi bir atəş vücudu bəla kimi bürüyür, adamın dili deyil, baxışları, hərəkətləri də su istəyir.

Biz nabələd olduğumuzdan su gətirməmişdik, yoldaşım ustam Şahnəzər idi. O, gözəl bir rəssam idi. Xan evlərinin incə və zərif naxışları, məscidlərin mehrabında şeirlə yazılan yazılar, bəy eyvanlarını bəzəyən şəkillər hamısı onun əsərləri idi.

Mən Şahnəzərin sənətini sevmiş, onun yolunu tutmağı, böyüyəndə rəssam olmağı məqsəd seçmişdim. O, mənə bir şagird kimi yox, oğul kimi baxırdı. Sənətinin bütün sirlərini, sadə görünən rənglərdən insanı düşündürən gözəl mənzərələri yaratmağı mənə öyrədirdi. Hərdənbir ah çəkib, əlini dizinə çırpırdı ki: "Nə edim, savadsızam, elmsizəm! Kitabdan başım çıxmadı, o qara sətirlər mənimlə danışaydı! Allahın qabağına çıxıb yeni və daha gözəl aləm yaratmasaydım adımı dəyişərdim."

Doğrudan da ustamın belə bir qüdrət sahibi olduğuna ürəkdən inanmışdım. O, sənətindən söhbət edəndə rəngi qızarır, gözləri gülür, səsi ucalırdı. Elə eşqlə danışırdı ki, qulağımın dibində top da atılsaydı eşitməzdim. Hərdən üzünü aydın səhərin açıq üfüqlərinə tutub mənə deyərdi:

– Kitab oxuya bilməsək də, bunu ki, oxuya bilərik! Bütün kitabları buradan götürüblər. Səhərin rəngi məni çox düşündürür. Bu rəngi çəkə bilsəydik! Həmişə belə səhərlər olmur. Bunlar bənövşə kimi tez açılır, tez də solur. Bunu solmaqdan qorumaq üçün bir ipəkdə çəkmək, yaratmaq lazımdır.

– Usta, səhərə pul verən kimdir?! Xozeyinlər Həzrət Abbası çəkdirirlər, Rüstəmi istəyirlər.

– Eybi yoxdur, bala, qoy verməsinlər. Səhəri də özümüz üçün çəkərik.

Ustam bu arzusunu hələ yerinə yetirə bilməmişdi. Həmişə çalışır, evləri gəzib sifariş alır, işləyirdi. Dava düşən il bizə sifariş verən olmadı. Xozeyinlərin hansını dindirəndə deyirdilər:

– Rəhmətlik uşağı, göydən top gülləsi yağır, siz də şəkil çəkmək hayındasınız?

"Sənətkarın əli işindən üzüləndə ağzı da çörəkdən üzülər." Bu sö-

zü eşitmişdim, anlamamışdım. İndi isə gözümlə gördüm ki, ustam nə çəkir. İki abbasıya aldığı bir girvənkə çörəyi qabağımıza qoyub yeyəndə mən xəcalət çəkirdim. Ürəyimdə deyirdim ki: "Kişi özünə papiros pulu tapmır. Bu pis və bahalıq ildə mən nə üçün buna boğazortağı olum? Bəlkə, şagird saxlamaq istəmir, bəlkə mənim rüsxətimi vermək istəyir, üzündən gəlmir?.."

Bunları düşündükcə boğazımdan çörək getmirdi. Bir gün ustamdan xahiş etdim:

– Usta, iki il sizə zəhmət verdiyim bəsdir. Güzəran da pis olub. İzin verin evimizə gedim. Az-çox öyrənmişəm. Sağ olun, mənim boynumda haqqınız çoxdur.

Ağzımdan bu sözlər çıxar-çıxmaz ustam uşaq kimi ağlamağa başladı. Mən böyüklərin ancaq məsciddə, bir də ölü üstündə ağladıqlarını bilirdim. Şahnəzər ustanın gözlərindən axan yaş məni də köyrəltdi. Özümü saxlaya bilmədim, dediyimə peşman oldum.

Ustam nə üçün ağlayırdı? Bunu özü dedi:

– Oğul, düşünmə ki, mən pis gün çəkdiyim üçün, ya sənə haqq vermədiyim üçün ağlayıram, yox! Mən onun üçün ağlayıram ki, sənə korluq, yoxsulluq peşəsi öyrətdim. Atan səni mənə tapşıranda güman etmişdi ki, səni mahir bir usta yetirərəm. Axırda böyük bir sifarişi sənin özünə tapşıraram, işlərsən, sonra atanı, bütün dost-aşnanı yığıb, sənin əsərinin tamaşasına gətirərəm. Sən öz əsərinə, mən də öz əməyimə sevinərik. Atan da övladını bu yerdə görüb şad olar... – Ustam danışığını dəyişdi, səsini ucaltdı. – Yox, səni buraxa bilmərəm. Sən mənim bu günümdə getsən ömrüm boyu şəklə də, şəkil çəkənə də nifrət etməyə haqlı olacaqsan. Getmə! Sən gəl, mənə vəfalı çıxmasan da, dalınca düşdüyün sənətə etibar bağla. Bu sənət öləcəksə, qoy bizi də öldürsün.

Ustamın sözlərinə heç bir cavab vermədim. Başımı aşağı salıb dayandım. Etirazına qulaq asıb getmədiyimi görəndə ustam sevindi. Ayağa qalxıb, heybəsini götürdü.

– Gedək, kəndlərə gedək! – dedi.

Həmin gün biz kəndlərə çıxdıq.

İsti və susuzluq bizi taqətdən salmışdı. Buna baxmayaraq, getdikcə yeyinləyirdik. Kəndə çatmasaq da quraq və şoran çölləri keçib, özümüzü bir dərəyə, bulağa, heç olmazsa bir kölgəyə salmağa can atırdıq. Amma nə edəsən ki, isti daha da bərkiyir, günəş lap günorta yerində dayanıb, od tökmək istəyirdi. Şahnəzər ustamın dil-dodağı qurumuşdu. Danışmırdı. Bütün qüvvəsini dizlərinə yığıb yerimək, qarşıdakı təpəni aşmaq istəyirdi. Mənə təsəlli vermək üçün işarə ilə "az qalıb" deyirdi.

Təpəni aşandan sonra yamacda bir çoban gördük. O, sürüsünü qoruqdan, əkindən uzaq olan dağ döşünə buraxmış, özü isə bir daşın üstündə oturub bayatı deyirdi. Onun təbii və yanıqlı səsi dağlara düşüb, təkrar qayıdırdı. Qayaların cingiltili səsindən qoyunlar vahimələnmiş kimi dayanıb geriyə, yollara baxırdılar. Mən dağın ətrafına fikir verdim. Buralarda bir dərə və ya bulaq olmamış deyildi. Yoxsa burada sürü otarılmazdı. Təpənin şoran torpağına, bozaran yovşan kollarına diqqət edəndə çobanın qoyunu şora gətirdiyini anladım. Belə yerdə sürünü çox saxlamazlar. Bir az yedimi, qaytarıb həqiqi otlağa aparırlar...

Çoban özü üçün ehtiyat götürməmiş olmazdı. Ustamdan icazə almaq, çobandan su istəməyə getmək istədim.

Ustam razı olmadı:

– Onda su haradandır? – dedi.

Artıq Obalı kəndinin damları görünürdü. Həyətlərin bəzisində bitən tut, əncir ağaclarını görəndə sanki ürəyimə su səpildi. O, ağacların altındakı kölgəlikdə palaz salıb oturmaq, saxsı qabdan su töküb, doyunca içmək arzusu ilə ürəyim döyündü. Bu gündəlik adi və hər kəsə müyəssər olan nemətlər mənə bir xəyal kimi gəlirdi. Ustamın çoxdan söylədiyi bir söz indi mənə kar edirdi: "İnsan, əlində olan nemətin qədrini, ancaq əlindən çıxanda bilər."

Bu saat mən hər şeyi unutmuşdum. Ancaq su, sərinlik, kölgəlik arzulayırdım. Ona görə də təpədən aşağıya enişlə bərk yeriyirdim. Nəzərim kənddən ayrılanda yollara, qabağımdakı torpaqlara dikilirdi. Az qalırdım dayanam, dırnaqlarımla yeri deşib, yaş torpaq tapam, susuzluqdan yanan sinəmi ora sürtəm.

Ustam muştuluq xəbəri verdi:

– Çatmışıq, budur evlərə az qalıbdır. – Bir az sükutdan sonra əla-

və etdi: – Əgər biçinçi, rəncbər olsaydıq, bizi əzizlərdilər. İş də tapardıq. Ancaq bizim sənətimiz burada kimin nəyinə lazımdır?!

Ustam düz deyirdi. Bura nə sənət, nə sənətkar yeri idi. Ancaq bu hələ sonranın işidir. Bizə yanğından, susuzluqdan qurtarmaq lazım idi.

Evlərə çatdıqda sevincdənmi, ürəyimdəki yanğının təsirindənmi, ustamdan qabağa yeridim. İlk rast gəldiyim qapının rəzəsini tıqqıldatdım. Başı, yaxası açıq bir kişi çıxdı. Dinmədim, ustamın üzünə baxdım. O, ev sahibinə dedi:

– Bir içim su verin, qəribik.

Ev sahibi qapını daha da geniş açıb:

– Buyurun içəri, buyurun, – dedi.

O, bunu deyərək, əli ilə həyət tərəfi göstərdi. Biz baxanda qəribə bir aləm gördük. Gözəl və bağçalıq bir həyət idi. Ortada ağacın kölgəsi altında göz yaşı kimi dumduru su ilə dolu hovuzdan fəvvarə qalxırdı. Kənardan isə mis cam qoyulmuşdu. Mən qara və gödək kəndlidən bu səliqəni görəndə heyran qaldım. Susuzluğum daha da artdı. Özümü pal-paltarlı hovuzun içinə atmaq istədim. Ustamın ehtiramını saxlayıb, əvvəlcə onun su içməsini gözlədim. O, yüyürüb camı götürmək istəyəndə yerində donub qaldı. Heyran-heyran hovuza baxdı, sonra da məni çağırdı:

– Yaxın gəl!

Mən yaxın gedəndə bu mənzərənin rəssam lövhəsi olduğunu anladım. Buna nə ustam inana bilirdi, nə mən. Çargül və qalın parça üzərində çəkilmiş bu gözəl sənət əsəri bizi heyran etmişdi. Əlində bir kasa su gətirən və bizim heyrətimizə gülümsəyən ev sahibi üzr istədi:

– Bağışlayın, mən yoxlamaq istəyirəm.

– Nəyi yoxlayırsınız?

– Yoxlayıram, görüm çəkdiyim şəkil bir şeyə oxşayır, ya yox?

Ustamın heyrəti birə yüz artdı.

– Məgər bunu siz çəkmişsiniz?

Ev sahibi utana-utana cavab verdi:

– Bəli, qonaq qabağına çıxarılası ləyaqəti olmasa da, bağışlayın.

– Bu lap sizin öz əlinizdən çıxıb?



Ev sahibi şübhəmizi görəndə bizi qonaq otağına apardı, divarları bəzəyən rəngbərəng, cürbəcür şəkilləri göstərdi.

Ev sahibi çay hazırlamağa gedəndə Şahnəzər mənim əlimdən tutub, pəncərə qabağına çəkdi.

– Xırmana gedən, kotandan qayıdan, çırpı gətirən, saman daşıyan adamlara da diqqət elə! Qəribə nə görürsən? – dedi.

– Qəribə bir şey görmürəm!

– Hamısı çox sadə görünür. Ancaq sənət də elə bunlardadır. Bu adamlardadır. Gəl boynumuza alaq. Mən iyirmi ilin ustası, sən iki ilin şagirdisən. Heç birimiz bu qonaqcıl kişinin yaratdığını yaratmamışıq. Amma bizə sənətkar, ona kəndli deyirlər.

Mən ustamın dediklərini diqqətlə dinləyirdim. O, çöhrəsində parlayan heyrətini ifadə edərək danışırdı:

– Ən böyük sənətkar bunlar – həyat adamlarıdır. Əlini bunların ətəyindən üzənin vay halına!

Ustam yoldakı söhbətimizdə yanıldığını mənə başa salmaq istəyirdi.

*1941*

# VURAN ƏLLƏR

–Sən cəbhəyə nə ilə kömək etmisən?

Küçə ağzında asılmış plakatda bir oğlan uşağı, qızıl qalstuklu pioner, qarovul kimi dayanıb gələnə-gedənə bu sualı verir. Bəziləri bu suala xəyalında cavab verir, bəziləri öz vəzifələrini xatırlayır, özləri də pionerdən daha başqa şeylər eşitmək istəyirmiş kimi, dayanıb onun üzünə baxır.

Nadirə kənd qiraətxanasında çalışırdı. Hər səhər işə gedəndə, qayıdanda həmin plakatı görürdü. Sanki məhz onun üçün, hər gün kəndlilər ilə görüşən, maarif idarəsində çalışan bir qız üçün dayanır, sanki günün müqəddəs və vacib vəzifələrini ona xatırlatmaq üçün dayanırdı. Nadirə yaxınlaşdıqca pioner böyüyür, böyüdükcə yaxınlaşırdı, şəhadət barmağı ilə qızın sinəsinə işarə edib deyirdi: "Sən cəbhə üçün nə etmisən?" Nadirə bu sualı qulağı ilə yox, qəlbi ilə eşidirdi. Ötüb gedəndən, uzaqlaşandan sonra da Nadirə pionerin sualını eşidirdi.

Xoşuna getdiyi üçünmü, aktivlik göstərmək istədiyi üçünmü, Nadirə həmin plakatın birini götürüb qiraət komasına vurdu. Oxucular ona baxdıqca, onu oxuduqca, Nadirə həzz alırdı. Nadirənin qiraətxanasına həmişə savadlı adamlar gəlmirdi. Bəzən qoca kolxozçular gəlib əyləşir, radio dinləyirdilər. Məşədi Əsgər kişi özü savadsız olsa da, hər axşam gəlib Nadirəyə qəzet oxudardı.

Nadirə bu gün qəzetdən əvvəl plakatı göstərib Məşədi Əsgər əmini danışdırdı:

– Bilirsən, bu nə deyir?

– Bir şey demir, yol göstərir!

– Yox, a Məşədi əmi, söz soruşur.

– Kimdən soruşur?

– Hamıdan, lap belə sən Məşədi Əsgər əmidən!

– Məndən o nə soruşacaq, bir tikə uşaq?

– Deyir, üç aydır vətən davası düşüb, sən nə iş görmüsən? Deyir, vətən qəhrəmanlarına, səngərlərdə vuruşan igidlərə nə yaxşılığın dəyib?

Bu sözdə Məşədi Əsgər əmi plakata yaxın gəldi. Diqqətlə baxdı, bir xeyli sükutdan sonra Nadirəyə dedi:

– Həlbət ki! Həlbət ki, soruşa gərək. İgidin kirdarı yaman gündə bəlli olar! Mənə qalırsa, bu saat böyükdən kiçiyə hamının əməyi gərək yoxlana!

Nadirə kişinin sözünü kəsdi:

– Öz barəndə necə, bir şey eyləmisən, ya yox?

Məşədi Əsgər əmi yenə susdu. Heç bir şey eşitməyənlər kimi, sanki deməyə sözü yox idi. Ancaq belə deyildi. Məşədi Əsgər əmi iş adamı idi, dil adamı deyildi.

– Qızım, – dedi, – mənim gördüyüm iş də, görmədiyim iş də var. Ancaq təki hamımız elə bu pioner kimi düşünüb danışa idik. Hələ ağzından süd iyi gəlir, yenə vətən dərdinə, el dərdinə qalır. Tez böyüsün, boya-başa çatsın belə uşaqları.

Sonra Məşədi Əsgər əmi Nadirəyə öz tarla işindən, müdafiə fonduna etdiyi hədiyyədən danışdı. Bugünkü söhbətdən sonra iki qoyun dərisi aşıladıb kürk tikdirməyi öhdəsinə götürdü.

Nadirə Məşədi Əsgəri yola salandan sonra öz-özünə bir qədər fikrə getdi. Pionerin sözündən təsirlənən, vətən yolunda hər şeyindən keç-

məyə hazır olan qoca kişi onun gözündə böyüdü. Əvvəl ona elə gəlmişdi ki, Məşədi Əsgər əmi avamdır, savadsızdır, qəzeti, jurnalı, plakatı oxuyub ona başa salmaq lazımdır. Ancaq indi, Nadirəyə yəqin idi ki, Məşədi Əsgər əmi, pioneri qiraətxana işçisindən yaxşı başa düşmüşdür. O kişi sualın mənasını anlamış, cəbhələri, vuruşan vətən oğullarını gözü ilə görmüş kimi, ürəkdən duymuşdur. Nadirə bir də plakata baxdı. Deyəsən, pioner, Məşədi Əsgər əmidən razı qalan pioner, Nadirədən təkrar soruşdu: "Bəs sən özün nə etmisən?" Nadirə bu suala qarşı, ürəyində öz işini, fəaliyyətini söyləmək istədi. Ancaq bunu söyləmək artıq idi. Ona görə ki, pioner özü görürdü. Ona görə ki, bu iş adi qulluq, xidmət fəaliyyəti idi...

Nadirə də özünü kolxozçu Məşədi Əsgər əminin, dünya görmüş, çox işləyib az danışan kişinin yerinə qoydu: "Mən də bacararam. Mən də bacarmalıyam!"

Bu əhvalatdan sonra Nadirəni komada əliboş görmək olmazdı. Adamlara qəzet, jurnal təqdim edəndən, gələnlərin tələblərini ödəyəndən sonra qayğısız analar kimi arxayınca oturar, ipdən əlcək toxuyardı.

Nadirə anasının əyirdiyi ipi özü əlvan boyalarla boyayar, hər üç-beş gündə bir əlcək toxuyub hazır edərdi. Qiraətxanaya gələnlərin çoxu Nadirənin əlcəklərinə tamah salardı. Satın istəməyə utanardılar.

– Nadirə bacı, – deyərdilər, – nə olar, ipi-sapı özümdən, bir cüt də mənə toxusana!

Nadirə onların xatirini sındırmazdı:

– Cəbhədəkilərə vacibdir, qurtarım, sonra baş üstə!

Cavanların ürəyindən ayrı şey keçərdi:

– Bilirəm, bilirəm, əlindəki vacibdir, nişanlın üçündür!..

Nadirə gülümsər, təsdiq edərdi:

– Əlbət ki!

Bir ay çəkmədi ki, Nadirə səkkiz cüt əlcək toxuyub bir tərəfə yığdı. Əlcəklər boz ipdən toxunmuş, biləklərinə qırmızı, yaşıl haşiyə çəkilmiş, orta yerində ulduz şəkli qoyulmuşdu..

Nadirənin anası neçə dəfə qızından soruşub, onun həvəslə, birdən-birə, tələsik başladığı və bitirdiyi işin kim üçün olduğunu bilmək istəmişdi. Qız açmamışdı:



– Ana, – demişdi, – idarəmizdə istəyən var!

Ancaq hazır əlcəkləri ağ bir dəsmala bağlayıb aparanda, Nadirə açıb anasına demişdi.

Anası əsgərlər üçün olduğunu biləndən sonra sevinmiş, məhəbbətli, şəfqətli ana ürəyi ilə demişdi:

– Halal olsun, bala! Allah sənə də, əsgərlərimizə də kömək eləsin! Apar, onlarda mənim də əməyim var, apar!

Nadirə əlcəkləri gətirib partiya komiteti katibinə verəndə xahiş etdi:

– Əsgər qardaşlarım üçün toxumuşam. Dedim, qışdır, soyuq, şaxtadır. Onlar boranda, qarda düşmən üstünə cumanda barmaqları üşüməsin. Səkkiz adamın əlcəyini gətirmişəm. Xahişim budur ki, əsgərlər cavab yazsın, sovqatımın yerinə çatdığını mənə bildirsinlər.

■ ■ ■

İyirmi gün sonra uzaqdan, Ukraynadan Nadirənin adresinə bir kağız gəldi. N. hissəsinin əsgərləri yazır, onlara göndərilən əlcəklər üçün təşəkkür edirdilər.

Nadirə bu xəbərdən aldığı sevinci heç bir zaman unutmaz. Əsgərlərin məktubunu evdə, qiraətxanada oxuyub, xüsusilə pionerin, plakatda sual verən uşağın qabağında dayanıb ucadan oxuyur, şəklə baxırdı. Məktubu qurtardıqdan sonra şəhadət barmağı ilə pionerə işarə edirdi:

– İndi bildin ki, mən nə etmişəm!

Əlcəklər, bir neçə həftə bundan əvvəl toxuyub əldən çıxardığı əlcəklər gəlib Nadirənin gözü önündə dayandı. İndi onların hər biri bir igid əlindədir. İndi onların hamısı vuran əllərdədir. Səkkiz nəfər, düz bir cərgə qızıl döyüşçü qızın təsəvvüründə canlanırdı. Onlar yan-yana, arxa-arxaya durur, əlcəkli əlləri ilə tutduqları silahı corab mili kimi cəld və tez-tez oynadır, süngü ilə düşmən nəfərlərini yerə sərirlər. Nadirə bunları möhkəm addımlarını irəli atan, dönməz qollarını qabağa uzadan, hər anda min cür döyüş hərəkəti göstərən adamları gözünün önünə gətirir. Onları görmək, onlarla görüşmək istəyir.

Onlar da döyüşün, davanın o qızğın dəqiqələrində, vətən qızının

qayğı və diqqətini görüb duyurlar. Vətən üfüqlərində bir şəfəq kimi görünən mehriban qızların, gəlinlərin, anaların çöhrələrinə baxıb gülümsəyir, daha böyük inam, daha qəti etimad ilə düşmən üstünə cumurlar.

Bu mənzərə Nadirənin xəyalında nəqş olmuşdu. Həmişə təsəvvürünə gətirdikcə, ürəyindən bu sözlər keçərdi:

– Vuran əlləriniz ağrımasın. Qollarınız dönməsin. İgid arxanız yer görməsin!

*1941*



# YOL AÇIQDIR

Məmmədrza lap qabaq cərgədə idi. Komandirin əmrini alan kimi xəlvətcə sürünə-sürünə irəlilədi.

O, düşmənin atəş nöqtələrini öyrənməli, miqdarını, vəziyyətini təyin etməli idi. Zəmilərin içindən sürünərək gedir, sünbülləri belə səsləndirməkdən ehtiyat edirdi.

Bir xeyli gedəndən sonra pulemyot yuvasına yaxınlaşdığını hiss etdi. Daldada bir yerə çəkilib sağ cinahdan düşmən səngərlərini müşahidəyə başladı. Budur, 40-50 addımlıqda, hələ yaxşı qurumamış səngər torpaqlarının dalında yan-yana düzülmüş düşmənin dörd pulemyotu işləyir.

İşıldayan kaskalarını gözlərinin üstünə basaraq, görünməmək üçün səngərlərə sığınıb vücudlarını kiçiltməyə cəhd edən düşmən soldatları vahimə içindədirlər. Onlar pulemyot ilə iş görmür, sanki, ona yalvarır, hücum edənlərdən qorunmaq istəyirlər.

Onların əyilmiş gövdələri kənardan yaxşıca nişana gəlirdi. Məmmədrza avtomat tüfəngini dilləndirən kimi pulemyotlar susdu. Pulem-

yotçular ağacdan üzülmüş çürük qoz kimi dığırlandılar. Atəş ocaqlarında mənalı bir toz parçasından başqa bir şey qalmadı.

Məmmədrza avtomat tüfəngini çiyninə salıb tez xəbər apardı. Komandir onun gördüyü işi duyduğu üçün bütün döyüşçülərlə yenidən hücuma keçdi. Məmmədrzanın gülən gözləri bir şey deyirdi:

– Artıq yol açıqdır!

Öz komandirinin, öz döyüşçü yoldaşlarının, qələbə yolunda vuruşan Məmmədrzanın qəlbi iftixar hissi ilə doldu. Onunla bir məqsəd, bir arzu daşıyan, hər biri qardaşdan artıq mehriban və fədakar olan əsgərlərin yürüşündən ürəyi dağlar qədər böyüdü, sinəsinə sığmayan bir sevinc hissi ilə qışqırmaq istədi.

Lakin hələ tez idi. Vətən torpağında düşmən izləri gördükcə Məmmədrza rahat ola bilməzdi.

Çox çəkmədi, qızıl döyüşçülər qırğı kimi düşmənin üstünü aldılar. Məmmədrzanın avtomat tüfəngi bu gün lüləsini soyutmadan işlədi, od yağdırdı. Düşmən özünü fəlakətdə görüb son sursatına əl atdı. Bombaların biri Məmmədrzanın sol tərəfində partladı. Sol qolundan qan fışqıranda igid əsgər daha da qəzəbləndi. O, bütün gücü ilə irəli yeriyir, tam sürətlə atəş açırdı, sanki, o, özünü yaralayan qatili görür, qəzəblə qovur, cəzasına çatdırmaq istəyirdi. Döyüşçü Feliks onun qayışından tutub güc ilə geriyə qaytardı. Qan itirməsin deyə yarasını rezin ilə boğdu, bağladı. Lakin Məmmədrza rahat olmurdu.

– Mənə, – deyirdi, – heç bir şey olmamışdır, qoluma tikan batmışdır.

Feliks onu arxaya, sanitar məntəqəsinə göndərməyə çalışırdı. O isə yoldaşlarını buralarda, atəş xəttində qoyub getmək istəmirdi. Toplar guruldayır, pulemyotlar torpağı göyə sovurur, aeroplanlar bomba tökürdü. Günün istisindən, barıt iyindən nəfəs almaq olmurdu. Məmmədrza nəyi isə axtarır, avtomat tüfəngini əlindən yerə qoymurdu. Birdən o, şikar görmüş ovçu kimi sol tərəfə, kolluqlara sarı cumdu. Feliks onu izləyirdi. Tüfənginin lüləsini birisinin kəlləsinə dayadığını gördü.

Bu, layiqli şikar idi. Düşmənin bir polkovniki yaralanıb qalmışdı. Kol dibindən tapanca gülləsi ilə bizimkiləri dənləmək istəyirdi.

Tüfəngin lüləsi başına dəyəndə polkovnik boynunu yığdı, tapancanı tullayıb təslim oldu.



Polkovniki ştaba təhvil verəndən sonra Məmmədrzanı xəstəxanaya apardılar.

■ ■ ■

Gurultulu, gərgin cəbhə həyatından sonra Məmmədrza xəstəxanada darıxır. Oturub həm arxaya, həm cəbhəyə məktub yazır. Komandirdən xahiş edir ki, "mənim avtomat tüfəngimi heç kimə verməyin, ona öyrəşmişəm, əlimə yatan silahdır!"

*1941*

# YOLLAR

Dan yeri ağarır, göylərə gümüş kimi bir parıltı gəlir. Xəfif və sərin yay küləyi bağlardan, bostanlardan, çiçəklərdən, lalələrdən ötərək hər yerə ətir gətirir.

Böyük şəhər öz uca və əzəmətli binaları, geniş və açıq küçələri, səsli sahilləri ilə oyanır.

Mərkəz küçəsi ilə böyük və nəhayətsiz bir dəstə irəliləyir. Bunlar ölkəmizə hücum edən qəsbkarların hərəkətini eşidən kimi, xalqın ilk çağırışı ilə vətən torpağını qorumağa gedən vətən övladlarıdır.

Ədhəm də bunların içindədir. O, komandanın ilk cərgələrində, sanki, bu saat çatacağı yüksək bir məqsəd, yüksək bir arzuya doğru gedir.

Ədhəm ananın tək oğludur. İki il olmaz ki, Nailə ilə evlənmişdir. Onların odlu məhəbbəti ay parçası kimi bir uşağın simasında parladı. Uşağın adını Sabah qoydular. Sabah ailənin sevinclərini göstərən bir təbəssüm kimi gözəldir.



Bir gün səhər Ədhəm işdən tez qayıtdı. Əsəbi vəziyyətdə Nailənin əlindən tutdu:

– Əzizim, – dedi, – düşmənin hiyləsini görürsənmi? Mən getməliyəm, Nailə!

Nailə də faşist quldurlarının təcavüzünü eşitmişdi. Ədhəmin sözünə cavab tapa bilmədi. Balasını qucağına alıb Ədhəmin yanınca getdi. O balaca, lakin möhkəm ailə öz iradələrini, arzu və istəklərini bildirmək üçün hərbi məntəqəyə gəldilər.

■ ■ ■

Nailə Ədhəmin boynunu qucaqlamışdı:

– Əzizim, – deyirdi, – özünlə isti corab apar, yoluna azuqə hazırlayım, xatırın nə istəyirsə de!

Ədhəm onu başa salırdı:

– Heç bir şey lazım deyil, Nailə, bizim üçün hər şey hazırlamışlar. Səndən bir şey xahiş edirəm.

Bu sözü deyəndə, o, nədənsə qızardı, dodaqları titrədi.

Nailə Ədhəmin qollarından tutdu.

Nailənin ürəyi dolmuşdu. Səfər qarşısında olan yoldaşının hər sözü, hər arzusu onun üçün müqəddəs və xoş idi. O, istəyirdi ki, Ədhəm bu saat tələbkar olsun, paltar istəsin, xörək hazırlatsın, yol azuqəsi...

O, indi Ədhəmə yalnız həyat yoldaşı, sevgili kimi baxmırdı. O, Ədhəmə həm də bir əsgər kimi baxırdı. Ədhəm böyük və müqəddəs bir səfərə çıxır. O, addımlarını milyonlarla vətənpərvərlərin yürüş ahənginə qatıb yollanacaqdır. O, dayanmadan cəbhəyə azğın düşmənin cinayətlərinə son qoymağa gedir. Bu yolun yolçusu hamı üçün – böyük üçün, kiçik üçün, qadın, kişi, qonum-qonşu, şəhərli, kəndli üçün, kolxozçu, fəhlə, əkinçi, ziyalı üçün, hər bir kəs üçün əziz və yaxındır.

Nailə sıralarda gedən gənclərin başına gül dəstələri atıldığını görürdü. Yüzlərlə qoca, cavan qadınların alqış səslərini eşidirdi.

İndi budur, öz sevgilisi yola düşmək üzrədir. Bir saatdan sonra onun bu qüvvətli qollarını Nailə artıq tuta bilməyəcəkdir. Bu qollar ar-

tıq xidmətdə olmalıdır. Bu məqamda Ədhəmin hər bir xahişinə əməl etmək Nailə üçün əbədi bir səadət, bir ürək rahatlığı idi.

Nailə onun qollarını sıxıb aramsız dedi:

– De, əzizim, nə xahişin varsa, həyatımla ödəyərəm.

Ədhəm beşikdən Sabahı götürüb qucağına aldı. Şamama kimi yumru, buz parçası kimi sağlam uşaq atasının qucağında durmurdu. O, balıq kimi sürüşür, qol-qanad açırdı. Sanki, əldən qurtarmaq, iməkləyərək haraya isə getmək istəyirdi. Uşağın bu təlaşını görəndə Nailənin ürəyinə gəldi: "O da anlamışdır, o, vətən torpağına yad ayaq dəydiyini duymuşdur. Atasının qabağına düşüb getmək, bəlkə də canını fəda etmək istəyir."

Ana özünü saxlaya bilmədi, balasının gözlərindən öpdü, ancaq Ədhəmin əlindən almadı. İntizar ilə bir də soruşdu:

– De, Ədhəm nə xahişin çəkir, de!

Ədhəm Sabahın gülümsər üzünə baxdı, sonra Nailəyə döndü:

– Nailə, – dedi, – Sabahı vətənimizin sabahına hazır böyüt. Ana, həm də ata ol!

Nailə Ədhəmi qucaqladı:

– Arxayın get, – dedi, – əzizim! Ailədən xatircəm ol. Balanın da fikrini çəkən vardır. Get! Uğur olsun, Ədhəm, düşmənin puç olsun, bəxtim, taleyim, bu körpənin məsum baxışları, vətən torpağının qüdsiyyəti sənə kömək olsun!

■ ■ ■

Üç gün sonra, yenə qızıl rəngli bir səhər qızaranda gənclərin böyük və silahlı bir dəstəsi şəhəri tərk edirdi. Nailə kənarda dayanıb səfərbərlərin addım səslərini dinləyir, şəfəqdən görünən və get-gedə uzaqlaşaraq kiçilən siluetləri seyr edir, qucağındakı balasına göstərirdi. Dəstələr uzaqlaşanda onların arasından bir süngü qalxdı. Süngünün ucundakı kiçik qızıl bayraq quş qanadı kimi çırpındı. Həmin bu mənzərənin arxasında cavan ana balasını başına qaldırmışdı. Sanki, o, Sabahı dəstədəkilərə göstərmək istəyirdi, ancaq Nailə demək istəyirdi:



– O bayrağa zaval gəlməz, o süngü dönməz, o qol bükülməz. Səhər dəstələri məğlub olmaz. Yaşasın Qızıl Ordu dəstələrinin arxasında çiçəklənən sabah, səadət!

Ədhəm də bu inam ilə süngüsünü qaldırmışdı. Bu inam ilə də həmin süngünü cəbhədə işlədəcəkdi.

*1941*

# ŞAHİN VƏ SONA

Gəmi uzun əsrlər dalğalarla döyülmüş qaya kimi sahildən ayrıldı. Sular onu, bir daha quruya qovuşmasın deyə, quzunu qoyundan ayıran kimi itələyib apardı. Sahildən içərilərə doğru uzanan dərin bir iz qaldı. Sanki, şəhər gəmini buraxmaq istəmirdi. Körpüdə yığılıb ayrılıq mərasiminə dayanan, yaylıq oynadan adamlar hər hansı bir qəzanın əli ilə müsafirlərdən uzaqlaşırdılar. Gəmidəkilərin üzü şəhərdən dönmür.

Sona göyərtədə bir məsumluq heykəli kimi donub qalmışdı. Gözlərindən axan yaş damlaları Xəzər sularına qarışırdı. Keçmişin mənasını gələcəyə söyləyən, doğma məhəbbətin qiymətini verən bu dürdanələr dənizin lap təkinə batırdı.

Gəmi çoxlarını aparırdı. Ancaq heç kəsin dərdi Sonanın kədəri qədər intəhasız deyildi.

Atası ona təsəlli verirdi:

– Qızım, ticarətimiz, bağ-bağatımız orada, əqrəbamız orada, mən də, anan da yanında, nədən qüssələnirsən?



Qızın qəlbi toxtasın deyə, hər şeyi, evin ən xırda əşyasını belə yığıb aparırdılar:

– Sona bu kürsüdə oturur, bu mürəkkəbqabı da onundur. Sona bu stəkanda çay içir. Qızımın kitab şkafı, tikiş maşını... hamısı getməlidir!

Bəs Sona niyə qüssələnirdi? Çünki o, aparılmayan, qiyamətə qədər heç kəsin apara bilməyəcəyi bir şeyi qoyub gedirdi. O, Bakını tərk etməyə məcbur idi. Bakı isə Sonanın həyatı, cavan ömrü idi. Su üzündə olsa da gözləri hələ də sahilin möhtəşəm mənzərəsində, xəyalı hələ də sovet məktəbinin dərs otaqlarında, qəlbi yoldaşlar yanında, ürəyi həqiqət kitablarında idi.

O, tək Bakının yox, təzəcə çiçəklənmiş, rövnəqlənmiş cavanlığının gülzar bağını, təzəcə alovlanan hissini... hamısını qoyub gedirdi.

Bu mümkündürmü?

Şahin uşaqlıqdan səs-səsə verib böyüdüyü, bir danışıb, bir güldüyü, bir anladığı əziz yoldaşı Şahin də Bakıda qalırdı. O, təyyarəçilik məktəbində oxuyacaq idi. Sona isə təhsilindən əl çəkirdi.

Sonanın göz yaşları qurumamış Bakı görünməz oldu. Boşa çıxan ümidlər, sönən arzular kimi, getdikcə kiçilən şəhər axırda bir qaranquş kimi üfüqdə qeyb oldu. Sanki Sonanın sinəsindən qəlbini qopartdılar. Gözü qaraldı. Qanı damarlarında donub durdu. Vücudu vurğun kimi hissini, hərəkətini itirdi. Deyəsən, əsrarəngiz göylər başdan-başa bir müsibət olub, müdhiş qayalar kimi, vətən qızının başına töküldü. Kainat müvazinətini, çaylar istiqamətini itirdi. Dənizlər köpürdü. Sular çöllərə axdı.

Yalnız Sonanın tutulmuş günəş kimi küskün çöhrəsi açılmadı, gülmədi.

Güney bağları Sonanın yeganə musiqisi olmuşdu. O, azmış quşlar kimi iydə, badam ağaclarının başına qonar, üzünü Xəzər nəsimlərinə tutub bayatı çağırardı:

*Əziziyəm, hər aylar,*
*Hər ulduzlar, hər aylar,*
*Başım cəllad əlində*
*Dilim səni haraylar.*

Orada, o düzənli bağlarda qızın səsini eşidən, dərdini duyan olurdumu? Bunu bilmirik. Bildiyimiz budur ki, yaz quşları, ətirli yarpaqlar içində uçuşan o xeyir mələkləri sınıq qəlbin mahnısını ipək kimi tel-tel edib havaya səpər, sabah yeli ilə Şahinə göndərərdilər. Qız da Şahinin xəyalı ilə həmişə göylərdə yaşardı. Buludları, dumanları, məsafələri yarar, ərşə qədər uçar, yerlərdə itirdiyi məhəbbətini səmada axtarardı. Gündüz sakit ayazların dərinlərinə dalıb, məyusluq içində boğular, gecə də diz çöküb, hər ulduzdan soraq sorardı. Hilalı hilal qəddinə, bədiri solğun çöhrəsinə, qaranlığı kor taleyinə şahid çəkərdi. Baharı acı xatirələrdə, xəzanı məhrumiyyət ahlarında batıb gedərdi.

Yenə xəzan bütün qəm-qüssəsi ilə gəlmişdi. Sonaya tutqun axşamlar, intizarlı səhərlər, saraltılar, solğunluqlar, naümidliklər gətirmişdi.

Sona iydəliyə çıxıb kölgəliklər içində kəpənək kimi gəzişirdi. Birdən göylər şaqqıldadı.

Ayaz göylər şaqqıldamaz ki!

Sona gözünü qaldıranda, vətən üfüqlərini ölçən ulduznişan təyyarələri görəndə yanaqları gül kimi qızardı, vücudunun bütün qanı qəlbinə yığıldı. Gözləri çıraq kimi yandı. Dodaqları yarpaq kimi əsdi, gözü səmada, özü o yan-bu yana yüyürdü. Hay salmaq, nə isə demək istədi. Dili tutmadı. Başıaçıq, saçı dağınıq halda bağdan çıxıb, adamların axışdığı meydançaya yüyürdü.

Bir saatdan sonra meşin libaslı, döşü qızıl ulduz nişanlı, ucaboy, sağlam, müsəlləh bir cavan – igid Şahin Sonanın əlini sıxıb, möhkəm bir qətiyyətlə deyirdi:

– Sizin yolunuzda, məhəbbətiniz yolunda fədayi gəlmişəm.

*1941*



# ŞƏRBƏT

## I

Ostapenkonu mən yaylaqdan tanıyırdım. Yay istirahətimi mən orada, Sovet Ukraynasının səfalı bir kəndində, səliqəli Ostapenko kişinin balaca, yaraşıqlı evində keçirirdim. Bu ucaboy, topsaqqal kişinin zəhmətə olan eşqi məni çox maraqlandırırdı. Ostapenkonun arvadı beş il əvvəl vəfat etmişdi. 21 yaşlı qızı şəhərdə tibb institutunda oxuyurdu. 14 yaşlı oğlu isə kənd məktəbində oxuyur, həm də atasına kömək edirdi. Özü onlara həm atalıq, həm də analıq edirdi. Təsərrüfat işindən sonra da evdə oturmaz, rahatlıq bilməzdi. Gah onu rayon kitab mağazasında dərs kitabları seçən, gah tibb institutu qabağında dayanıb qızının dərsdən çıxmasını gözləyən, gah əlində uşaq ayaqqabısı pinəçi yanına gedən, gah da qapı ağzında, ayaq üstə oğlunu dayandırıb, düyməsini tikən görmək olardı.

Lakin evdar və təsərrüfatçı Ostapenkonun əsl peşəsi məni daha çox maraqlandırırdı. O, mahir bir arıçı idi. Yamaca tərəf uzanan böyük,

ağaclı, güllü həyətində həmişə azı 10-12 arı pətəyi olurdu. Kişi vaxtının çoxunu bunlara, bu təmiz və faydalı heyvanlara sərf edirdi, evə qonaq gəldimi, Ostapenko əlində bıçaq və boşqab pətəklərin dal tərəfinə keçir, beçə balı gətirirdi. Ostapenko arını saxlamağı, bəsləməyi, bəhrə götürməyi bildiyi kimi, balın və mumun mənfəətini də bilirdi.

Bu il məlum səbəbə görə, biz Ostapenko ilə görüşmədik. Bu il o rayonlara çağırılmamış "qonaqlar" gəliblər. Ostapenkonun həmin "qonaqlarla" qəribə macərası olmuşdur.

Müharibə Ostapenkonu nə qədər narahat etsə, əsəbiləşdirsə də, sənətindən soyutmamışdı. Əksinə, kişi ölkənin təhlükə qarşısında olduğunu duyub, bütün bacarığını işə vermişdi. Gənclər silahlanıb düşmən qabağına, səngərlərə gedəndə Ostapenko da yenicə həkim olmuş qızını orduya yola salırdı.

Xalq arasında Dövlət Müdafiə Komitəsi fonduna vəsait vermək məsələsi başlananda Ostapenko baharın ilk çiçəklərindən hazırlanmış bal şanlarını qutuya yığdı, kənd sovetinə apardı.

– Varını verən utanmaz! Məndən də bunu qəbul edin! – dedi.

Orduya getmişlərin yerini doldurmaq üçün rayon təşkilatlarının ilk çağırışlarından sonra Ostapenko oğlunu traktora mindirdi. Müharibə günü-gündən şiddətlənir, faşist qoşunları dişinəcən silahlanaraq, vətənimizin üstünə gəlirdi. Ostapenko xalq qoşunu dəstəsinə rəhbərlik edən kənd soveti sədrinin yanına getdi:

– Mixail, mənə də bir beşaçılan ver! – dedi.

Sovet sədri, Ostapenkonun həyəcanını yaxşıca duyurdu:

– Kişi, – dedi, – get, öz işində ol! Bizdə qocaları silahlandırmağa ehtiyac yoxdur. Düşmənin başını əzməyə adamımız, gücümüz kifayət qədərdir.

Ostapenko öz işində oldu. Ən qorxulu, ən dəhşətli günlərdə belə əsəblərini sakit saxlaya bilirdi.

Günün birində sovet qoşunları bu rayondan müvəqqəti çəkilməli oldular. Ostapenko düşmən əlinə buraxıb getməli olduğu tənha həyətdən çıxarkən, iki faşist soldatı onun üstünü aldı. Onlar kişini öz otağına gətirdilər. Ərzaq istədilər, bal istədilər. Ostapenko onların dilini bilmirdi, bilmək də istəmirdi. Özü də dinmir, bu ağır və üzücü mühakiməni şəninə sığdıra bilmirdi. Onun rəngi qızarmış, gözləri dəhşətlər görən kimi böyümüşdü. Bəbəklərində bu saat qorxulu tufanlar baş verəcəyini bildirən şimşəklər oynayırdı. Sarısifət faşist soldatı, deyəsən, bu şimşəkləri görmüş, qorxuya düşmüşdü. O, tapançasını çıxarıb kişini qabağına qatmaq, ondan nə isə tələb etmək istəyirdi.

Bu zaman eyvanda vurnuxan soldat onu çağırdı. Tapançalı soldat geriyə tərəf dönərkən, yoldaşının böyük bir kasanı başına çəkdiyini gördü. Yoldaşı nə isə dedi, kasanı tapançalıya verdi. Bu, Ostapenkonun əsgər uşaqlarına vermək üçün dünən qaynanmış suya bal töküb hazırladığı şərbət idi. Soldatlar onu canavar iştahası ilə damcısına qədər içdilər və sahibindən istehza ilə soruşdular.

– Bu nədir?

– Bunu nədən hazırlamışsan?

– Bundan yenə varmı?

Ostapenko dinmirdi. Ruscanı alayarımçıq, pozuq danışan soldatın hər sözü ona bir güllə kimi dəyirdi. Ostapenko ancaq sərt, alovlu baxışları ilə dinir, cavab verirdi. O, tapançalı soldatı başdan-ayağa süzəndə, nəzərini ondan ayırıb səliqəli həyətinə, halal təsərrüfatına salanda soldatlar onun nə dediyini anlayırdılar. Ona görə də tapançalı soldat Ostapenkonun izzət-nəfsilə, azadlıq vüqarı ilə oynamaq istədi. O, barmağını eyvan məhəccərinə vurdu. Ostapenkonun üzünə qəzəblə baxdı.

– Bal ver!

Ostapenko heç nə demədi. Başını qaldırıb, soldatın lap gözünün içinə baxdı. Sanki, o, ürəyində qəti və müdhiş bir qərara gəlmişdi. Niyyətini həyata keçirmək üçün haradan, nədən və necə başlamaq lazım olduğunu düşünürdü. Nə fikirləşdisə, düz qayıtdı, otaqdan bir bıçaq götürüb çıxdı.

Soldat Ostapenkonun hərəkətindən xoflanmışdı. Əlini silaha atdı. Kəndlinin döşlük geyib əlcək götürdüyünü görəndə başa düşdü ki, kişi bal kəsməyə gedir. Soldat onun yanınca düşdü, ancaq arılar onu yaxına qoymadılar.

Ostapenko ciddi, iti, əsəbi halda işləyir, pətəkləri kəsib, bal şanını boşqaba yığır, pətəyin ağzını bağlamadan örtürdü. Arılar da, deyəsən, sahiblərinin qeyri-adi vəziyyətini hiss etmişdilər, həmişə bu mehriban kişi onlara nəğmə-nəvazişlə yaxınlaşardı. Onları oxşar, əzizlərdi. Birinin səsində zəiflik, sızıltı, uçuşunda yavaşlıq duydumu, ovcuna alar, əl quşunu yedirən kimi şirə verərdi. Məhsulu az olan pətəklərə heç hirslənməzdi. Boşqabda qənd isladıb qoyardı. İndi arılar Ostapenkoda o nurani sifətə yaraşmayan bir yad əlaqə duyurdular. Sanki, bunun mənasını soruşaraq, daha da bərkdən səs-səsə verir, onun başına dolanırdılar.

Ostapenko da onları yaxşıca anlayırdı. O, başı üstündə haray salıb cövlan edən bu təmiz və çalışqan məxluqdan necə ayrılacağını, onları kimə tərk edəcəyini düşünürdü. İndi Ostapenko öz arı pətəklərini adi bir əmlak kimi düşünmürdü. Onları öz ömründən, ailəsindən, əziz oğluna və qızına olan məhəbbətdən, keçirdiyi uzun, dinc gənclik həyatından qopan qığılcımlar kimi, yaxşı güzərandan qalan şirin xəyallar, xoşbəxt bir xaniman bağında bitən əlvan çiçəklər kimi görürdü.

Ostapenko bal boşqabını stolun üstünə qoyanda soldatlar stulları çəkib oturdular və:

– Şərbət ver, çörək də gətir! – dedilər.

Ostapenko bütöv bir şanı suya salıb əritdi. Soldatlar fincanlarını doldurub qaldırdılar:

– İçək, içək bunu qocanın sağlığına!

– Qocanın yox, arıların sağlığına!

Hər ikisi qəh-qəh çəkib güldü. Fincanları dodaqlarına gətirdilər. Bu yerdə Ostapenko bal bıçağını vedrəyə salıb, şirədən təmizləyirdi. Birdən, şərbəti qabaqca içən tapançalı soldat "ax!" deyib nalə çəkdi. Arxası üstə yıxıldı. Ostapenkonun səsi eşidildi. O, ovcunda qəzəblə sıxdığı uzun, enli tiyəli polad bıçağını ikinci soldatın ürəyinə sancıb deyirdi:

– Bu da şərbətdir, əcəl şərbəti! İç, rahat olarsan!

*1941*



# ANANIN YARIŞI

Səhər yenicə açılır. Göz işlədikcə görünən buruqlarla örtülü sahil görünür. Get-gedə buruqlar böyüyür, yaxınlaşır. Kaçalkaların səsi eşidilir. 80 nömrəli buruq həm ucalığı, həm də avadanlığı ilə başqa buruqlardan seçilir. Buruğun yağlayıcısı Mehrab Kamalov quyu başında çarxları yağlamaqla məşğuldur. Taxta budkanın kiçik və açıq qapısından onun enli kürəyi görünür. Kənardan yeyin gələn 45 yaşlı bir qadın – Tutu, mədən yolunun yoxuşunu tövşüyə-tövşüyə çıxır, Mehrabın yanına çatan kimi, əlini can köynəyinin qoltuğuna salır, bir kağız çıxarır:

– Bala, səni çağırırlar!

Mehrab, hərbi komissariatdan gələn çağırış vərəqəsinə baxıb, mazutlu əlcəklərini cəld çıxarır, kağızı cibinə qoyur:

– Vaxtına bir saat qalır ki!

Hər ikisi enib gedirlər. Mehrab qonşu buruqda çalışan Əhməd əmiyə tapşırır:

– Əvəzim gələnəcən bu buruğa da baxmanızı xahiş edirəm.

Əhməd əmi razılıq işarəsi verir.

■ ■ ■

Yeni və abad işçi mənzillərinin qapısında ana-bala bərk qucaqlaşmışlar. Bir az sonra Tutunun qoca, arıq və zəif əlləri oğlunun kürəklərindən çəkilir. Onlar bir də öpüşüb ayrılırlar.

■ ■ ■

Tutu 80 nömrəli buruğa, oğlunun çaydanını, fincanını, iş paltarını aparmağa gəlmişdir. Buruqda adam tapmayıb gözləyir. Əhməd əmi yaxınlaşır:

– Usta çağırmışdı, fəhlə tap, deyir. Tutu, gəlib işləsənə!

Əhməd əminin sözü Tutuya qəribə gəlir, əlini sinəsinə qoyur:

– Mən? Mən hara, mədən hara! Nə bilirəm, o maşının işgil-mişgilini! Qoca adamam!

Əhməd əmi onun sözünü kəsir:

– İşçi lazımdır. Nə qədər naşı olsan, köməyin dəyər.

Əli ilə mədənləri göstərir:

– Bunun hamısına baxan göz lazımdır, qulluq edən əl, yanan ürək lazımdır. O gecə külək vurub budkanın taxtasını lap çarxın üstünə salıb...

Paltarı yığışdırıb verir.

Tutu ona təsəlli verir:

– Fikir eləmə, Mehrab da iki-üç aya gələsidir. Səni tək qoymaz!

– Mehrab orada ikən buruqlar gərək daha çox neft verə! İkisi də birdir: Mehrab da faşist qırır, neft də! Neftin çox olsa, düşməni tez qırıb qurtararsan, dava qurtarar gedər!

– Neft neçə faşist qırır, bəyəm, faşist siçandı, neft töküb odlayasan?

Əhməd əmi göyə işarə edir:

– Ayroplan nəynən uçur, (yeri göstərir) tank nəynən yeriyir? Hamısı neftin gücünədir. Texnika deyirlər ha! Qanı-canı budur da! Stalin deyib, neft çıxardan da, faşist qıran əsgər kimi, qəhrəmandır!



– Bu sənəti bilsəm, çirmənib girərdim işə!

– Üzməyi suda öyrənərlər!

■ ■ ■

Gecədir. Tutu evində çay içir. Bərk külək qopur, qapı-baca səslənir. İldırım işığında pəncərədən əyilib düzələn ağaclar, küçə boyu burulan boğanaq görükür. Tutu narahat olur.

– Əhməd kişi bu vaxtı deyir, ha! Baxan göz lazımdır!

80 nömrəli buruq, külək təsiri ilə laxlayan budka, tozdan örtünən mədən Tutunun nəzərində canlanır. Tutu çayını yarımçıq qoyub geyinir. Bərk bürünür, oğlunun mazutlu əlcəklərini geyir, əlində yaşıl fənər mədənə yollanır.

Əhməd əmi əlində mazut qabı Tutu ilə qabaqlaşır. Tutu:

– Küləknən necəsən, Əhməd qardaş?

– Yaxşı gəlmisən, get, oradan mazut gətir.

Tutu Əhmədin göstərdiyi tərəfə gedib, mazut qabının birini götürür. Buruqları bir-bir gəzdikcə köməkləşib işləyirlər. (Biri fənər tutur, o biri mazut tökür.)

Tutu:

– Mən 80 nömrəliyə gəlmişdim. Mehrabın yerində kim işləyir?

– Heç kim! Adam qoymuram.

– Özün işləyirsən?

– Sənə saxlamışam! Başararsan, qorxma!

Qolundan tutub gətirir, oğlunun yerində oturdur.

– Sabah ustaya deyim, prikaz versin! Heyif deyil, belə bir zamanda sən bozbaş qazanının dibində ömür keçirirsən?!

■ ■ ■

Günəşli gündür. Tutu mədəndə növbədədir. Havada təyyarə gəzir. Tutu onun səsini eşidən kimi buruğa baxır, kaçalkanın səsini dinləyir. Onun yerişini izləyib kaçalkanın hərəkətinə baxır:

– Yox, sən yavaş gedirsən?

Başı ilə enib-qalxma hərəkəti göstərir:

– Tez-tez!

Gəlib silindrdən yapışmaq, təkan vermək istəyir. Birdən özü-özünə gülür: "Nə qayırırsan!"

Poçtalyon yanaşıb ona bir paket verir.

– Kimə çatacaq, bala?

– Buruğun yağlayıcısına!

– O, əsgər gedib, burada yoxdur.

– Onda üstünə qol çək aparım.

– Qol bilmirəm.

Poçtalyon paketin üstünə nə isə yazıb aparmaq istərkən Tutu irəliyə yeriyir:

– Axı yağlayıcı mənim oğlumdur. Məktubunu mənə versən, çatdıraram.

Poçtalyon məktubu qoyub gedir.

Tutu məktubun o yan-bu yanını yoxlayır: "Görəsən, qızdan-zaddan deyil ki? Nə bilmək olar, bəlkə, oğlanın gözləyəni-zadı var!" Məktubu Əhməd əminin yanına aparmaq istəyir, sonra fikrə gedir: "Oğlanı utandıran söz-zad olar, yaxşı deyil!" Məktubu cibində gizlədib qayıtmaq istəyir.

Əhməd əmi soruşur:

– Nəyə gəlmişdin?

– Dedim, görüm saat neçədir?

– Bilmirsən, mənim saatım yoxdur?

– Bəs deyirdin alacağam. Mükafat pulunu harda yedin bəs?

■ ■ ■

Axşamüstü evə qayıdanda qonşusu Məsmə Tutuya gözaydınlığı deyib, oğlundan gələn məktubunu verir.

– Aydınlığa çıxasan, oxu, görüm nə yazır.

Məsmə məktubu açır:



"Əziz anama salam! Ana, canına yaxşı bax! İstirahətindən qalma. Heç nəyin fikrini çəkmə! Allah qoysa, tezliklə faşizmi əzərik, oğlun yanında olar...!"

Tutu, cibindən başqa bir məktub çıxarıb Məsməyə verir:

– Gör bunda Mehraba nə yazılıb?

Məsmə oxuyur: "80 nömrəli buruğun yağlayıcısına!"

– Bu ki, sənə yazılıb?

– Yox, yağlayıcı Mehrabdır.

Məsmə məktubu oxuyur:

"80 nömrəlinin yağlayıcısı, ey məni əvəz edən fəhlə yoldaş! Səni tanımıram. Bilmirəm, arvadsan, kişisən? Bilmirəm, qocasan, cavansan? Onu bilirəm ki, fəhləsən. Vacib yerdə əlin işdədir. Var qüvvənlə çalış. Sən də bir əsgərsən, lazım gəlsə, canını əsirgəmə! Hər çətinliyi dəf etməyi bacar. O buruqda mən də, mən Şirzad oğlu Mehrab da işləmişəm. İndi mən əsgərəm. Düşmən ilə vuruşuram. İstəyirəm, səninlə yarışa girəm.

Sən orada çoxlu neft çıxartmağa çalış, mən də faşist basdırmağa! Sən neftinlə matorlarımıza hərəkət ver. Mən də öz topumla faşist tanklarını qırıb məhv edim. Sən buruğa qulluq elə, mən də silaha! Görək kim ötər!"

Məsmə Tutuya baxıb gülür:

– İkisi də sənə yazılıb. Biri ana Tutuya, birisi fəhlə Tutuya! Birini oğul Mehrab yazıb, birini əsgər Mehrab!

– Məndən ona bir cavab yaz! Yaz ki: "Qəbuldur! 80 nömrəlinin fəhləsi, anan Tutu İbrahim qızı sosializm yarışına qol qoydu!."

■ ■ ■

Kantorda mədən direktorunun otağının qabağında 5 qadın oturub. Tutu ilə Məsmə də bunların içindədir. Məsmə saata baxır. Tutu deyir: "İndi gələr!"

Bir nəfər yaşlı və meşin pencək kişi gəlib içəri keçir.

Tutu onun dalınca içəri girir.

– Əhməd kişinin dediyi arvad mənəm!

Kişi əl verir:

– Hə, Tutu bacı sənsən! Çox xoşdu. Mənə dair qulluğun?

– Qul sahibi olasan, daqavor gətirmişəm. Oğlum mənim öhdəmə bunu yıxıb!

Mədən direktoru Mehrabın kağızını oxuyur:

– Gücün çatarmı?

– Siz kömək eləsəniz, çatar. Əvvəla xahiş edirəm, bax, çox neft çıxarmaq barəsində bu qadınları mədənə düzəldəsən. Mənim qonşularımdı. Ərləri əsgərdi!

Mədən direktoru onlarla bir-bir tanış olur. Katibini çağırıb tapşırır:

– Hesaba al, boş yerləri öyrən, mənə de!

Qadınlar razılıq edib çıxırlar.

Tutu əlini stola söykəyib deyir:

– İkinci budur ki, məni ayrı sənətə qoy. O nədi, nefti ölçür ha! Orda xeyrim çox dəyər!

Mədən direktoru bir usta çağırıb onu tapşırır: "Bu yoldaş izmerşitsa olmaq istəyir. Kömək edin, yaxşı öyrənsin."

Tutu direktorun əlini sıxıb çıxır.

■ ■ ■

İki ay sonra Tutu yeni vəzifəsində şirin işlərkən Məsmə əlində qəzet qaça-qaça gəlir, dayanıb oxuyur: "Serjant Mehrab Əmirov Qızıl Əmək ordeni ilə təltif edilsin!"

Tutu heyrət, sevinc, həyəcan keçirir.

– Nə dedin, a qız!

Məsmə deyir:

– Oğlun qəhrəman olub, orden alıb, səni təbrik edirəm (əlini sıxır). Yarışda geri qalırsan, bunu da yadına salıram!

Tutu uçunub oturur.

– Harada, a qız, Mehrab nə vaxt nişan aldı. Necə olub? Danışsana!

Məsmə qəzetin bir yerini oxuyur:

– "Düşmənin iki atəş nöqtəsi, əsgərlərimizi irəli getməyə qoymurdu. İgid neft fəhləsi Mehrab Əmirov cəld ağacın başına dırmaşdı. Oradan sərrast güllə ilə düşmən pulemyotçularını dənlədi. Yol açılan kimi, əsgərlərimiz yeriyib, qabaqdakı kəndi tutdular. Sovet hökuməti Mehrabın igidliyini yüksək mükafatla qeyd etdi..."

Tutu ayağa durur, qəzeti alıb bağrına basır. "Can, Mehrab bala!" Sonra Məsməyə tərəf dönür: "Təki o sağ olsun, o irəli getsin. Mən ötüşərəm".

Əhməd əmi tövşüyə-tövşüyə özünü yetirir:

– Ay Tutu, mübarək olsun!

Tutu razılıq edir:

– Sağ ol, allah sizinkiləri də salamat eləsin, onları da qəhrəman eləsin.

Əhməd əmi:

– Mehrabı demirəm, ey, onun barəsində sənnən ayrıca öpüşəcəyəm.

– Bəs nə mübarəkdi!

– Sənin bu camalın! Sənin o yorulmaz əllərin, aslan ürəyin ki, hökumətimiz yaxşı qədrini bilir.

– Əhməd qardaş, məni lağa qoymağa gəlmisən?

– A qız, orden almısan, ey, adın siyahıdadır.

Məsmə qəzeti araşdırır:

– Hanı, bunda?

– Yox, təzədə. Sabah çıxar. Xəbəri mədənə çatıb. Neftçilərdən 600 adam var. Tutunun adı lap böyüklərin içindədir!

Məsmə Tutuya, Tutu Məsməyə baxır!

Məsmə:

– Tutu xala, indi yarışa yekun vurmaq olar!

Əhməd:

– Hökumət yekununu vurub, üstündən möhürünü də basıb. Daha nə yekun? Bundan yaxşı nə yekun? Odur, oğlunun səsi cəbhələrdən gəlir, anasının səsi mədənlərdən! Bundan yekə yekun!

Məsmə:

– Gün o gün olsun ki... Əhməd əmi!

– Gün o gün olsun ki...

Tutu onlara baxır, sonra ətrafı süzür. Sanki bir şey axtarır:

– Gün o gün olsun ki...

Şəhərin kənarında böyük bir izdiham, qalibiyyətlə qayıdan əsgərləri qarşılayır. Qabaqda üzərində böyük Stalinin şəkli olan bayraq var. Bayrağın üstündə yazılmışdır: "Faşizmi məğlub və məhv etmiş qızıl döyüşçülərə, vətən xilaskarlarına eşq olsun!"

Uzun yol gəlmiş, sifətləri tozla örtülmüş əsgərlər atdan, tankdan, topdan, arabadan enib qabağa yüyürürlər. Analar, arvadlar, bacılar, uşaqlar yüyürüb hər kəs öz adamını tapıb qucaqlaşır, öpüşürlər. Mehrab Tutunu neçə dəfə qucağına götürüb, yerə qoyur:

– Yarışımız davam edəcək!

Tutu:

– Ölənəcən bu yolda yeriyərəm, yorulmaram!

*1942*





# HAVALI ADAM

Əkbər kişi kəhriz başında oturub sərinləyirdi. Havva xala su doldurmağa gələndə kişi əhvalpürsanlıq elədi:

– Ay Havva, Fərmandan bir xəbər varmı, nə yazır?

Havva xala xüsusilə oğlu Fərman haqqında danışmağı sevərdi. Əkbər kişinin sualı bəhanə oldu, Havva güyümü çiynindən yerə qoyub çöməldi, söhbətə başladı:

– Ay Əkbər qardaş, yazmaq deyəndə, niyə, hərdənbir yazır. Ancaq bir parça kağız ilə bəyəm ürəyim sakit olur? Odur ey, səs-sədası Ukraynadan, beşgünlük yollardan gəlir. Uzaq yer, əlim çatmır heç olmasa görüşünə gedəm...

Havvanın sözü Əkbər kişiyə qəribə gəldi:

– Sən də qəribə adamsan. Uzaq yer deyəndə, Fərman, şükür, uşaq deyil, nabələd deyil, onun üçün darıxasan. İgidin biridir, on dənə sənin, mənim kimisini dolandırar. Sən niyə onun üçün darıxırsan? Kefini pozma.

– Necə darıxmayım, nişanlı oğlandır, qız da yetişib, demişdim pa-

yız tədarükünü görərəm, vurdu dava düşdü. Bu yandan da Nabat şəfqət bacılığına yazıldı, davaya getdi.

– Lap davaya?

– Davaya!

– Fərman bilir, ya yox?

– Fərman haradan bilir, mən də gizlədirəm. Bəlkə oralarda tapışarlar. Nə deyim, qoy heç bilməsin.

Havvanın deməyə sözü çox idi. Ancaq Əkbər tələsik iş sahibi kimi qalxıb getdi.

Bir əsgər kəhriz başındakı qarağaca söykənib dolaqlarını bağlayırdı, Havva sudan evə qayıdandan ikicə dəqiqə sonra qapısı döyüldü. Havva həmin əsgəri qapıda görəndə nə isə demək istədi. Əsgər ona macal vermədi:

– Ay ana, Allah qonağı istərsinizmi?

Havva ev qapılarını taybatay açıb, könül rahatlığı ilə dedi:

– Niyə istəmirəm, bala, təki həmişə sizin kimi igidlər gəlsin! Buyurun içəri!

Qonaq içəri girdi. Şeylərini yerə qoydu. Havva ləyən gətirdi, su tökdü, əsgər əl-ayağını yudu. Ev sahibi eyvanda stol qoyub çay süfrəsi saldı. Qonaq soruşdu:

– Ana, bu süfrə mənim üçündürsə, içəridə sal!

– Balkon sərindi, dedim...

– Soyuqdəyməm var, evdə otursam yaxşıdır.

– Neylək, bala, harda ürəyin istəyir, orda otur. Ev-eşiyim peşkəşdi sizə!

Havva bunu deyə-deyə süfrəni içəriyə, evə apardı. Qonağın qabağına xörək qoydu. Özü də çəkilib bir tərəfdə oturdu. Havva qonağı aramsız gözləyirdi. Gözləyirdi ki, yesin-içsin, sonra təzə-təzə söhbətlər eləsin. Qonaq isə, deyəsən, arvadın ürəyindəkini hiss elədi. Süfrə başında söhbətə başladı:

– Ana, – dedi, – məni tanımırsan?

Havva diqqətlə onun üzünə baxdı. Bu sarıyanız, göygöz, gödərək, şirindil oğlanı harada gördüyünü yadına salmaq, tanışlardan birinə oxşatmaq istədi, bacarmadı.



– Yox, bala, – dedi, – zehnim kütləşib, fikrimə gəlmir. Kimlərdənsiniz?

Qonaq araya söz qatdı:

– Bu otaqda kim olur?

Havva xalanın ürəyinə damdı ki: "Qonaq gecə qalmağın dərdini çəkir, elə bilir yan otaq mənim deyil."

– Heç kim olmur, bala, özümündür. Öz ixtiyarımızdadır, yerdən sarı heç fikir-zad eləmə. Vaxt olub buraya oğlumun 5-6 yoldaşı gəlib, gecə də qalıblar, boluna dolanmışıq...

Qonaq, deyəsən, elə bu sözləri gözləyirmiş. Süfrədən kənara çəkildi:

– Ana, – dedi, – sən düz demirsən. Zehnin-zadın küt deyil. Nə sən məni görmüsən, nə mən səni. Sən məni tanıya bilməzsən, amma mən səni yaxşı tanıyıram. Muştuluğumu ver, Fərmandan xəbər gətirmişəm.

Havva bunu eşidən kimi irəli çəkildi.

– Ay səni xoş xəbər olasan, bala, de görüm, de görüm!

Qonağın boynunu qucaqlamaq istədi. Əsgər mane oldu. Əli ilə işarə etdi ki, "əyləş, qulaq as."

Havvanın rəngi qızarmışdı. Həyəcandan gözlərində qığılcımlar oynayır, qəlbi döyünür, nə isə demək istəyən dodaqları əsirdi. Lap əsgərin yanında bardaş qurub oturdu. – Danış görüm, sən Allah, ürəyim dözmür, de görüm, bəs Fərman hanı?

Əsgər zahirən cavan olsa da, sözlərindən dünyagörmüş, işbilən adama oxşayırdı.

– Əvvəla, – dedi, – ana, qoy özümdən deyim. Sizdə qonaq olmağımı, xahiş edirəm, bilən olmasın, çünki, biz əsgərlərə icazə yoxdur. Xəstə olduğuma görə məni buraxıblar. Evimizə gedirdim. Yoldan buraya dönmüşəm. Həm yoldaşım Fərmanın tapşırığını yerinə yetirmək, həm də bu istilərdən nəfəs almaq üçün sizə gəldim. Komandirimiz bilsə ki, mən özgə evinə-zada düşmüşəm, yaxşı olmaz...

Qonağın ehtiyatına qarşı Havva and-aman elədi.

– Arxayın ol, bala, kim var, kim bilə. Ev bizim, sirr bizim. Söhbə-

tini elə, Fərmandan de!..

Əsgər danışmaq istəyəndə Havvanın yadına nə düşdüsə soruşdu:

– Bala, eyib olmasın, ismin nədir?

Qonaq duruxdu:

– Nədən yanı soruşdun?

– Deyirəm elə sən də mənim oğlum, adını bilim axı!

– Ana, Fərmandan heç nigaran olma. Ukraynada bir yerdə, lap mənimlə bir bölükdə idik. Üzünə demirəm, elə bir oğlu böyüdən anaya əhsən olsun. Qızıl parçasıdır. İkimizin yoldaşlığımız yaxşı tuturdu. Vaxt olanda sizdən, ailədən söhbət salırdı. Əvvəllər darıxırdı, qəribsəyirdi. Elə ki, qız gəlib çıxdı, gədənin gözləri işıqlandı, kefi qalxdı göyün bir qatına.

Havva maraqla soruşdu:

– Hansı qız?

– Hansı qız olacaq, nişanlısı...

– Bəyəm Nabat lap gedib oralara çıxıb?

– Eh, çoxdan! Bizim bölük atıcılar bölüyüdür, onlarınkı da sanitar. Sabah-birigün davada, Allah eləməmiş, birimiz yaralansaq, Nabat başımızın üstündədir. Nabat da, maşallah, ölü üstünə getsə dirildər!

Qonaq söhbətinin ahəngini dəyişdi. Fərmanın sevgisi ilə maraqlandı.

– Hələ, ana, başa sal görüm, Nabatı ona sən tapmısan, ya özü rast gəlib?

Havva oğlunun nişanlanma tarixini, qızın yeddi arxa "pak-pakizə" nəslini, özünün toy arzu-kamını, bəzi şeylər üstündə qohumlar ilə sözə də gəldiyini açıb yerbəyer söylədi.

Qonaq Havva arvadın söhbətini elə maraqla dinləyirdi ki, gözünü də qırpmırdı. Havva xala özü isə başqa şey ilə, Fərmanın həyatı ilə maraqlanırdı. Başı açılmış göy bir zərf gətirdi: "gör adresi düzmü yazılıb?"

Oğlunun hərbi libasda şəklini gətirdi. Qonaq baxdı və dedi:

– İndi daha bu paltarı dəyişib, komandir olub, boğazında nişanı var. Qayıdanda deyərəm təzədən çəkdirsin. İkimiz lap bir yerdə çəkdirərik.



Qonaq başını tutub ufuldandı, Havvanın yadına düşdü ki, "axı bunu xəstəliyinə görə buraxıblar, kefini soruşmadım, xətrinə dəyər." Havva ərk ilə onun naxoşluğunu soruşdu. Qonaq da öz anasına, ailəsinə söyləyən kimi, heç şeyi gizlətmədi.

– Bilirsən, ana, – dedi, – mən bədbəxtəm. Zahirimə baxan deyər əməlli-başlı adamdır. Amma yox. Bir azarım var ki, Allah heç bir müsəlmana qismət eləməsin.

Havvanın ürəyi köyrəldi. Bu cür cavan, yeniyetmə, xoşsifət oğlanı yaxalayan azara lənət oxudu, bir də soruşdu:

– Axı, bala, mən də sənin anan-bacın, necə azardı o, həkimi, dərmanı olmamış olmaz?

– Yoldaşlarım da elə deyir, amma bilirəm ki, ürək-dirək verirlər. Mənim dərdimin çarəsi yoxdur. Dərdimi səndən niyə gizlədim. Fərmanın anası mənim də anamdır. Bu yayın əvvəlindən mənim başıma hava gəlib. Nədən olub, haradan gəlibsə, Allahın bəlasıdır, yapışıb xirtdəyimdən... Hərdən başımın havası tutur, gecə vaxtı yatağımdan qalxıram, başlayıram öz-özümə danışmağa, həkimlər dava-dərman verirlər, hələ ki, təfavüt görməmişəm. Tutanda azarın zərbindən az qalır ürəyim partlasın...

Qonaq dərdini danışdıqca Havva arvad "can-can" deyir, öz balasına yanan kimi, ürəyinin başını ovuşdururdu. Ürəyindən cindar çağırmaq, dua yazdırmaq keçirdi. Amma belə tədbirə əsgərin acıqlanacağını bilib dinmədi. "Havalı" adam ilə mülayim dolanmağı, sözünü dərhal eşidib əməl etməyi, xörəyinə istiot, bibər kimi təsirli şeylər salmamağı, yerini həmişə kölgə və sərin etməyi kəsdirdi. O, gözü gəncin üzündə, əl-əl üstə qoyub dayanmış, namərd xəstəliyi düşünürdü. Qonaq başını qaldırıb xahiş elədi:

– Ana, – dedi, – Fərman mənə bəzi şeylər tapşırıb. Gərək göndərəm. Mənim adım olmasın, vağzala sarı zəhmət çək, gör Ukrayna tərəfə pasılka götürürlərmi. Minik qatarı havaxt olur, hərbilərdən-zaddan heç gedən yoxdurmu?

Qonağın havası tutmasın deyə, ana onun hər sözünə cavab qay-

tarmırdı. Evdən çıxıb getdi. Qayıdanda əsgəri küncdə qurdalanan gördü.

Küncdə qoyulmuş balaca, yaraşıqlı bir qutu Havvanın nəzərini cəlb etdi. Ancaq soruşmağa utandı. Deyəsən qonaq ev sahibinin marağını duymuşdu. Qutunu əlinə alıb izah elədi:

– Ana, – dedi, – bunu nəyə oxşadırsan?

Havva gülümsündü:

– Nə bilim, – dedi, – bala, vayonnu adamsan, məndən soruşsalar ona ya saat deyərəm, ya qutu!

– Yaxşı dedin, qutudur. Amma voyenniyə-zada dəxli yoxdur. Sən nahaq mənə əsgər kimi baxırsan. Azad olmuşam. Xəstə adamam, məndən hərbçi heç bir şey ola bilməz. Görmürsənmi nə tüfəngim var, nə süngüm, hamısını alıblar. Bu qutunu azarıma görə mənə veriblər, havalananda qabağıma qoyuram. Nəki sayıqlayıram, hamısı özümə qayıdır. Öz səsim özümü havadan, sövdadan ayıldır. Zəhrimar belə də ağır şeydir ki...

Havva yaxın gəlib, qutuya diqqət yetirmək istəyəndə qonaq mane oldu:

– Yaxın düşmə. Amanın bir günüdür, təsirini itirərsən. Kənar adam yaxınlaşdı kəsəri azalır, xarab olur. Axı öz başımın ölçüsünə tikilib. Bu xarab oldumu, məni də ölmüş bil!

Havva bu sözləri eşitcək geri-geri çəkildi. Qonaq qutunun üstünü örtdü. Havva ayıq yatan adam idi. Xüsusilə bu gecə, evdə havalı adam olduğunu düşünmüşdü. Yatağına uzansa da, ürəyi səksəkədə idi. Gecənin bir aləmində qonaq ehmallıca durdu. Aşağı başa sürünüb, qutunu qabağına qoydu sayıqlamağa başladı.

Havva arvadı vahimə götürdü. Ha diqqət elədi ki, qonağın sözlərindən bir şey seçsin, mümkün olmadı. Qonaq yuxulu adamlar kimi, ahəstə səs çıxarırdı, ancaq sözləri qarmaqarışıq idi. Bir istədi durub həyətə yüyürsün. Əsgərin tapşırığı yadına düşdü. Əlacsız qalıb yerində çöməldi, tez-tez "bismillah" dedi, salavat çevirib Allahı çağırdı.

Havvanın duası, deyəsən, əsər elədi. Çox çəkmədi ki, qonaq qayıdıb dinməz-söyləməz yerinə girdi, o saat da xorhaxor şirin yuxuya getdi.



Havva arvadın isə gözünə yuxu girmirdi. Cavan vaxtında bu dərdə düşən oğlana yazığı gəlir, anasının halına yanırdı.

Havva arvad qonağının belə havalı vaxtını görəndən sonra onunla daha ehtiyatlı dolanırdı. Qonaq da sakitləşmişdi. Gündüz axşamacan oturub kağız-kuğuz ilə qurdalanırdı. Gecələri də sayıqlamaqla keçirirdi. Üçüncü gün qonaq Havvaya dedi:

– Yadındadımı, sənə bir söz demişdim axı! Deyəsən unutmusan. Dedim mənə əsgər kimi baxma. Sizlərdə molla var, dua yazan var? Niyə tapıb gətirmirsən, niyə dərdimə əlac etmirsən? Fərman məni yola salanda arxayın elədi ki, "anam hamısını düzəldər." Bilirsən ki, biz əsgərlərə molla, dua söhbəti ayıbdır. Açıb danışa bilmərik, amma sənin kimi bir ev qadınına kim nə söz deyə bilər? Gecə buraya bir dua yazan tapıb gətirmək çətindirmi?

Havva qonağın bu xahişini boynuna aldı, amma ürəyinə cürbəcür fikirlər gəldi. Düşündü ki, "Fərmanın mollalardan zəhləsi gedərdi. Onlara fırıldaqçı deyərdi. Əsgər gedəndən bəri niyə gərək belə şəriətpərəst olsun? Yoxsa onun da ürəyinə vahimə düşüb, yoxsa bu cür adamlar ilə oturub-durandan dəyişilib?"

Bu fikir-xəyal ilə Mirzə Ələsgərin evinə gedirdi. Mirzəni çağırmayacaq idi. Belə bir xəstənin olduğunu danışacaq, əlac istəyəcəkdi. Mirzə xəstəni öz gözü ilə görmək niyyətində olsa, onda qonaq ilə məsləhətləşəcək idi.

Sərin bir yay axşamı idi. İşdən çıxmış adamların çoxu dayanıb radioya qulaq asırdı. Radio boruları isə gur-gur guruldayır, cəbhə xəbərlərini yayırdı. Havvanın evində radio yox idi. Ona görə də adət etməmişdi. Amma küçələrdə rast düşəndə dayanıb xəbərlərə, çalğı-şikəstəyə qulaq asardı.

Diqqətlə qulaq verdi. Radioda düşmənlərin hiyləsindən danışır, camaatı sayıq salırdılar:

– Vətəndaşlar, ayıq olun, tanımadığınız, şübhələndiyiniz adamları yoxlamamış müəssisəyə, evinizə buraxmayın. Faşistlər çox yerdə qızıl əsgər paltarı, milisioner libası geyinib, içərimizə soxulmaq istəyirlər.

Onların hiylələrini seçməyi, açmağı bacarın!

Düşmənlər özlərilə radio aparatı gəzdirirlər, hərbi sirlərimizi öyrənib, öz qərargahlarına çatdırmağa cəhd edirlər. Belələrini məhv etmək hər bir vətəndaşın müqəddəs borcudur. Bunlara qarşı amansız olun!

Radiodakılar, deyəsən, bu sözləri məhz Havva arvad üçün deyirdilər. Sanki, onun bu küçədən keçdiyini, evində yeni və tanımadığı bir qonaq saxladığını bilmişdilər. Odur ki, səs-səsə verib danışırdılar. "Bəlkə bizə gələn qonaq da faşistdir. Bəlkə fitnəkarlıq üçün bu cildə girib?"

Bu şübhə Havvanın qəlbindən keçəndə vücudunu bir üşütmə tərpətdi. Avamlıq ucundan qorxulu bir adamın felinə düşdüyünü güman edəndə canına daha bərk titrətmə düşdü. Xəyalında öz-özünü yoxlamaq istədi. Qonağın gəlişini, ilk gündən onun söz-söhbətini yadına saldı: "Yox, – dedi, – bu tərtəmiz adamdır. Xalis əsgərdir ki, var. Fərmanın yanından gəlməsə idi, məni nə tanıyırdı. Oğlumu nə tanıyır, nişanlısını nə bilir, adresini haradan alırdı. Yox, lənət kor şeytana."

Havva Mirzə Ələsgəri evində tapa bilməyib qayıtdı. Amma ürəyinə daman bir mətləbi unuda bilmirdi. Qonağın həmişə qutu qabağında sayıqlaması onu şübhəyə saldı: "Düz deyirlər, o aparatdır. Elədi, mərdimazar öz yerləri ilə dilləşir. Yoxsa havası başına vuranda eşiyə niyə çıxmır? Günün istisindən niyə tutması gəlmir?.. Ayrı yerdə nə üçün danışmır?.."

Evdə lampanın tamam söndürüldüyünü, qonağın isə qutunu qabağına qoyub sayıqladığını gördü. Hisslərinə daha da yəqinlik vermək üçün hərifin ağzını yoxlamaq istədi:

– Oğlum, – dedi, – xalqın arasına işpiyon-zad girir, gizlənir. Odur ki, milislər bu gecə bəlkə axtardılar, əsgərlik kağızını hazırla.

Qonaq əli ilə sinəsinə, başına döydü.

– Budur ey, bundan yekə kağız. Əsgərlikdə can qoymuşam, mənidəmi axtaracaq?

– Nə bilim, bəlkə, adamdı...

Qonaq etinasız oldu. Bir azdan sonra yanaşıb təkrar soruşdu:

– Kim dedi axtaracaqlar?

– Elə eşitdim...



– Lap evləri?

– Lap evləri!

Qonaq bir az fikirləşəndən sonra yenə soruşdu:

– Sənə kim dedi?

– Radio!

– Radio?

– Bəli!

– Nə dedi?

– Dedi də.

Qonaq donub qalmışdı. Nə tərpənir, nə durur, nə otururdu. Cinli-dualı kimi, birdən gülməyə başladı. Qəribə, məzəli bir söz eşitmiş, ya sirk tamaşası görmüş adamlar kimi qəh-qəh çəkdi, güldü, güldü:

– Aha, – dedi, – tapıblar! Havva xala şpiyon! Buna kim inanar?

Qonağın duruşu və gülüşləri Havva arvadın şübhəsini bir az da artırdı. Ancaq bunu hərifə hiss etdirməmək üçün tez söhbətinə davam etdi:

– Srağagün bir eləsini tapmışdılar. Gəzmək bəhanəsilə, nə bilim haçandan ey, yola düşüb. Gəlib ki, əlinə keçəni, ayağı dəyən yeri dağıtsın.

Havva bu söhbətdən sonra hərifin özünü itirməsini aşkarca hiss elədi. Fürsət axtardı ki, yüyürüb adam çağırsın. Evdə qonağı tək qoyub getməkdən qorxurdu. Göndərməyə də heç kəs yox idi. Astanaya çıxıb boylananda qonaq onu çağırdı:

– Ana, qapıda niyə durmusan, içəri gəl.

– Nə var içəridə?

– Sözüm var, içəri gəl!

Qonağın bu təklifi daha ev sahibində şübhə yeri qoymadı.

– Sözünü de, bala, eşidirəm!

– Xəlvətidir, bir bəri gəl!

Qonaq bunu deyib qadına yaxınlaşdı, onun qolundan tutub evə çəkmək istədi. Havva astanadan da ötüb həyətin ortasına düşdü. Qonaq "bir şey yadımdan çıxıb" deyə ev qapısından eşiyə çıxanda Havva qışqırdı:

– Qoymayın, faşist var. Gəlin, hay! O əsgər deyil, Hitlerin adamıdır!

Əlini dizinə çırpıb hay saldı, özü də küçəyə qaçdı. Adamlar hərifi qamarlayıb tutanda o, dartınıb atıldı. Havvanın gicgahına bir yumruq ilişdirdi.

Qonağı çağırılmamış qonaqlara məxsus olan yerə apardılar. Üzastarını tapıb təyin elədilər. Bəlli oldu ki, hərif Almaniyada casusluq məktəbi qurtarmış bir ağ zabitdir. Pozucu işlər üçün, xəbərçilik üçün, alman işğalçılarına xidmət üçün Sovet şəhərinə soxulmuşdur.

Bunların hamısı Havva arvada da aydın oldu. Ancaq Havva arvad bir şey başa düşə bilmirdi. Başa düşə bilmirdi ki, bu hərif Fərmanın sirlərini haradan bilir? Axı gələn kimi o, yeri-yurdu ilə Fərmandan xəbər verdi, hətta, Nabatı da tanıdı.

Bunları düşündükcə Havva çaşırdı: "Bəlkə, – deyirdi, – Fərmanı da aldadıb, bəlkə oğlanın kağızını ələ keçirib, bəlkə özünü ona yaxşı tanıdıb, inandırıb?.."

Özünün kəhriz başında oturub naqqallıq etdiyi, bildiyindən, bilmədiyindən dəm vurduğu heç yadına düşmürdü. Havalı qonağın tarixçəsini eşidən Əkbər kişi keçən gün kəhrizin başındakı söhbəti xatırlatmasaydı, bəlkə də Havva arvad yenə nigaran qalacaqdı.

Ondan sonra hər evdən çıxanda, hər evə dönəndə, binalar başında səslənən radio borularını gördükdə, Havva arvad minnətdarlıq edirdi:

– Həmişə ayıq olasan, məni yaxşı ayıltdın.

*1942*



# MƏRCAN NƏNƏ

Mərcan nənə oğlu, gəlini və üç yaşlı nəvəsi ilə bu şəhərə yaylağa, dincəlməyə gəlmişdi. Yerlərini əməlli-başlı rahatlamamış dava düşdü. Oğlu orduya getdi, ailəsinə "hələlik heç yerə tərpənməməyi" məsləhət gördü.

Davanın ilk günlərində Mərcan nənə çox təşvişdə idi. Sonralar camaatın, xüsusilə qonum-qonşunun möhkəmliyini görüb bir az toxtadı. O da gəlini kimi qəzetləri izləməyə, cəbhə xəbərləri ilə yaşamağa başladı. Günün birində ev sahibi, uca və cantaraq qadın Mariya pilləkən ayağında gəlinə nə isə çox sözlər dedi. Mərcan nənə rusca bilməsə də söhbətin ciddi olduğunu kənardan hiss edirdi. Gəlin evə dönən kimi xəbər aldı:

– Nə deyir?

– Deyir gərək nobat ilə damda durasınız.

– Niyə?

– Bəlkə, deyir, düşmən bomba tökdü.

Mərcan nənə gəlinin sözünü başa düşmədi:

– Bomba töküləndə, qızım, zirzəmiyə qaçarlar, daha dama çıxmaq niyə? Bəlkə urusca deyib, sən yaxşı başa düşməmisən? Yeri get, öyrən görək nə deyir?

Gəlin Mərcan nənəyə anlatdı ki, hava siqnalı olanda damda gözləmək lazımdır. Mərcan nənə soruşdu:

– Nəyi gözləmək?

– Bomba düşsə söndürmək üçün.

Gəlinin sözü Mərcan nənəni təəccübləndirdi. O, bombanın nə olduğunu bilirdi. Görməsə də bu haqda çox eşitmişdi. Bilirdi ki, bomba partlayan, adamı öldürən şeydir. Ancaq bombanı söndürmək, özü də bir arvad xeylağının əli ilə söndürmək mümkün olduğunu eşitməmişdi, eşitsə də inanmazdı.

Gəlin tapşırıq alıb, əlində bel və qum torbası olduğu halda dama çıxanda Mərcan nənəyə elə gəlirdi ki, bu saat göylər şaqqıldayacaq, şəhərə odlar yağacaq, balaca nəvəsi anasız qalacaqdır...

Gəlinin dalınca dama çıxmaq, ona nəsihət edib aşağı endirmək istədi. Nərdivanın ikinci pilləsində gözünü qonşu damlara sarı gəzdirdi. Hər yerdə adamlar durduğunu seçdi. Pilləkəndən enib eyvanda dayandı. Əllərini qaldırıb dua elədi:

– Ya rəbbi, özün bombadan saxla!

Mərcan nənə bu sözü demişdi-deməmişdi, birdən fit verildi. Hava həyəcanı elan olundu. Qadınlar, uşaqlar mühafizə yerinə qaçdılar. Mərcan nənə də vahimə, qorxu, təlaş içində nəvəsini götürüb zirzəmiyə getdi. Ancaq yarı canı gəlinin yanında qaldı.

Sabahısı gün Mərcan nənənin gəlini, deyəsən, tamam başqa adam olmuşdu. O, ev damına düşən üç yanğın bombasından ikisinin üstünü torpaqlayıb söndürmüş, birini vurub küçəyə salmışdı. Bütün bina yanğından xilas edilmişdi.

Həyətdəkilər gəlinin başına yığılıb danışırdılar. Mərcan nənə isə ehtiyat ilə dama çıxır, söndürülmüş bombanı öz gözü ilə görmək istəyirdi. “Badımcana oxşayan bu uzun, saplaqlı dəmiri” əvvəl başmaq tayı ilə qurdaladı. Zərərsiz olduğunu yəqin edəndə əlinə alıb, o yan-bu yanına diqqətlə baxdı:

– Hə, – dedi, – sənin ki canın bir ovuc torpaq imiş, nə qiyamət qopartmışdın, ay kafirin malı!



Gəlin öz hünəri ilə Mərcan nənənin gözündə böyüdüyü qədər bombanın qorxusu azaldı.

Bu dəfə növbə gələndə Mərcan nənə gəlini buraxmaq istəmədi:

– Sən, – dedi, – uşağın yanında qal. İndi mən nobat çəkərəm.

Gəlin razı olmadı.

– Qoca arvadın nə işi, görən mənə nə deyər... Sən get rahatlığına.

Mərcan nənə nə qədər təkid elədisə qoymadılar növbətçi dursun.

Qaranlıq düşəndə Mərcan nənə nə fikirləşdisə, uşağı bombadan mühafizə yerinə apardı. Orada, yerin altında əməlli-başlı konsert dəmdəsgahı düzəltmişdilər. Bir tərəfdə oyun şeyləri düzülmüşdü. Başda da bağça müəllimi kimi yaraşıqlı bir qadın xırda uşaqları başına yığıb nağıl danışırdı. Mərcan nənə nəvəsini qoyub qayıdanda ev idarəsinin işçisi soruşdu:

– Hara, niyə əyləşmirsən?

– Bala, – dedi, – evdən nigaranam, birdən fit-zad çalınar.

■ ■ ■

Hava həyəcanı siqnalı veriləndə evdəkilər məlum qayda üzrə zirzəmiyə getdilər. Mərcan nənə dama çıxmaq istədi. Ancaq bilirdi ki, gəlinin acığı tutacaq. Onu da bilirdi ki, bomba söndürmək istəyənin əlində gərək beldən, kürəkdən bir şey olsun. Evin içində vurnuxdu, eyvanda əlini o yan-bu yana sürtdü. Xəkəndaz əlinə keçən kimi nərdivana dırmaşdı. Sakit və buludlu bir gecə idi. Ancaq buludlar altından ayın işığı hiss olunurdu. Faşist təyyarələri, deyəsən, buludluğu fürsət bilib, tələsik, camaat yatmamış uçub gəlmişdi. Mərcan nənə onların motor gurultusunu seçməsə də, atdıqları bombanı səsindən tanıyırdı. Bomba yerə çatana qədər fit verə-verə gəlirdi. Mərcan nənə pilləkənin başına çatmamış, bomba fitini eşitdi və ağızdolusu cavab verdi:

– Zəhrimar! Zəhrimarın yekəsi!

Mərcan nənə bu sözü elə dedi ki, xəkəndazı əlində elə şax tutub dama atıldı ki, görən deyərdi o, ömrü boyu yığdığı qəzəb ilə ən qorxulu bir düşmən üstünə atılır və bu saat onu parça-parça edəcəkdir.

Doğrudan da, Mərcan nənənin qəzəbi nəhayətsiz idi. Müharibənin əvvəlində ürəyində doğan qorxu indi qatı bir hiddətə çevrilmişdi. Faşist pilotlarının gəlişi bu hiddəti daha da alovlandırdı. Dinc və gözəl şəhərə, səadətlə gün keçirən ailələrə, mehriban camaata, analara, övladlara baxır, canavar kimi gecə qaranlığında basqın edən faşistləri xatırlayır, ürəyində deyirdi: "Ay gələn yolların kəsilsin, ay uçan qanadın qırılsın, gözün kor olsun, niyə qoymursan, niyə xalqı dinc qoymursan?.."

Sonralar Mərcan nənə qarğışın, nalənin də qorxu kimi xeyirsiz, hətta ziyanlı olduğunu anlamışdı. Qəzəbini söz ilə ifadə etməzdi. Dizinə çırpar, dodağını gəmirərdi...

Damda heç kəsi görmədi. Qonşu damdan gələn səslərə tərəf yeridi. Oraya bomba düşmüşdü, növbətçilər su daşıyırdılar. Gəlini Mərcanı görəndə vahimələndi:

– Niyə gəlmisən, ana, yoxsa?

Mərcan dedi:

– Uşaqlar oynayır, nigaran olma. Qərarım gəlmədi. Dedim bəlkə köməyim dəyə.

Növbətçilər onu rahatlanmağa göndərdilər. Mərcan nənə qayıtsa da, ürəksiz qayıdırdı. Bu qorxulu gecədə hamının bir ailə kimi əl-ələ verib düşmən ilə vuruşduğu gecədə öz əlindən bir "xeyirli iş gəlmədiyinə" darıxırdı.

Damdan enəndən sonra qapıda dayanmışdı, burnuna yanıq iyi gəldi. Ev-eşiyə diqqət elədi. Qapıya çıxdı. Qır iyi döngədən gəlirdi. Mərcan nənə yaxınlaşanda asfaltın alışdığını, lampa piltəsi kimi alovlandığını görüb haray çəkdi:

– Ay nobatçılar, gəlin, bağ yandı!

Sözünü hamı anlasın deyə iki dəfə də rusca dedi:

– Bajar, bajar, izdes!

Tumanının ətəklərini əllərinə yığıb həyətə su dalınca qaçdı. Adamlar hər tərəfdən köməyə gəlib asfaltı gölməçəyə döndərdilər, yanğından əsər qalmadı. Böyüklərdən kim idisə Mərcan nənənin əlini sıxıb, "malades mamaşa!" deyəndə Mərcan nənənin ürəyi sevinclə döyündü. Əlindən "xeyirli bir iş gəldiyinə" necə sevindisə dodaqları titrədi. Rusca deyə



bilmədiyinə təəssüf etdi. Gəlinin qolundan tutdu ki, "buna başa sal!"

Mərcan nənə "böyüyün" qabağında dayandı. Yumruğu ilə sinəsinə elə bərk döydü ki, taxta kimi səsləndi:

– Biz, qafqazski! Babay-mabay bilməz!

Mərcan nənə əllərini göyə, düşmən təyyarələri gələn tərəfə, sonra da yerə, bomba söndürülən asfalta tutub dedi:

– Onu, faşist izdes kopay! Basdıracağam!

"Böyük", Mərcan nənəni çox yaxşı başa düşürdü. Dilini bilməsə də başa düşürdü. Onun səmimiyyəti, təbiiliyi, onun saf ana, sədaqətli vətəndaş ürəyi hamıya – böyüyə də, kiçiyə də aydın idi. Ukraynaya dincəlməyə, nəvəsinə qulluq etməyə gələn, müharibə günlərində şəhəri müdafiə edən döyüşçülər sırasında işləyən, vətənə qulluq edən qadının xatiri hamının yanında əzizdir!

*1942*

# ANA

Mənim hafizəm zəifdir. Ən yüksək sevincləri uşaqlıq əyləncələrim kimi unuduram. Ağır kədərlərim, sağalmış tikan yarası kimi yox olub, gedir. Uşaqkən başımdan əsib-keçən fırtınaları, gənc yaşında laçın xəyalımı ovlayan sevgi həsrətlərini, kəndin dar küçələrinə sığmayan nəşələrimi, yarpız kimi ətirli, sular kimi saf ümidlərimi, arzularımı, istəklərimi, yaz yağışı kimi ötəri nisgillərimi unutmağı bacarıram.

Lakin onu unuda bilmirəm.

O, bütün yazıqlığı, kimsəsizliyi və köməksizliyi ilə göz önümdə canlanır. Sirli bir sənətkar əli qəlbimin, ruhumun, könül həsrətlərimin səhər bağçasında o xəyal simasının əbədiyyət abidəsini yüksəldir. Mən onu daha gözəl xatırlayıram.

Onlar yaz axşamında sevmiş, yay səhərində birləşmişdilər. Alovlu gəncliyin bitməz və isti ehtirasları onları bir-birinə bağlamışdı.

Onlar təmiz bir sevgi, böyük bir sevinclə birləşdilər. Gəlinlik günləri sığırçın şənliyi ilə analıq günlərini çağırdı. Ananın dənizlər qədər



dərin, günəşlər qədər munis məhəbbəti məsum bir körpənin köksünə axdı. Ata, yalnız evində xoşbəxt ata, ağır günlərin ağır havasında çırpınır, bədənini yaş paltar kimi sıxar, qüvvətini damcı-damcı biləklərinə axıdıb, ailəsinə bir tikə çörək qazanardı.

Evə girdimi, Arzusunun mina boyuna baxdımı, körpəsinin çiçək gülüşünü gördümü, çəkdiyi əziyyətlər yadından çıxardı.

■ ■ ■

Aralıq qarışdı.

Dünya bir-birinə dəydi. İki çay arasında, ağaclıqlar içində, tüstü sütunları altında yatan şəhərdə sanki gizli bir yürüş başladı. İndi adamların üzünü yalnız qayğı, məyusluq, kədər deyil, dərin bir intizar qaplamışdı. Onlar ya bir-birinə salam verir, ya da üz çevirib ötmürdülər. Qarşılaşanda dinmədən, danışmadan bir-birinə baxır, gözlərilə bütün iztirab və ehtiraslarını deyirdilər. Sirlər oynayan gözlər qış axşamı kimi tutular, qaranlıqlaşar, müxatəbin süfətini qaraldardı.

Nədənsə, bu balaca, lakin qədim şəhərdə hər şey sirli görünərdi. Yazbaşı dolu yağardı, damların tənəkəsini döydükcə, qarışıq səsləri ilə insanları məşğul etdikcə hər kəsdə bir maraq, təəccüb və heyrət oyadardı. Bəziləri bu səslərdə ilin bolluğunu, gəlimli məhsul mahnısını oxuyardı, kimisi dolu səsində dolu bir həyəcan, məchul bir çağırış – "gəl, gəl, gəl" səsi eşidərdi, bəziləri də dodaqlarını gəmirər, barmaqları arasındakı kəhrəba müştüyünü hirsindən sıxıb çatladardı...

Dolu şəhəri döyəclərdi...

Küləklər indi küçələrin tozuna bürünüb, palçığa atılmaz, kollar içində çırpınmazdı. Göyərçin kimi damlara qonub, qanad çalar, aləmi yuxudan oyadar, qorxaqları titrədərdi. Qaranlıq çökəndə uca çinar ağacları dilə gələr, pıç-pıç danışardı, küçələr isə ağzına su alardı.

Günəş çıxdımı, ötən gecənin qaranlıqları içində doğub, böyüyən, ətir kimi dərhal yayılan sirli xəbərlərin üzərindən pərdələr atılar, aləmə sakit bir elan verilərdi. Fabrikaların darvazası açılar, dustaqxanaların, kameraların qapısı ağır qıfıllarla bağlanardı.

Şuluqluq artırdı.

Atanın istirahəti pozulmuşdu. Evə az gələr, arvadının qulağına nələrsə pıçıldayar, onun tutqun üzünü çiçəklər səpilmiş kimi şənləndirər, körpəni öpər, gedərdi.

Hadisələr bir-birini təqib edirdi. Qəlblər, dənizlər qədər dərinləşmiş ədavəti dözməməkliyin uzun çəngəli ilə çəkib, üzə çıxarır, taleyini, müqəddəratını həll etmək üçün süngü-süngüyə gəlirdi, "sonsuz dəhşətlərdənsə dəhşətli bir son" yaratmaq istəyirdi.

Bir axşam çox evlər dağıdan, körpələr ağladan əl, Arzunun da baharını soldurdu: atanı süngülər, söyüşlər, təpiklər altında onun isti qucağından alıb, qəssabxanalara apardılar...

O getdi, ailənin işığı, sevinci, həyatı da onunla getdi.

■ ■ ■

Nə göz yaşları, nə qaranlıq gecələri sızladan ana fəryadları, nə təsəllilər onu qaytara bildi. Dustaqlardan, sürgünlər və katorqalardan danışıldımı, ananın ağlar üzündə təsəlli arayan xoş xəbər intizarı doğurdu. Gedəndən-gələndən ərini soruşurdu. Deyilənə görə onu cəbhələrin hansındasa görən olmuş, o əliyalın səngərdə dolaşır, divanə kimi səslənir, düşmənə daş, kəsək atır...

Arvadı bu xəbərə də qane idi. Sevinirdi.

– Olsun, – deyirdi, – divanəliyinə də razıyam. Ancaq sağ olsun. Onu məhəbbət o günə salmışdır. Əli əlimə çatsa, körpəmin təbəssümlü baxışını bir dəfə görsə, saf-sağlam olacaqdır...

Bu xəbərlər də yalana çıxdı. Cəbhələr dağıldı. Ordular qayıtdı. Ara sakitləşdi. Onu "gördüm" deyən olmadı. O, ala-qaranlıqda yuvasını itirmiş tərlan kimi yox oldu... Göz yaşı qadınların həm acizliyi, həm də gücüdür. Onlar ürəklərini əzən dağlar qədər müsibəti damcı-damcı əridib axıdar, könüllərini təskin edərlərdi.

Ananın da yolu bu idi.

Aylar dönür, illər keçirdi. Həyat qayğısı, ehtiyac ananı qapı-qapı



gəzdirirdi. Xanımlar onu uşağına görə qulluqçu götürmürdülər. Meşələrdə meyvə, səhralarda yemlik, tarlalarda taxıl başağı da yox idi.

Bir axşam ana sevinclə qayıtdı. Ərinin ölümündən bəri, üç ildə, yalnız indi, birinci dəfə üzündə bahar küləyi kimi gülüşlər oynadı: Arzu aşbazxana süpürmək vəzifəsinə götürülmüşdü.

■ ■ ■

Baharın uzun günlərindən sonra yayın isti havaları gəldi. İnsanlar paltardan yüngülləşdi. Yelpiklər, ventilyatorlar işə düşdü. Su budkalarının qabağı doldu. Uzaq dağların buzları parçalanıb, şəhərə gətirildi. Xoşbəxtlər, boğucu istilərdə dolu şəhəri buraxıb süzən maşınlarda, karetalarda, zınqırovlu faytonlarda tablolar kimi gözəl və bəzəkli yaylaqlara getdilər.

Şəhərin ağır havasından, bürkülü mühitindən qurtarıb, zümrüd qoftalı dağların qucağına atılanlar suların, quşların, küləklərin səsində şad bir nəğmə duyur, yaylaqların fərəhi ilə dünyaya yenicə gəldiklərini təsəvvür edirdilər.

Lakin ananın doğma balaları bundan uzaq idi.

Zəngin təbiət səxavətli qucağını açıb, torpağın həqiqi övladlarını gözlərkən, bəzəkli karetalar ona ögeyləri gətirirdi. Yerin əsl övladı kimlər tərəfindənsə anasından "uzaqlaşdırılırdı." Onlar bahar südündən məhrum idilər. Alt qatların rütubətli, vərəmli bucaqlarına təhkim edilmişdilər. Bir qarın çörək üçün bir əsrlik ömrü çürütməyə məcbur edilmişdilər.

Ana yandırıcı iyul günləri içində zəif bədənini damcı-damcı əridir, uşağını bəsləmək üçün çırpınırdı... Bir səhər, dünyanı partladan bir dəhşət onu yuxudan ayılıtdı. Axşamkı sakit və rahat aləmdən əsər də qalmamışdı. Şəhərə od vurulmuşdu. Dünya anlaşılmaz bir gurultu içində titrəyirdi, üfüqlər alovlanır, göy barıt iyi ilə dolmuşdu.

Ana uşağını yerə qoydu. Pəncərədən boylanıb baxdı.

– Dünya od tutub, yanır, davadır...

İtirdiyi ərini xatırladı. Balasına zaval gələcəyindən qorxub geri çəkildi, onu bağrına basdı. Hərarətli dodaqları ilə, gurultudan vəhimələ-

nən uşağının ağlar gözlərini öpərkən başına ağır bir şey dəydi. O heç bir şey duymadı. Heç bir şey anlamadı. Köhnə tüfəngi çiyninə aldı, ayaqyalın, başaçıq, körpəsi qucağında küçəyə çıxdı.

O, minlərlə ağlar qalmış qadına, uşağa qoşulub qaçırdı. Nalələri söndürmək, səngərdə qızmış hərbiyyələrin qəlbini daş kimi saxlamaq üçün mərmilər qaçanların başına yağdırılırdı. Hər addımda adamlar dəstə ilə yerə sərilirdi. Tüstü dünyanı bürümüşdü. Heç kəs heç kəsi tanımırdı. Ana, bir əli tüfəngdə, bir əlində balası, saçlarını küləklər daraya-daraya, topuqlarını daşlar parçalaya-parçalaya qaçır, qaçırdı.

O nə üçün qaçırdı?

Alovlarda yanmış, közərmiş bədənini ölümdən qurtarmaq üçünmü qaçırdı?

Yox!

O, bir təsəlli, bir mərhəmət, bir ümid ocağına çatmaq üçünmü qaçırdı?

Yox!

Bu dünyada o, nə təsəlliyə, nə ümidə, nə mərhəmətə inanırdı. O, taleyin amansızlığına, ömrün ağırlığına, həyatın əzabına, gecələrin hiyləsinə, gündüzlərin dəhşətinə inanırdı.

O yalnız və yalnız bir şey üçün qaçırdı: əziz və məsum körpəsini bu nagəhan yanğınların içindən çıxarmaq, onun körpə bədənini qorumaq üçün qaçırdı. O nəfəsi ilə böyütdüyü balasını köksü ilə qorumaq istəyirdi. Toplar səslənərkən balasını sinəsində gizlətməyə çalışırdı. Körpə isə bu dəhşətdən hürküb ağlayırdı.

Ananın açıq sinəsinə güllə dəydi. Əlini sinəsinə qoydu. Birdən qanlı barmaqları sünbül kimi havada titrədi, torpaqlara yıxıldı, hərəkətsiz qaldı. Uşaq qucağından yerə düşmüşdü. Qalxıb ananın başı üstündə ağlamağa, fəryad etməyə başladı.

Toplar gurlayır, güllələr yaralı kimi inləyir, atlar kişnəyir, təkərlər şaqqıldayır, qılınclar parlayırdı. Ananın sinəsindən qan tökülürdü. Uşaq çapa-çapa gələn atlıları görəndə qorxdu, daha bərk qışqırdı. Anasını çağırdı. Süngüsündə qırmızı lent titrəyən bir atlı yerə endi. Körpənin göz yaşlarını silib, üzünə baxdı. Uşaq "ana" deyib ağlayırdı. Atlının gözləri yaşla doldu. Bu səsdə o, vaxtilə qoyub getdiyi ailəsini xatırladı.



Torpaqlara sərilmiş qadına diqqət etdi. Tanıdı. Dağınıq saçlı başını qaldırıb dizləri üstə qoydu. Arzu həmişəlik olaraq dünyaya göz yummuşdu... Ailəsinə səadət gətirən ata ixtiyarsız ağladı. Lakin o, dünyadan göz yaşlarını silməyə and içdi. Uşağı qucağına alıb atına mindi, çapa-çapa uzaqlaşdı.

*1942*

# ARXA ƏSGƏRİ

41-ci ilin yayında biz, üç yoldaş çağırış məntəqəsinə gedirdik. Günortanın istisində piyada bir neçə kilometr yolu getməli idik. Bir kəhriz başında oturub dincəldik, sərinləşdik. Kənarda, zəminin ortasında bir dəyə (çardaq) görünürdü. Dəyənin üstü söyüd çırpıları ilə örtülmüşdü. Külək qurumuş yarpaqlara toxunduqca xoş bir xışıltı səsi gəlirdi. Yoldaşım bunun köhnə dəyə olduğunu güman etdi. Mənə elə gəlirdi ki, orada adam vardır. Su qabı almaq bəhanəsilə dəyəyə girdim, qoca, ağsaqqal bir kişinin arxası üstə uzanıb dincəldiyini gördüm. Kişi qalxdı, xoş gəldin elədi. Su içmək istədiyimi biləndə, mis camını götürüb kəhriz başına gəldi. Əvvəlcə camı qumladı, yaxşıca yudu ki, "təmiz olsun, bəlkə canımıza sinmədi."

Doğrudur, mən Salman kişi ilə çox oturmaq, söhbət etmək istərdim, ancaq vaxtımız az idi, getməli idik.

Yoldaşım Salmanla zarafat elədi.

– Əmi, bu torpağı, bağ-bağçanı sizə tapşırırıq, əsgər gedirik.

Deyəsən, Salman kişiyə belə bir söz qabaqcadan deyilmişdi. Yoldaşım bitirməmiş cavab verdi:



– Oğul, – dedi, – bir siz yox, hamımız əsgərik. Nə qədər ki, anasının əmcəyini kəsən köpək uşağı (qoca nemesləri nəzərdə tuturdu) qırılıb tərk olmayıb, hamımız əsgərik. Gərək əl-ələ verək. Bu dəyədə oturmağıma baxmayın, fikrim odlu atışmadadır. Əlacım olsa mən də sizə qoşulub gedərəm...

Biz ayrıldıq, amma qocanın xəyalı mənim xatirimdə zəbt olub qaldı. Onun alçaq boyu, kiçik sifətində xətt salan qırışıqlar, sanki get-gedə dərinləşən və kiçilən gözləri, ahəstə, lakin təmiz səsi, gündən qaralmış sinəsi, bərk əlləri, yerişi, duruşu... Mən xəyalımda bu qocaya güldüm: "Mübarizələrin bu kəskin çağında 80 yaşlı qoca özünü əsgər ilə tay tutur. Bəlkə bu quru bir hiss gənclik zamanında kişinin qəlbindəki arzuların son qığılcımıdır. Yoxsa bunun, sönmüş ocaqdan başqa bir şey olmayan bu qocanın, bu hərəkət edən kölgənin əlindən nə gələr..."

■ ■ ■

Bu illərdə bizim həyatımız, bütün ölkəmizin, bütün döyüşən xalqımızın həyatı kimi çox sürətli, şiddətli və gərgin gedirdi. Bir neçə ay təlim keçəndən, yürüşlərdən, imtahanlardan çıxandan sonra biz cəbhəyə düşdük, üç ay on bir gün sərasər odlar, alovlar içində vaxt keçirdik. Yoldaşlarımızdan biri faşist əhatəsinə düşmüş, tək başına 17 nəfər düşmən qırmış, əhatədən çıxmış, bir balaca radiostansiya da gətirmişdi. Mən onun alnındakı yaranı öpüb arxaya yola saldım, kağız verməyə də macal olmadı. O biri yoldaşım snayper olduğu üçün bizdən ayırmışdılar, batalyon komandirinin ixtiyarına getmişdi. Ancaq biz hərdən bir-birimizdən xəbər tuturduq.

Son hücumların birində ondan aralı düşdüm, yerini və başına nələr gəldiyini öyrənə bilmədin.

Mən döşümdən ağır yara almışdım. Vuruşma meydanından nə vaxt, necə və kimin əli ilə çıxarıldığımı bilməmişdim. İlk dəfə gözümü açanda bütün aləm mənə tapmaca kimi məchul gəldi. Harada olduğumu, ilin, günün nə vaxtı olduğunu, aşkardamı, ya yuxumu gördüyümü, suda, ya quruda, hərəkətdə, ya sükunətdəmi olduğumu kəsdirə bilmə-

dim. Uzun müddət gözüm səqfə dikili qaldı... İki ay beş gün xəstəxana həyatından, müalicədən sonra mənə məzuniyyət verdilər. Kəndimizə qayıtmalı, dincəlməli, qanımı artırmalı, qüvvətə gəlməli idim!...

Mən ömrümdə çox şeylər görmüşəm. Çox sevinib, çox da kədərlənmişəm. Xəstəxanadan çıxdığım günün sevincini heç bir fərəh ilə ölçə bilmərəm. Vanna otağında ilk dəfə gözüm öz paltarlarıma sataşanda az qaldım özümdən gedəm. Bunlar, bu yüngül əsgər köynəyim, kəmərim, çəkmələrim, ulduzlu papağım sanki, bu saat cəbhədən gəlmişdir. Onlardan barıt və qan iyi kəsilməmişdi. Onlar sanki, məni çağırmağa, yoldaşlarımın yanına aparmağa gəlmişlər. Hansı bir hiss iləsə gözlərim yaşardı.

Deməli, ölmədim. Deməli, qayıdıram. Əyin paltarlarım xoş bir həyat havası kimi məni örtdü. Anadan olan uşaq danışa bilsə və gəldiyi aləmdə ilk arzularını söyləməli olsa, bilmirəm, nə deyərdi. Mən isə ürəyimdə bir şey deyirdim: Vətən, yoldaşlar, dostlar. Onları tapacaq, görə biləcək idimmi?

■ ■ ■

Təsadüf elə gətirdi ki, kəndimizə gedəndə yolum Salman kişinin dəyəsindən düşdü. Buradan ötdüyüm günü, kişi ilə görüşümüzü, mis camı xatırladım. On beş aya yaxın bir müddət deyəsən dünən idi.

İndi buralarda daha şənlik idi. Tarlalarda məhsul yığılırdı. Taxıl zəmilərində dərz tayaları dağ kimi tellənmişdi. Ağır yük maşınları köç yolundan ötüb arxada toz sütunu buraxırdılar. Pambıqda alaq vuran qadınların əlvan geyimləri bu yeri laləli çöllərə oxşadırdı. Mən Salman kişi ilə maraqlandım. "Axı o da özünə əsgər demişdi. Görüm bu "əsgər" kişi yenədəmi dəyə kölgəsində sərinləyir. Açıb ağartmayacağam. Görüm tanıyarmı..."

Salman kişinin özünü görməmiş, onun bostanı məni valeh etdi. Gördüyümüz böyük, çargül zəmi başdan-başa yemiş, qarpız tağları ilə örtülmüş, yamyaşıl bir məxməri "andırırdı." Məxmərin hər yerinə naxış vurulan kimi, tağlardan sallanan ağ, sarı yemişlər, bulud kimi tutqun qarpızlar görünürdü.

Mən müharibələrdə gücün, qüvvətin nə demək olduğunu görmüşəm. Ağır polad maşınların nərə çəkərək, ətrafa alov saçdığını, köklü ağaclar qopardığını, dağlar aşdığını görmüşəm. Orada insan zehninin, əməlinin, motorların qüvvətinə nə qədər heyran olursan...





Buralar, bu sakit, saf və günəşli göyün altı isə tamam başqa aləmdir. Burada da insan əlinin, əməyinin qüdrətinə, torpağın nemətinə heyran qalırsan. Biz əsgərlər maşınların dilini bilirik. Onları istədiyimiz yana sürür, istədiyimiz məqsəd üçün onları işlədirik. Salman kişi də yerin "sirlər xəzinəsi" olan bu torpaqların təbiətini bilir. Məhsul becərir, nemət yetirir, insanlara xidmət edir.

Mən valeh oluş kimi dayanıb bol məhsullu bostan ləklərinə baxırdım. Tağlardan sallanan və yerin şirəsini çəkən, kəhriz suyu içən, böyrünü ana torpağa söykəyib yatan yemişlər, sanki mənim tamaşa etdiyimdən məmnun idilər. Mən bostanın həmişə belə qalmasını, il uzunu belə abadlığını arzulayır, tağlar arasına addım basılmasına heyifsilənirdim.

Arxadan bir səs gəldi:

– Xoş gəlmisiniz!

Bu, Salman əmi idi. Əlində bir çəngə alaq otu, mənə tərəf yeriyirdi. Dəyəni, kölgəliyi göstərib təklif etdi.

– Buyurun, əyləşin!

Salman kişi bunu dedi, gözünü mənim sifətimdən ayırmadı:

– Əsgər bacıoğlu, deyəsən, gözümə tanış gəlirsən axı!

– Yadınıza düşürmü?

Salman kişi dayanıb diqqətlə, dik-dik üzümə baxdı:

– Ötən il buradan əsgərliyə gedən oğlan deyilsən? Üç yoldaş idiniz ha...

Mən təsdiq etməmiş Salman kişi soruşdu:

– Yoldaşların hanı?

Bu sualın bəlkə məni kədərləndirəcəyini, bəlkə onların başında bir iş olduğuna gümanı ilə Salman kişi sözünə davam etdi:

– Həmişə ev-eşiyinizdə... hamı yoldan sağlıqla, otur görək!

Mən başıma gələnləri qocaya danışmaq istəmirdim. Ancaq, deyəsən, o darıxırdı:

– Bir balaca toxta!

Bunu deyib özünü ləklərin arasına verdi. Səslənən enliyarpaq tağların budaqlarını aralayaraq, nə isə axtarır, seçirdi. Bir də gördüm, qucağında iki yemiş gətirdi.

Göy, zolaqlı, şamama kimi yumru yemişi göstərib dedi:

– Buna bizlər qırmızı yemiş deyərik. Toxumunu Carcodan gətirtmişəm. Bizim torpaqda bərk məhsul verir.

Salman kişi yemişi doğrayıb qonağın qabağına qoyduqca, ayrı bir fərəh duyur, sanki ilboyu çəkdiyi zəhmətlərin ləzzətini çəkirdi.

Mən qocanın önündə yanlış zənnimi etiraf etdim.

– Salman əmi, – dedim, – gərək məni bağışlayasan!

Qoca mənim minnətdarlıq etmək istədiyimi güman etdi:

– Belə danışsan, – dedi, – səndən inciyərəm! Bu nə sözdür! Mənim vəzifəm nədir. Əməyim sizin kimi cavanların ürəyini sərinlətməyəcək, daha mən nəyə lazımam. 47 ildir mən bostan becərirəm. Gecəm də, gündüzüm də torpaqdır, əkindir. Niyə? Dövlətmi yığmaq, milyonçumu olmaq? Xeyr, niyyətim sizin kimi oğlanlara xidmətdir. Bu yayın istisində bir yolçu tuş gəlib mənim bostanımda bir dilim yemiş yeyirsə, o mənə milyondur. Çox milyonlar gedib, çox milyonçular lənət sahibi olublar. Amma xeyir iş ölməz! Allah qoysa, sabah sən qayıdıb səngərdə faşistə güllə yağdıranda Vətən yadına düşəcək. Bu düzlərin qocası Salman da yadına düşəcək. O mənə bəsdir. Bir əsgərimin xatiri xoş olmağı mənə bir dünyaya bərabərdir!..

Mən Salman əmidən ona görə üzr istəyirdim ki, keçən il onun əməyini layiqincə düşünməmişdim. İndi o mənim gözümdə ən fədakar bir əsgər idi. Mən möhkəm inanıram ki, qalib gəlmək üçün bu da vacibdir. İnanıram ki, səngərdə atıcı, topçu, göydə təyyarə, dəstə qabağında tank, dəstə dalında silah daşıyan vacib olduğu kimi, arxanın dərinlərində də əkin əkən, bostan becərən, yemiş yetirən Salman əmi də vacibdir. O, arxanın şərəfli əsgərlərindəndir. Bizim hər birimizin bu kişilərə, əməyin bu qocaman əsgərlərinə hörmətimiz, minnətimiz olmalıdır. Onların saf, geniş qəlbləri, möhkəm açıq əlləri, dünyaya yaradıcı əlaqələri vardır. Mən duyğularımı Salman əmiyə deyəndə razı olmadı:

– Düz demirsən, oğul, əsgərin işi hara, biz hara! Hamımız əsgərə borcluyuq. Əsgər bizim igidimiz, arxamız, ümidimizdir. Əsgərin gücünə biz rahat yaşayırıq. Sən ilə mənim burada bu kölgəlikdə oturub sərinləməyimiz, söhbətimiz dünyalara dəyər. Sənin də, mənim də ürəyimiz arxayındır. Çünki, bilirik, bizi qoruyan var. Düşmənin qabağında nəhənglərimiz durur. Hamımız cəbhəyə, cəbhə adamlarına borcluyuq. Sən əsgərsən, şikəstənəfslik eləyirsən, amma bu belədir. Var-yoxumuz əsgərə halaldır.



Mən Salman əmi ilə ayrılandan çox sonra qocanın sözləri qulağımda səslənirdi. O bir əkinçi kimi yox, həm də dərin idraklı bir xalq babası kimi, nəzərimdə böyüyürdü. Xəyalımda deyirdim: Belə arxa üçün, arxanın belə pak qəlbli insanları üçün vuruşmaq da, yaralanmaq da, ölmək də şərəflidir!

*1942*

# ATLI

Bu axşamkı vuruşma Aqilin gördüyü ilk və son dəhşət idi. Buna döyüş demək düz deyil, çünki insan öz sıra yoldaşını, yaxın silahdaşını da görə bilmirdi. Dünya kəsif bir tüstüyə çevrilmişdi. Tüstü içərisində isə hələ yanmamış, ərimımiş minlərlə maddələr partlayırdı.

Düşmən çayın o tayında bərkiyib qüvvə toplayır, fürsət gözləyirdi. Komandanlığımız isə atlılara körpünü keçmək, düşmən hissələri arasında vəlvələ salmaq əmri vermişdi.

Hələ gün təzə əyiləndə düşmən tüstü ilə örtünməyə, üfüqləri axşam kimi qaranlıqlatmağa başlamışdı. Bu qaranlıq arxasında, aydındır ki, tədbir görülür, hiylə qurulurdu. Macal verməməli idik. Qızıl süvarilər yürüş əmri alanda bulud içindən şığıyan ildırım kimi, çapıb getdilər. Enli taxta körpü, deyəsən, zavod atlarının dırnaq səsi və qaçışından vahiməyə düşmüşdü. Bütün bəndləri titrəyirdi. İki dəqiqə keçmədi ki, gurultu ilə göyə qalxdı, ortasından parçalanıb suya töküldü, sakit və yavaş axan suyu quyruq kimi kəsib parçaladı, çayı aşağı-yuxarı təlatümə



gətirdi. Hava barıt, tüstü, yanıq, rütubət iyi ilə doldu.

Aqil düşmən minasının törətdiyi bu mənzərəni görmədisə də, eşitdi, hiss etdi. Lakin geri baxmaq, düşünmək vaxtı deyildi. Aqil düşmənin piyada hissələri ilə qabaqlaşan ilk atlılardan idi. Onun qılıncı qarışıqlıq içində vurnuxan düşmən soldatlarını biçir, vəfalı kəhəri isə külək kimi ötüb-keçirdi. Düşmənin topu da, pulemyotu da, avtomatı da dillənmişdi. Tanklar, təyyarə motorları səs-səsə vermişdi. Ancaq qaranlıqda bunların heç biri süvariləri hədəfə ala bilmirdi.

Aqil düşmən hissələrinin lap dərinliklərini pozmaq üçün çapdıqca çapır, qılınc oynadırdı. Bəzən atının yalına yatır, bəzən qarnının altına enərək atəşdən qorunur, yəhər üstünə qalxanda isə ayrı bir qüvvətlə şığıyırdı.

Aqil kəhərin yerişindəki ləngəri görəndə atın yaralandığını anladı. Əlini heyvanın sağrısına, başına, yalına sürtdü, döşünə sürtəndə əli isti və al qana boyandı.

Aqil endi, əziz kəhərini cilovlayıb meşəyə yayınmaq istədi. Atın bir qıçı şikəst olmuşdu, axsayırdı, hər addımda ah çəkən kimi, ağır nəfəs alırdı. Aqil onu güclə ağaclar arasında, dalda bir yerə gətirdi.

Artıq gec idi. Ay seyrək buludlar arxasından gah görünür, gah gizlənirdi. Atışma isə daha da şiddətlənirdi. Yaxında almanların komanda, söyüş, qışqırıq səsləri eşidilirdi. Süvarilərdən xəbər yox idi.

Aqil indi bildi ki, atlılarımız düşmən səngərlərini ötüb N. şəhərini tutmuşlar, düşmənin buralardakı tör-töküntüsünü təmizləməyi sonraya qoymuşlar. Düşmən soldatlarının özünü itirməsi, əsəbi söyüşləri də bunu təsdiq edirdi. Onlar çəkilib aradan çıxmağa çalışırdılar.

Ancaq Aqil zənnində yanılırdı. Düşmən arxada və şəhərdə olan qüvvəsini də buraya, meşəliyə tərəf çəkir, qızıl süvarilər şəhərə girdikləri zaman münasib vaxt tapıb qəfildən hücuma keçmək istəyirdilər. Aqil tüfəngini əlinə alıb açıqlığa, cığıra sarı yönəldi, bir arxın dalında gizlənib yolun üstünü kəsdi. Bir də gördü ki, bir-birinin dalınca 7-8 nəfər soldat gəlir. Soldatların əllərində patron yeşiklərimi, ya nə isə yükləri var. Aqil səbirli ovçu kimi, şikarını lap yaxına buraxdı, sonra dirsəyini yerdə bərkidərək, silahını dilə gətirdi. Düşmən soldatları yıxı-

landa aşağı dığırlanırdılar. Cəld tərpəşib yerə yatanlar isə meşəni gülləyə basmışdılar.

■ ■ ■

Aqil təkliyini və əhatə edilə biləcəyini düşünərək, gülləyə qənaət etmək və düşmənə yerini bildirməmək üçün daha güllə atmadı və bir xeyli fikirləşdikdən sonra "yolçu yolunda gərək" deyib ayağa qalxdı. O indi təpəciyin dalından, meşənin qurtaracağından ötüb öz səngərimizə sarı yol almaq istəyirdi. O, sübhün açılacağından, yol getməyin mümkün olmayacağından qorxur və tələsirdi...

Birdən meşənin ətəyində, seyrək ağaclıqda bir hənirti duydu. Diqqətlə qulaq asdı, adam səsi eşitdi. Burada, bu yaxınlarda alman soldatlarının məskən saldığını yəqin etdi. İstədi geri qayıtsın. Bir də düşündü ki: "Belə fürsət ələ düşməz, sən nə qayırırsan! Yeri gör, kim var? Nələri var? Bir xəbərlə qayıt! Əliboş hara gedirsən?"

Sanki, Aqilin yerişini duymuşdular. Birdən-birə danışıq kəsildi, heç nə eşidilmədi. Aqil durduğu yerdə donub qaldı. İstiqamət almaqda çətinlik çəkirdi. Beş dəqiqə gözləməmişdi ki, soldatlardan birisinin öskürməsi ilə düşmənin olduğu tərəf aydınlaşdı. Yenə səs gəldi. Aqil astarı ağ və qara dəridən olan gödəkçəsini çıxarıb tərs geyindi. Özünü ay işığında ala-bula görünən meşə kölgələrinə oxşatdı. Ehmallıca, səs salmadan, hərdənbir az sürünməyə, düşmən soldatlarına yaxınlaşmağa başladı. O qədər yaxınlaşdı ki, oturanlardan birinin başını aşkar gördü. Ağac dibində yeşiyə oxşar qara bir şey var idi. Birinin kənara tulladığı şey yerə düşüb səslənəndə Aqil bildi ki, konserv qutusudur, həriflər yeməyə oturublar.

Aqil dizini yerə qoyub silahına "qoyma!" dedi. Soldatların içinə bir qışqırma düşdü ki, deyərdin, cücəli toyuq qaraquş görüb!

Qaçıb yol arasında səngərlənən soldatlar partizan dəstəsinə rast gəldiklərini güman edib atəş açdılar. Aqil artıq güllə sərf etməyib, buradan da geri qayıtdı.

İndi faşistlər hər iki tərəfdən meşəni atəşə tutmuşdular. Hər iki tərəf qarşısındakı atəşin uzaqlığını görüb irəliləyir, "partizanları" tutmaq istəyirdi. Aqil dalda bir daşın altında oturub müşahidə edir, atışmanı dinləyirdi. Səhərə lap az qalmış, dan yeri ağaranda atışan hissələr meşənin ən sıx yerində üz-üzə gəlmişdilər. Onlar bir-birini amansız döyür, məhv edirdilər. Gün çıxanda cəsarətli bir faşist "fürerini" köməyə çağırıb, qabaqdakı səngərə atıldı. Atıldığı ilə vurulduğu bir oldu. Ancaq onu vuran soldat gördüyünə inanmaq istəmədi. Faşist zabiti əmr verib atışmanı dayandıranda, hər iki tərəfin adamları qabaq-qabağa durub heyrətlə bir-birinə baxanda Aqil sıx yarpaqlı qarağacın başında əli tüfəngin tətiyində oturub gülümsəyirdi. Bu vəziyyət hitlerçiləri həddindən artıq qəzəbləndirdi. Onlar ölüləri bir-bir yoxlamağa, düşmən axtarmağa başladılar. Ölülərin hamısı xalis faşistlər idi. Qara, hündür, papaqlı, qolunda faşist nişanı olan bir zabit soldata qışqırıb, nə isə bir əmr verdi. Onlar ətrafa dağıldılar. Yəqin ki, axtarış gedirdi.

Aqil isə qarağacın başında özünü güclə saxlayırdı. O, gah düşmən soldatlarını atəşə tutmaq istəyirdi, gah ötən gecə yarada bildiyi vəziyyəti təkrar etmək tədbirini düşünürdü, gah da düşmən soldatlarının komalaşmasını gözləyirdi ki, onları bomba ilə qırsın. Hərdən də ürəyi dözmür, ağac başından zabitin belinə tullanıb başını əzmək istəyirdi.

Soldatlar Aqilin atını tapdılar, yəhər-əsbabını soyub gətirdilər. Zabit daha da bərk qışqırdı:

– Bu atın sahibi var imiş, ya yox? Bolşevik atı öz-özünə gəlib bura çıxmaz! Yaxşı axtarın, meşədə partizan var!

Zabit bunu deyib aşağıya, yola tərəf yönəlmək istəyirdi. Aqil yəqin etdi ki, bir də onu belə aşkar, hazır bir yerdə yaxalamaq mümkün olmayacaqdır. Burada fürsəti əldən vermək cinayətdir. Bir istədi, güllə ilə zabitin kürəyini qızışdırsın. Sonra düşündü ki, hərəsi bir yana yayılacaq, komalaşmaları bir də keçmiş ola! Gülləni hər zaman, hər yerdə atmaq olar.

Aqil tüfəngini yavaşca budaqdan asdı, bir əli ilə ağacdan bərk yapışdı, o biri əlindəki qumbaranı faşist topasına tulladı.

Deyəsən, baş zabit hənirtidənmi, ya Aqil budaqda yerini möhkəmlədərkən tərpətdiyi yarpaqların səsindənmi bir şey sezmişdi. İstədi, at-

rafa göz gəzdirsin, tapançasına əl atsın. Aqilin qumbarası heç kəsə aman vermədi. Ağac gövdəsinə dəyib elə partladı ki, deyəsən yer yerindən oynadı. Baş zabit ilə 7-8 soldat yerə sərildi. Bomba parçalarından biri də Aqilin baldırını sıyırdı. Daha bundan sonra ağac başında oturmaq olmazdı. Aqil özünü yerdə vurnuxaraq, tüfəngdən atəş açmaq istəyən bir soldatın üstünə atıb, onun da nəfəsini kəsdi. Sağ qalan faşistlər dərhal qarağac olan yeri mühasirəyə aldılar. Aqil öldürdüyü soldatın patronlarını soyub atışmağa başladı. Düşmən gülləsi Aqili çiynindən, sonra da əlindən yaraladı. O, yaralarını görmür, taqətdən düşdüyünü hiss etmirmiş kimi, atışır, dörd tərəfdən yağan güllələrə cavab verirdi. Hər iki tüfəngin patronu qurtarmışdı. Aqil süngüsünü hazırladı. Ancaq bilirdi ki, düşmən üstünə atılmağa qüvvəti qalmamışdır. İllah da susuzluq onu boğurdu. Bütün vücudu od tutub yanırdı. Ona elə gəlirdi ki, dilinə bir içim su dəysə, qolu elə qüvvətə gələr ki, bir bölük faşist də onun qabağında dayana bilməz. O, sönməz kin və qəzəblə alovlanan gözlərini irəliyə dikib, bu saat üzərinə atılacaq olan faşisti parçalamaq üçün hazır durmuşdu. Nədənsə faşistlər gəlmirdilər. Atışma da seyrəlmişdi. Deyəsən, sağ tərəfdən bir nəfər də atmırdı.

Aqil güman etdi ki, onu xam salmaq istəyirlər. "İstəyirlər mən başımı qaldırım, vursunlar." Bu xəyal ilə Aqil öz mövqeyində dayanmışdı. Bir də çaparaq gələn at ayaqlarının səsini eşitdi. Qızıl süvarilər qarağac olan yerə çatanda Aqil son dəqiqələrini yaşayırdı. Qan onu aparmışdı. Canında yalnız sönməyən bir məhəbbət, döyüş ehtirası, döyüş alovu qalmışdı. Gözlərində alışan, dodaqlarında təbəssümə dönən də bu alov idi. Yoldaşlar qəhrəmanın önündə kədərlə baş əyəndə Aqilin dodaqları tərpəndi: "Vətən!"

Aqilin cismani həyatı böyük mənəvi bir həyatla əvəz olundu. O, vətəndaşlarının qəlbində fərəhlə, iftixarla yaşamağa başladı.

*1942*





Baldan əvvəl

# BALDAN ƏVVƏL

–Öldür məni, cəllad!

Bu sözləri xəyalıma gətirəndə vücudum buz kimi soyuyur, əsəblərim sim kimi səslənib gizildəyir. Gözlərimi yumub, yerimi dəyişir, bəzən ixtiyarsız qışqırıram. Qışqırıram ki, xəyalım uzaqlaşsın, unudum, bəlkə özümə gəlim.

Heyhat, unutmaq – nə böyük nemət, nə yüksək istedad imiş! Tale məni bundan məhrum etmişdir.

Bu saat da gözümün qabağındadır. Ayaqlanmış göy otları, uca şam ağacının qabıqlamış gövdəsini, xəyal kimi tərpənən ala kölgəni hər zaman, hər yerdə görürəm. Hər dəfə o qız mənə daha dəhşətli görünür. Qanrılıb ağaca bağlanmış ağ, nəcib qolları duaya qalxmış kimi məsum görünür. Çalın-çarpaz iplər onu möhkəmcə kəməndləmişdir. Qara və pərişan saçları fəlakət kimi, onun çöhrəsini örtmüşdür. O, aslan və qəhrəman olsa da, vəhşət önündə acizdir. Onun hər şeyini əlindən almışlar. Yalnız susmayan dili, odlu gözləri, faciəli sifəti vardır. Qız indi bu

silahlarla vuruşur. Yaralı şir kimi başını silkələyir, pərişan saçları arasından görünən gözləri alovlu məşəli andırır...

Bu yeri, çox güman ki, çoxunuz görmüsünüz. Krımın məşhur yaylaqlarından birinə doğru enən şose yolu sıx və səfalı ağaclıqdan keçir. Səliqəli, əməksevər, ab-havanın ləzzətini bilən kəndlilər, lap meşənin içərilərinə qədər məskən salmışlar. Yay mövsümündə, isti yerlərdən tökülüşüb gələn yaylaqçıların çoxu şəhərə, kəndə getmirlər. Basəfa yer seçib buralarda, meşə cığırlarına oxşar yollarda düşürlər. Belə bir təsadüf mənə də müyəssər olmuşdur.

Burada, Aqafonov adlı bir furqonçunun evində mənzil kirayə elədim. Aqafonovun ailəsi – kişinin anası Polina Aleksandrovnadan, qızı Arminadan, bir də gözdən şikəst qardaşı Matveydən ibarət idi. Kasıbca bir ailə idi. Qarı ilə şikəstin əlindən iş gəlmirdi. Armina traktorçuluq öyrənir, evdə atlara qulluq edirdi. Aqafonov kolxozdan, kurort idarəsindən kirə götürüb yaylağa və arana şey daşıyırdı. Yayda iki otaqdan birini yaxşıca döşəyib üç-dörd yüz manata kirayə verər, özləri çardaq altında ötüşərdilər.

Bu ailənin dincliyi, sakitliyi mənim xoşuma gəlirdi. Bəlkə, deyirdim, ana qarımışdır, qardaş şikəstdir, ona görə bunlar istər-istəməz mülayim olmuşlar.

Bu fikrimi kişiyə deyəndə gülümsədi.

– Qalmaqal, – dedi, – nəsillikcə bizlərdə olmaz. Bir yox, beş şikəst qardaşım ola, anam altmış yox, yüz altmış yaşında ola, yenə mənim borcum qulluq etməkdir. Odur, canları sağ olsun atlarımın!

Kişi axurda yem yeyən atlarını göstərib, fəxr edirdi. Görürdüm ki, Aqafonov onları, doğrudan da, qardaş kimi sevir. Atlar da, deyəsən, sahiblərinin iftixarına bais olduqlarını duymuşdular. Sanki, onun işarəsinə görə başlarını yemdən qaldırıb, ətrafa baxındılar. Aqafonovun qızı da qohumları kimi sakit və üzüyola idi. Səhər tezdən kursa gedir, axşama yaxın qayıdırdı. Evlərində bir saat-saat yarım nahar edib dincəldikdən sonra, əlində dəftər-kitab həyətə çıxırdı. Yaşıl yerdə, ağac kölgəsində oturub dərsinə məşğul olurdu.

Mənim ağlım şəhər qızlarına getmişdi. Arminanın mütləq mənimlə maraqlanacağını, yanaşıb tanış olacağını güman edirdim, heç də belə olmadı. Orada qaldığım on beş gün ərzində Arminadan quru salamdan başqa heç nə eşitmədim. Axırda mən bu sadə kənd qızının önündə qürurumu əskiltməli oldum. Armina öz təmkinində davam edirdi. Onun arzusu, atasının və müəlliminin tapşırdığı işi başa vermək idi.

– Qoy, – deyirdi, – kursu qurtarım, imtahanımı verim, sağlıq olsun, yoldaşlarıma qonaqlıq vəd eləmişəm.

Traktor kursu avqustda bağlanası idi.

– Armina, – dedim, – o zaman mən vətəndə olacağam, sizinlə bir məclisdə əyləşmək səadəti mənə müyəssər olmayacaqdır.

Armina öz qələbəsinə əmin bir təmkin, arxayın bir təbəssümlə dedi:

– Gözləyərsiniz, mənim məclisimi gözləyərsiniz!

Arminanın sözünə heç bir cavab tapmadım, nə qədər vacib işim olsa da, bu qızın çağırışına hazır idim.

Ancaq qəza elə gətirdi ki, bu söhbət olan günün axşamı yola düşdüm. Nə müddətə getdiyimi özüm də yaxşı bilmədiyimdən, Armina ilə layiqincə vidalaşmadım. Sabah, ya birisi gün mənzilimə gələcəyimi zənlə tez əlimi sıxdı. "Tez qayıt!" dedi.

Bir də üç ay sonra, hissələrimiz Krımın bəzi şəhərlərindən çəkiləndə yolum Aqafonovun evinə düşdü. İndi mən düşmən arxasında işləyən bir dəstədə idim. Gündüzləri meşədə, dərə-təpədə keçirir, gecələr komandanlığın əmrini yerinə yetirirdik. Başıma gələn hadisələr, şahidi olduğum müdhiş döyüşlər Arminanı mənim yadımdan çıxarmamışdı. Nədənsə səngərdə də, ağac başında da, kol dibində də, düşmən maşınlarını qəflətən yaxalayıb dağıtdığımız, ya eşalonla gecə basqınına getdiyimiz zamanda da bu kəndli qızının xəyalı məndən ayrılmırdı. Güman edirdim ki, indicə utana-utana gələcək, məni qonaqlığa çağıracaqdır. Bu hisslə də mən, düşmənlər əlinə keçmiş kənddə Aqafonovun halını yoxlamağı özümə borc bildim. Komandirimizdən izin aldım, gecəyarı meşədən, kəsmə yolla həmin yaşıllığa (indi buralar meydan kimi tapdalanmışdı) endim. Bu zaman, bəlli idi ki, Aqafonov mənim üzümə qapı açmazdı. Qət etmişdim ki, evin ətrafına baxaram, xəlvətilik olsa,

qapıdan Arminanı səsləram. Qızın adı mənim üçün inam kağızı olacaqdır. Nemeslərə rast gəlsəm, əl bombalarımı təqdim edərəm. Zülmət, dumanlı və seyrək yağışlı bir gecədə damarlarıma qədər islanmış halda Aqafonovun qapısında durdum. Nə həyətdə, nə evdə işıq və hənirti əlamətləri var idi. Deyərdin, buralar yüz il əvvəldən xarabalıqdır, insanın izi-tozu da yoxdur. Əvvəlcə qapı-bacaya diqqət etdim. At, soldat, qoşun əlaməti axtardım. Kişinin havaxtdansa qırılıb işdən düşmüş, rəngsiz arabası divar dibində dururdu. Bir az o yanda görünən dairə təkər idi. Həyətin o başında heç nə görünmürdü. Aqafonovun atları yadıma düşdü. Tövləyə yanaşıb, qapının açıq olduğunu gördükdə öz-özümə dedim: "Faşistlər burada at qoyar!"

Qapını döyüb küy saldım, ovcumun içilə pəncərənin dəmirini tərpətdim. Bir tərpətdim, iki tərpətdim, gələn olmadı. Ev qapısını tıqqıldatdım, yavaş səslə qızı çağırdım. Səs-səda yox idi. Ürəyimə gəldi ki, "adamları da qabaqlarına salıb aparıblar." Qapını bərk itələdim. Daldan bağlı olduğunu bilib sevindim.

– Armina, Armina! – deyə pıçıldadım.

İçəridən küskün, pərişan bir cavab gəldi:

– Sən kimsən, o adı çəkirsən?

Qarının dillənməsinə sevindim:

– Nənə, – dedim, – aç qapını, mənəm, qafqazlı qonağınız!

Qarı qapını açdı, mənim ilk sözüm bu oldu:

– Armina yatırmı?

Qarı dinmədi.

– Dayı haradadır, necəsiniz?

Qarı suallarımın heç birinə cavab vermədi, astanada oturub qaldı. Cib fənəri ilə onun üzünə baxanda ağladığını, ancaq səsini gizlətdiyini gördüm. Müharibə fəlakətinin quduz və amansız zərbəsi bu davamsız ailəyə də dəymişdi. İntizar məni boğurdu, içəri otağa keçib, yatanları yoxlamaq istədim. Nə çarpayı, nə yataq, nə yatan gördüm. Sanki, üstümə su ələndi. Həmişə şənlik və səadət içində gördüyüm otaq qaranlıq bir zindan kimi görünürdü. Ev başıma dolandı, özümü itirdim. Qarının üstünə yüyürdüm:



– Hanı Armina? Hanı oğlun? Adamlar haradadırlar? Məndən niyə gizlədirsən?

Qarı ağır-ağır ayağa qalxdı. Yük altından nə isə çıxarıb gətirdi:

– Paltarını dəyiş, – dedi, – görən, bilən olar.

Mən kəndli cildinə düşdüm. Ancaq silahlarımı əldən vermədim. Qarı paltarımı gizlətdi. Mən onun danışmasına müntəzir idim.

– Niyə məndən gizlədirsən, mən külfətlə görüşməyə, sizə köməyə gəlmişəm.

Handan-hana qarı dilə gəldi:

– Görüşəcəksən, ancaq köməyin dəyməyəcək! Gecə vaxtı mənə yazığın gəlsin!

Mən onların harada isə gizləndiyini, gecə vaxtı getməyin çətin olduğunu düşündüm. Bir tərəfdə oturub, səhərin açılmasını gözləməkdən başqa çarəm qalmadı:

– Niyə mənimlə danışmırsan, niyə? Ehtiyat yaxşı şeydir, amma bu qədər yox. Mən indi partizanam, məni buraya göndərən var, Aqafonova deyəsi sözüm də var!

Nənənin ürəyi daha da köyrəldi:

– Xoş gəlmisən, – dedi, – bala! Ancaq indi sənə nə deyim. Səhər özün görəcəksən!

Qadının inadında bir sirr, bir məna, kim bilir, bəlkə də, vacib məqsəd var, – deyə israr etmədim. Ancaq bu intizarla heç bir kəs yata bilməzdi. Gözlərimi pəncərəyə dikib oturdum. Səhəri diri gözlə açdım. Təki bu səhər açılmayaydı. Gözü yaşlı qarı məni armud ağacının dibinə, yan-yana düzülmüş, torpağı hələ ot bitirməmiş qəbirlərin yanına gətirdi.

– Başımıza gələni qoy bunlar danışsın.

Bunu deyib qadın hönkürdü. Daha mən heç bir şey soruşmadım. Nə dilim, nə taqətim, nə hissim oldu.

Məni şadlıq məclisinə çağıran Armina saralan payız yarpaqlarının, seyrələn kölgələrin altında, atası və əmisi ilə bərabər yatırdı.

Faşistlər qızı ağaca sarıyıb işgəncə vermiş, almanlarla atışan atasının intiqamını ondan almaq istəmişdilər. Arminanın əsir, həm də qəh-

rəman siması mənim gözümdə canlanırdı. O, vətəni, namusu yolunda ölümü təmkin və vüqarla qarşılayırdı. Faşist zabitinin önündə əzəmətin heykəli kimi dayanıb, fədakar ölümü gözləyirdi. Zabit, vətən qızının mətanətindən quduran zabit dil-dodağını çeynəyir, Arminanın zəif vücuduna yaralar vururdu.

– Öldür məni, cəllad! – Arminanın bu sözləri hökm kimi səslənir, sərt sillə kimi zabitin üzünə dəyirdi. Şikəst kişi özünü qızının üstünə atmışdı...

Düşmən, qarını öldürməmişdi. Onu göz dağımı qoymuşdu? Yox! Təmiz və günahsız ailənin müsibətini çəkmək üçün qarını əlamət kimi qoyub getmişdilər.

Arminanın, Aqafonovlar ailəsinin dərdini yalnız qarı çəkmir. Qarının özünün də qayğısına qalan, dərdini çəkən var. Bu ailənin intiqamı böyük bir xalqın öhdəsinə düşür. Sovet xalqı, bu xalqın hər bir nəfəri, Arminanın, ailəsinin qatillərini haqq-hesaba çağıracaq, məhşər ayağına çəkəcəkdir. O gün vətən qurbanlarına ən yaxşı xatirə günü olacaqdır. Arminanın ruhu əzablardan, həsrətlərdən qurtaracaqdır.

*1942*



# ÇUPÇİK

Ucaboy, ağbəniz, orta yaşlı bir alman səyyahı, əziz müsahibi olan Çupçiki ilə qatarda gedirmiş. Çupçik tüklü, ala, üzüyola, cəld, ayıq bir ov iti idi. Səyyah onu iki il əvvəl Yaponiyadan almış, gəzdirə-gəzdirə Avropaya gətirmişdi. Çupçikin müfəssəl pasportu var idi. 1937-ci ildə Koreyada bir tazıdan doğulmuşdu. Atası məlum deyildi. Küçük ikən anasını itirmiş, bir koreyalı balıqçının qapısında böyümüşdü. Müntəzəm təhsil, ya təlim görməmişdi. Ta kiçiklikdən sümsünməyə başlamışdı. İstedadı sayəsində bəzi faydalı vərdişlər qazanmışdı. Sahibi tor götürüb dənizə gedəndə o da sümsünə-sümsünə yortardı. Bir də görərdin, yaşıllıqdan zingilti səsi gəldi. Çupçik özünü sıx və tikanlı kollara vurardı. İki dəqiqə çəkməzdi ki, ağzında qazalax, sığırçın, ya da ki, gərginçək balası budur gəlir. Dünya müharibəsi başlanandan sonra Çupçikin başını həmişə qalmaqalda görürük. Çətin şəraitdə, şiddətli mübarizə vaxtında belə Çupçik özünü itirmir, möhkəmliyini saxlayır, həyat rejimini pozmurdu. Balıqçının imkanı olsaydı, heç gənc tazını satmazdı. Çupçiki yedirdib-içirdən, təmizləyən, rahatlayan lazım idi. Balıqçı ka-

sıb idi. Tək olduğuna, qocalığına, kəmhövsələliyinə görə buna dözməzdi. Günün birində Çupçiki yanına salıb, bazara gətirdi, həmin bu səyyaha satdı.

Doğrudur, səyyahın Nürnberqdə topdağıtmaz ev-eşiyi, ailəsi, gül kimi iki uşağı var idi. Ancaq sənəti elə idi ki, il on iki ay səfərdə olurdu. Ömrü yollarda, paraxod göyərtələrində, yumşaq vaqon kupesində, maşınlarda, "inturist" nömrələrində keçirdi. Odur ki, Çupçik səyyaha ailədən də, övladdan da yaxın idi. Bir saat ondan ayrı durmaz, onsuz gözünə yuxu getməz, ağzına bir tikə çörək qoymazdı. Çupçiki öz yatağında yatırardı. Uzun intizar və üzüntüdən sonra bir ətək qızıl töküb toy etdiyi, yenicə gərdək dalına çəkdiyi gəlin kimi bağrına basıb, şirin-şirin yatar, fani dünyanın fikir-xəyallarından silkinərdi. Səyyahın nəşələnməyə haqqı var idi, çünki Çupçik də bir Çupçik idi...

Səhər dan üzü yerindən qalxıb, dərəyə qaçar, üz-gözünü yuyub-yaladıqdan sonra qayıdıb, qapıda oturardı. Ağasının dalınca gələnlərə işarə ilə mətləb qandırardı. Boşalmış şüşəni dığırlaya-dığırlaya südçünün qabağına itələyər, saat birdə ağası yuxudan duranacan oturub, südlə dolu şüşənin qarovulunu çəkərdi. Nabələd adam yaxın qoymaz, tanışlarla salam-kalam eləyərdi.

Belə yoldaşla dövri-aləm səyahətinə çıxan səyyah Əhmədi-biqəm kimi dənizlər ötür, dağlar keçir, ölkələr dolanır, xoş gün, xoş saatlarla ömrünü uzadır, gündən-günə gəncləşirdi.

Otuz doqquzuncu ilin sentyabrında Avropadan müharibə alovu qalxanda səyyahın qəlbinə də bir balaca tüstü-qubar gəldi. Ancaq çox çəkmədi ki, hadisələrin cərəyanı səyyahı razı saldı:

"Nə eybi var, – dedi, – əvvəl əcnəbi ölkə kimi gəzməli olduğum yerləri indi vətən kimi gəzərəm. Daha konsulxanalara getmək, nə bilim, anket doldurub icazə almaq, filan-bəhmən lazım olmaz..."

Səyyah niyyətindəki marşrutla gəzə-gəzə gəlib Finlandiyaya çatdı. Bu yerin vəziyyəti elə idi ki, səyyah nə əcnəbi kimi, nə də yerli kimi qəbul edilirdi. Doğrudur, alman-səyyahı olduğunu biləndə qıfıllar öz-özünə düşüb, qapılar taybatay açılıb, gözətçilər əl-əl üstə qoyub kənar dururdular. Doğrudur, səyyahın kağız-kuğuzuna da baxıb yoxlayan olmurdu, onun şirin və səlis dili qarşıdakı hərif üçün kifayət edirdi. Bunlarla belə, səyyah bu yerlərdə bir ürək sıxıntısı, bir soyuqluq hiss edirdi. Ona elə gəlirdi ki, dondurucu şimal şaxtası hər şeyin – yolun da, otelin də, adamların da mahiyyətinə çökmüşdür. Halbuki, avqust ayıdır. Günəş buralarda ömürdən dəm vurur. Tərləmək lazımdır...



Bu bir hissdir ki, yaddan çıxarmaq, yoluna davam etmək asandır. Səyyah da bu fikirdə idi. Ancaq Çuri stansiyasında gözləmədən başına bir iş gəldi. Səyyah nəinki yoluna davam etmək, heç olduğu yerdə sükut etməyi də bacarmadı.

Qatar Çuri stansiyasında yarım saat durandan sonra Şimala doğru yollanacaqdı. Səyyah adəti üzrə Çupçiki kupesində qoyub, vağzal bufetinə endi. Süddən, yumurtadan, çörəkdən, suxarıdan – bir şey tapmaq ümidi ilə stansiyanı dolaşdı, heç bir şey tapmadı. Bir yığın yaralı-yararsız soldatın at kəlləsi satan bir kəndli qadınını necə didib-dağıtdığını, atın ütülmüş qulağını dişinə çəkən bir soldatın təpiklə necə qorunduğunu görüb, söyə-söyə vaqona qayıtdı. Çupçiki kupedə görmədi. "Çupa-Çupa!" deyə iki kərə səslədi. Çupçikdən cavab çıxmadı. Səyyah təlaşa düşdü. Konduktora, qatar rəisinə xəbər getdi, vaqonları bir-birinə vurdular. "Çupçiki gördüm" deyən olmadı. Qatar yollanha-yollananda səyyah şeylərini yığışdırıb düşməli, vağzal məmurlarının köməyi ilə Çupçiki axtarmalı oldu.

Bəziləri deyirdilər Çupçik azıb, bəziləri deyirdilər partizan gülləsinə gəlib, bəziləri də inanırdılar ki, ovçuların işidir, oğurlayıblar. Səyyah ayaqlarını sement döşəməyə döyüb, vağzal naçalnikinin üstünə qışqırırdı:

– Mənim müsahibim burada yox olubdur. Çupçiki sizdən istəyirəm, vəssalam!

Rəis axtarış üçün bir gün səyyahdan möhlət aldı, vağzaldan bir şey çıxmadıqda, telefonu əlinə alıb, şəhər idarəsinə zəng elədi:

– Bura bax, cənab vali, siz də...

Şəhər valisi rəisin səsini tanıyanda xoş-beş elədi.

– A filankəs, səndən nə əcəb, kefin, halın?

Rəis onun sözünü kəsdi:

– Bu saat yaman yerdən mənim kefimi soruşurlar. Mənə de görüm, sizdə şəhərə təzə varid olanların haqqı-hesabı aparılır, ya yox?

– Necə aparılmır? Hər gələnə bir anket, hər gedənə iki anket doldurulur. Qutu-qutu kartoçkalar düzülür!

– Anketi sənə qalsın. Bir səyyahın Çupçik adlı müsahibi vağzaldan qaçıb. Necə tapmaq olar onu?

– Çupçik?

– Bəli, Çupçik!

– Onda gərək təzə gələn müsafirləri əlifba sırası ilə yoxlayaq. Bu iş üçün, cənab rəis, bir gün möhlət verin!

Rəis sevindi:

– Sabah axşamadək sizə möhlət! Sabah saat 8-də Çupçiki burada hazır istəyirəm! – Rəis telefon dəstəyini yerə qoyub, səyyaha sarı döndü. – Sabahacan taparlar. Ümidvaram ki, sabah bu vədə müsahibinizlə mənim otağımda görüşərsiniz!

Vali də dəstəyi yerə qoyub, polisləri çağırdı.

– Bu gün, – dedi, – 62-ci qatar vağzalda dayanandan sonra şəhərimizə Çupçik adlı birisi varid olub. Alman komendantı həmin adamı dərhal tapıb təslim etməyi əmr etmişdir. Durmayın!

Beş dəqiqə çəkmədi ki, şəhərdə bütün ev idarələri, yoxlama büroları, polis məntəqələri bir-birinə dəydi. Gecə saat on ikidə Çupçik adlı yeddi nəfər adam valinin hüzurunda hazır idi. Axtarış təcili getmişdi, nəticə də vermişdi. Ancaq səyyahın halı xarab idi. Vağzal məmurları onu üzüüstə çarpayıya yıxılmış, göz yaşı ilə yastığını islatmış və sonra da şüurunu itirib özündən getmiş bir halda görmüşdülər. Səyyahın vəziyyəti rəisin halını lap pozmuşdu. Ürəyində deyirdi: "Bu köpəkoğlunun güdazına getməsək, yaxşı olar." Axşamüstü telefon dəstəyini götürüb qəzəbini valinin üstünə töküdü:

– Bəs Çupçik nə oldu?

– Cənab rəis, hazırdır!

– Hazırdır, bəs yanında niyə saxlamışsan? Ala gözlərinə-zadına aşiq deyilsən ki, niyə göndərmirsən? İstəyirsən bunu da bizim başımıza bir ittiham kağızı elətdirəsən? Bu saat özün gətir!

Vali vəziyyəti rəisə izah etmək istəyirdi ki, "Cənab rəis, bugün şəhərimizə bir yox, yeddi nəfər Çupçik daxil olub. Hamısını da, budur, çağırmışam. Hazırdır. Ancaq bilmirik siz deyən bunların hansıdır?"



Vali bunu da bildirmək istəyirdi ki, bu yeddi Çupçiki idarəyə gətirənədək polis işçilərinin anadan əmdiyi süd burunlarından tökülmüşdü. İndi alman təbəəsini dindirmək xatadır, qandır, qadadır...

Vali bunları fikrindən keçirərək, qarşıda, məxmər stulda oturan və hərdən hirsindən durub, otaqda var-gəl edə-edə, üzüyuxarı – validən tutmuş adi məmura qədər – bütün qulluqçuların adresinə ağzına gələn nalayiq sözü deyən kök, qırmızıyanaq və sarı, qalınqaş Çupçikə baxırdı.

Qalınqaş Çupçikin özü də səyyah idi. Norveçdən gəlib, cənuba gedirdi. Yolüstü bəzi vacib dövlət tapşırıqlarını yerinə yetirməklə də məşğul olurdu. Şəhərə təzəcə qədəm qoyduğu gün idi. Pasportunu oteldə qeyd olunmağa vermişdi ki, onu çağırdılar, mühafizələrlə polis idarəsinə getməyini xahiş etdilər. Qalınqaş Çupçik bu təhqirə qəzəbləndi. Əmri gətirən fin polisinin üzünə elə bir tünd nəzər atdı ki, az qaldı onun bağrı çatlasın:

– Get, – dedi, – rəisinə de ki, vəzifəsini layiqincə anlamamışdır. O yerdə başqa bir ləyaqətli adam oturanda sizinlə danışa bilərəm.

Bu cavabdan sonra başqa bir polis cürət edib ona yanaşmadı. Çupçikin inadından məlum idi ki, qaçan adam budur. Vali rəisin əmrini götürüb, Çupçikin yanına gəldi.

– Cənab Çupçik, – dedi, – yerli hökumətə dəxli yoxdur. Öz hərbi komendantımızın əmri ilə çağırılmısınız. Yoxsa sizi incitməyə cəsarət edə biləcəyimiz xəyalınıza da gəlməsin!

Çupçik əhvalatı belə görüb faytona oturdu, şəhər idarəsinə gəldi. İndi o da başqa Çupçiklər kimi əmrə müntəzir idi. Ancaq o, başqa Çupçiklər kimi hövsələ sahibi deyildi: darıxır, deyinir, əsəbiləşir, söyür, tüpürür, təhqir edir, qışqırırdı.

Valinin əlacı ona qaldı ki, Çupçiklərin yeddisini də məmura verib, vağzala – rəisin hüzuruna göndərdi. Özünə də bir izah kağızı yazdı ki: "Cənab rəis, başqa əlamət bizə məlum olmadığından bu müsafirləri seçə bilmədik. Özünüz görün səyyahın müsahibi hansıdır."

Rəis intizar otağının qapısını açıb, yeddi nəfərin müntəzir dayandığını gördü. Bir-bir familiyalarını soruşub, hamısının Çupçik, hamısının alman, hamısının gəlmə olduğunu bildi. Belə bir vəziyyətdə səyyahın mü-

sahibini seçmək çətin idi. Doğrudur, rəis sorğu-sual elədi. Birinin tacir olduğunu, bir başqa Çupçikin qatardan yox, yaxın kəndlərin birindən gəldiyini, səyyahı tanımadığını müəyyən etdi və onların ikisini də buraxdı. Qalan Çupçikə ancaq səyyah özü baxmalı, müsahibini seçməli idi.

Xəbər gətirdilər ki, səyyah bərk başağrısı çəkir, 40 dərəcə qızdırma içində ikən imperiya xəstəxanasına aparılmışdır. Vəzifəli hərbiyyəlilərdən çoxu onun yanına əhval tutmağa gəlir.

Bu xəbərdən sonra rəis varından yox oldu. Yəqin etdi ki, səyyah yanına gələnlərə şikayətlənəcək, məsələ komandanlığa çatacaq, di gəl eşşək gətir, mərəkə yüklə...

Maşına oturub xəstəxanaya, səyyahın yanına gəldi. Çupçiklərin də təcili surətdə xəstəxanaya getmələrini əmr etdi. İçəri girəndə səyyah ona macal vermədi:

– Çupçikdən nə xəbər var?

Rəis xəstəni sevindirmək, həm də qulluq göstərmək üçün ucadan dedi:

– Cənab səyyah, Çupçiki gətirmişlər!

Səyyah sevincindən güldü:

– Bu neçə günü harada imiş, bilmədinizmi?

– Özünüz soruşarsınız!

– Yemək-içməyi necədir? Ona mən kişmiş yedirirdim, sosiska verirdim, hətta kofe içirdirdim.

Rəis bir az utandı:

– Cənab səyyah, əlimizdən gələn qədər, imkanımız çatan qədər...

Səyyahın, deyəsən, məhəbbəti cuşa gəldi:

– Oturun, – dedi, – gəlsin, Çupçiki göstərmək istəyirəm.

Rəis:

– Düzdür, baş üstə, – deyib çıxdı.

Ancaq koridorda qollarını yana açıb, əlacsız-əlacsız deyindi: "Neyləyim, necə eləyim, bu köpək uşağının beşini də buraxım, necə buraxım, deməz ki, a filan-filan olmuş, mənim bir müsahibim olub, ya beş. Yox. Birini buraxım, hamısını buraxım..."

Deyəsən, qeybdən bir səs rəisə dedi ki: "Qalınqaş Çupçiki burax! Səyyahın adamı odur. Görmürsən, geyimlərində də müşabihət var?!"



Rəis qalınqaşlı Çupçiki irəli çağırıb, səyyahın yanına buraxdı:

– Buyur içəri!

Qalınqaşlı Çupçik belə fürsət, hirsini tökməyə adam axtarırdı. Salamsız-kalamsız səyyahın yanına girdi. Girən kimi xəstə yatağında kişini topa tutdu:

– Cənab, buyur, buyur, görək, məni niyə işimdən-gücümdən avara eləmisiniz? Buyur görək, məni niyə bu qürbət şəhərdə finlərin yanında polis qabağına qatmısınız? Buyur görək, bu nə mətləbdir? Bu xəstəxanada mənim nə itim azıb?

Səyyah qarşısında qiyafəcə də, görkəmcə də, natiqlikcə də özündən betər bir alman səyyahını görəndə ayağa qalxdı, ürəyində dedi: "İti azan bədbəxt mənəm, sən yox!" Cibindən çeşməyini çıxardıb taxdı. Çupçikə baxdı və heyrətdən əllərini yana açdı. Sanki kişini qucaqlamağa hazırlaşırdı:

– Bağışlayın, sizi kim çağırıb, kim vaxtınızı alıb? Mənim xəbərim yoxdur.

Çupçik durduğu yerdə dondu:

– Necə xəbəriniz yoxdur? Şəhərdən birbaş bizi qova-qova sizin yanınıza gətirməyiblər?

– Kim gətirib, ay həmşəhərli?

– Şəhər valisi.

– Şəhər valisindən mən itim Çupçiki istəmişəm.

– Bəli, mən Çupçikəm, buyurun görək, nə deyəcəksiniz?

– Allah eləməsin, siz Çupçik olasınız. Çupçik mənim itimin adıdır.

Səyyah bunu deyib, qapıya yönəldi, rəisi çağırdı:

– Balam, siz əbəs yerə bu kişiyə niyə zəhmət vermisiniz?

Rəis dərhal anladı ki, səyyahın müsahibi qalınqaş Çupçik deyilmiş.

– Narahat olmayın, cənab, başqaları da var. Bir-bir baxın görək müsahibiniz hansıdır?

Bunu deyib, gətirdiyi adamları təqdim etdi: Çupçiklər!

Yəqin ki, bir xidmət və ya tapşırıq üçün seçmək istədiklərini güman edib bir-birini itələyir, qabağa yeriyirdilər. Səyyah heyrətindən do-

daqlarını büzüb rəisə deyirdi:

– Canım, bunlar mənim nəyimə lazımdır? Mənim itimi ver!

– Cənab, mən sizin müsahibinizi adam bilmişəm, bağışlayın!

– Çupçik adam deyil, amma çox adamlardan huşyardır. Mən onsuz bir addım ata bilmərəm. Harada olsa, gərək tapıla!

Çupçiklərin macərası qəzetə düşdü. Şəhər valisini də, rəisi də vəzifəsindən qovdular. Amma axtarış davam edirdi. Səyyahın iti haqqında gizlin, açıq təliqələr yayılır, hər tərəfə tapşırıqlar gedirdi.

Çupçiki isə partizanlar dağda öz qaydası ilə yedirib-içirir, təzə mühitə alışdırır, öyrədir və deyirdilər:

– Bir gün bizə lazım olacaqdır!

– Sahibindən çox-çox etibarlı məxluqdur.

– Duz-çörək itirməz!

*1942*



# ÇƏKMƏ

## I

Simferopol alınan günün səhəri Himmler Berlində birinci olaraq İsrafil bəyi qəbul etdi:

– Sizin, – dedi, – bəy, şənliyinizi yaxşı başa düşürəm. Bu həmişəlik olmaq üçün, türk millətinin hamısına müyəssər olmaq üçün, müvəffəq ordumuza kömək etməlisiniz. Xüsusilə Krımda, bu gün-sabah iş aparmalı olacağımız Qafqazda sizi tanıyırlar. Köhnə kişilər arasında, necə olsa, etibarınız var...

İsrafil bəy nazirin etibarına qarşı min təşəkkür edib çıxdı. Mirzə Xəyalın mənzilinə yüyürdü:

– Evin tikilsin, hələ durmusan! Niyə çalıb-oynamırsan. Niyə şələpələni yığışdırmırsan! Muştuluğumu ver, Mirzə Xəyal, vətənə gedirik! Nazirin yanından gəlirəm.

Mirzə Xəyal az da olsa, məsələdən hali idi:

– Axı, – dedi, – bizi Batum tərəfdən yola salacaq idilər.

İsrafil bəy tələsə-tələsə Mirzənin mənzilini yığışdırır, şeyləri çamadana doldurmaq üçün hazırlayırdı:

– Ay rəhmətlik oğlu, yolun nə dəxli var. Lap istəyir, göydən aparsın. Mənə Bakı lazımdır. Kişilər qan töküb, can qoyurlar. 22 ildə sənin yaxın düşə bilmədiyin sərhədləri vurub dağıdır, şərqə yol açırlar. Haradan deyirlər, gedərik. Qalx! Bu axşam çıxırıq!

Mirzə Xəyalın deməyə sözü olmadı. O, hər şeydən əvvəl çarpayısının yanından asdığı balaca xalçanı dörd qatlayıb çətinliklə çamadana yerləşdirdi. Ürəyindən keçirdi ki: "Ay gidi xalça. 22 il qürbətdə qaldın! Bir igid ömrü keçirtdin. Mən qocalıb qax kimi qurumuşam, sən həmin xalçasan. Gedək, Bakıda sənin ləzzətin ayrıdır!" Birdən yadına vacib bir şey düşmüş kimi ayağa qalxıb İsrafil bəyin üzünə baxdı:

– Ay İsrafil, – dedi, – sən...

İsrafil bəy ona acıqlandı:

– Mirzə Xəyal, bu Berlin elə yer idi ki, səni, məni tanıyan, saya salan yox idi. Ağzımıza gələni danışır, zarafatlaşırdıq. Amma vilayətə qayıdırıq. Abır-həya ilə danışmaq lazımdır, "İsrafil" nədi? Bəy desən, ağzın ağrıyar...

Mirzə Xəyal o saat hiss etdi ki, bəy ciddiləşmiş, əmələ gələn vəziyyəti, doğmaqda olan gələcəyin vəzifələrini ətraflı düşünüb-daşınmağa başlamışdır.

– A bəy, dəliyəm, rəiyyət yanında səni yalxa adnan çağıram. Belə şeyi mənə irad tutmağın artıqdır. Mən sənə ayrı söz demək istəyirəm.

– Nə söz?

İsrafil bəy Mirzə Xəyalın cavabını eşitmədiyindən, başını qaldırıb ona tərəf döndü. Mirzənin ayaq üstdə əsa kimi şax durduğunu, əllərini yana açıb başını aşağı dikdiyini, nəzəri ilə nə isə soruşduğunu gördü.

Mirzə Xəyalın işarəsi İsrafil bəyi də işdən ayırdı. O da əlini belinə qoyub düzəldi, bir müddət dinməz-söyləməz yoldaşının üzünə baxdı. Mirzə Xəyal sözsüz də bəyi fikrindən agah etdiyi üçün, özündən razı bir halda dedi:

– Sən demişkən, bura heç! Axı orada bizi tanıyırlar. Beş kişinin biri idik. Eşidəndə ki, "İsrafil bəy gəlir", – dost da, düşmən də tamaşaya duracaq. Səni, məni belə görsələr, deyərlər: "Bunlar haranın bambılısıdır." Xəspuşdu, nədi... Bu barədə nazir ilə danışdınmı? Heç olmasa, əl borcu ilə bizi bir az abıra mindirsinlər?



İsrafil bəy duruxdu. Mirzə Xəyal öz qiyafəsi ilə onun qarşısında danışan bir mənzərə kimi dayandı. Kişinin əynində bir boz pencək var idi ki, Berlin "Amerikanka"larının hamısını ziyarət etmişdi. Yaxası bir kilometrlik məsafədən gümüş kimi işım-işım işıldayırdı. Şalvarının ağzı kəsilə-kəsilə baldıracan yüksəlmiş, yanakı əyilən və nə rəngdə meşindən tikildiyi seçilməyən tufliləri quruyub dabanının altınacan yığışmışdı. Həm aşağıdan və həm yuxarıdan zağarası getmiş qəhvəyi buxara papağı elə bil büzüşüb kəlləyə qalxmışdı. Bu papağı görəndə İsrafil bəy özünü gülümsəməkdən saxlaya bilmədi:

– A zalım oğlu, – dedi, – bunun əvəzinə iki abbasılıq gecə papağı da qoyammazsan?!

Mirzə Xəyal bu sözü çox eşitmişdi.

– Bəy, – dedi, – danlama! Vətəndən, şad günlərdən yadigardır. Əl üzə bilmirəm. Danlama məni!

İsrafil öz əyin-başının ondan qalmadığını xatırlayıb susdu. Qapı-pəncərəyə göz gəzdirib, yavaşcadan dedi:

– Özündə nə abır var, sənə nə verə! Görmürsən, yekə zabitlər köşəli çarıq axtarır! Mirzə Xəyal, libas söhbəti çox çətin məsələdi! Yemək, geyməkdən danışma, qalan şeylərdən, məsələn, aqitasiya materialından, qəzetdən-zaddan nə xahişin var, söylə, nazir əsirgəməz!

Mirzə Xəyal bir də təkrar etdi:

– Vallah, bu kökdə vətənə getmək, bir iş deyil. Bizə müsavatçı deməzlər, xırdavatçı deyərlər.

– Sözün düzdür. Düz deyirsən, qardaş. Əlac nədi, gərək axşam necə olsa, naziri bir də görəm!

Bu məyusluq, dostları səfərdən soyutmadı. Onlar nazirdən tapşırıq almışdılar. Bir günün içində satmalını satdılar, sovmalını sovdular. Mənzilləri qıfıllayıb açarını şofer Müntəzir oğluna verib axşamüstü Şərq vağzalına yola düşdülər. Nazirin hörmətli qəbulu, mehriban dindirmə-

si İsrafil bəyi cürətləndirmişdisə də, axşam qısıla-qısıla qapıçıya yaxınlaşıb ezam kağızını göstərdi. Günün müharibə parolunu deyib Himmlerin görüşünü xahiş etdi. Himmler də rədd etmədi. İsrafil bəyin iki kəlmədə ifadə olunan xahişinə bir kəlmə cavab verdi:

– Düzələcəkdir!

Doğrudur, İsrafil bəy haçan düzələcəyini, kim düzəldəcəyini və "düzəlmək" sözünün bu yerdə nə demək olduğunu seçmədi. Amma müsbət cavab aldığı üçün sevincək çıxdı. Mirzə Xəyalı bir də muştuluqladı.

Qatarın yollanmasına yarım saat qalanda "qafqazlıları" hissə ştabı naçalnikinin yanına çağırdılar. Mayor Ştaksper İsrafil bəyi, deyəsən, qabaqcadan tanıyırdı. Onunla əl verib görüşdü. Yer göstərib əyləşdirdi, sonra hara isə zəng elədi!

– Leytenant, – dedi, – qafqazlılar mənim yanımdadırlar. Aparıram. Eşitmiş olarsan, nazir xüsusilə tapşırıb. Bu gün bütün günü onların əyin-başları ilə məşğul olmuşam. Birtəhər sahmanlamışıq. Ancaq sənə də işimiz düşüb. Bir cüt yol çəkməsi varındırmı? On günlüyə qafqazlılara versən, nə olar...

Leytenant Brunner vaxtilə ehtiyatda hesab olunurdu. Millətin arxayın vaxtında baha qiymətə, yaraşıqlı bir çəkmə tikdirib gümüş mahmız taxmışdı. 39-cu ildə ordu sağa-sola hücumlara başlayanda, tanış zabitlər Brunnerin çəkmələrini birovuz apardılar. Xoşbəxtlik düşdü ki, hamısı da qaytarıb gətirdi. Məhz buna görə də Brunnerin çəkmələri moda minmişdi. Onu geyinənlərin səfəri uğurlu sayılardı.

İndi Brunner artıq ehtiyatda deyildi. Şəhər qarnizonunun bir hissəsində çalışırdı. Ancaq vətəndə, necə deyərlər, "ev içində" olduğu üçün bu çəkməni geyinmirdi. Ştaksperin xahişi Brunneri pis vəziyyətdə qoydu. Dana bilməyəcək idi. Verməyə də ürəyi gəlmirdi. Telefonda duruxmağından məlum idi ki, ürəyi gəlmir. Brunner soruşdu:

– Qafqazlılar, yəni İsrafil bəygili demirsinizmi, cənab?

Ştaksper bu sualdan nə hiss etdisə, zabitə təsəlli verdi:

– Qorxub eləmə. Bu da köynək-şalvar deyil ki, bit-sirkə sala. Onca günlüyünə lazımdır. Bakıya çatandan sonra o qədər sursat ələ keçəcək ki, daha İsrafil bəyin bizə yox, bizim ona ehtiyacımız olacaq.

Ştaksper nə qədər romantik, idealpərvər idisə, Brunner də bir o qədər realist, həyatpərəst adam idi.

– Cənab mayor, – dedi, – o çəkməni özüm beş gün ağız ləzzəti ilə ayağıma geyinməmişəm. Qorxuram, gedə gəlməyə. Yoldur, davadır. Nə demək olar. İşdir, elə olmadı, belə oldu.

Ştaksper dedi:

– Bilirəm, nə deyirsən. Cənab zabit, düzəltmək lazımdır.

– Əlbət ki, başlarını düzəldib yola salırıq, ayaqlarını da gərək düzəldək!

– Bə nə! İsrafil bəyin getməyi bir növ öz işimizdir. Yaman ayaqda... Yanında özgə adam yoxdur ki... yaman ayaqda İsrafil bəy tələf olsa da, sənin çəkmələrin gələcək.

– Ölsə, gərək soyundurasınız, cənab!

– Özüm yanımca aparmırammı! Ölsə nədi, yaralanan kimi çəkib ayağından çıxartmırammı!

## II

Qatar şərqə doğru hərəkət edib işğal olunmuş yerlərə çatdıqca, İsrafil bəy pəncərədən çəkilmirdi. Stansiyalarda isə yerə düşüb rast gələn polyakları, latviyalıları, ukraynalıları görməyi, III imperiya xeyirxahları adından onların keyfini soruşmağı vicdan borcu hesab edirdi. Ancaq, deyəsən, o, heç yerliyə rast gəlmirdi. Deyəsən, bu ölkələrin camaatı göyə çəkilmişdi.

Mirzə Xəyal isə balışa dirsəklənib nəyi isə fikirləşirdi. O qədər dalğın, o qədər fikirli idi ki, gəlib-gedənlə də sual-cavab eləmirdi.

İsrafil bəy tamaşadan yorulub kupeyə qayıdanda Mirzə Xəyal başladı:

– A bəy, gəl otur. Bu bir gündür, bir səfərdir ki, hələm-hələm hər oğulun əlinə düşməz. Batuma qaçdığımız may günləri yadıma düşür. Onda cavan idik, çox idik, yar-yoldaşlı idik. O adamlar hanı? Çoxu Allah rəhmətinə gedib, çoxu Yevropanın künc-bucaqlarında, kim bilsin,

nəylə məşğuldur...

İsrafil bəy onun sözünü kəsdi:

– Nə ilə, – dedi, – məşğul olurlar-olsunlar, biz Azərbaycanı alandan sonra quzğun kimi tökülüb gələcəklər.

– Buna söz yox, gələcəklər. Bir məsələ də məni düşündürür axı!

– Nə məsələ?

– Biz ki, Allah qoysa, bu kolxoz-molxozu, kommunxozu-zadı sökdük, dağıtdıq, əmlakımızı necə bölüşdürəcəyik?

Doğrudur, belə məsələnin müzakirəsi hələ tez idi. Ancaq İsrafil bəy kimi müsafir üçün belə müzakirə labüd idi. Ona görə də bəy Mirzənin sözünə məna verdi:

– Bölmək deyəndə, aşkar şeydir. O ki dağılıb gedib, heç. O şey ki ortalıqdadır, mülk-mal, torpaq, fabrika-filan hər kəs özününkünə sahib duracaq. Təki bölüşdürməyə əmlak olsun. Varlığa nə darlıq. Çətinlik indidir ki, birovuz ayaqqabı geyirik.

– Bəy, axı əmlakı əmlak yerində qoymayıblar. Məsələn, mənim torpağımda bolşeviklər pambıq zavodu tikiblər. Səninkinin yerini qəssabxana eləyiblər. Bu şərən kimə düşür?

– Yer sahibinə!

– Bəs bura tökülən xərc, qoyulan maya, əmələ işi nə olsun?

– Sən də qəribə adamsan, evimizi yıxan elə həmin "əmələ" deyilmi! Yox bir, çağırıb onun üçün iclas qayıracağam ki, gəl mənim dar-mədarimə sahib dur! Əmələni əmələ yerində oturtmaq vaxtı çatmışdır!

Mirzə Xəyal bir az da ehtirasla danışdı:

– Bəy, siz mən deyən mətləbi dürüst başa düşmədiniz. Əmələ mənə, səndən az eləməyib. Yekə, abad üzüm bağımı çevirib çaxırxana eləyib. Söhbət buradadır ki, qorxuram öz aramızda inciklik ola. Çünki, mənim bağımın məhsulundan sənin yerində konserv zavodu açıblar. Mənim kəhrizimin suyunu cilovlayıb elektrik stansiyası tikiblər. Haram-halal, haqq-nahaq hamısı qarışıb bir-birinə. Bunu nə sayaq eliyəcəyik?..

Mirzə Xəyalın indidən oturub elə məsələlərə əl atması bəyə acıq gəldi:

– Sənin bağın da, kəhrizin də çoxdan Allah rəhmətinə gedib. Bolşeviklər onun yerində motor qoyublar, kim bilir, necə kolxoz-molxoz qurublar, çox da gücləndiriblər.

Mirzə Xəyal əvvəldən, hələ bolşeviklər gəlməmişdən çox-çox qabaq duymuşdu ki, İsrafil bəyin, onun rəhmətdən uzaq atası Mikayıl bəyin gözü Sulduz bağlarındadır. Bir dəfə bu bağlarda çaxır zavodu tikmək üçün Mikayıl bəy Mirzənin yanına da gəlmişdi. Mirzə onu qapısından qovmuşdu:

– Zavod açırsan, fabrik açırsan, bilmirəm nə büsat çıxarırsan çıxar, mənə dolaşma. Nə qədər ki sağam, qoymayacağam halal torpağıma, pak soyuma mazut iyi dəyə, maşın səsi gələ!

İndi budur, iyirmi iki il sonra, bolşeviklərdən "miras" qalası yerlər ortalığa qoyulanda İsrafil bəy yenə atasının havasını çalır.

Mirzə Xəyal dedi:

– Bəy, sən nə qədər dərsdə məndən dərin olsan da, təcrübədə olammazsan. O motoru-filanı biz də bilirik. Torpaqsız-susuz, yemsiz-yağsız o motorun bahasına iki şahı verən olmaz. Əvvəl başdan mülk sahiblərini razı salmaq lazımdır.

İsrafil bəy daha da hirsləndi:

– Mənim bircə tütün fabrikamdan sənin var-yoxun qədər malım gedib. Bəs onu kim verəcək?

– Gedən gedib, biz qalandan danışırıq.

– Qalan hər cənabın zərərini doldurasan gərək. Bolşevik malını ziyana bölmək lazımdır.

Mirzə Xəyal bir istədi dinməsin, amma özünü saxlaya bilmədi:

– Bəy, belə danışsan, qorxuram, yoldaşlar arasında söz ola!

İsrafil bəy ağsaqqal kişinin üstünə çımxırdı:

– Bura bax, – dedi, – Mirzə, mənə danışmağı da sən öyrətməyəcəksən, qanımızı qaraltma, qoy oturmuşuq.

Mirzə Xəyalın sallaq qaşları altında gizlənmiş gözləri məşəl kimi yandı. Bir istədi bəyin gözünün içinə desin: "Ey, yəni, sən elə qoduq oldun ki, Mirzə Xəyaldan öyrənməyi ar bilirsən? Sən həmin Kərbəlayi Mikayılın oğlu deyilsənmi ki, qızını mənim qardaşım oğlu aldı da, boşadı da! Nə oldu, mayor ilə iki kəlmə söhbət etməklə daha özündən böyük-

ləri bəyənmirsən!.." Mirzə bu sözləri demədi. Söhbəti o yerə gətirib çıxartmağı da məsləhət bilmədi. Ürəyində fikirləşdi:

"Qalsın bizimki vətənə! Topal Həsənli uşaqlarını çağırıb sənin canına salmasam, parlamentdə-zadda sənin seçki şarlarını oğurlatmasam, məndən əclaf adam yoxdur. Onda görərsən, kim kimdən öyrənir..."

Atalar demişdir ki, ürəkdən-ürəyə yol var. Sanki Mirzə Xəyalın bu ədavət fikirlərini hansı yol ilə isə İsrafil bəyə bildirdilər. Bəy ocağa tutulmuş mum kimi yumşaldı. Qalxıb qollarını yoldaşının boynuna saldı:

– Ay Mirzə Xəyal, – dedi, – nə qoyub, nə axtarırsan! O gün olsun ki, biz parlamentdə oturub miras bölək. Qalxıb öz dilim ilə deməsəm ki: "Mənə çatan tənxah Mirzəyə verilsin!", məndən nankor adam yoxdur. Ay Mirzə, ay Mirzə, mən... Fikrim ayrı yerə gedir. Nə bilim, Allah axırını xeyir eləsin...

Bəyin bu hərəkəti Mirzənin xoşuna gəldi. Neçə-neçə yeni mülkün qəbaləsini qoltuq cibinə qoymuş kimi ürəyi yerinə gəldi, özünü rahat hiss elədi. O da adamlıq, ağsaqqallıq göstərib söhbəti dəyişmək istəyirdi ki, qatar dayandı. Eşalon tökülməyə başladı. Hər iki yoldaş şeylərini tələm-tələsik yığışdırıb düşməli oldu.

## III

Oxuculara məlumdur ki, mayor Ştaksperin səfəri, ondan, İsrafil bəydən asılı olmayan səbəblərə görə bir az uzandı. Onlar nəinki payızı, hətta bütün qışı Krımda oturub, "Bu gün-sabah Qafqaz yolu açılar" deyə gözləməyə məcbur oldular. Mirzə Xəyal büzüşüb qalmışdı. O, blindajların birində özünə bir isti yer tapıb daldalanır, nə top, nə tüfəng, nə bomba, nə təyyarə səsinə əhəmiyyət verib yerindən tərpənmirdi. Qışlamaq üçün fil burnuna girmiş milçək kimi qonduğu yerə yapışmışdı. İsrafil bəyin ovqatı lap qarışıq idi. O, hər iki gündə bir komandanlığın yanına gedib, işlərin nə yerdə olduğunu bilmək istəyirdi. Ona gah təsəlli verir, gah səbir etməyə çağırırdılar. Bəzən də heç sözünə qulaq asan olmurdu. Bəy çörək payını alıb titrəyə-titrəyə daxmaya qayıdırdı. Mirzə Xəyal soruşanda ki:



– Hə, bəy, təzə nə xəbər var?

İsrafil bəyin bir cavabı var idi:

– Soyuqdur, boran-qiyamətdir!

Martın 9-da Mirzə Xəyal İsrafil bəyi lap yerindən elədi:

– Bəy, – dedi, – gələndə nə fikirdə idik, indi nə kökdəyik. Novruz bayramını biz evdə keçirəcəkidik. İndi isə mənim bədənimə qotur düşüb. Allah belə bayramı yəhudiyə də göstərməsin. Axı bunun axırı nə olacaq! Biz burada soldat bitinə yem olmağa gəlməmişik. Biz siyasi nümayəndəyik. Get danış! Qafqaz məsələsi baş tutmayacaqsa, bizi niyə çürüdürlər. Qaytarsınlar öz işimizə. Allah kəssin belə səfəri. İstəmədik, aparsın, Bakı neftini töksün atasının goruna, bizi buradan xilas eləsin, canım! Get danış!

Mirzə Xəyalın ürəyindən keçənlər İsrafil bəyin də fikrinə gəlmişdi. Amma deməyə cürəti çatmırdı. Mirzənin təkidindən sonra cəsarətə gəldi. Səhər soldatlara təsəlli verməyə gələn mayorun qabağını kəsib dedi:

– Cənab mayor, bu Qafqaz yolu nə vaxt açılacaq! Təngə gəldik, axı!

Ştaksper İsrafil bəyin tük basmış, aylarla yuyulmamış üzünə elə tərs baxdı ki, az qaldı kişinin zəhri çatlasın:

– Axmağın danışmağına bir bax! Qafqaz yolu məndən çox sənə lazımdır, niyə qabağa düşüb açmırsan? Yoxsa, nemes soldatının qanı hesabına rahat çörəyə çatmaq istəyirsən! Bağışlayasan! Sabah ikiniz də piyada libasında hissə ştabında olmalısınız, qabaq cəbhələrə getmək lazımdır. Gedin, bələdçilik edin. Bolşeviklər minlərlə müsəlman soldatı gətiriblər. Gedin, onları başa salın. Sabah sizi o tərəfə ötürəcəyəm. Bəsdir dörd-beş ay müftə yeyib-yatdığınız!

İsrafil bəy elə qayıtdı ki, çırtıq vursaydın qanı çıxardı. Mirzə Xəyal adəti üzrə, şinelin altından həmişəki sualını verdi:

– Təzə nə var, nə yox!

İsrafil bəy dinmədi. Mirzə bir də soruşdu. İsrafil bəy onu qapıya çağırdı:

– İş yaşdır!

– Bəyəm nə var?

– Nə olacaq, kəlmeyi-şəhadətini de!

– Necə bəyəm, bolşeviklər yenə hücum-zad düzəldib, yoxsa?

Mirzənin gözləri vahimədən böyüdü və qızardı. Əksinə, bəyin gözləri daha da balacalandı. Bəbəkləri yuvasına çəkilmiş həşərat kimi görünməz oldu.

Bəy dedi:

– Hücum olsa yaxşı idi. Bolşeviklərdən qaçıb qurtarmaq mümkündür. Bu köpək oğlu bizi davaya göndərir.

Mirzə Xəyal dodaqlarını büzdü:

– Necə, davaya?

– Soldatlara qatıb atəş xəttinə göndərir. Deyir, bolşevik qoşununda azərbaycanlılar çoxdur. Onlarla üz-üzə gəlin, başa salın!

Mirzə Xəyal ayaq üstə donub qaldı:

– Zarafat-zad eləyirsən yoxsa, ay İsrafil?

– Sən öləsən, üstümə elə qışqırdı, az qaldım, özümdən gedəm. Dedi: "Sabah kaska-zad geyib ştabda hazır olun!"

– A kişi, bizi niyə göndərir ey!

– Dedim də, azərbaycanlı əsgərləri başa salmağa!

– Bəs demədin ki, əsgərlər bizə ağzımızı açmağa macal verməyəcəklər? Demədin, biz başa salmamış onlar bizi ayağa salacaqlar?

– Elə söz demək olar? Kişisən, yeri özün de!

Mirzə Xəyal bəyin üzünə baxa-baxa qaldı:

– Səni bilmirəm, – dedi, – ay İsrafil, mənim damarlarım qurudu.

Mirzə tez şinelin altına girdi. İsrafil bəy tənbəki torbasını çıxardıb, qəzet kağızına bir papiros bükdü. Bir qüllab vurandan sonra Mirzəni qonaq etmək istədi:

– Al, bir ağız sor, ürəyin yerinə gəlsin.

Mirzə başını şinelin altından çıxartmadı:

– İştaham gəlmir!

Ştaksper əsl hərb adamı idi. Ölümə gedər, sözündən dönməzdi. Səhərisi gün İsrafil bəyin də, Mirzə Xəyalın da dallarına soldat şələsi verib sıraya qatdı: "Nə qədər, – dedi, – fürsət var, vuruşarsınız. Elə ki gördünüz bolşeviklər bərk gəlir, öz dilinizdə danışıb təslim olarsınız. Sizi götürüb arxalara aparacaqlar. Orada siyasi fəaliyyətdə olarsınız. Havalar açılan kimi biz də dalınızca gələrik. Allah qoysa, Bakıda lap sizin evinizdə bir zəfər plovu yeyərik!"

Onlar cərgələrdə, öyrənmiş nemes soldatları ilə ayaqlaşmaq üçün gücənib tez və iri addımlar atmalı olanda faciələrini hiss edib içəridən qovrulurdular. İsrafil bəy başını aşağı salıb yeriyirdi. Mirzə Xəyal komandirdən fürsət tapanda özgələr anlamasın deyə, ana dilində deyirdi:

– Allah sənin evini yıxsın, ay İsrafil, yaxşı yıxdın evimizi! Sinnimizin bu çağında bizi yaxşı günə qoydun!

Aydındır ki, bu səfərdə İsrafil bəy Brunnerin çəkməsini çamadanda saxlamayacaq idi. Aydındır ki, Ştaksper belə yerdə ona ikinci dəfə çəkmə verəsi deyildi, verəsi olsa da tapa bilməyəcəkdi. İsrafil bəy təmiz və səliqəli saxlanmış zabit çəkmələrini ayağına çəkib qarda-palçıqda hara gəlir, tapdalayırdı. Onu soldatlardan ayıran yeganə zahiri əlamət bir çəkmələrdən ibarət idi. Buna görə ürəyində kiçicik də olsa iftixar hissi duyurdu.

## IV

Çovğunlu günlərin birində hissə sovet qoşunları ilə üz-üzə gəldi. Dünyada nə növ silah varsa, tarix vuruşmada hansı vasitələr tanıyırsa – hamısı işə düşdü. Dünya müdhiş gurultularla dolu bir yanğın məkanına oxşadı. İsrafil bəy qar üstünə yıxılıb nəfəsini içəri çəkmiş, soyuqdan göyərən, şişən barmaqları ilə tüfəng atırdı. Mirzə Xəyalı, nədənsə, bir az ondan ayırmışdılar. Səs-sədası gəlmirdi. Silah səslərinin içində hərdən kəsmə-kəsmə mayorun əmri eşidilirdi. O, gah bu maşının, gah o maşının arxasında daldalanıb hövl ilə, zəhmli bir səslə soldatları cəsarətə, möhkəmliyə çağırırdı. Altı saata qədər davam edən vuruşmadan sonra sovet qoşunları Ştaksperin mövqeyinə doluşdular. Blindajlarda meyitdən, yaralı əlindən tərpəşmək olmurdu. Ancaq qoşun yığışıb qaçmışdı. Sovet komandanlığı tərəfindən nemeslərin bugünkü itkisi hesablananda az qalmışdı İsrafil bəy də zabitlər cərgəsinə düşsün: sanitar bu uzun və qoca meyitinə baxıb deyirdi:

– Başı soldat başıdır, ayağı zabit ayağı!

Başqa birisi daha diqqətli idi:

– Bu, – deyirdi, – nə soldatdır, nə zabit. Bu casusdur. Görmürsən şineli düymələməyi də bacarmayıb? Görmürsən, qayışı necə tərs bağlayıb? Kim bilsin, hansı məqsəd üçün gəlirmiş, tez-bazar olub!

Beləliklə, birovuz çəkmələr İsrafil bəydən başqa heç kəsi aldada bilmədi.

Yalnız qoşunun yarısını xərcləyib gəlmiş olan mayor Ştaksper çəkmələrindən nigaran idi. Bir düşündü ki: "Leytenanta söz vermişəm. Ölünü tapıb soyundurmaq lazımdır." Ona görə də kəşfiyyat adı ilə dörd nəfər soldatı gündüz müharibə yerlərinə göndərmək istədi, lakin, sonra onların da hədər gedəcəyini düşünüb niyyətindən döndü. Brunnerə cavab vermək üçün söz tapdı: "Biz, çəkmələri Bakıdan qaytarmağa söz vermişdik. Leytenantın indi istəməyə haqqı yoxdur." Bu cavabdan razı qalsa da, öz vəziyyəti özünə gülünc gəldi: "Ay axmaq, – dedi, – heç bilirsən, indi Brunnerin özü haradadır? Demirsənmi, bəlkə, onun sümükləri də çürüyüb."

Bu ehtimal, nədənsə, mayora həqiqət kimi göründü, çəkmə qayğısını ona tamamilə unutdurdu. Mayor Mirzə Xəyalın necə olduğunu, harada itib-batdığını nə düşündü, nə soruşdu. Ancaq oxucu bunu soruşacaqdır. Qoy oxucu bilsin ki, Mirzə Xəyal gülləndən tələf olmadı. Onu səngərə zor ilə, tapança gücünə gətirmişdilər. Zabitlər "Atəş!" əmri verəndə, Mirzə Xəyalın əlindən tüfəng düşmüş, özü də təngnəfəs yıxılıb ürəyi partlamışdı.

*1942*



# GÖYLƏR ADAMI

Əşrəf bu sənəti sevib getmişdi. O, uşaqlıqdan, qovub tutmaq istədiyi kəpənəklər, yuvasını tapmaq istədiyi sığırçınlar kimi olmaq arzusunda idi. O, istədiyinə çatdı. Üç il oxuduqdan sonra zəmanəsinin qəribə bir sığırçını oldu.

Sığırçınlar səhər çağı gələr, budaqlara qonub səslənər, baharın müjdəsini gətirərlər. İndi Əşrəf də ulduznişan bir təyyarədə uçur, ölkəsinin bu başından-o başına, o başından-bu başına şad xəbərlər aparırdı. Hər uçduğu yerdən yüzlərlə adamın ürək sözlərini aparır, hər bir uçuşu uşaqları, anaları, oğulları, sevgililəri, dostları, yoldaşları sevindirirdi.

Ölkədə hava poçtu təzə bir iş idi. Son onillər ərzində bu iş inkişaf edib yayılmış, elin xidmətinə verilmişdi. Adamlar bu gün yazdıqları məktubun minlərlə kilometr uzaq yerə elə bu gün çatıb oxunacağını biləndə, əvvəl heyrət edir, sonra sevinir, daha sonra hava poçtuna tərəf yüyürürdülər. Poçt işçiləri əlvan zərfləri, yüngül və səliqəli bağlamaları gətirib təyyarəyə yığanda, Əşrəfin – o sağlam və iti baxışlı gəncin üzünə baxır, gülümsəyirdilər. Sanki, onlar soruşurdular: "Tezmi çatdıra-

caqsınız?" Əşrəf poçt şeylərini təyyarədə yerbəyer etdikdən sonra, öz işinə tamam əmin olan adamlar kimi, arxayın danışardı: "Bu da belə!"

Anası, əlbət ki, Əşrəfin – yeganə oğlunun, sənətindən narazı idi: "Göylərdə nə var, – deyirdi, – bu yekəlikdə yerdə sənə peşə qəhət olmuşdu? Bəyəm, sən quşsan, küləksən, nəsən ki, uçasan? Təyyarəyə necə inanırsan? Maşındı, motordu, Allah eləməmiş, göyün bir qatında durdu dedi: – İşləmirəm. Əlin hara çatacaq, ayağın hara çatacaq? Atamın evini yıxma, qəşəng bir peşə tap. Bunu sənin başına kim salıb?"

Əşrəf anasının xatirini çox istərdi. Sözündən çıxmazdı. Anasının ondan inciməsinə heç vaxt razı olmazdı. Təyyarəçilik məktəbinə gələndə bilirdi ki, anası razı olmayacaq. Bir istədi ki, belə bir məktəbdə oxuduğunu gizlətsin. Fikirləşdi ki, bu mümkün olmayacaq. Bir istədi ki, əl çəksin, başqa sənət seçsin. Hətta, rəssamlıq məktəbinə gedən yoldaşları ilə bu barədə söhbət də elədi. Onlar da Əşrəfi öz yanlarına çəkmək istədilər. Məktəbin həyətində onun dilindən ərizə yazıb katibə verdilər. Başqa vəsiqələr olmadığından, katib qəbul etmədi. Əşrəf də vəsiqə gətirmədi. "Yox, – dedi, – rəssamlığa girsəm də, başa verməyəcəyəm. Gəlin siz məni zorən təbib eləməyin!"

Əşrəf çox ölçdü, biçdi, təyyarəçi olmaq arzusundan əl çəkə bilməyəcəyini qət edəndən sonra anasını "bişirmək" xəyalına düşdü. Çkalovun həyatından ona söhbət elədi. Təyyarəçilərin nail olduğu hörmət və şərəfi onun nəzərinə yetirdi, günün birində onu təyyarəyə əyləşdirib, şəhərin üfüqlərində bir dəfə gəzdirmək tədbiri də gördü.

Anası yola gəlmədi:

– Yox, bala, – dedi, – nə eləyirsən, elə, ayağını yerdən üzmə! Xatalı peşələr bizə qalmayıb ha? Gəzməyə həvəsin var, get, odur, dəmir yolunda işlə, matros ol, şoferliyə yazıl!

Əşrəf anası ilə mübahisə etməyə məcbur oldu:

– Necə insaf edib bu sənəti şoferliyə, konduktora tay tutursan, ana? Mənəm deyən maşinist saatda 50-60 kilometr sürür. 50-60 kilometr təyyarənin qabağında bir addım məqamındadır. Araba ilə avtomobil birdirsə, avtomobil ilə də təyyarə birdir.

– Gəmidə işlə!

Əşrəf dedi:



– Ana, göyə çıxmağa qoymursan ki, xatalıdır. Dəmiryol xatalı deyilmi? Dəniz xatalı deyilmi?

Ana bir az duruxdu. Sonra etirazında davam etdi:

– Yox, yerin nə xatası!

– Qorxağın gəmiçidən sorğusunu eşitmisənmi?

– Nə sorğu?

– Bir qorxaq gəmiçidən soruşub ki: "Atan harada ölüb?" Gəmiçi deyib: "Dənizdə!", "Baban harada ölüb?" "O da dənizdə boğulub, ölüb". Qorxaq deyib: "Bəs qorxmursan, yenə gəmiçilikdən əl çəkmirsən?"

Bu misal ananın xoşuna gəldi. Xüsusilə gəmiçiyə verilən suallar lap onun ürəyindən idi:

– Qorxaq niyə olsun daha? Kişi haqqını soruşub, yerində soruşub!..

Əşrəf anasının sözünü kəsdi:

– Gör gəmiçi nə cavab verir.

– Versin, görək nə cavab verir.

– Gəmiçi də hərif imiş, qorxaqdan soruşur. "Atan harada öldü?" "Lap evində, yorğan-döşəkdə!" "Baban harada öldü?" "O da yorğan-döşəkdə!", "Bəs qorxmursan ki, hər gecə o yorğan-döşəyə girirsən?"

Əşrəf sözünü qurtarıb anasının üzünə baxdı. Anası məsələnin mənasını yaxşı başa düşmüşdü. Əşrəfin niyyətini də anlayırdı. Ancaq inadından dönmək istəmirdi:

– Sənə, – dedi, – dil yetirmək çətindir.

Əşrəf təyyarəçilik məktəbində oxuyan yoldaşlarından ikisini yanına salıb evlərinə gətirdi. Onların biri Bəhlul kişinin oğlu Fərman, bir də qarabağlı Nüsrət idi. Fərman Əşrəf ilə bir küçəli idi. Yaşlarında da bir il təfavüt vardı. Fərman kiçik idi. Əşrəfin anası Balaxanımın oğlu Fərmanı tanımadı. Dünənə qədər bir tikə uşaq saydığı, küçələrdə aşıq atan gördüyü Fərmanı belə yaraşıqlı paltarda görəndə, özü də həvəsə gəldi:

– Maşallah olsun, – dedi, – bala, nə böyümüsən! Tanımaq olmur. Mən dedim, bəs hansı kişidir. Yaşınmaq istədim.

Fərman da zarafatcıl oğlan idi.

– Əlbət ki, – dedi, – xala, sizlər bizi kişi saymazsınız. Kişinin başında buxara papaq gərək!

– Papaqda nə iş var? O, köhnə sözdür. Baş, baş olsun! Allah

saxlasın, bu fərasət keçmişlərdə haradan idi?

Fərman yavaş-yavaş mətləb üstə keçdi:

– Ana, – dedi, – səni təbrik etməyə gəlmişəm.

Ananın gözü işıqlandı:

– Nə barədə məni təbrik edirsən?

– O barədə ki, Əşrəfi də bizim məktəbə götürdülər.

– Sizin məktəb hansıdır?

– Təyyarəçilik.

Fərman bunu dedi, əvvəl ananın üzünə, sonra da Əşrəfə baxdı. Əşrəf də ananın üzünə baxdı. Ana başını aşağı salmışdı. Gənclərin sözləşdiyini hiss etmişdi, nə isə, o da başını qaldırıb Fərmanın üzünə baxdı:

– Əşrəf özbaşına iş tutursa, daha mən nə deyim...

– Əşrəf özbaşına iş tutan oğul deyil.

– Mən ona deməmişəmmi, ayrı sənətə getsin?

– Bu sən, bu Əşrəf! Sən desən ki, təyyarəçilik məktəbinə getmə, o getməyəcək. Ancaq heç kəs inanmır ki, belə bir oğulun anası elə söz demiş olsun.

Ana nə isə demək istəyirdi. Fərman əli ilə işarə edib üzr istədi:

– Bağışla, – dedi, – Mehri xala! Bizim məktəbə gələn yüz ərizədən bəlkə, beşi qəbul ola, ya olmaya. Bu saat lap o dağ kəndlərindən tutmuş şəhər uşaqlarına qədər hamı təyyarəçilik məktəbinə gəlməyə can atır. Amma götürən kimdir? Buraya yüz yoxlamadan keçəni götürürlər. Buranın şəraiti başqadır, adı-sanı başqadır. Bura birbaş Moskvaya baxır. Adamlar var ki, yarım arşın dil çıxarıb yalvarırlar. Mən sizin bu barədə fikrinizi eşidəndə, təəccüb elədim. Yəni, təəccübə yer yoxdur. Mənim anam da əvvəl xoflanırdı. Sonra başa düşdü ki, sənət sənətdir, göyə, yerə dəxli yoxdur. İntəhası göy sənəti bir az da adamın başını uca eləyir.

Ana dedi:

– Bir parça uşaqdır, o nə bilir təyyarə sürməyi? Özünə baxma, sən diribaşsan.

– Əşrəf beş mənim kimisini bulağa susuz aparar, susuz gətirər. Bir də yetirən kimi təyyarəyə mindirmirlər ha, hələ iki il müfəssəl öyrədəcəklər. Tamam-kamal usta olmamış kimdir ona təyyarə verən, kimdir onu sürücü qoyan! Bəyəm hasand məsələdir? Təyyarəçilərin haqq-hesabını birbaş Moskvaya aparırlar. Voroşilov yoldaş özü soruşur. Bir də sən, şükür Allaha, müsəlman adamsan. Ölüm-əcəl ki var, adamı dəyirmanda da girlər, tapar! Əcəl yetişməyəndən sonra lap göyün yeddi qatından düşən oğlanlar var, heç burunları da qanamayıb.

Ana heyrətindən başını qaldırıb düz Fərmanın gözünün içinə baxdı:

– Elə şey olmaz!

– Sənə söz deyirəm, lap belə, buluddan düşən adamlar var. Özü də bir dəfə yox, iki dəfə yox!

Qadın heyrətini boğa bilmədi:

– Ədə, nə danışırsan, bəyəm bu can deyil, daşdı, dəmirdi, nədi, göydən düşə parçalanmaya?!

Cavanlar gülüşdülər. Ana ciddiyyətini pozmadı:

– Siz, yəni, adamı o qədər avam yerində qoyursunuz?

Fərman cavab verdi:

– Avam yox, sənətə bələd deyilsən. Elə bilirsən göydən düşən oğlan bizim kimi, bu paltar ilə düşür?

– Bəs necə?

– Onun quş qanadı kimi paltarı var. Paraşütlə düşür.

– Paraşüt nədir?

– Çətir kimi şey var ha, görmüş olarsan, bulvarda da adamlar ondan tutub hoppanırlar.

– Təyyarə qırılanda o çətiri haradan tapacaqsan?

– Hər bir təyyarəçinin əynində paraşütə nə gəlib, onsuz qoyarlarmı göyə uçsun?

– Hər dəfə paraşüt geyir?

– Hər dəfə təyyarəçinin yanında paraşüt olur. İşdi, gördü ki, təyyarə yaman günə düşür, o saat paraşütlə hoppanır, sağ-salamat gəlib yerdə toxtayır. Bəs necə? Mehri xala, sən elə bilirsən ki, göyə çıxanların hayına, qeydinə qalan yoxdur? Sənə söz verirəm ki, yer sənətlərində göydəkindən çox adam ölür...

Ana oğlunu təyyarə məktəbinə verəndən sonra bir müddət dalınca gəzdi. Müəllimi tapdı, müdirlə tanış oldu. Oğlunun yoldaşlarını tapdı. Bu yeni aləmdə gördüyü, tanış olduğu hər kəs ona ümid verirdi.

Günün birində Mehrinin özünü təyyarəyə əyləşdirib gəzdirən Əşrəf anasındakı əmniyyətə çox sevindi. Bundan sonra sənətində daha da qol-qanad açdı. Ana da oğlunun sənətinə alışdı. Hər yerdə söhbət düşəndə sinə dolu iftixarla deyirdi:

– Əşrəf təyyarədə kağız aparıb-gətirir. Təyyarə poçtu onun ixtiyarındadır.

Göydə motor səsi eşidən kimi eyvana çıxır, gümüş qanadlı təyyarələri gördükcə həyəcanlanırdı. Əşrəf də anasının bu hissini anlayırdı, beşdə-üçdə evə baş vurur, məktub yazırdı.

Vətən müharibəsi başlanandan sonra Mehri oğlundan bir məktub aldı. Əşrəf, hitlerçi quldurlara olan qəzəbini ifadə edərək məktubunu belə bitirdi:

"...Sülh günlərində şəhərdən-şəhərə məktub, sovqat aparıb, anaları, balaları sevindirirdik. İndi vətənin qorxulu dəqiqələrində isə silah götürməliyik. Ana, düşmənin başına od tökürük. Çalışırıq ki, evlərimiz faşizm bəlasından uzaq olsun. Ana, məktub daşıyanda sənə xidmət edirəm. Sənin mehriban, xeyirxah, şəfqətli hisslərinə xidmət edirəm. İndi vətən göylərində düşmənlə üz-üzə gələndə, faşist quldurlarını qıranda da sənə xidmət edirəm. Ana, indi mən motor gurultusundan başqa, cəbhə gurultuları içinə də düşürəm. Burada nə cür şiddətli, müdhiş səs desən var. Burada hərb adamlarının icad edə bildiyi hər cür silah işlənir. Ancaq bu vurhavurun içində mənim ürəyim evimizdəki qədər sakitdir. Mən özümü polad bir zirehlə örtülmüş bilirəm. Sənin təmsil etdiyin vətən həmişə mənim nəzərimdə, xatirimdədir. Məni saxlayan, döyüşə aparan da budur."

Əşrəf axırda əlavə edirdi ki: "Ayın 25-də şəhərimizdən ötəcəyəm, bəlkə, görüşə bildik."

Mehri intizar içində idi. Az qalırdı quş olub cəbhələrə uçsun. Əlacı, imkanı olsa özü də bir təyyarəyə minər, düşmənlərlə vuruşmaq üçün silah götürər, Əşrəfə köməyə gedərdi.

Ananın yeganə təsəllisi oğlunun görüş vədəsi idi. O, min fikir-xəyalla, min bir həvəslə ayın 25-ni gözləyirdi. Gündə neçə dəfə təqvimin qabağına gəlir, sabahkı vərəqini də bu gün cırır və hər dəfə də vərəqləri sayırdı. Təqvimdən qopardığı hər vərəq, sanki, ömründən bir gün





əskiltmir, əksinə, bir gün əlavə edirdi. Ötüb-gedən hər gün oğlu ilə görüşə, həsrətini çəkdiyi günə yaxınlaşdırırdı. Ana bu günə böyük hazırlıq görürdü. Düşmən üstünə, davaya gedən oğlunu bir günlüyə də olsa, öz evində əzizləyəcək, boyunu oxşayacaq, dualayacaq, sonra yola salacaqdı.

Gözlənilən gün xoşbəxt bir tale kimi gəlib çatdı. Təsadüfdənmi, yaxud qəsdənmi, ana ilə oğulun xatirinəmi, bu gün göylər buluddan təmizlənmişdi. Zümrüd göyün ortasında yanan günəş aləmi gümüş kimi parıldatmışdı. Sanki, o, uzun yollar gələn Əşrəfin ayaqlarına qızıl-gümüş səpirdi. Sanki, o, oğlunun gələcək uğurlu günlərindən xəbər verirdi. Sanki, ana ilə oğulun görüşü onun da ürəyindən idi. O da dünyada hər xeyir və xoş arzunun başa çatmasına sevinir, gülümsəyirdi.

Ana dostlarını, tanışlarını, yaxın adamlarını çağırdı, səsi ilə ev-eşiyə şənlik gətirən samovarı ayrı bir həvəslə hazırladı. Süfrəni açdı, özü isə qaçıb eyvanda dayandı. Gözünü göylərdən ayırmadı. Onun ürəyi motor səsinə müntəzir idi. Nədənsə o, Əşrəfin təyyarə meydanında yerə enəcəyini güman etmirdi. O gözləyirdi ki, bu günəşli göy səslənsin, üfüqdən-üfüqə gedən ulduzlu təyyarə şəhərin tam ortasında, Mehrinin evinin yanında dayansın.

Ana bu ümid, bu xəyal ilə eyvana, qapıya çıxıb qayıdır, dəqiqədə bir saata baxırdı. Göydə isə nə təyyarə görünür, nə motor səsi eşidilirdi.

Düzdür, Mehri oğlunun hansı saatda gəlməli olduğunu bilmirdi – Əşrəf bu barədə yazmamışdı. Ancaq nədənsə Mehri onu səhər tezdən, yay günəşi dənizdə çimib mənzilindən qalxanda gözləyirdi.

İndi daha səhər deyildi. Gün iki cida boyu qalxmışdı. Gündüz günortaya doğru gedirdi. Mehrinin oğlu Əşrəfdən isə xəbər yox idi.

Mehrinin qəlbi döyünür, qəfəs quşu kimi çırpınırdı. Ürəyinə gəldi ki, Əşrəfin vədə verdiyi vaxt ötür: "Əşrəf bəlkə də ayrı yerə düşüb... Bəlkə də yerə enəndən sonra yoldaşları yaxasından əl götürməyiblər, çoxdan bəri görüşmədiklərindən, başına yığılıb söhbətə tutublar... Yox, belə deyil. Əşrəfin indi söhbətə halı yoxdur. Yəqin, iş üçün gəlib. Tapşırığı var. O yalnız görüşməyə gəlmir, vəzifəsinə gəlir. Ancaq gəlişindən istifadə edir, anası ilə də görüşür."

Mehri bu son gümanına inandı: "Elə isə, – dedi, – özüm gedim.

Onu işdə çox ləngidərlər, gedim böyüklərinə yalvarım ki, balamdır, onu bir saat da evə buraxsınlar."

Mehri xəyalında bunu edəndən sonra əlinə yemək şeyləri ilə dolu bir sovqat bağlaması aldı. Tramvaya tərəf yollandı. Mehrini heç kəs yolundan saxlaya bilmədi. Qardaşı arvadı nə qədər "Balam, sən gedib heç kəsi tapa bilməzsən, icazə vərəqi istəyəcəklər, buraxmayacaqlar, nahaq yerə özünə zəhmət vermə, hələ gün yarı olmayıb, Əşrəf özü gələcək!"– dedisə, fayda vermədi. Mehri tramvaya oturub vağzala gəldi.

Səhərdən bəri tramvayda da evdəki kimi pəncərədən boylanıb göyə baxır. Qulağını şəkləyib motor səsi eşitmək istəyirdi. Mehri ömründə gözünə və qulağına bu qədər möhtac olmamışdı. Göydə gördüyü hər quşu təyyarə, eşitdiyi hər səsi motor gurultusu sayırdı. Həqiqətini dərk etdikdə isə məyus olur, yenə axtarmağa başlayırdı.

Tramvay Mehrini gətirib vağzala, böyük bir izdiham qaynayan yerə çıxartdı. Qadın, yerə enib camaat içində adam itirmiş nabələdlər kimi, o yan-bu yana boylanmağa başladı. Camaat içində vurnuxan, ona-buna yanaşan, gah göyə baxan, gah gəlib-gedəndən soraqlaşan qadın günortadan sonra görünməz oldu. O axtardığını tapdımı? Yox! Ümidsiz olub evinəmi qayıtdı? Yox! O, maşın yollarına çıxdı. Bildi ki, oğlu təyyarədən ensə, piyada gəlməyəcək. Şəhərə gələn yolda oturub, keşikçi kimi ötən maşınların qabağını kəsdi. Bir də görürdün ki, maşın düz, gümüş kimi asfaltla süzüb gedəndə kənardan ucaboy, başına şal örtmüş bir qadın yola hoppandı. Əlindəki bağlamanı yerə qoyub qollarını açdı, elə bil maşını qucaqlamaq istədi.

Şoferlər qorxuya düşürdülər. "Bəlkə yolda bir təhlükə, ya fəlakət var!" Dərhal yerə enir, qadından soruşurdular. Qadın heç nə cavab vermir, əvvəlcə maşına yanaşıb oturanları bir-bir diqqətlə nəzərdən keçirir, Əşrəfi onların içində görmədikdə xəbər alırdı:

– Ağayev, Ağayev Əşrəfi görəniniz, ola, bəlkə? Təyyarə sürür. Bu gün evə gələsi idi.

Adamlar Mehrinin hərəkətlərini və həyəcanını duyur, heç bir ağır söz demədən Ağayevi tanımadıqlarını söyləyir, yollarına davam edirdilər. Mehri də öz "yoxlamasında" davam edirdi.

Əgər bu dəqiqə uca dirəyin başında oturub tutuquşu kimi dil-dil



ötən, gəlib-gedənə uzaq yerlərin xəbərini söyləyən radio insafa gəlib bircə bunu desə idiki: "Ay Mehri arvad, buralarda nahaq özünü və özgəni incidirsən, oğlun oturub evdə səni gözləyir", bunu da əlavə etsə idi ki: "Əşrəfin vaxtı yoxdur, iki saatdan sonra yolda olmalıdır", Mehri təpəsi üstə evə qaçardı. Ancaq bunu nə radio, nə ötüb-keçən maşınlar, nə də üfüqdən-üfüqə uzanan teleqraf simləri dedi. Yenə də ananın xəyalı köməyə gəldi. Deyəsən, Mehrinin qulağına pıçıldadılar: "Ey qafil, bəlkə, Əşrəf gəlib."

Mehri, maşın yolunu tərk etdi. O, qabağına gələn hər evə, hər idarəyə girib soruşur, telefon axtarırdı. Birini tapdı. Evin nömrəsini deyib idarədə işləyənlərdən xahiş etdi ki, zəng eləsinlər.

Mehrinin dəstəyi qulağına almağı ilə "Can, qadan ürəyimə!" deyib qaçması bir oldu. Hansı yol ilə, nə sürətləsə on dəqiqənin içində Mehri özünü evə saldı. Bu zaman Əşrəf yaxası və başı açıq, rahatca oturub çay içirdi. Anasını görcək zarafatla dedi:

– Ana, evə qonaq gəldiyini bilib, deyəsən, əkilmisən?

Mehri, az qala, yarım saat oğlunu qucağından buraxmadı. Onu, boya-başa çatdırdığı igid balasını bağrına basmaqla bütün intizar və nigarançılıqları, ömrü boyu çəkdiyi bütün əzab və əziyyətləri, qocalıq, qayğı və xiffəti, hər şeyi, ürəksıxan hər şeyi unutdu, əbədi bir səadətə qovuşmuş kimi, qəlbi, vücudu, əsəbləri mum kimi yumşalıb rahat oldu.

Əşrəfin görüşü də uzun çəkmədi. O, həmin axşam yola çıxırdı. Əşrəf nə qədər elədisə, anası oturmadı, oğlunu yola salmaq üçün lap maşın ayağına getdi. Axşam çıraqlar yandı. Göyün ulduzları bir-bir görünəndə Əşrəf anası ilə vidalaşır, üzünü göyə tutub deyirdi:

– Ana, sən məni yerlərdə böyüdüb yetirmisən, vətən məni göyə pərvaz etdirmişdir. Məndən heç nigaran olma! Yadına düşsəm, eyvanımıza çıx, bax, bu göyün ulduzlarına bax! Bizləri – məni, Fərmanı, Nüsrəti – bütün sovet təyyarəçilərini ulduzların arasında axtar. Biz də onlar qədər çoxuq. Onlar qədər mehriban, onlar qədər işıq sahibiyik. Məni onların içində ara!

Əşrəf getdi.

O gedən gündən Mehrinin gözü göydə, göyün saysız-hesabsız ulduzlarındadır. Ona elə gəlir ki, Əşrəf yer aləmindən, adi insanlardan

yüksəlmişdir. Müqəddəs vətən fədailəri kimi, gecəsi də, gündüzü də, fikri də, xəyalı da, işi də, qayğısı da vətənidir! Mehri baxdıqca baxır, ulduzlarla ünsiyyət bağlayır. Ona elə gəlir ki, bu ulduzların hər birinin Əşrəf kimi həyatı, macərası var. Ucsuz-bucaqsız sovet torpaqlarından saysız-hesabsız ana gözləri, saysız-hesabsız ulduzlara dikilmişdir. Bu parlaq göy adamlarının hər biri bir aləm, bir kainatdır. Bunları doğub-böyüdənlər xoşbəxt analardır.

Mehri ulduzlara baxdıqca, ürəyini dolduran iftixar hissi ilə səsini təyyarəçi anaların səsinə qataraq, sanki, hamı eşitsin deyə, təkrar deyir:

– Mənim oğlum göylər adamıdır! Əşrəf vətən göylərinə qulluq edir!

*1942*



# ODLU MAHNILAR

*Oğlum Əlişə*

Həmin bu şamağacının kölgəsində, dərə sularına baxan yaşıl yamacda əlini çənəsinə qoyub əyləşən Mustafin yaz muştuluğuna gələn sığırçına bənzərdi. Ancaq o, qara geyinməzdi. Müsibətləri nə qədər ağır olsa da, geyinməzdi. Papağına yaşıl budaq sancar, çiçəklər, yarpaqlarla örtünərdi. Dağlarda vuruşan əmilər hərdən atlarını sulamaq, ya sərinləmək üçün aşağı enərdilər. Mustafin cəld yüyürər, sirlər danışan kimi, pıçıldardı:

– Dayı, kənddə faşist var. Qaynulinin evində!

Dördqatar, gödəkboy atlı dönüb baxardı. Onun aylardan bəri ülgüc görməmiş, tük basmış sifəti, düyülən qaşlar altında od kimi yanan gözləri Mustafinə müdhiş görünərdi. Ancaq bu dəhşət uşağı qorxutmaz, sevindirərdi.

Səhər Qaynulinin evindən zabit meyitləri çıxarılanda Mustafin küçə uşaqları ilə tamaşaya durardı. Faşistlər həmin gün kəndə vəlvələ salar, qatil axtarar, yerlərini dəyişərdilər.

Mustafin atadan yetim idi. Anası dava düşəndə orduya, yara bağ-

lamağa getmişdi. Oğlunu öpüb ağlamış, təsəlli vermişdi ki, düşməni torpaqlarımızdan qovandan sonra qayıdacağam.

Mustafin hər axşam bu ümidlə yatar, səhər tezdən qalxıb dağlara, vuruşan əmilərdən xoş xəbər eşitməyə gedərdi.

Aul-Yurd kəndinin yuxarısındakı təpə dalından başlanan və getdikcə sıxlaşan meşələr yenə əvvəlki kimi, sakit və ətirli idi. Qar sularından birikən çay aşağı endikcə yavaşıyır, sahilin narın qumlarını yalayaraq, gah pıçıldayır, gah sızıldayır, gah da səssiz dayanaraq, amansız burulğan ilə torpağın sinəsini dəlməyə, yerin qəlbinə girməyə səy edirdi.

Mustafin su ilə əylənə-əylənə meşənin dərinlərinə gedərdi. Hər dəfə içərilərə doğru daha bir neçə addım irəlilərdi. Deyəsən, heç bir zaman getmədiyi, görmədiyi, bəlkə də insan ayağı dəyməmiş olan məxmər çəmənli, sıx kölgəli yerlər xoş bir sükut ilə onu çağırırdı. Hansı bir duyğusa uşağı ovsun kimi çəkib aparırdı. Xüsusilə əmilərini görmədikdə narahat olar, qayıtmaq istəməzdi.

Mustafinin düşmənləri onun meşəyə ünsiyyət bağladığını bilmişdilər. Adi yaz axşamlarının birində uşaq şam ağacının altında oturub uzaqlara baxırdı. Yuvasına enən günəş gördüklərinin hiddətindən pul kimi qızarmışdı. Üfüq dərdlilər kimi boğulmuş, doluxsunmuşdu. Buludlara qan çilənmişdi. Mustafin bunların heç birinə baxmırdı. O, şirin xəyal içində indi üfüqlərin arxasında lap uzaqlarda dava meydanlarında anasını görürdü.

Meşəni ölçən bir beşaçılan gülləsi Mustafinin qönçə kimi zərif qəlbini parçaladı. Müntəzir nəzərlərini söndürdü. Uşaq ağzını quş kimi açıb-yumdu. Kəsilən son nəfəsi ilə "Ana" dedi. Bu söz onun qısa ömrünün ilk və son qisməti oldu.

Kənd əzizini itirmiş kimi, ağır matəm sükutuna batdı. Adamlar meşəyə getdilər. Mustafinin meyitini su kənarında tapdılar. Böyüklər başlarını açıb, uşağın qarşısında dayandılar. Bu dəqiqə Məryəm, indi haradasa kiminsə yarasını bağlayan əsgər qadın hamının yadına düşdü. Heç kəs özünü saxlaya bilmədi. Ağsaqqal kişilər, qadınlar, qızlar, gəlinlər Mustafinin tay-tuşuna qoşulub ağladılar. İsti göz yaşları suya töküldü, bahar sularının sinəsinə dağ çəkildi.



Mustafini çay kənarında, şamağacının altındaca basdırdılar.

– Qoy, – dedilər, – suyun mahnılarını dinləsin, quşlar ilə dilləşsin, basılmaz vətən dağlarının havasında qalsın.

Ağacın gövdəsində uşağa xatirə yazdılar. "Burada od qalanmasın, məclis qurulmasın, şənlik edilib səs salınmasın. Burada Məryəmin 8 yaşlı oğlu Mustafin yatır."

O gündən Aul-Yurd meşəsi özünə gəlmir. Küləklər ağacları yandan-yana bükür, kökündən qoparıb haraya isə aparmaq istəyir. Hər tərəfi bir həsrət qovurur. Axşamın közrəngli üfüqlərini, səhər şəfəqlərini, atəşli günorta bürküsünü əks edən sular yana-yana, yandıra-yandıra axır. Odlu mahnılar da Mustafinin sərgüzəştini danışır.

Mustafinin qəbrini hamı tanıyır. Ötəndə ona vətəndaşlıq salamı verirlər. Yalnız Məryəm tanımır. O, oğlunun bu saat hansı bağçada, hansı tərbiyə evindəsə yaşamaqda, oxumaqda olduğunu güman edir. Düşünür ki, davalar qurtarana, ara sakitləşənə qədər uşaq böyüyəcək, yetişəcək, bilikli oğlan olacaqdır. Bir gün qəfildən astanada görünəcək, gülər dodaqları ilə anasını öpəcəkdir. Bu düşüncələr əsgər qadının qoluna qüvvət, gözünə işıq verir.

*1942*

# ÖLÜMDƏN BETƏR

Yırtılmış meşokdan taxılmı tökülür, qar üstündə ip sürünür, ya fırfıra səsidirmi?
Xışıltını yaxşı seçə bilmədim. Dayanıb dinlədim, deyəsən, heç bir şey yoxdur. Sanki, bayaqdan bəri məni məşğul edən səs, quru bir vahimə imiş.

Heç bir şey görməsəm, heç nə eşitməsəm də, zənnimdən əl çəkə bilmirəm, axı yarım saat əvvəl buradan qarışıq səslər gəlirdi. Nə dildə isə danışırdılar. Cəmisi 10-15 dəqiqə olmaz ki, mənim yaxınlaşdığımı duyub qaçan addım səsini eşitdim. Yenə bir şey xışırdayırdı. Mən onun üstünü elə aldım ki, qaça bilməzdi. Bəs nə oldu? Yerəmi batdı, göyəmi uçdu. Budur, bu qar çiçəkli ağacların altında olacaq, qorxudan cınqırını çəkmir...

Bəlkə də, heç insan deyil, azmış bir ov iti, çöl pişiyidir, bəlkə, vəhşi heyvandır...

Yoldaşlarım qaçan düşməni təqib edir, atışır, hərdən səslənirdilər.



Vaxt keçdikcə bu səslər məndən uzaqlaşırdı. Mən, qaraladığım ağaclıqdan əl çəkə bilmirdim. Mənə elə gəlirdi ki, burada, nəsə bir fitnə-fəsad var, düşmən öz murdar izi ilə kim bilir, nə fənd işlətmək istəyir. Bir xeyli gözlədim, gözümü qar basmış ağaclara, seyrək kolluqlara dikib qalmışdım. Qış gecəsinin şaxtası bütün şiddəti ilə kəsirdi. Ara-sıra haralardan, uzaqlaşmaqda olan cəbhə xəttinin harasındansa azıb gələn güllələr, soyuqdan qorunmaq istəyən quş kimi, başını qara soxur, buxar iyi çıxarırdı.

Qalxıb getmək istədim, iki addım yeriməmişdim ki, ağac gövdəsindən qara bir şeyin aralandığını, qarşımda dayandığını gördüm. Qaraltı əllərini yuxarıya qaldıranda bildim ki, adamdır, düşmən saldatıdır.

Onun aldığı vəziyyət indi də gözümün qarşısındadır. Əllərini bərk-bərk göyə qaldırmışdı. Az qalırdı paltarının qoltuğu sökülsün. Başını arxaya tərəf əymişdi. Güman edirdin ki, o vacib bir mətləb üçün Allah dərgahına dua edir, sidq dil ilə göylərə yalvarır.

Mən onu qabağıma qatıb gətirirdim, fikirləşirdim, gülməkdən özümü saxlaya bilmirdim. "Sən demə, xışıldayan yırtıq meşok, ya sürünən ip bu imiş. Bu boyda adamın hərəkəti niyə gərək ilan kimi xışıldasın..."

Bu gün ələ keçirdiyim qənimət arıq, qızdırmalı, nazik bir rumın saldatından ibarət idi. Budur, o mənim qarşımda, əli-əl üstə dayanmışdır. Qorxusundan, taqətsizliyindən, ya üşüdüyündənmi qılçalarının büküyü açılmır, yarım çöməlmiş kimi dayanmışdır.

– Adın nədir?
– Qavriel.
– Nəçisən?
– Kəndli.
– Nə millətisən?
– Rumın.

Rumın deyəndə mənim qəzəbim daha da artdı. Qanun qorxusu olmasaydı, bəlkə də onun nəfəsini kəsərdim. Ancaq mən qəzəbimi suallarımla soyutmağa çalışdım. Onun yerini soruşdum. Evlərindən buraya qədər olan məsafəni soruşdum:

– Nə istəyirsən, – dedim, – bizə nə vermisən, ala bilmirsən?

Onun dil-dodağı əsdi. Əllərini yana açdı, boynunu əyib yazıq bir vəziyyət aldı:

– Heç bir şey, – dedi, – ağa, heç bir şey!

– Bəs niyə qışın günündə titrəyə-titrəyə 2 min kilometrlik yol gəlmisən, axı bura Rumıniya deyil, Ukraynadır. Buranın sahibi var, onu bilirsənmi?..

Qavriel əsim-əsim əsməyə başladı. Deyəsən, o, silahdan, ölümdən o qədər qorxmurdu ki, mənim suallarımdan qorxurdu. O, bəlkə də həqiqət ilə üz-üzə gəldiyini, düşdüyü cinayət yolunun çirkinliyini hiss edirdi. Nəsə demək istəyirdi, ancaq söz tapa bilmədi.

Onun dərinlərə çökmüş, solğun gözlərindən iki damla yaş axdı.

Bu isti damlalar qorxudan idimi, vahimədən idimi, bilmirəm. Ancaq onu bilirəm ki, bu damlalarda, ha vaxt isə insan olmuş, ailə, övlad sahibi olmuş, zəhmət ilə dolanmış, sonradan isə qatilə çevrilmiş, canavarlaşmış bir məxluqun faciəsi vardır.

Qavriel deməsə də, mən inanıram ki, rumın kəndlisinin sovet kəndlisi ilə heç bir ədavəti olmamışdır, ola da bilməz. O deməsə də, mən inanıram ki, Qavriel kəndli ikən saldatlıqdan yaxşı dolanırdı. O zaman tox idi, əyni qalın idi, keyfi saz idi. O zaman ailəsinin yanında idi. Dörd uşağını istədiyi kimi bəsləyib böyüdürdü. Qavrielin göz yaşlarında bu həqiqət parlayır.

Ancaq həmin göz yaşları indiki Qavrielin deyildir. İndiki Qavriel qatildir, canidir. O, əlində silah, ölkələr adlayıb, şəhərlər basıb gör haralara, Sovet Ukraynasına, bizim əmək, azadlıq, dinclik sevən kəndlilərimizin üstünə gəlmişdir.

Doğrudur, o, Antoneskudan, Hitlerdən şikayətlənir. Özünü bu kökə salan "rəhbər"lərinə lənət oxuyur. Biz də bu lənətə şərikik. Bütün dünya Hitlerə lənət oxuyur. Ancaq Qavriel bilməmiş deyil ki, bu lənətlər onun şəxsən öz cinayətini azaltmır. Əksinə, onun nə alçaq əmələ mürtəkib olduğunu təsdiq edir. Bunları, aydın həqiqətləri Qavrielin üzünə çırpanda göz qapaqları enir, başını aşağı salır, ixtiyarsız yerə çökür. Adama elə gəlir ki, indi o yerə yalvarır. "Ayrıl, – deyir, – yer, ayrıl, məni basdır, əzablardan qurtar!"





Qavriellər həmişəmi belə yazıq vəziyyətdə olurlar?

Güman etməyin!

Bəlkə də onun əlinə yenidən silah keçsə, bəlkə də o, mənsub olduğu banditlər dəstəsinə qaytarılsa, əfi ilana dönər, üç ildən bəri cəbhələrdə etdiyi cinayətləri davam etdirər!

İndi o, rus və Ukrayna kəndlisinə qardaş deyir. Kim şübhə edə bilər ki, iyunun 22-dən bəri, həmin bu "yazıq" görünən saralmış, qocalmış, üzü tüklü canavar neçə-neçə kəndlinin qatili olmuşdur. Antoneskunun qorxusu, Hitlerin hiyləsi onun yürüşlərinin ilk ilhamıdır. Sonralar isə Qavrieldə yeni-yeni ehtiraslar doğmuşdur. O, rus kəndlisini qarətə gəlmişdir. Əsgər çantasını qənimətlə doldurmağa, evinə "tapılma" şeylərdən bağlamalar göndərmək arzusuna düşmüşdür. Cəbhələr genişləndikcə, müharibə qızışdıqca Qavrielin iştahası alovlanmışdır. Həmin bu canavar iştahası onun bütün əməllərinə istiqamət vermişdir.

İnanmırsınız, baxın, ayağındakı çəkməni yoxlayın. Bu, hansı kəndlinin, ya əsir qızıl əsgərinsə ayağından çıxarılmışdır. Bu, Qavrielin bütün ümidlərini puça çıxarır. O daha atışmada iştirak etmədiyini, sadəcə bir şofer olduğunu, nemeslərə düşmən olduğunu, davadan heç nə gözləmədiyini demir. Sanki, ayağındakı çəkmələr dilə gəlmiş, onun cinayətlərini sayır. O, yerə baxır, heç bir suala cavab vermir, qımıldanmır da.

Qavrielin sükutu isə tanıdıqlarından çox şey ifadə edir. Bu, hər şeydən əli üzülən, əlacı kəsilən bir caninin acı etirafıdır.

Onu əsirlər içinə gətirirlər. Həmcinsinə qovuşmuş heyvanlar kimi, imsilənir, gözünü açır, başını qaldırır. Əsirlərə xörək veriləndə qəribə bir hadisə baş verir.

Burada Zinaida adlı bir simferopollu qadın işləyir. Bu, xanimanı dağılmış, ev-eşiyindən qaçqın düşmüş bir tatar qadınıdır. Qavrieli görəndə onun gözləri bərəlmişdi. Qavriel nə duymuşdusa, üzünü yana çevirmişdi. Zinaida onun qarşısına keçib soruşmuşdu:

– Siz Simferopolda olmuşsunuz?

– Nə, nə!..

– Necə yox, mənim ərim ilə süngüləşən sən deyildinmi, kafir?!

Qavrielin o sarı sifəti bir anda közə atılan pul kimi qıpqırmızı qızardı. Dili dolaşa-dolaşa təkrar etdi:

– Nə, nə!... Yox!

Zinaida heç kəsdən icazə soruşmadı, heç kəsdən də qorxmadı. İkiəlli Qavrielin yaxasından yapışıb aralamaq istədi. Əprimiş kirli, köhnə köynək parçalandı, əsirin sinəsində nida işarəsi kimi çəkilmiş süngü yarasının yeri görünürdü.

Zinaida mühafizi səslədi:

– Tapmışam ərimin qatilini, tifaqımı dağıdanı tapmışam! Məlunu parçalayacağam!

Qavrieli güc ilə Zinaidanın əlindən aldılar. Onun yaraları təzələnmiş, müsibətləri yada düşmüşdü. Qadın qışqırıb qatilə cəza tələb edir, "evim-eşiyim, xanimanım!" deyə fəryad çəkib ağlayırdı.

Canavar görmüş kimi hamı Qavrieldən kənar durdu. Gözlər onun üzünə, qatil əllərinə dikildi. O, sanki, qanı qurusun deyə əllərini bədənindən aralı tutmuşdu. Nəsə son və daha müdhiş bir əməl işləmək istəyirdi. Bəlkə də, yayda, "səhv edib" bu tatar qadınını sağ buraxdığına peşman olmuşdu. Bəlkə də, onu cinayətlərinin yeganə şahidi hesab edirdi.

Ancaq o da rəhbərləri, sərkərdələri kimi yanılırdı. Faşist dəstələrinin cinayətləri o qədər böyük və cahanşümuldur ki, bütün dünya, bütün bəşəriyyət dəhşətə gəlmişdir. Bu cinayətlərin hesab günü qatillərin ən müdhiş, ən faciəli günüdür. Qavriel bu gün cavab verir. Antonesku, Hitler də sabah cavab verməli olacaqdır. Qavriel 100 adam qarşısında cinayətlərinin qanı-qadası ilə donub qalmışdır, onun rəhbərləri də bütün insanlıq qarşısında, ədalət məhkəməsində dayanacaqdır. Bu günün hökmü ölümdən betər hökm olacaqdır.

*1942*



# AXŞAM SƏFƏRİ

## I

Üç yoldaş idik, düşmən arxasına kəşfiyyata getmişdik. Hava çox bürkü, göy tutqun idi. Ağaclar altında özümüzü otlar, yarpaqlarla örtərək, ehtiyatla yeriyir, düşmən qüvvələri haqqında bir şey bilmək istəyirdik. Qaranlıqda xeyli getdik. Deyəsən, yol kənarı idi. Motor səsi eşitdik. Ardınca təkər səsləndi, təkər dayandı, yenə motor səsləndi. Sonra sanki, külək dağıdan və ancaq qırıq-qırıq eşidilən danışıq səsi... yenə motor, yenə təkər səsləri, yenə danışıq...

Aydın idi ki, maşın xarab olub yolda qalmışdı. Ancaq bu maşının haradan gəlib, haraya getdiyini, nə maşın olduğunu öyrənmək lazım idi. Bu vəzifəni yoldaşlarıma tapşırıb irəlilədim. Yaxında mütləq bir qərargah, ya hərbi məntəqə olduğunu güman etdim. Deyəsən, mənə dedilər ki, şəfəqdə ağaclar arasında seçilən açıqlığa bax. Meşənin axırında olan bir ağaca səssizcə dırmaşıb dayandım. Arxada qoyub gəldiyim motor yenə tırıldayırdı. Açıqlıqda heç nə yox idi. Beş dəqiqə gözlədim, enmək is-

tərkən bir at fınxırdı. "Aha, – dedim, batareya tapmışam, yerini bəlləmək lazımdır." Ehtiyatla endim, tələsik otlar arasından sürüşərək, addımbaşı ətrafımı dinləyə-dinləyə irəliləyirdim. Çoxmu, azmı getmişdim, bilmirəm, ancaq güman ilə at olan yerə çatmış olmalı idim. Bir böyük ağacın gövdəsinə sığınıb diqqət etdim, səs-səmir yox idi. Sanki bayaqkı səs bir xəyal, bir yuxu imiş. Cəbhə dairəsində bu bir neçə ay ərzində hələ belə sükut görməmişdim. Bu sükut nədənsə mənə ləzzət verirdi. Bu, döyüşün, çarpışmanın, gurhagurun bitdiyi demək deyildi. Bəlkə, dərin və mənalı bir tənəffüs idi. Mənə elə gəlirdi ki, yer, göy, meşə, tarla, buludlar, otlar, ağaclar, sular – hər şey susur, hər şey fikirləşir, sabahkı müdhiş qovğanı düşünür. Mənə elə gəlirdi ki, sükuta dalan kainat birdən dinəcəkdir. Elə səslənəcək ki, ürəklər yarılacaqdır.

Sanki, bayaqkı at ilk səsi ilə məni çağırmışdı, indi də yaxınlaşdığımı hiss edib kişnədi. İndi bildim ki, yanaşmışam. Gecə səs nə uzaq gedirmiş... İndi mən daha yerimirdim. Hərdənbir addım atır, nəfəsimi oğurlayır, ətrafımı dinləyirdim. Hər tərəfdən arxayın olmamış ikinci addımı atmırdım. Birdən güllə səsi eşitdim. Təkrar, təkrar... Uzaqda qabaqlaşan iki dəstənin atışdığı hiss olunurdu. Yəqin etdim ki, yoldaşlarım düşmənlərlə vuruşur. Görünür, motor təmir olunmuşdur. Həriflər getmək istəyirmişlər.

Sən demə, mən qərargahın böyründə, top atlarının otladığı qoruqdayam. Atışma başlanan kimi, haradansa soldatlar çıxdılar. Lap böyrümdən iki atlı çapıb yoldaşlarımın üstünə getdi. Deyəsən, yolda motosikl səsləndi, sonra pulemyot...

Mən gəldiyim yol ilə qayıtmaq istəyirdim. Meşədə hənirti duydum. Yerə sinən kimi başım üstündən yana-yana bir güllə keçdi. Biri də, biri də!.. Görməsələr də duymuşdular. Cavab verməsəm lap üstümə tökülə bilərdilər. Avtomatı işə saldım. Düşmən çox atırdı. Mən sağa-sola sürünüb atırdım, guya yanımda bir dəstə olduğunu hiss etdirməyə çalışırdım. Lakin mən bu döyüşə çox dözə bilməzdim. Patronum çatmayacaqdı. Susmağı, ancaq üstümə gələn düşməni yaxına buraxıb vurmağı qət etdim. Mən susanda düşmən də susdu. Güllə səsi seyrəldi. "Zənn ilə irəli gələcək, bu yerləri axtaracaqlar. Belə olsa, yaxşı iş görmək olar",– deyə düşünürdüm. Otun içində uzandım. Barmağım tətikdə müntəzir



dayandım. Lakin gələn olmadı. Heç atan da olmadı. Hava isə yavaş-yavaş işıqlaşırdı. Çəkilib mövqeyimizə getmək, ya yoldaşlarıma qovuşmaq istədim. Uzaqda iki kənd evi, yaxında bir çadır ağarırdı. Arabalar, atlar görünürdü. Yaxında vedrə ilə tökülən su səsi, ayaq tappıltısı gəlirdi. Sübh çağı atışma başlanacağını yəqin etdiyim üçün cəhd edib özümü hissəmizə yetirmək istəyirdim. Ağacların arası ilə yeriyirdim, bu yerlər heç mənim gəldiyim yola bənzəmirdi. Mövqeyimizi andıran heç bir əlamət yox idi. İşıqlaşanda tamam çaşbaş qaldım. Cəhətləri təyin etmək çətin idi. İndi bildim ki, gecənin qaranlığında çox yol getmişəm. Meşənin dərinliklərində, sağımda, solumda vuruşma başlanmışdı. Ancaq səslər məndən güllə məsafəsindən də uzaq idi. Mən ağaclıqdan kənara çıxmaq istəyirdim. Ayaq səsi eşitdim. Yerə sinib durdum. Zabitin komandası ilə bir dəstə faşist soldatı qabaq tərəfə soxulurdu. Birinci dəfə idi ki, mən düşməni belə yaxından görürdüm. Onların dəstəsi, hətta ayrı-ayrı soldatların kürəyi elə yaxşı nişana gəlirdi ki, az qalırdım silahı dilləndirəm. Ancaq mən kəşfiyyatçı idim. Bunların planını öyrənmək, hərəkətlərini izləmək lazım idi. Çox çəkmədi, maşınların ağzı açıldı. İrəliyə soldat, sursat gedirdi. Qabaqdan brezent ilə örtülü maşınlar, bəzən də çaparaq atlılar gəlirdi. Aydın idi. Mən düşmənin lap arxasına, cəbhə xəttindən çox uzaqlara düşmüşdüm. Bütün günü meşəlikdə o tərəf-bu tərəfə süründüm. Çıxmaq imkanı yox idi. Hər yer düşmən ilə dolu idi. Hissələrimizə əlim çatmayacaqdı. Bu vəziyyətdə gözə görünmək mümkün deyildi. Kömək almaq üçün isə heç bir vasitə yox idi.

Gecəni gözlədim. Yoldan çıxıb, daha da dərinliklərə, almanların bir ay əvvəl işğal etdikləri Reçnaya kəndinə yol aldım. Cəbhə xətti buradan keçdiyi zaman mən bu kəndə gəlmişdim. Şose yolunun ağzında bir neçə yel dəyirmanı olduğu yadımda idi. Mən yerə yox, ağacların başına göz gəzdirir, yel dəyirmanlarını axtarırdım. Bu gecə də heç bir şey mümkün olmadı. Kəndə çatıb-çatmadığımı müəyyən edə bilmədim, çünki almanların tutduğu yerdə hərbi hərəkatdan başqa heç bir həyat əlaməti olmurdu. Nə get-gəl, nə kənd işi, nə səs, nə səmir.

Səhər açılanda kəndin lap kənarına, dəyirmanların sağındakı qovaq ağaclarına çatdığımı gördüm. Gündüz açıq-aşkar evlərə yanaşmaq mümkün olmazdı, çünki hər tin başında alman soldatı durur, hər ötüb-

keçən qadını, uşağı yoxlamamış buraxmır. Ona görə də kənddə qalan qadın və uşaqlar evlərə qapanmışdılar.

Yenə axşamı gözləməli oldum. Yaşıllıqlar, göy ot mənim yeganə köməkçim olmuşdu. Yerə uzanır, üstümü ot ilə örtür, nəfəsimi oğurlayıb ətrafı dinləyir, arxayınlıq olduğunu duyduqda cibimdən quru çörək çıxarıb xırtıldadırdım. Məni sıxan nə aclıq, nə susuzluq, nə də ölüm qorxusu idi. İntizardan üzülürdüm. Hissəmizdən ayrıldığım bu iki gün mənə iki ildən uzun gəlirdi. İki gün böyük bir vaxt deyildir. Ancaq, nədənsə, mənə elə gəlirdi ki, bu müddətdə çox dəyişiklik olmuşdur. Mənə elə gəlirdi ki, hissəmiz yeni əmrlər almış, yeni mövqelər tutmuşdur. Yoldaşlarım, mənimlə kəşfiyyat səfərindən qayıdanlar indi, kim bilsin, hansı bir eşq ilə, hansı bir şücaətlə düşmən üstünə cumur, səslənirlər, bir-birinin səsindən, nəfəsindən qüvvət alırlar. Onu da fikrimə gətirirdim ki, artıq məndən əl üzmüşlər. Sırada yerimi boş görüb papaqlarını çıxarmış, mənimlə xəyalən vidalaşmışlar.

Bu fikirlər məni çox narahat edirdi. Mən heç bir zaman bu günə düşə biləcəyimə inanmazdım. Mənə elə gəlirdi ki, sağ olmağımı heç kəs bilməyəcəkdir. İtkin düşdüyümü zənn edib, gözü yollarda qalan anama məktub yazacaqlar. Anam belə məktub alsa da, inanmayacaq, darvazamızın ağzındakı daşın üstündə oturacaq, corablıq əyirəcək, gəlib-gedəndən dürüst əhval soruşacaqdır.

Axşam yenicə qaranlıqlaşanda mən kölgə kimi səssiz və ehtiyatla kəndin xəlvət küçələrindən, divar dibləri ilə yeriyərək, özümü dar və pəncərəsi pərdəsiz bir evə yetirdim. Pəncərədən baxanda üç nəfər alman soldatının köynəkcək oturub içdiyini gördüm. Birdən qapı açıldı. Mən cəld özümü günəbaxan ləklərinin içinə atdım.

Evdən bir qadın çıxdı. O, su quyusuna yaxınlaşıb vedrəni ipə bağlayanda mən yavaş səslə dedim:

– Bacı, mənə kömək elə!

Qadın əvvəlcədən belə bir işarə gözləyirmiş kimi, ətrafına baxındı, mənə tərəf gəldi. Paltarımdan qızıl əsgər olduğumu bildi: "Səsini çıxarma! – dedi. – Qardaş, başkəsənlər buradadırlar!"

Bunu dedi, vedrəni quyu başında qoyub getdi. Çox keçmədi, qadın əlində bir bağlama geri qayıtdı. Bağlamanın içində paltar var idi. Qadın bağlamanı mənə verdi. Biz bir-birimiz ilə necə görüşəcəyimizi və mənim kim olduğumu soldatlara necə izah edəcəyimizi şərtləşdikdən sonra qadın evə qayıtdı. Mən ağaclar arasına çəkilib paltarımı dəyişdim. Qadının səliqəsinə bax ki, mənə tuman-köynəyə qədər gətirmişdi. Mən bunu artıq sayırdım. Üst paltarımı, əsgər qiyafəmi dəyişmək kifayət idi. "Bəlkə, – dedim, – qadın mənim çoxdan bəri qoşundan ayrıldığımı zənn edib dəyişik vermişdir."



Silahımı həmin tuman-köynəyə büküb bəlli bir ağac dibində basdırdım. Kənd içinə üz qoydum. Xüsusilə kəndli qadının rəftarından mənə aydın idi ki, əhali ilə əlbir olub çox iş görmək olar. Əhalinin adama ehtiyacı çoxdur. Özümü evə yetirdim. Dəhlizə girdim. Otağın qapısını açanda üç nəfər köynəkcək soldat dik ayağa qalxdı.

– Dur! Kimsən?

Mən ağzımı açmamış, içəridən yüyürüb gələn qadın, ev sahibi cavab verdi:

– Ərimdir!

Bunu deyib məni qucaqladı.

– Bəs harada qalmısan? Bəs niyə gəlib çıxmırsan?

Soldatlar tüfənglərini yerə qoyub sakit oldular. Biz "ər-arvad" o biri otağa keçib oturduq.

Riskina adlı sarıbəniz qadın Reçnaya kəndinin kolxozçu qadınlarındandır. Əri ordudadır. Almanlar onun evini zəbt etmiş, iki donuzunu, bir inəyini kəsib yemiş, indi də gündə iki-üç toyuğunu, qazını daş ilə vurub yeyirlər. Riskinanın məharətinə mən heyran, yaxşılığına minnətdar idim. O daima deyirdi: "Sizin mənə daha çox yaxşılığınız dəyəcəkdir. Bəsdir, bu bir ayı mən on ilin əzabını çəkmişəm. Daha dözməyəcəyəm. Reçnayada heç bir şeyim qalmamışdır. Əqrəbamızın bəzisi ölmüş, bəzisi də ordu ilə getmişdir. Qadınlar da, görürsən, nə haldadır. Şükür ki, uşağımız yoxdur. Allah səni mənə köməyə göndərib, iki donuz əvəzinə üç donuz kəsmək istəyirəm. Qoy onlardan hayıf alım, sonra nə olar, olar. Heç olmasa, ürəyim sərinləsin. İntiqam yaralarıma bir məlhəm olsun."

Səhər biz qazıyıb silahı yerdən çıxartdıq, meşəyə, həm "qonaqlarımız", həm də özümüz üçün odun yığmağa getdik. Qaranlıqlaşana qədər vaxtı yubatdıq. Tuman-köynəyi dəyişdirmədiyimi biləndə Riskina

məni danladı. "Əsgər tuman-köynəyində, – dedi, – möhür var. Bu yolu yomrulmuşlar, kişi xeylağını küçədə saxlayıb soyundurur, baxırlar. Sən mütləq dəyiş!"

Həmin gecə Riskinanın planı ilə bizim çağırılmamış qonaqları "həmişəlik" rahatlayıb yolumuza düzəldik.

Riskina yollara bələd idisə də, getmək qorxulu idi. Addımbaşı tutur, vəsiqə tələb edir, komandanlığın yanına aparırdılar. Mənim bəhanəm almanların ürəyindən idi. "Bolşevik həbsxanasından qaçan" adamdan çəkinmirdilər, əksinə, bir məntəqə komendantı mənə iltifat da göstərdi.

– Gəl, – dedi, – cənab, radioda çıxışınızı təşkil edək. Bolşevik həbsxanalarında məhbusların çəkdiyi əzablardan danışın. Bununla siz milli vəzifənizi yerinə yetirmiş olarsınız...

– Cənab, – dedim, – bu saat mən ailəmin hayındayam. Mən bu tayda, külfətim o tayda. Arvadım, uşaqlarım...

– Bəs bu yanınızdakı arvadınız deyilmi?

– Bu ikinci arvadımdır, almışam.

– Görünür, müsəlmansınız.

– Bəli, müsəlmanlar çox arvad alırlar.

– Müsəlmanlar çox qeyrətli olurlar.

– Bəli, düz buyurursunuz.

– Biz istərdik ki, siz bolşeviklərdən intiqam almağınızla bunu bir daha isbat edəsiniz, millətinizin başını ucaldasınız.

– Siz nə bilirsiniz ki, mən belə bir intiqam almayacağam?!

Komendantın üzü güldü:

– Şübhə etmirəm, şübhə etmirəm. Bu yolda bizim sizə hər cür köməyimiz dəyə bilər.

– Mənə köməyiniz o olsun ki, bizə vətənimizə getmək ixtiyarı verin. Mümkün olsa, hərəmizə bir silah da verin, çünki qorxuram, yolda bolşeviklərdən məni tanıyan ola. Məhbusu tanısalar, buraxmazlar.

Komendant fikirləşdi.

– Sizin təklifinizi, – dedi, – komendantlığa çatdıra bilərəm. Ancaq əlimdə sübut, etimad olsa, daha yaxşıdır. Çünki komendantlıq sizə bəslədiyim etibar və əmniyyətə dəlil istəyəcəkdir. Buna görə də mən radio vasitəsilə əhaliyə müraciət etmənizi məsləhət görürəm.

– Cənab zabit, – dedim, – məni bərkə qısnamayın, bolşevik müs-



təntiqinin əlindən təzəcə qurtarmışam, mümkünsə, dincəlmək istəyirəm.

Komendant susdu. Başını aşağı salıb hirslə icazənamə yazdı.

## II

Riskina meşəyə, əlaqə saxladığı partizanların yanına getdi. Mən piyada, yoluma düzəldim. İki-üç kilometr getməmişdim, yol qarovulçusu məni tutdu.

Reçnaya kəndində gördüyümüz iş, deyəsən, faşistləri qudurtmuşdu. Onlar tanımadıqları hər kəsdən qorxurdular. Məni medallı bir zabitin yanına gətirdilər. Zabit mənim məhbus olmağıma inanmadı, "təğyir-libas etmiş əsgərsən, – dedi, – boynuna al!"

O, əsgər dedi, mən məhbus dedim. Tapançanı çəkib başımı nişan aldı:

– Vurdum ha! Düzünü de!

– Düzü belədir!

İcazənaməni alıb cırdı, məni dama saldırdı.

Bura vaxtilə hansı kolxozçununsa evi imiş, indi at bağlamışdılar. Gecəyarısına qədər tövlədə oturub öldürülməyimi, ya təkrar dindirilməyimi gözlədim. Heç bir səs-səda yox idi. Tövlənin qapısında keşik çəkən soldat əlində papiros çəkir, var-gəl edirdi. Ondan xahiş etdim, məni eşiyə çıxartdı. İçəri dönəndə papiros təklif etdim, papirosumu yandırmaq bəhanəsilə hərifin boğazından yapışdım. Tüfəngini qaldırmağa macal olmadı. Onu boğdum, qaranlığa qarışıb yox oldum. Ən çox yol getdiyim, ən çox yorulub taqətdən düşdüyüm gecə bu idi. Teleqrafdan da yeyin getmək, qarovulçunun öldürülmə xəbəri çatan yerlərdən uzaqlaşmaq istəyirdim. Mən indi öz hissələrimizin mövqelərinə yox, cəbhənin cənub tərəflərinə yaxınlaşırdım. Günün istisində qan-tər içində yol gedirdim. Pərişan geyimli cavan bir oğlanın da tək-tənha, əliyalın getdiyini gördüm. Mən onu ötmək istədim. O, mənə yanaşdı:

– Cənab, hardan belə?

Mən məhbus olduğumu, evimizə qayıtdığımı söylədim. "Taleyi-

miz birdir, – dedi, – hansı rayondansan?" Bir yerin adını ona dedim. Cavan oğlan, cəsarətlənmiş və sevinmiş kimi, "gedək, – dedi, – yoldaşıq, gedək".

Ancaq mən bu saat hər kəsdən çəkinirdim. Cavan oğlanın faşist olmadığına inanırdımsa da, bizim adam olduğuna da inanmırdım. Ona görə də uzaqlaşmaq istəyirdim. O, böyüklərindən tapşırıq almış kimi, məni izləyir, tez-tez müharibədən söz salırdı. Məndən nə üstə tutulduğumu, neçə il yatdığımı soruşdu. Cavab verdim ki: "Arvadımı öldürmüşdüm. On il kəsmişdilər, üç ilin çəkdim". Sonra o danışmağa başladı: "Mənim, – dedi, – günahım siyasi günah idi. Qolçomaqlar ilə əlbir olub..."

Cavan oğlan sözünü kəsib diqqətlə mənə baxdı, sonra tez dönüb ətrafa, tüstü ilə dolu, barıt qoxusu ilə kəsiflənmiş havaya baxdı. O, qəribə bir səmimiyyətlə gülümsədi:

– Bura bax, – dedi, – yoldaş, düzünü de, leytenantsanmı?

Mən heyrət və ehtiyatla onun gözlərinin içinə baxdım, cavabımı gözləmədi:

– Görürəm, – dedi, – dost olsan da, indi dustaqsan, almanın dustağısan. Allahdan gizlin deyil, səndən niyə gizli qalsın, mən serjantam, əsirlikdən qaçıram. Kolxozçular kömək etdilər.

Cavanın səmimiyyəti, cəsarəti mənim də ürəyimi açdı. Hər ikimiz xəlvəti kəndlərdən keçən yollarla, kəndlilərdən azuqə ala-ala beş gün yol gəldik. Bu yollar mənə, dağılmış, göylərə sovrulmuş xanimanını seyrə məcbur etdirilən, əli, dili bağlı bir əsirin fəlakətini andırırdı. Bir dəqiqə olmurdu ki, gözümüz dinc və günahsız əhalidən öldürülmüşlərin meyidinə, yandırılmış evlərə, sökülmüş dəmir yollarına, dağıdılmış azuqə anbarlarına sataşmasın. Yer-göy ağlayır, torpaq nalə çəkib müdhiş macərasını danışırdı. Cəmisi bir ay əvvəl burada sakit və məsud bir həyat çağlayırdı. Abad şəhərlər, şən kəndlər yerində indi məzar xərabəliyini görmək nə qədər ağır idi.

Xəlvətilik olanda yoldaşım yerdən bir ovuc torpaq götürür, gözümün qabağında tuturdu:

– Bunda inikas qabiliyyəti olaydı, başına gələnləri nəqş edəydi, ən böyük ittihamnamə olardı.



– Torpaq deyil, – dedim, – göylər, yerlər də, quşlar da bu cinayətləri unutmayacaqdır. Bax, qaralmış üfüqləri seyr et, kədərindən, qəzəbindən necə qılınca dönmüşdür.

Biz hər ikimiz intiqam üçün, ancaq intiqam üçün yaşayacağımıza and içib, yaralı vətənin qanlı, gözüyaşlı torpaqlarını öpdük, özümüzü cəbhəyə, döyüşçülərimizin sırasına saldıq. Yoldaşlar buna: "Uzaqlara doğru axşam səfəri" deyir, danışırdılar.

*1943*

# VƏTƏN YARALARI

Səngərimdən çıxanda, üzgüçü suya atılan kimi, ön xəttin atəşinə atılmışdım. Nə gurultu, nə alov, nə də sanki dəhşətləri örtmək istəyən toz-duman mənə qəribə gəlirdi. Güman edirdim ki, bu atılan güllələrin biri də mənəm, gurultunu qopardan da mənəm, gündüzün boz və kəsif üfüqlərinə bir bayraq kimi açılıb-örtülən alov da mənəm. Döyüş sürəti və hərarətində özümdən xəbərsiz kimi yanırdım. Qan gözümü örtəndə, qılçalarım hərəkətdən qalanda kökü vurulmuş bir ağac kimi yerə sərildim. Sanki bir səs mənə deyirdi: "Bəsdir! Burax!" Lakin mən bunu eşitmək istəmirəm. Diqqətlə yaralarımı duymaq, özümə gəlmək istəyirəm, bacarmıram. İsti mayenin vücuduma axdığını və axdıqca məni xoş və sakit bir rahatlığa apardığını, olduğum aləmdən ayırdığını hiss edirəm. Ayrılmaq istəmirəm. Görmək, eşitmək, düşünmək istəyirəm. Hansı bir qüvvənin əli iləsə gözlərim örtülür, bayaqdan bəri dəmirçi kürəsi kimi səslənən qulaqlarım tutulur, başımdakı ağrı məni alıb aparır. Birdən-birə aləm sükuta dalır, hava qaralır, ətrafımızdakılar əvvəlcə gülləyə, sonra daşa dönür, get-gedə kiçilir, sularda əriyib, yox olurlar.



Məndən qabaq yaralanmış yoldaşlarım danışırdılar: birisi həsrətlərini, birisi əziyyətlərini, bəzisi ölüm təhlükəsini necə keçirdiyini deyərdi. Mən bunları xəyalıma gətirmədim. Bəlkə də buna görə bunları keçirə də bilmədim. Mən gözümü açanda, özümü isti, təmiz və sakit bir otaqda, rahat yataqda görəndən sonra başım üstə dayanan ağsaçlı həkimin təbəssümünü, gənc bir qızın tərimi sildiyini, su içirtmək istədiyini görəndən sonra duydum ki, həyata qayıdıram. Deyəsən, məni bunlar, qalın kitabların mənası ilə silahlanmış həkimlər, şəfqət və mərhəmətdən yoğrulmuş qızlar qaytarırlar? Haraya qaytarırlar? Mən qapandığım, tapındığım hissiz, sükut aləmindən qayıdıram.

Ürəyimdə bir şadlıq var: dodaqlarım qaçdı, üzülmüş, qanını itirmiş, dəri ilə sümükdən ibarət sifətimə ilk təbəssüm işığı düşdü. Sonra hardansa məni bir düşüncə yaxaladı. Haraya qayıdıram? 25 il ömür keçirdiyim, doğulduğum, böyüdüyüm, yorulduğum, dincəldiyim, dərd çəkdiyim, sevindiyim həyata qayıdıram! Orada hələ görmədiyim nələr var?

Bunu nə kitabda oxumuşam, nə həkimdən eşitmişəm. Amma mənə elə gəlir ki, xəstənin fiziki həyatından çox mənəvi həyatı var. Onu möhkəm addımlar, taqətli ayaqlar, bükülməz dizlər yox, zəif və zərif xəyallar aparır. Bu xəyallar bəlkə də, sağlamlıq zamanında adamın başına yol tapmır. Həyatın keşməkeşləri onlara növbə, yol, imkan vermir. İndi isə əl-qolunu boş qoyub, yatağa uzanmış bədən tamamilə onların, o qanadlı düşüncələrin ixtiyarındadır. Düşünürəm, görürəm ki, mən həyata azğın bir maraq üçün qayıtmıram, oynamağa gəlmirəm. Dolu süfrələr başında oturub yeməyə, qədəh sındırmağa, tərif deyib, tərif eşitməyə gəlmirəm. Məxmər stol dalında tabelərimin üstünə qışqırmağa, əmrlərə, fərmanlara qırmızı mürəkkəblə qol çəkməyə gəlmirəm. Nə qızlar, nə qayıq gəzintiləri, nə məzhəkədən qabaq başlayan, sonra da bitməyən qəhqəhələr...

Məndə qəribə bir arzu dinlənir: iki ömür istəyirəm. İstəyirəm ki, ilk ömrüm – təcrübə dərsi olsun, bu mürəkkəb dünyanı, qapalı adamları öyrənməyə sərf olunsun. İmtahandan çıxa bilsəm, mənə ikinci həqiqi

ömür imkanı verilsin. Belə ömrün qədrini bilərəm. Mən yenidən bir körpə olum, anamın, o mehriban xilqətin qucağına atılım, isti nəvazişlərinə tutulum. Atamın sərin torpaq astanasında iməkləyim. Səsim gəlsin. Yıxıla-dura yeriyim, ağı qaradan, şirini acıdan, istini soyuqdan seçən, qayğısız körpəlik günləri başlasın...

O günlər... məgər xəyal onları gətirib yetirə bilərmi?.. Qapımızdan keçən su arxının başında oynardım, söyüd yarpaqlarından əsən xəfif küləklər daraq görməmiş saçaq kimi dolaşıq saçlarımı üzümə tökərdi...

Hanı mənim tay-tuşum? Aşıq atan, top oynayan, gizlənpaç yoldaşlarım? Vuruşub-barışdığım, atıb-tutduğum, ayrılıb-birləşdiyim yaşıdlarım?

Bax, bunlardan doymamışam.

Ömrüm yüz gündürsə, doxsan doqquzunu yurdumda, torpağımda yaşamışam. Doymamışam.

Nəyini deyim? Xoş saatları, əziz günləri, munis axşamları...

Heç bir zaman bu xatirələr cəbhədəki qədər şirin olmur. Əsgər onları arxada qoyub gəlmişdir. Onları qorumağa, onları hədələyən təhlükəni yox etməyə gəlmişdir.

Səhra xəstəxanasından arxaya göndərilməli olduğumu eşidib, yoldaşlarımdan ikisi yanıma gəlmişdi. Biri mənim yaşıdım, məktəb yoldaşım Nəsrəddin idi. Bizi universitetdən, tələbəlikdən çağırmışdılar. Onu görəndə həmişə məktəbli uşaqların kitab çantası yadıma düşür. Nəsrəddinin belə yaraşıqlı bir çantası var idi. Özü də qayışla belinə bağlardı. Bəzən onun çantasından tutub çəkişdirərdik, ha dönmək istərdi ki, görsün kimdir, bacarmazdı. İndi Nəsrəddin bizim komandirin köməkçisidir. Komandir sirrini ona deyir, bərk yerlərə onu özü ilə aparır.

İkincisini cəbhədə tanımışam. Kolayır kəndindəndir. Mina arvadın oğlu Lətifdir. Atası çoxdan ölüb. Anası kənddə nümayəndə idi. Qadınlar yığıncaqlarında onu stol başında, ayaq üstə durub, açarı mürəkkəbqabına döyən, sükut istəyən görərdin. Yaraşmasa da, həmişə sədrlik etmək istərdi.

Lətif anasına oxşamır. Başıaşağı, üzüyola oğlandır. İki yaş bizdən kiçik olduğu üçün, yüngülayaqlıq edər. Hər işə gedər, bəzən suyumuzu, çörəyimizi də hazırlar. Yürüşlərdə, gecə istirahət əmri veriləndə, bir də görərdin, Lətif çəkməsinin dabanı ilə yeri döyür. O, torpağı hamarlayıb, üç adam üçün "yataq" düzəldərdi. Əleyhqazlarımızı başımızın altına qoyub tirtap düşərdik.



Bunlar mənim yanıma həm görüşə, həm sifarişə gəlmişlər. Mənim nə danışmağa, nə də əsəblərimə toxunacaq bir xəbər almağıma icazə var idi. Mən bu səhra xəstəxanasında 7 gün ərzində həkimdən başqa yalnız bir şəfqət bacısını görürdüm. Yanıma gələn, məni dindirən olmadığına darıxırdım. Ancaq onu da duyurdum ki, mənə yaxınlaşmaq istəyənləri şəfqət bacısı buraxmır. Bəzilərini qaytarır, bəzilərinə də yalan satır ki, "xəstə yuxudadır". Bu dəfə mən çadır örtüyünün dalından Nəsrəddinin üzünü gördüm. Dərhal bacının səsi gəldi:

– Yoldaş əsgərlər, xəstə yuxudadır, oyada bilmərəm.

Mən dözmədim:

– Oyanmışam, – dedim, – bacı, burax gəlsin.

Bunu dedim, sevindiyimdən dikəlmək, dirsəklənmək istədim. Çarpayıya sarındığım, ya ağrıdan qorxduğum üçün dikələ bilmədim. Başım ümidsiz kimi, balışa yapışıb qaldı.

Yoldaşlar bir üzü xətir, bir üzü zor-güc özlərini mənim yanıma saldılar. Bacı onlara yalvarırdı:

– Həkim bilsə, mənim atamı yandırar. Aman günüdür, tez gedin!

Nəsrəddin ona təsəlli verdi:

– Tez, arxayın ol, tez gedəcəyik.

Lətif dedi:

– İki-üç dəqiqə, artıq yox.

Çadıra girəndən sonra Nəsrəddin nə bacıya baxır, nə də onun sözünü eşidirdi. Mənim alnımdan öpüb, zəif əlimi ovcunun içinə almış, illər ayrısı kimi, həsrətlə söhbətə başlamışdı...

Onlar yaralarımdan sarı mənə təsəlli verirdilər:

– Güllə yarası əti bişirir, tez sağalır. Anan dua eləyir, yaxşı ötüşmüsən, on-on beş günə duracaqsan.

Mən ağrılardan şikayət edəndə Nəsrəddin bir ədib kimi cavab verdi:

– İnanıram, sən daha çox ağrı duyursan. Həyatla dolu adamlara, bütün hissləri ilə mükəmməl həyat keçirən adamlara hər yara əzabdır. Sən yorulmuş qoca, ya çox şeylərdən əl üzmüş bədbin deyilsən. Qoca ağacların gövdəsini yarıb içində ocaq qalayırsan, halına təfavüt eləmir. Sağlam, ucaboylu qovaq ağaclarının gövdəsinə bir bıçaq vurulsa, o saat yaşardığını görərsən. Belə ağacların həyatı sağlam gənclərin həyatı kimi mükəmməldir, əsl həyatdır. Sən belə gənclərdənsən. Ancaq onu da bil ki, bir neçə ay sonra qovaq ağacının bıçaq vurulan yerini möhkəmlənmiş, bərkimiş görərsən. Sağlıq olsa, sən həm müalicə olunacaq, həm dincələcəksən, həm də ki...

Lətif Nəsrəddinin ürəyindən xəbər verdi:

– Həm də ki vətənə gedəcəksən.

Bu sözü deyəndə onların hər ikisi qızardı, gülümsədi, mənim gözlərimə baxdı. Mən bunun mənasını yaxşı anlayırdım. Onlar on illərə bərabər olan bir neçə aylıq cəbhə həyatından aldıqları duyğu və təsəvvürlərini yaxın adamlarına çatdırmaq istəyirdilər.

Bacı Nəsrəddinin qarşısında dayanıb xahiş edirdi. Nəsrəddin isə gözünü məndən ayırmırdı:

– Səndən, – deyirdi, – heç nə istəmirəm. Bizim evə get, mənim yazı stolumun başında otur, kitablarıma, kağızlarıma fikir ver, gör qoyub gəldiyim kimidirmi? Gör mənə kağız-zad yazan, itirib-axtaran olurmu? Küçəmizdən bir neçə dəfə o yan-bu yana keç, anamın sözünü-sorğusunu qulağında yaxşı saxla. Səndən hər şeyi təfsilatı ilə soruşacağam... Universitetə, bilirəm, gedəcəksən. Uşaqlara bir-bir salam de. Mənim əvəzimdə bir lektoriyada sükut içində otur. Bu gördüyün gurultuları orada xatırla. Yəqin mənim abunə vərəqim durur, onu bir al bax, gör kitabxanaçı deyirmi ki: "Bu oğlan niyə kitab götürmür?"

Lətif Nəsrəddinə macal vermədi:

– Özün bilirsən də, nə deyim. Arvad eşitsə, birbaş yanına gələcək. Bu şəkli ver, deyinən nigaran olmasın. Bacarsan, bir bizim məktəbə dəy. Gör Ədil müəllim oradadırmı? Gör yenə dərslər qaydasındadırmı? Uşaqlarını yadına salırmı? Gedən kim, qalan kim? Mənim adresimi direktora, Ədil müəllimə ver, bəlkə məktub yazan oldu.



Nəsrəddin bir şey xatırlamış kimi, Lətifə mane oldu:

– Get bizdə də bir-iki gün qal. Qoy anam da oğul səsi eşitsin. Yəqin hazırlıq görəcək. Nahardan sonra mənim tarımı al, tozunu sil, bağrına bas, bir "Çahargah" başla. İnan ki, üstümə yüz topdan güllə yağsa da, mən burada "Çahargah"ın səsini eşidəcəyəm...

Lətif tapşırdı:

– Kəndə gələndə kövşənə, Dişli qaya tərəfə çıx. Durnagözlü bulaqdan ovucla, mənim əvəzimə iç. Yazdır. Otur, bir quşları dinlə. Gör onlar nə deyir: dünyanın bu işləri onların mahnısına kar eləyir, ya yox? Yaşıl yamacdan dəstə tut. Lalə, bənövşə, nərgiz, nanə, xətmi, nilufər, nə desən, taparsan. Yaş yarpaqları tök dəftərinin arasına, qurusunu bizə gətir. Torpağın ətrini oradan alarıq. Ax, o yerlər!.. Səcdəsinə düşmək, öpüb-yalamaq, ürəyimi o torpağa, daşa sürtmək istəyirəm.

Anama qabaqcadan heç nə yazmadım. Vağzalda düşüb yavaş-yavaş evimizə gəlirdim. Anamı görməyə tələsirdimsə də, çoxdan ayrıldığım bu küçələri, yolları, bu məhrəm binaları, ağacları, hasarları diqqətlə nəzərdən keçirmək həvəsi ilə yaşayırdım. Çalışırdım görüm nə dəyişmişdir? Mənim qoyub getdiyim yerlərin nəyi və necə dəyişmişdir? Mənə elə gəlirdi ki, hər şey öz qaydasındadır. Yenə də haman sentyabr axşamıdır. Şəhərimiz möhkəm inam və etimadla ömrünü sürür. Uca çinarlar, yaşıl təpələr baş əyərək, cəbhədən gələn oğullarını salamlayır, cəbhəyə gedən oğullarına xeyir-dua verir.

Anamı evdə tapmadım. Açarı bir-birimizə bələdlədiyimiz yerdən götürdüm, qapını açıb, evdə rahatlandım.

Bu evdə nə təzəlik var?

Mənim əsgər şəklim stolun üstündədir. Məktublarım üst-üstə səliqə ilə qoyulmuşdur. Sanki anam bunları hər gün oxuyur. Pəncərənin ağzında balaca və üzü bezlə tikilmiş bir qutu var. Yəqin etdim ki, anam yenə nəsə göndərir, istədim anamın cəbhə sovqatını açım, dəymədim. Kitab şkafının şüşələri tərtəmiz silinmişdi. Gələn qəzet və jurnallar sah-

manla şkafın bir gözünə yığılmışdı. Anladım ki, anam bunları mənə saxlayır – oxumamış qəzeti o, tərk etməz.

Evin hər tərəfində bir qayğı əli gəzirdi. Bu, əməksevən və zəhmətdən həzz alan əsgər anasının əli idi. O hər qədəmi oğul yolunda atırdı.

Bunların hamısı mənə aydın idi. Lakin anlaya bilmədim ki, anam evin açarını nə üçün həyətdə, xəlvət bir yerdə qoyub gedir. Qapını özündən başqa kimsə açmayacaq, bəs açarı kimə etibar edir?

...Anam mənim bu sualıma köksünü ötürərək, cavab verdi:

– Bala, – dedi, – çox vaxt səninlə oturub, söhbət eləyirdim. Sən cəbhədə bəlkə də, atışmadasan. Mən burada bardaş qurub, səni körpə çağında görürəm, dindirirəm, danışırsan, oynayırsan... Açar orada dursun. Mən onu yaxşı niyyətlə qoyuram. Elə bilirəm, evimizdəsən. Sənin səfərin uğurlu səfərdir. Ürəyim mənə deyir ki: "Sən işdən qayıdanacan oğlun gələr, qapıda qalar. Açarı qoy get..." Gördün ki, niyyətim düz çıxdı, Allah düz adama niyyətinə görə verər. Şükür ki, gəldin çıxdın!

Anam danışdıqca mənim ürəyim genişlənir, iftixar hissim alovlanırdı. Ürəyimdə deyirdim: "Bəşəriyyət hamısı analar qəlbi ilə yaşasaydı, dünya başdan-başa bir cənnət olardı. Bunların duyğusu, arzusu, xeyirxahlıq və mərhəmət dolu ürəkləri həmişə bizimlə, cəbhəçilərlədir. Bu müqəddəs qəlb sahiblərinin keşiyində durana zaval yoxdur!"

Vətənin hava və sularındanmı, adamlarımızın "cəbhəçidir", – deyə mənə göstərdikləri qonaqpərəstlikdənmi, görüş sevincindənmi, nədənsə, mən çox tez dirçəldim. Özümü əvvəlkindən də möhkəm hiss etdim. Sağaldıqca, qüvvətə gəldikcə təkrar cəbhəyə qayıtmaq arzusu məndə alovlanırdı. Nəhayət, anam məni yola salmalı olduğuna inanandan sonra Nəsrəddinin də, Lətifin də anasını çağırdı. İstirahət günü bizim evimiz səfər evinə oxşayırdı. Hərə bir sovqat bağlayıb gətirmişdi. Mən ha yalvardım ki: "Canım, bunların heç birinə ehtiyac yoxdur, bunu aparmaq özü çətin işdir", buraxmırdılar. Corab gətirən, papiros alan, fətir bişirən, xörək hazırlayan kim... Anam məndən xəlvəti bir qutu bağlamışdı.

– Bala, – deyirdi, – bu, üçünüzün payıdır, açmazsan. Yetirən kimi Nəsrəddini, Lətifi çağırarsan, açarsınız. Bu, üç ananın səliqəsidir. Bir açın, bir oturun, bir yeyin, bir gəzin, bir vuruşun!



* * *

Cəbhəyə qayıdanda hərbi mütəxəssislər məni böyütmək, başqa yerə, yeni vəzifəyə göndərmək fikrində idilər. Mən yoldaşlarımdan ayrılmayım deyə, bundan yayındım, öz hissəmizə gəldim. Təəssüf ki, yoldaşlarımın heç birini yerində tapmadım.

Nəsrəddinin iki gün əvvəl yaralandığını, səhra xəstəxanasına götürüldüyünü deyirdilərsə, Lətif haqqında açıq danışmırdılar. Mən dərhal komissarın yanına getdim, təlaşımı görüb mənə iki sətirlik bir yazı göstərdi. Orada savadlı bir əl rusca yazmışdı: "Demişdim, elə də oldu: döyüşçü ölməyəcəkdir!" Mən yazını oxuyub komissarın üzünə baxdım. Nəzərlərimlə soruşurdum. Nə soruşduğumu komissar bilmirdi:

– Həkim yazır, – dedi, – Lətifin sağalmağına ümidimiz yox idi. Köks qəfəsinə iki güllə, bir mina qəlpəsi dəyib, ciyərinin başı zədələnib. Amma həkim Qiyaslı ümid verirdi. İndi isə Lətifin sağalmağı müəyyəndir.

İki ay əvvəl mənim yanıma gələn yoldaşlarımı axtarıb, görüşmək üçün icazə aldım. Ən əziz sovqatı, anaların verdiyi bağlamanı səhra xəstəxanasına gedən maşınların birinə atdım.

Əvvəl Nəsrəddini tapdım. O, isti bir xalat geymiş, həyətdə gəzinirdi. Yarası qolundan idi, həm də yüngül idi. Mənim gəlməyim yalnız onun üçün yox, xəstə yoldaşlarım üçün də bir bayram oldu. Şəhərimizdən, yollardan, əkindən, məhsuldan suallar verirdilər. Nəsrəddin ikilikdə söhbət üçün məni çəkib, palataların kənarına gətirdi. Torpaq üstündə dirsəklənib oturduq. Mən gördüklərimin hamısını nağıl etdim. Bıçağı çıxarıb, bağlamanı açmaq istədim. Nəsrəddin mane oldu:

– Qoymaram, – dedi.

– Yeməli şeydir, xarab ola bilər.

– Lətifsiz açmayacaqsan.

Nəsrəddinin sözü qabağımı kəsdi, bıçağı qatlayıb cibimə qoydum.

– Elə isə dur, – dedi, – dur, onun yanına gedək.

Nəsrəddinin ucaboylu, zabitəli bir həkimi var idi. Başqaları həkim

olub orduya gəlmişdilər, bu adam tibb təhsilindən əvvəl mükəmməl hərb adamı, böyük komandir imiş. Rəsmiyyəti çox sevirdi. Xəstələr və ya bacılar ondan bir güzəşt xahiş etməli olanda ümidsiz əllərini tovlayırdılar. Buna görə də Nəsrəddin xahiş etmək istəmirdi.

Mən həkimi "yumşaltmağı" boynuma aldım. Gözlədim. O, otağından çıxanda rəsmi vəziyyət alıb, məqsədimizi söylədim.

– Sabah nahardan sonra yarım saat gedə bilər, – deyə o, icazə verdi.

Həkim bunu deyib ötdü. Mən sabaha qala bilməyəcəyimi deməyə, israr etməyə macal tapmadım.

Mən bu gün Lətifin yanına getdim. Lətif ağır xəstəlikdən təzə ayılırdı. Rəngi-rufu qalmamışdı. Məni görəndə sevincindən ağladı. Məni də qəhərləndirdi. Narahat etməyim deyə, tez durdum. Bağlamanı onun yanına qoyub çıxdım.

Lətifin sağalıb hissəmizə qayıtmağı iki ay yarım çəkdi. Bu müddətdə anaların bağlaması gah onun çarpayısı başında, gah təcili yardım arabasında, gah istehkamda qaldı. Lakin açılmadı. Ancaq Lətif gələndən sonra üç səmimi yoldaş oturub sovqatı açdıq. Burada albuxara, kişmiş, fındıqdan tutmuş Ordubad alanasına qədər vardı. Yeməli şeylərin altında adama bir əl dəsmalı, bir ətirli sabun, adama bir cüt toxunma əlcək var idi.

Əlcəkləri əlimizə taxdıq. Anamın sözü mənim qulağımda cingildədi: "Bir oturun, bir gəzin, bir vuruşun!"

– Uşaqlar, – dedim, – bu əlcəklərdə analarımızın mehribanlıq istisi, vətənimizin dostluq sədaqətinin, birliyinin hərarəti var. Əllərimizə baxıb, analarımızın bizimlə, yanımızda olduqlarını hiss edirik. Onların mehriban ana nəfəsi bizi bəsləmiş, böyütmüşdür, bizi döyüşə də, qələbəyə də aparacaqdır.

Lətif də, Nəsrəddin də ananın sözlərini təkrar etdilər:

– Bir gəzək, bir vuruşaq!

– Qoyun, – dedim, – analarımızın surəti gözümüzün önündə, səsi qulağımızda, əli ürəyimizdə olsun. Qoyun onlar oxşayıcı, məhrəm əllərini həmişə bizim yaralarımızın üstünə çəkib sağaltsınlar. Sağ olaq, torpağımıza soxulan təcavüzkarları məhv edək! Analarımız sevinsin, arxayın yaşasınlar. Ana Vətən bizdən razı qalsın.

*1943*

# XƏBƏR-ƏTƏRSİZ

Yarım saatdan artıq idi ki, Səkinə hərbi komissarın qapısında növbə gözləyirdi. Darıxır, tələsir, intizar çəkirdi. Ancaq qapı açılanda, üzlü adamlar növbəsiz irəli yeriyəndə Səkinə daha da geri çəkilir, sanki komissarın gözünə görünməməyə çalışırdı. Ehtimal ki, gözləyənlər hamısı güzəştə gedib, onu qabağa salsaydılar, Səkinə yenə içəri getməzdi. Çünki komissara deyəcəklərini hələ də ölçüb-biçməmiş, hələ də şikayətinə müəyyən ifadə verməmişdi. Şikayətçilərdə belə ehtiyat, çox vaxt sözün azlığından, yaxud mətləbin yüngüllüyündən olur. Səkinənin isə deməyə bir kitab sözü var idi. Ancaq haradan başlamağı, harada dayanmağı aydın etməmişdi. Düşünür, düşündükcə düşünürdü. Ona elə gəlirdi ki, sevgilisinin – 8 aydan bəri ayrıldığı, üç aydan bəri kağız almadığı Fətullanın taleyi, qucağında mışıl-mışıl yatan, dünyanın əzab və iztirablarından xəbərsiz olan körpəsinin taleyi, yenicə birləşib qurduqları, məhəbbətlə qızdırdıqları, səadətlə işıq verdikləri, ümidlə parlatdıqları ailənin, cavan xanimanın taleyi bu gündən, komissarın bu cavabından asılıdır.



Birdən qapı taybatay açıldı. Sanki adamları qucaqlamaq üçün qollarını yana açmış komissar çıxdı, əllərini qapıya çataqlayıb, şikayətçiləri süzdü. Duruşundan aydın idi ki, komissar yorulmuşdur, ancaq şikayətçilərin hamısını qəbul etməmiş getmək istəmir. Onun gözü uşaqlı qadına, kənarda dayanan Səkinəyə düşən kimi çağırdı:

– Bacı, uşaq qucağınızda, siz niyə növbə gözləyirsiniz, gəlsəniz!

Komissarın belə mehriban rəftarı Səkinəyə cürət verdi. O, kəlağayısını alnına tərəf çəkib, irəliyə yeridi:

– Yoldaş komissar... – dedi.

Komissar onun üzündə utancaq, məsum Azərbaycan qızının şikayətini oxuduqda, tez soruşdu:

– Buyur, bacı, nə sözün var? Təqaüdünüz vaxtında çatırmı?

Səkinə başını aşağı saldı:

– Çatır, bəli, çox sağ olun. Ayrı barədə gəlmişəm, üç aydır xəbər yoxdur. – O, bu sözdən doluxsundu, dalısını deyə bilmədi.

Komissar stol başına keçib, əyləşmək üçün ona yer göstərdi, qələmi alıb bloknotu vərəqlədi və soruşdu:

– Familiyası nədir?

Səkinə qoynundan çıxartdığı dörd bükülmüş bir ağ zərfi komissarın stolu üstünə qoydu və dedi:

– Cavadov Fətulla.

Komissar Fətullanın ünvanını yazıb götürdü. Səkinəyə təsəlli verdi:

– Arxayın olun, mən ştaba yazaram, tezliklə yoldaşınızdan xəbər alarsınız.

Səkinənin ürəyi sakit olmadı:

– Yoldaş komissar, – dedi, – neçə gün çəkər?

– On-on beş gün çəkər, ancaq darıxmayın. Kağız gəlməsə, mən lap təcili teleqram vurub, tələb edərəm. Siz heç narahat olmayın.

Səkinə komissarın yanından qayıdandan sonra saatları, günləri saymağa başladı. 12 gün keçmişdi, 13-cü gün axşam Səkinəgilin qapısını döydülər, göy bir zərf verib, qol çəkdirdilər.

Biz istərdik ki, qürbətdə, səfərdə, ya cəbhədə adamı olan evlərin hamısı məktub alsın. Ancaq heç bir evə belə xəbər gəlməsin. Səkinə mək-

tubu almasına hədsiz dərəcədə sevindisə də, oxuyandan sonra elə bil, dünyanı, yerləri, göyləri hərləyib, onun başına çırpdılar. O cavan gəlinin, o gənc ananın ümid və arzu dolu ürəyi parçalandı... Yazıq durduğu yerdə diz çökdü, özünü itirdi. Dili tutuldu, dodağı titrədi, bütün vücudu kibrit kimi alışıb-yandı. Səkinə varlığını qovuran müsibətin ağırlığından elə fəryad çəkib ağladı ki, yaxın qonşuların hamısı bir dəhşət duymuş kimi, evə töküldülər.

Komissarın sualına cavab gəlmişdi ki, siz axtaran adam, kiçik-leytenant Fətulla Cavadov Poltava uğrunda gedən vuruşmalar zamanı itkin düşmüşdür, haqqında heç bir məlumat yoxdur...

Komissar şad bir xəbər alsa, yəqin ki, Səkinəni çağırtdıracaq, sevindirəcəkdi. Ancaq bütün hissləri və həyatı ilə ərinə bağlı olan Səkinə kimi bir azərbaycanlı qadına belə xəbər söyləməyə cəsarət etməmişdi. İtkin düşməyin ölüm demək olmadığını Səkinəyə anlatmaq, inandırmaq da asan deyildi. Bütün bunlara görə, məktubu onun evinə göndərmişdi.

Biz burada Səkinənin müsibətlərini dilə gətirmirik. Qoy bir kəlmə söz oxuyub, dincəlmək istəyənlərin ürəyi xarab olmasın. İstəyirik ki, oxucu, bir ailənin başçısını – cəbhədə xəbər-ətərsiz itən gənc Fətullanı tanısın, onun macərasını bilsin.

Fətulla Vətən müharibəsi meydanlarına gedən milyonlardan biri idi. Ancaq milyonlar içərisində Fətulla kimiləri ilk baxışda seçilirlər. O, ləyaqətli, igid bir əsgər olduğu qədər vəfalı bir yoldaş idi. Həftə olmazdı ki, sevgilisinə məktub yazmasın, halını bilməsin, əhval soruşmasın. Bəzən onun məktubları papiros qutusundan çıxarılmış karton kağızdan, bəzən konserv bankasından soyulmuş şəkildən ibarət olurdu. İttifaq düşürdü, görürdün, Fətulla altı sətirlik məktubunu üç gündə yaza bilmişdir, hər sətir arasında qızışan döyüş günlərlə uzanırdı, sükut komandası alan kimi, hərəni bir işdə, Fətullanı isə məktubunu davam etdirməkdə görərdin. Səkinəsinə və körpə oğluna olan məhəbbətini köyrəltməzdi. Əksinə, ailə ona müqəddəs bir xaniman, əbədi bir arxa görünərdi. Oğlunun beşikdə istirahət dəqiqələrini düşünərək, bütün əzablarını, Səkinənin təmin olunduğunu, gələcək qələbədən sonra vətənə dönmək, xoşbəxt görüş saatını düşünərək, bütün həsrətləri unudardı. Evdən məktub aldıqda, elə bil, ailəsini görüb söhbət edər, arxayın olar, döyüşə toy-bayram həvəsi ilə gedərdi. Cəbhədə ikən oğlunun və Səkinənin şəklini istəyib almışdı.



Belə bir oğlanın aylarla məktub yazmaması əbəs yerə deyildi. Səkinənin də darıxmağa haqqı vardı. Poltava davasında Fətullanın topçu dəstəsi üç düşmən təyyarəsini vurduğunu, top xarab olanda isə alman piyadaları ilə əlbəyaxa vuruşduğunu cəbhədən gələnlər danışırdılar. Həmin axşamdan sonra Fətullanın nə dirisini, nə ölüsünü görən olmuşdu. Söz buraya çatanda hamı başını aşağı salıb susurdu. O zaman o qarlı-çovğunlu payız gecəsində Fətullanın başına nələr gəldiyini biz də bilmirik.

Sevgilisindən əl üzəndən sonra Səkinə qoparılmış gül yarpağı kimi, solub getməkdə idi. Ev-eşik gözündən düşmüş, həyat ona xəstə yatağı kimi, işgəncə görünmüşdü. Yoldaşları onu məşğul edib, əyləndirə bilmirdilər. Payız səması kimi tutulmuşdu. Gündüzlər bulud kimi qaralır, gecələr ağlayırdı.

O, qüssələrini uşaqdan, körpədən gizlətməyə çalışırdısa da, bacarmırdı. Nə sirr idisə, uşaq həmişə agah olurdu. Balaca barmaqları ilə anasının gözünə işarə edib, sanki, "ağlama" deyirdi. Oyuncaq şeylərini götürüb anasının qabağına tökür, sanki, onun tənhalığını pozmaq, qüssəsini unutdurmaq istəyirdi. Səkinə onun üzünə baxır, "atasız balam!" deyib, daha da şiddətlə ağlayırdı.

Anaların belə günü az olsun!

Keçən ilin yayında Səkinə Buzovnadan, bibisi evindən qayıdırdı. Vaqonlarda basabas idi. Uşaq istiyə düşməsin deyə, Səkinə vağzalda gözləməli, arxayın bir vaqona oturmalı oldu. Gecə saat onda gəlib şəhərə çıxdı.

Adəti üzrə, Səkinə bir yerə gedəndə evin açarını qonşuya – Güllər xalaya verərdi. Davadan əvvəl belə edərdi ki, Fətulla gəlsə, gözləməsin, evdə oturub dincəlsin. İndi isə Fətulla yox idi. Ancaq yenə açarı aparmırdı. O istəmirdi ki, Güllər xalanın ürəyinə bir şey gəlsin, "inanmır" desin. Əslində, Fətullanın evdə olduğu zamanlardan qalan bir bu adət Səkinəyə çox xoş gəlirdi. Açarı qoyub getməklə sanki o, Fətullanın gələcəyinə şirin bir ümid bəsləyirdi. Hər dəfə açarı özü gəlib alanda bir ah

çəkir, sevgilisinin bir daha bu qapını açmayacağını düşünüb kədərlənirdi.

Bu axşam gec, həm də yorğun qayıtmışdı. Həyətə girən kimi səsləndi:

– Güllər xala, açarı gətir, uşaq qucağımda yatıb.

Diqqətlə baxanda Güllər xalanın qapısını bağlı gördü. Belə hallarda açarın məlum yeri var idi. Su quyusunun başında köhnə bir kərpicin altına qoyardı.

Səkinə kərpicin altına baxdı, açar orada yox idi. "Bəlkə, qıfılı birtəhər açmaq olar", – deyə düşündü və qapıya yaxınlaşdı.

– Bu ki açıqdır. Ay Güllər xala! – deyə səsləndi.

Qapı açıq, içəri qaranlıq, həyətdə kimsə yox idi. Səkinəni vahimə basdı. Bir də səsləndi:

– Güllər xala!

– Ay qız, Səkinə, haradasan bəs?

Evdən gələn bu səs Səkinənin bütün vücuduna, qanına işlədi. Lampa yandı, Fətulla köynəkcək həyətə qaçıb, onu qucaqladı:

– Bəs haradasan, ay Səkinə, demirsən ki, evə gələn olar?

Səkinə yarım saata qədər ayaq üstə quruyub qaldı. Sevincdənmi, özünü itirdiyindənmi çaşmışdı, danışmaq istəyirdi, amma dili tutulurdu. Dəqiqələrlə Fətullanın boynunu qucaqlayıb durur, sonra geri çəkilir, sanki gördüyünün yuxu deyil, aşkar həqiqət olduğunu bilmək üçün onun üzünə bir də baxır, təkrar qucaqlayırdı.

Sonra onlar içəri girdilər. Fətulla gah əyilib çarpayının üstünə atılan yuxulu uşağın üz-gözündən öpür, gah da zarafata salıb, Səkinədən gileylənirdi:

– Gecə yarısınacan gəzməyə gedirsən, demirsən bir evə gələn olar?..

Səkinə yavaş-yavaş toxdayırdı:

– Həmişə, – deyirdi, – sən gələsən, ay Fətulla! Mən gözlərimə inanmıram. Bilirsənmi, diliyanmışlar səndən nələr danışırdılar!

– Mənim kimi komandir babadan nə danışacaqlar, yoxsa deyiblər qız dalınca gəzir?

– Yox, ayrı şey deyirlər. Dilim-ağzım qurusun. Altı aydır yasdayam. Əynimdə qaranı görmürsənmi? Ağlamaqdan gözümün qarası gedib. Yazıq körpə də mənə baxıb qüssələnir.

Bu söhbətlər Fətullaya zarafat kimi gəlirdi.

– Öldü deyəndə, demədin, ay filan-filan olmuş, ölməyə getməyib, öldürməyə gedib! Mən sənə deməmişəm ki, arxayın ol, qayıdacağam?

– Yox, Fətulla, demə, davadır, güllə qabağıdır, ürək dözmür.

– Güllənin Fətulla ilə nə işi?

Səkinə Fətullanın zarafatını çox sevərdi. Ancaq indi bunun vaxtı deyildi. Onun, o sağlam qırmızıyanaq komandirin çiyinlərindən tutub silkələyir və deyirdi:

– Danış görüm, de görüm, niyə kağızın gəlmirdi? Altı-yeddi ayda adam evə əl boyda kağızı da əsirgəyərmi? Niyə bizə yazığın gəlmirdi?

– Sən danış, görüm, mənim adımı öldüyə çıxaran kim idi?

Səkinə cəld qalxıb, hərbi komissarlıqdan gələn kağızı göstərdi. Fətulla oxuyub dedi:

– Burada elə bir şey yoxdur.

– Nə yoxdur? Görmürsən yazıb ki, itkin düşdü!

– İtkin düşəndə, nə olar?

– O da ölüm kimi bir şey deyilmi?

Fətullanı gülmək tutdu.

– Ay qız, – dedi, – tək mən deyiləm, yüzlərlə, minlərlə itkin düşənlər var. Siz buna niyə elə baxırsınız! Rotamızdakıların hamısı bu fikrə gəldilər ki, intiqam almaq üçün "itkin" düşmək lazımdır. Biz düşmənin tutduğu şəhər və kəndləri qoyub çıxmaq istəmədik. Meşələrə, dağa-daşa çəkilib, müvəqqəti bir zaman üçün gözdən itdik. Almanların bir az toxtamasını, arxadan arxayın olmasını gözlədik. Sonra onların canına bir vəlvələ saldıq ki, haranın cəbhə, haranın arxa olduğunu, dostun hayanda, düşmənin hayanda olduğunu seçə bilmədilər. Almanlar aldıqları şəhərdə qarət və talan əməliyyatlarını bitirdikdən sonra kef məclisləri düzəldirmişlər. Tutduqları sovet şəhərlərində də bu adəti yerinə yetirmək istədilər. Partizanlar onların bütün niyyətlərini pozduqları kimi, bu adətlərini də pozdular. Bir nəfər əsir gətirmişdik. O danışırdı: "Əvvəllər görmüşdük, soldat qarovul durmağı asan iş bilib arzular, çünki qarovulu başqa işlərə aparmırlar. İndi isə iş dəyişib.

Zabit axşam qarnizona qarovul təyin edəndə soldatlar ağlaşırdılar ki: "Bizi balalarının başına çevir, partizan əlinə vermə!" Zabit də qaranlıqlaşan, kimi xəlvət bir yer tapıb, gecələmək üçün vurnuxur. Ancaq partizanlar bu xəlvət yerləri zabitdən yaxşı tanıyıb bələdləmişlər..."

– Biz buna görə itkin düşürük. Kağız gəlməyəndə narahat olmayın, – deyə Fətulla sözünü bitirdi.

– Necə narahat olmayaq, aylarla bir xəbər yetişməyəndə, adam necə dözsün!

– Xəbər olur. Xəbər hər gün olur. Radio dinləyəndə fikir vermirsənmi? Gün olmaz ki, partizan işindən deyilməsin. Doğrudur, orada heç kəsin: nə leytenantın, nə generalın, nə əsgərin adı var, amma igidliyin, Vətən yolunda görülən işin qiyməti var. Mən həmin itkin düşən yoldaşlarımın yanından vacib işə getmişəm. Burada üç günün qonağıyam. Səndən xahiş edirəm ki, yalnız aldığın, ya almadığın kağızla mənim həyatımı ölçmə. Mənim adsız xəbərlərimi də dinlə. Unutma ki, mən düşmən arxasında çalışmağa təyin olunmuşam, sorağım dərinlərdən gələcəkdir. Havaxt eşitdin ki, filan şəhərdə faşistlərin qarovulu oğurlandı, barıt anbarı yandı, paravozu partladı, maşını od tutdu, bil ki mən sağam, əlim işdədir. Səadətimiz, torpağımızın azadlığı üçün olan bu işlər sənə ən mənalı məktubdur. Diqqətlə dinləsən, mənim səsimi eşidərsən.

Fətulla üç gündən artıq qalmadı. Vacib bir xəbəri yerinə çatdırmalı idi. Səkinə qohumları, qonşuları ilə onu vağzala gətirib, yola saldılar. Əziz müsafir üçün hərə bir tədarük görmüşdü. Kimisi fətir bişirmiş, kimisi təzə əlcək toxumuş, kimisi meyvə qurusu gətirmişdi. Fətulla vaqona oturanda hamının əlini sıxıb razılıq etdi. Səkinəni Güllər xalaya, Güllər xalanı Səkinəyə tapşırdı. Körpə uşağını atıb-tutdu, öpüb-qucdu, anasına verəndə bərk-bərk tapşırdı.

– Bir də ona atasız desən, səndən inciyərəm.

Fətulla ailəsi və dost-aşnası ilə vidalaşıb, təkrar döyüş meydanına getdi. Səkinə isə uzun intizar və nigaranlıqdan silkinərək, evə qayıtdı. Fətulla indi elə həvəs, elə bir eşqlə gedirdi ki, deyərdin, qüdrəti dağları titrədəcək. Səkinə elə bir qürur, elə bir iftixar hissi ilə yaşayırdı ki, deyərdin dünyanın ən xoşbəxt adamıdır.

Fətulla həmişə keçdiyi şəhərlərdən ev, ailə, işıq saçan bir çıraq gördükdə Səkinəni, onun dinc həyatını xatırlayıb ürəklənərdi. Səkinə həmişə partizanların rəşadətindən eşidəndə ürəyi genişlənir, başı ucalırdı. Körpəsini atıb-tutaraq:

– Partizan balası! – deyə gülümsəyirdi.

*1943*

# LEYLA

*Gözləyən qızlarımıza, gəlinlərimizə,*
*bacılarımıza, analarımıza hədiyyə*

## I

Bir müddət onun ayağı tramvaydan kəsilmədi. Şəhərə yaxın düşərgələrdən birində əsgəri hissədə vuruşmaq öyrənən sevgili əri Mir Əlinin görüşünə gedər, əlinə düşəndə hədiyyə apparardı. Axırıncı dəfə vidalaşandan, Mir Əli cəbhəyə yola düşəndən sonra da gəlini yollarda görmək olardı. Sevgilisindən xəbər almayanda səbri tükənər, darıxardı; heç bir şeydən təsəlli tapmayanda baş alıb çölə, Mir Əlini yola saldığı yerlərə gedər, sanki, hər addımında bir xatirə axtarardı. Orada, əsgərlərin keçmiş düşərgəsində indi küləklər əsirdi. Məşq üçün qazılan səngərdən, basdırılan nişan ağaclarından, dar cığırlardan, sökülmüş çadır yerlərindən, sönük ağaclardan, konserv qutularından başqa heç nə qalmamışdı.

İntizarlı gəlin kənarda dayanıb, ziyarətinə gəldiyi yerin hər tərəfinə diqqətlə tamaşa edərdi. Mir Əli ilə görüşdüyü səmtdə durar, uzanıb gedən nəhayətsiz qoşa dəmirlərə baxar, baxar, ahəstə səslənərdi.



– Mir Əli! Mir Əli, sənin dalınca gəlmişəm!..

Heç nədən və heç kəsdən cavab gəlməzdi. Gəlinin çağırışı dərin və sirli bir sükut içində əriyərdi. Tənha yerlərin sükutu müdhiş olur. Ağaclar yenə küləyin səmtinə əyilir, quşlar günəşin, havanın feyzindən faydalanmağa can atır, dəniz həmişəki ahəngi ilə çağlayıb durur, torpaq, oxunmuş, lakin hələ layiqincə anlaşılmamış kitablar kimi görünürdü...

İndi, soyuq payız axşamında Leyla yenə səfərə, həmin yerlərin ziyarətinə hazırlaşır. Yüz dəfələrlə axtarıb-tapmadığı, arayıb-görmədiyi Mir Əlinin getmiş olduğuna hələ inanmaq istəmir. Onsuz heç nə boğazından keçmir, zehnən bir dəqiqə də ondan ayrılmır, ayrıla bilmir. Həmişə dolu aparıb, dolu qaytardığı hədiyyə dəsmalını yenə xüsusi sahmanda hazırlayır, yenə bacısı Zibaya belə deməkdən həzz alır.

– Mir Əlinin yanına gedirəm, ev-eşikdən muğayat ol!

Bu zahiri sevinclərin arxasında bir səhra kimi dayanan ümidsizlik onun yaralı qəlbini gəmirir, sanki, ona gülürlər, öz-özünü aldadan bu arvadın ağlına şübhə edirlər. Sanki, bir səs, bütün gücü ilə onun qulaqlarına qışqırır ki: "Haraya gedirsən? Quru çöldə Mir Əli nə gəzir, yorulmadınmı?"

Leyla daxili çırpıntılar içində özünü unudub dayanmışkən, poçtalyon qapıdan bir zərf atıb ötdü.

Leyla quş kimi qapıya atıldı. Zərfi açıb, bərkdən oxudu:

"Hörmətli bacım, Ziba! Salamlar olsun. Tanımadığınız bir əsgərin sizə kağız yazmağından təəccüblənməyin. Mən Mir Əlinin cəbhə yoldaşıyam. Onun söhbətindən sizi tanımışam. Bu saat Tbilisidə 8 nömrəli xəstəxanada yatıram. Sizə deməli vacib sözüm var. Mümkün etsəniz, buraya zəhmət çəkmənizi xahiş edirəm. Ayaqdan salamat olsaydım, bu zəhməti verməzdim. Bacınıza və qohumlarınıza Mir Əlinin və mənim dilimdən salam!

Mürsəl Babayev."

Düzdür, Leyla əvvəlcə məktubu səslə başladı, ancaq ilk sətirdəcə səsini və sürətini dayandırıb, düşüncəyə daldı. "Mürsəl kimdir? Ziba hara, o hara? Mir Əlinin yoldaşı bəs Mir Əlidən niyə yazmasın?.."

Leyla Zibanın məktəbdən qayıtmasını gözləyə bilmədi. Qonşusu

Səriyyənin qızını çağırıb dalınca göndərdi:

– Zibaya deyinən bu saat evdə olsun! Deyinən vacib iş var, bacın səni gözləyir.

Qız o yana getdi. Leyla məktubu başdan-ayağa, ayaqdan-başa təkrar-təkrar oxudu. Hər sözün düzünə mənasını, məcazi mənasını axtardı. Zənnini bir yerə qərarlaşdıra bilmədi:

"Bəlkə, məndən gizlədir, qızın əlaqəsi varmış! Yox, gizli əlaqə saxlayana belə aşkar yazmazlar. Bəlkə bu adamın qıza meyli qonub, gözü düşüb, görüşə çağırır. Yox, yaralının belə şeylərlə uğraşmasına macalı hanı. Elə vicdansız əsgər olarmı ki, bacı dediyi qıza əyri gözlə baxsın. Bəlkə bu tamam ayrı Zibadır, kağızı səhv gətiriblər?.. Yox! Adres-filan yerli-yerindədir. Üstəlik, Mir Əlinin də dostu...

Yaxşı, tutaq ki, bu yazılanların hamısı doğrudur, bu adam bizi Mir Əli vasitəsilə cəbhədən tanıyır. Bəs elə isə nə üçün Zibaya müraciət etsin? Nə üçün dost saydığı Mir Əlinin arvadına bir kəlmə xoş xəbər deməsin?! Buna nə ad qoymaq olar?"

Yarım saat çəkmədi ki, Ziba kitablar qoltuğunda, təngnəfəs, pörtmüş, qızarmış özünü evə saldı.

– Nə var, ay bacı, xeyir ola? Yeznəmdən xəbərin var?

Leyla onun sözünü kəsdi:

– Ay qız, sənin Mürsəl adlı tanışın varmı?

– Mürsəl?

– Mürsəl Babayev!

– Yox!

– Yaxşı fikirləş!

Ziba bacısının simasındakı ciddiyyəti görüb, fikrə getdi:

– Mürsəl, Mürsəl, biri var, bizim yeddinci sinifdə. Elə-belə məktəbdən tanıyıram.

– 7-ci sinif yox ey, əsgər!

– Mən Mürsəl adlı əsgər tanımıram.

– Babayev! Yaxşı fikirləş, tanımasan, sənə kağız yazmaz. Bəlkə bir vaxt olub, sonra yadından çıxıb?

Leyla bunu deyib, zərfi Zibaya verdi. Ziba bacısının son sözündən daha da təsirlənib qızardı. Kağızı oxuyub dodağını büzdü:



– Bu adı birinci dəfədir eşidirəm. Mürsəl kimdir, zad kimdir? Bu necə işdir?

Leyla kağızı onun əlindən aldı. Sanki xəlvət bir söz demək üçün içəri otağa keçdi və Zibanı da çağırdı:

– Bura gəl, söz deyirəm.

Ziba bu işdən bir şey başa düşə bilmədiyindən və bacısının şübhəsindən o qədər qüssələnmiş, tutulmuşdu ki, çırtıq vursan qanı çıxardı. Leyla isə məktubun əsl mənasını anlamışdı. Ona görə də sanki əli hər şeydən üzülüb, əlacsız qalmışdı.

İçəri otaqda ayaq üstə dura bilməyib, diz çökdü:

– Bacım, – dedi, – bu kağız yaxşı kağıza oxşamır. Bilmirəm, fələk başımda nə oyunlar oynayır. Evi, uşağı sənə tapşırıb gedirəm.

Leyla Zibanın səsindən və ahəngindən anladı ki, bacısı Mir Əlidən nigarandır. Salamat adam haqqında belə danışmazlar. İllah da ki dost ola!..

Leyla yarımca saatın içində, yasa batmış kimi, qapqara qaralmışdı. O, aldığı məktuba belə məna verirdi:

"Kağız yazan Mir Əlinin yoldaşıdır. Yəqin, yaman bir xəbərlə gəlib, məndən gizlədir. Zibanı çağırıb, ona demək istəyir..."

Leyla bu zənnini həqiqətə yaxın sayırdısa da,, ürəkdən inanmaq istəmirdi. Düşüncələrinin belə dəhşətli bir ehtimalla nəticələndiyini görüb, bütün vücudu ilə alışıb-yanırdı. Çalışırdı düşünsün ki, bu, düzəltmə məktubdur. Çalışırdı inansın ki, bəzəmə xəbərdir. Yaxud da bu Ziba ayrı Zibadır. Mir Əli ayrı Mir Əlidir...

İntizar və nigarançılıq isə amansız bir qızdırma kimi gəlini taqətdən salırdı. Ürəyi qəfəsdəki quş kimi çırpınırdı.

– Bacım, – dedi, – gedirəm. Gedim, görüm, bəlkə, bədbəxtin başında, dilim-ağzım qurusun, bir iş var...

Bacılar qüssələrini bölüşdürəndə, balaca, iki yaşlı Tofiq də yuxudan durmuş, dinməz-söyləməz səs gələn otağa keçmişdi. Pişik balası kimi qapı ağzında dayanmış, anasının pərişan, müztərib vəziyyətinə baxır, ahəngini dəyişmiş, qəhərli səsinə qulaq asırdı.

– ... Bəlkə, bədbəxtin başında bir iş var!..

Bu söz ağzından çıxar-çıxmaz Leylanın gözü Tofiqin gözlərinə sataşdı. Özünü güclə saxladı, uşağın başını sığalladı.

■ ■ ■

Leyla xəstəxana xidmətçisinə deyəndə ki:

– Mürsəl Babayev!

Xidmətçi soruşdu:

– Qılçası kəsilənimi deyirsən?

Leyla duruxdu:

– Babayev Mürsəli zəhmət çək, çağır!

Xidmətçi öz qəbahətini anlamış kimi, heç bir söz demədən içəri getdi. Beş dəqiqə çəkmədi ki, qoltuq ağacı ilə yeriyən uzun, qalınsaç bir oğlan palatadan çıxıb, qapıya göz gəzdirdi. Birbaş Leyla tərəfə yeridi:

– Bağışlayın, Babayevi axtaran sizsiniz?

– Bağışlayın, Mürsəl sizsiniz?

– Mənəm!!! Siz yəqin ki, Ziba xanımsınız!

– Bəli!

– Xoş gəlmişsiniz! – Bunu deyib Mürsəl görüşmək üçün əlini Leylaya tərəf uzatdı. Leyla da ona əl verdi.

Mürsəl Leylanı palatadan bağçaya baxan pəncərələrinə tərəf apardı. Skamyalardan birini göstərdi.

– Buyurun, əyləşin, – dedi.

Leyla oturan kimi əlindəki sovqat bağlamasını yaralının qabağına qoydu:

– Bağışlayın, – dedi, – xəstə yanına gəlməyə adam xəcalət çəkir. Bir-iki dənə fətir gətirmişəm. Layiq olmasa da...

Mürsəl başını aşağı salmış halda:

– Var olun, – dedi, – burada bizə hər şey verirlər. Ehtiyacımız yoxdur, zəhmət çəkməyin!

Deyəsən, Mürsəl gəlinin uzaq yol gəldiyindən və sifətindəki iztirabdan həyəcan çəkdiyini duymuşdu. Dərhal mətləbə keçdi:

– Ziba xanım, – dedi, – yəqin ki, məktubu almısınız. Mən onu qəsdən sizə yazdım. – Mürsəl başını aşağı saldı. İri və uzunbarmaqlı əllərini bir-birinə çataqladı, sanki əsəblərini ələ almaq üçün daha nəsə düşündü. Bir qədər sükutdan sonra ifadəsinə başqa ahəng verdi: – Dünyada heç dostun, yaxşı dostun olmasın! Bu bir dərd deyil! Dərd odur ki,



beləsi ola! Ünsiyyət bağlayasan, sonra da... Ziba xanım, görürsünüz, sağ qıçımı itirmişəm. Bir dəfə kəsiblər, bəlkə yenə kəsdilər. Buna mən dözərəm, iş igid başına gələr. Amma Mir Əli, yox! O gündən elə bilirəm, bir tərəfimi çapıblar. Ziba xanım, Mir Əli ayrı oğlan idi. Onun üçün biz nə qədər qəm çəksək, azdır. Sizdən xahişim budur ki, Leyla xanım bilməsin. Mən onların məhəbbətinə bələdəm, qızı da, uşağı da bədbəxt edərsiniz, bu sirri heç olmasa, dava bitənə qədər saxlayın! Deyin ki, bir xəbər yoxdur, qabaq xətdədir!..

Mürsəl bir tərəfdən Zibaya nəsihət, tapşırıq verir, o biri tərəfdən cəbhədəki mənzərəni xatırına gətirirdi.

Hissələrimiz düşmən mövqelərinə lap yaxınlaşmışdı. Hücumda onu dəstənin qabağında, "irəli" deyə qışqıranda gördüm, başından dəyən güllə zireh papağını kənara atdı, yazıq üzüüstə düşdü. Mən pulemyotu idarə edirdim, qoyub gedə bilmədim. Onlardan sonra biz yeridik. İki saat sonra mən necə yaralanmışamsa, heç nədən xəbərim olmayıb, gözümü açıb özümü sarğı məntəqəsində gördüm.

Mir Əli qəhrəman idi, qəhrəman kimi də Vətən borcunu verdi. Bizim vəzifəmiz isə onun intiqamını almaq, heç bir zaman onu unutmamaqdır?..

Mürsəl sözünü tamamlamadan cibindən balaca dəsmala bükülü bir şey çıxartdı:

– Buyurun, – dedi, – Ziba xanım, mərhumun saatıdır, sanitarlar mənə verib, qəbz aldılar. Sən bunu, əlbət ki, Leyladan gizlətməlisən! Sizə zəhmət verməkdən qəsdim bu idi.

Mürsəl belə bir xəbərdən sonra Zibanın simasına nəzər saldı, birdən oturduğu yerdən dik atıldı, qız çoxdan özündən gedib, huşsuz düşmüşdü. Mürsəl bacıları səslədi, həkim istədi. Leylanı götürüb palataya apardılar. Mürsəl isə dediyinə peşman oldu.

## II

Mürsəl Mir Əlini od içində tərk etmişdi. Daha doğrusu, tərk etməyə məcbur olmuşdu. Ayılandan sonra sarğı məntəqəsinə hay salıb soraq-

laşmışdı. Belə bir yaralı tapılmadığından, yoldaşının ölümünü yəqin etmişdi. Ancaq Mir Əlinin vəziyyəti Mürsəl düşündüyü kimi yox, bir az başqa cür idi. Həmin gün Mir Əli başından ağır yaralanandan sonra top gülləsinin açdığı çalanın kənarında vücudunun yarısı torpaqda örtülü halda, huşsuz düşüb qalmışdı. Sərin yay gecəsinin nəsimi onun əsəblərinə toxunanda oyanmış, özünü meyitlər arasında görmüşdü.

"Çıxmayan cana ümid çoxdur" demişlər. İnsan, vücudundakı zəngin həyat imkanlarını ancaq ağır xəstəlik məqamında duyur. Mir Əli gözlərini açıb aydın fəzaya baxanda, güman etdi ki, axır nəfəsidir, hər şey bitmişdir. Bu baxış yalnız sönmək üzrə olan həyat qığılcımının son parıltısıdır. Bunun ardınca zülmət gələcək, ağırlaşan göz qapaqları əbədi bir qaranlıq gətirəcəkdir... "Of! Həyat!"

Mir Əli vücuduna hərəkət vermiş, tükənməkdə olan taqətini diz qapaqlarına toplayaraq, şərqə – səngərə tərəf yollanmışdı. Hər işıldayanı su bilib yönəlmiş, ağaclar altında sərin torpaq arayıb, sinəsini sürtmüşdü...

Bir gün sonra sanitar əsgərlər Mir Əlini yarımcan halında meşədən tapıb aparmışdılar. Ay yarım məntəqədən-məntəqəyə, xəstəxanadan-xəstəxanaya keçirilərək, getdikcə arxanın dərinliklərinə aparıldı. Son bölgü məntəqəsində yarası uzun sürənlərin Novosibirsk şəhərinə göndəriləcəyini bir şəfqət bacısından öyrəndi, həkimlərdən və xəstəxana müdirindən xahiş edib, özünü vətəninə – Bakı xəstəxanalarına yollanan qatara saldı.

Eyni gündə, eyni saatda şimaldan cənuba gələn qatar Mir Əlini gətirdi; cənubdan şimala gedən qatar isə Leylanı və Mürsəli gətirirdi.

Canbir qəlblə olan bu üç adamın, bu üç əzizin bir-birindən xəbəri yox idi. Müharibə qəfildən qopan bir rüzgar kimi, onları ayırıb o qədər uzağa atmışdı ki, heç biri o birisinin halını təsəvvür edə bilmir, sağlığına xatircəm ola bilmirdi.

Uzun ayrılıqdan və təhlükələrdən sonra doğma yurduna, öz ailəsinin yanına, Leylanın, Tofiqin yanına qayıdan Mir Əlinin halını mən yazmasam da, oxucu bilir.

Tbilisi şəhərində Mürsəli görəndən sonra Leylanın necə pərişan hala düşdüyü, nə iztirab içində qayıtdığı da oxucuya məlumdur.



Mürsəl isə Leylanı belə vəziyyətdə tək buraxa bilməmişdi. Şikəst olsa da, iki günlüyə icazə alıb, özü gətirmişdi.

Mürsəl tanış olduğu, müşayiət etdiyi qızı hələ də Ziba bilir, Ziba çağırırdı. Ona görə də təsəlli verir, evdə, Leylanın yanında ah-zardan tamam əl çəkməsini xahiş edirdi. Deyirdi, ancaq bunun mümkün olacağına özü də inanmırdı. Yəqin etmişdi ki, fəlakətli xəbərdən bulud kimi tutulan bu matəmli qız Mir Əlinin evinə sakitliklə girməyəcək, bəlkə də bütün qüssələrini ifadə edən yanıqlı bir fəryadla yeddi qapı-qonşunu başına yığacaqdır.

Bu vəziyyəti gözü önünə gətirən Mürsəl heç evə, Leylanın yanına getmək istəmirdi.

– Ziba bacı, – deyirdi, – mənim sizə getməyim yaxşı düşməz. Ürəyim pisdir. Mərhumun uşağını görsəm, özümü saxlaya bilməyəcəyəm. Gəlin, siz rüsxət verin, mən vağzaldan qayıdım, onsuz da...

Bu xahiş Leylanın qəlbinə dəydi:

– Mir Əlinin sizin kimi əziz dostu qapımızı açmaq istəmirsə, bundan sonra yoluxub-yoxlayanımız kim olacaq?!

Mürsəlin deməyə sözü qalmadı.

Onlar vaqondan düşüb evə yollananda səhər yenicə açılırdı. Şəhər təzəcə yuxudan qalxır, günəş yenicə Xəzərdə çimib çıxır, fəzalar seyrinə hazırlaşırdı.

Vağzalın kənar tərəfində dayanan səhiyyə maşınları vaqonlardan düşən xəstələri qəbul edirdi. Mürsəl bu maşınlarda o qədər uzanıqlı qalmışdı ki, onları görəndə gözü ağrıyırdı. O bilsəydi ki, əziz dostu və həlak olmuş saydığı Mir Əli də bu xəstələrin içindədir, sevincindən qışqırıb, nə bilim, nə deyərdi.

Səhiyyə maşınının yollanmasını gözləyən və şəhərə gələnlən içində, demək olar ki, ən sevincəyi olan Mir Əli vaqonlardan düşüb tramvaylara tələsən camaata baxırdı. Səki dolusu izdihamla yeriyənlər içində bəlkə də, onun tanışları, qohumları, ürəyinin bəndi – Leylası var idi. Mir Əli də bunu görmədi, seçmədi. Ancaq Mir Əlinin qəlbi döyünürdü. Xəstəxanaya tələsirdi. O, briqadirə yanaşıb, icazə istəmişdi. "Evimizə dəyməsəm, ailəmi görməsəm, mən nə xəstəxanada yata bilərəm, nə də müalicə olunaram. İkicə saat mənə vaxt!"

Briqadir də:

– "Get, – demişdi, – ancaq vaxtında qayıt!"

Maşın xəstəxana qabağında dayananda birinci çıxan başısarıqlı Mir Əli oldu. Qolunda şinel, başı, yaxası açıq, elə sevincək və sürətlə evlərinə yüyürürdü ki, deyərdin, kişinin yağı daşır. Ev qapısına çatanda baş Mir Əlinin, baş Leylanın! Bunun əlində şinel, onun əlində çamadan...

– Leyla!

– Mir Əli!

– A qız!

– Səsinə qurban!

Mir Əlinin səsi Leylanın çöhrəsini örtən qəm və matəm pərdəsini yırtdı.

Sevgililər qucaqlaşdılar. İçəridən, Zibanın, sonra da Tofiqin səsi eşidildi. Uşağı tələsik oyatmışdılar. O, yalınqat köynəkdə balaca yumruğu ilə yuxulu gözünü ovaraq qapıya qaçır və qışqırırdı:

– Atam gəldi!

Tofiq – o şirindil uşaq o gün qələbə bayrağı kimi əllərdən düşmədi, başlarda gəzdi.

*1943*



# MUŞTULUQ

Bir ay olar ki, Əşrəf burada, şəhərdən bir az kənarda düşərgədədir. Birinci dəfədir ki, anası ona icazə verib, yola salmışdır. Birinci dəfədir ki, Əşrəf öz evlərində yatmır.

Bura "El bağı" deyilən gözəl bir yerdir. Ağaclar baş-başa verib, hər tərəfə ətir səpilib, arxlarda sular pıçıldaşır, ağaclarda quşlar səslənir. Günəş – göylər sultanı güclü günəş sanki, aşağı enib, lap yaxına gəlmişdir. Uşaqlar çox vaxt qolsuz bir köynəklə yaşıl ot üstündə ayaqyalın gəzirlər.

Tərbiyəçi qadın hər səhər gəlib, uşaqların yeməyinə baş çəkir, onları yığıb yamaca, uca çinar ağacının kölgəsinə söhbətə aparır.

Əşrəf bu il ikincini qurtarmışdır. Əlində tərifnamə kağızı da var. Anası onu gətirəndə tərifnaməni də götürmüşdü, götürən kimi də tərbiyəçiyə vermişdi. Tərbiyəçi də Əşrəfi həmişə mehriban dindirər, həmişə onun adını çəkərdi. Əşrəf də tərbiyəçinin bir sözünü iki etməzdi, suallarına cəld cavab verər, onun yanında ucadan danışmazdı.

Tərbiyəçinin söhbətləri də gəzmək kimi ləzzətli idi. O, havadan,

sudan, ağaclardan, çiçəklərdən danışardı. Quşların, kəpənəklərin adını da deyərdi. Şəhərdən, fəhlələrin işindən söhbət salardı. Bir də görürdün, sözü gətirdi cəbhə üstünə. Bu yerdə Əşrəf də, bir çoxları kimi, tərbiyəçiyə yaxın oturar, gözünü onun ağzından ayırmazdı. Çalışardı ki, sözləri dal-qabaq salmasın, hamısını yerli-yerində öyrənsin, anası gələndə ona danışsın. Bir gün tərbiyəçi yenə cəbhədən söz açdı:

– Uşaqlar, – dedi, – biz gərək qəhrəmanlarımızı tanıyaq. Mən sizə bir qəhrəmandan danışacağam. O qəhrəman üç tank vurub, düşmənin bir dəstə qoşununu qırıb.

Uşaqlar əl çaldılar. Kim isə soruşdu:

– Müəllim, orden alıbmı?

Bir başqası tərbiyəçidən qabaq cavab verdi:

– Çoxdan! Əlbət ki, alıb!

Tərbiyəçi qələmi stola vurub, sükut yaratmaq istədi:

– Qulaq asın, qulaq asın, hamısını danışacağam. Deməli, üç tank vurub, məhv edib. Düşmənin bir rota qoşununu qırıb. O qəhrəmanın familiyası Ağayevdir.

Əşrəf yoldaşı Nüsrətə pıçıldadı:

– Mənim atam da Ağayevdir.

Tərbiyəçi dedi:

– O qəhrəmanın adı İlyasdır!

Əşrəf yenə pıçıldadı:

– Mənim atam da İlyasdır.

Tərbiyəçi davam etdi:

– Ağayev İlyas qəhrəman sovet topçusudur.

Əşrəf Nüsrətə dedi:

– Mənim atam da topçudur.

Nüsrət ona etina etmədi:

– Nə olsun ki, topçudur, qəhrəman ki deyil.

Əşrəf dinmədi. Tərbiyəçi qəzetə baxıb, qəhrəman İlyas Ağayevi tərifləyirdi. Əşrəf isə fikirləşirdi ki: "Atama yazacağam. Yazacağam ki, o biri İlyaslar qəhrəman olublar, sən də ol, o biri Ağayevlər üç tank vurublar, yaz görək, sən neçəsini vurmuşsan? Ata, sən də topunla vur! Faşist tankını vur, dağıt! Vura bilməsən, butulkanı doldur neftlə, at üstünə!



Müəllimimiz bizə öyrədib. Böyüyəndə tankı biz yandıracağıq. Limonad butulkalarımızı yığıram. Tank vursan, müəllimimiz səndən də danışar. Uşaqlara səni təriflər, yaxşı müəllimdir..."

Əşrəfin xəyalında atasına məktub yazmaq, onunla danışmaq idi. Birdən tərbiyəçinin uca səsini eşitdi:

– Budur, qəhrəman İlyas Ağayevin şəklinə baxa bilərsiniz! Topun dalındakı odur!

Bunu deyib tərbiyəçi dörd bükülmüş qəzeti göyə qaldırdı. Uşaqlara göstərərək skamyaların arasını gəzdi. Şəklə baxan kimi, Əşrəfin ürəyi döyündü, ixtiyarsız qəzeti tərbiyəçinin əlindən aldı, ayağa qalxdı, bərkdən qışqırdı:

– Müəllim!

Uşağın yanaqları pul kimi qızardı, gözləri ulduz kimi parıldadı, sifəti sevinc təbəssümü ilə işıqlandı. Əşrəf gözünü qəzetdən ayırmır, baxır, qəzeti heç kimə vermir, heç nə demirdi. Tərbiyəçi bir şey duymuş kimi, soruşdu:

– Əşrəf, yoxsa tanıyırsan?

Əşrəf gözünü şəkildən ayırmadan cavab verdi:

– Müəllim, atamın şəklidir.

Müəllim inanmaq istəmədi:

– Atan hardadır ki?

– Davada!

– Sənin atan piyadadır, atlı?

– Piyada deyil, topçudur.

Ad və familiyasını yoxlayandan, ata ilə oğlun sifətində bir oxşayış tapandan sonra tərbiyəçiyə yəqin oldu ki, söhbət Əşrəfin atası haqqındadır. Uşağı qucaqlayıb, stol üstünə qaldırdı və:

– Mübarək olsun, Əşrəf! – dedi. – Sən indi qəhrəman balasısan!

Onun əlini sıxdı, nə isə demək istəyirdi. Əşrəf əlində qəzet hoppanıb, müəllimdən xahiş etdi:

– İzin ver, anama deyim!

Müəllim əvvəl icazə vermək istəmədi. Sonra gördü ki, bacarmayacaq. Uşaqları dəstəbaşıya tapşırıb, Əşrəflə şəhərə gəldi.

Onlar qapıdan içəri girəndə Firuzə xanım beşiyi tərpədib, körpə-

sini yatırırdı. Əşrəf qışqırdı:

– Ana, dur ayağa, atam qəhrəman olub!

Firuzə xanım gülümsəyir, əlini ağzına qoyub deyirdi:

– Uşaq yatıb, ay Əşrəf, nə xəbərdir!

Əşrəf anasının bu böyük xəbəri etinasız qarşılamasına qızdı, onun qolundan tutub çəkdi:

– Dur, tez ol, dur!

– Ədə, hara çəkirsən məni?

– Tez ol, tez ol, gedək, qəzetə xəbər verək!

Tərbiyəçi onlara baxıb dedi:

– Əşrəf, qəzet sənə xəbər verir, ya sən qəzetə?

Əşrəf fikirləşib, əlindəki qəzetə baxanda özü də güldü.

*1943*



# TİTRƏK BİR SƏS

Ev idarəsindən bizə bir uşaq gətirdilər:

– Buna da siz atalıq edin. Qərb vilayətlərindən çıxarılmış yetimlərdəndir. Valideyni müharibədə həlak olmuşdur.

Bu, altı yaşlı, qıvrım saçlı, qarayanız bir oğlan idi. İri girdə gözləri, nazik qələm qaşları, balaca sifəti var idi. Astanada dayanmış, sanki, içəri gəlməyə çəkinir, izin istəyirdi.

Mən onun qolundan tutub, stol başına gətirdim. Mehriban dil ilə dindirməyə, əyləndirməyə, payız səması kimi tutulmuş çöhrəsindən kədər buludlarını dağıtmağa çalışdım. Süfrə açdılar, xörək gətirdilər, uşaqlar da tökülüb gəldilər.

– Bunlar da, – dedim, – sənin qardaşların, bacıların olacaq, bir yerdə oynayacaq, oxuyacaq, gəzəcəksiniz. Ürəyin nə istəsə de, nə qorx, nə utan! Yaxın otur, nahar elə!

Uşaq dinmir, oturduğu yerdən tərpənmirdi. Əllərini dizi üstə qoyub baxır, sanki, bütün bu təklif və təriflərin bitməsini gözləyirdi.

Mən onun sifətindən, mənalı sükutundan aşkar görürdüm ki, nəcib ailədə, qayğılı bir ata sayəsində, ana nəvazişləri ilə bəslənmişdir. An-

ladım ki, xəcalət çəkir, uşaqları da çağırdım, biz hamımız çıxdıq. Qoy, dedim, özünü sərbəst hiss etsin.

İntizardan narahat idim. Otağımda bir qonaq yox, nadir bir kitab qoyub çıxdığımı zənn edirdim. Nə qədər çətin olsa da mən onu oxuyacağam. Orada kiçik bir insanın zərif qəlb aynasında qüssə, iztirab, həsrət və sevinc dolu macəra var... Xəbər tutacağam...

Bir az sonra uşağın yanına qayıtdım. O, hələ süfrəyə əl uzatmamışdı, əvvəlki halında, küncə qoyulmuş günahkar uşaqlar kimi başıaşağı, sakit dayanmışdı. Mənim gəlişimi duyub qapıya tərəf döndü. Çarəsiz və yalvarıcı bir səslə dedi:

– Dayı, ağlamaq olarmı? Ağlamaq istəyirəm!

Mən bu yerdə nə deməli, nə etməli olduğumu bilmədim. Gözüm yaşardı, qəhər məni boğdu. Hansı bir hiss ilə isə sinəm qalxıb-endi. Ürəyim parçalandı. Yetimi birdən-birə qurulu otağa gətirdiyimə peşman oldum:

"Bir cinayət işləmişəm, uşağın səadətini, əziz, ərköyün vaxtını, ağ günlərini yadına salmışam." Cumub uşağı qucağıma aldım. Eyvana qaçdım, qapıya qayıtdım, dəhlizə çıxdım. Sürətlə yeriyir, bir-bir pəncərələrdən boylanıb keçirdim. Nə axtarırdım, nə məqsədində idim? Özüm də bilmirdim. Ona təsəllimi verirdim? Yox!

Mən səslənmək istəyirdim, ancaq bacarmırdım. Daxildən təmkinli və titrək bir səs mənə deyirdi: "Öyrət, onu öyrət! Öyrət ki, bu evin böyükləri olmayan bir gün gəlsə, qoy ağlamasın, uşaqlar birləşsinlər. Gördüklərini, gücü çatan hər şeyi götürsünlər. Bu bıçaqlar, çəngəllər, qayçılar, ət dəhrəsi, qablar, stəkanlar, qədəhlər, büllur vazalar, güldanlar, lampa şüşələri, bu çaynik, patefon, yazı cihazları, stol güzgüləri... səadətimiz üçün nə varsa, hamısı, qoy bu şeylər daş-çınqıl görünsün! Qoy bunlar hamısı qapımıza yönələn yadların başına çırpılsın. Balalara öyrət ki, ataların vəsiyyətidir: düşmən qarşısında göz yaşları axmasın, düşmən başında qəzəb şimşəkləri çaxsın."

*1944*



# ƏR VƏ ARVAD

Qarovul batalyonunda üç aydan artıq idi ki, təlim keçirdik. Bir gün komandir məni çağırdı:

– Sənə, – dedi, – tapşırıq var. Şəhərə adam aparacaqsan!

Apardıqlarımın əsir olduğunu biləndə sevindim. Nədənsə mən bunları, Hitler ağlına uyub gələn bu sarı qulları görmək istəyirdim. Alman dilini bilməsəm də, onlarla maraqlanırdım. Güman edirdim ki, onları anlamaq üçün dindirmək o qədər də lazım deyil. Sifətlərindən çox şey oxumaq olar.

Birinci səfərdən sonra daha bir də mən öz batalyonumuza qayıtmadım. Sənətim cəbhədən arxaya, düşərgəyə əsir daşımaq oldu. Almanların sifətində axtardığımı da oxudum. Onlar göygöz, uzun və iri çənəli, müstəqim və yekə burunlu, qaşqabağlı, yerəbaxan adamlardır. Gözlərindən əlamət yağır, deyirsən, bu, əlində bıçaq, kəsməyə getdiyi ətliyi əlindən qaçırmış və bir də tutacağından ümidini kəsmiş bir qəssabdır.

Vaxtilə maraqlandığım əsirlər indi mənə eyni ölçü və qəlibdən çıxmış, fris adlanan kibrit qutuları kimi bir-birinə oxşar, adi, quru görünür-

lər. Mən onların yalnız sayını yadımda saxlayıram.

Ancaq birini və onunla əlaqədar bir mənzərəni unutmamışam, unutmayacağam.

Mən bütün müharibə boyu heç vaxt bu qədər işləməmişdim. Biz hər vasitədən, hər dəqiqədən istifadə edib əsirləri lazımi yerlərə gətirdik. Əsir də ki qurtarmırdı. Göydən yağan qarın sayı vardı, ön cəbhədən bizə tərəf ötürülən əsirlərin sayı yox idi. İndi mən düşmən ölüsünü əsirdən faydalı sayırdım. "Heç olmasa, – deyirdim, – bu lənətəgəlmiş oğlu bizə başağrısı vermir."

Şiddətli yanvar şaxtası kəsib tökürdü. Elə bürünmüşdük ki, ancaq gözlərimiz işıldayırdı. Tonyarımlıq maşında 11 nəfər əsir gətirirdik. Yol qarovulu, deyəsən, təkər səsindən bizi tanımışdı. Maşını dayandırdı. Yeni və topal bir alman soldatını maşına çıxartdı, getməyimizə icazə verdi. Topal özünü maşının küncünə yıxdı. Mən dil bilməsəm də, dərhal soruşardım ki: "Ay həpənd, bir qıçla Berlindən bura gəlmisən, bəlkə sənin iki qıçın olaydı, onda neylərdin?" Adətən, əsir düşənlər yemək istəyir, soyuqdan şikayətlənir, yalvarırlar. Topalda bunu görmədim. O, yalın olsa da, aylardan bəri qırxılmamış üzündə və sıx saqqalında buz bağlansa da, əzab çəkdiyini hiss etdirmirdi. Güman edirdim ki, bu, möhkəmlikdən, ya məğrurluqdandır. Sonra bildim ki, bunların heç biri deyil, topalın işlərində ayrı sirr var.

Topal kürəyini maşının divarına söykəmiş, bir qıçı ilə çöməltmə oturmuş, ayıq və iri gözlərini mənim üzümə dikmişdi. Belə baxışları biz tez seçirik və gözdən qoymuruq. Ürəyimə gəldi ki: "Bəlkə bu hərif məni xamlamaq, qaranlıqda cumub, əlimdən silahı qapmaq istəyir. Bəlkə o, özünü maşından yerə atmaq niyyətindədir."

Bunlar inanmalı zənlər deyil. Tək tutulmuş topal bir soldat nəyə ümid edib silaha tamah sala bilər? Özünü maşından atması isə ölümü satın almaqdır. Əksinə, bəlkə də onun belə ayıq-sayıq dayanması sevincdəndir. Komandirinin əlindən qurtarıb, qurbağa ilan əlindən qurtaran kimi, görəsən, haçan qollarını qaldırıb, özünü bizim səngərə atıb.

Olmadı, uzun və şaxtalı yolda topal məni rahat buraxmadı. Hətta ona müraciət edib aclığını, papirosdan korluq çəkib-çəkmədiyini soruşdum. Başı ilə rədd etdi.

Maşınımız artıq gurultu və atışma səslərindən uzaqda, demək olar ki, dərin arxada idi. Gecənin və qışın lap oğlan vaxtı idi. Qarı xışıldadaraq, ötən maşını və arabir öskürək səslərini nəzərə almasaq, kainat donmuş buz parçasına bənzəyirdi. Qəhrəmanlarımıza arxalanaraq, səssiz yatan sovet kəndləri sanki yenicə azad olduqları faşizm zülmünün acılarını unutmaq üçün dincəlirdilər. Bu ağaclıq həyətlər içində, kirəmitli evlərdə yaşayanları xəyalıma gətirib, ürəyimdə deyirdim: "Dincəlin, dincəlin, analar, atalar, balalar! Üstümüzə gələn yağıları tutmuşuq, budur, mənim qarşımda yazıq-yazıq dayanıblar. Sovet qanunu icazə versəydi, bu gecə, elə lap bu saat mən hamımızın acığını, keçirdiyiniz təhlükəli günlərin, yuxusuz gecələrin, yanan xanimanların, qarətlərin heyfini, öldürülən ata və oğulların hamısının qanını alardım..." Onlar – cəbhəyə xidmət üçün bütün günü zəhmət çəkib, tər tökən sovet kəndliləri mənim bu xitabımı eşitməsələr də, arxayındırlar. Onlar öz talelərini Kommunist partiyasına, Stalinə, Qızıl Orduya tapşırandan bəri fədakar çalışmağa, arxayın və qayğısız dincəlməyə adət etmişdilər. Ehtimal ki, onlar bu saat mənim əsir aparan maşınımın səslərini eşidirdilər. Ürəklərinə ancaq bu gəlir: "Əsgərlərimizdir, nə lazımsa, edirlər."

Topal rahatlanmırdı. Ayağını qabağına qoyub, qurdalanırdı. Ondan sorğu-sual edir, ona yalvarır, ya canını aradan çıxardığı üçün təşəkkürmü edirdi? Bəlkə don vurmağından qorxurdu, şaxta kəsik yerə daha bərk təsir edir. Bu adam kəsik qıçının yerini tutmalı, sızıldamalı idi. Soyuqdan qorunanlar şinellə ayaqlarını örtür, saman içinə soxulurdular, Topal isə ayağını qabağa qoyub, nə isə qurdalanırdı. Mən əyilib işarə ilə ondan soruşdum: "Nə olub ayağına? Bəlkə döyənəyin-zadın var?" Tısbağa başını qınına çəkən kimi topal dərhal qıçını altına çəkib gizlətdi. Elə mahir oturdu ki, kənardan baxan deyər: "Yazığın iki qıçı da kəsilib." Bəlkə qorxudan elədi? Mən onunla artıq məşğul olduğumu qəbahət bilib, özümü danladım: "Şikəst adamdır, – dedim, – nə işin var!" Üzümü o biri yana çevirdim, topalı öz öhdəsinə buraxan kimi dayandım. Yarım saat çəkmədi ki, yenə topalın qurcuxduğunu sezdim. Silaha söykənib altdan fikir verirdim. Bu dəfə topalın qıçı qabağa çıxmamışdı. Sağ əli da-

la getmişdi, nə isə qurdalanır, saman xışıltısı içində hərdən ayaqqabısının altından üzülən mıxların səsi təkrar olunduqca, hərif ara verib, mənə və ətrafındakılara baxınırdı. Artıq topalın nə ilə məşğul olduğu mənə məlum idi. İşarə ilə qarovul yoldaşımı çağırdım. Hərə bir yandan tutub, topalın qollarını sarıdıq, sonra çəkməni çıxarıb yoxladıq. Padoş altından bir büküm kağız çıxarıb, fənər işığında baxdıq. Alman hərfləri ilə yazılmışdı. Yoldaşım almanca bilsə də, heç bir şey demədi. Yəni, axıra qədər oxumağa macal da olmadı. Kağız içindən bir cüt mirvari qaşlı qızıl sırğa çıxdı. Yoldaşım kağızı büküb hamısını mənə tapşırdı: "Bunu – dedi, – uzağa aparmaq lazım deyil, səhra xəstəxanasına təhvil verərsən..."

Deyəsən, topal müalicə olunası idi. Ürəyimdə dedim. "Bu əsir bizə ucuz başa gəlməyəcək, qorx ki, həkimlərdən qıç iddia eləyə!" Səhər açılhaaçılda G. şəhərindən on iki kilometr aralı, səhra xəstəxanasına getmək üçün biz topalla düşməli olduq. Topalı qabağıma qatıb, aparıram. Əlbəttə ki, padoşun arasından yalnız kağızlar çıxsaydı, bu adamın böyük xəfiyyə, ya kəşfiyyat işləri ilə məşğul olduğunu zənn edərdim. Sırğaları görən kimi hərifin "fəziləti" məlum oldu. Gündə tutduğumuz qarətkarın biri də budur. Sırğaları da ya qızına, ya arvadına, kim bilsin, bəlkə də, bir qıçı ilə təşrif aparacağı Berlin fahişəxanalarında ilk rast gəldiyi mütrübə verəcək idi. Bu gümandan, ya hansı bir duyğudansa darıxırdım. Sənətim mənə qəribə gəldi. Tez qayıtmaq arzusu ilə yeyinlədim, topalı da tərpətdim. O, qoltuq ağacı ilə iri addımlar atır, nə buzdan, nə qardan qorxurdu. Sanki mənim süngümdən qurtulmaq üçün bacardıqca yeyin, bacardıqca aralı gedirdi:

– Urus!

Mən bu səsi eşidəndə döyükdüm. Çağıran kimdir, haradan, kimi çağırır! Cığır kimi dar yolda heç kəs yox idi.

– Urus, səndən xahiş edirəm!

Daha da təəccübləndim. Topal rusca bilirmiş!

Mən ona geri dönməyə və dayanmağa icazə vermədim. Topal yerişinin sürətini və ahəngini dayandırmadan xahişini mənə söyləyirdi. Üç addım aralı arxada getsəm də, topalın sözlərini yaxşı eşidirdim. Bu anda kənardan baxan deyərdi: "Topal arxadakına yox, yanınca gedən görünməz bir adama xitab edir."

– Rus, səndən xahiş edirəm ki, məni özün öldür!

– Faşist, buna mən boyun olaram, ştabda işinə baxarlar. O dünyalıq olsan, xahişinə əməl olunar!

– Sırğalar sənin halalın, gəl sən məni öldür.

Əvvəl gülməyim gəldi, sonra da hirsim tutdu:

– Belə danışsan, – dedim, – avtomatla cavab alacaqsan! Meyitini cığırda qoyacağam!

Mən çaxmağı tərpədəndə topal diksindi, geri baxıb yalvardı:

– Əl saxla, qələt elədim!

Mən topalı daha da yeyin getməyə, susmağa məcbur etdim.

Xəstəxanaya çatanacan o, nə bir kəlmə danışdı, nə öskürdü, nə də asqırdı.

Əsiri həyətdə, darvaza ağzında saxlamışdım. Təhvil gözləyirdim. Başı sarıqlı bir qadının "Vaqner" deyə qışqırıb, həyətə atıldığını gördüm. Topal bu səsdən diksindi. Almanca nə isə, tələsik bəzi sözlər dedi və qadını özündən kənar etməyə çalışdı. Nəzarətçi qadını tutub, içəri apardı. Mən də topalı kənara çağırıb saxladım. Beş dəqiqə çəkmədi ki, xəstəxana rəisi çıxdı. Mən əsiri də, onun ayaqqabısının altından çıxan şeyləri də təhvil verdim. Bildiklərimi danışdım, qayıtmağa icazə istədim. Rəis mane oldu:

– Dayanın, – dedi, – bu mətahınız bizə lazım olmayacaq. Sabaha qədər gözləyin, bəlkə aparmalı oldunuz.

■ ■ ■

Mənə bir gecə istirahət verilmişdi.

Dünyada çox ləzzətli şeylər var ki, adam onların qədrini ancaq əldən çıxanda bilir. Əsgərlikdə, cəbhə həyatında yuxudan alınan ləzzəti heç şeydən almaq mümkün deyil. Yuxu həsrətlə adı çəkilən şeylərdən biridir. Doğrudur, topalın taleyi ilə, onunla görüşə gələn yaralı qadın ilə, rəisin qəbul etmək istəmədiyi "mətah" ilə maraqlanırdım. Bilmək istəyirdim ki, görəsən, bu nə əhvalatdır. Tutduğumuz adam nəçidir? An-

caq yuxu, istirahət bu marağıma üstün gəldi. Qarovul otağında başımı əleyhqaz çantasının üstünə qoyduğumu bildim, bir də səhər qarovul rəisinin səsinə oyandım. Xəstəxana siyasi işçiləri topalın xasiyyətnaməsini müəyyən etmişdilər. Sən demə, həmin bu topalın adı Vaqnerdir. Özü Berlində eses deyilən jandarm dəstələrində "adam döymək vəzifəsində" çalışarmış. Sonra Hitler onu Stalinqrada göndərmişdir ki, orada döyülməli adamlar çoxdur, arvadı – həmin bu başı sarıqlı qadın onu davaya yola salanda çox tapşırıqlar vermişdi:

– Vaqner, – demişdi, – kimi döyəcəksən, çoxmu, azmı döyəcəksən, mənə dəxli yoxdur. İstəyirsən, gündə yüz adam döy, öldür. Bundan xanımına bir şey çıxmırsa, zəhmətin hədərdir. Yeddi ildir sənin evində arvadam, bu yeddi ildə azı bir yeddi yüz adam döymüsən, çoxunun nəfəsini kəsmisən, mənə nə mənfəəti çıxıb? Söz olanda da bəhanə gətirirsən ki: "Dustaqdır, dustaqdan nə qopardım!" Di buyur, bu da əsir, bu da urus! Gedirsən. Qulluğun öz yerində, evinə, arvadına da bir gün ağla! Bax, bu mənim üst-başım, bu da boyun-boğazım. Üzüyə, sırğaya, saata həsrətəm. Daha bu gündə də məni bəzəməsən, bizimki getdi! Açığını deyirəm, cəbhədən mənə hədiyyə göndərməsən, sənə dua eləməyəcəyəm. Allah səni partizan gülləsindən qorumayacaq!

Vaqner arvadına vədə vermişdi:

– Mariya! Mənim əlləşdiyim, çarpışdığım hamısı sənin üçün deyilmi? Özümə qalsa yeddi yüz nədir, yeddi adam döyüb çörəyimi çıxardaram. Sənin güzəranını yaxşılaşdırmaq, tələblərini ödəmək üçün bu peşəni tutmuşam. Doğrudur, indiyəcən korluq olub, amma daha bundan sonra yox! Odur, qonşumuz basıb Asiyanın lap sərhədlərinə gedib. Oralarda o qədər yağlı adamlar var ki, Allah canıma dəyməsə, kötək altında hamısının dərisini soyacağam. Sənin bir ayağın poçtda olacaq! Həftədə bir bağlama alacaqsan! Parçasından, qızılından, qumaşından... Rusiya dəryadır – yemək, dağıtmaqla qurtaran deyil, kefini kök elə!

Bu söhbətlər Mariyanın ürəyinə yatmışdı. Ərinin sinəsinə yaslanmış, əzizləmişdi:

– Bir cüt qızıl sırğa göndərəcəksənmi?

– Mütləq taparam.



– İpək parça da istəyirəm.

– Arxayın ol! Stalinqrad Özbəkistanın qapısıdır. Özbəklərin ipəyini sən də geyməyəcəksən, bəs kim geyəcək?!

– Saatsız qayıtma ha!

– Saat nədir, qızıl qolbaq da olacaq!

– İnanım sənə?

– Etiqadını möhkəm elə!

– Vaqner, bəlkə, bunları alanacan sənə güllə dəydi.

– Mariya, əmin ol, mənə urus gülləsi kar etməz! Sən bağlama gözlə!

– Mən də sənə vaqon-vaqon salam, öpüş göndərərəm!

Deyəsən, bu yerdə Vaqnerin yadına vacib bir şey düşdü. Qayıdıb Mariyasının alnından öpdü:

– Əzizim, – dedi, – Rusiya çox soyuq olur. Salamla, öpüşlə qızışmaq olmaz. Bacarsan, rast gəlsə, əlinə keçsə, sən də mənə bir cüt uzunboğaz çəkmə tədarük elə.

– Özün oradan taparsan!

– Deyirlər, zabitlər macal vermir. Ayaqqabını özləri götürürlər. Mənim rütbəm balacadır. Qorxuram verməyələr. Sən gözdə-qulaqda ol!

Ər-arvad öpüşüb-görüşüb ayrılmışdılar.

Vaqner xanımına vəfalı çıxmışdı. Səfərindən ay yarım sonra Mariyaya bir cüt ipək corab göndərmiş, üzr istəmişdi: "Mariya, bu siftəsidir, Kislovodskdan bir fəhlənin ayağından çıxarmışam. Çək ayağına, dalısını gözlə!"

Bundan sonra Mariya tamam bir ay gözləmiş, ərindən bir xəbər almamışdı. Ünvanına təcili teleqram vurmuş, sifarişləri haqqında soruşmuşdu. Vaqner cavab verirdi ki: "Sırğa hazırdır, gələn tapıb, göndərə bilmirəm!" Mariya bu şad xəbəri eşidən kimi, komandirdən izin alıb, ərini ziyarətə gəldi. Ürəyində dedi: "Həm ziyarət, həm ticarət! Kişinin əl-ayaq elədiyi şeyləri gətirərəm. Soldatlar səliqəsiz olurlar. İndi Urusyət kəndlərində yığışdırmalı çox ev şeyi var. Bir-iki çamadan doldurub gətirsəm, qənimətdir."

Bu iştahla səfərə çıxan xanım Stalinqrad yolunda facié xəbərini

eşitdi. Vəziyyət necə idisə, Mariya gedən vaqonu stansiyaların birində açıb qoydular. Qatarlar ağzını qərbə çevirmişdi. Düzü-dünyanı tutan qarın sayı var idi, Stalinqrad cəbhəsindən qaçan zabitin, soldatın sayı yox idi. Mariya ərinin yoldaşlarını bir gündə gördü ki, görməsəydi, ondan yaxşı idi. İndi o, sırğanı yaddan çıxarmışdı. Başının hayında idi. Haman axşamkı şaxta Mariyanın qulaqlarını ixtisar edib, sırğa qayğısından qurtardı. Ayağını qoruyan, əri üçün gətirdiyi boğazlı çəkmə oldu. Mariyanın hər dəqiqəsi: "Neyləyim – necə eləyim?" ilə keçirdi ki, Sovet qoşunları bir həmlə ilə stansiyanı əhatə edib, soldatları və Mariyanı əsir tutdular. Mariyanın qulaqlarını müalicə üçün xəstəxanaya aparmışdılar.

Mariya Vaqnerə çəkmə gətirmişdir. Halbuki Vaqner özünə qıç axtarır. Vaqner arvadına sırğa gətirmişdir, arvadı isə qulaq hayındadır. Mən bunların – bu qarətçi ər-arvadın gözlərində yanıb-sönən canavar iştahına tamaşa eləmək istəyirdim.

*1944*



# BARXUDAR

Getmək istəyirdim ki, bir ağpaltar qadın içəri girdi:

– Barxudarın evi buradırmı?

– Bəli!

Qadının üzü güldü:

– Muştuluğumu verin, Barxudar yaralı gəlib, 4-cü xəstəxanadadır.

– Havaxt gəlib, necə gəlib? Yaralı bəs nə dedi?..

Bilmirəm, qadından daha nələr soruşdum-soruşmadım. Bir də özümü həyət qapısında, ayağımda sürütmə yüyürən gördüm.

Qonşum dərzi Əhmədin arvadı məni pəncərədən səsləyirdi:

– Ay filankəs, dayan, biz də gedirik, dayan almadan, armuddan tapaq...

Mən qulaq asmadım:

– Sonra, – dedim, – gələrsiz.

Xəstəxanada mənim qabağımı kəsdilər.

– Barxudarın yanına icazə yoxdur, – dedilər.

Mən haray saldım: "Bu nə deməkdir, illər ayrısı sevgilimi görmə-

və nə icazə lazım imiş..."

Həkim gəldi:

– Bacı, – dedi, – Barxudar sinəsindən yuxarı pambıq içərisindədir. Vücudunu alov elə yandırmışdır ki, tanımaq mümkün deyildir. Onu dindirmək, yanında səs salmaq ziyandır.

Mən çox israr etdim, xəstənin yanına buraxdılar.

Budur, taxta çarpayının yanında dayanmışam. Xəstə halsızdır. Geniş sinəsi qalxıb-enir. Baş-gözü cuna ilə sarıqlıdır. Sir-sifəti görünmür.

– Barxudar! Dərdin mənə gəlsin, Barxudar!

Mən onun ayaqlarını qucaqlayıb ağlayırdım. Həkim məni güclə xəstədən ayırdı.

Üç gün belə intizar və həyəcan içində xəstəxanaya gedib-gəldim. Dördüncü gün Barxudar bizi qəmlər, matəmlər içində buraxıb həyatı tərk etdi. Mənim isti və xoşbəxt xanimanım dağıldı, ocağım söndü. Mərhumu dəfn edib qayıdandan sonra evə girdim. Ev başıma dolandı, divardan asılmış tarın simləri səslənib: "Barxudar!" deyirdi. Yazı masası sahibini çağırırdı.

Mənim məyus, kədərli həyatım bütün ağırlığı ilə davam edir, günüm il kimi keçirdi. Gözümə yuxu getməyən gecələrin birində qapımız döyüldü.

Mən, əlliyə qədər mənzili olan üç qatlı böyük bir mülkdə yaşayıram. Küçə tərəfdən qapım vardır. Ancaq dava düşəndən mən bu qapını bağlamışam. Həyətdən gedib-gəlirəm. İndi küçə tərəfdən qapını döyürdülər.

Gecənin qaranlığı, təklik və küçə.

– Kimdir?

– Aç!

Bu cavab elə qəti və arxayın deyildi ki, mən təəccüb elədim. Nədənsə məni bir titrəyiş və həyəcan qapladı. Bir də soruşdum:

– Kimsən qapıdakı?

Daha arxayın səs gəldi:

– Evin sahibi.

Ürəyimə gəldi ki, məni aldatmaq, soymaq istəyirlər. Yəqin evi qarətə gəliblər. Ara divarı döyüb qonşumu səslədim:





– Əhməd qardaş, gəl, evə girmək istəyirlər.

Əhməd tələsik geyinib həyət tərəfdən bizə gəldi, qapıya yanaşdı:

– Kimdir, nə istəyirsən?

Qapıdakı dilləndi:

– Mənəm, ev sahibi! İçəridəki Əhməddirmi, Əhməd, niyə açmırsınız qapını, yoxsa evdə...

Bu səs və ifadə dərhal mənə Barxudarı xatırlatdı. Əhməd də mənim kimi özünü itirdi. Küçədəki bizim susduğumuzu görüb bərkdən danışdı. O, mənim adımı çəkdi:

– Açın qapını, nə olub-olub, qorxmayın açın!

Əhməd təkrar soruşdu:

– Siz kimi istəyirsiniz?

– Mən evimi, arvadımı istəyirəm. Əhməd, nə tez məni unutdun. Barxudarı tanımırsanmı, ordudan qayıdıram!

Əhməd dedi:

– Barxudar çoxdan Allah rəhmətinə gedib, öz əlimizlə də dəfn etmişik. Siz, bu evin sahibsiz olduğunu bilib qarətə gəlibsinizsə, çox eyib olsun, gəldiyiniz yolla qayıdın.

Qapıdakı bir qədər susdu.

– Əhməd, – dedi – Barxudar mənəm, şükür Allaha, sağ-salamatam, qolum da yüngül yaralıdır. Siz açın qapını, bir danışaq, görək nə əhvalatdır.

Qapıdakı evin adresini, davaya getdiyi günü dedi, məktublarını saydı, özünü tanıtmaq üçün ailəmizin lap gizli sirlərini saymağa başladı.

– Allahü-Əkbər. İlahi, bu necə işdir! – Əhməd də mat-məəttəl dayanmışdı.

Artıq bunlara inanmamaq olmazdı. Məni dəhşət götürdü. Barxudar dirilmişdir. Bu nə işdir bizim başımıza gəlir. Birdən-birə qapıdakı qaraltı yox oldu. Biz ha səslədik, heç bir cavab gəlmədi. Bir də gördük, həyətdən səs gəlir. Sən demə, qapıdakı adam həyət tərəfdən gəlib ev idarəsinin müdirini oyadıb, yanına salıb gətirir.

– Mənim arvadım başqa ərə getmişsə, açıq deyin, ailəmin başına gələni danışın, yaralı olsam da, təkrar cəbhəyə qayıtmağa hazıram.

Çıraqlar yandı, qonşular töküldü. Barxudarın, həqiqətən sevgilim Barxudarın uca boyu, əsəbi sifəti ilə qarşımda durduğunu gördüm. O mənim üzümə baxıb əsəbi və məyus bir səslə soruşdu:

– Yoxsa məni qəbul etmək istəmirsiniz?

Sanki, bu müraciətlə bütün şübhə və vahimələr üzərimdən qalxdı:

– Barxudar! – deyib boynuna sarıldım.

Əhvalatı ona danışan kimi barmağını dişlədi:

– Bəli, – dedi, – siz mənim cəbhə yoldaşımı dəfn etmisiniz. Ağır döyüşlərin birində düşmən onu atəş saçan tüfənglə ağır yaralamışdı. Mən onun vücudunu soyuqdan qorumaq üçün şinelimi çıxarıb üstünə atdım. Həmin şinel ilə arxaya gəlmişdi. Ünvanım da şinelin cibində imiş, onu mənim familiyam ilə müalicə etmişlər.

Hər şey mənə aydın oldu. Sanki dünyaya yenidən gəldim. Evimiz, ailəmiz yenidən öz rövnəqini aldı. Mən xoşbəxtəm, bütün müntəzirlərin axırını xeyir, xoşbəxt istərəm.

*1944*



# ÇIRAQLAR YANDI

## I

Bəlkə, bu ona görədir ki, Kübranın taleyi ilə mənim taleyim arasında bir yaxınlıq var. Mənim də Kübra kimi səkkiz yaşlı bir qardaşım var. Onu evdə tək qoyub, səngərlərə gəlmişəm. Mənim də Kübranınkı kimi səliqəli, üzəgülən bir həyətim, növraqlı bir mənzilim var. Eyvanımda lumu ağacı bəsləmişəm. Axırıncı dəfə onun meyvəsini üzməyə əlim gəlmədi. Dibinə su tökdüm, başına dolandım. Uşağa baxdım, ağaca baxdım. Deyəcək sözüm olmadı. Dilim tutuldu, nə dedisə, gözlərim dedi.

İndi, artıq hərbin bu qızışmış günlərində bütün hisslərimin dəhşətlə, şiddətlə sərtləşdiyi bir zamanda da bu vida saatlarını unuda bilmirəm. Öz evim – Kübranın evi, öz şəhərim – Kübranın şəhəri, qardaşım – Kübranın balası, lumu dibçəyi – ərik ağacı. Bunlar şirin və xoş yuxu kimi nəzərimdən süzüb keçir...

İndi mən partizanam. Düşmən arxasında çalışıram. Vəzifəm bu

gün məni çox sevdiyim bir yerə – Kübranın vətəninə gətirib çıxarmışdır. Su arxında gizlənmişəm. Budur, Kübranın – o qayğılı Qafqaz qızının alçaq divarlı həyəti mənim sağımdadır. Mən orada isti yay aylarında nə qədər istirahət etmişəm! O suyun kənarında necə sərinləmişəm! O qocaman ərik kölgəsində, göy məhəccərli eyvanda, hovuz başında...

Kübranın həyətindən taqqıltı səsi gəldi. Səs təkrar olurdu. Fikrimə gəldi ki, yazığın evini sökür, eyvan sütunlarını yandırmaq istəyirlər. Bu fikir mənə ağır gəldi. Başıma balta vurulduğunu güman etdim. Diqqətlə dinləyəndə doğrudan balta səsi olduğunu seçdim. Ancaq balta, sütunlara vurulmurdu, çünki, sütun yox idi. Qaranlıq olsa da, sökülmüş eyvanın çökmüş damı beli sınmış, pərişan qocalar kimi görünürdü. Mən "ya qismət" deyib, arxın kənarına qalxdım. Şəfəqdən bir nəfərin əyilib qalxdığını, yerə balta vurduğunu gördüm. Şaxta olduğundan hərif baltanı möhkəm tuta bilmir, dalbadal vururdu. Bu zərbələr ərik ağacına vururdu.

Ağac öz xırda budaqlarına qədər silkələnir, ağır gövdəsini düşmən silahına verərək, rişəsini tərpətməyə qoymurdu. Ətrafına qar ələyir, ilan çalmış kimi, çapalayırdı. Yəqin ki, dili olsaydı, səslənəcək, fəryad edəcəkdi. Deyəcəyi ilk sözlər bu olacaq idi:

– Kübra, haradasan! Amandır, məni yıxdılar...

Deyəsən, ağac dilə gəldi və bu sözləri də dedi. Ancaq bu sözlər yalnız ağacdan yox, yerdən, sudan, torpaqdan, havadan da eşidildi. Bu sözləri qulağımla yox, bütün hisslərimlə, qəlbim, ruhum, qanım, vicdanımla dinlədim. Qəzəbdən əllərim əsdi. Ağacın səsi uzaqlara getmədi. Bu, lazım deyildi. Çünki, mən burada idim, nə qədər ki, mən ölməmişəm, ərik ağacı Kübrasız da keçinə bilər.

Vəfalı avtomatım dilləndi. Baltalı soldat yıxıldı. Pəncərələrə bir qatar güllə səpib, gözdən itdim.

## II

Bizim əsgərlərdə belə bir xasiyyət var: ancaq hücum döyüşlərini xatırlayır, bunu, aldıqları məskənin adı ilə adlandırırlar. Mənə də belə



bir vuruşma qismət olmuşdur. Kübranın yaşadığı şəhərdə iki gün əlbəyaxa dava getdi. Bu davanın ağır və yüngül saatlarını mən yaşamışam. Mən bu davadan sonra xilaskarlığın nə demək olduğunu gözümlə görmüşəm. Meşələrdə – xəlvət guşələrdə, uzaq arxadan axışıb gələn əhali bizi – döyüşdən çıxmış əsgərləri ziyarət etməmiş öz xanimanına yaxın getmirdi. Əlinə silah alanlar irəliyə qaçan düşmən üstünə yüyürürdülər.

O gün mən iki yara almışdım. Sol qolumu boynumdan asmalı olmuşdum. Sıradan çıxmağım, müharibəni tərk edib arxaya, həkim məntəqəsinə getməyim əmr olunmuşdu. Mən məntəqəyə getmədim. Birbaşa şəhərin kənar küçələrinə – Kübranın həyətinə gəldim. Dağılmış, pozulmuş, növraqdan düşmüş həyət sanki, pərişan halı ilə mənə salam verirdi. Düşmənin qaçhaqaçda qoyub getdiyi qənimətlər – araba, mətbəx şeyləri, silah, ərzaq, motosikl, benzin çəllәkləri... heç nəyə baxmadım. Qocaman ərik ağacına yanaşdım. O da mənim kimi dərdli və qəzəbli idi.

Düşmən zərbəsi onun gövdəsində dərin bir yara açmışdı. Ancaq ağacın "qan" damarları salamat idi. Torpaqdan əlaqəsi kəsilməmişdi. Torpaq – on minlərlə həyatı bəsləyən bərəkətli vətən torpağı, ərik ağacını müalicə edib, onun vücuduna məlhəm yeridirdi.

Mən sakitcə dayanıb ağaca baxır, onun qol-budağını əlimə alır, puçurlarına, bahara, yeni həyata çağıran qönçələrinə diqqət edirdim.

– Dostum, müsahibim ağac, – deyirdim, – mən də yaralıyam. Bizim yaramız yüngül yaradır. Sağalan və ömrü boyu bizim namuslu həyatımızdan danışan müqəddəs yaradır.

İmkanım və qüdrətim olsaydı, ərik ağacına daha tez çiçəkləməyi, yarpaq açmağı əmr edərdim. Quşlarla xəbər yollayıb, uzaq arxadan Kübranı və balasını çağırardım. Ərik ağacının kölgəsində süfrə salar, samovar qoyar, müharibənin bütün acı və məhrumiyyətlərini canımdan çıxarardım. Lakin bu, tezdir. Belə bir gün bütün Kübraların şəhəri xilas olandan, bütün torpaqlarımızın yarası sağalandan sonra xoş olar. Qalxdım, həyəti bir də nəzərdən keçirtdim. Ağacın gövdəsindən öpdüm.

– Ey ağac, – dedim, – səni düşmən əlindən xilas edən qüvvə Kübranı da sənə yetirəcəkdir. Sən çiçəkləyib açıldığın günlərdə, bu yerlər əsl növrağına düşdüyü günlərdə məni də xatırla! Kübraya de ki, buradan yalnız düşmənlər yox, dostlar da keçmişlər.

### III

Kübranın həyatından çıxdığım sevinc və həsrətlə öz evimə, öz həyatimə daxil oldum. İlk nəzərimə çarpan lumu ağacı oldu. Bu ağaca, deyəsən, heç müharibə havası dəyməyib. Deyəsən, heç sahibsiz qalmayıb, yenə də gənclik qüruru ilə şax və sağlam yarpaqlarını ətrafa yayıb, yenə də bol, ətirli meyvələri ilə budaqları bəzəyib, yenə də bolluq mövsümü ilə yeni-yeni qol-budaq atıb...

Balaca qardaşımın uşaq evinə verildiyini bilirdim. Bəs burada kim əyləşmişdir? Bəs bu evə kim belə vəfalı xidmət etmişdir?

Şeylərim qurulu, çarpayım, yazı stolum, paltarım, divar xalçalarım...

– Burada kim yaşayırdı? Bəlkə mən icazəsiz daxil oluram? – deyə təəccübləndim.

Ev idarəsi müdiri mənim təəccübümdən gülümsündü:

– Öz arvadın da belə saxlamazdı. Gör sənə necə qonaq qismət olmuşdur!..

O, mən orduya gedən kimi Şimali Qafqazdan köçürülmüş bir ləzgi qadının buraya gəldiyini, qənnadı fabrikində çalışdığını, beş gün bundan əvvəl şəhərlərinin düşməndən xilas olduğunu eşidib, getdiyini söyləyirdi. Ancaq mən onun sözünü dinləmirdim. Evimə, iki ildən artıq ayrı düşdüyüm həyat otağıma, otağın hər yerinə, hər şeyinə göz gəzdirirdim. Çox şeyin qoyub getdiyim kimi əl dəyilməmiş qaldığını görəndə mənə elə gəldi ki, heç yerə getməmişəm. Yalnız dünən işə getmişəm, bir gecə yoldaşımgildə keçirib, səhəri qayıtmışam. Mən kitablarımı götürüb təkrar yerinə qoyuram. Pəncərə örtüsünü əlimə alıram, divan üstündə əyləşib qalxıram, yazı stolumun şüşəsinə baxıram. Şüşənin altında naşı, lakin həyəcanlı bir xətlə mənə xitab yazılan bir kağız görürəm:

"Ey bu evin sahibi! Sizi tanımıram, lakin əsgər olduğunuzu bilirəm. Bu ad mənə hər bir tanışdan və hər bir dostdan yaxın, əzizdir. Ağır və fəlakətli günlərimdə sən özün mənim vətənimi qorumağa getmisən, mənzilini mənə vermişlər. Bu, elə bir yaxşılıqdır ki, dünyada az adam, çox az adam tanımadığı yetimli bir qadına bu yaxşılığı edər. Bütün ömrüm boyu sizə minnətdaram. İndi mənim şəhərimi siz – qızıl əsgərlər düşməndən xilas etmisiniz. Bu da üstəlik yaxşılıq. Məni bağışla! Vətən şirindir. Gedirəm. Ancaq ünvanımı qoyuram. Vaxt tapsan, meylin olsa, Şimali Qafqaza, bizə qonaq gəl. Sənə kəniz olmağa hazıram!"

Bu məktubu Kübra yazmışdır.

Daha mənim sevincimin həddi-hüdudu yox idi. Qardaşımı uşaq evindən gətirdilər. Mənzilimdə bir şənlik qurdum. Bütün otaqlarda çırağımı yandırıb oturdum. Bu gün birinci dəfə xilas olmuş şəhərində, öz evində çıraq yandıran Kübraya cavab yazdım. Lumu ağacının bütün meyvələrini qutuya qoyub, ona hədiyyə göndərdim.

*1944*

# DİSSERTASİYA

–Həmin bu qaşıq dərmanını içərsən, həbləri atarsan, gündə iki də-fə yaş dəsmal qoyarsan, iki gün sonra yanıma gələrsən.

Həkim deyənləri etmək çətin deyilsə, asan da deyil, belə tapşırıq-larla məşğul olmağa vaxt hanı, hövsələ, səliqə hanı? Ancaq mən dözən adamam. Hansı həkim nə deyib, eləmişəm. Xeyir görməsəm də, hörmət qoyub eləmişəm. Həkimlərin bir sözü mənə lap çətin gəlir. Elə ki, müa-yinəni qurtarır, dərmanı yazır, məsləhətlərini eləyir, axırda qayıdıb qə-ti tapşırırlar:

– İki gündən sonra yanıma gələrsən.

Əlbəttə, həkim istər ki, həmişə yanında xəstə olsun. Xəstəyə bax-maq onun peşəsidir. Amma həkimə baxmaq bizim peşəmiz deyil, axı! Hərənin bir peşəsi, kəsbkarı var. Mən hər ikigündən bir iki saat vaxtımı sərf etsəm ki, həkim mənə baxsın, onda bəs külfətimə kim baxsın, ailə-min ruzusuna kim baxsın, ailəmin ruzusunu kim qazansın?

Doğrudur, həkimlər bu tapşırığı xəstəyə verirlər, ancaq yerinə ye-tirən olmur, həkimin evindən çıxanda adamlar dala baxmadan gedirlər.



İkinci dəfə bu qapıya qayıdan çox az olur. Qayıdan olsa da, öz xoşuna qayıtmır, azar qaytarır.

Mən də, adətimcə, həkimə xudahafiz edib çıxdım. Tapşırdı ki, "İki gündən sonra yanıma gələrsən!" Dedim: "Baş üstə!" Həkimin nüsxəsi-ni heç dərmanxanaya aparmadım. Yadımda yoxdur, qulağıma neçə də-fə yaş dəsmal qoydum, ya qoymadım. Ancaq onu bilirəm ki, qulağımın sancısı yavaş-yavaş azalırdı. Bəzən lap hissedilməz olurdu.

Bu əhvalatdan iki gün keçdi. Üçüncü gün gecə saat 9-10 olardı, oturub kitab oxuyurdum, telefon səsləndi. Nazik səsli bir qız mənim adı-mı çəkdi və dedi: "Dayanın, həkim sizinlə danışır". Bir də gördüm, bu-run-qulaq həkimi Qaragözov mənim üstümə qışqırır:

– Ay filankəs, sizi gözləyirəm, bəs müalicənizə niyə gəlmirsiniz? Buyurun, zəhmət çəkin, müalicəni yarımçıq qoymaq yaramaz...

Mənim deməyə bir sözüm olmadı, tələsik qulağıma bir dəsmal bağ-ladım, həkimin evinə getdim. Gedə-gedə fikirləşirdim ki, "Bəli, dünya xali deyil, həkimlərin içində beləsi də varmış!"

Güman etməyin ki, "həkimdir, öz xeyri üçün çalışır." Əsla yox! Əvvələn budur ki, mən idarə yolu ilə, hökumət xərcinə müalicə olunu-ram. İkinci budur ki, Qaragözov aylıq alır, gündə əlli xəstəyə baxsa da, həmin maaşı alır, heç kəsə baxmasa da. Qaragözovun mənim dalımca düşməyinə, müalicə üçün bu qədər səy etməyinə, ancaq məslək eşqin-dən, öz vəzifəsinə vicdanla yanaşmasından başqa ad qoymaq olmaz.

Bu fikirlər Qaragözovu mənim nəzərimdə daha da böyütdü. Özüm-özümdən xəcalət çəkdim ki, kişi məni zorla müalicə edir. İstəmir xəstəlikdən bir əlamət qalsın. Salamatlığımı istəyir. Bunun müqabilin-də mən tənbəllik edirəm, iki addımlıq yolu onun evinə getmirəm.

Qərəz, bu dəfə həkim qulağıma daha da diqqətlə baxdı. Yaş dəs-maldan sonra ağrı azaldığını biləndə çox sevindi. Maşını yaxına çəkdi, güzgü qoydu, otağın işığını artırdı, bütün diqqəti ilə mənim qulağımı müayinəyə başladı.

– Yoldaş həkim, deyəsən, qulağımın şəklini çəkirsiniz?

Qaragözov mənə cavab vermədən öz işini görürdü. Ancaq: "Tər-pənmə, tərpənmə!" – deyir, o tərə-bu tərəfimə keçir, alnındakı güzgü-nü aşağıdan-yuxarıya tərəf tərpədir, gah diz çökür, gah ayağa qalxırdı.

Qulağımın ətini o yan-bu yana elə dartırdı ki, az qalırdı dərisi soyulsun. Sakitcə dayanmışdım. Müalicənin qurtarmasını aramsız gözləyirdim. Ürəyimdə deyirdim: "Bundan qurtardım, bir də mən özümü həkim əlinə versəm, ikicə olsun!"

Qaragözov işığı yan edib, alətləri yerə qoyanda nə qədər sevindiyimi qələmə ala bilmirəm. Ağır və təhlükəli bir işdən sovuşmuş kimi, köksümü ötürdüm, alnımın tərini silib, ayağa qalxdım.

– Hara durursunuz? – deyə təəccüblə soruşdu.

– Qurtarmadı bəs?

– Dayanın, burnunuzu da müayinə edəcəyəm!

Burnum da qulağım kimi yoxlandı, canımı dişimə tutub dözdüm, elə ki mən dözdüm...

Qaragözov məndən bəzi şeylər soruşub yazdı: yaşın, sənətin, ünvanın, ailə vəziyyətin...

– Yoldaş həkim, – dedim, – belə şeyləri adamdan qulluğa girəndə soruşurlar. Ailə vəziyyətinin, yainki sənətin qulaq azarına nə dəxli var?

Qaragözov gülümsündü:

– Siz, – dedi, – nə çox maraqlanırsınız. Bu suallar sizi qorxutmasın. Bunlar bizə elmi-tədqiqat üçün lazımdır. Biz xəstələrin harada, hansı ictimai təbəqələr içərisində, nə nisbətdə olduğunu müəyyən etməsək, əhaliyə xeyir verə bilmərik. Bunsuz təbabət elmi də inkişaf etməz. Məsələ bir sizin qulağınızla qurtarsaydı, nə dərd idi! Ancaq bu zəhrimar xəstəlik minlərlə qulağa girməyə yol axtarır. Mübarizə eləmək bizim borcumuzdur.

Həkimin son sözlərini eşitməyə daha səbrim qalmamışdı. Getmək istədiyimi görüb, sözünü kəsdi, ayağa qalxdı və qolumdan tutub bərk tapşırdı.

– İki gündən sonra gələrsiniz, gözləyəcəyəm!

Mən ayaq üstə dondum.

– Yoldaş həkim, – dedim, – daha mənim qulağımda bir ağrı-zad qalmayıb!

– Siz ağrıya fikir verməyin! Heç fikir verməyin! Ağrıdır, beş gün olmaz, sonradan beş ay sizə elə əzab verər ki, anadan əmdiyiniz süd burnunuzdan gələr. Mən bilirəm sizin qulağınızın vəziyyətini. Lap bəd olmuşam, müalicəyə ehtiyacı var. Mütləq gələrsiniz!



Məyus çıxıb gəldim. Özüm-özümə and içdim ki: "Gəlməyəcəyəm, vəssalam!"

Qulaq ağrısı, həkim Qaragözov və sair bu kimi məsələləri oradaca qoyub getdim işimə.

İki günmü, üç günmü keçdi, bilmirəm, axşam saat 8-də balaca oğlumla yay kinosuna getmişdim. Bufetə yanaşıb, uşağa bir stəkan su alırdım ki, bir də gördüm qonşu qızı tövşüyə-tövşüyə özünü yetirdi:

– Əmi, – dedi, – evdə qonaq var, sizi çağırırlar.

Uşağı kinodan yarımçıq qaytarmaq özü insafsız bir işdir. Yaxşıdır ki, inad etmədi, qonaq adını eşidib maraqlandı: "Ata, sabah gələrik, bu gün qonağımız var, gedək!" – dedi.

Qapıdan içəri girəndə Qaragözovu stol başında əyləşən gördüm. Sağ tərəfdə alçaqboy bir qız, sol tərəfdə də qarayağız bir oğlan oturmuşdu. Qonaqlara "xoşgəldin" elədim. Qaragözov ayağa qalxdı:

– Elə bilirsiniz ki, müalicə işinə təkcə siz kahalsınız? Yox! Siz öləsiniz, hamı belədir! Elə ki, xəstəlik yüngülləşdi, ağrılar dayandı, heç bir xəstə həkim yanına gəlmir. Amma bizim borcumuzdur ki, xəstəni axıra qədər izləyək. Xalq həkiminin işi belədir. Əyləşin görüm!

Qaragözov yenə güzgüsünü alnına taxdı, stol çırağını yandırdı, başladı mənim qulağımla əlləşməyə!

Bu müayinəyə tamaşa etmək qonaqlar üçün yaxşı olmadı.

– Ay uşaqlar, – dedim, – süfrə salın, qonaqlar o biri otağa buyursunlar!

Qaragözov mənə cavab verdi:

– Xeyr, zəhmət çəkməyin, qonaqlar da sizin müalicənizlə maraqlanırlar.

Oğlan da, qız da ayağa qalxıb, işığa keçdilər, mənim qulağıma tamaşaya durdular. Qaragözov əlindəki kəlbətini ilə mənim qulağımı ayırır, tələsə-tələsə qonaqlara deyirdi:

– Bax, bax! Gördün! Gördün ki! Gördün, nə aşkar seçilir! Bir az kölgə mane olur. Ba... ba..., bax, odur ha! Aşkar bəllidir. İnfeksiya göz qabağındadır.

Mən indi başa düşdüm ki, cavan adamlar Qaragözovun şagirdlə-

ridir. Onları özü kimi həkim eləmək üçün təcrübəyə gətirib. Mənə aydın oldu ki, həkim ünvanımı niyə soruşmuşdu, ürəyimdə dedim: "Bəli, bundan sonra xeyrimiz olsun. Vaxt-bivaxt Qaragözov məni çağırıb qulağımdan dərs deyəcək. Xata elədik, qapımızı tanıtdıq!"

İstədim həkimdən xahiş edəm ki, bir də mənim yanıma təcrübə üçün adam gətirməsin. Üzüm gəlmədi. Qonaqlar da çay içmədilər. Durub gedəndə Qaragözov mənə dedi:

– Soyuqluq eləməyin, müalicəni yarımçıq qoymayın! Vaxt tapın, bir yanıma gəlin!

Qonaqlar gedəndən sonra bir xeyli öz-özümə düşündüm:

– Necə eləyim ki, Qaragözov məndən əl çəksin?

■ ■ ■

Olardı bir on gün-on beş gün ki, Qaragözov görünmürdü, mənim də yaxam qurtarmışdı. Bir gün evə qayıdanda – stolun üstündə dəvətnamə gördüm. Məni həkimlər evinə çağırırdılar. Guya Qaragözov burada özünün yeni əsərini camaata təqdim edəcəkdi. Nə Qaragözov, nə də onun əsəri üçün axşamımı itirəsi deyildim. Ancaq dəvətnamənin axırında belə yazılmışdı: "Axırda konsert". Bu söz məni düşündürdü: "Görəsən, Qaragözovun əsəri necə əsərdir ki, axırı gəlib çalğıya çıxır?" Doğrusu, maraqlandım: "Gedərəm, – dedim, – bir az gec gedərəm, bəlkə Zülfünün segahında Füzuli qəzəlini eşitmək mənə qismət oldu."

Çörəyimi yeyib qurtarmamışdım ki, telefon səsləndi. Bəli, tanış səsdir. Dostum Qaragözov zəng edib kefimi xəbər alır.

– Yaxşıyam, – dedim, – doktor! Üstünüzə sağlıq, heç yerim ağrımır, kefim saz, damağım çağ!

– Olsun, olsun!

Bu sözdən sonra dinmir, səsimi çıxarmırdım ki, Qaragözov əl çəksin. Amma o indi əsl mətləbə keçirdi:

– Ay filankəs, – dedi, – yəqin ki, dəvətnaməni almısınız. Bu axşam bir balaca məclisimiz var. Orada mən danışmalı olacağam. Xahiş edirəm ki, zəhmət çəkib gələsiniz. Düz saat 8-də maşın göndərəcəyəm!

Bu iltifatın müqabilində mənim razılıq etməkdən başqa çarəm qalmadı.



■ ■ ■

Mən içəri girəndə Qaragözovu xitabət kürsüsündə danışan gördüm. "Yaş dəsmal" qoymağın yeni üsulundan danışdı, danışdı! Şəhadət barmağını uzadıb, məni camaata göstərdi:

– Budur, mənim üsulumla sağalıb gəzən xəstə özü buradadır. Məxsus qulaq xəstəliyinin insana nə qədər cismani və ruhani əzab verməsi barəsində o da danışa bilər. Ay filankəs, zəhmət çəkin, ayağa qalxın!

Bütün salondakılar dönüb mənə baxdı. Mən qızardım. Ayağa qalxdım. Ancaq deməyə bir sözüm olmadı. Qaragözov öz təhlili sualları ilə məni dindirdi:

– Qulağınızda daha ağrı-zad olmayıb ki? Şiş də yoxdur. Çox əcəb, zəhmət çəkin, bu sıra ilə gəzin, əyani surətdə təcrübənin nəticəsini görsünlər.

Bir istədim ağzıma gələni deyim. Həkimi də, iclası da, təbabət elmini də qatım bir-birinə... Yenə dilim gəlmədi. Yerimdə oturdum. Qaragözov dedi:

– Yoldaş utanır, ancaq istəyənlər yanaşıb baxa bilərlər. Mənim iki aylıq elmi işimin, icad etdiyim yaş dəsmal üsulunun əyani nəticəsini həmin xəstənin, daha doğrusu, keçmiş xəstənin sağalmış qulağından görə bilərlər.

Sonra bir həkim çıxdı. Yaş dəsmal üsulunun elm aləmində bir inqilab olduğunu söylədi. İkinci bir həkim də Qaragözovu təbrik etdi. Yeni üsulun xəstəxanalarda tətbiqi üçün tədbir görməyi əlaqədar yoldaşlardan xahiş etdi.

■ ■ ■

Qaragözovun bu rəftarından o qədər əsəbiləşdim ki, otura bilmədim. Durub çıxdım. "Üzünü görmək mənə qismət olmasın, ancaq telefonla onun abrını ətəyinə bükmək vacibdir. Qoy deməsin avamdır, başa düşmədi", – deyə düşündüm.

Sabahısı gün yoxlama bürosundan Qaragözovun telefon nömrəsini tapıb, zəng vurdum. Mən ömrümdə söyüşməmişəm. Birisi ilə ağız-

laşmamışam. Gileylənmək də əlimdən gəlməz. Amma bu dəfə özümü toplayıb, iradəmi əlimə aldım: "Abrını ətəyinə bükəcəyəm, – dedim, – təcrübə eləməyə adam tapıb?!"

Telefonda bir qadın səsi eşidildi:

– Kimdir?

– Bağışlayın, doktor Qaragözovu çağırın!

Qadın dəstəyi yerinə qoydu.

Bəlkə, dedim, səhv edirəm. Bəlkə yoxlama bürosu düz nömrə verməyib. Bir də zəng eləyib, yoxlama bürosundan soruşdum. Qaragözovun adını, atasının adını və ünvanını da dedilər. Yenə həmin nömrəni verdilər. Mən Qaragözova dübarə zəng elədim:

– Bağışlayın, doktor Qaragözovun evidir?

Bir qadın səsi üstümə qışqırdı:

– Vətəndaş, burada Qaragözov yox, professor Qaragözov olur. Xahiş olunur, yaxşı tanımadığınız yerə zəng vurmayasınız!

Qadın bunu deyib, dəstəyi asdı. Təkrar zəng vurmaq münasib olmazdı. Giley-güzarımı başqa bir zamana qoydum.

Dünən işdən evə qayıdanda bibioğlumu müalicəxananın qabağında gördüm. O, dəsmalla ağzını örtüb dayanmışdı:

– Burada niyə durmuşsan?

– Burnumu göstərəcəyəm, professorun yanına gəlmişəm.

– Hansı professordur o?

– Professor Qaragözov!

Bunu eşidəndə hirs vurdu başıma. İstədim köhnə söhbəti açıb danışam və oğlanın qolundan tutub aparam. Gördüm ki, bibioğlum yaman inamla gəlib, dönəsi deyil.

– Get, baxsın, – dedim, – mənim qulağıma baxdı, professor oldu, sənin də burnuna baxar akademik olar...

*1944*



# AİLƏ

## I

Biz xəstəxanadan çıxdıq. Sanitar maşını bizi vağzala qoyub qayıtdı. Qaranlıq, həm də küləkli bir gecə idi. Külək uğuldayaraq aləmi ağzına almış, ağacları sağa-sola bükərək köklərinə qədər tərpədir, sanki torpağı oyatmaq istəyirdi. Biz saat yarım qatarı gözləməli idik. Mən çantamın üstündə oturub papiros çəkir, vaxtımı keçirirdim. Qapı ağzına çıxan Valeri pis bir xəbər gətirdi:

– Qatar olmayacaq.

Valeri mənə, mən də ona baxdım. Sükutla bir-birimizə deyirdik:

– Gecə burada kefimiz var!

Sifətini qulaqlı papaq altında gizlətmiş dəmiryolçu qarşımdan ötürdü.

– Yoldaş, – dedim, – bu gecə qalmağa yer taparıqmı?

Dəmiryolçu tərəddüd etmədən razılıq verdi:

– Gedək!

Valeriyə işarə etdim. Biz şeylərimizi cəld götürüb, onun dalınca düşdük. Fənər işığında ağaclaraltı, bağ-bağatla on-on beş dəqiqə getdik. Dəmiryolçu çaxçaxlı bir həyətin eyvanına çıxıb çağırdı:

– Ay uşaq, qapını açın!

Bildim ki, kişi bizi evinə gətirib.

Fərşlə döşənmiş səliqəli bir evə girdik. Ev sahibi "xoş gəldin" edib, qonşu otağa keçdi. Süd kimi ağ və güclü elektrik işığı, gözlənilməz təntənə kimi bir müddət gözümüzü qamaşdırdı. Belə kiçik stansiyada bu işığa çətin güman gələr. Bir qız uşağı su gətirdi. Yuyunub, stol başına təzəcə keçmişdik ki, qapı açıldı. İsti ev köynəyi geymiş, üzü təzəcə qırxılmış bir kişi içəri girdi. Gülə-gülə əl uzatdı:

– Gəl indi əməlli-başlı görüşək, ay filankəs, sən buralara xoş gəlmisən!..

Heyrətimdən əlini sıxıb buraxmadığım adamın sifəti, mülayim gülüşü və bu halda kiçilən gözləri uzaq xatirələri çağırdı.

Mən bir az da qorxaq səslə dedim:

– Əhməd?!

Əhməd daha da şiddətlə güldü:

– Bəli, – dedi, – Əhməd! Üstümü unlu görüb, yoxsa adımı dəyirmançı dedin. Mən səni oturuşundan-duruşundan tanıdım...

Bu mənim keçmiş məktəb yoldaşım Zülfüqarov Əhməd idi. On beş ilə yaxın idi ki, bir-birimizdən ayrılmışdıq. Əhmədin dəmiryolunda çalışdığını eşitmişdim. Burada məskən saldığını və belə dəsgahlı ev-eşik sahibi olduğunu isə bilmirdim.

Əhməd Valerini soruşdu. Onun ukraynalı bir döyüşçü olduğunu, xəstəxanada mənimlə dostlaşdığını dedim, başıma gələnləri qısaca danışdım.

Əhməd mənim təkrar cəbhəyə qayıdacağımı bilib israr etdi:

– Yaxşı əlimə düşmüsən, səni iki-üç gün buraxdı yoxdur!

Mən oturub papiros bükməkdə, Valeri isə çox maraqlandığı xəritəyə baxmaqda idi. Əhməd aralıq peçini yandırdı. Arvadı samovar gətirdi. Qız uşağı isə çirmənib, stəkan-nəlbəkini silməyə başladı.

Onu görəndə yadıma düşdü: "Axı Əhmədin gərək yetişmiş bir oğlu olsun."



– Oğul-bala necədir? Adı yadımdan çıxıb.

Əhməddən qabaq arvadı cavab verdi:

– Anası ölsün, Xəlil birinci gündən gedib.

Divarda Kamal Qasımovun və Qastellonun naşı əllə çəkilmiş şəkilləri, haşiyəsi bəzənmiş dərs cədvəli, qara qələmlə nişanlanmış xəritə var idi.

– Bunlar, – dedim, – Xəlilin işi deyil.

Əhməd qızı göstərdi:

– Şəkilləri bu çəkir. Şəhərləri Yura nişanlayır.

Əhməd bunu dedi, o biri evə baxdı.

– Yura kimdir. Yusifi demək istəyirsiniz?

Əhməd başını buladı.

– Müharibə yetimlərindəndir, – dedi və çağırdı: – Yura, gəl çay iç!

Əlində qələm, o biri otaqdan gələn sarıbaş, uzunsifət bir rus uşağı icazə istədi:

– Az qalıb, qoy yazımı qurtarım, gələrəm.

Uşaq bunu deyib, Əhmədə yox, xəritə qabağında duran Valeriyə baxdı. Valeri uşağa nəzər salan kimi, gözləri böyüdü, rəngi dəyişdi, əllərini cibindən çıxartdı və müdhiş bir şey görmüş tək, qaşlarını çatıb irəli yüyürdü:

– Sınok!

Yura kişinin boynuna atıldı. Yanıqlı-yanıqlı hönkürtü çaldı. Mən oturduğum yerdə suya döndüm. Evdəkilərin çoxunu heyrətə salan bu təsadüf mənə aydın idi.

Valeri Kiyevdə tərk edib gəldiyi ailəsindən, yeganə oğlu Yurikdən, onun dərsindən, taleyindən mənə çox danışmışdı. Əhməd ayağa qalxdı. Ata, oğlunu sakit edib əyləşdirdi.

Altı ay bundan əvvəl cəbhə şəhərlərindən bir qatar uşaq gətirmişdilər. Əhməd onlardan birinə atalıq etməyi vətəndaşlıq borcu sayıb, Yuriki öz evinə almışdı. Yurik gələn gündən stansiya məktəbində III sinifdə oxuyur, axşamlar isə xəritə qabağında dayanıb, Kiyevi yoldaşlarına göstərir, orada öz evlərini axtarırdı.

Valeri oğlunun dərs otağına keçdi. Ata və balanın dərdləşməli söhbəti çox idi. Əhməd arvadına işarə ilə tapşırdı ki: "Onlar olan otağa ge-

dən olmasın, bəlkə xüsusi söhbətləri var!"

Cəbhəçi əsgərin oğlu ilə görüşü hamıdan çox ananı – Asyanı sevindirirdi. Asya öz qızına da, Yurikə də təzə paltar geyindirirdi. Əhməd bir quzu kəsdi. Kişini xərcə saldığım üçün utandım.

– Əhməd, – dedim, – belə bilsəydim gəlməzdim. Ağır zamanda nə vacib olub...

Əhməd tərs-tərs baxdı.

– Mən, – dedi, – dostluğu ayrı cür başa düşürəm. Yüngül zamanda dostluq eləməyə nə var!

Mən vaxtı bəhanə gətirdim:

– Birdən qatar gələr, xəbər tutmarıq.

Əhməd telefonu götürüb, vağzal növbətçisinə tapşırdı ki, qatarın gəlməsinə bir saat qalmış evə zəng vursun. Məndən də xahiş etdi ki, bir qonaq kimi, qonaqlığımı eləyim, ev sahibinin işinə qarışmayım.

Bu sözdən sonra mən susdum.

## II

Əhməd ən çox dostluq xatirinə sevinirdisə, Asya bizim əsgərliyimizə can yandırırdı. Aşkar görürdüm ki, o, əsgər oğlunun həsrətini çəkir, bizdən utansa da, ara-sıra soruşur: "Cəbhədən bura kağız neçə günə gəlir?", "Görəsən, şey göndərmək olarmı?", "Dava haçan qurtarır?".

Mən bu sualların hamısına müsbət cavab verirdim. Görünür ki, Asya cavablarımdan xoşlanmışdı. Üzünü ərinə tutub soruşurdu:

– Ay Əhməd, bəlkə o kağızı qardaşa yazdıraq.

Vacib bir şey Əhmədin yadına düşmüş kimi, ayağa qalxdı:

– Hə, arvad, əcəb dedin! Bundan yaxşı qələm sahibi olmaz. Özü müəllim, əsgər, həm də işbilən.

Asya süfrənin ucunu qatladı. Kağız-qələm götürüb dedi:

– Sizə bir saatlıq zəhmət verəcəyik, gərək bağışlayasınız.

– Xəliləmi yazılacaq?

– Xeyr, Xəlilə uşaqlar yazar. Böyük yerə gedəcək!

Mən güman etdim ki, Əhməd kimdənsə şikayət yazacaq:

– Əhməd, – dedim, – kağız kimə yazılacaq.



Asya cəsarətlə dedi:

– Böyüyünə.

– Nə barədə yazılacaq?

Yenə Asya cavab verdi:

– Xəlilə tank versin!

Mən Əhmədin üzünə baxdım ki, görüm, o nə fikirdədir. Əhməd gülümsəyirdi.

Asya sözünü qurtarmamış Əhməd əlavə etdi:

– Canım, bu saat hər yerdə tank üçün pul verirlər, biri də biz!

Asya etiraz elədi:

– Yox ey, elə olsun ki, tank Xəlilə düşsün. Yoxsa utancaq uşaqdır, zirəklər atılıb minər.

Məni gülmək tutdu.

– Tank almaq üçün pul göndərmək gözəl işdir, – dedim. – Bu barədə yaxşı bir məktub yazaq! Amma tanklar Asya bacı deyən kimi paylanmır. Qapdı-qapdı deyil ki, Xəlil yerdə qala.

Asya öz səhvini düzəltmək istədi:

– Bəlkə, işdir, çatmadı da.

– Neçə vermək istəyirsiniz?

Əhməd dedi:

– Qapımızda bir inək sağılır. Payızdan bəri qənaətlə on min yığmışıq.

Asya soruşdu:

– On minə bir tank verərlərmi?

– On min böyük köməkdir!

Məktubu başlamaq istədim. Asya irəli yeridi:

– Qardaş, – dedi, – qələmi saxla! Xahiş eləyirəm, əvvəl mənim sözlərimi yazasan, sonra da ayrı söz!

Asya ancaq indi ciddi düşünüb danışmaq ehtiyacı duymuş kimi, kürsünü çəkdi, bir qədər fikrə getdi:

– Ştaba yaz! Yaz ki, canımız, malımız Vətən yolunda qurbandır. Qənaətlə yığdığım on min manatı poçtla göndərdim. Xahişim budur ki, mənim oğlum Xəlilə tank verilsin. O, tank sürməyi bilir, özü də handa bir ali məktəbdə oxutmuşam. Nə tapşırsanız, bacaran oğuldur. Yenə qolumdan qopanı eləyəcəyəm, ərim də, mən də, uşaqlarım da Vətən da-

vasında axıracan varıq!

– Qurtardınız?

Asya başını tərpətdi:

– Sinəm doludur, ancaq dilim tutmur.

– Mətləb mənə aydındır.

Asya dedi:

– Birbaşa ştaba yaz ha! Axırda yaz ki, Asya Murtuz qızından əsgərlərə, komandirlərə salam-dua var!

Asya nəsə deyə bilmədi, başını aşağı saldı, boğazını qəhər tutduğunu duydum.

– Asya bacı, – dedim, – hamısını yazdım, nigaran olma!

Asya şkafı açıb, havaxtdansa saxladığı ağ və astarlı gözəl bir zərf gətirdi. Məktubu qoyub, üstünü yazdım. O, uzun zamandan bəri arzuladığı bir mətləbə çatmış kimi, xüsusi bir yüngüllük duydu, qalxıb çörək gətirdi.

## III

Süfrə başında oturanların hərəsinin bir şənliyi var idi. Mən yoldaşımı tapmışdım. Valeri oğlunu, Əhmədlə Asya da əziz oğulları Xəlilin ad gününü bayram edirdilər.

Mən kənarda, qapı ağzında dayanan, gah çörək, gah qab gətirən qonaqpərəst qadına – Asyaya baxdım. İstər-istəməz ürəyimdən bir arzu keçdi:

– Gün o gün olsun ki, – dedim, – bu bayramı həmin bu süfrə başında Xəlillə birlikdə keçirək!

Asyanın gözləri yaşardı. Sol tərəfdəki qapını açdı:

– Can oğul! – dedi. – Gedən gündən otağını bağlamışam, əhd eləmişəm, o gələndə bu otaqda toy dəsgahı quracağam.

Mən ayağa qalxdım. Xəlilin otağı, onun dərs kitabları, nəhayət, onun sifəti məni maraqlandırırdı. Qapıdan içəri baxanda böyük və qəhvəyi rəngli bir şəklin üzümə güldüyünü gördüm. İrəli yeridim. İxtiyarsız qışqırdım:

– Valeri, bura bax, bizim komandir burada nə gəzir.

Şəklin qabağına keçdim, cavan, lakin təmkinli, mehriban komandirimiz, baş leytenant Allahverdiyev bizə baxıb gülümsünürdü.



– Asya bacı, bunu haradan tanıyırsınız, – deyə soruşdum:

Asya dinmədi.

Əhməd gəldi:

– Bu nə sözdür, Xəlili tanımırsan?

– Bu bizim komandirimizdir.

– Nə danışırsan!

– Allahverdiyev.

– Xəlil Allahverdiyev!

Valeri kişini qucaqladı:

– Halal olsun belə oğul atasına!

Əhməd inanmaq istəmədi:

– Bəs bayaqdan niyə ağzınıza su almısınız?

– Sən haçan Allahverdiyev dedin. Cəbhədə adamları familiyası, rütbəsi ilə tanıyırlar. Bu oğlan üç aydır bizim batalyonda handa bir nüfuzlu komandirlərdəndir.

Səhər Əhməd ağır sovqat, məktub və dönə-dönə sifarişlərlə bizi yola saldı. Biz darıxır, cəbhəyə tez getmək, sevimli komandirimizə muştuluq aparmaq istəyirdik.

Asya dönə-dönə xahiş edirdi:

– Gecəm-gündüzüm olmayacaq, təki siz özünüz Xəlildən yazmasanız!

Biz ananı arxayın edib, öz xahişimizi də unutmurduq.

Mən deyirdim:

– Məktubun nəticəsini, tank barədə alacağınız cavabı bilməmiş rahat olmayacağam!

Valeri deyirdi:

– Öldüm, heç. Qalsam, Yurikə etdiyiniz ata-analıq qayğısı ömrüm boyu məni sizə minnətdar edəcək!

Əhməd də, Asya da birağızdan deyirdilər:

– Bu nə sözdür, bizim borcumuzdur. O da bizim övladımız deyilmi?

*1945*

# HƏPƏNDOVUN MƏQALƏSİ

Tənqidçi Həpəndov arvadı ilə dərdləşirdi: – İndi də deyirdi, başlayıb ki, yaza bilməyənlər ittifaqdan çıxsın. Qoymayacaqlar girlənək. Gözləri də hamıdan qabaq məni görür, guya ki, yaza bilməyən bir mənəm.

Arvad ağzındakı qoz ləpəsini çeynəyə-çeynəyə ərinə məsləhət verirdi:

– Min dəfə sənə deyirəm, maymaq, böyükləri əldə saxla, adamın olsun, yaman gündə dayağın olsun.

Həpəndovun acığı tutdu:

– Mən köpəkoğlu, bəyəm, az böyüyün başmağını silmişəm, neçə dəfə gəlib pilovumu yeyiblər. Neçə dəfə qəzetdə tərif yazıram, yenə işim irəli getmir, çörək tutsun, görüm elə ədibi də, şairi də. Hər yerdə yaxşını qoyub, yamanı danışırlar.

Arvad onun kürəyinə bir dürtmə vurdu. Həpəndov öskürdü:

– Nə qayırırsan, ürəyim ağzıma gəldi, görmürsən xəstəyəm?

– Xəstəsən, öl! İşini bilməyən kişi, ölsə yaxşıdır. Ay binəva, təriflə



deyil, yazdığında gərək bir mətləb ola axı. Mən özüm görürəm, bərk tənqidləri camaat oxuyur da, bəyənir də. Sən böyüklərə ha yaltaqlan, hələ bilirsən, xalq görmür?

Həpəndov bir az duruxdu:

– Nə demək istəyirsən, indi də gedək birinə sataşaq? Qoymazsan oturaq yerimizdə.

– Niyə eləsinə sataşırsan. Gücün çatandan yapış, xırdalardan birinin kitabını götür, ələk-vələk elə, çək eninə, uzununa. Xalq davalı iş axtarır. O cür məqaləni oxuyan çox olar, sən də məşhurlaşarsan.

Bu söz Həpəndovun beyninə batdı. Doğrudur, o, tənqid fəaliyyətində arvad sözünə fikir verməzdi, ancaq süfrəsinin başında əyləşənlərin dediyini edərdi. Son zamanlar özünü itirmişdi. Görürdü ki, süfrə başındakılar yeyirlər, küçəyə çıxanda da qızıl-qırmızı deyirlər: "Aşna səndən tənqidçi çıxmaz, yaxşı qonaqcıl dəllal çıxar". Odur ki, indi onun yeganə yaradıcılıq metodu, arvadının bəyəndiyi metoddur.

Həpəndov kitab şkafının yanına keçdi. Göz gəzdirib xırda gördüyü şairlərdən birinin kitabını gətirdi. Masanın üstünə qoyub düşdü üstünə. Oxudu, cızdı, cızdı, oxudu, birdən fikrinə nə gəldisə, qalxıb arvadından soruşdu:

– Ay Səkinə, nə deyirsən, Mehralı necə şairdir? İstəyirəm onun barəsində...

Səkinə onun sözünü kəsdi:

– İttifaqda nəçidir?

– Heç nəçi əşi, eləcə şairdir.

– Haralıdır?

– Yox, bilirəm, nə deyirsən. O, yerlərdən deyil.

– Xasiyyəti necədir. Sonra dava-zad qoparar, ha...

– Uşaq deyilsən ki, a qız. Dava qopardan ilə mənim nə işim. Fağır, məzlumun birisi olmasa, heç əl qataram?! O barədə arxayın ol.

Arvad da razı oldu:

– Eləsə daha nəyə durmusan. Əsl müstəhəqdir.

Arvadın cavabı Həpəndova ruh verdi.

Qalxıb şkafın başından istifadə üçün seçdiyi rus qəzetlərini də aşa-

ğı tökdü. Məqaləsinə münasib yerləri tərcümə elədi. Başladı quraşdırmağa.

Həpəndovun yaradıcılığındakı mühüm xüsusiyyətlərdən biri də bu idi. O, həmişə məqalənin imzasını düşünər, sonra da sərlövhə fikirləşərdi. İmza məsələsi bu gün də onu çox məşğul etdi. Bilmirdi açıqca Həpəndov yazsın, yoxsa gizli qol yazsın. Ancaq yazmağa qorxurdu: "Bəlkə məqaləni bəyəndilər, niyə məşhurlaşmayım". Haqq-hesabına baxdıqda, şairdən arxayın olduğu üçün imzanı açıq yazdı. Keçdi sərlövhəyə.

Həpəndovun ən çətin yazdığı şey sərlövhədir. Bu çətinliyi olmasa, gündə on-on iki məqalə düzəldərdi. Məqaləyə nə var, rusca qəzetdən, jurnaldan qəşəng cümlələri seç, tərcümə et, baş-ayaq sal, içinə də tələbəlik dəftərlərindəki sitatlardan sal, vəssalam. Nə təhər şeydirsə, rusca sərlövhələr o qədər konkret, o qədər məsələ ilə bağlı yazılır ki, oğurlamaq mümkün olmayır. Gərək sərlövhə ilə bərabər məqaləni də oğurlayasan. Onda da ki, camaat ayıq düşüb tapır, adamı lağa qoyurlar.

Həpəndov çox düşündü, çox daşındı, gah başını əlləri arasına alıb sıxırdı ki, içindən bir fikir çıxsın, gah da jurnalların mündəricatına, sərlövhələr siyahısına baxır, on-on beş sərlövhəni ad-dəyişik qoyub bir şey çıxarmaq istəyirdi, ancaq olmurdu ki, olmurdu. Axırda yorğun, əzgin bir vəziyyətdə qalxıb naharını yedi, dincələndən sonra başına sərlövhə gələcəyi ümidiylə yıxılıb yatdı.

■ ■ ■

Klassiklər Həpəndovun yuxusuna girib ona sərlövhə vermişdilər. Kişi yuxudan dik atıldı, başı alovlu yazı stoluna sarı qaçdı. İti və iri xətlə kağızda yazdı:

"Xalturaçı şair."

Həpəndov bu sərlövhə altında qələmini oynadıb nə bacarırdısa, yazdı. Seçdiyi materialları yerbəyer eləyəndən sonra ürəyinə bir şey gəldi: "Ədə, bu kitabın redaktoru da var axı, görüm bu necə adamdır..." Tez varaqlayıb redaktorun imzasına baxdı. Doğrudan da bu, hörmətli



bir yazıçı idi. Həpəndov çaşbaş qaldı: "Görəsən, redaktor mənə təpinməz ki?"

– Əlbət ki, təpinər. Bəs necə olsun?

Bir istədi yazsın ki, "kitab pis olsa da, gözəl redaktə olunub", buna ürək eləmədi. "Redaksiya bu ziddiyyəti seçər, yazımı çap eləməz." Axırda Həpəndov kitabı qırağa qoyub redaktoru adsız və naməşhur adam olan kitablardan birini gətirdi. Məqaləsinin harasında bayaqkı kitabın adı çəkilirdisə, dəyişdi.

Səhərisi məqaləni redaksiyaya verdi və qürurla evə qayıtdı. Bu axşam şair Məlik Həpəndova qonaq idi. Həpəndov öz məqaləsindən söhbət açdı. Məlik soruşdu:

– Kimin barəsində dedin?

– Qabilzadənin kitabı barəsində.

– Qabilzadə?

– Bəli, şair Qabilzadə.

Məlik az qaldı əlini Həpəndovun gözünə soxa:

– Qabilzadəni Azərnəşrə şöbə müdiri təyin etdilər.

– Nə danışırsan, əşi?

– Bəli, bəli, Qabilzadə bədii ədəbiyyat şöbəsinin rəhbəridir.

– Mən ölüm, zarafat eləmə!

– Sən öləsən, təyin ediblər, bugündən işləyir.

Həpəndov Məlikin son sözlərini eşitmədi. Bilinmədi ki, havaxt papağını başına qoydu, havaxt paltosunu geyindi və havaxt pilləkənləri düşüb redaksiyaya yüyürdü.

Redaksiyada məqalənin yığıldığını, səhifələndiyini dedilər. Həpəndov katibə yalvardı.

– Xeyr, elə bir təshih yoxdur, kəlmə və hərf xətalarına baxacağam.

– Elə səhvləri müsəhhih düzəldib.

– Xeyr, mənim yadımda olan bir kəlmə var, onun yazılışı mənə səhvi verə bilər. Çox xahiş edirəm...

Həpəndov katibin yaxasından əl çəkmədi. Katib onu müsəhhihlər otağına apardı, məqaləsini gətirdi.

– Bax, cümlə silmək, ya bir sətir artırmaq olmayacaq ha. Səhifələr pozular.

Həpəndov iki əlini qaldırıb katibi arxayın saldı:

– Xeyr, xeyr, bircə dəqiqənin işidir, hərfin yerini dəyişmək asan işdir. Bu saat, nə bir hərf artar, nə biri əskilər.

O, qələmi alıb ayaqüstdə məqaləsini düzəltdi. Başda "xalturaçı" sözünü pozub "xalqçı" yazdı. Məqalənin sərlövhəsi belə oldu: "Xalqçı şair." Mətndə də bəzi feillərə "mə" hecası əlavə etdi, bəzi feillərdən isə həmin hecanı atdı. "Şair qolçomağın hiyləsini, kolxozun qüvvəsini, köhnə dünyanın mənhus olmasını, yeni dünyanın məsud olmasını göstərə bilməmişdir." Bu cümlənin son sözündən götürdüyü "mə" hecasını aşağıdakı cümlənin son sözünə əlavə etdi: "Şair kolxoz qüvvəsini, qolçomağın hiyləsini, köhnəliyin çirkinliyini, yeniliyin gözəlliyini göstərməkdə trafaretə, şablona yol verməmişdir".

Katib bu düzəlişə baxanda tənqidçinin məharətinə heyran qaldı.

Həmin məqalə çıxan günün səhəri Həpəndov bədii ədəbiyyat şöbəsində müdirin yanını kəsmişdi:

– Keyfin-zadın necədir?

– Demə müdirəm, bir yaradıcı olaraq sizə valehəm. Məqaləmi oxudun, ya yox.

Həpəndovun verdiyi suallara şöbə müdiri dedi:

– Yaltaqlanmağa adam tap. Məndən çörək çıxmaz.

Həpəndov tərləmiş, qızarmış, pərt bir halda evə qayıtdı. Arvadı soruşdu:

– Hə, nə var, nə yox?

Həpəndov başını tovladı:

– Yenə işimiz düzəlmədi.

*1945*



# İKİ ANANIN BİR OĞLU

O zaman bizim şəhərdə idarələr yerlərini tez-tez dəyişərdi. Uzun müddət bir binada qalan idarə az olurdu. Belə idarələrdən biri də çay kənarında, balaca bağ içindəki uşaq bağçası idi. Bu bağça mənim yolumun üstündə idi. Hər səhər-axşam buradan ötərdim. Ərik və gilas ağaclarının altında oynaşan quşlar kimi, budaqdan-budağa, səkidən-səkiyə hoppanan uşaqlara tamaşa etməkdən doymazdım. Uşaqlıqda bağçada yaşamadığımdanmı, keçən günlərin şirin xatirəsindənmi, nədənsə, buradakılara qibtə edər, saatlarla taxta məhəccərə söykənib baxardım.

Bir dəfə evə qayıdanda, bağça qabağında izdiham gördüm. Hamıda bir həyəcan, təəssüf qarışıq sevinc duyulurdu. Adamlar bağçaya baxırdılar. Bağça həyəti isə izdihamdan görünmürdü. Hər kəsdən soruşdumsa, müəyyən cavab demədilər. Səslər gəlirdi:

– Su verin!

– Anasının bəxti üzdə imiş.

– Dayan bir görək!

Mən qapı ağzından səkiyə çıxıb, həyətə baxdım. İki qadın otur-

muşdu. Biri yaşlı, başına ağ dəsmal örtmüş xidmətçi idi. O birisi tirmə şallı, cavan və yaraşıqlı bir gəlin idi. Deyəsən, hər ikisi ağlayırdı. Tirməli gəlin lap cavan idi. Qucağında uşaq olmasaydı, ona hamı on səkkiz yaşlı qız deyərdi. Halbuki, o, neçə bala böyütmüş təcrübəli qadınlar kimi, uşağı öpüb əzizləyir, bu qolundan o qoluna verir, bir tərəfdən ovutmaq istəyir, o biri tərəfdən də özü ağlayırdı. Bağrına basır, öpür, hərdən başını qaldırıb adamlara baxır, ipək dəsmalla gözünün yaşını silirdi. O birisi ağ dəsmal örtmüş qadın, uşağı gəlinin əlindən almaq istəyirdi, ala blmirdi.

İçəridən gələn çeşməkli bir kişi hər iki qadının qolundan tutub qaldırdı. Onlar pilləkənlərdən çıxıb otaqlara girəndən sonra, adamlar dağılışmağa başladılar. Mən tərbiyəçiyə yanaşıb soruşdum:

– Bacı, o qadınlara nə olub?

– Heç nə, – dedi, – şükür Allaha ki, xata sovuşdu.

– Nə xata idi?

Tərbiyəçi mənim marağımı görüb yer göstərdi. Mən pilləkən ağzındakı kürsüdə oturdum. O, nə üçünsə aşağı həyətə düşdü və tez qayıtdı. Sanki, bayaq dediklərinin ardını danışırdı:

– Şükür ki, xata sovuşdu. O gördüyün tirməli gəlin uşağın anasıdır. Neçə gündür kənddə imiş. Bu gün qayıdıb oğlunu görmək üçün bağçaya gələndə, uşaqlar yuxarı mərtəbədə nahar yeyirlərmiş. Uşaq anasının "İdris", – deyə səsini eşitcək, sevincək eyvana qaçıb, məhəccərə dırmaşanda təpəsi üstə yerə gəlib.

– Bir şey olmayıb ki? Salamatdırmı?

– Necə bir şey olmayıb? O hündürlükdə eyvandan daş səkilərə düşən necə salamat qalar? Uşaq yerə dəysə idi, o saat canı çıxacaqdı. Xoşbəxtlik olub ki, Nazimə arvad görüb...

– Göydən yerə gələn uşağı görməyin bir faydası varmı?

– Arvadın igidliyinə bax da! Görüb də, uşağı ölümdən qurtarıb da!

– Kimi dediniz?

– Nazimə! Burada tərbiyəçidir. Nazimə kənardan bunlara baxırmış, uşağın yıxıldığını görəndə, arvad özünü irəli atıb, göydə onu top kimi tutub. Özü yıxılıbsa da, uşağa bir şey olmayıb.

– Deməli, salamatdır?



– Bəli, salamatdır, ona heç nə olmayıb.

– Bəs gəlin nə üçün ağlayırdı?

– Necə ağlamasın? Uşağın düşdüyünü görən kimi, özündən gedib. Ağlamazmı? Mənim ürəyim hələ yerinə gəlməyib. Uşaq salamat qurtaranda, elə bil, dünya bizim oldu. Adam istəyir, yaxşılıq olsun, ürəklər xoş olsun!

"Nazimə!" Bu ad mənə tanış idi, ancaq mən tanıdığım Nazimənin buralarda olacağını güman etməzdim. Tərbiyəçi sözünü qurtarıbmış kimi, əllərini önlüyünün cibinə qoydu və içəriyə baxıb, yavaşca mənə işarə elədi:

– Budur, Nazimə özü gəlir.

Mən dönəndə gördüm ki, odur, özüdür.

– Nazimə, siz hara, bura hara? – deyə soruşdum.

O gülümsədi:

– Mənim əsl yerimdir, burada işlədiyim, az qala, beş il olur.

– Bu gün, – dedim, – hamı sizin igidliyinizdən danışır...

– Uşağı bir xoşbəxt təsadüf saxladı, mən də bir səbəb oldum.

Neçə il əvvəl, biz Ozan küçəsində yaşayanda, həmin bu Nazimə qonşumuz idi. Ucaboy, üzü xallı, qarayağız, həmişə yeyin yeriyən bir qadın idi. Bəzən qapımızı bərk-bərk döyər, sanki, vacib iş üçün tələsik evə girib, üzünü anama tutar, mərhəmət uman bir səslə deyərdi:

– Xeyransa, darıxıram, darıxıram, ay bacı!

Mən tez patefonu götürər, ya tarı əlimə alardım. Anam məni danlardı ki: "Sən öz işinə get!"

Sonralar bildim ki, Nazimə ancaq öz evlərində darıxır, anam da, başqa qonşular kimi, uşaqlarını onun gözündən yanındırır.

Qadının dərdi nə idi?

Nazimə on beş ildən artıq idi ki, ərə getmişdi. Əri saatsaz Əli arvadını sevirdi, özü başıaşağı, dinc və pul qazanan bir kişi idi. Demək olar ki, iki nəfərdən ibarət olan bu ailənin heç zaman və heç nədən korluğu olmamışdı. Əli evini zəmanəyə layiq qurmaqdan başqa, Naziməyə də hər cür paltar və zinət şeyləri almışdı. Hər qış onu kəndə, atası evinə qonaq göndərər, hər yayı Şimali Qafqaza, mədən sularına müalicəyə aparardı. Ancaq bunların heç biri Naziməyə təsəlli deyildi. Çünki,

Nazimənin övladı yox idi. O, evdə oturduğu zaman döşənmiş, bəzəkli otağını dərin və daimi bir sükut içinə batmış görərdi və bu zaman bilməzdi nə etsin. Öz əli, öz səliqəsi ilə düzdüyü ev şeyləri– çarpayıdan tutmuş sandığa, xalçalardan tutmuş gümüş qablara qədər, hər şey dərin sükut içində sahibinə baxıb, sanki, soruşurdu:

– Bizi kimə tapşırırsan? Hanı sənin balaların?

İllər ötdükcə Nazimə bu hissin ağırlığını daha artıq duyurdu. Bədənnüma güzgü qabağında dayanıb başını darayanda, saçlarındakı ağ tükləri görəndə sinəsindən sərin və dərin bir ah qopurdu. Ona elə gəlirdi ki, bura, bu bəzənmiş və həmişə öz səliqəsində qalan otaq ev deyil, qocalmaq, ölümü gözləmək üçün bir tənhalıq guşəsidir. Eyvana çıxar, çiçəyini təzəcə töküb, meyvələrini böyütməkdə olan ərik ağacı gözünə sataşardı. Dayanıb ətrafı dinləyəndə, haradansa gülən, ya oynayan uşaqların səsi ucalanda, Nazimə saatlarla dinləmək istərdi. Səslər sönüb uzaqlaşanda Nazimə tez həyətdən çıxar, şəhər küçəsinin izdihamına səssizcə qarışardı.

Nazimənı uşaq bağçasında xidmətə məcbur edən də ancaq bu ehtiyac olmuşdu. O burada, uşaqlar arasında bir tərbiyəçi kimi keçirdiyi vaxtda özünü ana duyur və xoşbəxt hiss edirdi.

Qohumlarımızdan birinin uşağını yoxlamaq üçün bağçaya getmişdim. Nazimənı görmədən qayıtmaq istəmədim. Mən onu balaca otaqda ahıl bir kişi ilə oturub söhbət edən gördüm. Bu, onun əri idi. Hər ikisi ayağa qalxıb, məni çağırdı:

– Buyurun!

Qadın nə qədər israr etdisə, içəri girmədim.

– Buyurun, nə qulluğunuz var?

– Xoşbəxt olasınız, sizdən xahişim budur ki, gözünüz bu uşağın üstündə olsun, – deyə dil tökdüm.

– Arxayın olun, mən ona öz balam kimi baxıram.

Nazimə "bala" sözünü elə şirin, eyni zamanda elə bir həsrətlə dedi ki, özü də utandı.

Mən razılıq elədim.

– Sizin qayğıkeşliyinizi görmüşəm, – dedim. – Siz baxan uşaq ana qüssəsi çəkməz.



Nazimə başını aşağı saldı, uzun dalana baxdı. Mən gördüyüm hadisəni xatırlamaq istəyirdim.

– Eyvandan yıxılan uşağı xilas etdiyiniz yadınızdadırmı?

Nazimə fərəhləndi, üzündə təbəssüm oynadı, gözləri parıldadı.

– Oğulluğa götürmüşəm, – dedi. – İdrisi oğulluğa götürmüşəm. Hər həftə uşağı bizə gətirirlər.

– Necədir? Sizə "ana!" – deyib yovuşurmu?

Bu sualdan qadının üzündəki təbəssüm küləkdən sönən bir şam kimi söndü. Simasına kədərli bir qaranlıq çökdü, kirpikləri uzun gözlərini yerə dikmiş halda, soyuq bir ah çəkib, "bəli!" dedi və qapını açıb, ərinə baxdı:

– Vaxtdır ha!

– Bu saat.

Kişi bu sözü deməmişdi ki, tənəffüsün bitdiyini bildirən zəng səsi bütün binanı başına aldı. Mən sualımdan peşman oldum.

– Hər birimiz sənə oğuluq, – deyə Nazimənin kədərinə cavab vermək istədim.

– Əlbəttə ki, – dedi, – böyütdüklərimin hərəsi mənə bir oğul kimi əzizdir.

Zəng səsinə yerlərindən qalxıb həyətə tökülən, əl-ələ verib oynayan uşaqları görən kimi Nazimənin bütün ələmləri dağıldı, üzü güldü. Çoxlarının bezdiyi və uzaq qaçdığı inadlı, şıltaqçı və ağlağan uşaqları Nazimə sanki əfsunla ələ alır, sakit edir, yoluna qoyurdu. Tərbiyəçi və xidmətçilər çox uşağın anasından qabaq Nazimənı çağırır, onunla danışırdılar. Evində və kənarda bəzən əsəbi, qaraqabaq, qaradinməz görünən bu qadının burada, bağçada kədərləndiyini, ya hirsləndiyini görən olmamışdı. "Uşaq səsi mənim ürəyimi açır", – deyərdi. Müxtəlif yaşlı, müxtəlif xasiyyətli, müxtəlif tələbli uşaqların bir-birinə qarışan səs-küyü başqalarının qulağını qıdıqladığı halda, Naziməyə nəşə verərdi. Bəzən o, qanadını açmış cücəli toyuq kimi həyətin ortasında dayanar, ətəklərindən sallanan balalarının sözlərinə, qışqırtılı söhbətlərinə sakitcə qulaq asardı. Onların nazı ilə oynamaqdan, onların qarşısında, yeri gələndə, bir uşaq kimi kiçilməkdən çəkinməzdi. O, uşağın sakit baxmasından, dil açıb danışmasından, gülümsəməsindən, oynamasından, hət-

ta ağlamasından böyük bir həzz alardı. Birisini razı salıb susdurduqdan sonra başqa şıltaqçıya yaxınlaşar, indi başqa bir dil, başqa bir üsulla onun könlünü açmaq istərdi.

■ ■ ■

Dünən biz dəstə ilə vağzala, əsgərləri qarşılamağa getmişdik. Hərə bir hədiyyə götürmüşdü. Mənim də əlimdə bir dəstə gül var idi. Bunu kimə təqdim edəcəyimi bilmirdim, çünki gələnlərin arasında nə qohumum, nə də şəxsi dostum var idi. Onların hamısına eyni hiss və münasibət bəslədiyim halda, bir dəstə gülü kimə verəydim?

Düşündüm ki: "Hansının döşündə çox nişan olsa, ona verəcəyəm." Sonra dedim: "Yox! Gözləyəcəyəm, hansının adamı olmasa, hansına hədiyyə düşməsə, gülü ona verəcəyəm..." Bu da xoşuma gəlmədi. Əvvəlcədən belə şeyi kəsdirməyin lüzumsuz olduğunu zənn etdim. "Gülü mənim əlimdən alan bir zirək tapılmamış olmaz", – dedim.

Zəng çalındı, hamımız vağzal səkilərindən ötüb, yolun qırağında dayandıq. Çox çəkmədi, bayram mərasimini andıran bəzəkli qatar gəldi, ağır və əzəmətli nəfəsi ilə aləmə səs saldı, sinə dolusu köksünü ötürüb dayandı. Pəncərədən boylananları salamlayan musiqi və alqış səsləri bir-birinə qarışdı. Hamımız vaqon qapılarına yönəldik. Gələnlər əsgərlərin yerə enməsinə macal vermirdilər: qucaqlaşan kim, öpüşən kim, ikiqat olub var gücü ilə bir-birinin əlini sıxan kim... Dərhal əsgərlərin döşü gül dəstələri ilə doldu. Dördüncü vaqonun pəncərəsindən boylanıb gələnlərə baxan bir əsgər mənim gözümə sataşdı. Güman etdim ki, o burada düşməyəcəkdir, sadəcə tamaşa edir.

Birdən onun "Ana!" – deyə səsləndiyini və əli ilə adamlar arasında kimə isə işarə etdiyini gördüm. Çəhrayı paltarlı, başıaçıq bir qadın: "İdris!" – deyib, özünü irəli atdı. Ana-bala bir anda elə qucaqlaşıb, bir-birinə sarıldılar ki, hamının nəzəri onlara tərəf çevrildi. Uzun ayrılıq, intizar və təhlükələrdən salamat və qalib çıxıb, belə bir gündə bir-birinə qovuşan ana-balaya baxmaq hamıya xoş idi. Adama elə gəlirdi ki, bunlar indiyəcən aralarında maneələr, məsafələr olan bu istəklilər artıq heç vaxt bir-birindən ayrılmayacaqlar. Mən gül dəstəsini bu oğlana, hamı-





dan, hər kəsdən qabaq anasını axtarıb tapan oğula verməyi kəsdirdim. Daha irəli yeridim, onların yanında müntəzir dayandım, ayrılmalarını gözlədim.

Qadın oğlunu öpüb, sevincdən ağlayırdı.

Nədənsə bu görüş və bu göz yaşı vaxtilə uşaq bağçasında gördüyüm mənzərəni yadıma saldı. Tirməli gəlin bütün sadəliyi və gözəlliyilə gəlib gözümün qabağında dayandı.

Mən gülü İdrisə təqdim edəndə razılıq edib əlimi sıxdı. Biz izdihamla vağzal qapılarına yaxınlaşıb, yavaş-yavaş pilləkənlərdən endik. Maşına oturduq. İdris anasından soruşdu:

– Atam hanı?

– Rayondadır.

– Evdə nə var, nə yox?

– Salamatlıqdır, hamı səni gözləyir, gəldiyindən heç kəsin xəbəri yoxdur.

Sanki, İdrisin yadına bir şey düşdü:

– Nazimə nənədən mənə bir xəbər!

– Salamatdır. Hər gün soruşur.

– Yenə bağçadamı olur? Onu yuxuda görmüşəm.

Qadının gözünə diqqətlə baxanda barmağımı dişlədim: "Odur, özüdür." Mən belə bir oğlanın Naziməyə, o sonsuz qadına nənə deməsinə sevindim. İyirmi il əvvəlki hadisə mənə dünənki kimi, təzə göründü. O zaman ipək dəsmalla göz yaşını silən cavan gəlin, odur, təmkinli bir əsgər anasıdır. Onun saçlarına dən düşsə, gözləri bir qədər dərinləşsə, dodaqları solsa da, gəncliyindəki məlahət itməmişdir. O zaman Nazimənin qarşısında minnətdarlıqla göz yaşları tökən ana, indi alicənablıqla oğlunu ilk dəfə ona təqdim edir. İdrisin bir dəfə nənə dediyi sonsuz qadını xoşbəxt etmək istəyir. Mən bunları xatırlayıb, açıq ana ürəyinin qapalı aləmini düşünürdüm.

– Nazimə sizin nəyinizdir? – deyə soruşdum.

İdris dedi:

– Nənəmdir!

Anası əlavə etdi:

– Uşaqlıqda buna oğul deyib.

– Yoxsa eyvandan özünü atan uşaq...

Qadın mənim üzümə baxdı:

– Deyəsən, İdrisi tanıyırsınız?

– İdrisi yox, Nazimə xalanı tanıyıram.

İdris dedi:

– Özümü danışıb sizə? Düz deyirsiniz, eyvandan özünü atan mən olmuşam.

Mən əhvalatı danışanda İdris zarafata saldı.

– Körpəlikdən, – dedi, – mən ana yolunda canımdan keçən olmuşam. Qədrimi bilən gərək!

Bunu deyib şoferə tapşırdım:

– Qardaş oğlu, onları evə qoy, uşaq bağçasına sür, Nazimə ananı götürək.

Maşın dayanan kimi, cəld düşdüm. Şoferlə bağçaya muştuluq aparmağa getdim. Nazimə xalanın saçı ağarmış, qəddi bir qədər əyilmiş, səsi də boyu kimi alçalmışdı.

– Xala, – dedim, – gəl əyləş maşına, oğlun İdris səni çağırır.

Qadın diksinmiş kimi düzəlib şax durdu.

– Doğrumu deyirsiniz?

Şofer israr edəndə inandı.

– Neçə ildir ondan xəbər yox idi.

– İndi özü gəlib.

Qadın az qaldı qanadlanıb uçsun.

Biz Nazimәni İdrisgilə gətirdik. Bütün ailə onun ayağına qalxdı, onu yuxarı başa keçirtdilər. İdris onunla uzun-uzadı qucaqlaşdı.

Nazimə İdrisin çiyinlərindən tutub üzünə baxır, sanki vuruşmalarda keçirtdiyi macəraları onun gözündə oxumaq istəyirdi.

– O ağır günlərdə heç yadına düşürdümmü?

İdris doğma oğul kimi danışırdı:

– Bir gün də yadımdan çıxmamısınız!

Nazimə əllərini göyə qaldırıb, şükür edirdi.

– Mənim də oğlum var! Mən də əsgər böyütmüşəm...

Bunu deyib, İdrisi təkrar qucaqlayırdı.

*1945*



# OĞUL

*Kölgədə bitən ağacın kölgəsi olmaz.*

## I

Tibb institutunu bitirənləri Səhiyyə Komissarlığına çağırmışdılar. Komissarlığın kadr şöbəsi rəisi iclası açıb, builki məzunların qarşısındakı vəzifələr haqqında sözü xalq komissarına verdi.

Komissar sədrin iclasa verdiyi rəsmi rəngi pozaraq, əvvəlcə məzunlardan xahiş etdi ki, yaxın otursunlar. Cavan həkimlər stullarını götürüb lap yaxına, otağın ortasında qoyulmuş yaşıl məxmərli stolun kənarına çəkdilər. Komissar əvvəlcə onları təbrik etdi, bir-bir adlarını çağırıb üzlərinə baxdı, bəzi suallar verdi, mülayim ifadə və mehriban bir səslə sözünə davam edib, Böyük Vətən müharibəsində sovet həkimlərinin fədakarlıqlarından, səhiyyə işinin böyük insanpərvər əhəmiyyətindən, həkimə olan ehtiyacdan, kənddə işləməyin çətinliyindən çoxlu misal və izahla danışdı.

Komissarın nitqindən sonra kadr şöbəsi rəisi təyinat əmrini oxumaq istədi. O bilirdi ki, məzunları ən çox maraqlandıran da budur. Bu-

rada danışıq da, narazılıq da, bəlkə başağrısı da olacaqdır. Əmri oxumaqdan qabaq belə bir məlumat verdi:

– Yoldaşlar, sizə oxuyacağım əmr çoxdan, hələ dövlət imtahanları başlanandan hazırlanırdı. Ehtiyac çox, kadr az! Biz çalışdıq ki, vacib olan yerlərə münasib namizədlər düşsün. Məzun yoldaşların bəziləri şəhərdə, mərkəzdə qalmaq, sənaye rayonlarına getmək istəyirlər. Amma qarşımızdakı vəzifə başqadır. Biz burada, əlbəttə ki, məzunların şəxsi xahişindən daha çox ölkənin, cəbhənin tələbini nəzərdə tuturuq.

Rəis özündən razı bir halda siyahını əlinə alıb, məzunların familiyasını, təyin olunduğu rayonu və kəndi oxudu.

Bayaq komissar Firidunun adını çağırmamışdı. Firidun güman etmişdi ki, tanıdığı üçün ötdü. İndi kadr şöbəsi rəisi də onun adını çəkmədi. Firidun ayağa qalxıb soruşdu:

– Yoldaş rəis, mənim adım çıxmadı.

Rəis əli ilə işarə edib:

– Əyləş, – dedi, – yoldaş Firidun, sən qələmdən düşməzsən, tələsmə!

Məzunlar Firidunun üzünə baxdılar, Firidun başını aşağı saldı.

Müşavirə qurtaranda, məzunlar dağılışıb gedəndə rəis Firiduna yanaşıb, yavaşca pıçıldadı:

– Sizin haqqınızda ayrı fikrimiz var. Biz istəyirik sizi ya aspiranturada, ya komissarlıqda saxlayaq.

Firidun etiraz etdi.

– Yox, yoldaş rəis, mən də yoldaşlarım kimi həkimliyə, rayona getmək istəyirəm.

Firidun görürdü ki, məktəbdə oxuduğu kimi, burada da onu atasına görə seçir, ayırır, xüsusi hörmət qoyurlar. Firidunu əsəbiləşdirən də bu idi.

Doğrudur, o, respublikanın məşhur adamlarından, xalq komissarlarından birinin oğlu idi. Bunun bəlkə də bir xoşbəxtlik olduğunu düşünürdü. Amma Firidun heç vaxt və heç yerdə atasının kölgəsinə sığınmaq istəmirdi və öz vətənində buna ehtiyac da hiss etmirdi. Atası ilə – məhz atası ilə yad ediləndə məyus olur, başını aşağı salırdı. Ona elə gəlirdi ki, ya uşaq sayıb təhqir edirlər, ya da qarşısında elə böyük bir



dağ dayanmış və onun üstünə kölgə salmışdır ki, bu kölgənin soyuqluğunu həmişə üzərində hiss etməli olacaqdır. O, bu dağın kölgəsində durduqca, günəş görməyəcək. Sel suları hətta almazların, incilərin də parıltısını örtdüyü kimi, kölgələrdə onun şəxsi istedadının, səyinin, qüdrətinin görünməsinə mane olacaqdır.

Ətrafındakıların, tanış, dost və qohumların, hətta yadların da uzaqlardan bu dağın kölgəsinə gəldiyini görən gənc Firidun əksinə istiqamət alır, uzaqlaşmağa, kölgədən sərbəst aləmə çıxıb, günəş almağa, öz qüdrəti ilə böyüməyə çalışırdı. Lakin adamlar, onun bəzi tanış və yoldaşları onu həmişə bu adla çağırır, bu nəsəblə tanıyırdılar: "Narkom oğlu!"

Axırda Firidun əsəbiləşdi, onu belə çağıranlara hiddətlənib, sərt cavab verdi:

– O sözü deyən bir də məni danışdırmasın!

Firidunun bu xasiyyəti bəzilərinə qəribə gəlirdi: kimisi onu "səfil" adlandırır, kimisi, atasından küsdüyünü, ya atasının ona bərk tapşırıq verdiyini danışırdı.

Beş il sərasər məktəbdə Firidunun ehtiramını tutur, familiyasını adından qabaq çəkir, onu komissiyalara, bürolara, rəyasət heyətlərinə, komitələrə seçir, qəzetlərə gedən yazılarda imzasını qoymağı unutmurdular. Bir dəfə həmkarlar komitəsinin sədri Firiduna yanaşıb balaca kağız verdi:

– Ver, maqazindən bir cüt çəkmə alsınlar.

Firidun öz ayaqlarına baxdı:

-Bunu ehtiyacı olan tələbələrdən birinə versəniz, yaxşı olmazmı? – dedi.

Komitə sədri onun üzünə mənalı baxdı:

– Yoldaş Firidun, biz möhtacları da görürük, sizi də. Talonu hər yetənə yox, əlaçılara veririk. Komitənin qərarı belədir.

Firidun dəhlizdən keçən İmranı çağırdı və talonu ona verdi, komitə sədrinin üzünə baxıb dedi:

– İmran məndən yaxşı əlaçıdır və məndən də çox onun ehtiyacı var!

İmran talonu alıb, Firiduna: "Sağ ol!" – dedi. Komitə sədri baxa-baxa qaldı...

Səhiyyə Komissarlığında Firidunun xasiyyətinə yaxşı bələd deyildilər. Kim bilir, bəlkə səhiyyə komissarı Firidunun təyini haqqında atasına zəng edib, məsləhət də soruşmuşdu. Bəlkə, heç soruşmamışdı, amma özü onun oğluna şəhərdə münasib bir yer, vəzifə axtarırdı.

Firidun heç kəsə bir söz deməyib, kadr şöbəsi katibinin yanına gəldi və saymazyana soruşdu:

– Bacı, mənə deyə bilərsinizmi, hansı rayonda həkim yeri var?

Katib sarışın bir rus qızı idi. Firidunun sualından anladı ki, o, rayona getmək istəyən həkimdir, özü də nabələd şəhər uşağıdır. Qız rayonların siyahısını açıb, işarə olunmuş yerləri axtarmağa və təriflməyə başladı:

– Samuxda var, Dəstəfurda yerimiz var, Zuvand, Gədəbəy, hansını istəsəniz, gül kimi rayonlardır.

Firidun axırıncıları soruşdu:

– Gədəbəy necə olar? Uzaqlığı olmasaydı...

– Gədəbəy ən səfalı bir yerdir. Uzaq deyəndə maşın ayağının altında, nə uzaq! Zəhmət çəkin, balaca bir ərizə yazın, təyinnamənizi hazırlayaq.

Katib Firidunun cavabını eşitmək, təyin üçün əmr hazırlamaq, Gədəbəy sözünün yanına daha bir müsbət işarə qoymaq niyyətində idi. Firidun dedi:

– Yaxşı, bir düşünüm, sabah yanınıza gələrəm.

Firidun komissarlıqdan çıxan kimi, instituta gəldi. Üçaylıq yay təqaüdünü aldı. Hərbi və komsomol kitabçalarını qeyd etdirib, siyahıdan çıxdı, evə qayıtdı. Çamadanını hazırladı. Anasına xəbər verdi ki:

– Yoldaşlardan biri məni Kirovabada toya çağırıb.

Qulluqçu Firidunun təzə kostyumunu səliqə ilə qatladı. İki dəst alt paltarı, iki dəst üst köynəyi, qalstuk, cib dəsmalları, corab-filan hazırlayıb qoydu. Çamadanı da çexola salıb düymələdi.

■ ■ ■

Gədəbəy səhiyyə şöbəsi müdiri çopur, yaşı az olsa da, saçına dən düşmüş, çəyirdəyə oxşayan balaca gözləri ilə altdan yuxarı baxan, bəl-



kə də çox bildiyi üçün az danışan, Sərvərov deyilən bir oğlan idi. Firidunun gəlişinə çox sevindi, lakin sevincini büruzə vermədi. Əvvəl onun vəsiqələrinə baxdı, sonra guya komissarlıqdan təyinnamə gətirmədiyi üçün qəbul etməyə çətinlik çəkdiyini bildirdi.

Firidun təyinnamə ala biləcəyini deyəndə Sərvərov etimad edirmiş kimi, başını tərpətdi:

– Nə eybi var, – dedi, – onu özümüz də yazıb rəsmiyyətə salarıq. Var, yerimiz var! Qumlu kənd məntəqəsi boşdur. Oranın həkimini orduya aparıblar.

Firidun soruşdu:

– Qumlu ha tərəfdədir?

Sərvərov onu pəncərəyə çəkdi:

– Budur, iki addım yoldur, təpəni ötürsən, Qumludur. Camaatı mehriban, havası dağ havası! – dedi.

Firidun:

– Çox yaxşı, verin! – dedi. – Hara məsləhət bilirsiniz, əmr verin, gedək!

Sərvərov tez stol yeşiyindən kağız çıxarıb, əmr qaraladı, özü aparıb makinaçıya verdi:

– Təcilidir, tez ol!

Firidun pəncərədən eşiyə, iki dağ arasında düşmüş, balaca, gözəl mis şəhərinə tamaşa edirdi. Otağa dolan təmiz hava sərinlikdən başqa seçilməsi çətin olan xoş bir ətir gətirirdi. Günəş batırdı. Binaların, zavod bacalarının kölgəsi tənha səyyahlar kimi dağların zirvəsinə dırmaşmaqda idi. Dərənin o tayındakı alçaq, mehriban dostlar kimi bir-birinə sığınan dağlar meşəliklərlə örtülmüşdü. Şəhərdən ayrılan əyri-üyrü cığırlar meşələrə qalxdıqca, nazilir, nəhayət, yarpaqlar arasında boz bir sap kimi görünməz olurdu. Sıx, qara meşənin içində yarpağı saralmış, budaqları yarımçılpaq hala düşmüş tək-tək ağaclar payızdan xəbər verirdi. Bəzən gur yerlərdən boy atıb çox ucalmış, günəşə yaxın olduğu üçün bahar təravətini hələ də saxlamış şamlar, qarağaclar, çinarlar qocaman meşənin sahibi – qarovulu kimi, məğrur-məğrur üfüqlərə baxırdı. Quşlar nədənsə bu ağaclardan ötür, meşəlikdə görünməz olur, yenə də oradan qalxıb ayaz göyləri ölçürdülər. Firidun belə bir mənzərəli, səfalı,

həm də sakit yerə gəldiyindən ürəyində fərəh duyurdu.

Sərvərov əmri gətirib imzaladı, Firiduna verib, əlini sıxdı:

– Müvəffəqiyyət arzu edirəm.

– Sağ olun. Piyada gedə bilərəmmi?

– Əlbəttə, gedə bilərsiniz. Uzaq deyil, sovet sədrinin yanına gedin, mənzil-filan düzəldəcək.

Firidun çamadanı götürüb, yoluna düzəldi.

Gədəbəydən Qumlu kəndini balaca, doğrudan da qumlu, çılpaq bir təpə ayırırdı. Təpəni ötəndə dərələrə, dağların ətəyinə qədər yayılmış alçaq damlı, açıq, böyük bir kənd göründü.

Firidun çiynində güyüm suya gedən qızlardan kənd sovetini soruşdu. Onlar kəndin ortasına tərəf gedən dar və daşlı bir küçəni göstərdilər.

– Düz gedin!

– Əmi, indi ispalkom bağlı olar, gecdir.

Firidunun bu ayıq uşaqdan xoşu gəldi:

– Eybi yoxdur, bacı, – dedi, – açarlar.

Bir kəndli Firidunun həkim olduğunu bilib qabağına düşdü, onu kənd soveti katibinin evinə gətirdi, çəpərdən hörülmüş bir qapıda dayanıb, üzünü pəncərəyə tutdu:

– Ay Göyüş, həkim gəlib.

İçəridən səs gəldi:

– Doğum evinə aparsana!

– Bir qapıya çıx!

Çiynində kürk, əlində ağac olan əsgər libaslı bir cavan oğlan çıxdı. Axsaya-axsaya eyvanda yeridi. Kəndli pilləkəndən qalxdı. Göyüşün qabağını kəsdi, arxası Firiduna tərəf dayanıb, bir az yavaşdan dedi:

– Ədə, necə doğum evi? Kişi doğmağa gəlməyib ha! Acdır, yorğundur, niyə bəs evə çağırmırsan?

Bu sözlər Göyüşə təsir etdi. Firidunu səslədi:

– Yuxarı buyurun, yoldaş, buyurun!

Kəndli onu danlamaqda davam edirdi:

– Zəhra srağagündən atasıgilə gedib. Evdə adam olsaydı, mən heç qonağı bura gətirməzdim.

Göyüş əl verib, Firidunla tanış oldu.



## II

Firidun rayonda tələbkarlıq edib, kənd məktəbinin istifadəsiz otaqlarından ikisini təmir etdirdi, müalicəxananı genişlətdi. Bəzi cihazların, dərmanların alınması üçün səhiyyə şöbəsinə sifariş verdi. Əvvəl məktəb uşaqlarının səhhətini yoxlamaq üçün müayinə vərəqələri hazırladı. Neçə dəfə kolxozçuları yığıb, səhiyyə tədbirləri haqqında söhbət elədi. Çiyninə çanta salıb, kəndlilərə kömək üçün tarlalara çıxdı.

Evdə nigaran qalmasınlar deyə, Firidun qısa bir məktub yazdı. Yazıb bildirdi ki, "Xoşum gələn bir yerdə, xoşum gələn yoldaşlarla işləyirəm, məndən nigaran olmayın. Sizə müfəssəl yazacağam/"

O günlərdə Gədəbəy rayonuna Moskvadan akademik Lısenkonun kartof əkib-becərmək üsulunu kolxozçular arasında yayan və yoxlayan bir komissiya gəlmişdi. Komissiyanın sədri, kənd təsərrüfat elmləri doktoru, Timiryazev Akademiyasının professoru Suxanin soyuqlayıb xəstələnmişdi. Onu Firidunun məntəqəsinə gətirdilər. Firidun xüsusi bir səylə professorun müalicəsi ilə məşğul oldu. Professor cavan həkimin müalicə hökmlərinə əməl etməkdən qabaq dərmanın tərkibini, məqsədini soruşurdu. Firidun heç bir şeyi gizlətmədən, bildiyi kimi izah edirdi.

Professor rayon xəstəxanasında da yatdı. Yeddinci gün ona yola çıxmaq icazəsi verdilər. Çox çəkmədi, Firidunu rayona çağırdılar, rayon icraiyyə komitəsinin təşəkkürnaməsini verdilər.

Bir ay sonra mərkəz qəzetlərinin birində belə bir məqalə çap olundu: "Dağ rayonlarda zökəmin yayılması, nəticələri və müalicə tədbirləri". Məqalə müəllifi, təbabət elminə məlum olan şeylərdən az yazaraq, bədənin müqavimət iqtidarını artırmaq tədbirlərindən, bədən tərbiyəsinin əhəmiyyətindən danışır, uzaq kəndlərdə səhiyyə təbliğatının hələ də məhdud olduğunu göstərirdi. "Kənd həkimi" deyə imza atan Firidunun yazısında təzə faktlar, rəqəmlər, cəsarətli hökmlər də var idi.

Təxminən həmin günlərdə xalq səhiyyə komissarı Firidunun atasına zəng edib əhvallaşandan sonra soruşdu:

– Firidun görünmür, onu onuncu poliklinikaya baş həkimə müavin vermək istəyirəm, necədir?

Firidunun atası dedi:

– O işləyir ki!

Komissar inanmadı:

– Harada, yoxsa ayrı bir məsul işə..

Kişi ona macal vermədi:

– Xeyr, ayrı iş niyə? Rayonda, Gədəbəy rayonunda kənd həkimidir.

– Ola bilməz!

– Yoxsa siz həkimləri tanımadan işə təyin edirsiniz?

Səhiyyə komissarı utandı, güclə belə deyə bildi:

– Bilmirəm necə şeydir! Aydınlaşdırmaq lazımdır!

Telefon dəstəyini yerə qoyan kimi, komissar kadr şöbəsinin rəisini çağırıb:

– Firidunu hara təyin etmişsiniz? – deyə soruşdu.

– Heç hara, o zaman saxladıq ki, şəhərdə vəzifə verək.

– Bəs sonra?

– Sonra heç gəlməyib. Mən elə bilirəm, siz özünüz onun barəsində sərəncam veribsiniz.

Komissar acıqlandı:

– Mən sərəncam-zad verməmişəm. Canım, siz onu kəndə göndərmisiniz.

– Elə şey olmayıb!

– Bu saat əmri tap gətir!

■ ■ ■

Böhtana düşən qardaşının məhkəmə işi üçün Bakıya getmiş olan Göyüş məqsədinə çatıb qayıdandan sonra bir qonaqlıq eləmişdi. Süfrə başında üzünü Firiduna tutub deyirdi:

– Yoldaş həkim, dünyada kişilər var imiş, adamlar var imiş! Komissar... filankəsi yəqin ki, eşitmisiniz. – Göyüş Firidunun atasını Firiduna tərif edir, soruşurdu: – Görmüsənmi onu?

– Bəli, görmüşəm.

– İşin düşməyib?



– Xeyr, düşməyib.

– Qapısı lap dərgah qapısıdır, o qədər gələn-gedən var ki! Bilirsən necə adamlar gəlir! İşi çətinə düşən hər kəsi onun qapısında görərsən. Kişi hamını ata kimi, qardaş kimi dindirib danışdırır. Təki elə adamlardan bizim rayonda da çox olaydı.

Firidun özünü güclə gülməkdən saxlayıb, Göyüşə: "Bəli, bəli", – deyirdi.

Qonaqlığın şirin yerində qapı döyüldü. Rayon icraiyyə komitəsinin katibi içəri girib, Firiduna bir kağız verdi:

– RİK-dən kağız var!

Məktubu Sərvərov yazmışdı: "Yoldaş Firidun, sabah buraya zəhmət çəkmənizi xahiş edirəm. RİK sədrinin yanına gedəcəyik".

...Firidun, Sərvərovla kabinetə girəndə Zeynalov ayağa qalxıb, hər ikisinə əl verdi, yer göstərdi.

– Əyləşin! – Zeynalov zəngi basıb tapşırdı ki: – Adam buraxma! – Firiduna tərəf dönüb soruşdu: – Necəsiniz?

Firidun, hər halda, mühüm bir iş üçün çağırıldığını və bu əhvalpürsanlığın rəsmiyyət olduğunu düşünür, cavab vermək istəyirdi ki, Zeynalov qapı-pəncərəyə göz gəzdirib, mətləbə keçdi:

– Utancaqlıq yaxşı şeydir, amma öz yerində! Yoldaş Firidun, ay sağolmuş, görmüşük, qolçomaq oğlu, mülkədar oğlu öz əsil-nəsəbini gizlədir. Sizin ki, atanız respublikada ali bir şəxs, ay sənin saqqalın ağarsın, bunu bizdən niyə gizlədirsən? Gizlin tutursan, nəticədə də bizi... – Zeynalov Sərvərova işarə edib onu da qatdı, – ...bizi utandırırsan. Axı, rayon, hətta, mərkəz sizin kimisini axtarır, şükür ki, ali bir ixtisas sahibi niyə adını gizlədirsən?..

Firidun cavab verdi ki:

– Mən familiyamı heç kəsdən gizlətməmişəm. Ancaq familiyanı ucadan deməkdən də xoşum gəlməz!

Sərvərov dedi:

– Necə gizlətməmisən, sənə təyinnamə verən mən, soruşuram, Bakıdansan, deyirsən əslim tiflislidir. Göyüş bir saat sənə kişidən, komissardan danışır, bir kəlmə demirsən ki, o mənim atamdır.

Zeynalov davam etdi:

– Arada bizi pis kişi eləyirsiniz...

Firidun onun sözünü kəsdi:

– Komissar həsab-nəsabdən xoşlanmaz, siz deyəni heç xəyalına da gətirməz. Ehtirama qalan yerdə mən nəinki sizdən, yoldaş Sərvərovdan və hər bir kəndlidən hörmət görmüşəm, bu barədə narahat olmayın!

Zeynalov əllərini cibinə qoyub dedi:

– Dünən səhiyyə komissarı məndən soruşanda təəccüb elədim. Dedim bizdə elə adam işləmir. Nə bilək ki, sizsiniz?! Sonra bilməmişəm, kişiyə nə cavab verim. İndi deyərlər üç cüt, bir tək kadrları var, onu da belə tanıyırlar.

Firidun onları inandırmağa çalışdı:

– Mən lap layiq olduğum yerə təyin olunmuşam. Buna atam da razıdır. Mənim atam oğluna həqiqi tərbiyə və həyat yolunu göstərən adamdır. Mən istəmişəm ki, adamlar öz əməyimə, ləyaqətimə görə və bu ləyaqət dərəcəsində mənə baxsınlar.

RİK sədrinin yanından gedəndən sonra Firidun öz-özünə dedi: "Yox, daha burada dayanmalı yer deyil."

Səhər rayon hərbi komissarlığına gedib xahiş etdi ki, məni hərbi qulluğa göndərin! Cəbhəyə getmək istəyirəm.

– Yerli təşkilatlar etiraz etməz ki?

– Siz mənim xahişimi əsas ala bilərsiniz. Mən könüllüyəm, cəbhəyə gedirəm. Kimə nə dəxli!

Hərbi komissar razı oldu. Firidun həmin axşam yüngül şeylərini yığıb, qayışa bağladı. Rayonda aldığı çarpayı, stol və bəzi müalicə vəsaitini feldşerinə tapşırıb:

– Bakıya çağırıblar, – dedi, vidalaşdı.

Bakıda Firidunu növbətçi çağırışçılara qoşub, Tbilisiyə göndərdilər.

III

Firidun beş gün Tbilisidə ləngiyəndən sonra cəbhəyə yollandı. Anasına təcili bir teleqram vurub, onu Biləcəri vağzalına çağırdı. Əsgəri qatar Biləcəriyə çatanda Firidun atasını, anasını və balaca qardaşını səkidə dayanan, pəncərələrə baxan gördü. Tez özünü yerə atıb çağırdı:

– Ata!

Komissarın şoferi, dostlarından da bir nəfər yanında idi. Komissar iftixarla qarşıladığı oğlunun alnından öpdü:

– A qırışmal, – dedi, – cəbhəyə getmək xahişin vardı, mənə niyə demirdin bəs?

Anası da Firidundan gileyləndi:

– Bu nə yekəxanalıqdır? Dünyanın başına məsləhət qoyan sənin atandır, sən bir soruşmursan, öz bildiyinə gedirsən...

Firiduna gətirdikləri azuqəni vaqona qoydular. Komissar onu qatarı müşayiət edən kapitana tapşırdı. Öpüşüb, görüşüb ayrıldılar.

Birinci dəfə idi ki, Firidun atasını – o enlikürək, ucaboy, tənumənd adamı, çallaşmış başından hər şeyə düz, iti baxan, dərin gözlərində keçirdiyi mübarizələrin tarixi oxunan o dövlət xadimini, atası da Firidunu – dünənəcən gözü önündə iməkləyən, yıxıla-yıxıla yeriyən ana uşağını, simasından ümid və rəşadət yağan o yaraşıqlı gənci ağlayan görürdü. Ancaq onların hər ikisi qəhərini boğur, dodağını gəmirir, ağladıqlarını gizlətməyə çalışırdılar.

■ ■ ■

Diviziya komandiri lazımi dərman və müalicə vəsaiti verib, bir neçə kəşfiyyatçı ilə Firidunu düşmən arxasına, meşələrin birində faşistlərlə vuruşan partizan dəstəsinə köməyə göndərdi.

Partizanlar sanitar təyyarəsini, xüsusilə həkimi müstəsna sevinclə qarşıladılar. Firidun burada aylardan bəri yuyunmayan, soyunmayan, saçı-saqqalı bir-birinə qarışan, təpədən-dırnağadək silahlanan adamlar içində çalışmağa başladı. Ağaclar altında, yeraltı qazmalarda beş nəfər ağır xəstə yatırdı. Firidun bütün bacarığı ilə bu döyüşçülərin həyatını qorumağa səy edirdi. Cəbhə həyatı günü-gündən onun qanına, vərdişinə keçirdi. O, şiddətli bombardmanda, atışmalarda, mühasirə təhlükəsində, top atəşi altında, ən ağır yorğunluq, yuxusuzluqda da bədəni keyiyənədək çalışırdı.

Günün birində dəmiryol təhlükəsindən qorxan bir alman piyada hissəsi meşədə daldalanmaq istədi. Partizan dəstəsi isə bu xəbəri alan kimi, düşməni qəflətən yaxalamağı qət etdi. Gün batana yaxın pulemyot atəşi ilə hücuma keçən partizanlar düşməni pərən-pərən saldılar. Köməyə gələn düşmən avtomatçıları partizanların arxasını kəsmək, mövqelərini tapmaq istədilər. Firidun sol qolundan yara aldısa da, döyüşdən çəkilmədən əl bombaları ilə pulemyotu susdurub yol açdı, özünü düşərgəyə saldı, yarasını bağladı. Əvvəlcə dəstənin ləvazimatını, vəsiqələri əldən çıxartdı. Sonra qazmada yatan üç nəfər xəstəni bir-bir dalına alıb, meşənin dərinlərinə, kolluqlar arasına sürüyüb gizlətdi.

Səhər düşmən soldatları dəstənin köhnə mövqeyinə doluşmuş, qazmaya od qoymuşdular. Firidun bunu, ağacların başından qalxıb, aydın göyə dirəklənən qara tüstüdən seçmişdi. O, indi yarpaq və budaqlarla örtülmüş yaralı əsgərlərin qayğısını çəkirdi. Firidun əlində avtomat, pusquda dayanıb, düşməni gözləyirdi. Ancaq nədənsə düşməndən bir hənirti yox idi. İki gün burada xımırını çəkmədən dayanan Firidun üçüncü günün axşamı dərəyə enməyə, xəstələrə su gətirməyə məcbur oldu. Suya çatar-çatmaz bir hənirti duydu. Deyəsən, ona dedilər: "Adam var!" Firidun dayandığı yerdə ağac dibinə sindi. Ətrafı dinlədi. Xışıltı gəldi. Deyəsən, islanmış yarpaqları ayaqlayırdılar. Bunun ardınca bir fışqırıq və danışıq eşidildi. Firidun sükutu pozmayıb dinlədi. Birdən göydən əmr endi:

– Kimsən?

Rusca deyilən bu söz Firidunu həm sevindirdi, həm də şübhəyə saldı. Əmr təkrar olundu:

– Kimsən? Vurdum!

– Sən kimsən? – Firidun bunu dedi və ətrafa göz gəzdirib, heç kəsi görə bilmədi.

Daha da ucadan dedilər:

– Fris təslim ol, yoxsa öləcəksən!

– Fris, özünsən!

Firidunun sözünə güldülər:

– Bizimkisənsə, çıx!

Firidun qarşısında avtomatlı bir əsgər görüb yerindən qalxdı. Onlar bir-birinə yaxınlaşanda sağ tərəfdən bir, sol tərəfdən də bir əsgər yanaşdı. Kəşfiyyatçılar Firiduna kömək edib, yaralıları sovet mövqelərinə apardılar.



Firidunu polk qərargahının qarşısında saxlamışdılar. Komandir onu dindirəcəkdi. O yorulmuşdu. Qapı ağzında uzadılmış dirəyin üstündə oturub papiros yandırdı. Komandir Əliyev adlı bir azərbaycanlı kapitan idi. Əvvəlcə yaralılara baxıb, həkim məntəqəsinə aparılmasını tapşırdı. Firidun irəli yeriyib rəsmi təzim vəziyyəti aldı və bildirdi ki:

– Onları mən özüm cərrahiyyə stoluna aparacağam, çünki, vəziyyətlərini mən yaxşı bilirəm.

Əliyev ona yanaşan və qolunu boynundan asmış olan yaralının adını soruşdu. Firidun özünü təqdim edəndə Əliyev əzizini görmüş kimi, qollarını açıb, onu qucaqladı:

– İzin verin sizi təbrik edim, Sovet İttifaqı Qəhrəmanı Firidun!

Onlar qucaqlaşdılar. Əliyev qəzeti çıxarıb Firiduna göstərdi və əmr edib maşın çağırdı, yaralılarla bərabər cəbhə qərargahına apardı.

## IV

Firidun bir dəstə qəhrəmanla Kremldən çıxanda saat beşi vururdu. Bu axşam Hərbi Akademiyada Sovet İttifaqı Qəhrəmanlarının şərəfinə ziyafət verilirdi. Firidun mənzilinə gələndə ona bir açıq məktub verdilər. Atası yazırdı: "Qəhrəman oğlumu təbrik edirəm. Firidun, dünəndən Moskvadayam, müşavirəyə gəlmişəm, sənin adresini Xalq Müdafiə Komissarlığından tapdım. Evdə ol, görüşək/"

Firidun müəyyən yerlərə zəng etdi. Atasını tapa bilmədi. Mənzilinin yerini deyə bilmədilər. Saat yeddinin yarısınadək gözlədi. Əl boyda məktub yazıb, xidmətçiyə verdi və tapşırdı ki:

– Məni axtaran olsa, Hərbi Akademiyada olacağam.

Firidun ziyafətə gəlmişdi, ancaq fikri atasının yanında idi. Qapıçıya onun üçün dəvətnamə vermişdi. Ziyafət zalında dura bilmir, hər 10-15 dəqiqədən bir aşağı mərtəbəyə düşüb, qapıçıdan soruşurdu. Bu dəfə qapıya yanaşanda hərbi kostyumlu, ucaboy bir adamın qapıdakı

əsgərlə danışdığını gördü və irəli yeridi. Atasını qucaqlayıb öpdü. Atası kürəyində oğlunun bir qolunu duyub diqqətlə o biri qoluna baxdı. Firidun dərhal onun nəzərindəki sualı oxuyub dedi:

– Elə bir şey deyil, işləyəcəkdir. Ancaq anam bilməsin!

Firidun atasının qoluna girib, içəri apardı. Komandirlər bir-birinə yanaşıb nabələd kişini göstərir, soruşur və cavab verirdilər:

– Azərbaycan qəhrəmanı Firidunun atasıdır!

Ahəstə danışan dost və tanışların dilindən bunu eşitmək Firiduna nə nədər xoş idi!

Yalnız indi, illər keçdikdən, isti ana qucağından və ata sayəsindən uzaq, müstəqil, mübarizə və döyüşlərdə bişdikdən, şəxsi istedadına söykənib, həyat yolunda cəsarətlə addımladıqdan sonra, dəhşətlər, fəlakətlər, ölümlərlə üz-üzə gəlib bərkiyən iradəsini imtahanlarda sınadıqdan sonra Firidun öz üzərində heç bir kölgə görmürdü. O indi dağın yanında dağ kimi dayanmışdı. İctimai iftixar günəşinin parlaq işığından feyzlənir, başını daha da uca tuturdu.

Atası Firiduna baxıb fəxr edir, sanki, deyirdi:

– Bu mənim oğlumdur!

Firidun da komissara baxıb sevinir, guya deyirdi:

– Mənim atamdır!

Qəhrəmanlar məclisi ata və oğulun iştirakı ilə şənlənir, təntənəli musiqi sanki deyirdi:

– Bunlar bizimdir! Bizimdir bunlar!

Şəhərdə guruldayan və göylərə nur səpən topların salam atəşləri isə sərhədimizdən çox uzaq yerlərdən, Firidunun döyüş yoldaşlarından, onların yeni-yeni hünərindən aləmə xəbər verirdi.

*1945*



# MİLLƏTİN "MÜALİCƏSİ"

Kiçik zabit Maltus papiros çəkmək üçün ovcunda xəzəl ovurdu ki, bir məktub atdılar. Nürnberq şəhərindən, arvadından gəlmişdi. Sevincək açıb oxudu:

"Mənim əzizim, neçə vaxtdır səndən xəbər yoxdur, nigaranam. Axı sənə nə tapşırmışdım. Deyirlər, Rusiya torpağını bölüşdürürlər. Üç ildir vuruşursan, gərək sənə lap yaxşı yerdə bir malikanə versinlər. Böyüklərə ərizə ver, tələb elə! Qoy Odessada bizə yaxşı mülk versinlər. Bağımız olsun, inək saxlayaq, qaz saxlayaq. Otaqlarımızı kirayəyə verək, ruslardan kəniz tutaq, ömrümüzün axır-uxurunda biz də bir gün görək!/"

Maltus kağızı cırıb atdı, başını tovladı:

– Səfeh qızı, – dedi, – keçi can hayında, qəssab piy! Biz rus mərmilərinin əlindən qaçıb gizlənməyə yer axtarırıq, sən nə xəyaldasan!..

Maltus bir qədər düşünəndən sonra arvadına haqq verdi:

– Nə bilsin, – dedi, – yazıq! Başımıza gələni onlara danışırlar ki!

Oturub müfəssəl bir məktub yazdı. Arvadına nəsihət etdi:

"Marqarita, xəyal şirin, yuxu yaxşı şeydir, heç olmasa, təsəllidir. Amma vaxtı deyil, sənə məsləhət görmürəm. Gümanım var ki, özünü bomba və ya aclıqdan qurtarsan, daldalanmağa bir yuva tapasan. Mənim halımı soruşma. Düşmənini də bu gündə görməyəsən."

Maltusun başı yenə döyüşə qarışdı. Ağzını şərqə doğru çevirməyə macal tapdığı topu vətənə tərəf sürürdü. Mövqelərin birində şiddətli bombalama nəticəsində alay məhv oldu, hər şey batıb-tükəndi. Toplar ölü çəyirtkə kimi bənd-bəndindən qopdu.

Maltusun da sağ qıçı getdi.

Cərrahiyyə əməliyyatından ayılandan sonra Maltus yenə arvadından məktub aldı, görünür ki, bu, onun yazdığına cavab idi:

"Mənim əzizim, məktubunu aldım, mübarək türbət kimi gözlərimə sürtdüm. Yazırsan ki, təzə nişan almışam, böyük zabit rütbəsinə çatmışam. Bilsən nə qədər sevinmişəm. Bir də tapşırıram, malikanə almağı unutma. Krımı tərifləyirlər, bacarsan oradan bir həyət al, ya Kiyevin yanındakı münbit torpaqlardan ələ keçir."

Maltus dalısını oxumadı. Kağızı lülələdi, uzun bir papiros büküb çeynəyə-çeynəyə çəkdi.

– Bəli, – dedi, – millət böyükləri bizim arvad ilə danışmağımızı, yazmağımızı da qadağan etmişlər. Senzuralar soldatın adından ailələrə şirin sözlər yazır ki, arxada əsəblər xarab olmasın. Eybi yoxdur, daha mənim evə qayıtmağıma az qalıb..."

Maltus qoltuq ağacı ilə yeriyib həkim komisyonunun qabağında dayandı. Kəsik qıçını göstərib soruşdu:

– Cənab kapitan, mən evə gedə bilərəmmi?

Kapitan çeşməyini açıb cibinə qoydu və başı ilə "yox" işarəsi verdi:

– Zabitsiniz, savadınız var, sizdən istifadə olunacaq!

Maltusu arxaya, hansı hissəninsə ştabına göndərdilər. Ucaboy, qoldan şikəst bir qadın onu qarşıladı, kürsü göstərdi:

– Otur!

– Yoxsa mənə kartoşka soyduracaqsınız?

– Tapsan soyarsan!

Qadın bunu deyib içəri getdi. Kirli və ağzıaçıq bir qutu gətirib masanın üstünə çevirdi. Qutudan rəngbərəng, müxtəlif həcmdə, müxtəlif biçimdə, müxtəlif ünvanlı məktublar töküldü. Qadın Maltusa dedi:

– Bunları açıb diqqətlə oxuyacaqsan. Əsəblərə toxunan nə varsa qaralayacaqsan. Əvəzinə beş-on kəlmə xoş söz əlavə edəcəksən ki, oxuyanın ürəyi açılsın. Lazım gəlsə bütün məktubu bir tərəfə qoy, özün bir yaxşısını yaz! Millətin ruhuna bələdsən, yaz! Fürerin əmri var, müharibə millətin əsəblərini korlamışdır, müalicə lazımdır!

Hamıdan qabaq, dedi, mən arvadımı müalicə etməliyəm. Elə bir məktub yazmalıyam ki, həm öz halımı bilsin, müsibətimdən xəbər tutsun, həm də ürəyi açılsın, qələbəmizi bayram etməyə hazırlaşsın. Gecənin arxayın çağında, hamının şirin yorğunluq və pərişanlıq yuxusuna getdiyi bir saatda Maltus arvadına "müalicə" məktubu yazdı:

"Əzizim Mara, and olsun yeddi yoldaşımın və qaynımın qəbrinə ki, bir dəqiqə yadıma düşmürsən. Mənim keyfim lap sazdır. Rus bombası sağ qıçımı aparanda nə ləzzət çəkdiyimi təsəvvürə gətirə bilməzsən. Bilirsənmi, rus topu adamı heç incitmir. Qıdıqlayan kimi olur. Yaralanıb çöldə qalmağın böyük səfası var imiş. Tək, rahatca uzanırsan, qıçından qan axır, sərin külək vurur, yara cana yayılır. Elə yüngülləşirsən, rahatlaşırsan ki! Soldat üçün qılça artıq şeydir. Çünki, əl-ayağa dolaşır. Bədən balaca olduqca güllə az dəyir. Yemək-içməkdən heç korluğumuz yoxdur. Zabit beş-on kəlmə danışan kimi, iştahan qaçır, elə bil, yağ içmisən. Yer verəcəklər, qorxma, Odessada, Kiyevdə, Krımda, Sevastopolda bizdən çox adama yer verdilər. Hər kəs boyuna münasib mənzil aldı, uzun soldatlar, gödək generallardan çox yer aldı. Çox yoldaşımız indi haqq dünyada rahatca yatıb bizim yolumuzu gözləyir. Deyəsən, bizi vətəndə, alman torpağında rahatlayacaqlar. Tələsmə, rəhbərimizin sayəsində tezliklə o dünyada görüşərik!."

*1945*

# İKİ SƏS

Pəncərəmdən bir məktub atdılar. Oğlum yazırdı, Qafqaz cəbhəsindən yazırdı. Məktub karandaş ilə tələsik və qısa yazılmışdı. Əsgərin iri və möhkəm barmaqları, əsəbi hərəkətləri sətirlərdən hiss olunurdu. O, məktubunda heç bir yeni mətləb yazmamışdı, mənə deməli, sevindirməli bir xəbər yox idi. Salam göndərir, salamatlığını xəbər verirdi. Mən üç sətirdən ibarət olan oğul məktubunu əsgər məktubu kimi oxudum. Onun müəllifini, bu saat Qafqaz dağlarında düşmənə sinə gərib, bəla sellərinin qabağını kəsmək istəyən igid əsgəri gözümlə gördüm. O, irəli baxır, hətta atasının gəldiyini eşitsə də dönmür, bütün vücudu, diqqət və duyğuları irəlidə, canavar kimi qabağa soxulmaq istəyən faşist avtomatçılarının yerişi, hərəkətindədir. O, güllələrinə qənaət edir. Nişanını bəlləməmiş atmır, çayı bəri keçən, kolluqlarda qurdalanan düşmən nəfərlərini bir-bir şikar kimi dənləyir.

Bu xəyal da olsa, oğlum ilə yaşadığım bu mənzərə mənə dərin, mənəvi bir təskinlik oldu. Başıuca bir ata iftixarı ilə sinəm qalxdı, ürəyim döyündü.



Qalxıb oğlumun otağına keçdim. O həmişə burada dərs hazırlayır, yoldaşlarını başına yığıb əyləşirdi. Bu, onun tələbə kitablarıdır. Bu, komsomol geyimi, bunlar onun yoldaşları ilə xatirə şəkilləri, bu da sədəflənmiş tarıdır.

İcazəsiz oğlumun yazı masasını açıram. Yarımçıq yazılmış kağızlar nizamsız səpələnmişdir. Avtomat qələmin mürəkkəbi qurumuş, kitabları toz basmışdır...

Gözlərimdən axan iki damla yaş ağ kağıza düşür. Bilmirəm bu nə üçündür. Bilmirəm nə üçün, nə üçün ağlayıram? Güzgüdə 58 yaşında ağsaç – ağsaqqal bir kişinin cibinə əl salıb dəsmal axtardığını görürəm. Həmin kişi qızarmış və bulud kimi dolu gözləri ilə mənə baxır, sükutu ilə sanki deyir: "Yaraşarmı?"

Nə üçün ağlayıram, qocalıq taleyimə, yetişmiş bir gəncin tozlu otağına, odlar içinə atılan ciyərparəmin halına, vətənimi hədələyən bəla və müsibətlərəmi, bir qaşıq qanımamı?

Mən çox yaşamış, çox görmüş adamam. Bir oğlum var, ancaq vətən övladının tərbiyəsində yorulmamışam. Qırx ildir məktəbdəyəm. Minlərlə oğul-qız oxutmuşam, yetirmişəm, indi görürəm ki, tələbələrim, oğlum məndən ürəkli, davamlıdır. Bu günlərin ağırlığı onları məyus etsə də, çaşdırmır. Onlar iradələrinin sahibidirlər. Onları tək mən böyütməmişəm, onları həm də vətənin, xalqın atası böyütmüşdür. Onlar, Qızıl Ordunun faşist hücumlarını rədd edən ən böyük və ən möhkəm ordunun sərkərdəsi Stalinin tərbiyəsini görmüş adamlardır. Bizə bundan böyük təsəlli, bundan böyük ümid yoxdur.

■ ■ ■

İndi o günlərdən üç-dörd ay keçmişdir. Mən bu gün oğlumun otağına daxil oluram. Lakin ürəyimdə dərin bir sevinc qaynayır. Qocaya oxşamıram, hərəkətlərim iti, üzüm gülər, zehnim yaz havası kimi açıqdır. Mən indi bu otağa kədərlənmək üçün gəlmirəm. Sanki, oğlumun yanına gəlirəm. Güman edirəm ki, oğlum buradadır, kitabları ilə məş-

ğuldur. Mən bu saat ona yeni və şad xəbər deyəcəyəm:

– Oğul, – deyəcəyəm, – nə oturmusan, bayramımızdır. Faşist qoşunlarını qovub şəhərlərimizdən çıxardıblar. Çəyirtgə sürüsü qırılmışdır. Sənin çox sevdiyin, gəzdiyin yerlər həşəratdan təmizlənmişdir. Faşistlər qərbə tərəf qaçırlar. Qalx, qalx, tarını götür. Stalin yoldaş ordunu, sizin rəhbərinizi təbrik etmişdir. Oğlumun evdə olmadığını, məndən çox-çox uzaqlarda olduğunu xatırlayanda sanki, qəsdən poçtalyon yetişib içəriyə bir ağ zərf uzatdı. Bu zərf, oğlumun adi məktublarından deyildi. Bu da tələsik yazılmışdı, karandaş ilə, kağızın iki üzündə, iri hərflərlə yazılmışdı. Ancaq müfəssəl yazılmışdı. Oğlum qəzetlərdən bildiyim qələbə xəbərlərini sayırdı. O öz hissələrinin hücum rəşadətindən yazır və məni arxayın etmək istəyirdi ki: "ata, inan, inan ki, az qalmışdır. O günə, sizinlə qucaqlaşıb qəti qələbə marşını eşidən günümüzə az qalmışdır. Onda bütün sağalmış yaralarımın, bütün keçilmiş iztirablı günlərimin xatirələri ilə qarşında dayanıb soruşacağam:

– Ata, məndən razısanmı?

Böyük atamdan, Stalindən də soruşacağam. Güman edirəm ki, rəhbər də, Vətən də, sən də məndən razı qalacaqsınız. Onda mən silahı töküb tələbəliyimə, yenə qalın kitabların mənasına dalacağam..."

Mən hansı bir məhəbbətləsə oğlumun məktubunu öpür, gözümə sürtürəm. Onun kitablarını nizama salır, masasını təmizləyirəm. Ona yazmaq üçün təzə mürəkkəb, qələm hazırlayıram. Mənə elə gəlir ki, bu saat qapıdan içəri girəcəkdir. Oğlumu yenə yerində, öz işində, öz həvəsində görəcəyəm. Onun ancaq bir şeyi dəyişmişdir. Üzündəki uşaqlıq cizgiləri, onun qızğın döyüşlərdə bərkimiş əzələləri, əsəbləri, ağırlaşmış baxışları, təmkinli hərəkətlərində mən ordumuzu, faşizmi məğlub etmiş əsgər və komandirlərimizi görürəm. İxtiyarsız tarı mıxçadan alıram. Titrək barmaqlarım pərdələr üzərində gəzdikcə musiqi səsi pərdə-pərdə yayılır. Pəncərəmin qabağındakılar, şərqin incə musiqisinə hörmət, ya çahargahdan duyduqları ləzzət üçün dayanmışlar...

Lakin mən "Çahargah" eşitmirəm. Mənim qulaqlarımda mərmi səslənir. Oğlum, o mahir tarçı səhra topunun arxasında şir kimi tərpəşərək, alovsaçan gözləri ilə düşmənə baxır, qolunu oynadan kimi silahlar səslənir, faşist qoşunlarının başına od yağır. Mən istərdim ki, mərmilərin havanı ölçdüyü yerdə, oğlum düşmən üstünə cumduğu dəqiqələrdə çaldığım "Çahargah"ın səsini eşitsin! Onda oğlum işinə davam edəcək:

– Ata, – deyəcək, – mənim silahım səsləndikcə, sənin həyat mahnıların eşidiləcəkdir!..

*1945*

# QƏLƏMDAN

Əntiqəfüruş Hacı Qılman Daşlı küçədən keçirdi. Yuxarı mərtəbələrdən bir göy pəncərəni taqqıldatdılar. Cavan bir oğlan başını eşiyə uzadıb Hacını səslədi:

– A kişi, o kitablar satlıqdırmı?

Hacı dərhal yerindəcə dayanıb başını göyə qaldırdı. Cavan oğlanı görən kimi, qoltuğundakı uzun, köhnə, meşin cildli kitabları qucağına alıb sovqat kimi irəli apardı. Ürəkdən bir:

– Bəli! – cavabı verdi.

Hacı Qılman cavanın çağırışını gözləməyib soruşdu:

– Qardaşoğlu, pilləkəniniz həyətdəndirmi?

Cavan evin qapısını göstərdi. Hacı Qılman "ya Allah" deyə-deyə, pilləkənləri çıxdı.

Kitabları bir-bir masaya qoyub vəsf eləməyə başladı.

– Bu, Hafiz Şirazidir ki, sözü şərab kimi huşu başından aparır. Bu, Şeyxül Şüəra Nizami Gəncəvinin "Xəmsə"si: "Təvana bəvəd hər ki, dana bəvəd!" Bir kəlamə bax! Elə bil, bu saat deyilib! Bu Rüstəm və Söhrabdır...



Cavan oğlan kitabların ilk vərəqinə baxıb o yana itələdi:

– Əmi, bəs yeni əlifbada bir şeyin yoxdurmu, romandan-zaddan?

Hacı Qılman məyus olub, mətahını yığışdırmağa başladı:

– Yox, yoxumdur! – dedi, – qardaşoğlu, mən yeni əlifba satan deyiləm. Mənimki qədim şairlərin asarıdır! Mən əntiqə şeylərin aludəsiyəm. Sizlərdə tapılsa almağa hazıram.

Cavan oğlan dedi:

– Mənim atam da köhnə şairpərəst idi. Əzbərdən şeir deyərdi.

– Bəs onun kitabı-zadı qalmayıb?

– Xeyr, heç nəyi qalmayıb, təzə evlərə köçəndə sandıq-mandıq hamısı dağıldı-getdi. Ancaq bir dənə köhnə qələmdan qalıb, bilmirəm, içində nə var!

– Qələmdan? Qələmdan yox! Qələmdan indi kimin nəyinə lazımdır? Gül kimi şüşə mürəkkəb qablarına nə gəlib! Özü də ucuz!

Hacının sözü cavan oğlana toxundu:

– Mən qələmdanı sənə bahalı bir şey demədim ki, atamın asarından qalan odur. Sən soruşdun, mən də dedim.

Hacı bir az duruxdu:

– Nə eybi var, o köhnə qələmdana baxa bilərəmmi?

Cavan içəri otağa getdi, bir qədərdən sonra əllərinin tozunu üfürə-üfürə qayıtdı. Qələmdanı Hacı Qılmanın qabağına qoydu.

Həmin cavan oğlan mərhum xarrat Fərzi oğlu Kərbəlayi Məhəmmədin nəvəsi idi. Kərbəlayi Məhəmməd vaxtilə şəhərdə məşhur ustaların biri idi. Səliqəli, zərif işi var idi. Əvvəllər çubuq qayırıb göyərti bazarına gələn kəndlilərə satardı. Papiros bollananda bəzəkli müştüklər qayırardı. Ağac qaşıq, duzqabı, çömçə, iynədan, sürmədan... Kərbəlayi Məhəmmədin əlindən nə gəlməzdi?

Lap cavan və həvəsli vaxtlarında qələmdan qayırardı.

O zaman şəhərin hər tini başında, görərdin, qabağına mücrü qoyub oturan mirzələr qamış qələmlərini cırıldadaraq gəlib gedənə ərizə, kağız, qəbz, vəkalətnamə yazır. Bu mirzələr Kərbəlayi Məhəmmədin qələmdanlarına aşiq idilər. Neçəyə desəydi alardılar. Çünki, Kərbəlayi Məhəmməd yalnız qələmdan qayırırdı. İşə ayrı bir məlahət verirdi.

Qələmdanı qaşıyıb şüşə kimi şumallaşdırandan sonra şirə çəkərdi, şirənin üstündən rəngbərəng naxış vurar, taxtanı kəpənək qanadı kimi elə bəzərdi ki, deyərdin, buna əl dəyməyib, qüdrətdən yaranıb! Qələmdanın içində, xəlvət bir küncdə usta öz möhürünü basmağı da unutmazdı: "Kərbəlayi Məhəmməd."

Kərbəlayi Məhəmməd dünyada bir qız övladı qoyub getdi.

Əntiqəfüruş Hacı ilə görüşən cavan oğlan həmin qızın oğlu Səfərdir. Səfər uşaqlıqdan evlərində ağacdan qayrılma, qəşəng şeylər çox görmüşdü və hərəsini bir qədər oynadıb, kim bilsin, hara atmışdı?! Bu qələmdanı da anası götürüb sandıqda saxlamışdı. Guya qoca usta bunu xüsusi səliqə ilə işləmişdi. Qızına tapşırmışdı ki, "Bala, mənim oğlum yoxdur, bunu sənin oğluna yadigar verirəm. Allah qoysa, zəmanəsində o, yazan, oxuyan olar. Bunu verərsən, qoca babasını yada salar."

Anası qocanın bu sözlərini Səfərə demişdi-deməmişdi, məlum deyil. Bizə məlum olan budur ki, Səfər həmin qələmdana bir asari-ətiqə kimi baxırdı, ona görə də Hacı Qılmana göstərirdi. Hacı Qılman qələmdanın bir o yanına, bir bu yanına baxdı, gülümsədi:

– Ay keçən əyyam... Namərd dünya!..

Bunu deyib bir ah çəkdi. Səfər soruşdu:

– Əmi, deyəsən, cavanlığın yadına düşüb? Sən də yazardınmı?

– Bəs nədi, qardaşoğlu? Bu qələmdana baxıram, aləm gəlir durur gözümün qabağında... Bu qələmdanlarda nə qədər mürəkkəb qurutmuşam! Xeyir-bərəkət elə, bala, bunlar ilə getdi.

Hacı qələmdanı açdı. İçinə diqqət elədi. Ustanın möhürünü görəndə sevincindən gözü duru oldu, çeşməyini taxıb möhürü dönə-dönə oxudu:

Səfər dedi:

– Yoxsa yazısı var? Nə yazılıb?

– Bir elə şey yazılmayıb!

Hacı sevincini gizləməyə çalışdı və qələmdanı örtüb Səfərin qabağına qoydu:

– Köhnə zamanda bunun qiyməti var idi, amma indi quru bir taxtadır, nə artıq, nə əskik?



– A kişi, bəs sən heç bunun bu naxışlarına qiymət qoymursan? Demirsən, bunu heç bir karxana qayıra bilməz?

Hacı Qılman bərkdən danışdı.

– Mən qoyuram! Mənim yanımda, əlbət ki, bu bir dövrün malıdır! Amma, bacıoğlu, mənim sözümün nə kəsəri! Çıxarsan bazara, buna baxan kimdir? Zəmanə belədir!

Səfər qələmdanı alıb arakəsməyə qoydu:

– Əmi, – dedi, – əlinə yeni romandan, nə bilim, məzəli kitabdan düşsə gətir, mən oxumaq istəyirəm.

Hacı Qılman "baş üstə" deyib, xudahafizləşmək istədi. Amma ayaqları getmədi. Qapıdan dönüb üzünü Səfərə tutdu:

– Qardaşoğlu, sənə lazım olmayacaq! Gəl sən onu mənə yadigar ver, elə-belə qabağıma qoyub cavanlığımı yada salmaq istəyirəm. Mən də sənə layiqli bir kitab gətirərəm, əvəzi çıxar!

Səfər qələmdanı Hacıya verdi:

– Apar, yadigar olsun, ustasına rəhmət oxu!

Hacı qələmdanı qoltuq cibinə qoyub razılıq elədi:

– Allah sənə ömr versin, atana da rəhmət eləsin! İnşallah, görüşərik! – deyib Səfərin əlini sıxdı və otaqdan çıxdı.

Bir həftə sonra qəzetlərin birində Hacı Qılmanın "Qələmdan" sərlövhəli bir məqaləsi çıxdı. Hacı Qılman məqaləsinin başında Füzulinin şairlik məharətindən və ona mənsub hər bir əsərin zəmanəmiz üçün qədir və qiymətindən beş-on kəlmə danışıb, sonra şairin yenicə tapılmış qələmdanından söhbət açırdı. Göstərirdi ki, Füzulinin qələmdanının tapılmağı ədəbiyyat tarixi üçün yeni üfüqlər açır, çünki, bu qələmdan vasitəsilə biz şairin zövqünə daha yaxından bələd olacayıq. Bu qələmdan vasitəsilə biz o dövrün rəssamlığı haqqında müəyyən fikir hasil edəcəyik. Bu qələmdan sayəsində biz Füzulinin necə işlədiyini də öyrənəcəyik. Nəhayət, bu qələmdan dörd yüz il bundan qabaq xırda kustarlıq peşəsinin vəziyyəti haqqında da bizə çox şeylər söyləyəcəkdir...

Qəzet idarəsində Hacı Qılmandan xahiş etdilər ki, "O qələmdana

baxmaq olarmı?"

Hacı Qılman güldü:

– Canım, – dedi, – hələ qoyun bir məqaləni yazaq qurtaraq, sonra sualınızı verin də!

– Necə bəyəm, çap olunan məqalə natamamdır?

– Əlbəttə, natamamdır! O birinci məqalədir! İkinci məqalə qələmdanın tapılma tarixindən danışacaq, necə bəndəniz Məkkə ziyarətindən qayıdanda bağdadlı bir ərəbə rast gəldiyini açıb göstərəcək. Ona mən köz kimi məcidiyyələr saymışam, yoxsa özbaşına Füzulinin qələmdanı atılıb ortaya çıxmazdı. Onu çıxardan var! Bəli! Üçüncü məqalə qələmdanın ətraflı təsvirini verəcək, dördüncü məqalədə onun indiyə kimi necə saxlanmasından bəhs edəcəyəm, beşinci məqalədə...

Hacının sözünü kəsdilər:

– A kişi, bunlar sənin özünə qalsın! Bizə məqalə lazım deyil, qələmdan lazımdır!

Hacı Qılmanın təkrar dodaqları qaçdı. Hənası getmiş ağ bığlarının altından saralmış dişləri göründü.

– Qardaşoğlu, – dedi, – öyrətmək olmasın, hər kəsin bir sənəti, peşəsi var. O qəzeti ki siz sətir-sətir qurğuşunlarda yığıb, düzüb çap edirsiniz, səhər hazır meydana çıxarırsınız, dünyalara dəyər. Mənə desələr, onun heç bir sətirini yığa bilmərəm, əlində mat-məəttəl qalaram. Çünki, qardaşoğlu, sənətim deyil! Sizin sənətinizdir öyrənmisiniz, səriştə etmisiniz, amma mən bu məqamda avam bir zadam. Allah-taala özü də buyurur ki, "Əl əvam gəl həvam", yəni, əvam adam – heyvan mənziləsindəndir!

İndi, qardaşoğlu, baş ağrısı olmasın, qələmdan məsələsi də elə! Əlbət ki, onu xiridarı yaxşı bilər. Əlbət ki, sizin əlinizə düşsə, üç günün içində əldən-ələ keçirərsiniz. O baxar, bu çevirər, o birisi qurdalayar, dördüncüsü laxladar, bir də görərsən, qələmdan olmadı, oldu pitiçi dükanlarının duzdanı!

Odur ki, qardaşoğlu, xatırınıza dəyməsin, qələmdanı ələ vermək olmur. Elə təsvir, izah, yazı yolu ilə vətəndaşları bu fəqərədən agah edirik. Məsələnin əsl yolu budur. Qəzet işi deyil, bu sənətdə mən saç-saqqal ağartmışam, ömür çürütmüşəm, xüsusən də ki, Füzuli ola! O kişinin



qələmdanı mənim aləmimdə bimisal və ziqiymət şeydir. Onu heç vaxt ələ-zada vermərəm, məgərinki rəsmi hökumətimiz məndən xahiş, ya tələb etməyə!

## II

Bu gün nədənsə, Hacı Qılman neçə dəfə muzeyin qabağından aşağı-yuxarı keçdi, ağacını səkiyə döyüb öskürdüsə də, onu içəri çağıran olmadı. Axırda özü içəri girib vacib iş sahibi kimi telefona yaxın getdi və üzünü xadiməyə tutub dedi:

– Qızım, telefonda iki kəlmə danışmağa rüsxət olar?

Muzey müdiri o biri otağa boylanıb Hacı Qılmanı yanına çağırdı:

– Hacı, – dedi, – bu nə işdir, görükmürsən, yan keçirsən!

– Başım qarışıqdır, yoldaş müdir.

– Nə olub, bəyəm?

– Sağlığın, bir şey olmayıb, Tiflisdən zəng eləyib çağırırlar. Füzulinin qələmdanı məsələsi üçün.

Müdir hirsləndi:

– Hacı! Hacı! Bizə eyib olmaz ki, sən elə bir qiymətli şeyi, böyük şairimizin asarını ayrı şəhərlərə aparasan? Sən özün yaxşı bilirsən ki, Füzulinin yubileyinə hazırlaşırıq!

Hacı irəli yeriyib oturdu, bir əli ilə ağacına, o biri əli ilə masaya söykənib müdirin qabağına əyildi və pıçıltılı bir səslə dedi:

– Əlbət ki, əlbət ki, hamıdan qabaq mənim özümə eyib olar. Amma nə edim, haradansa, kimdənsə xəbər tutublar. İki gündür telefon-telefon üstündən, sifariş-sifariş üstündən, axırda boyun qaçırtmışam, nömrə zad vermirəm, evdə də oturmuram ki...

– Hacı, deyirlər, siz o qələmdanı ələ vermirsiniz. Çox yaxşı, adam göndərsək, evdə elə-belə baxmağa icazə olarmı?

Hacı bir az duruxdu:

– Necə adam? Necə yəni, elə-belə!

– Demək istəyirəm ki, biz almaq istəyiriksə, axı gərək əhli-xibrə olsun, qiymət qoyulsun. Baxılmamış ki, bu, mümkün deyil!

Hacı bir öskürdü və başı ilə razılıq işarəsi verdi:

– Əhli-xibrə olanda nə sözüm? Əlbət ki, gərək qiymət oluna!

Müdir Hacının ağzını yoxlamaq istədi:

– Hacı, – dedi, – mal sənindir, yəqin ki, rəyiniz var, hökumət muzeyi onu almaq istəsə, neçəyə deyərsiniz?

Hacı gülümsədi:

– Mal, – dedi, – mənim deyil, böyük şair Füzulinindir!

– İndi ixtiyarı sizdədir, neçə qiymət qoyursunuz?

– Vallah, mən ona neçə qiymət qoyum!

– Yenə, bir qələmdandır da, neçəyə olsa, yaxşıdır!

Hacı hirslənən kimi oldu, qalxıb təzədən oturdu:

– Xeyr, qələmdan deyil, Füzulinin qələmdanıdır!

– Yaxşı, elə olsun!

– Siz buyuran kimi, bir qələmdan olsaydı, mən onun heç söhbətini eləməzdim. Amma Füzuli adı ki gəldi, doğrusu, mən qiymət qoymaqdan acizəm! Bax, bu saat durum gözümün qabağındakı 7 mərtəbə binaya baxım, gözəyarı qiymət qoyum, – bunu bacararam, yanılmaram. Yanılsam da, cüzi! Amma ki, Füzulinin qələmdanına qiymət deməkdən nitqim acizdir. Belə şeyə cürət eləmərəm. Zira, bu tərazu o qədər siqləti çəkməz!

Müdir Hacının şeir ilə danışdığına bir az xoşhallandı. Ancaq sualında israr etdi:

– Ay Hacı, hər halda siz onu əldə etmisiniz, yəqin ki, müəyyən bir qiymətə mal olub, öz zəhmət haqqınızı və səyinizi də üstünə gəlin, təxmini bir qiymət deyin də!

Hacı bu dəfə də gülümsədi. Ancaq bu, istehza və bir az da məyusluq ifadə edən gülüş idi. Ona görə də başını aşağı dikdi, döşəməyə baxa-baxa, sanki, bu söhbətlərin nəticəsində ümidini kəsmiş bir ədə ilə danışdı.

– "Müəyyən qiymətə mal olub" deyəndə bir təhər çıxır, mən onu baqqal dükanından almamışam. Heç yerdə elə şey satmırlar və satmazlar. Necə onu mən kəşf eləmişəm, mətləb tuldur. Sağlıq olsa, bu barədə yazarlar, oxuyarsınız!

Müdir Hacıdan bir söz ala bilməyəcəyini yəqin edib ayağa qalxdı:



– Yaxşı, Hacı, qiymət məsələsi qalsın! Bizim elmi işçimiz Mirzə Məhəmməd sizinlə getsin, qələmdana baxsın, sonra yoldaşlar ilə oturub ətraflı məsləhətləşərik!

Hacı da ayağa qalxdı:

– Xub! Çox gözəl! Siz buyuran olsun, nə deyirəm.

Hacı "xudahafiz" deyib idarədən çıxdı.

## III

Hacı Qılman Mirzə Məhəmmədin muzeydə işlədiyini bilirdi, çünki, gedib-gələndə neçə dəfə başaşağı oturub qabağındakı kitabları mütaliə və müayinə edən görmüşdü, amma Mirzə Məhəmmədin halına-xasiyyətinə bələd deyildi. Belə bir bələdliyə ehtiyac da duymamışdı. Hacı Qılman güman etməzdi ki, muzey müdiri belə məsələni Mirzə Məhəmmədə etibar edər! Hacı, iki addım gedəndən sonra üzünü müsahibinə tutub soruşdu:

– Mirzə, siz çoxdanmı muzeydə işləyirsiniz?

– Var bir üç il!

– Qarabağ adamına oxşayırsınız.

– Xeyr, əslim qazaxlıdır.

– Neynək! Qazaxlılar da əhvallı adam olurlar. Bu qələmdan barəsində bir məqalə nəşr olunmuşdu. Yəqin ki, nəzərinizə dəyib?

Mirzə bir az sükutdan sonra dedi:

– Oxumuşam, bəli, deyəsən, oxumuşam!

Hacı Mirzənin bu cavabından bir qədər mütəəssir olub ürəyində fikirləşdi: "Deyəsən, həlləm-qəlləm adama oxşayır. Yoxsa müdir zalım oğlu qəsdən bunu mənə qoşub ki, əməlli çərçilik eləsin?"

Hacı evə qədər daha Mirzəni dindirmədi. Qapıdan girən kimi, içəri otaqlara tərəf yeridi və bərkdən dedi:

– Ay uşaqlar, çay qoyun!

Mirzə etiraz etdi:

– Hacı, mən gedəcəyəm, uşaqlara zəhmət verməyin!

– Bir stəkan çayın heç bir zəhməti yoxdur.

Hacı boxçaya bükülü uzun bir şey gətirdi. "Bismillah" – deyib boxçanın qulağını qatladı. Məxmər qab içindən qələmdanı çıxarıb ehtiyat ilə masa üzərinə qoydu:

– Buyurun, əllərinizi dəsmal ilə silin ki, tər-zad olar.

Mirzə qalxıb əllərini yudu, dəsmal ilə silib qələmdanı müayinəyə başladı.

– Hacı, – dedi, – bu, neçə ildir sizdədir?

– On beş ildən çoxdur.

– Nə əcəb indiyəcən bu barədə deməmisiniz? Füzuli yubileyi məsələsi çıxanda deyirsiniz.

Mirzənin bu sualı Hacını qəzəbləndirdi:

– Mirzə, bununla nə demək istəyirsiniz?

– Demək istəyirəm ki, ictimai aləm üçün maraqlı şeyi on beş il boxçada saxlamaq çox hövsələ istər.

– Bunda mən müqəssir deyiləm! Xiridar gərək! "Qədri-zər – zərgər bədanəd qədri-köhər – köhəri". Əzizim, nadir şey – hər ələ verilməz. Bu gün həmin qələmdan əbəs yerə sizin hüzurunuza gəlməyib, əgər xuda nə kərdə sizin kimi nüktədan simalara rast gəlməsəm, qələmdan on beş il yox, otuz il də sandıqda yatası idi və yatacaq idi. Buna inan!

Mirzə qələmdanı o yan-bu yana çevirib soruşdu:

– Füzulinin dediyiniz bu qələmdandır?

Hacı bu sualdan da qəzəbləndi, lakin qəzəbini gizlətdi:

– Bəli, bu qələmdandır!

Mirzə dedi:

– İnana bilmirəm.

– Niyə inana bilmirsiniz?

– Çünki, çox təzədir, dörd yüz il qabaqdan qalana oxşamır.

Hacı qələmdanı cəld götürüb Mirzənin, az qala, gözünün içinə apardı. Şəhadət barmağını sürtüb dedi:

– Bu şiri görürsənmi? Bu şiri sənin də üzünə çəksəm, dörd yüz il qalarsan!

Mirzə papağını başına qoyub durmaq istədi.

Hacı soruşdu:

– Deməli, inanmırsınız!



– Xeyr, bu qələmdanda mən bir köhnəlik görmürəm.

Hacı Mirzənin üzünə əyri-əyri baxdı:

– Mirzə, siz, görünür, asari-ətiqə tanımırsınız. Bu qələmdan qədim maldır, özü də lap mərhum şairimizindir.

– Sübut?

– Sübutmu?

– Əlbəttə, sübut lazımdır!

– Buyur, bu da sübut!

Hacı bunu deyib qələmdanın içini açdı. Küncdəki möhür, yazını Mirzənin nəzərinə yenə yetirdi. Mirzənin cavabını gözləmədən dönə-dönə təkrar etdi:

– Bu da sübut!

Mirzə möhürə diqqət verdi. Yazını oxuyandan sonra sakitcə qələmdanı yerə qoyub dedi:

– Aydındır!

Sevincdən Hacının gözləri məşəl kimi parladı.

– Aydın oldu ki?

– Bəli, oldu!

Hacı, hərifini məğlub etmiş pəhlivanlar kimi, məğrur öskürdü və əlini bığlarına çəkib dedi:

– Mənə Hacı Qılman deyərlər! Saç-saqqal ağartmışam, Mirzə!

Mirzə ayağa qalxıb qapıya sarı yönələndə Hacı təəccübləndi:

– Hara bəs?

– İdarəyə!

– Bəs sözümüz harada qaldı?

– Nə söz?

– Lap yəqin hasil etdinizmi?

– Lap!

Hacı Mirzənin ağzını yoxlamaq istədi:

– Yaxşı, bəs qiymət barəsində müdirə nə deyəcəksiniz?

Mirzə gülümsədi:

– Mənim bir sözüm yoxdur. Bəlkə müdirin sözü var, soruşarsınız?

Hacını heyrət basdı:

– Necə yəni sözüm yoxdur, kişi sizi münsif göndərməyib?

– Bu, mən deyən qələmdan deyil, Hacı?
Hacı ayaq üstdə qurudu:
– Möhürə də inanmırsınız?
– Möhürə inanıram, ona görə də deyirəm mən deyən deyil!
– Füzulinin möhürünə inanmırsınız ki?
– Bu möhür Füzulinin deyil.
– Necə Füzulinin deyil, "Füzuli Kərbəlayi Məhəmməd" bəs kimdir?
– Bu, xarrat Məhəmmədin işidir.
Hacı qələmdanı götürüb qabına qoydu, büküb gizlətdi və başıaşağı mızıldandı:
– Mirzə, – dedi, – zarafat yaxşı şeydir, amma belə yerdə yox!
Mirzə ciddiliyini saxladı:
– Hacı, bu qələmdandan mən sənə neçəsini desən taparam, özü də həmin möhür ilə! Biri mənim özümdə var.
Hacı əsasını əlinə alıb paltosunu geyindi.
– Buyur, Mirzə, gedək, sizdəki qələmdana mən baxım!
Hacı Mirzənin qələmdanına baxdı, baxdı. Bu fikrə gəldi ki:
– Heç bir təəccüblü şey yoxdur. Füzuli kimi böyük şairin bir yox, beş qələmdanı ola bilər və yəqin ki, var imiş də! İndi, ay Mirzə, görürəm, səndə bu qələmdana nə həvəs var, nə hörmət, gəl bunu mənə sat!
Mirzə dedi:
– Onun maliyyatı nədir ki, mən pul ilə satım. İndi ki, meyliniz var, götürün aparın, verdim sizə!
– Allah razı olsun!
Hacı bu qələmdanı da götürüb cibinə qoydu. Müşkül bir məsələni düşünürmüş kimi, bir müddət gözünü bir nöqtədən ayırmadı. Nəhayət, sözə başladı:
– Mirzə, – dedi, – sözün açığı belədir ki, mən bu qələmdanı axtarırdım, yaxşı oldu ki, sən verdin! Bu gördüyün qələmdanların uzun tarixçəsi var. İndi tədqiqatçılar tamam bixəbərdirlər. Bu qələmdanları zəmanənin hökmdarı Füzuliyə hədiyyə vermək üçün xüsusi sifariş ilə hazırlatmışlar.
Mirzə istehzasını gizlədərək soruşdu:



– Bir şairə neçə qələmdan lazım olur bəyəm, Hacı?
– Düz buyurursan, bu sual mənim də qarşımda durmuşdu. Həftələr, aylar ilə bu məsələ məni məşğul etmişdir. Axırda təsadüfən əlimə keçən bir bəyaz bu sirri açmağa mənə kömək etdi. Zəmanənin hökmdarı, aşkar desək, Ayas paşa Füzulinin xatirini o qədər istəyirdi ki, gəl gör! Odur ki, sadəcə bir qələmdan alıb bağışlamağı rəva görməmiş, bütün Bağdad ustalarına elan verib müsabiqə elan etmişdir: "Kim böyük şairə layiq qələmdan gətirsə, içi dolusu qızıl aparacaq!" Bunu eşidən xarratlar tamam işlərini bir kənara qoyub qələmdan hazırlamağa başlamışdılar... Bəli, Mirzə, bu qələmdanların ikisini, hətta on ikisini də görsən, təəccüb eləmə. Bunların hamısı Füzulinin adına hazırlanmış hədiyyələrdir.
Mirzə:
– Hacı, Allah bu sevdada sənə xeyir versin, – deyib, ayağa qalxdı. Hacı istər-istəməz əl verib xudahafizləşməyə məcbur oldu.

## *IV*

Hacı, "Ayas paşanın böyük şairə hədiyyələri" deyə yazdığı məqalə qoltuğunda qəzet-jurnal idarələrinin qapısını döydü. Heç yerdə etina etmədilər. "Heç eybi yoxdur, – dedi, – sizə yuxarıdan tapşıranda əl-ayağa düşərsiniz, özünüz yalvararsınız."
Tez oturub Füzuli yubileyinin məsul işçilərinə bir məktub yazdı. Məqalələrinə muzey müdirinin etinasızlığından, böyük şairin mirasına layiqi hörmət olunmadığından bacardıqca yazdı.
Hacı şikayətinin cavabına müntəzir idi ki, qəzetdə elan gördü. Bu gecə mədəniyyət sarayında şairin yubileyi keçirilir. Şairin həyat və yaradıcılığını göstərən sərgi açılmışdır. Hacı qələmdanı qoltuq cibinə qoyub dayanmadan özünü mədəniyyət sarayına saldı. Sərgini ötəri nəzərdən keçirib sərgi rəhbərinin yanına gəldi:
– Yəqin ki, Füzulinin qələmdanı haqqında mətbuatda çıxan məqalələr nəzərinizə dəyib?
– Dəyib!

– Yaxşı, bəs qələmdan bu sərgidə də olmayıb, harada olacaq? Belə bir təntənəli mərasimdə xalq gərək öz şairinin əziz yadigarı olan bu nadir qələmdana baxsın, ya baxmasın? Xüsusilə nəzərə alanda ki...

Hacı danışa-danışa qələmdanı qoltuğundan çıxarıb nümayiş etdirmək, onun "imzasını" camaata göstərib diqqət cəlb etmək istəyirdi ki, Səfər Hacının qolundan tutdu:

– Əmi, – dedi, – o qələmdandan yenə var ha! Bizim qohumlarda çox qalıb, lazım olsa, gəl apar!

Hacı başını qaldırıb qələmdan sahibini, onu macəraya salan cavan oğlanı görəndə rəngi dəyişdi, qələmdanı qoltuğuna qoyub tələsdi:

– Deyəsən, məni çağıran var, bir dayanın görüm!

Hacı pilləkənlərdən elə sürətlə düşdü ki, heç uşaqlığında elə çəldlik etməmişdi.

*1945*



# SİLAH QARDAŞLARI

## I

Böyük otaqdan dəhlizə, dəhlizdən də dalana açılan qapılar örtülməmişdi. Üzü pəncərəyə, arxası qapıya dayanıb namaz qılan Səltənət yenicə başını qaldırmışdı ki, həyət qapısı açıldı. Mehribanın uşağı kim ilə, nə isə danışdı. Dalanda və sonra daş pilləkənlərdə ayaq səsləri eşidildi. Səltənət bu zaman əllərini göyə qaldırıb dua edirdi: kim bilir, bu saat hansı səngərlərdə dayanan, ya çətin yollarda at sürən, düşmənlə tutuşan, gülləni-gülləyə calayıb, qan-tər içində top atan oğlunu – Nəcəfi nəzərinə gətirir, özü hiss etmədən səsini ucaldırdı:

– İlahi! Balamı yaman əldən saxla!

Pilləkənlərdən yuxarı dırmaşan adam düz buraya, Səltənətin evinə gəlirdi. Ağır və dəmirli soldat çəkmələri ilə möhkəm və yeyin yeriyən, heç nə soruşmadan, heç kəsi çağırmadan, heç bir tərəddüd etmədən gələn adam kim ola bilərdi?

Bunu düşünən kimi, Səltənətin vücudu bir an od təki yandı. Əlini

duadan salıb cəld ayağa qalxmaq istədi. Yerimək istəyəndə dizlərinin tutulduğunu duydu. Daha bərkdən, bəlkə də, müdhiş bir ifadə ilə dedi:

– Xeyir ola?

O, qapıya sarı dönməmişdi ki, alçaqboy, dolu gövdəli, bir əlini çiynindən asmış, qolsuz kürk geyinmiş bir əsgər astanada dayandı, hərbi təzim edirmiş kimi, əlini alnına apardı, icazə istədi:

– Razreşite!

Səltənət çətinliklə dönüb qapıdakını görəndə, gələn adamın Nəcəf olmadığını biləndə vücudu buza döndü. Bütün əsəbləri sustaldı. Qadın pərişan bir halda kələğayısını başında düzəldib qonağın qabağına çıxdı:

– Kimdir gələn?

Əsgər qoltuq cibindən qatlanmış bir kağız çıxarıb əlində tutdu və gülümsəyərək dedi:

– Nəcəf Turabovun evi buradadırmı?

Səltənət heç bir cavab vermədi. Ona görə dinmədi ki, bu sualı çox eşitmişdi və özü də bələlərindən çox görmüşdü. Nəcəf orduya gedəndən bir neçə ay sonraya qədər hərbi komissarlıqdan çağırış vərəqəsi gətirirdilər. Nəcəfin adını necə çalpaşıq salmışdılarsa, onu axtarır, orduya çağırırdılar. Səltənət bütün bunlara əsəbiləşmiş, çağırış vərəqəsi gətirənə ağır sözlər demişdi:

– Nəcəf altı aydır davada ölüb-öldürür, siz hələ burada axtarırsınız?!

Səltənət bugünkü qonağı da çağırış vərəqəsi gətirən bilmişdi. Ona görə deməyə söz axtarırdı.

Əsgər Səltənətin sükutunu görüb elə güman etdi ki, qadın təsirlənmişdir. Oğlundan gələn xəbərin nigarançılığından anaların bəzən dili də tutulur.

– Sizə, – dedi, – xala, xoş xəbər gətirmişəm! Nəcəfdən məktub var!

Səltənət bunu eşidən kimi, bükülmüş qamətini düzəltdi, parıldayan gözlərini əsgərin əlindəki cızıqlı kağıza dikib bərkdən dedi:

– Nə danışırsan? – Cəld məktubu aldı. – Can! Anan ölsün, ay Nəcəf! – deyib öpdü, gözünə sürtdü. Kürsü çəkib əsgərə təklif etdi. – Otur, bala!



Əsgər oturdu. Səltənət aşağı qaçıb Mehribanı çağırdı:

– Mehriban, xəbər var, yuxarı çıx!

Mehribanı gözləməyib evinə qayıtdı. Məktubu qoynuna, can köynəyinin altına qoydu. Sol əlini ipək köynəyinin üstündən qoyub sıxdı. Sanki, oğlunun məktubunda gözə görünməyən, lakin insana can verən bir şey, bir qüvvə, bir hikmət duymuşdu: bu qüvvət qəlbinə, vücuduna keçsin deyə, məktubu sinəsinə, ürəyinin başına sürtür, dodaqlarını tərpədərək körpəyə deyilən, eşidilməz bir səslə deyirdi:

– Can bala!

Tək oturan, maraqla Səltənətin evini süzən, hər səliqəyə diqqət edən əsgər Nəcəfin döyüş yoldaşı Aleksandr Zvonaryov idi. O, Nəcəflə cəbhədə tanış olmuşdu. Yaralanan günə qədər baş leytenant Nəcəfin adyutantı idi. Nəcəf onu Alyoşa çağırır, xatirini çox istərdi. Sakitlikdə həqiqi köməkçi, döyüşdə möhkəm arxa olan bu rus gənc komandirinin həyatını öz həyatından əziz tutub qoruyurdu. Dubovka kəndi uğrundakı axırıncı vuruşmada vücudunu təhlükəyə atan və Nəcəfi qəfil güllədən xilas edən Alyoşa sol qolundan yaralansa da, ağac başında gizlənən bir düşmən snayperini vurub gəbərtmişdi. Nəcəf nə qədər əmr edib hədələmişdisə, Alyoşa meydanı tərk etməmişdi:

– Yoldaş komandir, – demişdi, – mən sizi qoyub gedə bilmərəm. Sağ əlim salamatdır!

Axşam Nəcəf özü onu tibbi məntəqəyə yola saldı. Alyoşanın uzunmüddətli müalicəyə möhtac olduğunu görüb məntəqədə onu saxlamadılar. Təyyarəyə qoyub arxa xəstəxanaların birinə göndərməli oldular.

Alyoşa Bakıya göndərildiyini bilib sevindi. Komandirdən məktub, xüsusən adres almadığına təəssüf etdi: "Hər halda, mən Nəcəfin anasını sevindirməliyəm..."

Aleksandr Zvonaryov xəstəxanada 42 gün yatdı. Bu günlər onun ən çox darıxdığı günlər idi.

Xəstəxanaya çevrilmiş bu otaqlar, vaxtilə şəhərin məşhur məktəblərindən birinin binası idi. Aleksandr uşaq vaxtı burada oxumuşdu, gəncliyində burada dərs demişdi. İndi də burada müalicə olunurdu. Aleksandrı hər şeydən artıq darıxdıran bu idi ki, qolunun lülə sümüyü-

nü zədələyən güllə yarası çox yavaş-yavaş yaxşı olur. O, bu yaranın müalicəpəzir olduğunu eşidəndə güman etmişdi ki: "Beş-on günə vəzifəmə qayıdaram". Sən demə, bədən, insan üzvləri öz qanunları ilə yaşayıb inkişaf edirmiş. Buradakı tədric nə əmr, nə xahiş, nə də həkim hökmü ilə dəyişər. Bir an içində amansız güllənin söküb açdığı yara yerinin əvvəlki vəziyyətinə qayıtması üçün bir xeyli vaxt lazımdır. Atalar demişdir: azar batman-batman gələr, misqal-misqal çıxar.

Doğrudur, burada yoldaş çox idi. Müxtəlif cəbhələrdən, müxtəlif vəzifəli, müxtəlif xasiyyətli adamların hamısına indi bir ad verilmişdi: "Xəstə."

Həkimlər də, bacılar da, qulluqçular da, söhbətə gələn mühazirəçilər də buradakıları həmin adla çağırırdılar. İstirahət saatlarında hər kəs öz başına gələndən danışır, müharibə haqqında mülahizələrini, gələcək niyyətlərini deyirdi.

Alyoşanın isə çox vaxtı kağız oxumağa və kağız yazmağa sərf olunurdu. Bu qırx iki gündə o, Nəcəfə beş məktub yazmışdı, ancaq ikisinə cavab almışdı. Birinci məktubda öz halını təsvir edib Nəcəfdən ünvan və cavab istəmişdi: "Yoldaş komandir, mən istəmirəm, sizin evinizə əliboş gedim. Anana ən yaxşı hədiyyə oğul məktubudur. Xahiş edirəm, mənim zərfimdə ananıza yazın, mən özüm təqdim edəcəyəm."

Nəcəf də Alyoşanın xahişinə əməl etmişdi.

Alyoşanın yarası yaxşı olmuş, bağlanmışdısa da, qolu ağrısız hərəkət etmirdi. Onu üç ay möhlət ilə buraxıb vaxt bitəndə yenidən komissiyaya salınmasını lazım gördülər. Xəstəxanadan çıxan, hərbi libasını geyən kimi, Alyoşa birbaş şəhərin yuxarı hissəsinə, Mirzə Fətəli küçəsinə, Nəcəf Turabovun evinə gəldi.

## II

Səltənət oğlundan aldığı son məktubdan həm sevinmiş, həm qüssələnmişdi. Sevinmişdi ona görə ki, məktubu oxunanda Nəcəfin səsini eşitmiş, nəfəsini duymuş, gülümsər üzünü görmüşdü. Qüssələnməyinə də səbəb o idi ki, Nəcəf əziz bir yoldaşının yaralandığını yazırdı. Əlbət ki, Səltənət yaralanan adamı görməmişdi, tanımırdı və onun halına, ancaq başqa yaralıların halına yandığı qədər yana bilərdi.





Onu daha çox qüssələndirən bir ayrı şey idi. O, Nəcəfin məktubundan duyurdu ki, oğlu lap qabaqda, qorxulu yerdədir. "Bu gün yoldaşının başına gələn iş, Allah eləməmiş, dilim qurusun, sabah Nəcəfin başına gəlsə, mən neylərəm, əlimdən nə gələrdi?.." deyə düşünürdü.

Bu qayğı ilə düşünən, gəzən, işləyən, dincəlmək bilməyən qadın bəzən özünü lap itirir, nə etdiyindən xəbər tutmurdu.

Ötən gecə gördüyü qarışıq yuxularda oğlu ilə əlləşmişdi. Başını yastığa atan kimi, deyəsən, onu götürüb dava meydanına apardılar. Ağaclıq bir çöldə bir-birilə bıçaqlaşan adamları gördü. Odur, necə yüyürür! Başında papaq yoxdur. Yüyürür, qabaqdan əsən bərk soyuq küləyə qarşı yüyürür. Külək onun saçlarını, ətəklərini əzmək istəyir. Səltənət onu çağırır. O eşitmir, Səltənət qaçmaq istəyir, ayaqları yerdən üzülmür. Əllərini qıçına çataqlayıb, qıçını yerdən qoparmaq istəyir. Bir ayağı qalxanda o birisi daha dərinlərə, isti torpaqlara gedir. Səltənət var gücü ilə "oğlum!" deyib qışqırdı. Bu halda gözünü açıb özünü qan-tər içində gördü.

Bu gün əli iş tutmadı. Sexdə dayana bilmədi. Briqadirə yanaşıb: "Başım ağrıyır" dedi, izin alıb evə gəldi.

Doğrudur, başı ağrıyırdı, ancaq işləyə bilərdi və işləyəcəkdi də. Lakin Səltənət ayrı şey üçün evə gəlirdi. Bütün yollar boyu onun gözü bir şey axtarırdı. Küçədə qiymətli bir şey itirmiş adamlar kimi, gözünü yerdən ayırmır, gah su kəmərləri keçən yerlərdə dayanıb kölgələrə diqqət edir, gah yeraltı lağımlara baxırdı. Kənardan göz yetirənlər onu sərsəri adlandıra bilərdilər. Ancaq Səltənət heç kəsə baxmırdı. Bu halda bəlkə oğlu Nəcəf də onun yanından ötsə tanımaz, duymaz və onu danışdırmazdı.

Səltənət nə axtarırdı. Səltənət, Bakıda olmayan bir şeyi axtarırdı. Özü əslən bakılı olsa da, bu şeyin Bakıda olmadığını gözəlcə bilsə də, yenə axtarırdı.

Səltənət axar su axtarırdı. Axtarırdı, çünki ona axar su lazım idi. Bakıda yox, uzaqda, hətta, rayonda olsa da o, axar su tapmalı idi və tapacaqdı da. Ancaq uzağa getmədi. Nə düşündüsə, tələsik evə qaçdı.

Vedrələri əlinə götürüb həyətə, krantın qabağına endi, vedrənin birini sağa, birini sola qoydu. "Bismillah!" deyib krantı açdı. Su daşlara töküllüb arxa doğru axmağa başladı. Səltənət yuxusunu aram-aram sərin axar suya danışdı.

Pəncərə qabağında, taxt üstündə oturub yorğan sırıyan Mehriban Səltənətin hərəkətlərini izləyirdi. Qadının ayaqüstə dayandığını, suyun isə havayı axdığını görüb düşündü ki, "arvad özünü itirmişdir". Pəncərəni açıb onu səslədi:

– Səltənət bacı, Səltənət bacı! Suyu niyə axıdırsan.

Səltənət nə döndü, nə tərpəndi, nə də cavab verdi. Mehribanın səsinə Şərəbanı həyətə çıxdı. O da Səltənəti səslədi.

Səltənət əllərini qaldırıb Şərəbanıya işarə verəndə onun sifətində ciddi, qəti, həm də qorxulu bir sirr ifadə olundu. Onun böyüyən və sanki, bir dəhşətdən parlayan gözlərini görəndə Şərəbanı yerində dayandı. Ürəyində dedi: "Bu arvada nə olub!" O, bu saat Səltənətin nə isə qeyri-adi bir işə iqdam edəcəyini, ya təəccüblü bir şey deyəcəyini gözlədiyi anda Səltənət əllərini üzünə çəkib ayağı ilə vedrələri krantın altına itələdi. Doldurub əlinə aldı və yavaşcadan: "Mən qurtardım" deyə, evinə yollandı.

Şərəbanı da, Mehriban da, başqa qonşular da onun hərəkətindən heç nə başa düşmədilər. Qadın pilləkənlərdən çıxıb evinə girənə qədər ona baxa-baxa qaldılar. Səltənət müharibə vaxtında bugünkü qədər qəlb rahatlığı, ruh təskinliyi duymamışdı. Yuxusunu başdan-başa axar suya, özü də durna gözü kimi dumduru şollar suyuna söyləyə bildiyinə çox şad idi. Bu xoş niyyətin nəticəsində, yəqin ki, xoş xəbər eşidəcəyinə ümid bəsləyirdi ki, Alyoşa onun evinə gəldi.

Buna görə də Səltənət Alyoşanın gəlişinə xoşbəxt bir hal kimi baxırdı. Məktub oxunmamış da oğlundan yaxşı xəbər gəldiyinə inanırdı. Sevinmiş halda üzünü qonağa tutub soruşdu:

– Soruşmaq eyib olmasın, bala, adın nədir?

– Adım Aleksandr Zvonaryovdur.

Səltənət onun sözünü təkrar etmək istədi:

– Aleksan, necə?

– Bəli! Aleksandr Zvonaryov!



Mehriban içəri girdi. Səltənət məktubu qoynundan çıxarıb ona verdi. Özü diz çöküb gözünü Mehribanın ağzına dikdi. Mehriban Nəcəfin məktubunu ucadan oxudu:

Nəcəf anasının halını soruşandan, öz salamatlığını bildirəndən sonra Alyoşanı anasına tapşırıb yazırdı:

"Bu məktubu sənə gətirən oğlan mənim cəbhə yoldaşımdır. O, mənə çox yaxşılıqlar etmişdir. Çətin günlərimizi, dəqiqələrimizi bir yerdə keçirmişik, arxa-arxaya verərək, ölümlərə gedib-qayıtmışıq! Elə güman et ki, mən davadan qayıtmışam, evdəyəm. Mənə nə hörmət edəcəkdinsə, Alyoşaya et! Onun anası yoxdur. Ona oğul kimi bax, çünki, o, doğrudan da mənə qardaşdan yaxındır! Alyoşa sədaqətli oğlandır. Yoldaş yolunda oda girməkdən çəkinməz. Ana, xoşbəxtəm ki, belə bir cəbhə yoldaşım var!.."

Məktub oxunduqca, Səltənət Alyoşanın üzünə baxır, qolundan tutub yuxarı başda oturtmaq istəyirdi. Onun cibindən tənbəki kisəsi çıxartdığını görüb, qadın cəld ayağa qalxdı. Qıfıllı sandığını açıb Nəcəfin gümüş qutusunu gətirdi. Kim bilir, haçandan saxladığı bir "Koroğlu" papirosunu açıb gümüş qutuya doldurdu, üstünə də bir kibrit qoydu. Alyoşa utancaqlıq edib götürmək istəməyəndə Səltənət qutunu götürdü, ərk ilə Alyoşanın yan cibinə qoydu:

– Sən, – dedi, – mənim oğlumsan, Nəcəfin qardaşısan!

O gün Səltənətin evində bir bayram şənliyi var idi. Alyoşanın adına bişən xörək çəkiləndə süfrə başında Səltənətin qonşuları, iş yoldaşları da əyləşdilər.

Qonağın xəstəxanadan çıxdığını biləndən sonra Səltənət onu heç də buraxmaq istəmədi. Alyoşa Sabunçuda yaşayan xalasını görmək üçün tələsirdi. "Sabah nə təhər olsa, qayıdaram", deyə, çətinliklə Səltənətdən icazə alıb evdən çıxdı.

Alyoşa, doğrudan da, səhər tezdən qayıtdı, ancaq məyus qayıtdı. Görüşməyə getdiyi xalası səkkiz ay bundan qabaq vəfat etmişdi. Xalası qızı da Xaçmaza kolxoza işləməyə getmişdi...

Alyoşa bunları danışanda Səltənət ona təsəlli verib deyirdi:

– Bax, oğul, sən bizim xasiyyətimizə bələd deyilsən. Sən mənim oğlumsan. Səni Nəcəflə bir gözdə görmürəmsə, bu gözlərim tökülsün!

Demə ki, xalamın evi yoxdur. Bu ev sənə, sənin Nəcəflə dostluq gününə qurban! Qal burada, işləyəcəksən işlə, dincələcəksən dincəl! Nə ki dostun, qonağın da var, çağır, gözüm üstə yer verim. Gedən məqamda da özüm yola salaram.

Səltənət Alyoşanı corab fabrikində təsərrüfat işinə düzəltdi. Alyoşa müharibəyə, həyatın şiddətinə o qədər alışmışdı ki, dinc şəraitdə az qala darıxırdı. Ona elə gəlirdi ki, bir günlüyə, ya bir neçə saatlığa istirahətə çıxmışdır. Bu saat əmr gələcək, atışma başlanacaqdır.

İdarədə, iclasda, evdə, aşxanada – hər yerdə bir müvəqqətilik, bir ötərilik hissi Alyoşanı tərk etmirdi. O, bəzən çamadanını yır-yığış edib hazır qoyurdu. Səltənət bunu görüb təşvişə düşürdü:

– Nə oldu, yoxsa vaxtın qurtarır?

– Əlbət ki, qurtarmalıdır...

– Oğul, gərək qurtarmasın. Heç bir ay deyil sən işə düzəlmisən, yox, bir yaxşı hesabla!

Doğrudur, Alyoşa idarədə, fəhlə aşxanasında nahar edirdi. Ancaq Səltənət hər gün ona yemək düzəltməyi unutmurdu.

Aşxana yeməklərini məcazı çəkmədiyi üçün işdən qayıdıb özünə yemək hazırlayır, ya da dünəndən qalmış boyat xörəyi ocağa qoyub qızdırırdı. Bu xörəklərdə həmişə Alyoşanın payı var idi. Səltənət bu barədə də Alyoşadan üzr istəmişdi:

– Bala, – demişdi, – bilirəm sizlərdə içki adətdir. Amma mənim mümkünüm yoxdur. Özümün də heç elə şeydən başım çıxmaz. İçkini Allah qoysa, orada, – Səltənət əli ilə uzağı işarə edib cəbhəni göstərirdi. – Nəcəflə bir yerdə! İndilik gərək məni bağışlayasan.

İçki olmasa da, Səltənət Alyoşanın süfrəsinə göyərti, meyvə, ya şirni qoymağı unutmurdu. Hər dəfə onun haqqında düşünəndə oğlunun tapşırığı qulağında səslənirdi: "Elə güman et ki, davadan qayıtmışam, evdəyəm, mənə nə hörmət edəcəkdinsə, Alyoşaya et! Onun anası yoxdur!" Bu səs qadının ürəyinə fərəh, hərəkətlərinə sürət verirdi. Kim bilsin, havaxtdan, haradan qənaət edib saxladığı doşab küpəsinin ağzını açır, meyvə qurusunu kompot bişirir, düyünçələrdən cürbəcür ədviyyə çıxarıb bişmişə tökürdü.



Alyoşa bəzən yarasından şikayətlənib deyirdi:

– Yaranın izi-əlaməti qalır. Mən ondan bilirəm ki, havada bir az soyuqluq artdımı, qolumda gizilti başlanır, deyəsən, dirsəkdən yuxarı soyuq bir sim gəzir...

Səltənət dərhal onun qolunu isti şalla sarıyır, şüşələrə isti su doldurub Alyoşanın qoluna qoyurdu.

– Amanın bir günüdür, – deyirdi, – bala, soyuğa-zada verərsən, təzədən başına iş açar!

Aleksandr Zvonaryov Bakıda doğulmuş, azərbaycanlılarla bir yerdə böyümüşdü. Bu qadınlarda, Nəcəf kimi oğul böyüdüb ağır döyüşlərə göndərən bu yarımçadralı avam qadınlardakı böyük, mehriban ana ürəyindən xəbərsiz deyildi. Səltənətin təbiəti onu tamam heyran qoymuşdu. O bəzən gördüyü hörmət və nəvaziş üçün utanır, əllərini sinəsində çataqlayıb deyirdi:

– Bilmirəm, ay ana, bunların xəcalətindən çıxmaq mənə qismət olacaqmı?

Səltənət onun təşvişinə qarşı daha da artıq səy göstərirdi:

– Bu nə sözdür? Alyoşa, bu nə sözdür, deyirsən? Bəs insan insanın nəyinə lazımdır! Bu gündə mən də əlimdən gələni eləməsəm, daha nəyə lazımam! Siz orada can qoyursunuz, odun qabağında dayanıb düşmənin yolunu kəsirsiniz. Biz nə eləsək, azdır! Atalar buyurub: haqq yolun əsgərinə hörmət vacibdir!..

## III

Alyoşa üç ay Bakıda yaşayandan, möhlətini bitirəndən sonra cəbhəyə, öz polkuna getməli oldu. Səltənət onu fətir, soyutma, isti paltarla – bacardığı sovqatla yola saldı və bircə xahiş etdi:

– Oğul, başarsan Nəcəfi də yola sal gəlsin, beş-on gün dincəlsin, neçə ildir ev üzü görmür. Lap elə ikiniz gəlsəniz, nə yaxşı olar!..

Səltənətin – zahirən sadə, yoxsul görünən, sinəsində aslan ürəyi döyünən, ana məhəbbəti müqəddəsliyinin canlı bir təcəssümü olan bu qadının Aleksandra buraxdığı təsir silinməz idi. O özünü danlayıb de-

yirdi: "Sən kölgə kimi yavaş, səssiz gəzən bu qadınları görüb onları avam sayırdın. Gör ki, yüksəklik yalnız kitab və elmlə deyil. Yad bir adamı, xəstəxanalardan gələn bir yaralını oğul məhəbbəti ilə əzizləyən, istehsalatda fəal çalışan, ailədə müharibənin törətdiyi məhrumiyyətləri həzm edən, ağır oğul intizarına dözən dul bir qadın cəbhə adamlarından, əsgərdən az iş görmür. Arxada belə adamlar qoyub gedən əsgər, əlbət ki, basılmayacaqdır..."

Aleksandr Zvonaryov cəbhəyə çatmağa tələsirdi. O, əziz komandirini qucaqlayacaq, anasından gördüyü yaxşılıqlar üçün ona təşəkkür edəcək, evlərində keçirdiyi günlərdən fürsət düşdükcə, şirin-şirin danışacaqdı...

Lakin bu arzu Alyoşanın gözündə qaldı. O, qərargahda xəbər tutdu ki, Nəcəf Moskvaya getmişdir. Hissələrə göndərilən topları qəbul edən briqadada iştirak edir, hələ 10-15 gün orada olacaqdır. Gətirdiyi sovqat da gözündən düşdü. Nəcəfin adına gətirdiyi şal və əlcəkləri götürüb yemək şeylərini yoldaşlara verdi.

Nəcəfi bir serjant əvəz edirdi. Familiyası Sultanov idi. Alyoşa yetişən kimi, onu pulemyot dəstəsinə göndərdilər. O, yenə də əvvəlki qızğın və sürətli döyüş həyatına qayıtmışdı. İki günün içində arxa, arxadakı təsəvvürlər, duyğular itib getdi. Alyoşa yenə də qaynayıb odlu və alovlu cəbhə həyatına qarışdı. İndi hər şey onun üçün adi və təbii idi. Düşmən başına yağdırdığı güllələr, düşmən tərəfdən nalə çəkib gələn mərmilər, alışıb yanan təyyarələr, tankların qara, qıvrım tüstüsü, yaralı atların iniltisi, barıt qoxusu, ətrafda yurd salmaq istəyən ölüm... Hər şey, hər şey adi və qanuni görünür, indiyə qədər zehni məşğul edən sakit arxa həyatı, bir yuxu kimi insandan uzaqlaşırdı.

Yalnız o, yalnız müqəddəs qadın Alyoşanın yadından çıxmırdı və çıxmayacaqdı da. O indi bilirdi ki, buralara, cəbhələrə axan milyonlarla əsgərlər kimi, nəyi müdafiə etməyə gəlmişdir. O, indi düşünürdü ki, vətən deyilən şey yalnız torpaq, tikinti, yalnız ağac kölgəsi, axar su, məhsullu bağ, geniş tarla, əngin üfüq deyildir. Vətən, əslində, adamlardır, əsl Vətən adamlarıdır. Uzun və odlu ağzını qərbə doğru açıb düşməni qovan bu dəhşətli toplar, bu əzəmətli təyyarələr, zəhmli tanklar, bunları hərəkətə gətirən igidlər, həmin adamları – Səltənət kimi anaları, onlardan daha qoca babaları, balaları, körpələri qorumaq üçün gəlmişlər. Yerləri, göyləri titrədən bu döyüş arxada qoyub gəldiyimiz zəhmətkeşlər və böyük ürək sahiblərinə layiqdir!



Alyoşa öz duyğularını yalnız və yalnız Nəcəfə danışacaqdı. Çünki, o, bunları hamıdan yaxşı duyacaq. Ancaq Alyoşa qorxurdu ki, Nəcəfi başqa hissələrə göndərələr, onunla tez-tez görüşmək müyəssər olmaz.

Bir axşam döyüş dayandığı, əsgərlərin yemək dalınca getdiyi dəqiqələrdə Sultanov Aleksandrı yanına çağırdı.

– Sən, – dedi, – bu gecə arxada olmalısan, komandir Turabovun ixtiyarına gedəcəksən.

Aleksandr rəsmi-təzim edib yola düşdü. Gecəyarısı Nəcəfin hissəsinə çatıb özünü təqdim etdi. Nəcəf sabahkı hücuma hazırlığı yoxlamaq üçün dəstələri gəzir, əsgərlərə tapşırıq verirdi. Aleksandrı qarşısında farağat vəziyyəti alıb dayanan görəndə onu qucaqlayıb alnından öpdü:

– Haradasan, – dedi, – gəl çıx da!..

Nəcəf anasının toxuduğu ağ yun əlcəkləri taxıb, barmaqlarını sığallayanda yalnız əllərində deyil, bütün vücudunda, xüsusilə ürəyində bir istilik duydu. Ona elə gəldi ki, Mirzə Fətəli küçəsinin başlanğıcında, alçaq qapılı həyətdə, pilləkən aşağısında dayanmışdır, məktəbə getməyə hazırlaşır, anası bu saat çantanı onun çiyninə taxacaq, əlinə yaxmac verəcəkdir.

– Nəcəf, sənin anan bir müqəddəslik heykəlidir!

Bu sözə Nəcəf güldü və Alyoşanın parıldayan gözlərinə baxdı:

– Sənin anan olsa, ona da bu sözü demək olardı!

Alyoşa etiraz edib nəsə demək istəyirdi ki, əlində zərf gətirən bir əsgər Nəcəfə yanaşdı. Nəcəf polk komandirindən aldığı kağızı oxudu. Bayaqdan bəri sifətində oyanan təbəssüm və şənlik izləri ciddiyyətə çevrildi. Həmişə gərgin dəqiqələrdə olduğu kimi, onun üzündə qəzəb və qayğı əlamətləri göründü. Düyünlənmiş qaşlarının altında, sanki, bir anlığa kiçilən, durbini əlinə alanda isə dərhal böyüyən və uzaqları nişan alan göz bəbəkləri parlaq bir ulduz kimi sayrışdı.

Nəcəf hazırlıq əmri verib hissəsini hücuma müntəzir vəziyyətdə saxladı.

Səhər göylərdə gündüzün ilk işarələri ağaranda cəbhə xəttində elə partapart düşdü ki, deyərdin, dünyanın, yerin, göyün axırıdır. Sovet topları düşmən səngərlərini alt-üst edir, tanklar sanki tələsərək qaçıb əldən çıxmaq istəyən düşməni yaxalamaq üçün nərə çəkib irəli yüyürür, təyyarələr havadan vururdular. Nəcəfin hissəsi tankların ardınca gedən və torpaqları təmizləyən hücumçuların sırasında idi. Nəcəf müşahidə məntəqəsində döyüş meydanını seyr edərək əmrlər verirdi. Alyoşa ağac altında gizlənərək, düşməndən gələn atəş yerlərini hədəfə alırdı.

Birdən zəhərli ilan kimi mələyərək gələn mərmi müşahidə məntəqəsini ağzına aldı. Torpaqlar göyə sovruldu. Bir an aralıq toza büründü. Alyoşa özünü maşının üstünə atdı və:

– Yoldaş komandir! – deyə qışqırdı.

Onun çağırışına cavab gəlmədi. Toz çəkiləndə Alyoşa Nəcəfi yerində görmədi. Qan-tər içində pulemyotu idarə edən əsgərin kədərli üzünə baxdı, tez soruşdu:

– Hanı komandir?

Əsgər heç nə demədi. Alnının tərini silib işinə davam etdi. Alyoşa ətrafına göz gəzdirdi. Cəld irəli yeriyib pulemyotçunun qulağına qışqırdı:

– Komandir hanı?

Əsgər də eyni hiddət, eyni dəhşətlə onun üzünə baxdı və cinayət işləmiş adama acıqlanan kimi, ucadan dedi:

– Görmədinmi? Nə soruşursan?..

## IV

Bütün hissənin əsgərləri Nəcəfin cənazəsi üstə baş açıb kədərləndi və and içdi. Ukrayna torpaqlarının qurtaracaq yerində, sakit axan bir çayın kənarında Nəcəfə məzar qazdılar:

“Vətənimizin azadlığı və istiqlaliyyəti uğrundakı vuruşmalarda



həlak olan qəhrəmanlara əbədi eşq olsun!”

Bu kədərli mərasimdən sonra əsgərlər bir-birinin üzünə baxanda, sanki, mənalı sükutla soruşurdular:

– Nəcəf hanı?

Onlar müharibə günlərində hamının və hər kəsin başına gələ biləcək bu işin adiliyinə, təbiiliyinə alışsalar da, döyüş tarixində neçə-neçə yoldaş dəfn edib vidalaşmış olsalar da, bugünkü hadisəyə inanmırdılar. Çünki, deyirdilər, Nəcəfə ölüm yaraşmır. Bu ağırlığı hər kəsdən artıq duyan Alyoşa idi. O, Nəcəfin həlak olduğu dəqiqələri təsəvvür edə bilmədiyi kimi, bütün sonrakı mərasimləri, hətta qarşısında baş açıb göz yaşı axıtdığı məzarı da təsəvvür edə bilmirdi.

Ona elə gəlirdi ki, döyüşün şirin yerində Nəcəf kimə isə, əsgərlərdən hansına isə acıqlanmış, irəliyə atılmışdır, xoşuna gəlməyən bir yeri nizama salmaq, atəşləri düz hədəfə istiqamətləndirmək üçün tapşırıq verməyə getmişdir. Döyüşdə Nəcəfin belə çıxışları çox olurdu.

İndi də o, irəlidədir. Hücumlar dayanandan sonra, bir də görəcəksən, üz-gözü toz-torpaqlı, yorğun, lakin gözlərində təbəssüm oynadığı bir vəziyyətdə qayıdıb gələcəkdir.

Həmin bu günlərdə Səltənətdən həm Nəcəfə, həm də Alyoşaya məktub gəldi. Nəcəfin məktubunu geri qaytarmaq istəyirdilər. Alyoşa qoymadı. Onu alıb cibinə qoydu. Öz adına yazılan məktubu isə oxudu. Səltənət yenə mehriban ana dili ilə əsgərlərin kefini soruşur, nigaran olduğunu, soyuq günlərdə onların halına qaldığını yazırdı. Məktubun axırında Alyoşadan gileylənirdi:

“Alyoşa, sənə demədimmi, düzəldin, Nəcəf də anasını görməyə gəlsin! Üç ildən çoxdur, ürəyim bir tikədir. Bəlkə, öldüm. Qoy komandir balamın üzünü görüm. Ondan bircə saat sonra ölsəm də həsrətim qalmaz...”

Ağır bir vəziyyətdən sonra oxunan bu məktub Aleksandr Zvonaryovu elə sarsıtmışdı ki, nə edəcəyini bilmirdi. İndiyəcən o, getdiyi və sürətlə irəlilədiyi yolların sonunu düşünür və görürdü.

İndi isə bütün bu düşüncələr gözəl, bəzəkli bir saray kimi onun zehnində uçulub tökülür, qəlbinə ağır bir məhzunluq çökürdü: “Mən

ona nə cavab verəcəyəm!"

Alyoşa ananın məktubunu öpüb gözü üstə qoyur, əlinə alıb baxdıqca, baxır, sanki kağıza dəhşətli sirri demək istəyir, lakin dili gəlmirdi:

– Yox, Nəcəf sağdır! Nəcəf ölməz!

Ana nigaran qalmasın deyə, Alyoşa beş kəlməlik bir məktub qaraladı:

"Səltənət xala, məktubuna görə təşəkkür edirəm. Nəcəfdən cavab almasan sıxılma! Çünki, o irəlidədir! Məndən ayrılmışdır, budur, bu gün mən qabağa, onu axtarmağa gedirəm."

O gündən sonra Nəcəfin hissəsi düşmən torpaqlarına ayaq basdı. Alyoşaya bir dəstə əsgər verdilər. Dəstə böyük bir şərəf sayıb Nəcəfin adı ilə adlandı. Alyoşa döyüşçülərini irəliyə, düşmənin bərkitdiyi, gizləndiyi yerlərə aparır, sərrast atəş ilə kəndləri, şəhərləri təmizləyib ötürdü. Heç yerdə, heç nə ona təsəlli və təskinlik verə bilmirdi. O, doğrudan da, Nəcəfi axtarır, Nəcəf deyib, qabağa yüyürürdü. Ona elə gəlirdi ki, həmişə və hər zaman onu iki səs çağırır. Bu səslərin biri qabaqdan, lap qələbə mövqeyindən gələn Nəcəfin səsidir. Nəcəf həmişəki kimi döyüşçülərini, Alyoşanı irəli çağırır. Arxadan gələn səs isə ananın, gözü yollarda qalan Səltənətin səsidir. O da Aleksandrı çağırıb soruşur: "Nə oldu? Bəs Nəcəf haçan gələcək? Mən oğlumu səndən istədim axı?"

Aleksandr Zvonaryov möhkəm istehkamları yarıb gedən qoşunlara, alman şəhərlərini tutan, düşmən qıran əsgərlərə baxır, yenə bu səsləri eşidirdi. Ona elə gəlirdi ki, minlərlə düşmən soldatı qırmaq Nəcəfin bir tükünə də əvəz olmayacaqdır. Ona elə gəlirdi ki, Nəcəf özü ruhən vuruşmalardadır. O, qabaqda əmr verir. O, düşmənin ən qabaq və ən son istinadgahında dayanmışdır. O, igid əsgərləri oraya, son vuruşmaya – qələbəyə çağırırdı. Alyoşa hər gün, hər yerdə bu etiqad və bu inamla döyüşə gedirdi. O, Nəcəfin qanını yerdə qoymayacağına and içmişdi. Nəcəfi də, Səltənəti də ancaq beləliklə özündən razı salacaqdı.

Hansı döyüşçü, şəhid komandirin adını çəksə Alyoşa qabaqlara, Almaniyanın mərkəzlərinə işarə edirdi:

– Nəcəf irəlidədir! Kim Nəcəfi sevir və onun ruhunu sevindirmək



istəyirsə, dayanmadan irəliyə!

Aleksandr Zvonaryov bir günü, gələcəkdə labüddən yaşamalı olduğu bir günün ağırlığını duyurdu: "Gedənlər qayıdanda, analar yollara çıxıb öz balasını qucaqlayanda, Səltənət oğlunu soruşanda mən nə cavab verəcəyəm?.."

Bu düşüncələr onu daha artıq kin və qəzəblə irəliyə, düşmən üstünə hücuma aparırdı.

*1945*

# MƏNİM DƏ HAQQIM VAR

Konduktor Kazımı kadr şöbəsinə çağırıb dedilər ki: "Sabahdan sən qatarda müfəttiş olacaqsan!" O, təəccüblə soruşdu:

– Niyə?

– Necə niyə, sənin müharibə dövründə yaxşı işlədiyini, namuslu bir dəmiryolçu olduğunu nəzərə alıb, irəli çəkirik, yoxsa razı deyilsən?

– Razı deyiləm!

Kadr şöbəsi rəisi güman etmişdi ki, Kazım bu xəbərdən sevinəcək, minnətdarlıq edəcəkdir. Onun "razı deyiləm!" deyə etirazını eşidəndə daha ciddi, təəccüblü bir vəziyyət aldı:

– Niyə razı deyilsən, qardaş?

Kazım öz sakitliyini pozmadı:

– Ona görə razı deyiləm ki, mən öz vəzifəmdə qalmaq istəyirəm və irəli çəkilməyimi də heç kəsdən xahiş etməmişəm.

– Kazım, bu cavabı səndən gözləməzdim!

– Mən elə bir sözə...

Rəis onun sözünü kəsdi:



– Biz sənə yaxşılıq edirdik, "sağ ol" deməkdənsə, etiraz edirsən? Gedə bilərsən! Xoş gəldin!

Kazım papağını götürüb otaqdan çıxdı:

– Sağ olun!

Kazım rəisin hirslənməsini yersiz görüb təəssüfləndisə də, çıxıb getdi və güman etdi ki, məsələ bununla qurtardı.

Əslində isə rəisin hirsi soyumadı. Kazımdan sonra öz-özünə deyindi: "Adamlar nə naşükür olublar! Adi bir konduktor mənimlə elə danışır ki, deyirsən, haranın böyüyüdür! Məsəl var: "İt qursağı yağ götürməz..." Günah məndədir. İrəli çəkməyə adam tapmışam də..."

Düzdür, Kazımı çağırıb danışdıran rəis idi, ancaq onu irəli çəkmək fikrini ayrı adam demişdi. Hətta, Kazıma daha yaxşı işlər tapşırmağın faydalı olduğunu söyləmişdilər.

Bu fikirlər Kazıma hörmət və yaxud üzgörənlik deyildi. Kazım doğrudan da yuxarı işə layiq bir adam idi. 50 yaşı olsa da, vaqonda çalışmağı özünə əskiklik bilməmiş, müharibənin ilk ilindən dəmiryoluna işə girmişdi. Kazım həmişə cəbhəyə əsgər aparan qatarlarda, çətin, təhlükəli yerlərdə çalışmış, yeddi dəfə bombardmana düşmüş, yaralanmış, heç bir zaman vəzifəsini tərk etməmiş, özünü itirməmiş, işi də axsamamışdı. Buna görə komissar da Kazıma təşəkkürnamə göndərmişdi. Kazıma "Qafqazın müdafiəsi üçün" medalı da verilmişdi. O bunların hamısının mənasını anlayır, əvvəlki kimi səylə çalışırdı. Buna görə də onu layiq bilib, irəli çəkilmə məsələsini qoymuşdular. Kazımla söhbətdən sonra rəis onun adını qaraladı və ürəyində bunu da dedi: "Üz vermək lazım deyil, qudurar!"

Siyasi şöbə rəisi İlyasov Kazımın adını siyahıda görməyib kadr şöbəsinin rəisindən soruşduqda, o, Kazım barəsində ayrı cür danışdı:

– Canım, o, lovğanın biridir, – dedi, – adamla danışmağı da bacarmır, qoy rədd olsun.

İlyasov otaqdan çıxıb pilləkənləri enərkən, Kazımı dayanan gördü. Onun qolundan yapışanda, Kazım döndü. İlyasov əl verdi:

– Nə dayanmısan, Kazım dayı?

– Qəzet almaq istəyirəm.

– Gedək, qəzet məndə.

Onlar yuxarı çıxdılar. İlyasov Kazımdan gileyləndi:

– Görünüb eləmirsən, Kazım dayı?

– Vaxtım yolda keçir, necə görünüm. Bir də sənə mane olmaq istəmirəm, bilirəm başın qarışıqdır.

– Nə qədər qarışıq olsa da, beş kəlmə söhbətə vaxt tapılar.

İlyasov otağına girib, Kazıma yer göstərdi. Hər ikisi oturdu. İlyasov stol üstündəki qəzetləri dəstə ilə Kazımın qabağına qoydu:

– Buyur, bax, bugünkülərdir!

Kazım bir qəzet götürdü, qalanını qatlayıb yerinə qoydu. İlyasov soruşdu:

– Kazım dayı, bir söz desəm, yerə salmazsan ki?

– Hansı sözünüzü yerə salmışam ki, bunu da salam?

İlyasov razılıq elədi:

– Mənim yadımdadır, çox sağ ol, ağır günlərdə təhlükəli səfərin heç birindən boyun qaçırmamısan. Biz səndən razıyıq. Amma, deyəsən, sən bizdən razı deyilsən axı!

Kazım əli ilə rədd işarəsi verdi:

– Allah eləməsin! Mən dəmiryolundan çox razıyam. Mənim gözümü açan da siz olmuşsunuz.

İlyasov mətləbi açdı:

– Yoldaşlarla məsləhətləşəndə biz dedik ki, bəsdir, Kazım dayı pis işləmədi. İndi daha müharibə qurtarıb, adamlarımız qayıdır, daha bəsdir, o yaşda kişini konduktorluqda saxlamağın mənası yoxdur. Bacarığı, savadı, təcrübəsi... Biz istədik ki, Kazım dayı daha yaxşı, daha rahat bir işdə işləsin. Burada, əlbəttə ki, mən irəli çəkilməyi nəzərdə tuturam. Kazım dayı, sənin haqqın var ki, daha məsul və daha artıq məvacibli yerdə işləyəsən.

Kazım razılıq elədi:

– Çox sağ olun! Dostluqdan əskik olmayasınız!

İlyasov davam etdi:

– Necə deyirsən, Kazım dayı, sənin haqqında pis niyyət-zad eləmirik ki?

– Xeyr, görmürəmmi ki, siz məni istəyib deyirsiniz!

– Yaxşı, deyirlər, müfəttişlik xoşuna gəlmir, elə isə ürəyin istəyən başqa bir iş de! Qərəz, biz səni konduktorluq əziyyətindən qurtarmaq istəyirik.



Kazım bu ehtirama görə razılıq elədi və yenə fikrində durub dedi:

– Öz işimdə qalmaq istəyirəm.

– Başa düşə bilmirəm!

Kazım təkrar elədi:

– Bəli, hələlik öz işimdə qalmaq istəyirəm.

– Necə hələlik?

– Bəli, hələlik.

– Deməli, gözləmən var?

Bu söz Kazımın xatirinə dəyən kimi oldu. Bir qədər dinmədi, öskürdü, qutusunu çıxarıb bir papiros bükdü, başını qaldırıb cavab verdi:

– Bəli var! Nə olar, yoldaş İlyasov, gözləməm olanda nə olar? Yoxsa siz məni dünyadan köçmüş qoca hesab edirsiniz?

İlyasov üzr istədi:

– Xeyr, mən elə demədim, bağışla, Kazım dayı! Mənim sözümü elə qəbul eləmə! Mən tamam səmimi bir sual verdim və doğrudan da, əgər bu vəzifədə qalmaq meylin bir intizarla əlaqədardırsa, nə olar ki!

Kazım, sanki onun, sözünü ağzından almağa tələsdi:

– Bəli, əlaqədardır. Yaxşı dedin. İntizarla əlaqədardır.

– O başqa məsələ.

Kazım nəsə demək istəyirdi. İlyasov yenə soruşdu:

– Bu intizar uzun çəkəcək?

– Yox, altı ay.

İlyasov sevinən kimi qımışdı:

– Altı ay?

– Bəli, uzağı altı ay!

– Altı ay bir şey deyil, gözləmək olar.

– Gözləmək olarsa, daha yaxşı, xahiş edirəm, möhlət verin.

İlyasovun üzündə təkrar təbəssüm oynadı, gözləri güldü:

– Əlacımız nədir, gözlərik, – bir az cəsarətsizlik hiss olunan ahəstə səslə əlavə etdi: – Maraqlıdır ki, Kazım dayının nə intizarı var? Deyəsən, xüsusi işdir?

Kazım etiraz etdi:

– Yox, yoldaş İlyasov, xüsusi-zad deyil, lap ümumi işdir.

– Nə, intizarmı?

– Bəli, intizar!

İlyasov ayağa qalxdı:

– A sağolmuş, ümumidirsə, bəs niyə gizlədirsən?

Kazım da ayağa qalxdı. Sinəsindən bir ah qopdu, gözünü ətrafında gəzdirdi. Sanki, bir şey demək istəyirdi, lakin sükut və diqqət tələb edirdi. İlyasov oturub, israr etdi:

– Əyləş, Kazım dayı! Ümumi sözü deməyə nə var, buyur gəlsin, eşidirəm.

Kazım utancaqlıq elədi:

– Elə bir söz deyil.

İlyasov darıxdı:

– De gəlsin, a kişi, sən boş söz danışmazsan, səni yaxşı tanıyıram.

Kazım da gülümsədi. Əlini stola söykədi, vücudunu bir qədər irəli verib, sözünü dedi. O, ağzını açanda, üzündəki təbəssüm yox oldu. Ciddiyyət onun bütün simasında, qızaran rəngində və parlayan gözlərində oxundu. O, papağını başından çıxarıb dizi üstə qoydu və mətləbini belə başladı:

– Yoldaş İlyasov, məsəl var: "Üstümü unlu görüb, adımı dəyirmançı demə!" Biz də insanıq, bizim də ürəyimiz var... – Yumruğu ilə sinəsinin sol tərəfinə vurdu. – Ürəyin də hökmünə qulaq asmalıyıq...

Kazım ya söz tapa bilmir, ya cürət eləmirdi ki, cümləsini bitirsin. İlyasov kömək elədi:

– Pis olmaz, əlbəttə ki, ürəyin də hökmünə qulaq asmaq yaxşı olar.

Bu sözdən sonra, sanki, Kazım kişinin dili açıldı. O indi bir fəhlə, bir konduktor kimi, nardaranlı bağban Kazım kimi yox, kitablardan çox şey öyrənmiş bir müəllim kimi ürəyinin hökmünü nağıl elədi.

– Yoldaş İlyasov, – dedi, – burada, sinəmdə döyünən, mənim vücudumu saxlayan, mənə həyat və hərəkət verən ürək hökm eləyir. Onun hökmü sizin üçün də yad deyil!

– Əlbəttə, əlbəttə! – deyə, İlyasov onun sözünü təsdiqlədi.

– Ürək mənə deyir ki, ey sinni keçmiş kişi, beş ildir sən bu yollarda ayaq döyürsən, beş ildir sən vətəndən qürbətə, qürbətdən vətənə yol döyürsən, bu yolda, bu işdə gördüklərin sənin yadından çıxa bilərmi? Bunları unutmağa sənin ixtiyarın yoxdur! Ağır günlərdə, cavanlar silah altına girib, dava meydanlarına gedən günlərdə sən hər stansiyada bir kədər, bir xiffət duyurdun. Bacının qardaşını od içinə, ölümlə pəncələş-



məyə yola salırdın. Sən bu mənzərələrin şahidi oldun. Çox dərdlərə şərik oldun. Çox istəklilərin göz yaşına göz yaşı ilə baxdın...

Kazım yenə də duruxdu, müsahibinin lap gözünün içinə baxıb sözünə davam etdi:

– Bəli, yoldaş İlyasov, bunlar həqiqətdir, bunlar olmuşdur. Bu mənzərələr mənim başımda da, ürəyimdə də yazılmışdır. Mən bunlara rast gəlmişəm, bunları gözümlə görmüşəm, diqqətlə baxmışam, ancaq bunlar mənim dizimi bükməyib, həmişə bir intizarla yaşamışam, qabağa baxmışam. Mən inanmışam, etiqad eləmişəm ki, qəm-qüssə vaxtı keçəcəkdir. Yaman günün ömrü azdır. Bax, indi, şükür, özün gördün ki, bizim əsgərlərimiz, generallarımız, marşallarımız dünyanı nə bəladan qurtardılar...

İlyasov Kazımın mətləbini bitmiş hesab elədi:

– Düz deyirsən, Kazım dayı. Böyük qələbəmizdə ən kiçik vəzifədə çalışan hər bir vətəndaşın əməyi və payı var. Sən özün o medalı əbəs yerə döşünə vurmamısan.

Kazım əli ilə onu susdurdu:

– Mən hələ qurtarmamışam.

– Buyur, buyur!

– Azərbaycandan gedən əsgərləri mən aparmışam.

– Bilirəm!

– Yox, sözüm onda deyil: buradan cəbhəyə yola salanda, mən aparmışam, ayrılıq, göz yaşı, təhlükə-filan... Siz necə razı olarsınız ki, mənim də ürəyim necə razı olar ki, həmin oğlanlar igidliklə qayıdan gündə onları evlərinə mən gətirməyim, başqası gətirsin? – Kazım müsahibinin üzünə dik-dik baxdı. – Necə razı olarsınız? Analar var ki, məni üzbəüz tanıyırlar, onların oğlu mənim vaqonumda gedib. Mən həmin oğlanları bu gün Bakı vağzalında qolundan tutub ana ilə görüşdürsəm, yaxşı olar, yoxsa bu səadəti özgəsinə tapşırsam?

İlyasov ayağa qalxdı:

– Kazım dayı, mən təslim!

– Bir deyin görüm, buna mənim haqqım var, ya yox?

İlyasov Kazımın əlini sıxdı və təsdiq etdi:

– Ürəyin deyəni mən də deyirəm. Ayrılığı sən görmüsən, birləşməyi də sən görməlisən. Gedəni sən yola salmısan, gələndə də sən qa-

bağa çıxmalısan. Bu sənin haqqındır, heç kəsin bir sözü ola bilməz! Ana südü kimi halaldır sənə!

O gündən sonra Kazım neçə dəfə səfərə gedib-gəldi, vaqon dolusu əsgərləri cəbhədən evlərinə gətirdi. Döşü nişanlı, qalib cəbhəçilər döyüş epizodlarından fərəhlə danışdıqca, hər vağzalda sevinclə qarşılandıqca, analar igid oğullarını bağrına basıb "boyuna qurban" dedikcə, Kazım sanki şirin arzularından kam götürür və ürəkdən deyirdi:

– Belə ha, bax belə!

*1945*



# SALAM

Vağzal səkisinin enli, daş pilləkənlərindən enib uzaqlaşanda, köç yolunun başına çıxanda Salamın ürəyi döyündü. Buraya iri, yeyin və bərk addımlarla yeriyərək, ətrafındakı hər şeyə etinasız olan ucaboy gənc əsgər atəşi azalmış maşın kimi yavaşıdı və yerişini dəyişdi. O yalnız yerişini yox, duruşunu, baxışını, hərəkətini, fikir-xəyalını da dəyişdi.

Atəşi... yox, atəşi azalmadı. İgidlər damarında yanan bu atəş istiqamətini dəyişdi. Alov Salamın qəlbinə axdı. Əsgər sinəsində yeni, isti bir hərarət duydu. Şiddətli və sərt boranlar qoparaq, ılıq yaz günəşinin hərarəti ilə köpürüb oyanan və çoxdan quruyub saxladığı bitkilərə: "Çıxın!" – deyən məhsuldar şum zəmiləri Salamın yadına düşdü. Ona elə gəldi ki, sinəsindən isti qalxır, ürəyindəkilər – buradan apardığı və sağ-salamat qaytarıb gətirdiyi bütün hisslər bahar suları kimi qaynamaq, aşıb-daşmaq istəyir.

Müharibə meydanlarında, ölüb-öldürmək çağlarında hökm və hərəkəti ilə səngər yaran, səflər pozan və böyük dəstələri təhlükələrdən

xilas edən topçu zabit indi öz qapılarında bir uşaq kimi donub durmuşdu. Bilmirdi nə etsin, haradan başlasın.

Çığırıb adamları pəncərə-qapısına çağırsınmı, qonum-qonşusunun sevincli qışqırığı ilə küçəni doldursunmu? Utancaqlığına salıb, heç kəsə tanışlıq vermədən, yavaşca ötüb göy qapılı həyətə girsinmi?

Birincisini edə bilməyəcəkdi. Birlikdə döyüşə gedən və ağır atışmaların birində həlak olan Mürsəl onun yadından çıxmamışdı... "Axı onun anası da buradadır. Nə cavab verə bilərəm?"

Salam, sanki, bu kədərli xatirədən sıxılaraq, başını aşağı saldı. Küçəni düz ötüb, qapıya yanaşdı. İyirmi beş il açıb örtdüyü bu qoşa, balaca həyət qapısında bir dəyişiklik duydu. Lakin nəyin dəyişdiyini seçə bilmədi. Başını yuxarı qaldırdı. Divarı və qapı səqfini örtən qol-budaqlı tənəyin qönçə kimi şax yarpaqlarını görəndə, barmağını dişlədi:

– Ax! Basdırdığım çubuq! Beş yaşı var!..

Cəld bir hərəkətlə rəzəni tərpətdi. Darvaza açıldı. Onun yanmış, yorğun və tük basmış üzünü sərin bir külək oxşadı. Haçandan bəri qoyub getdiyi, ancaq tez-tez yuxusunda gördüyü ağaclı, çiçəkli həyət, sanki, onun üzünə gülür, "xoş gəldin" – edirdi. Salam ev qapısını qıfıllı görüb dayandı. Bütün həyətə, adamlara xitab edirmiş kimi, çağırdı:

– Ay uşaq! Ay camaat!

Salamın səsinə cavab gəlmədi. Gözləri qıfılda, ürəyi döyüntüdə dayanan əsgərin həyatında bu intizar saniyələri ən gərgin və çətin anlar idi.

"Nə olub? Qapımız niyə bağlansın? Anam hanı? Səriyyə... Bunlar... bəlkə.. olmaya..." – deyə düşündü.

Salam bir də səslənmək istəyirdi ki, yuxarı mərtəbədən Həbib eyvana çıxdı və çığırdı:

– Paho! Ay Salam, xoş gördük, həmişə sən gələsən!

Həbibin səsinə arvad-uşaq həyətə töküldü, hamı qıfıllı qapıya baxıb deyirdi:

– Nisa xala hanı?

– Qaç muştuluğa!

– Açar gətirin!

– Ay Salam, yuxarı çıx, indi gələr!



– Vağzalda olacaq.

Salam çamadan və çantasını götürüb, Həbibgilə çıxdı. Evdən-eşikdən xəbər tutdu. Dedilər: "Sağlıq-salamatlıqdır."

Bu cavab Salamı təmin etmirdi, daha da nigaran qoyurdu. Danışıqlardan anasının sağ-salamat olduğunu, hətta, onu qarşılamaq üçün vağzala getdiyini bildisə də, Səriyyənin başında bir iş olduğunu zənn etdi, çünki, qonşuların heç biri onun adını çəkmədi. Hətta Həbibin anası çağıranda lap aşkar dedi: "Ay Salam, yuxarı çıx, indi gələr! Deməli, bu evə bir adam, ancaq anam gələsidir. Bəs Səriyyə?"

Salamın ürəyi dözmədi, Həbibdən bir də soruşdu:

– Bizim evdə nə var, nə yox?

– Sağlıq-salamatlıq!

– Ayrı nə var, nə yox?

– Ayrı odur ki, neçə aydır əsgərlərin buraxılmasını eşidib, yolunu gözləyirdik. Gələndən də soruşurlar, gedəndən də. Ay Salam, bəs niyə kağız yazmırdın?

Salam Həbibin cavabından narazı qaldı. Başını aşağı saldı. Həbibin yadına birdən düşdü.

– Səriyyə də, maşallah, institutu qurtarıb, rayonda işləyir.

Söhbət Salamın istədiyi mətləb üstünə gəldi. O, tez soruşdu:

– Hansı rayonda?

– Doğrusu, bilmirəm Sabirabaddamı, Kirovabaddamı...

Həbib anasının üzünə baxdı. O da yəqin edə bilmirdi.

– Çoxdanmı rayondadır?

– Bəli, keçən ildən.

Həbibin söhbəti Salamı məşğul edə bilmədi. Əsgər dəqiqədəbir qalxıb eyvana çıxır, qapının qıfılına baxır və darıxırdı:

– Gəlmədilərmi?

Həbibin anası deyirdi:

– Bu saat gələr, bala! Dalınca muştuluqçu göndərmişəm...

■ ■ ■

Həmin bu dəqiqədə vağzal abadanlıqlarının qurtaracağında, uca

çinarın altında göy kəlağayılı, əli boxçalı bir qadın dayanıb şimala, qoşa simlər kimi uzanıb gedən və birləşib gözdən itən yola baxırdı. Qoca çinarın gümüş yarpaqlarında meşədəki kimi uğuldayan külək qadının kəlağayısını alıb aparmaq istəyirdi. Qadın kəlağayının ucunu əlinə dolayıb, o biri əlini alnına kölgəlik verir, lap uzaqlara, üfüqlərin dərinliklərinə baxır, köksünü ötürürdü. Ürəyindəki odlu bir həsrətlə yalvarırdı:

– İlahi, hamının balası gəlsin, mənimki də onların içində!

■ ■ ■

Dörd il əvvəl, yenə belə bir yay günündə axırıncı dəfə ana-bala burada, bu ağacın altında görüşüb ayrılmışdılar. O zaman, deyəsən, bu ağac qıvraq idi. Bu qədər budaq atmamış, pardaqlanmamışdı. Nisa arvad başını qaldırıb, yaşıl budaqlara diqqət yetirirdi.

– Nisa xala! – deyə nida ucalanda, qadın ətrafına baxındı. Geri çevriləndə, İzzətin qan-tər içində yüyürdüyünü gördü. Görən kimi, həyəcandan dizləri büküldü. Çöküb oturdu.

Həbibin anası: "Muştuluqçu göndərmişəm", – deyəndə, bu oğlanı nəzərdə tutdu. Qadınlar, poçtda çalışan İzzəti yaxşı tanıyırdılar. Onu görəndə, dindirməmiş ötməzdilər. Hamı xoş xəbər müqabilində ona cürbəcür bəxşişlər vəd edirdi.

İzzət qadınların vədinə inanmırdı. O, bir gün Nisa xalaya demişdi ki:

– Hamınız deyirsiniz, amma elə ki şad xəbər gətirirəm, çıxarıb bir üçlüklə yola salırsınız.

Nisa xala onu arxayın etmişdi:

– Gün o gün olsun, ay İzzət, gör xalan səni necə yola salar!

İzzət də:

– Görək! – deyə ötmüşdü.

Salam gələn gün İzzətin istirahət günü idi. Qapı ağzında yoldaşları ilə qarpız kəsib yeyirdi. Həbibin anası onu çağırıb dedi:

– Oğlu gəldi, qaç, hardan tapırsan, tap!

İzzət elə bunu gözləyirdi. Nisa xalanın buralarda olmadığını bilib, birbaş vağzala yollandı.



Nisa xala İzzətin bir xəbər gətirdiyini bildiyi üçün ürəyi dözmədi, diz çökdü, onun yaxınlaşmasını gözlədi.

Salam həyətdə: "Ay uşaq, ay camaat" deyə səslənib cavab almayanda, nə ağır intizar, həyəcanlar keçirmişdisə, indi bir xəbər duyan, lakin bu xəbərin nə olduğunu gözləyən Nisa xala da eyni ağır intizarı çəkir, ürəyi elə bərk çırpınırdı ki, bütün vücudu qalxıb-enirdi.

Bir anda Nisa xalanı tər apardı, dizlərinə söykənib qalxmaq, özünü irəli atmaq istədisə də, bacarmadı. İzzət onun qolundan yapışdı:

– Gözün aydın olsun! Qalx, muştuluğumu ver!

Nisa xala əli ilə işarə elədi:

– De görüm, ürəyim partladı, nə xəbərdir?

– Nə xəbər istəyirsən, Salam evdə oturub, səni gözləyir.

– Sən Allahın, düzdümü?

– Tez ol!..

– Ay İzzət, düzünü de görüm, Salamdan nə xəbər var?

– Deyirəm, Salam evdədir.

– Sən cavan canın, nə deyirsən?

– İnandığımız haqqı, evdədir.

– Şikəstliyi-zadı nədəndir?

– Sağ-salamatdır.

Qadın uşaq kimi İzzətə yalvarırdı:

– Sən canın, nə var, məndən gizlətmə!

İzzət əsəbiləşdi:

– Deyirəm, sağ-salamatdır. Sən nə təhər adamsan!

Bu sözdən sonra Nisa xala inandı. Gözlərində oynayan qığılcımlar çıraq kimi yandı. Başmaqlarını əlinə alıb, dinməz-söyləməz daban aldı.

Onlar həyətə girəndə, Salam eyvanda dayanıb küçə qapısına baxırdı. Anasının – illərdən bəri ayrıldığı, doğma və mehriban qadının başı görünəndə, tez həyətə endi:

– Haradasan, ay ana, qonağı qapıdamı qoyarlar?

Qadın əllərini oğlunun uca çiyinlərinə atdı. Asılan kimi oldu. Demək istədiyi sözlər ağzında qaldı. Özündən getdi. Salam onu qucaqlayıb, yıxılmağa qoymadı.

Nisa xalanın sinəsinə sərin su səpdilər. Bir qədər çəkmədi, qadın gözünü açıb Salamın üzünə baxdı, təkrar boynunu qucaqladı.

– İlahi, bu yuxudur, nağıldır, aşkardır? Salam, sənsənmi, bala? Ay gözümün işığı, ürəyimin tabı!..

Bunları deyib Salama suvaşır, onun əlindən, qolundan, paltarından öpürdü.

Salam Kirovabad torpaq şöbəsinə teleqram vurub xahiş etdi ki, aqronom Səriyyə Abdullayevanı üç günlüyə evlərinə buraxsınlar.

■ ■ ■

Səriyyə gəlib çıxmadı, Salam da gözləmədi. Təyinnaməni alıb, yeni iş yerinə yola düşdü. Onu Kirovabad kənd təsərrüfat təcrübə stansiyasına rəis təyin etmişdilər. Bu iş onun ürəyindən idi. Hələ tələbə ikən bu stansiyanın işlərində həvəslə çalışmışdı.

Yağışlı bir gün idi. Baş aqronom onu idarəsinə aparıb işlərdən uzun-uzadı danışdı:

– Yoldaş rəis, – dedi, – bu müharibə bizə çox ziyan vurdu. Adam çatmır, təcrübələrimizin bəzisi yarımçıq qalıb...

Salam Səriyyəni soruşmaq istəyirdi. Ancaq baş aqronomun həvəslə, get-gedə ucalan ahənglə danışdığından macal tapmırdı.

Baş aqronomu telefona çağırdılar. O cəld çıxıb getdi. Salam ayağa qalxıb kabinetdə var-gəl eləməyə, pəncərədən yağışa baxmağa başladı.

Damı döyən yağışın güclü, ahəngdar və boğuq səsi Salamın əsəblərinə məlhəm kimi xoş idi. Ona elə gəlirdi ki, uzunmüddətli ayrılıqlardan sonra bu yağışı da buraya, bu geniş düzlərin bərəkətli tarlalarına o gətirmişdir. "Bəli! İndi mənim mərmilərim budur! Mənə yağış və günəş lazımdır!"

Salam əlini cibinə qoyub pəncərə qabağında düşünürdü, qapıda səs eşitdi:

– Dayan!

– Bir macal ver!

– Sözüm var, yoldaş!

– Qoyarsan kişi bir nəfəsini dərsin, ya yox!



Baş aqronom içəri girib qapını bərk örtdü, əvvəlki söhbətini yadına salmaq istəyirdi ki, meşin pencəkli, əsgər papaqlı, qaraşın bir oğlan içəri girdi.

– A yoldaş rəis, icazə verin, sözüm var! – dedi. Sonra cavab gözləmədən içəri yeriyib hirslə sözünü dedi: – Mən kimyaçıyam, buraya təyin olunmuşam. Budur, yeddi gündür, yoldaş baş aqronom mənə otaq düzəldə bilmir. Mənə açığını desin, yer yoxdursa, nazirliyə qayıdım. Axı mən də işçiyəm, mən də sovet mütəxəssisiyəm!

Salam qaraşın oğlanın əsəbiləşdiyini görüb işarə etdi:

– Əyləşin!

Baş aqronom qaraşın oğlana cavab vermək istəyirdi, Salam ondan soruşdu:

– Deyəsən, qapıda yenə şikayətçi var?

Baş aqronom qapıya yantövrü baxdı.

– Var, bəli, şikayətçi olacaq, məncə, onlar üçün ayrıca qəbul saatları...

Salam onun sözünü kəsdi:

– İndi eşitmək olmazmı?

– Bir aqronom var, izin istəyir, deyir ki, ərim gəlib, üç gün burax! İşin bu vaxtında hər əri gələn arvadı və arvadı gələn əri buraxsaq, daha burada kim qalar?

Salam onun sözünə gülümsədisə də, hiss etdirmədi:

– Qoy gəlsin, – dedi, – bəlkə üzürlüdür.

Baş aqronom qapını açıb:

– Yoldaş Abdullayeva, gəlin! – deyəndə, Salamın vücudundan bir əsmə keçdi. Başlıq örtmüş, uzunboğaz çəkmə geymiş Səriyyə içəri girəndə, Salam dik ayağa qalxdı. Səriyyə qabağında, rəisin yerində dayanan hərbi geyimli, döyüş nişanlı, üzü qırmızı adama diqqət yetirəndə qışqırdı:

– Salam!

– Səriyyə!

Onlar qucaqlaşıb-öpüşəndə baş aqronomu heyrət götürdü. O bir söz demədən başını aşağı saldı.

Salam Səriyyədən gileyləndi:

– Teleqrama-zada baxmırsan, gərək bizi ayağına gətirəydin?
Səriyyə baş aqronomu göstərdi:
– Bunlardan soruş!
Baş aqronom qızarmış, pozulmuş bir halda Səriyyədən üzr istədi:
– Bağışlayın, Səriyyə xanım, belə bilsəydik... Yaxşıdır ki, izin verməmişəm, yoxsa siz o yana gedəcəkdiniz, yoldaş Salam bu yana.
Qaraşın oğlan vəziyyəti belə görüb ayağa qalxdı, çıxmaq istədi. Salam onu dayandırdı.
– Yoldaş kimyagər, – dedi, – arşınmalçının sözü olmasın, sənin də işin düzəldi. Bu gündən yoldaş Abdullayeva (Salam bu adı elə rəsmi bir ahənglə dedi və gülər gözlə Səriyyənin üzünə elə baxdı ki, bunu hamı duydu) mənim otağıma köçər, siz də onun boşalan otağına köçərsiniz!

■ ■ ■

Günəşli, sərin və xoş bir gün idi. Qatar-qatar qaranquşlar üfüqləri ölçərək, sağa-sola ötürdülər. Yol boyu, ağır yüklə məhsul daşıyan maşınların, tarlalarda yer şumlayan traktorların gurultusu bir-birinə qarışmışdı. Kəhər atını sürərək, stansiya binalarından uzaqlaşan, sağ və soldakı zəmiləri diqqətlə seyr edən Salamın ürəyi ayaz göylər kimi açıq idi. O, çoxdan ayrıldığı və bunun üçün də daha çox məftunu olduğu bu zəmilərin, əkinlərin, su arxlarının, ağacların, bəndlərin hamısına diqqət yetirir, hamısında nə isə xoş bir şey oxuyurdu: "Dünənəcən topçu Salam, bu gün aqronom Salam. Dünənəcən sizi qoruyurdum, bu gün isə bəsləməliyəm."
Salam atından enib qara torpaqdan bir xışma götürdü və baxdı. Sonra lal axan kəhriz suyundan ovuc dolusu içdi. Əl-üzünü yudu. Təkrar atına minib uzaqda yer şumlayan traktorçuların yanına çapdı.

*1945*



# GÖZƏTÇİ

Yayın yandırıcı günlərindən biri idi. Günəş günorta yerindən xeyli enmiş, kölgələr düşmüşdüsə də, isti şiddətlə davam etməkdə idi. Şəhərdən Mərdəkana doğru yollanan minik maşınları gümüş kimi şümal asfalt üzərində süzüb gedirdi.
Bu maşınlardakıların çoxu işdən çıxıb bağa, ailəsinin yanına gedən şəhər fəhlə və qulluqçuları idilər. Onlar, deyəsən, istidən qaçırdılar. Bağda, əncir ağaclarının kölgəsində oturub sərinləməyə tələsirdilər.
Buruq ustası Ağa Mehdi "Moskviç" maşınında gedirdi. Yeddi yaşlı oğlu Şahini də özü ilə aparırdı. Şahini dünən məktəbə yazdırmaq üçün bağdan gətirmişdi.
Şahin təbiətilə həvəsli və hər şeylə maraqlanan bir uşaq idi. Görüb-bildiklərindən danışmağı sevər, yaşıdları ilə mübahisə edərdi. Moskva dilindən düşməzdi: "Elə böyükdür, elə böyükdür ki, lap dünya boyda!" Şahin təyyarələrin, maşınların markasını sayar, hansının güclü olduğunu, hansının yeyin getdiyini böyüklərə məxsus bir qətiyyətlə deyərdi. Modelləri qabağına töküb hissələrini göstərər, uşaq dililə bö-

yük sözlərini danışdıqca danışardı. Atası həmişə deyərdi: "Bunlar bizim uşaq olduğumuz zəmanənin uşaqları deyil".

İndi Şahin yol boyu şəhərə, mədənlərə, sənaye ocaqlarına, əkin yerlərinə tamaşa edir, gördüyündən atasına sual verirdi: "Bu fəvvarəli yer nədir? O zavoddan qalxan tüstü niyə sarıdır?"

Şahinin özünəməxsus bir aləmi vardı. Onun fikrincə, yayda ona görə bərk isti olur ki, "üzümlər tez yetişsin", külək ona görə əsir ki, "adamlara sərin olsun!"

Şəhərdən bir xeyli uzaqlaşandan sonra Şahin daha soruşmurdu. O, sürətlə gedən maşının pəncərəsinə yaxın oturub seyrə məşğul idi. Gözü önündən keçənlər, sanki, ona məlum və aydın idi. Yol ağzında, çılpaq bir düzənlikdə tikilmiş ağ zolaqlı bir budka Şahinin diqqətini cəlb edi. Qoluçırməki bir qadın çöməlib oturmuş, gəlib-gedənə baxırdı. Şahin atasına tərəf döndü:

– Bu arvad kimdir?

– Gözətçidir!

Şahin bir də baxdı. Yolun o yan-bu yanında ikizolaqlı ağac maili durmuşdu. Budkanın ətrafında başqa bir tikinti yox idi. Sağa-sola uzanıb gedən, qoşa tar simi kimi işıldayan dəmiryolundan başqa heç nə yox idi. Uşaq təkrar soruşdu:

– Nəyi gözləyir, burda ki bir şey yoxdur?

Atası Şahinin üzünə baxdı:

– Səni və məni gözləyir.

Şahin elə bildi ki, atası zarafat eləyir. Ancaq onun üzündə belə bir əlamət görmədi, ona görə də başa düşmədi.

– Bizim nəyimizi gözləyir?

Ağa Mehdinin üzündəki ciddilik daha da artdı və xüsusi məna kəsb etdi. O, diqqətlə oğlunun üzünə baxdı və sözünü təkrar elədi:

– Sənin özünü gözləyir. Gözləyir ki, sənə heç bir şey olmasın, biz salamat bu yolları keçib gedək!

Ağa Mehdi budkanın kənarlarında maili şəkildə uzanan zolaqlı ağacları göstərdi:

– Görürsənmi o ağacları, onlar yolu açıb-bağlamaq üçündür. Qatar gələndə gözətçi qabaqcadan bilir, maşın yollarını bağlayır ki, toqquşma olmasın, bir xəta çıxmasın. Adamlar salamat keçib getsinlər. Oğul, sən o qadını heç tanımırsan, ancaq o, sənin salamatlığını qoruyur, səndən ötrü burada gecə-gündüz qalır, gözətçilik edir.

– O, mənim nəyimdir ki?

– O, sənin qohumun deyil, ancaq vətəndaşdır. Sən yaşayan ölkənin adamıdır. O, səni, məni, Vətənin adamlarını xətadan gözləməyi özünə böyük bir iş bilir.

– Bəs ona kim pul verir?

– Ona bu işi hökumət tapşırıb, hökumət xüsusi məvacib verir, mükafat verir ki, adamlarımızın salamatlığını yaxşı gözləsin. O, yoldan ötən hər kəsi öz oğlu, qardaşı, bacısı kimi qoruyur.

Ağa Mehdi oğlunun get-gedə oyanan marağını görüb davam etdi:

– Bəs necə? Görürsən ki, külfətimizdə hər kəsin bir işi var. Atan səhər tezdən qalxıb öz qulluğuna gedir, qardaşın məktəbə, bacın musiqi öyrənməyə gedir. Anan evdə onların xörəyinə, paltarına baxır. Hökumət də öz işlərini Vətənimizin adamları arasında bölmüşdür. Kolxozçular əkin əkib məhsul verirlər, fəhlələr maşın, sənaye malları hazırlayır, neft çıxarırlar, müəllimlər uşaq oxudur, mühəndislər ev tikir, maşinistlər qatar sürür, dərzilər paltar tikirlər. Hamı öz zəhməti ilə yaşayır və Vətənə xeyir verir. Milyonlarla adamdan hərəsi bir iş görür: hamı ümumi işə, Vətənimizin irəli getməsinə kömək edir...

Şahin atasının sözlərini eşidəndən sonra susdu. Elə bil, ona örtülü bir aləm açıldı. Gördüyü, tanıdığı adamlar bir-bir onun gözündə yenidən canlandı. Hər səhər evinin qabağından ötən dyadya Petyanı xatırladı. O, hansı zavodda isə model qayırır. Yurikin atası isə dəmiryolunda paravoz sürür, hərdən gecə də evə qayıtmır. "Vaxta gedib" deyirlər. Kazım əmi Keşlədə çörək bişirir, Zəhra xala dərmanqayırandır. Xalıqov fəhlələrin böyüyüdür.

Həyət uşaqlarından kim böyüyürsə, məktəbə, pioner evinə, musiqi dərnəklərinə gedir...

Bunları xatırladıqca, bütün adamlar Şahinin gözündə ata-ana, bacı-qardaş kimi, şəhər isə bir ailə şəklində göründü. Hamı məşğuldur, hər

kəs öz işini bilir, hamı iş görür. Ancaq bu ailə böyük, adamlar çox, işlər Şahinin gözündə çətin idi. Bunların hamısına iş verən, hamını oxudub böyüdən, hamını öyrədən, milyon-milyon adama atalıq edən adam Şahinin gözündə canlandı. O, sanki, öz biliyini yoxlamaq üçün atasından soruşdu:

– Ata, adamlara bu işləri kim öyrədir?

Ağa Mehdi gülümsədi:

– Oğul, – dedi, – hər ailənin bir atası varsa, bütün ataların da atası var! Böyük Vətənimizin hər işinə fikir çəkən, hamısının həyatını qorumağa plan tökən, tədbir çəkən atalar atası, böyük rəhbərimizdir!

Ağa Mehdi qabaqdan gələn və şərqi oxuyan dəstəni oğluna göstərdi:

– Görürsənmi?

Şahin dönüb baxanda bir dəstə pionerin nizami yerişlə gəldiyini gördü. Onlar qabaqda böyük Stalinin əzəmətli şəklini uca tutmuşdular. Onları yolda görən kimi, maşınlar, qatarlar, piyadalar, – hamı dayandı. Ətrafı sükut bürüdü. Nə motor, nə fit, nə təkər səsi eşidilirdi. Yalnız möhkəm addımlarla yeriyən pioner dəstəsinin xoşbəxtlik şərqisi ucalırdı. Uşaqlar sağlam, saf, ahəngli səslə mahnı oxuyurdular:

*Biz sinəsi atəşlərlə, alovlarla doluyuq!*
*Pionerik, məktəbliyik, Stalinin oğluyuq!*

Ağa Mehdi Şahinin üzünə baxdı. Şahin gözlərini dəstədən ayıra bilmirdi. O, ulu rəhbərin dalınca gedən uşaqlara qibtə edir, soruşurdu:

– Ata, bəs mən haçan pioner olacağam?

– Az qalıb, darıxma, məktəbdə oxuyanda sən də pioner olacaqsan!

Uzun zaman Şahin o gözətçi qadını unuda bilmədi. Onun yanına getmək, əlini öpüb razılıq eləmək istədi. Yalnız indi anladı ki, onun həyat və səadətində yalnız doğma ata-anasının deyil, minlərlə Vətən adamının iştirakı var. Hər peşədə işləyən minlərlə adam cəmiyyətin işini görür, bir-birinə kömək edir.

Atası Şahinə bir misal çəkdi:

– Çkalovu tanıyırsanmı?



– Qəhrəman təyyarəçidir, niyə tanımıram!

– O, Amerikaya birbaşa uçan zaman hamı heyran qalmışdı. Orada ondan soruşmuşdular: "Sizin çoxmu dövlətiniz var?" Çkalov cavab vermişdi ki: "Bəli, çox dövlətliyəm, 190 milyon adamım var ki, mənim üçün işləyirlər, mən də onlar üçün işləyirəm!" Bizim Vətənimizdə hamı bir-biri üçün işləyir, hər kəs ümumi işimiz üçün çalışır. Hər kəsin səadəti Vətəndən asılıdır, Vətənin tərəqqisində hər bir ləyaqətli adamın əməyi, iştirakı vardır.

İlk baxışda sadə gördüyü adamların hamısı Şahinin gözündə böyüdü və hörmətləndi. Şəhəri, evini-eşiyini qoyub yayın bu istisində yolda əyləşən, maşınlara yol göstərib adamların salamatlığını qoruyan gözətçi qadın onun ürəyində ana kimi məhəbbət saldı. O, sanki, Şahinin gözünü açır, "adamlara diqqət yetir!" deyirdi.

Ondan sonra Şahin gördüyü, rast gəldiyi adamların yalnız sifətinə, libasına baxmır, onların Vətəndə nə vəzifə daşıdığını, böyük vətəndaşlar ailəsində nə iş gördüyünü düşünür, öyrənməyə çalışırdı. Şahinə elə gəlirdi ki, öz ailələrində olduğu kimi, böyük Vətən ailəsində də əlindən iş gəlməyən, hamının xeyrinə çalışmayan bir adam yoxdur və olmamışdır!

*1945*

# AQİL

## I

Yay tətilinin sonuncu günü idi. Yüz minlərlə məktəbli kimi Aqil də yır-yığış edib şəhərə, dərsə gəlməyə hazırlaşırdı.

Babası onun bir saat dərsdən qalmasına razı olmasa da, bu gün, məhz indi bağın yaxşı vaxtında, ağaclarda meyvənin çıraq kimi yandığı, yoldan keçəni çağırdığı bir zamanda, yollarda maşınların təkər-təkərə verdiyi, adamların axışıb gəldiyi günlərdə əziz nəvəsinin bağdan getməsinə heyfsilənirdi.

Hər səhər Aqil əncir ağaclarına yanaşanda babası budaq başlarından qopardığı yumşaq və dolu əncirləri ona verərdi. Uşaq yedikcə, kişi yaşına yaraşmayan bir zirəkliklə budaqlar arasına girib yeni-yeni meyvələr dərirdi. Aqil özü ağacdan dərmək istəyirdisə də, babasının təklifindən macal tapmırdı:

– Bunu qoy ağzına, sabahi əncirdir! Bu da cavan ağacın ilk nobarıdır, bir bax!

İki gün idi ki, Aqilin şəhərə getməsinə hazırlıq görülürdü.



Yaşı yetmişdən ötmüş Murad kişi ömrünü ancaq burada, geniş üfüqlü, günəşli, küləkli sahil bağlarında, qum üstündə, ağac altında keçirmişdi. Bu bağı oğlu üçün yetirmişdi.

Yeganə oğlu Tapdığın cəbhədən qara xəbəri gələndən sonra kişinin qəddi əyilmiş, beli bükülmüşdü. Sillə dəymiş adam kimi səndələsə də, gözü küçə ağzındakı qoca çinara sataşanda toxtamış, doğrulmuş, dərin bir köks ötürüb demişdi:

– Ya mədəd!

Həmişə bu çinara baxanda Murad kişinin qəlbinə bir təskinlik gəlirdi. Gözünü açıb çinarı həmin bu əzəmətdə görmüşdü. Çinar ona qüvvət, təmkin, əbədiyyət heykəli kimi idi. O, arxasını qocaman ağacın sərt gövdəsinə söykəyib oturanda ürəyi dağa dönərdi.

O, Tapdığa olan məhəbbətini indi şəhər məktəbinin dördüncü sinfində oxuyan nəvəsi, yeganə, əziz, nakam oğul yadigarı Aqilə bağlamışdı. Murad kişi Aqili öz aləmində bəsləyir, böyüdür, oğlunun yerinə qoyur, onun toyunu arzulayır, taleyindən xahiş edirdi: "Mənə möhlət ver!"

Elə bilirəm ki, ailədə Murad kişi kimi tək qalan, gəncliyində dul olan əsgər arvadı Məsmənin Aqilə necə və nə dərəcədə məhəbbət bəslədiyinin təsvirə ehtiyac yoxdur. Bunu əziz oxucular gözəl bilirlər.

Övlad sarıdan Murad kişinin ürəyi əvvəldən dağlı idi. Evləndəndən iki il sonra doğulan bir qız uşağı iyirmi günlüyündə göyərib keçinmişdi. Beş il sonra doğulan Tapdıq sonbeşik oldu. Uşaq evdə tək böyüdü.

Bəlkə buna görə, məhz bir oğlu olduğuna görə, Murad kişidə övlad iştahası günü-gündən artıb alovlanırdı. Qapılarda dəstə ilə uşaqların, qardaş-bacı haray salıb oynaşdığını görəndə, dünya gözünə cənnət gəlir, halı birtəhər olurdu, yeməyib-içməyib uşaq əyləncələrinə tamaşa etmək istəyirdi. Murad üçün ən təəccüblü bu idi ki, bəzi adamlar, əksinə, uşaqdan bezir, tənhalıq arzulayırlar. Bir dəfə qonşusu dəmirçi Hümmətin: "Çığ-vığdan təngə gəldim", deyə, ağac alıb uşaqları qabağına qatdığını, toyuq-cücə qovan kimi qovduğunu görəndə Murad kişi tanrısını danlamışdı:

– Şükür kərəminə, – demişdi, – özün bilən məsləhətdir! Ancaq gör, uşağı aparıb kimə verirsən. Aparıb düjün ilə verirsən belə dəli-divanələ-

rə, məni də ürəyi əsə-əsə qoyursan təkcə ümidinə! Vermirsən mənə cücə kimi yığam qanadım altına, hərəsini bir dillə oxşayam, hərəsindən bir kam götürəm. Dünyada nə qəribə işlər var!

At olanda ot olmur, ot olanda at!..

Uşaq səsi çıxmayan ev nəyə lazımdır! Dünyanın neməti yığılsın süfrəyə, ona ki körpə əli uzanmadı, heç! Götür yığışdır! Beşik olmayan evə min bəzək vur, qurudur ki, quru, min ocaq yandır, soyuqdur ki, soyuq! Uşaq olmayan evdə istəyirsən yüz Qaryağdı oxusun, yüz Qurban çalsın, dərd əskik deyil! Bağ-bağatın bəzəyi quşdur, ev-eşiyinki uşaq!

Mən beləyəm, di gəl uşaq qismət olmur. Ay fələk, gərdişindən baş açmaq olmur, qərəz...

Arvadı Murad kişiyə nəsihət elərdi:

– Ay Murad, çoxun xeyrindən artıq ziyanı var. Atalar deyib, bir olsun, pir olsun. Tapdığı böyüdüb məqamına çatdır, bəsdir. Sən heç naşükürlük eləmə!

Ata-ana bütün səylərini qoyub Tapdığı böyütdülər. Onun ad günü, qonaqlığı, bayramı, bayramlığı əskik olmazdı. Dəmiryol məktəbində oxuyanda onun hər xərcini hökumət versə də, atası beşdə-üçdə bir dolu dəsmalla oğlunun yanına gedərdi.

Tapdıq da əsil çıxmışdı. Dərsdən başqa bir fikri yox idi. Müəllimlərin, müdirin istəklisi idi.

Texnikumun 3-cü sinfinə keçəndə Murad kişi otağın birini, qüvvəsinə görə, döşəyib adına "kabinet" qoymuş, arvadına tapşırmışdı: "Bura qonaq-monaq buraxma!"

Texnikumu bitirən kimi, Tapdığı işə təyin etdilər. Atası tədarük görüb onu bir qarabağlı qızı ilə – Məsmə ilə evləndirdi.

## II

Aylar, illər bir-birini təqib etməkdə idi. Zaman axar su kimi əvvəli-axırı görünmədən gəlib-keçir, həyat yollarında hərdən bir cür iz buraxır, hərdən bir cür səs salırdı. Tapdıq Tbilisidə yollar institutunu əla diplomla bitirmiş, Bakı dəmiryolunda mahir maşinistlərdən olmuşdu.



Yerlilərdən yetişən cavan mütəxəssislərin xatiri hökumət yanında daha əziz idi. Komsomolda tərbiyələnmiş Tapdıq yaşına nisbətən tez və çox tanınmışdı. "Murad oğlu Tapdıq" deyəndə, görürdün, beş adamın dördü dilləndi: "Fəal oğlandır, ayıq maşinistdir!" Bakı dəmiryolunda elə bir tədbir yox idi ki, Tapdığın iştirakı olmasın. Çox vaxt istirahət günündə də evə qayıtmaz, atasına sifariş göndərərdi: "Konfransımız var, axşam gəlməyəcəyəm." "Qroznıya çağırıblar, nigaran olmayın", "Nümayəndə gedirəm, gələn cümə axşamı qayıdacağam."

Murad kişi oğlundan hər dəfə xəbər aldıqda, onun adını özgələrin ağzından eşitdikdə, sevinir, bütün zəhmətlərini və uzun zaman onu məşğul edən "övlad dərdini" unudardı.

1941-ci ildə bütün xoşbəxt ailələrin başından əsən bəla yeli Murad kişinin də rövnəqini pozdu. Müharibənin ilk günündən Tapdıq maşını sürüb lap qabaqlara, vuruşma gedən xətlərə apardı. Evə qısa bir məktub gəldi: "Vəzifə başına getdim. Bir müddət sizə əlim çatmayacaqdır. Can sizin, can Aqil əmanəti!"

Tapdığın bu ilk və son məktubu müharibə dövründə ondan qalan yeganə yadigar oldu.

Oğlunun ölümündən, həyatında aldığı ən ağır zərbədən sonra Murad kişinin, son və yeganə təsəllisi Aqil idi. Bu qaraşın, irigözlü, sağlam və gülərüzlü bir uşaq idi. Səhərin gözü açılmamışdan axşama qədər bağda cövlan vurar, quş qovar, qum içində doyunca maşın sürərdi. Onun şirin və saf səsini eşitdikcə Murad kişi ürəyində deyərdi: "Bu olmasaydı, mən çoxdan ölmüşdüm."

Kişi gizli-gizli onun yerişinə, oturuşuna, danışığına diqqət yetirir, hər dəqiqə oğlu Tapdığı görürdü.

Murad kişi bir il sərasər hər gün nəvəsini özü məktəbə aparıb-gətirdi. Bu işi nə arvadına, nə gəlininə etibar etdi. Uşağı bir saat gözdən qoymazdı. Əlinə kitab alıb pəncərə qabağında oxuduğunu, hərdən böyüklər kimi cibindən dəftərçə çıxarıb nə isə yazdığını, səliqə ilə şeyləri-ni portfelə yığıb açarla bağladığını, pioner qalstukunu anasına ütülətdiyini, gedəndə ədəblə "sağ olun!", gələndə mərifətlə "salam!" dediyini gördükcə, kişinin gözləri yaşarırdı. Özü də bilmirdi ki, bu nə yaşdır!

Yayın isti günlərindən birində Aqil məktəbdən qayıdıb portfelini pəncərəyə qoydu. Əlində şüşə parçası həyətə qaçdı. Anasından kibrit alıb tut ağacının altında küləş yandırmağa başladı.

Ağacları böcəkdən təmizləyib yorğun halda kölgədə oturan Murad kişi Aqilə baxırdı.

– Nə eləyirsən, bala, yanğın salarsan! – deyə o dilləndi.

– Yox, ata, şüşəyə his verirəm.

– Nəyinə lazımdır?

– Hisli şüşə ilə günə baxacağam. Gün tutulacaq!

Aqilin sözləri Murad kişiyə qəribə gəldi. Ona görə qəribə gəldi ki, Murad kişi belə şeylərə əvvəldən inanmazdı. Hər kəs ona desəydi ki, filan zaman gün, ya ay tutulacaq, ağır cavab verərdi:

– Sən nə bilirsən? Göydən gəlmişsən?

İndi, belə söhbəti öz nəvəsindən, dizi üstündə əzizləyib-böyütdüyü uşaqdan eşitmək Murad üçün gözlənilməz idi.

Aqil şüşəsini hazırlayandan sonra çay içməyə oturmuşdu ki, Murad kişi yaxına gəldi:

– Bala,– dedi, – sənin atan handa bir oxumuşlardan idi. Oxumuşdu, ancaq vacib dərsləri oxumuşdu. Parovozun allahı idi. Buxarın dilini bilirdi. Vaqonlara xod verirdi, camaatı bir saatda quş kimi şəhərdən-şəhərə aparırdı. Sən də, şükür, böyüyürsən, oxuyursan, oxu, amma sənin göydə-zadda nə işin var! Gün tutuldu, ay açıldı, nə bilim ulduz-filan... Bunlar sənin, mənim işimiz deyil. Bunlara əl atmağı sənə kim öyrədir. Əbəs yerə belə işlərə baş qoşursan, bala! Sən uşaqsan, başını sal aşağı, dərsini oxu, bəyəm, yeri qurtardın ki, üzünü göyə çevirirsən? Adama çox söz deyərlər, qulaq asma!

Aqil müəllimdən eşitdiyini demək istədi. "Müəllim" sözünü demişdi ki, kişi qışqırdı:

– Müəllim! Müəlliminə bax bunun!

– Elə demə, baba!

Aqil çox söz demək istəyirdi. Ancaq babasına cavab qaytarmaq çətin və ağır idi. O, əli ilə üzünü örtüb ağlaya-ağlaya getdi. Aqil babasının sözünü böyük dərd eləyib ağlayırdı. Sanki, bu ağlamaqla o deyirdi: "Müəllimə elə demə, baba! Müəllim məni çox istəyir".



## III

Onun sabahısı Murad kişi adamların damlara, ağac başına çıxıb göyə baxdığını görəndə, təəccüb elədi, nəvəsini çağırdı:

– Bu nə əhvalatdır. Hardan xəbər çıxıb ki, gün tutulacaq!

– Qəzetdə də var. Müəllim öyrətdi ki, hisli şüşə ilə baxın! Baba, inanmırsan, bir gedək bax! Günün yarısından çoxu tutulacaq. Günorta, saat birin yarısında...

Murad kişi bu işə, gün tutulmağını dünyada bir adamın biləcəyinə inanmasa da, oğlunun və qonşularının belə tamaşaya çıxmasına göz yuma bilmədi. Ürəyində düşündü: "Görüm axı bu nə əhvalatdır!"

Şüşənin birini Aqildən alıb gün altına çıxdı. Üzünü göyə çevirib baxmaq istədi:

– Məndə, bəyəm, göz var, görəm?

Uşaq babasını özü ilə bərabər görüb sevindi. Onlar şüşəni gözlərinə tutub baxırdılar. Murad kişi təndir çörəyi kimi yupyumru gördüyü günəşə baxıb nəvəsini danladı:

– Köz kimi yanır, günə, nə olub tutula.

– Dayan bir, yarım saat sonra! – Aqil qaçıb stol saatını gətirdi, səkinin üstünə qoydu. – Birin yarısında tutulacaq, hələ vaxta var!

Murad kişinin hövsələsi gəlmədi. Şüşəni kənara atıb kölgəyə çəkildi. Lakin o, gözünü saatdan ayıra bilmədi. Əqrəblər günorta yerindən aşağı enib ayrılanda, adamların gözü göyə zillənəndə Murad kişi özünü saxlaya bilməyib öz-özünə dedi: "Görüm bir bu necə işdir!"

Aqil babasını göyə baxan görüb sevindi və ona yanaşdı:

– Bu saat tutulacaq!

Murad kişi qaşlarını çatıb diqqətini yığdı, şüşə dalından günəşə baxıb yenə bir şey görmədi.

– Bəri gəl, bala, – dedi, – belə söhbətlər çox olar. Gün tutulanda sənin müəlliminə məsləhət eləməz. Allah göstərməsin, gün tutulanda dünya bir-birinə dəyər.

– Bir dəqiqə gözlə! – deyə Aqil ona təsəlli verdi.

Murad kişi şüşəni təkrar gözünə apardı. Bir neçə saniyə baxmışdı ki, Aqilin səsini eşitdi:

– Başlandı!

Murad kişi dəmirçi kürəsi kimi yanan dəyirmi od dairəsinə sağdan "xal düşdüyünü", günün qaralıb kiçildiyini aşkar görəndə, gözü böyüdü, nədənsə bir udqundu, bütün vücudu ilə dikəldi, bir addım irəli çıxıb baxdı. Aqil sevincək ona göstərdi.

– Gördün, görürsən qaralan yeri! Deyəsən, parçalanır axı!

Heyrət Murad kişini elə almışdı ki, barmağını kəssəydin, xəbər tutmazdı. Aqil, babasının zəif gördüyünü güman edib sözünü təkrar elədi və onun qolundan çəkdi:

– Budur ey, bu yandan bax, sağ tərəfdən...

Murad kişi hirslə qolunu silkələdi:

– Dayan görüm!

İnanmadığı, ağlına sığışdıra bilmədiyi heyrətli hadisə Murad kişini almışdı, yaman almışdı. Sağdan başlayıb qaralan və zərbə dəymiş uşaq siması kimi saralan, al rəngini itirən Günəş get-gedə kişiyə təəccüblü və dəhşətli görünürdü. Az qala, onun yarısını kəsib atdılar, qalan hissə ay parçasına oxşadı. Murad kişi bir an gözünü ayırıb yerə baxanda, yarpaqları rəngsiz, kölgələri qarışıq, yerləri ala-kölgə, zəfəran rənginə bürünmüş gördü və qorxudanmı, heyrətdənmi, yaxud özünü itirdiyindənmi, nə isə pıçıldadı, ətrafına baxdı. Göylərin nadir hadisəsini cəsarətlə seyr edən, saatın dəqiqələrini sayan və qəzet məlumatilə yoxlayan on iki yaşlı nəvəsi Aqil indi ona baxır və gülürdü:

– Gördün ki... hələ tutulacaq, gəl, gəl, baba! Gör nə tamaşadır!..

Aqilin sözləri onu özünə gətirdi. O, uşağa yanaşdı, təkrar şüşəni gözünə apardı. Bir Günəşə baxdı, bir nəvəsinə, bir nəvəsinə baxdı, bir göyə.

– Ə, bunu siz hardan bilirsiniz, balam.

– Müəllim deyib!

– Müəllim hardan bilir axı.

– Kitablarda, qəzetlərdə yazılıb da!..

Murad kişi heyrətindən səssiz dayanıb nəvəsinin sevincdən işıqlanan üzünə baxırdı. O, indi Günəşi də, göyü də unutmuşdu. Yanında dayanan məktəbli uşaq onun gözündə Günəş qədər böyümüşdü.

Qocanın simasını bulud kimi örtən təəccüb birdən-birə dağıldı, sifəti yaz səması kimi açıldı. Murad nəvəsini uzun qolları arasına alıb gücünü sınadı, uşağı göyə qaldırdı, parıldayan ümidinə bütün diqqət və məhəbbəti ilə baxdı. Onun mehriban səsi eşidildi:

– A qırışmal, belə işlərin də varmış!

*1945*

# İMTAHAN

Ali məktəbə girəndə bizi yazıdan imtahan elədilər. Dedilər, hər kəs həyatında gördüyü ən dəhşətli hadisəni yazsın. Yazılarımızı ucadan hamıya oxudular və qiymət qoydular. Şamaxıdan gələn bir tələbə yazmışdı ki, gördüklərimin ən dəhşətlisi zəlzələ idi. Üçmərtəbə evlərin necə bir anda uçulub töküldüyünü, damların bir-birindən aralandığını gördüyüm, ayağım altından yerin qaçdığını duyduğum dəqiqələr yadıma düşəndə indi də huşum başımdan çıxır.

Ağdaşlı tələbələrin çoxu Kür daşqınını xatırlayırdılar. Suyun qorxusundan ceyranların belə adama yanaşıb yalvardığını, ilanların ağaclara dırmaşdığını, arvad-uşağın qışqırışdığını təsvir edirdilər. Bir tələbə də hansı şəhərdəsə tamaşa etdiyi bir qadını, eybəcər uşaqlar doğan və sonra bu haçabaşlı, səkkizbarmaqlı, yaxud sümüksüz balalarını bir heyvan soyuqqanlılığı ilə ətrafına düzüb tamaşaçılara göstərən, pul yığan bir ananın faciəsini yazırdı. Müəllim bu yazıların hamısını oxuyur, müəllifin adını çağırır, qiymətini yazırdı. Mənim yazım gələndə oxumadı. Əlinə alıb o yan-bu yanına baxdı, adımı oxudu. Ayağa qalxdım.



– Gəl, – dedi, – özün oxuyacaqsan!

Ürəyimə damdı ki, pis çıxmışdır.

Xoşu gəlmir, qələtimi göstərmək üçün çağırır, cümlə-cümlə təhlil edib məni qızardacaqdır. Masa başına keçdim, kağızı alıb oxudum:

"Müdhiş hadisələr çox görmüşəm. Uşaqlığım Gəncə dağlarında çobanlıqda keçib. Bəzən Kəpəzin ən uca yamaclarında özümü tək, göy qübbəsini isə zümrüd bir tac kimi başıma çevrilmiş görüb qorxmuşam. Göyləri qamçılayan qəzəbli ildırımdan meşələrin yandığını, gün tutulmasından günorta vaxtı ulduzlar çıxdığını görmüşəm. Yanımda adam da öldürülüb, qayadan mal da uçub, canavar ilə üz-üzə də gəlmişəm, onun alovlu gözlərindəki vəhşətdən vahimələnmişəm...

Amma bunların heç birini təfsilatı ilə danışa bilmərəm. Çünki, yaxşı yadımda deyil. Bunları mən müdhiş hadisə saymıram. Unutmadığım, unuda bilmədiyim hadisə bu aşağıdakılardır:

Şəhərdən bizə bir qonaq gəlmişdi. Tacir olduğunu deyirdilər. Nə üçün gəldiyini bilmirdim, bilmək də istəmirdim. Bizlərdə adət deyil, gələn qonağın ancaq keyfini soruşarlar. İstəyir, bir ay evdə mənzil eləsin, soruşmazlar ki, filankəs, haradan gəlir, haraya gedirsiniz! Onu da bilirik ki, şəhərlilər ağartı sevən olurlar. Onları qatıqdan, qaymaqdan, kababdan, bozartmadan doyurmamış yola salmarıq. Tacir bir axşam bizdə qaldı. Səhər sürüyə baxmaq üçün mənimlə bərabər bərəyə gəldi. O soruşurdu, mən də qoyunlarımın cinsindən, bərəkətindən deyirdim. Neçə ay əvvəl mənə bir türkmən qoyunu bağışlamışdılar, o, bu səhər qara, gözəl bir quzu doğmuşdu. Yenicə dünyaya qədəm qoyan, ilk və körpə səsi ilə mələyən quzunun hələ qurumamış tükləri gümüş kimi parıldayırdı. Tacir onu görən kimi, soruşdu:

– Buxara dərisi bu deyilmi?

– Bəli, bu, quzuların Buxara cinsidir!

– Canım, bunun ki qiyməti yoxdur!

– Peşkəşdir!

Bunu dediyimi gördüm. Tacir cibindən bir yemiş bıçağı çıxarıb quzunun üstünə cumdu.

– Körpədir, nə edirsiniz?

– Böyüsə dərisi pula getməz!

Bunu dedi, quzunu ayağı altına yıxıb başını üzdü. Quzu ona nə edildiyini bilmirdi. Bəlkə güman edirdi ki, onu tutub əmizdirməyə aparırlar.

Tacir ayağını rəhmsizcəsinə onun gövdəsinə basanda heyvan mələdi və bu fəryad ağızdan yox, bıçağın açdığı hülqumdan çıxdı. Quzunun anası kənarda otlayırdı. Başını qaldırıb səs verdi və göz gəzdirib balasını aradı. Tacir sevinə-sevinə quzunun dərisini soyurdu. Öz-özünə deyirdi:

– Əcəb dəridir, hazır bir papaqlıqdır.

Həmin quzunun anası beş il mənim sürümdə qaldı. Bir daha mələmədi, bir daha doğmadı. Həmişə qoyunlar balasını əmizdirəndə, o, otlamaqdan başını qaldırar, bərəyə, sanki balasını itirdiyi yerə enər və dayanıb uzaqlara baxardı.

İndi də boynu dərili palto geyinərək iftixarla ötən xanımları görəndə, sanki o quzunun, ana südü dadmayan, ana nəvazişi görməyən o məsum körpənin mələməsi qulağımda nalə kimi səslənir. Sanki o insanlardan şikayətlənərək anasını çağırır:

– "Ana, məni niyə gözəl doğdun? Niyə məni gözəl doğdun, ay bədbəxt ana!"

*1946*



# İKİ RƏSSAM

## (Nizami mövzularından)

İskəndərin hüzurunda vəzirlər, alimlər, şairlər, sənətkarlar əyləşmişdilər. Hünərdən və sənətdən söhbət gedirdi. Rum rəssamı ilə Çin rəssamı arasında mübahisə düşdü. Bunların heç biri üstünlüyü əldən vermək istəmədi.

Sözdə hünərdən dəm vurmaq asandır, ancaq ağıllı adamlar quru sözə inanmazlar. Həqiqi hünər sahibləri heç vaxt özlərini tərifləməzlər, hünərlərini əməlləri ilə isbat edərlər. Rəssamlar da bu yolu tutdular. Onlar yarışmalı oldular. Hərəsi gözəl bir lövhə çəkməli oldu. Bu mənzərələr hər kəsin hünərini göstərəcək və kimin üstün olduğuna hökm veriləcəkdi.

Belə yerdə hökmdar qarşısında işləmək nə qədər çətindir! Dünyanın bütün sənət və hünər sahiblərinə qiymət verənlər buradadır. Burada qalib olmaq nə böyük səadət, basılmaq isə nə ağır müsibətdir! Rəssamların hər ikisi intizar və həyəcanla işə başladı.

Onlar bir-birindən xəbərsiz işləməli idilər. Elə işləməli idilər ki, nə bu onun fikrindən istifadə etsin, nə də o bunun niyyətini bilsin.

Şahın əmri ilə rəssamları işıqlı, böyük və bəzəkli bir otaqda əyləş-

dirdilər, aradan qalın və ağır pərdə saldılar. Rəssamların hər ikisi mənzərə çəkməyə başladı. Hər ikisi var qüvvəsilə çalışdı, qələminin qüdrətini işə saldı. Hər iki sənətkar işini tamamlayandan sonra tamaşaçılar hazır oldular.

Tamaşaya gələnlərin hamısının üzündə sevinc və maraq vardı, rəssamların qəlbi isə intizarla döyünürdü: "Görəsən, necə olacaq? Kimin bəxti güləcək, kiminki ağlayacaq?"

Otağın ortasında asılan pərdəni qaldırdılar. Hər iki rəssamın işi hamını heyran qoydu. Hər iki rəssamın mənzərəsi gözəl, mənalı və qiymətli idi. Hamı əsərlərə əhsən dedi. Əsərlərə söz yox idi. Adamları heyran qoyan başqa bir məsələ idi. Camaat ona heyran idi ki, bir-birindən xəbərsiz olan iki rəssam tamamilə bir-birinin eyni olan lövhələr çəkmişdi. Rum rəssamı nə çəkmişdisə, Çin rəssamı da eynilə onu çəkmişdi. Rum rəssamının şəkli nə boyda idisə, Çin rəssamının rəsmi də o boyda idi. Rum rəssamının şəkli nə rəngdə idisə, Çin rəssamının şəkli də o rəngdə idi. Müxtəsər ki, rəssamlar ayrı-ayrı adamlar idilər. Onlar zövq, hünər, xasiyyət və bilikcə də bir-birindən tamam uzaq adam idilər. Lakin çəkdikləri şəkil eyni idi, bir-birindən seçilmirdi. Hamı bu hadisəyə heyran qaldı və heç kəs inanmaq istəmədi:

– Bu ola bilməz!

– Möcüzədir!

– Burada nəsə bir sirr var!

Rəssamlar böyük hünər göstərmiş qəhrəman kimi, məğrur-məğrur dayanmışdılar. Doğrudan da, bu işdə sirr var idi. Rum rəssamı özü bu sirrə heyran qalsa da, deməyə bir sözü yox idi. Padşahın əmri ilə otağın ortasından təkrar pərdə saldılar. Həmişə sirləri örtən pərdə bu dəfə sirrin açılmasına kömək etdi. Pərdə salınan kimi, Çin rəssamının şəkli küləyə uğrayan çıraq kimi söndü, şəkil əvəzinə şümal divar göründü. Ancaq pərdə Rum rəssamının çəkdiyi şəklə təfavüt etmədi. Pərdəni təkrar qaldırdılar. Şəkillərin hər ikisi eyni gözəllikdə parladı.

Adamlar yaxına gəlib işin həqiqətini yoxladılar. Gözəl mənzərəni çəkən rumlu idi. Çinli rəssam isə xüsusi bir məharətlə divara seyqəl vermiş, onu güzgüyə döndərmişdi. Pərdə qalxan kimi, rumlunun çəkdiyi şəkil həmin divarda parlaqlığı ilə əks olunurdu.



Adamlar çinlini töhmətləndirmək istədilər:

– Bu nə işdir?

– Sənətdir!

– Sənət rumludadır ki, gözəl şəkil çəkmişdir.

– Divarı güzgüyə döndərmək, sənət aynası etmək də böyük hünərdir!

Dünyada hünər güzgüsü ilə məşhur olan İskəndər* sənət aynasını da sənət əsəri kimi bəyəndi. O, çinli rəssamın hünərinə də böyük qiymət verdi:

– O da sənətdir!

Hər iki sənətkarın hünərinə əhsən dedilər.

Rumlunun mənzərə, çinlinin isə seyqəl ustası olduğunu hamı təsdiq etdi.

Bir-birini məğlub etmək istəyən sənətkarlar dost oldular. Onlar bir-birinə və sənət hünərinə ehtiram bəslədilər. Öz əsərlərini bir-birinə göstərməyi, dostun xeyirxah sözünü eşitməyi lazım gördülər. Yarış tamaşasına gələnlər dağılıb getsə də, rəssamlardakı hünər meyli getmədi. Əksinə, daha da alovlandı. Onlar ömürlərinin hər saatını fürsət və qənimət bildilər. Əsər yaratmaq eşqi ilə yaşadılar.

Rum rəssamı Çin rəssamını evinə qonaq çağırmışdı. Onun gözəl, səfalı, bağçalı bir həyəti vardı. Nahar süfrəsi yığılandan sonra rumlu öz qonağını bağ-bağçaya dönmüş həyətə gəzməyə çıxartdı. Quşlar səs-səsə verib, sanki, qonağı salamlayırdılar. Qonaq cənnətə düşmüş kimi, heyran və şad idi. Həyətin başında gözəl bir hovuz var idi. Göz yaşı kimi dumduru bulaq çağlayırdı. Bu mənzərəni görəndə qonağın atəşi alovlandı. Kövsər suyundan içmək, yanğısını söndürmək istədi. Fincanı əlinə alıb hovuza tərəf yeridi ki, su götürsün. Ev sahibi kənardan durub sakitcə və maraqla tamaşa edirdi. Qonaq fincanı suya vuranda, fincan çilik-çilik olub yerə töküldü. Qonaq diksindi, özünü itirdi, yerindəcə donub qaldı. Fincan daşa dəymişdi. Sən demə, bu görünən hovuz, çağlayan su – hamısı rəssam tərəfindən çəkilmiş mənzərə imiş. Bu elə gözəl yaradılmışdı ki, həqiqətən təbii hovuzdan seçilmirdi. Qonaq ilk

** İsgəndərin hünər güzgüsü - əfsanəyə görə güzgünü İsgəndər icad etmişdir. O zamankı müharibələrdən birində aynada əks olunmuş günəş işığından istifadə edilmişdir.*

baxışda bunu duya bilmədiyinə utandı, rumlu rəssam isə öz hünərindən fərəhlənib güldü. Çinli rəssam ürəyində belə fikirləşdi: "Eybi yoxdur, bunun əvəzini çıxaram". Ev sahibinə dedi:

– Sənin məharətinə sözüm yoxdur. Bu hovuz mənzərəsi mənim çox xoşuma gəlir. Bunun tamaşasından doya bilmirəm. Adam istəyir ki, yeməsin, içməsin bu sənət abidəsinə tamaşa etsin.

Rumlu rəssam qonaqpərəstlik göstərdi:

– Mənim ev-eşiyim sizə peşkəşdir. İstədiyiniz zaman buyura bilərsiniz.

O, həmkarına və dostuna olan ehtiramını ifadə etmək istəyirdi. Həyətini, evini sənətkara layiq səliqəyə saldı. Baharın açılan vaxtı idi. Gül bülbülü, çiçək çiçəyi çağırırdı. Rəssam ağaclardan qəfəslər asmışdı. Buradakı quşlar səs-səsə verib gözəllik, həyat, bahar nəğməsi oxuyurdular. Başqa bir tərəfdə sular çağlayır, güllər ətrafa ətir səpirdi. Rumlu rəssam yalnız öz sənəti ilə yox, öz səliqəsi ilə də yoldaşını valeh etmək niyyətində idi.

Çox çəkmədi, vaxt oldu, əziz qonaq yenə gəlib çıxdı. Ev sahibi onu öz otağında qarşıladı. Onlar şirin-şirin söhbətə məşğul oldular. Keçmişdən, indidən, gələcəkdən danışdılar. Ev sahibinin saf ürək kimi təmiz süfrəsi səxavətli əl kimi açıldı. Dünyanın əziz və ləzzətli xörəkləri, ətirli meyvələri, kəsərli şərabları bir-birini əvəz etdi. Dostlar yeməlidən yedilər, içməlidən içdilər. Çin rəssamı dedi:

– Mən bu hovuza bir neçə gün tamaşa etməliyəm.

Rumlu rəssam yarışdığı yoldaşının əsərə valeh olduğunu düşünüb sevindi, güman etdi ki, çinli onun sənətindən öyrənmək fikrindədir.

– İstədiyiniz qədər baxa bilərsiniz!

– Lap yaxından baxacağam!

– Lap yaxından da baxa bilərsiniz.

Çinli rəssam doğrudan da, bir neçə gün həmin həyətdə, hovuzun yanında göründü.

Rumlu rəssamın balaca qızı, adəti üzrə, quşlar kimi tezdən durar, kəpənəklər kimi kollar arasında gəzərdi. O, hər gün balaca səbəti güllə doldurub, karvanların qabağına qaçardı. Tacirlər balaca qızın gətirdiyi



gülü göydə götürərdilər.

Günün birində rumlu rəssam səhər yerindən təzəcə qalxmışdı. Qızı onu çağırdı:

– Ata, bir həyətə çıx! Qəribə iş var!

– Nə olub, qızım?

– Bu nə işdir, bunu kim öldürüb?

– Nə danışırsan, qızım?

Ata tələsik özünü həyətə atdı. Həyətdə gözlənilməz və təəccüblü bir mənzərə gördü. Hovuzun kənarında bir it ölüsü vardı.

Qız atasına, atası qızına baxdı. Onların simasında heyrət oxunurdu.

– Bu nədir?

– Bu nə işdir?

– Kimin işidir?

– Havaxt olub?

Əlində gül zənbili heyran dayanmış qızın vəziyyəti rumluya çinlinin hovuzdan su götürmək istədiyi günü xatırlatdı. Ürəyindən keçdi ki: "Bu işdə dostumun əli var. Axı o, hovuza çox baxır." Elə bil rumluya dedilər: "Yaxına get! Diqqət elə!"

Rumlu rəssam hovuza yaxın getdi, lap yaxınlaşanda heyrətindən yerindəcə dondu. O heç vaxt bunu güman etməzdi.

"Kələyə-kələk"lə cavab verən çinli rəssamın hünəri rumlunu heyran qoydu. Sən demə, bu it də hovuz kimi bir şəkil idi, çinli rəssamın daş üzərində çəkdiyi məharətli bir rəsm idi. Rəssamı fikir götürdü:

"Min həvəs və min zəhmətlə çəkdiyim mənzərə ötənləri dayandırır, buraya çağırırdı, hamının diqqətini cəlb edir, baxanları susadır, atəşlilərin ürəyinə sərinlik verirdi. İndi isə bu şəkil mənim həyatimin bütün gözəlliklərini, mənim sənətimin, zəhmətimin gözəl məhsulu olan hovuzu heçə döndərir, görənləri buradan uzaqlaşdırır, gələnləri qaçırdır. Hərif nə yaman iş işləmişdir!"

Rumlu rəssam bu əhvalatı açıb ağartmadı. Dinməz-söyləməz çinlinin yanına gəlib, üzr istədi:

– Daş qayaya rast gəlib, – dedi. – Hünərlər tən olanda hər ikisinin qüvvəti birləşər. Bir-birinə tay olan pəhləvanların heç biri basılmaz. Mən

böyük zəhmətlə çəkdiyim hovuz mənzərəsi ilə fəxr edirdim. Səni o sənətdə aciz bilirdim. Ancaq indi yəqin etdim ki, hər ikimizin qələmindəki qüdrət bir mənbəyin – ilhamın, sənətə olan eşqin qüdrətidir. Mən sənin qələm qüdrətinə heyran qalıb təslim olur, hünərinə hörmət bəsləyir və əhsən deyirəm.

Çinli rəssam razılıq etdi:

– Mən də sənin hünərinə hörmət bəsləyirəm.

Qarşılıqlı hörmət və məhəbbət hər iki sənətkarın ilhamına daha da qüvvət, qələminə daha da şöhrət verdi.

*1947*



# İFTİXAR

Kitab sarayından yenicə çıxmışdım ki, ucaboy, cavan və yaraşıqlı bir oğlan mənə yanaşdı. Salam verdi, adımı çəkib mənimlə görüşdü. Nə qədər diqqət etdimsə, tanıya bilmədim. O, bunu hiss etdi:

– Əşrəf müəllim, – dedi, – görünür, tanıya bilmədiniz.

Söhbət etdiyim adama "tanımıram" demək mənim üçün çətin idi. Lakin onun bu sualı mənə imkan verdi ki, bir də diqqətlə baxım, yaddaşımı yoxlayım.

– Yəqin, – dedim, – müharibə vaxtı hərbi hissələrin birində görüşmüşük.

– Xeyr, müharibə zamanı mən orduya getməmişdim, zavodda işləyirdim.

Mən yenə zənnimi yoxlamaq istəyirdim, o macal vermədi:

– Əşrəf müəllim, siz mənə dərs demisiniz.

– Universitetdəmi oxumusunuz?

– Xeyr, mən Moskvada texnologiya institutunu qurtarmışam.

– Mən ki Bakıda işləmişəm.

Cavan qəribə bir xəbər danışırmış kimi, əli ilə uzaqları göstərdi.

– Siz iyirmi il bundan qabaq Kirovabadda mənə dərs vermisiniz, ikinci sinifdə. Adım da Firidundur.

"İkinci sinif" deyəndə ilk müəllimlik zamanımı orada, o böyük məktəb həyatində yüzlərlə uşağın səs-küylə məni əhatə etdiyi günləri xatırladım. Bir müddət mənə elə gəldi ki, Bakıda, Kitab sarayının qarşısında deyil, iyirmi il əvvəlki yerdə əli çantalı uşaqların qaynaşdığı məktəb həyatindəyəm. Hər şey nəzərimdə canlandı. Firidunun oxuduğu sinif, yoldaşları, divardan asdığım cədvəllər, düzəltdiyim dəftərlər, imzaladığım vəsiqələr bir kino lenti kimi gözümün qabağından keçdi.

– Aha, Firidun! Xoş gördük! – deyə özümü saxlaya bilməyib uzun zaman əziz oğlunun yolunu gözləyən və təsadüfən onunla görüşən atalar kimi Firidunun əlini bərk-bərk sıxdım.

– Danış görüm, haradasan, kefin necədir, uşaqlardan yanında kim var?

Məlum oldu ki, Firidun Sənaye İnstitutunun aspirantıdır. Neft kəşfiyyatı mövzusunda mühüm bir elmi əsər yazır. İki yaşında bir oğlu var. Məni də həmin uşağın ad günündə iştirak etməyə çağırmağa gəlibmiş.

■ ■ ■

Firidun məndən ayrılsa da, zehnim uzun müddət ondan ayrıla bilmədi. Pedaqoji məktəbi qurtardığım günlər, alovlu gənclik həvəsi ilə dərs otaqlarına girdiyim saatlar gözümün qarşısından gəlib keçdi. Uşaqlar məni "müəllim!" deyə çağırırdılar. Bu ad mənim üçün ən böyük iftixar idi. Mən onların hamısını adbaad tanıyırdım: Firidun, Nadir, Tələt, Mahrux, Əli, Şirin, Zahid...

O zaman həvəsdən gözümə yuxu getməzdi. Səhərin tez açılmasını, zəngin çalınmasını səbirsizliklə gözlərdim. Əlimdə sinif jurnalı qapıdan içəri girmək, lövhədə yazdığım sözləri uşaqlara oxutmaq, təkrarlatmaq, yazdırmaq, sonra dəftərləri yığıb düzəltmək, gecə hamı şirin yuxuda ikən uşaq dəftərlərinin vərəqləri arasında səhv axtarmaq, şagirdlərlə danışmaq mənə nə qədər ləzzət verərdi!

Onlar – boy sırası ilə oturub sinif otağını dolduran məsum baxışlı, zirək, duru səsli uşaqlar indi gör nə boyda igid adamlar olmuşlar! Doğrudanmı onların, hər biri Firidun kimi düşüncəli, mədəniyyət adamı, ev-eşik sahibi olmuşdur?



■ ■ ■

Yenicə hazırlaşırdım ki, qapımda maşın dayandı. Zəngi basdılar. Firidun özü dalımca gəlmişdi. Geyindim, yola düşdük. Maşınımız sahil küçəsi ilə gedib uca bir binanın qarşısında dayandı. Firidun dördüncü qatda işıqlı pəncərələri göstərərək dedi:

– O eyvan mənimkidir, müəllim!

Biz mərmər pillələrlə yuxarı qalxmağa başladıq. İçərisindən pianino səsi gəlirdi. Otağa girəndə məni heyrət götürdü. Elə bil, iyirmi il əvvəl idi, mən də sinfə girirdim, dərs dediyim şagirdlərin çoxu burada idi, hamı ayağa qalxdı. Budur, təyyarəçi paltarı geymiş Nadir, ucaboylu həkim Mahrux, rəssam Şirin, donanmaçı zabit Zahid və başqaları:

– Xoş gördük, ay müəllim! – deyib hərə bir yandan məni yuxarı başa çəkdilər.

Hərə bir sözlə mənə müraciət edir, olub-keçmişləri xatırlayır, deyib-gülürdük. Mən bu məclisdə özümü əziz övladının toy-bayramını keçirən bir ata kimi hiss edir, ayrı bir fərəh və ürək rahatlığı duyurdum.

Firidun məni ailəsi ilə tanış etdikdən sonra dedi:

– Əşrəf müəllim, sizdən bir xahişimiz var, daha doğrusu, bir xahişim var. – Üzünü yoldaşlarına tutdu. Elə bil onların da rəyini bilmək istəyirdi. – Necə olsa, axı bu görüşün təşəbbüskarı mənəm. Əvvəl mən öz sözümü deyim! Sonra Firidun mənə tərəf döndü: – Əşrəf müəllim, neçə illər siz bizim zəhmətimizi çəkmişsiniz, oxutmusunuz, tərbiyələndirib böyütmüsünüz... İndi hərəmiz bir sənət sahibi olmuşuq. Dünyada hərənin bir arzusu olar. Mənim də arzum bu olub: nə olaydı, elə bir mərtəbəyə çataydım ki, mənə atalıq eləyən bütün müəllimlərin, o cümlədən sizin də xəcalətinizdən çıxaydım. Yadınızdadırmı, bir dəfə mən Sabirin "Oxutmuram, əl çəkin!" şeirini əzbər bilmədim. Siz səbəbini soruşdunuz. Nadir kənardan dedi: "Kitabı yoxdur!" Siz də həmin gün tənəffüsdə məni müəllimlər otağına çağırıb bir "Hophopnamə" bağışladınız.

– Bəli, yadımdadır, – dedim. – Səni indi bu kitabdan imtahan edəcəyəm! – Sonra zarafatla ciddi bir vəziyyət alaraq əlavə etdim: – Bir de görüm, şeiri əzbərləmisənmi?

Firidun bir uşaq, bir məktəbli vəziyyəti alıb rəsmi əda ilə dayandı, şeiri əzbər oxudu. Mən onu yarıda kəsib:

– Əyləş yerində, sənə beş yazıram! – dedim.

Yoldaşları gülüşdülər.

Ara sakit olanda, Firidun davam etdi:

– O kitab indi də mənim stolumun üstündədir. Təzə cildə vermişəm. Əziz bir yadigar kimi saxlayıram. Sözüm onda deyil... Demək istəyirəm ki, mənim arzum ürəyimdə qalmasın.

Mahrux ayağa qalxıb, o biri evə keçdi və qırmızı məxmər cildli, zər yazılı bir albom gətirdi:

– Əşrəf müəllim, – dedi, – sizin adınıza hazırladığımız bu albomu qəbul etmənizi xahiş edirik!

Uşaqlar bir-bir danışıb mənə olan minnətdarlıqlarını bildirdilər. Bütün bu söhbətlər, əlbəttə ki, məni sıxır və utandırırdı. Mən dilləndim:

– Firidun, izin olar, bir-iki kəlmə də mən deyim?

Məclisdəkilər tam uşaqlıq itaəti ilə səslərini kəsib, məni dinləməyə başladılar. Ayağa qalxdım. Sevincdənmi, təsirdənmi, əziz cavanlıq xatirələrindənmi, nədənsə, gözlərim yaşardı. Ani bir sükutdan sonra dedim:

– Uşaqlar, məni utandırırsınız. Firidun deyən sözlər düz deyil. Sizi mən oxutmamışam, sizi partiyamız, hökumətimiz oxudubdur. Mən olmasaydım da, ayrı bir müəllim sizə dərs verəcəkdi. Çünki, yeni nəslimizi – sovet balalarını oxudub, uca mərtəbələrə yetirmək partiyamızın tapşırığı, hökumətimizin planı və vətəndaşlarımızın borcudur. Siz məndən yox, partiyamızdan qayğı görmüşsünüz, ömrünüz boyu da görəcəksiniz! Görürəm siz hamınız mənə yaxşılıq etmək istəyirsiniz. Çox razıyam, çox sağ olun! Hətta Firidun mənim oğlumu oxutmaq istəyirmiş... Ancaq bilməlisiniz ki, mənim oğlum, qızım çoxdur. Siz şəhərlərdə, kəndlərdə nə ki uşaq görürsünüz, onların hamısı mənim övladımdır. Bir uşağın çəkməsini cırıq, üzünü pərişan, məktəbdən kənarda qalmış görsəniz, bir uşağın danışığında, hərəkətində kəsir görsəniz, bir başqasını tramvayın, maşının dalından sallanan görsəniz, unutmayın ki, onların hamısı, hamısı mənim doğma övladımdır. Siz mənə yaxşılıq etmək istəyirsinizsə, onlara qayğı bəsləyin, onlara nəsihət edin. Bilin ki, uşaqlar bizim ümidimizdir! Onların qayğısını çəkmək yalnız məktəbin, müəllimin, mürəbbinin yox, hamının borcudur. İnanın ki, mən sizi belə fərasət sahibi, xoş gündə görəndə, ömrüm uzanır. Arzum budur ki, Vətənimizin bütün gənclərini sizin kimi görüm. Mən inanıram ki, sizin ictimai xidmətiniz məndən çox-çox olacaqdır. Bizdə inkişaf həmişə belə olur: tələbə müəllimi, şagird ustasını, övlad atasını ötür. Sizin bu albomunuzu da ürəkdən qəbul edirəm, bu şərtlə ki, mənim dediklərimi də oraya yazasınız və həmin albomu Kirovabadın birinci məktəbinin kitabxanasına göndərəsiniz. O məktəbə ki biz ilk dəfə orada görüşmüşük. Qoy indinin uşaqları baxıb görsünlər ki, buradan kimlər gəlib-gedib və necə gəlib-gedib! Qoy görsünlər ki, müəllim, şagird nə deməkdir! Qoy bilsinlər ki, müəllimlik nə gözəl sənət, nə müqəddəs işdir!

Hamı mənim təklifimə razı oldu.

*1948*

# İLK VƏSİQƏ

Sabir dal skamyaların birində tək oturmuşdu, əlini çənəsinə söykəyib müəlliməsinə diqqətlə qulaq asırdı.

Müəllimə dünəndən uşaqlara tapşırıb anaları çağırtdırmışdı. Anaları çağıranda həmişə uşaqlar da maraqlanırlar:

– Müəllimə, biz də gələkmi?

Hamıya məlum idi ki, müəllimə analara uşaqlar barəsində danışacaqdır. Ancaq nə danışacaqdır, onu heç kəs bilmirdi. Hər kəsdən də çox Sabir bilmək istəyirdi. Çünki, bir dəfə müəllimə onun anasını çağırmışdı, xeyli də söhbət eləmişdilər. Ancaq bu söhbətdən anası Sabirə heç nə deməmişdi. Sabir nə qədər xahiş etmişdisə, anası:

– Sən bilən söhbət deyil! – demişdi. – Dərsinə fikir ver!

Sabir qorxurdu ki, indi də elə olsun. İlin axırıdır, dərslər qurtarır, uşaqlar tətilə buraxılır. Bu günlərdə uşaqlar müəllimədən çox söz eşidirlər. Müəllimə onları şəhər kənarına, bağ-bağçalara, sahilə və başqa görməli, gəzməli yerlərə aparır, açıq havada dərs keçir...

Birinci sinfi qurtaran uşaqlar yay tətilinə necə və nəvaxt buraxılacaqlarını, müəllimənin onlardan necə ayrılacağını, nə deyib tapşıracağını bilmirlər, bilmək istəyirlər. Hər kəs həyatında birinci dəfə görəcəyi bu fərəhli günü aramsız gözləyir. Buna görə də müəllimə anaları məktəbə çağıranda, uşaqlar daha çox maraqlanırlar.

"Mən də gedəcəyəm", deyə, Sabir anasının yanına düşüb məktəbə gəldi. Yoldaşları ilə oynamağı bəhanə edib heç olmasa pəncərədən baxmaq, "anaların iclasını" eşitmək istəyirdi. Sabirdən başqa da gələn uşaqlar var idi. Pəncərədən sinfə boylananda, müəllimə görüb işarə ilə onları çağırdı. Dal sıralarda yer göstərdi.

Sabir min bir sevinclə oturub iri və müntəzir gözlərini müəllimənin ağzına dikmişdi. O, ucaboy, cavan müəlliməsini həmişə uşaqların qabağında danışan, dərs deyən, yazı düzəldən görmüşdü. İndi isə müəllimədən çox uca, böyük, skamyalara güclə yerləşən analar, onun qarşısında uşaq kimi səssizcə oturmuşdular. "Görəsən, müəllimə bunlara nə öyrədəcək, görəsən necə öyrədəcək?!"

Müəllimə analara xoş gəldin edib sözə başladı. Əvvəl uşaqların sayını dedi. Neçə oğlan, neçə qızdır. Necə oxuyurlar. Necə yazır, hesablayırlar.

Sonra müəllimə adbaad bəzi uşaqların anasına müraciət edib tapşırdı:

– Leylanın bir xasiyyəti var ki, heç xoşuma gəlmir. Həmişə yazıda hərf buraxır. Nöqtə-vergülü yadından çıxarır. Yoldaş Muradova siz gərək buna xüsusi diqqət edəsiniz. Yay üçün verdiyim tapşırıqları qoy tərtəmiz yazsın. Hərf buraxmasın. Siz gündə bir-iki saat onun başını yazıya məşğul etsəniz, düzəldəcəkdir.

– Hafiz Əmirovun anası buradadırmı?

Qabaq cərgədə oturan ağbəniz bir qadın dilləndi:

– Bəli, mənəm!

– Yoldaş Əmirova, sizin uşaq qabiliyyətlidir, zirəkdir, dərsləri barəsində bir şikayətim yoxdur. Ancaq çox xahiş edirəm, onu evinizin qabağına buraxmayasınız. Oralar dördyol ağzıdır, dəqiqədə neçə maşın ötür, uşaq üçün xatalıdır. Bir dəfə mən orada uşaqların top-top oynadığını görmüşəm. Şoferlər də deyinirlər. Özüm uşaqları qovmuşam oradan! Rica edirəm!..

Hafizin anası müəllimənin sözlərini təsdiqlə razılıq etdi.

Sabirin ürəyi "tıp-tıp" eləməyə başladı. Sabir elə güman etdi ki, müəllimə bu saat onun adını çəkəcək, onun anasını dindirəcək, kim bilir nələr deyəcəkdir. Müəllimə isə bir az sükutdan sonra sinif jurnalını açdı. Uşaqların adlarını oxumağa başladı: Həmidov Saleh, Ağayeva Sevil... Uşaqlar bir-bir keçib vəsiqələrini alır, müəlliməyə təşəkkür edərək, sevincək yerində oturduqca Sabirin səbri tükənir, ürəyi daha bərk döyünürdü.

– Sabir Haşımov...

Öz adını eşidəndə Sabir ixtiyarsız ayağa qalxdı.

– Sabir Haşımov dərslərindən əla, əxlaqdan gözəldir. İkinci sinfə tərifnamə ilə keçir!

Müəllimə başını qaldırıb gülümsər üzlə Sabirə müraciət etdi:

– Gəl görüm, qoçaq!

Sabir cəld irəli yeridi. Anasına macal vermədən vəsiqəsini, tərifnaməni əlinə alanda sevindiyindən bilmədi nə etsin. Anası onun qolundan tutub soruşdu:

– Nə deyərlər?

Sabir vacib bir şeyi yadından çıxarmış kimi irəli yeriyib ucadan danışdı:

– Sağ olun, müəllimə! Müəllimə, çox sağ olun!

Müəllimə əli ilə onun saçlarını oxşayıb yola saldı:

– Tapşırdığım kitabları oxuyarsan! Bağda, təmiz havada oynayarsan, yaxşıca dincələrsən, ikincidə də gərək belə əlaçı olasan!

Sabir:

– Baş üstə! – deyib yerinə keçdi. Evə qayıdandan sonra Sabir əvvəl vəsiqəsini sətir-sətir oxuyub beşləri saydı, cəmlədi, evdəkilərin hamısına göstərdi.

Sonra tərifnaməni açdı. Qəşəng naxışlarla haşiyələnmiş, gözəl xətlə yazılmış tərifnamədə gözünə sataşan Lenin və Stalinin şəkilləri oldu.

Sabir sevincindən alacalanmış gözləri ilə rəhbərlərin şəklinə baxıb susurdu. İndi onda, uzun zamanlardan bəri zəhmət çəkən və nəticədə məqsədlərinə, istəklərinə nail olan adamın sevinci və şadlığı var idi. Tərifnaməni ikiəlli, ehtiyatla tutub sətir-sətir oxuyurdu.





İftixar səh.345

Uşaqlardan biri soruşdu:

– Bunu sənə nə üçün veriblər?

Sabir böyük adamlara məxsus bir əda ilə acıqlandı və işarə etdi:

– Görmürsən?!

Sabir şəhadət barmağını iri xətlərlə yazılmış sözlərə tərəf apardı. "Dərslərdən əla qiymət aldığına, nümunəvi əxlaqına görə!" Evdəki böyüklər və uşaqlar bu sözləri təkrar edib Sabirin üzünə baxdılar. Sabir tərifnaməni qatlayıb ehmallıca əlinə aldı, anasından soruşdu:

– Bəs atam haçan gələcək?

Cavab gözləmədən saata baxdı. Sabirin atası maşınqayırma zavodunda normaçı vəzifəsində çalışırdı. Saat 7-də gəlirdi.

Bu gün qapı döyülən kimi Sabir onu pilləkəndə qarşıladı. Bir söz demədən tərifnaməni açıb bayraq kimi uca tutdu.

Atası uşağın sevincini duyub başını tumarladı. O özü də uşaq kimi tərifnaməni uca səslə başdan axıradək oxumağa başladı:

–"Azərbaycan Sovet Sosialist Respublikası Maarif Nazirliyi..."

Sabir özünün, birinci il məktəbə gedən, ancaq şəkilli "Ana dili" kitabını oxuya bilən bir uşağın işi haqqında belə böyük kağızlar, belə böyük sözlər yazan müəllimlərə təəccüb edir, bu söhbətlərin özü haqqında getdiyinə inanmağı gəlmirdi. Gör onu kimlər tanıyır, kimlər tərifləyir. Onu təkcə müəllimlər yox, müəllimlərin müəllimləri də tanıyıb tərifləyirlər. Gör yaxşı oxumaq nə imiş...

Atası Sabirin üzündən öpdü:

– Adın, – dedi, – böyük vəsiqələrə yazılır, ay Sabir! Belə getsən, zavoda direktor gələcəksən!..

Sabir şirin-şirin gülüb utancaqlıqla geri çəkildi. Atası tərifnaməni onun əlindən alıb divarda yer axtardı.

– Sənin birinci kağızın gərək buradan asılsın, yar-yoldaşın baxıb görsün ki, sən 48-49-cu dərs ilində nə işlər görmüsən!

Doğrudan da, elə oldu. Sabirin tərifnaməsini gözəl, rəngli və şüşəli bir ramkada divardan asdılar. Evə gələn bütün dost, qohum-qonaqlar diqqətlə o kağızı oxuyurdular. Sabiri tanımayanlar atasına müraciət edirdilər:

– Ay Haşım, bu qəhrəman haradadır, bununla tanış olmaq olar-

mı?!

Sabir o biri evdə bunu eşidər, cəld üst-başını düzəldib qonaqların yanına keçər, salam verib əl uzadardı. O öz adını qəsdən ucadan deyirdi:

– Sabir!

Qonaqlar da bunu təsdiq edirdilər:

– Sabir ki, Sabir!

Haşımovun dost-tanışları arasında Sabirin ilk vəsiqəsini oxumayan yox idi.

Sabir düşünürdü ki, görəsən, gələn il ikinci tərifnamə bunun yanında asılacaq, yoxsa təzəsini verəndə köhnəni qaytarmaq lazım gələcək?!

Bircə bunu atasından soruşmaq istəyirdi.

*1948*



# GƏNC USTA

Muradov Fərrux buraya 1944-cü ildə, küləkli bir yaz günündə gəlmişdi. Abdullayev adlı ucaboy, qırmızısifət bir mühəndis maşınların qabağına çıxdı, komsomol səfərbərliyi ilə gələnləri mehriban qarşıladı. Cavanlar o gün vaxtlarını tikinti idarəsinin kadr şöbəsində keçirtdilər: mənzillərdə yerbəyer oldular, hesaba alındılar, briqadalara bölündülər. İkinci gün onların əlinə bel, külüng verib, qum təpələrinə oxşayan bir yerə gətirdilər. Fərrux burada tikinti başlandığını güman edirdi. Mühəndis onun zənnini duyubmuş kimi, irəli yeridi:

– Burada heç nə tikilməyəcək. Vaxtilə tikilmiş mənzilləri qum altından çıxarmaq lazımdır!

Sən demə, bu təpələr altında evlər, binalar varmış!

Mühəndis təpənin üstünə çıxıb qumu bir xeyli kürəklədi, əvvəlcə binanın künc divarı, bir az sonra pəncərələrin başı göründü.

Gənclər işə girişdilər, itirilmiş qiymətli bir şeyi yer altından tapıb çıxarmaq həvəsi ilə hamı sakitcə işləyirdi. Hələ müharibədən əvvəl tikilmiş, sonra tərk edildiyindən qum basmış evlər sıralanmış təpə kimi

görünürdü.

Fərrux həmin yerdə öz əli ilə qumdan xilas etdiyi binalarda mənzil elədi. Bir müddət torpaq və palçıq işi ilə məşğul oldusa da, ancaq bunu özünə sənət seçmədi.

Mühəndis yeddiillik məktəb bitirdiyini və riyaziyyata maraq göstərdiyini bilib, onu model sexinə gətirdi. Sex ustası Obruçev ortaboylu, itibaxışlı, cəld bir gənc idi. Özü cavan olsa da, çox cavanlar öyrədib sənət sahibi etmişdi. Obruçev ixtisaslı işçi azlığından şikayət edənlərə acıqlanar və həmişə belə deyərdi: "Mütəxəssis göydən düşməz, neçəsini öyrətmişsən."

Obruçevin yanında çalışan doqquz nəfər mütəxəssisin yeddisini özü hazırlamışdı. Hərəsinə də iki il əmək sərf etmişdi. Obruçevdə ustalıqdan başqa bir müəllim qabiliyyəti var idi. Öz şagirdlərinin zəif tərəflərini seçib oradan başlamağı, onların gələcəyini görüb göstərməyi, hünər üçün ruhlandırmağı, get-gedə mürəkkəb işlərə alışdırmağı bacarırdı. Fərruxu bir müddət dülgər kimi sadə taxta işində çalışdırdı. "Əlin yatsın", dedi. Alətləri, onlarla rəftar etməyi öyrənəndən sonra onu poladəridən sexə gətirdi.

Böyük və uca binada ağır və nəhəng maşınların, motorların səsindən qulaq tutulur, hər tərəf yanıq metal iyi verir, adamın üzünə hərarət vururdu. İnsanın öz əli ilə hərəkətə gələn mexanizm arasında insan nə qədər kiçik görünürdü. Obruçev tökülüb hazırlanmış və kənardakı taxçaya düzülmüş maşın hissələrindən birini alıb Fərruxa göstərdi:

– Bundan hazırlaya bilərsənmi?

Fərrux təəccüb elədi:

– Mən ki taxta işində çalışıram.

– Bu da taxtadan hazırlanır.

– Necə yəni.

Usta onu başa saldı ki, ağır maşınları təşkil edən hər bir hissənin ustası Fərrux kimi cavanlar model sexində çalışanlardır.

Əvvəl bu fikir Fərruxa qəribə gəlmişdi. Ağacdan hazırlanan bir təkərciyin maşına yaradığını necə güman etmək olardı. Bu qədər hissəni taxtadan yonmaqla qurtarmaq, öhdəsindən gəlmək olardımı?

Ustası onu model işi ilə tanış edəndən sonra Fərruxun nəzərində



tamam başqa bir aləm açıldı. O, modelçilər əlindən çıxan xırda bir qəlibin böyük maşınlara hərəkət verən bir hissə olduğunu və tökmə sexində istənilən qədər töküldüyünü biləndən sonra əlindəki sadə işə həvəs və marağı artdı. Modelin əhəmiyyəti onun gözündə çox böyüdü. O, indi özünü sadə bir taxtayonan, kürsü və ya güldan hazırlayan yox, bir maşın ustası, bir metalçı kimi duyub, iftixar hissi ilə dəzgahının başına dolanır, keşiyində dayanırdı.

Fərrux modelin bu qədər mühüm olduğunu, modelçilərin az qala, mühəndislər qədər ixtisas sahibi olduğunu biləndən sonra, axşamlar da rahat olmurdu. İşdən evə apardığı müxtəlif biçimli çertyojları diqqətlə öyrənir, səhərlər isə onları taxtadan yaradırdı. Fərrux çətinliyə düşəndə, ustasından qabaq kitablara müraciət edirdi. Obruçev onun işlərində ancaq xırda təshihlər edir, şagirdinin həvəs və diqqətinə sevinirdi.

– Fərrux, – deyirdi, – sən yaxşı usta olacaqsan! Çertyojun xətlərinə diqqət elə! Unutma ki, bu xətlərdə buraxılan xırda səhv qəliblərdə böyüyür, qəlibdəki səhv isə metala keçəndə düzəlməz olur, zəhmət hədər gedir.

Fərrux müstəqil sifariş qəbul edib, yaratdığı modelləri təhvil verməmiş ustasına bir-bir göstərib yoxladırdı. Bir səhv tapılmayanda sevincdən yerə-göyə sığmırdı.

Müşavirələrin birində Obruçev sexin yarımillik fəaliyyətindən hesabat verirdi. O, hazırlanmış modellərin sayından-sanbalından, planın necə və nə dərəcədə ödənildiyindən danışdı. Maşın və material ehtiyaclarından dedi. Sonra üzünü direktora tutdu:

– Yoldaş direktor, bir şeyi də deyib, sizi sevindirmək istəyirəm. Yarım ildə mənim şagirdlərimin dörd nəfəri öz sənətini lazımınca öyrənibdir. Onların eləsi var ki, indi nə model desən, müstəqil hazırlar, çertyojun nöqtəsi nöqtəsinə düz gələr...

Ustanın məlumatı direktora xoş gəldi.

– Bu, – dedi, – istehsalat müvəffəqiyyətindən az əhəmiyyətli deyil!

Obruçev üzünü iclasın sağ tərəfinə çevirib, Fərruxu utandırdı:

– Odur, orada qazaxlı bir oğlan oturub, Fərrux Muradov. Qabiliy-

yətli, həvəsli bir cavandır. Onun ustalığına indi mən dördəlli qol çəkərəm. Özünə də demişəm, daha müstəqil işləyəcəkdir.

İstehsalatda usta sözü kəsərli sözdür. Bir azdan Fərruxu irəli çəkib, sex ustasının müavini təyin etdilər. Ona özü yaşda, özündən də yaşlı adamlar verdilər və dedilər: "Bunları da sən öyrət!"

Fərruxun fəaliyyət dairəsi yalnız sex deyildir. O, zavod komsomol təşkilatının büro üzvü, divar qəzetinin redaktorudur. İstirahət vaxtlarında Fərruxu komsomol otağında qəzet üstündə çalışan, şəkil çəkən, yazı yazan görərsiniz.

Günorta tənəffüsünə çıxan işçilər, bir də görürsən aşxanaya yox, lövhə qabağına, təzə asılmış qəzetə tərəf yüyürüşdülər. Fərruxun qəzeti həmişə yığcam, aydın və gözəl olur. Oxuyanlar elektrik ustası Yəhyanı səsləyirlər:

– Yoldaş Yəhya, sizi qəzetdə çağırırlar!

Yəhya yanaşıb baxanda gözü bərəlir. Doğrudan da, qəzetdə iri xətlərlə ona müraciət olunur: "Dünən işıq xəttinin pozulmasından axşam işi bir saat dayanmışdır. Dirəklərdən sallanan məftil parçalarını külək oynadır. Görəsən, elektrik ustası Yəhya Kərimov haradadır və başı nəyə qarışıb?"

Adamlar qəzeti ucadan oxuduqca, Yəhya birtəhər olur, pozulur, rəngdən-rəngə düşür. O, Fərruxa ağır bir söz demək istəyir. Ona danışırlar ki, Fərrux elə gecə komsomolçuları çağırıb xətti təmir etdirmiş, işləyənlərə işıq vermişdir.

Yəhyanın deməyə sözü qalmır. Fərruxun yanına gəlib dinməz-söyləməz əl uzadır:

– Ver, qardaş, əlini sıxım! Sən mənim işimə can yandırıbsan, boynuma haqq qoyubsan.

Fərrux Yəhyanın minnətdarlığını qəbul etmək istəməyib gülümsəyir:

– A qardaş, o mənim borcumdur, komsomol komitəsi tapşırıb. Minnətdarlıq lazımdırsa, gəl ikimiz də təşkilata eləyək!..

Fərrux bunu ürəkdən deyir, səmimi deyir. O özünün təhsilində, inkişafında və fəaliyyətində həmişə komsomola arxalanmış, onunla fəxr etmişdir.



Komsomolun 30 illik yubileyində rayon komsomol komitəsinin mükafatlandırdığı komsomolçular içərisində Fərrux da var idi. Qabaqcıl komsomolçular haqqında Mərkəzi Komsomol Komitəsinin qərarı oxunanda, yüzlərlə fəhlə və mühəndisin toplandığı böyük klubda səhnəyə çıxıb alqışlananda da, Fərrux həmin sözü demişdi:

– Mən komsomolun oğluyam. Məni həyata, istehsalata, partiya sıralarına hazırlayan odur. Müvəffəqiyyətim varsa, onun sayəsindədir.

*1949*

# YARADAN ƏLLƏR

*Sülhə xidmət – vətənə xidmətdir.*
*Vətənə xidmət – sülhə xidmətdir.*

Təzəşəhər klubunun pəncərəsini içəridən tıqqıldatdılar. Ancaq şofer eşitmədi. Pəncərənin bir tayı tez açıldı. Yəhya başını çölə uzadıb çağırdı:

– Salman əmi, Salman əmi!

Maşın dayandı. Salman kişi düşüb qapıya tərəf yönələndə, gördü ki, klub camaatla doludur. O, yığıncağa gecikdiyini duyub tələsik yeridi.

Salmanın briqadası indi Təzəşəhərdə dördmərtəbəli böyük mənzil korpusunun qabaq divarlarını, sütunlu qapı və eyvanlarını tikib qaldırmaqda idi. Bu, binanın ən gözədəyən yeri idi. Bu, təkcə binaya yox, bütün məhəlləyə və böyük, geniş küçəyə sifət və yaraşıq verirdi. Uzaqdan, lap dəmiryoldan seçilən bu evlərin üzü, səliqəli kvadrat eyvanları, işıqlı pəncərələri şərqə – Günəşə baxırdı. Yüzlərlə ailə bu sütunlu pillələrdən keçib təzə mənzillərinə gedəcək, minlərlə qonaqlar, qatar-qatar ötən müsafirlər buraya tamaşa edəcəklər. Ona görə də həm mühəndislər, həm bənnalar buraya artıq diqqət yetirirlər.



İki gün əvvəl mədəndən gələn daşın bir hissəsini Salman kişi ayırıb kənara qoydu, qəbul etmədi. Ağabalaya təkidlə tapşırdı ki: "Alabəzək daş gətirmə, mənim karıma gəlməz, süd kimi ağ daşlar seçmək lazımdır!"

O, nə şofer, nə də texniki təchizat nümayəndəsinə arxayın oldu. İstirahət günü səhər tezdən yük maşınına oturub Qaradağa, daş karxanasına getdi. Maşın ağzından çıxan daşları seçib işarə etdi. Ağabalaya tapşırıb trestə qayıtdı.

Bu həmin günlər idi ki, təcavüzkar amerikan imperialistləri dişinə qədər silahlanıb Koreya sahillərinə tökülmüşdülər. Dollar hərislərinin vəhşi tədbirlərinə qarşı sovet xalqı kəskin etiraz, nifrət səsini ucaldırdı. Bu həmin günlər idi ki, dünyanın hər yerində atom silahını işlədənlərin "müharibə canisi" adlandırılması haqqında Sülhü Müdafiə Komitəsinin bəyannaməsinə milyonlarla adamlar imza edirdilər.

İnşaatçıların bugünkü yığıncağı da həmin məsələ üçün çağırılmışdı. Fəhlələr, mühəndislər, texniklər həyəcanla danışıb müharibə qızışdıranlara lənət yağdırırdılar. Tribunada bir-birini əvəz edən natiqlər sovet sülh siyasətinə səs verib bəyannaməni imza edir və üzərlərinə yeni-yeni öhdəliklər götürürdülər.

Partkom katibi sözü tikinti ustası Salman kişiyə verəndə, bütün zal sükut içində idi. Adamların gözü ömrünün az qala yarım əsrini tikintidə, daş yonmaqda keçirən qocaman bənnaya dikilmişdi. Salman kişi adı çəkilən kimi, yaşına yaraşmayan yeyin və iri addımlarla tribunaya qalxıb çeşməyini gözünə taxdı, əlindəki bloknot vərəqinə baxdı, başını qaldırdı, bir qartal baxışı ilə zaldakıları süzdü, əməkdə bərkimiş əllərini kürsünün kənarına söykədi, heykəl kimi dayandı, səsində aşkar seçilən bir həyəcanla danışdı:

– Yoldaşlar, mənim peşəm tikməkdir. Mən ev tikənəm. Ev tikməyin ən böyük düşməni ev yıxanlardır.

Salman kişi səsini get-gedə ucaldırdı. Sonra əllərini göyə qaldırdı. Bütün dünyada hamının istədiyi, həmişə arzu etdiyi bir sözü təkidlə üç dəfə təkrar etdi:

– Sülh, sülh, yenə də sülh! Mənim briqadamda bəyannaməyə qol çəkməyən yoxdur. Biz sülh işinə yeni əmək rəşadəti ilə xidmət etməyi

qərara almışıq. Yoldaşlarımla məsləhətləşmişəm. Günü bu axşamdan sülh növbəsinə gedəcəyik! Çünki, zəmidən yığılan hər artıq sünbül düşmənə vurulan süngüdürsə, çıxarılan hər litr neft müharibə hərislərinə bir zərbədirsə, hər tikilən yeni mənzil sülh düşmənlərinə atılan bir bombadır. Bu zərbələrin sayını artırmaq gərək. Hər kəs öz işi başında: sən – mədəndə, o – tarlada, mən – inşaatda və habelə!..

Salman kişi evə qayıdanda nəvəsi – üçyaşlı Aqil onu pilləkən ağzında qarşıladı. Uşaq, babasının gəlişini onun zəng vurmağından, addım səslərindən, ya asta öskürməsindən duyar, qabağına qaçardı. Babasının əlində gördüyü kağıza bükülü şeyləri alıb evdəkilərə təqdim etməyə tələsərdi. Bu gün isə Aqil babasını şikayətlə qarşıladı:

– Baba, nənəm məni qoymadı yazam!

– Nə yazacaqsan, bala.

– Özü yazdı, məni qoymadı!

Salman kişi uşağın şikayətinə baxmaq istədi:

– Ay Məsmə, – dedi, – özün yazırsan, niyə qoymursan uşaq da yazsın.

Məsmə gülümsəyərək uşağın xahişini izah etdi və dedi:

– Mən yox, xalalar qoymadı. Ay Aqil, qələm mənim idi, yoxsa xalanın.

Sanki, nənəsinin sözü Aqilin yadına daha yeni bir şey saldı. O, babasının ətəyindən sallanıb əlavə etdi:

– Xala da qoymadı. Portfeli var ha, o qoymadı! Qələm vermədi!

Salman kişi nəvəsinin mətləbini başa düşdü. O gün evlər müdiri evdar qadınların yığıncağını çağırmışdı, bəyannaməni imzalayırdılar. Aqil həyətdə, nənəsinin yanında idi. "Hamı yazan kağıza" o da yazmaq istəyirdi.

Nəvəsinin bu arzusu Salman kişiyə xoş gəldi! Onu qucaqlayıb göyə qaldırdı, öpdü və:

– Oğlum, – dedi – sən böyüyəndə, boya-başa çatanda o qədər yazacaqsan, qol çəkəcəksən ki... Gələcək, böyük gələcək sizi gözləyir!

Salman bunu deyib nəvəsinin üzünə baxdı. Onun gül kimi zərif uşaq simasında oğlunu, Bəndalını gördü. Bəndalı ordu sıralarında idi. O, Vətənimizin şərq sərhədlərində keşik çəkirdi. Hər həftə məktubu, teleqramı gəlirdi. Hər dəfə Aqili bir dil ilə dindirirdi.



Babanın sözü Aqili təmin etmədi:

– Mən böyümüşəm də!

– Yenə böyüyəcəksən.

– Lap sizin kimi.

– Bizdən də böyük!

– Haçan böyüyəcəyəm.

– Lap tez böyüyəcəksən.

Salman kişi bunu deyib, mənalı nəzərilə nəvəsinə – o iri və qaragözlü, girdəsifət uşağın gülərüzünə baxırdı; baxdıqca da doymaq bilmirdi. Deyəsən, hər gün gözü qabağında fərəh və nəvazişlə böyüyən uşaq deyilmiş. Deyəsən, onu ilk dəfə görürdü. Bəlkə də hər baxışda onda yerə-göyə sığmayan, bir an sakit olmayan o zirək, şirindilli uşaqda yeni-yeni xasiyyətlər görürdü. Salman kişinin bu sevincli və iftixarlı baxışlarında dərin bir məna var idi. O, ürəyini dolduran odlu hissləri, zehnini məşğul edən mənanı deməyə hazır idi, ancaq bilirdi ki, Aqil bu söhbətlər üçün körpədir.

Ailə süfrə başında oturanda, Aqil böyüklərə məxsus bir ədəblə çəngəl-bıçaq almış, çörəyini, xörəyini qabağına çəkmişdi. Burada da şikayətini unutmamışdı:

– Baba, – dedi, – xaladan o kağızı al, mən də yazım!

Salman kişi ona çoxlu dəftər, rəngli qələm alacağını vəd etdi.

Salman kişi axşam tikintiyə qayıdanda briqada üzvlərini orada gördü. Daş və sement hazırlanmışdı. Bəhram ustasına salam verib dedi:

– Salman əmi, biz dura-dura sizin axşam işinə gəlməyiniz nə lazım!

Qoca usta yenə qüdrəti tükənməz əllərini qaldırıb:

– Mənim qolumda güc var! – dedi. O, yumruqlarını düyüb əlavə etdi. – Buna güvənib qol çəkmişəm. Öhdəlik götürmüşəm. Mən işləyəndə cavanlaşıram. Hər ev təhvil veriləndə, ailələr təzə mənzilə köçəndə, elə bilirəm, balalarıma toy edirəm. Bizim işimizin mənası belədir.

Salman kişi bunu deyib pencəyini soyundu. Divar üstünə qalxdı.

Bəhram makaralarla dama çıxarılan daşı ustasına verir, sement tökürdü. Salman kişi tikirdi. Özünün seçdiyi ağ daş ilə işləmək, həm də sülh

adına işləmək qocanın əzminə qüvvət verirdi.

Azadlıq və səadətin dayağı olan Moskvada sülh tərəfdarlarının İkinci Ümumittifaq konfransı çağırılanda Salman kişinin briqadası mənzil inşaatı işini başa çatdırıb təhvil vermişdi. Təhvil komissiyasının sədri arxitektor Haşımov qoca bənnanın işindəki sürətə, keyfiyyətə yüksək qiymət verdi və onu təbrik edib dedi:

– Siz çox ailələrə yeni mənzil verdiniz, müharibə qızışdıranlara isə yeni bir zərbə vurdunuz.

Salman kişi həmişəki ürək rahatlığı ilə arxitektora təşəkkür edib:

– Borcumuzdur! – dedi.

Briqada üzvləri ustanın sözünə qüvvət verdilər:

– Biz sülh yolunda yaradan əllərimizlə axıracan varıq.

*1950*



# ÇİN QIZI

İsti yay günlərindən birində, Yantseya dəmiryoluna tərəf enən çılpaq yamacdan ayaqyalın bir qız uşağı yeyinləyirdi. Onun saçları pərişan, yaxası açıq idi. Çiynindən məktəbli çantasına oxşayan boz bir həmayil aşırmışdı. Bu qız üç gün əvvəl atası ilə çəltik tarlasında çalışırdı. Vətən göylərinə yol tapan hava quldurları – amerikan təyyarəçiləri zenit topçularının qorxusundan şəhərə soxula bilməmiş, bu yerləri – kənd evlərini, yolları, tarlaları bombalamışdılar. Səkkiz yaşından anadan yetim qalmış olan Lan-ni atasını da burada itirmişdi.

O dəhşəti gözü ilə görəndən sonra Lan-ni evə-eşiyə, kəndə yovuşa bilmirdi. Bir az tərəddüddən sonra qız, atasının təzə qəbrini son dəfə qucaqlayıb birbaş şəhərə yola düşmüşdü.

O bilirdi ki, istidə, piyada bu uzun yolu getmək çətindir, lakin bu çətinlik onu fikrindən daşındıra bilməmişdi.

O, vacib bir məsələ ardınca gedənlər kimi, gedirdi. Lan-ninin – on dörd yaşlı bir yetimin nə məqsədi ola bilərdi? O, şikayətəmi gedirdi? Ümid bağladığı qohumlarının dalınca, yaxud iş axtarmağamı gedirdi?

Qızın fikrində bunların heç biri yox idi, o tamam başqa məqsəd üçün gedirdi.

– Gedəcəyəm!

Qəlbindən gələn bu qətiyyətli söz uşaqlara yox, böyüklərə məxsus bir iradə və əzmdən xəbər verirdi. Lan-niyə elə gəlirdi ki, onu heç bir qüvvə bu əzmindən döndərə bilməz, heç bir kəs onun yolunu kəsə bilməz, çünki, o, məhz bir məqsəd üçün, böyük bir məqsəd üçün yalnız Lan-niyə, yalnız uşaqlara yox, həm də böyüklərə, Çinin, Koreyanın bütün əhalisinə aydın və əziz olan bir məqsəd üçün gedirdi. O, intiqam almaq üçün gedirdi.

Lan-ni axşam qaranlığında böyük yola çatdı. Orada cəbhəyə yollanan könüllü dəstələri görəndə qız sevincindən addımlarını yeyinlətmək istədi. Ancaq ayaqları ona tabe olmadı. Keyimiş dizləri, sanki, hissini itirmişdi. Lan-ni silahlıların uzaqlaşdığını görüb, var gücü ilə qışqırdı:

– Yoldaşlar! Qardaşlar!

Dəstələrin axırında gedən əsgər, uşağın nə isə bir mətləbi olduğunu başa düşdü, arabasını saxladı. Lan-ni əlini qaldırdı, salam verib dedi:

– Məni də götürün!

– Hara gedirsən, qız?

– Sizinlə gedirəm.

– Biz düşmən qabağına, döyüşə gedirik! – deyə əsgər cavab verdi.

– Mənə də silah verin!

Əsgər qızın xahişində, onun sözlərində milyonlarla koreyalının, çinlinin düşmənə – imperializm təcavüzünə olan odlu nifrətini duydu.

– Qızım, – dedi, – sən məktəbə getməlisən! Vətənimizin gələcək ləyaqətli vətəndaşı olmaq üçün sən oxumalısan. Sənin silahın qələmdir. – Əsgər cibindən çıxartdığı bəzəkli qələmi Lan-niyə bağışladı. – Sənin silahın bu olsun. Balaca vətənpərvər, müəllimin sözlərini bununla yazarsan!

Əsgər başı ilə "həlalik" işarəsi edib, arabanı sürdü. Lan-ni dərin bir həsrətlə yolun kənarına çəkildi, sükutla gedənlərin dalınca baxa-baxa qaldı.



Qıza kənddə demişdilər ki, sənə heç kəs silah verməz, çünki, sən uşaqsan, belə işi bacarmazsan!

O, başa düşə bilmirdi ki, ona niyə etibar edib, silah vermirlər? Məgər o, buna layiq və qadir deyilmi? Məgər onun ürəyindəki intiqam alovunu gözlərində oxuya bilmirdilərmi?

"Nə üçün mənə, heç olmazsa, bir tüfəng vermirlər? Mən atəş xəttinə necə cumardım, atamın, həmvətənlərimin intiqamını necə alardım! – Gecə-gündüz yuxu, rahatlıq bilmədən irəli gedərdim! Yaralarımı qəzəblə sağaldar, səsim həmişə qabaq cərgələrdən gələrdi, mən bunu bacarardım!"

Kənd qızının arzu və həsrətlərindən xəbər tutan qoca bir həkim onu hərbi xəstəxanaya xidmətə götürdü.

– Bu, – dedi, – vətən uğrunda, döyüş qədər müqəddəs bir işdir. Sən bizim yaralı döyüşçülərin müalicəsinə kömək et! Vətən səndən çox razı qalar.

Lan-ni xəstəxanada şəfqət bacısı vəzifəsində canla-başla işləsə də, qulağı səsdə, gözü yolda, ürəyi intizarda idi. Güman edirdi ki, nə qədər mehriban, xoşrəftar adamlar içində çalışsa, nə qədər müqəddəs iş görsə də, onun intiqam almaq arzuları bu otaqlara sığmayacaqdır. O tez-tez baş həkimdən xahiş edib deyirdi:

– Mən rahat ola bilmirəm! Mən oraya köməyə getmək istəyirəm.

■ ■ ■

Günün birində Lan-nini Sülh tərəfdarları Komitəsinə çağırdılar. Qız ancaq burada, özü kimi cavanlar yığıncağında bildi ki, onu Moskvaya, Ümumdünya sülh tərəfdarlarının konfransına göndərirlər. Bu xəbəri eşidəndə Lan-ni sevincindən bilmədi, nə desin. Yoldaşları da sevinirdilər. O birbaş idarəyə, baş həkimin yanına getdi.

Orada da qızı təbrik etdilər. Ona yol tədarükü gördülər. Səhiyyəçi cavanlar Moskvaya bir məktub yazdılar. O məktubda sovet adamlarının, onların böyük müəllimi, dünyada sülhün, səadətin bayraqdarı olan böyük Kommunist Partiyasına məhəbbət və minnətdarlıqlarını bildirdilər. Amerikan imperialistlərinin Asiyada törətdikləri cinayətləri,

Çin, Koreya xalqlarının müharibə qızışdıranlara olan qəzəb və nifrətini izah etdilər. Yoldaşları Lan-ninin əlini sıxıb yola salanda, hərə bir dillə ona tapşırırdı:

– Moskvaya salam deyərsən!

– Sən nə xoşbəxtsən!

– Moskvada eşitdiklərini yadında möhkəm saxla ha!.. Sən gərək hamısını bizə danışasan!

* * *

Qatar Moskvaya çatmazdan hələ bir gün qabaq Lan-ni pəncərə qabağından çəkilmirdi. O, əlindəki "Pravda" qəzetinin hər səhifəsinə baxdıqca, barmağını ayrı-ayrı kəlmələr üstünə qoyub mütərcimdən sözlərin tələffüzünü, mənasını soruşurdu.

Sovet adamları qardaş Çindən gələn cavan dostlarını hər yerdə doğma məhəbbət, hərarətli bir sevinc, səmimiyyətlə qarşılayırdılar. Lan-ni bu dostların dilindən düşməyən "sülh" sözünü, "SSRİ", "Çin" sözlərini təkrar edirdi.

Moskvada, Çin qızının ilk ayaq basıb gəzdiyi yer onun çoxdan bəri kitablarda oxuduğu, radiolarda eşitdiyi, rəssam lövhələrində gördüyü əzəmətli yer – Qızıl meydan oldu. Lan-ni minlərlə sovet adamlarına qarışıb böyük Lenin məqbərəsini ziyarət etdi.

Lan-ni burada özünü doğma atasının qarşısında olan kimi sərbəst hiss etdi. Nədənsə onun qəlbi, buzu qırılmış bir ümman kimi tərpəndi. Qızın sinəsi coşqun və sakit bir hisslə doldu. Bu, illərdən bəri çəkdiyi həsrət, bəslədiyi arzu, aşıb-daşan bəxtiyarlıq sevinci idimi?.. Lan-ni ürəyini dolduran, illərdən bəri ifadə edilməyən qəhərli sözləri deməyə "sanki" dünyada ən münasib yeri, ən münasib adamı tapmışdı. Lan-ni hiss edirdi ki, çoxlarına müyəssər olmayan bir imkanı o ancaq indi tapmışdır. Bəlkə, buna görə, məhz buna görə odlu gənclik duyğularının köyrəldiyini, sanki, qəlbinin birdən-birə genişlənib açıldığını zənn etdi. O, gözlərini əzəmətli, müqəddəs məqbərəyə dikərək pıçıldadı:

– Ata! Uzaq Çindən – azad Çindən bütün uşaqların, gənclərin məhəbbətini və salamını gətirmişəm.



Lan-ni bunu ata ağuşuna atılan bir bala kimi, həyəcanlı qəlbinin bütün hissiyyatı ilə dedi.

*1950*

# GİLASIN SEVİNCİ

Gözlənilən gün gəlib çatdı.

Sabah, sentyabrın 1-də Gilas da dəftər-kitab götürüb məktəbə gedəcək, oxumaq, yazmaq, mahnı öyrənəcək.

Qız neçə dəfə yoldan ötəndə dayanıb məktəbə, uşaqlara həsrətlə baxmış və soruşmuşdu:

– Mən haçan oxuyacağam?

Anası onun hələ məktəb yaşına çatmadığını deyəndə Gilas inciyirdi:

– Boyum çatır, adımı yaza bilirəm!..

– Darıxma, qızım, gələn il səni dərsə qoyacağam!

Gözlənilən il gəlib çatdı. Gilas məktəbə hazırlaşırdı.

Onun məktəb tədarükü çoxdan görülürdü. Yazın gözü açılanda, qaysılar çiçəkləyəndə iki qız gəlib onun yaş kağızına baxmış, adını yazmışdı. Anası ona portfel, dəftər-qələm, üstündə şəkil olan təzə bir kitab almışdı.

Şəkildə lentli, kök, qaragöz bir qız uşağı oturub kitab oxuyurdu.



Gilas bu şəkilə çox baxırdı. Hər baxdıqca orada özünü görürdü. Ürəyində bəzi-bəzi sözlər deyirdi: "Mən də belə oturacağam, lap bu cür. Mənim də şəklimi çəkəcəklər."

Bu axşam anası Gilasla xüsusi məşğul oldu. Onun məktəb paltarını hazırladı, maşın başında oturub bir önlük tikdi, lentlərini ütülədi, haçandansa saxladığı ağzıqatlaqlı, qırmızı naxışlı corabları şkafdan çıxartdı, "mübarək!" deyib qızına verdi. Gilasın dəftər-kitabını portfelə yığdı, portfelin sol küncünə qırmızı bir alma da qoydu.

– Tənəffüs olanda yeyərsən! – dedi.

Qızını – əsgər yoldaşından yeganə yadigar olan Gilası böyüdüb bu yaşa çatdıran, sabah onu məktəbə yola salmalı olan ananın qəlbində təbii bir sevinc, bir rahatlıq hissi vardı:

– Qızım, indi hər şeyin hazırdır!

Ancaq Gilas rahat ola bilmirdi. Anasının coşan məhəbbəti və bu tədarüklər onun intizar və həyəcanını daha da artırırdı. Ona elə gəlirdi ki, bunların hamısı sabah onun məktəbə getməsi üçün kifayət deyildir. İllərdən bəri eşitdiyi, arzusunda olduğu o böyük həyətli, iripəncərəli üçmərtəbəli bina, otaqlarından müəllim səsi gələn, həyətində uşaqlar oynaşan bina Gilasın gözlərində daha da böyüməkdə idi. Dəstə-dəstə uşaqların girib-çıxdığı, sıralara düzüldüyü, zənglə yığılıb-dağıldığı yadına düşdükcə qızın ürəyi döyünür, rəngi qızarırdı. Ona elə gəlirdi ki, məktəbə getməyə hələ hazır deyildir. Nəyi isə çatışmır. Ancaq bu çatışmayan şeyin nə olduğunu axtarıb tapa bilmirdi. Qapıya yüyürüb qayıdır, portfelini açıb-bağlayır, güzgü qabağında dayanır, pəncərədən boylanıb, həyətdəki uşaqlara görünmək istəyir, anasından dönə-dönə soruşurdu:

– Müəllimə necə salam verim? Adımı deyim, yoxsa atamın adını? Portfelimi hara qoyacağam?..

Məktəb həyəti yüzlərlə əliportfelli, boğazıqalstuklu oğlan-qızla dolmuşdu. Elə bil ki, hər tərəfə çiçək səpilmişdi. Aylardan bəri bir-birindən ayrılan, düşərgələrdə, istirahət evlərində, yaylaqlarda, səyahətlərdə dincəlib qayıdan yoldaşlar görüşür, qucaqlaşır, quşlar kimi ucadan səs salırdılar.

Hündürboy, ağ, uzun paltarlı, döşü nişanlı, qolu saatlı qadın – mü-

əllim birinciləri sıraya düzüb aparanda zəng səsləri hamını dərsə çağırırdı. Gilas səsini eşitdiyi bu zəngin harada vurulduğunu bilmək üçün ətrafına boylanırdı, amma bir şey görə bilmirdi. Yanındakı, adını hələ bilmədiyi özü boyda bir qız onun barmağını tutub çəkirdi: "A qız, bəri gəl!"

Müəllim uşaqları sıralara cüt-cüt əyləşdirəndən sonra dedi:

– Uşaqlar, siz bu gündən məktəblisiniz. Sizi təbrik edirəm!

Müəllimin bu mehriban sözləri Gilasın elə xoşuna gəldi ki, özü də bilmədən ayağa qalxdı, şirin-şirin gülməyə başladı. Müəllim öz adını deyəndə Gilas təkrar yerindən qalxıb heç kəsə macal vermədən dedi:

– Müəllim, mənim adım Gilasdır.

İki gün sonra Gilası sinfə sanitar seçdilər. Anası onun qoluna qırmızı nişan tikdi, çiyninə "sanitar çantası" saldı. İndi Gilas öz vəzifəsini bilirdi. Sinifdə bir kağız qırığı, bir çöp düşməyə qoymazdı. Tənəffüsdə gərək lövhə təmizlənə, silgi yuyula, pəncərələr açıla, hamı sinifdən çıxa idi. Müəllimin stoluna hər gün gərək təzə kağız, ya qəzet salına idi. Lövhə tərtəmiz, tabaşir yerində ola idi.

Günlər keçdikcə, yoldaşlarını yaxşı tanıdıqca, sevdiyi kitabın vərəqlərini öyrəndikcə Gilas sevincindən hər gün bir az böyüyürdü. İndi daha birinci günlər, qələm tutmağı öyrəndiyi, cizgini əyri çəkdiyi günlər deyil. O, hərfləri, sözləri qəşəng yazmaqla, müəllimə göstərməklə kifayətlənmirdi. Evə çatmamış anasını çağırıb portfelini açır və sevinə-sevinə deyirdi:

– Bax, müəllim beş yazıb.

Qız dərsdən sonra həyətə çıxmışdı. Orada yalnız uşaqların yox, böyüklərin, anaların da yığıncağını gördü. Ev idarəsi müdiri Zəhra xala stol qoyub üstünə qırmızı örtük salmışdı, kağız-qələm də var idi. Zəhra yazılı bir vərəqi göstərib, analara deyirdi:

– Qol çəkin!

Bu, indi bütün dünyanın hər yerində fikriaçıq adamların qol çəkdiyi bir kağız idi. Bu, Ümumdünya Sülh Şurasının məşhur müraciəti idi.



Qız sanki təkcə Zəhraya yox, bütün analara sual verirdi.

– Niyə qol çəkirlər?

– Bu nə kağızdır?

Zəhra onun başını sığalladı, əyləşib gözlərinin içinə baxdı, çox mənalı sualına cavab verdi:

– Qızım, biz sülhə qol çəkirik. Qol çəkirik ki, bir də dava olmasın, heç bir ev dağılmasın, sizin kimi balalar dinc oxuyub, boya-başa çatsınlar, böyük adam olsunlar. Bu kağıza rəhbərlərimiz birinci qol çəkiblər.

Gilas bir kağıza, bir də Zəhraya baxdı.

– Uşaqlar da qol çəkə bilərmi? – deyə Gilas soruşdu.

– Uşaqlar böyüyəndən sonra qol çəkər. İndi sənin anan qol çəkəcək. Bəs anan hanı? – Bir şey yadına düşmüş kimi, Zəhra əlavə etdi: – Sən isə dərslərini əla öyrən, müəllim deyənlərə bax!

Gilas evə qaçdı. Tövşüyə-tövşüyə anasını səslədi:

– Tez gəl, qol çəkirlər!

– Nəyə qol çəkirlər?

– Daha dava olmasın.

– Təki olmasın, qızım. Bəs sənə kim dedi?

– Odur, Zəhra xalanın əlində qərar var – sülhün qərarı. Rəhbərlərimiz qol çəkib, indi də hamı qol çəkir.

Anası cəld ayağa qalxıb həyətə gəldi. Zəhra anası ilə gələn Gilası görüb güldü:

– Sağ ol, Gilas, – dedi. – Sən əsl sülh tərəfdarısanmış, qızım.

Gilas həvəslənib binanın yuxarı mərtəbələrinə qalxdı. O bir işıq kimi evlərə girib-çıxır, xoş xəbər və şənlik gətirirdi. Ev qadınlarını sülhə qol çəkməyə çağırırdı:

– Sayalı xala, həyətdə çağırırlar, hamı yığılıb.

– Ay nənə, gedə bilmirsənsə, gətirim bura, qol çək!

Gilasın qapı-qapı gəzib xəbər verməsi, binaya səs salması böyüklərin xoşuna gəlirdi. Onlar: "Bu saat, bala!" – deyə evdən çıxırdılar. Sülh kağızına qol çəkənlərin sayı çoxaldıqca Gilasın fərəhi artır, gözləri sevinclə parıldayırdı. O, böyüklər kimi diqqətlə siyahıya baxıb deyirdi:

– Hamı sülh istəyir.

Zəhra onun sevincinə şərik oldu:

– Qızım, bütün vətənimiz sülh istəyir.

Qızın gözündə sülh istəyənlər get-gedə artır və dünyanı tutan əzəmətli bir ordu kimi böyüyürdü. Gilas kişilərin, qadınların, fəhlələrin, müəllimlərin, qocaların, cavanların dəstə-dəstə gəlib, bu qərara qol çəkdiyini gözü ilə görür və sevinirdi. O, sülh sözünü öyrənəndən sonra lövhədə iri hərflərlə bunu təkrar-təkrar yazır, pozmağa qoymurdu. Sanki uşaqlar qızın bu işarəsini bir çağırış kimi deyirdilər. Müəllimin öyrətdiyi sülh mahnısını uca səslə oxuyurdular:

*Mən də sülhə səs verən*
*Milyonların biriyəm.*
*Mən səadət yolunun*
*Yorulmaz əsgəriyəm.*

Gilasın və yoldaşlarının həyat, səadət mahnısı bahar günəşi kimi üfüqlərə yayılırdı.

*1951*



# ƏSGƏR OĞLU

*Ali məktəblərimizə hazır cavanlar yetişdirən müəllimlərə, imtahan verən uşağını min bir qayğı ilə yola salan analara, qucaq-qucaq [illegible] daşıyan kitabxana qızlarına.*

## I

–Başı xeyirlilər çörəyi-suyu da vaxtında yeyib-içmirlər. Belə də dərs olarmı, belə də candan keçmək olarmı. Müəllimlərinə bir deyən, bir çatdıran yoxdurmu. Nədir bu axı...

Ehtiyat xala çay məcməyisini hirslə stolun üstünə atıb, deyinə-deyinə içəri evə, Hüsniyyənin yanına getdi. Getdi ki, Hafizdən şikayət eləsin. Ancaq bacısını şirin yatan görüb qayıtdı.

İndi o, aynabənddə, qırmızı abajurlu çırağın altında bitib qalmışdı. Bilmirdi kimə desin, hirsini necə soyutsun.

Gündüz ayrı bir həvəslə bişirib-düşürdüyü xörək, hazırladığı süfrə də belə olmuşdu. Hafiz alayarımçıq bir-iki tikə alıb qaçmışdı ki, "Müəllim məsləhət verəcək!" Axşam yoldaşları ilə hazırlaşmağa oturmuşdular. İndi də Ehtiyat xalanın isti çayı soyuyub qayıdır, sərin suyu qızıb qalırdı. Nə Hafiz, nə də yoldaşları kitab-dəftərdən baş qaldırmır,

gəlib-gedənə göz ucu ilə də baxmırdılar. Dərsə elə cummuşdular, barmaqlarını kəssəydin xəbər tutmazdılar.

■ ■ ■

Ehtiyat xala dəmiryoldan xeyli uzaq, sıralanmış meşəli dağlar qoynunda, səfalı yaylaq şəhərində yaşayırdı. İpək fabrikində, boyaq-naxış sexində çalışırdı. Ay olmazdı ki, onun mükafatı çıxmasın, adı qəzetdə, ya iclasda çəkilməsin. İşində də, həyatında da onun özünəməxsus səliqəsi var idi. Balaca ailəyə həm ana, həm ata idi. Cəbhədən qayıtmayan Tapdıq oğlunun yeganə yadigarı Hafiz indi onun təsəllisi, ümidi, böyüyən sevinci, güclənən iftixarı idi. Vaxtilə Tapdıq üçün bəslədiyi bütün arzuları indi böyüyən, ağıla-kamala çatan Hafizin boyunda, baxışında, duruşunda, danışığında, gülüşündə görürdü.

Deyirlər, ana qəlbi böyük hisslərin beşiyidir. Dünyada ana məhəbbətindən güclü nə var! Ana qarşısında sellərin dayandığını, mühit dənizlərinin çəkildiyini, dağların baş əydiyini, tufanların kəsdiyini, ildırımların susduğunu, hökmdarların təslim olduğunu ədiblərdən biri daha gözəl yazmışdır.

Nakam məhəbbət isə baharqabağı başı kəsilmiş cavan ağac kimi yüz yerdən pöhrələyir, qol-budaq atır.

Ehtiyat xalanın da Hafizə məhəbbəti belə idi. Varlığını ona bağlamışdı. Oğlundan əl üzdüyü ilk gündən səkkizyaşlı nəvəsini igid oğlunun yerinə qoymuşdu. Xüsusilə gəlini – Tapdığın xatirəsinə hörmət qoymayan o nanəcib başqasına qoşulub gedəndə Ehtiyat xalanın dərdi daha da artmışdı. Uşağı bağrına basıb doyunca ağlamış, sonra and içmişdi ki, nə qədər canında can var, Hafizə qulluq edəcək, onu Tapdıq kimi bir igid böyüdəcəkdir...

Qadın bütün səadətini, müqəddəs hisslərini "əsgər oğlunun" – Hafizin oxumasına və boya-başa çatmasına bağlamışdı. Hafizin pioner şəklini gecə-gündüz qoynunda, can köynəyinin altında gəzdirər, bütün dost, yoldaşlarına göstərər, sevinib fəxr edərdi. Hafiz bir saat gecikdimi, Ehtiyatı məktəb qapısında görərdin. Hafizin başı ağrıdımı, dünya



qadının gözündə qaralardı. Hafiz güldümü, qadının ürəyi çiçək kimi açılardı.

Ehtiyat xalanın adını əlli il bundan əvvəl anası qoymuşdu. Amma elə münasib qoymuşdu ki, deyərsən, başqa heç bir ad bu qadına yaraşmazdı. Ehtiyat! Ehtiyat insanın yaraşığıdır. Ancaq bu bəstəboy qadının yaraşığı yox, bütün varlığı ehtiyat idi. İyirmi ildən artıq idi ki, o, fabrikdə çalışırdı, bir dəfə gecikməmiş, bir dəfə də işdən qalmamışdı. Həmişə yarım saat qabaq sexə gələrdi. Fit səsi eşidəndə səkidə dayanardı, maşını ötürməmiş küçəni keçməzdi. Pasportunu da cibindən kənara qoymazdı: "Bəlkə soruşan oldu". Jaketinin yaxalığından iynə-sap əskik olmazdı. Jaket cibində saxladığı balaca yaylıqda xırda pul, aspirin, karandaş qırığı, adres kağızı, haşiyə naxışı görmək olardı. "İşdir, adamdır, lazım olar..."

II

Aylar, illər bir-birini təqib edib ötdü. Gün o gün oldu ki, Hafiz orta məktəbi bitirdi, ali təhsil eşqinə düşdü. Bu gün isə Ehtiyat xalanın böyük bayramı idi.

– Uşaq necədir, Ehtiyat xala?

– Keyfin yaxşı olsun, bu il universitet dərsinə gedir.

Qadın "universitet", ya "institut" adını xüsusi ahəng və iftixarla çəkər, təkrar-təkrar deyərdi. Hələ dərs ilinin qurtarmasına neçə ay qalmış o, Hafizin "universitetindən" şirin-şirin danışardı. Yəqin ki, bu "dərsin" məzmun və təfsilatı haqqında dürüst bir şey bilmirdi. Oğlunun hansı ixtisas sahibi olacağını soruşan olsaydı, yəqin ki, müəyyən cavab verə bilməzdi. Ancaq onu bilirdi ki, "universitet" dərsi böyük dərsdir. Hər adam bu dərsə çata bilmir. Onu yaxşıca dərk edirdi ki, "boyaqçı Ehtiyatın universitetdə oğul oxutmağı başqa yerdə, başqa zamanda görünən iş deyil, bu ancaq Sovet hökumətinin gücünədir..."

Bir səhər Hafiz çay stolunda oturanda nənəsinə lavaş kimi enli, süfrə kimi şəkilli bir jurnal göstərdi. Səhifələr boyu böyük, çoxqatlı, yaraşıqlı binaların, "göyün yeddi qatına ucalan" binaların şəkli çəkilmiş-

di. Sağdan sola uzanıb-gedən, bir-birindən qəşəng, uca qülləli binaların lap kəlləsində qırmızı ulduz parlayırdı. Qabaqda da qoşa dirəklərdən sallanan gur işıqlı fənərlər gün kimi yanır, geniş həyət meydançasında cavan ağaclar, gül-çiçək xiyabanları görünürdü:

– Bu nə qəşəng yerdir! – deyə Ehtiyat xala maraqla soruşdu.

– Ana, bilirsən bura haradır?

Ehtiyat xala həmişəki kimi, yanılmamaq üçün birdən-birə cavab vermədi. Bir oğlunun yanına keçdi. Jurnalı bir o yana çevirdi, bir bu yana çevirdi, pəncərə qabağına gətirdi.

– Mən, – dedi, – Bakıda çox olmuşam. Bunu görməmişəm. Tiflisdə də olmaz. Deyəsən, bala, bu təzə əhvalatdır axı.

– Təzə binadır. Ancaq nə binası olduğundan xəbərin varmı?

Çətin bir sual qarşısında qalmış kimi, qadın gözlərini Hafizə zillədi.

– Nə binası olacaq, əlbət ki, hökumət binasıdır.

– Necə yəni, hökumət binası?

Qadın oğlunun sualını yersiz sayıb səsini ucaltdı:

– Ədə, Sovet hökumətindən savayı belə dəsgahı kim qura bilər!

Hafiz təkrar soruşdu:

– Hökumət tikməyini demirəm. İçində kim olur, onu soruşuram!

Ehtiyat xala bu suala cəld cavab verdi:

– İçində olur hökumətin adamları, böyük-böyük ministrlər, direktorlar!

Hafiz başını buladı:

– Bilmədin, ana!

Qadın təəccüblə oğlunun üzünə baxdı:

– Bəs kim olur?

Hafiz əlini bərk-bərk jurnal səhifəsinə vurub dedi:

– Ay ana, burada tələbələr olur, müəllimlər olur. Bura universitetdir ey!

– Necə universitet?

– Bəli, təzə tikilmiş universitet!

Qadın şəkillərə bir də baxdı:

– O boyda da universitet olar?



– Heç yerdə olmasa da, Moskvada olar!

Hafiz jurnalı əlinə alıb, bu nəhəng elm ocağından anasına şirin-şirin danışdı, izahat verdi:

– Yer üzündə dünyanın heç yerində belə nəhəng məktəb yoxdur, bunu Moskvada təzə tikiblər, 25 min otağı var.

Qadın bu rəqəmə heyrət elədi:

– Necə! İyirmi beş nə?

– İyirmi beş min!

Ehtiyat xala təkrar etdi:

– İyirmi beş min! Bu hara yerləşir! Böyük şəhər olar ki.

– Universitet elə bir elm şəhəridir. Otaqların sayını ondan bil ki, təzə doğulan uşağı həmin binaya gətirəsən, ötürəsən, deyəsən ki, "hər otaqda bircə gün yaşa!" Axırıncı otaqda onun yetmiş bir yaşı olar!

Ehtiyat xala əlini dodaqlarına aparıb dayandı, baxdı-baxdı!

– Bax, bu orta bina 32 mərtəbəlidir. Kəllədəki minarəni görürsən, burada böyük saat qoyulub. Əqrəbinin uzunluğu bir metr yarım, yəni mənim boyumca! Təkcə əqrəbi!..

Hafiz jurnala baxıb rəqəmlər oxuduqca, bu şöhrətli tikintinin vəsfini dedikcə qadının maraq və təəccübü daha da artır, oğluna suallar verirdi:

– Ora çıxanacan adamda taqət qalmaz ki.

– Hər qapıda bir lift işləyir. Bir göz qırpımında adamları istədiyi mərtəbəyə qaldırır.

– Haçan tikiblər bunu, belə.

– Son beş il ərzində. Bu il də burada dərs başlanır.

– Bəxtəvər orada oxuyanlara!

– Ana, istərsənmi, oğlun da onların cərgəsində olsun?

– Niyə istəmirəm, oğul. Təki sən böyük-böyük dərslərə çatasan, səsin elə yerlərdən gəlsin!

– Ana, mən də oraya imtahan vermək, Moskva universitetində oxumaq istəyirəm.

– Allah muradını versin, oğul!

Mətləbinə çatmış kimi, Hafiz yerindən qalxdı, uzun, güclü qollarını açıb nənəsini qucağına aldı, gəzdirmək istədi.

– Bəsindir, ədə, bəsindir, ürək-göbəyin düşər!

"Mətləbinə çatmış kimi" deyirik. Çünki burada bir həqiqət var. Hafiz uzaqlara, Moskva məktəblərinə getmək niyyətini nənəsinə birdən-birə demirdi, deyə bilmirdi. Qorxurdu ki, qadın etiraz edə, "uzağa getmə, təkəm", deyə. "Gözümün qabağında ol!" İndi, nənəsi universitetə valeh olanda, Hafizə xeyir-dua verəndə Hafizin sevincinin həddi-hüdudu yox idi. O oraya, məhz bu böyük elm ocağına, dünyanın milyon gənclərinin həsrət çəkdiyi universitetə daxil olmaq əzmində daha bərk durdu. O, otağına keçib kitablar aləminə cumdu...

İmtahan söhbəti indi hər yerdə ən şirin söhbətdir.

Cavanlar arasında bu söhbəti daha çox eşitmək olar: kitabxana, məsləhət saatı, zaçot kitabçası, imtahan biletləri, yazı mövzusu, müsabiqə, qiymət... Bu sözləri hər yerdə eşidərsən: Hafizin mənsub olduğu kiçik bir ailədə də, rayonda da, vaqon kupelərində də, yaylaqlarda da, mərkəz şəhərlərdə də...

Bizim vətənimizdə elə şəhərlər var ki, yazbaşı yüz minlərlə tələbə imtahana hazırlaşır. Auditoriyalarda, imtahan stolu qarşısında gənclərin bilik müsabiqəsi gedir...

Heç bir dövrdə, heç bir ölkədə bu qədər kitab oxunmamışdır. Heç bir dövrdə, heç bir ölkədə bu qədər gənc elmə girişməmişdir. Heç bir ölkədə, heç bir dövrdə bu qədər qələm işləməmiş, kitab bağlanmamışdır, alimlərin adı, kəşflərin adı bu qədər çəkilməmişdir. Mağazalara daşınan kitabların sayı yüzlər, minlər deyil, milyonlar, yüz milyonlarladır. Tarlalarda, bağ və bostanlarda məhsul toplanışı fəsli şıdırğı davam edən kimi, kitabxanaların da qızğın iş fəsli imtahan vaxtıdır. Minlərlə gənclər kitab üçün axışıb gəlirlər. Döşü önlüklü kitabxanaçılar əldə qeyd kağızı tər tökə-tökə qəfəsələri araşdırır, qucaq-qucaq kitabları tələsə-tələsə oxu zalına daşıyırlar.

Sabah Hafiz Bakıya yola düşəcəkdi. Ehtiyat xala bütün gecəni oğlu ilə, onun səfər hazırlığı ilə məşğul oldu. Uşağın paltarlarını yuyub ütülədi, düymələrini bərkitdi, səliqə ilə çamadana yığdı. Sabun qutusu, diş tozu, üz dəsmalı, iki dənə əl yaylığı, paltarların altına, sərilmiş qəzetin altına, çamadanın küncünə iki yüz manat pul qoydu.



Ancaq çamadanı bağlayanda yadına düşdü ki: "Adam içinə gedir, yar-yoldaşı var, çamadana örtü lazımdır..." Qalxıb əl maşınını stolun üstünə qoydu. Haçandansa aldığı göy sətindən bir örtü tikdi, haşiyələrinə qırmızı köbə verdi, ağ düymələr qoydu. Çamadanı torbasına salıb düymələdi. Əlinə alıb ağırlığını yoxladı, yaraşığına diqqət elədi. İşindən razı bir halda əlində çamadan neçə dəfə evdə o yan-bu yana getdi. Bayaqdan bəri qayğılı görünən siması birdən-birə yaz göyləri kimi açıldı. Özü hiss etmədiyi halda dalğalandı, oynayan sevinc təbəssümü çöhrəsini işıqlandırdı: "Hamının balası boya-başa çatsın, mənimki də onların içində!"

Oğlunun xeyir işində, belə bir xoş günündə çalışmaq, istirahət, yuxu bilməmək Ehtiyata nə qədər xoş, nə qədər ləzzətli idi! O hərdən, çarpayısında ağır-arxayın uzanıb yatan oğluna nəzər salır, hərəkətlərinə daha çox əminlik, sürət və qətiyyət verirdi.

Hafiz isə o qədər şirin yatmırdı. Zahirən yatmış görünsə də, o, gələcək işləri, təhsil səfəri, mərkəzdə onu gözləyən ağır, çətin müsabiqə imtahanları ilə məşğul idi. Ali məktəb qapılarında yüzlərlə özü kimi gənclərə qarışıb danışır, adını yazdırır, şəhadətnamə göstərir, imtahan vərəqəsi alır, komissiya qabağında durur, bilet çəkir, cavab verirdi.

– Ana, hələ yatmamışsan?

– Yox, oğul, işim var!

– Gecdir, sabah görərsən, dur yat! Axı sən işə gedəcəksən.

Oğlunun oyaq olduğunu görən ana bayaqdan bəri ürəyində danışdığı sözləri ucadan demək istədi. "Tez-tez kağız yazarsan! Özünə yaxşı baxarsan. Yeməyinə korluq vermə. Üstüaçıq yatma. Pis yoldaşlara qoşulma. Xalangildə qal..."

Bu söhbətlərlə Hafizi məşğul edib yuxudan qoyacağını düşünəndə Ehtiyat xala fikrindən əl çəkdi, heç nə demədən qalxıb çırağı söndürdü, yatağına girdi. Yatağına girdi, ancaq gözünə yuxu getmədi. Elə bil dünyanın fikir-xəyalını bu gecə yığıb onun yastığına tökmüşdülər: "Necə olacaq, görəsən... Uşaq imtahanlardan nə cür çıxacaq. Yayın günündə arıqlayacaq. Deyirlər, məktəblərə gələn çox olur. Hər dərsdən beş almayanı götürmürlər. Özü də Hafizin istədiyi Moskva məktəblərinə getmək lap çətindir. Görəsən, nə sayaq olacaq. Görəsən, müəllimlər Ha-

fizin dərsindən razı qalacaqmı, yoxsa kağızlarını qaytarıb deyəcəklər: "Bala, sən get öz şəhərinizdəki instituta! Buralara gücün düşməz..." Dilim-ağzım qurusun, onda gədə qüssədən dəli olar. Onda mən neylərəm. Mənim əlim hara çatar. Bakıda kimim var. Yazıq Hüsniyyənin əlindən nə gələr..."

Qadın bu dəhşətli fikirləri özündən rədd edib ürəyinə təskinlik verirdi: "Yox, Hafizin dərsi kimdən əskikdir. Bünyad müəllim hər yerdə tərifləmirmi? Naxış kimi xətti var. Özü əsgər balası, özü təyyarə modeli düzəldən, özü komsomol. Onun daşdan keçən attestatı var. Yox, kim nə deyə bilər! Bərkə qalanda lap nazirin yanına gedərəm. Bir oğlum var, ona da yer tapılmayacaqmı? Dünya hələbəslik deyil ki! Yox, sağlıq olsa heç Hafizə kömək lazım olmayacaq. On ildir öz gücünə getmirmi? On ildir məktəbin, müəllimin, direktorun əzizidir. İnşallah, axıracan da elə gedəcək. Buna nə söz!.."

Qadın oğlunun yuxuya getdiyini yəqin edib, təkrar qalxdı. Həyətə çıxdı. Dan yeri sökülür, hava işıqlanırdı.

Ehtiyat xala ağ samovara od saldı. "Axırıncı gündür, – dedi, – qoy uşağın yanında səslənsin". Həyət bağçasına enib əl səbətini yetişməkdə olan qaysı, gavalı ilə doldurdu, üstünə tut yarpağı qoyub örtü çəkdi.

Həyət qapısını açıb küçəyə çıxdı. Hava lap işıqlanmışdı, küçələrdə daş döşəmə üzərində addım səsi eşidilirdi. Ehtiyat xala bu səslərə diqqət yetirir, bunların hər birinə oğlunun səfəri ilə bağlı bir məna verməyə çalışırdı.

– Ehtiyat bacı, sabahın xeyir! Səhər-səhər nə tezdən çıxmışsan, xeyir ola, yoxsa səfərdən gələnin var?

Bu, cəld addımlarla idarəsinə doğru gedən, çiyni çantalı poçtalyon Əkbər idi. Ehtiyat sevindi, onun salamına ucadan cavab verdi:

– Xeyrə uğrayasan, Əkbər qardaş! Səfərdən gələnim yox, gedənim var. Hafizi yola salıram. Universitet dərsinə gedir.

– Yaxşı yol! Deməli, bundan sonra sənə kağız, sovqat daşıyacağıq, eləmi?

– Əldən-ayaqdan var olasan! Həmişə xeyir xəbər olasan! Tələbə adamdan nə sovqat olacaq! Uşaq oxuyacaq, yenə gərək mən əlimə düşəni göndərəm.



– Ehtiyat xala, elə demə, əlaçı tələbə tanıyıram, hökumətdən beş-altı yüz təqaüd alır, sənin oğlun da bilən uşaqdır. Onun təqaüdü az olmayacaq ki!

– Canı sağ olsun, sizinkilərlə bahəm! Oxusun, qurtarsın, qalan şey ötüşər.

– Əlbəttə ki, canı sağ olsun!

Əkbər ötüb gedəndə bir şey yadına düşmüş kimi, Ehtiyat evə döndü. Çamadanı, səbəti götürüb avtobus stansiyasına yollandı.

Poçtalyon Əkbərlə görüşü və söhbəti qadın uğurlu bir fal kimi yozur, oğlunun işlərinə ürəyində tam əmniyyət duyurdu. "Uşaq stansiyaya rahat getsin" – deyə şeyləri qabaqca aparıb növbətçiyə tapşırdı. Üç manat da pul verib xahiş etdi ki, "Bir bilet götür, lap qabaqda Hafizə yer saxla!"

Qayıdıb evə çatanda evlərin çoxunda radio işləyirdi. Kreml saatının altını vuran zəngi eşidilirdi. Qadın istədi Hafizi oyatsın, fikirləşdi ki, avtobusun yola düşməyinə hələ bir saat var. Şeylər də yerbəyer olub. Uşağı tez yuxudan eləmək lazım deyil. Bir də fikirləşdi ki, "Yox, axı yeyib-içməlidir. Tələm-tələsiyə düşməsin..." Yaxınlaşıb şəhadət barmağı ilə Hafizin adyalına toxunmaq istədi. Oğlunu – sabah gecə kim bilsin, harada, hansı vaqonlarda yatmalı olan oğlunu şirin səhər yuxusunda görüb dayandı. Bir xeyli dayandı. Sonra ehtiyatla və şirin, mülayim, mehriban ana səsi ilə çağırdı: "Hafiz, Hafiz! Oğul, vaxtdır! Hafiz, vaxtdır!."

Qadın Hafizi Bakıya, bacısı Hüsniyyənin yanına yola salırdı. Arxayın idi ki, uşaq bacısı evində korluq çəkməyəcək, oturub imtahanlara hazırlaşacaqdır. Ancaq ürəyində qoymuşdu ki, on-on beş gün sonra, imtahanlar qurtarhaqurtarda, uşaqların işi müəyyən olan zaman özü də getsin, Bakıda olsun. Direktorla da məsləhətləşib razılıq almışdı ki, məzuniyyəti iyunun axırlarına salınsın.

Hafiz geyinib qəlyanaltı yeməyə oturanda qadın təkrar həyətə enib, yarpağı şehli güllərdən səliqəli bir dəstə düzəldib gətirdi:

– Xalan gülü çox xoşlayır. Qrafinkaya qoysun, qönçələri çoxdur, suda açılar.

– Ana, məni güllə yola salırsan!

– Həmişə gülə tuş gələsən, oğul, səfərin uğurlu olsun!

## III

Bakıda yay istilərinin məlahətindən danışmağa ehtiyac yoxdur. Bunu oxucular yaxşı bilirlər. İyul səhərində kürədən çıxan mis teşt kimi Xəzər sularından qalxan günəş şəhərin üstündə sanki qəsdən dayanıb od tökür, təndirdən qalxan kimi isti hava, bürkü adamı boğanda, camaat sərinləməyə yer, vasitə axtarır. Başlar, yaxalar, pəncərələr, qapılar açılır, maşınlar küçələri sulayır, buzxanalar var gücü ilə işləyir, sərinkeşlər sərin verir, dondurmaxanalarda, su dükanlarında adam çoxalır. İşin axırında papağını alan axışıb sahillərə, plyajlara, bağlara gedir. Xəzər sahillərində qoyun-quzu kimi maşın-maşına söykənir.

Həmin belə günlərdən birində sizi Nizami küçəsinin sol tərəfindəki balaca, çargül həyətə, uca evlərlə əhatə olunmuş bir həyətə çağırıram. Arxa divarda, su krantının böyründə yuxarıya dəmir məhəccərli bir pilləkən qalxır. Üçüncü qatda aynabəndli, qəhvəyi eyvana daxil olursunuz, günə qarşı çəkilən ağ pərdələr ütüdən qovrulmuş kimi saralır. Eyvanda divara söykənmiş qatlama çarpayıdan, mıxçadan asılmış paltar ipindən, yarpağı soluxan güldanlardan başqa bir şey yoxdur. Evin isə qapısı açıqdır. Daxil olun! Qorxmayın, tanış evdir, daxil olun! Döşəməyə salınan göy haşiyəli xalçanın üstü ilə yavaşca yeriyir, otağa yaxınlaşırsınız. İstimi, sükutmu sizi dayandırır. Öskürürsünüz, çıxan olmur. Ev sahibi görünür. Boylanıb içəri baxırsınız: ayrı aləmdir!

Üstü kitablar, kağızlar, xəritələr, qələm və karandaşlarla dolu stolun kənarında üç nəfər cavan mütaliəyə elə cumublar ki, bir-birindən tamam xəbərsizdirlər. Göy maykalı nazik bir oğlan dirsəklənib oxuyur. Abı sətin köynəkli bir başqası gözünü kağızlara zilləyərək başını iki əli arasına alıb, sanki sıxır, ya səs eşitməmək üçün qulaqlarını tutur. Üçüncüsü, bizim tanıdığımız qaraşın, qıvrımsaç, qurşağacan soyuncaq oğlan isə əldə qələm, divan üstünə sərdiyi xəritədə şəhərmi, gölmü, dağmı, körfəzmi axtarır. Bir yanda tarix kitabının II cildi, bir yanda açıq qoyulmuş lüğət, arasında kağızlar olan hesab, kimya kitabları, nizamsız yazılmış qeyd dəftərləri, konspekt kağızları. Bunlar, bu kitab hərisləri, təhsil əsgərləri dərsdən, imtahan biletlərindən başqa heç nə düşünmür, heç nəyə baxmırlar. Sanki hop tutublar, bir-birilə də danışmırlar. Onlar





İclas qurusu

rəsmi dərs vaxtlarında olduğu kimi özlərinə məcburi mütaliə vaxtı təyin ediblər. Bir saat hər kəs öz temasına məşğul olur. Sonra, beş dəqiqə tənəffüs başlanır. Tənəffüs dəqiqələrində isə onların səsini və qəhqəhəli gülüşlərini, bir-birindən etdiyi sorğu-sualı eşidərsiniz.

– Dünən səndən nəyi soruşdular?

– Oktyabr silahlı üsyanını. Başlamışdım, danışırdım ki, dedi: "Keç o biri suala!"

– Mənə konstitusiya düşmüşdü. Maddə-maddə soruşurdu.

– Mənə lap çətin sual düşmüşdü: təhkimçilik hüququnun ləğvi!

Belə bir şəraitdə Ehtiyat xala oğluna və onun yoldaşlarına qulluq edir, yemək hazırlayırdı. Ömrü boyu öyrəndiyi mətbəx məharətlərini işlədir, Hafizin ürəyincə xörəklər bişirirdi. Ancaq Hafiz də, yoldaşları da buna etina etmirdilər. Onların elə vaxtı idi ki, yavan çörəklə cücəplova fərq qoymurdular. Süfrə dəsgahına vaxt və diqqət sərf etmək onların yadına düşmürdü. Səhərdən axşama, axşamdan səhərəcən fikir-zikir ancaq hazırlıq, imtahan idi. Buna görə də qadın bəzən narazılığını gizlədə bilmir, bacısına şikayətlənib deyirdi:

– Başıxeyirlilər çörəyi-suyu da vaxtında yeyib-içmirlər. Belə də dərs olarmı, belə də candan keçmək olarmı. Müəllimlərinə bir deyən, bir çatdıran yoxdurmu? Nədir bu, balam, axı!..

Anasının gileylərinə heç bir cavab verməyən Hafiz günün birində imtahandan qayıdanda bu sözləri təkrar edə-edə pilləkənləri çıxırdı:

– ...Belə də dərs olarmı, belə də candan keçmək olarmı. Müəllimlərinə bir deyən yoxdurmu?..

Oğlunun bu təqlidi Ehtiyat xala üçün gözlənilməz idi:

– Nə deyirsən, ədə.

– Deyirəm, ay ana, elə əziyyət olmasaydı, belə də qiymət olmazdı. Məni təbrik edə bilərsən. Universitetə, fizika fakültəsinə qəbul oldum.

– Fizika nədir?

– Mühəndislik, injener!

– Doğrudan!

– Bu da mənim vəsiqəm!

Hafiz qəbul komissiyasının verdiyi yoxlamanı uca səslə oxudu.

İmtahanların hamısını əla verdiyi (yalnız rusca yazıdan 4 almışdı) üçün onu Moskva universitetinin fizika-riyaziyyat fakültəsinə qəbul etmişdilər.

Anası onu qucaqlayıb öpdü və soruşdu:

– Bəs Moskvada necə, sizə bir də imtahan olacaq?

– Yox, imtahan burada oldu. Moskva öz nümayəndəsini göndərmişdi, respublikaya verilən beş yer üçün imtahanı buradaca apardılar, buradaca tələbə seçdilər.

Hafiz əlindəki kağızı səliqə ilə qatlayıb qoltuq cibinə qoydu, kənara çəkilib zarafatla dedi:

– Ana, mənimlə danışanda ehtiyatlı ol, daha balaca adam deyiləm. Moskva tələbəsiyəm!

– Təki olsun, olsun, bala! Sən elə oğulsan ki, sənə hər şey yaraşar!

Qadın soruşmaq istəyirdi ki, Hafiz əlavə etdi:

– Yuriki də götürdülər. Ancaq ayrı şöbəyə, Murad buraya düşə bilmədi, onu Leninqrada göndərdilər.

– Yoldaşlarınızdan kənarda qalan oldumu?

– Çox! Beş yerə 30 ərizə var idi. Necə kənarda qalan olmadı!

Qadın cavanların halını düşündü:

– Bəs o yazıqlar necə olacaq, oxumayacaqlar?

– Niyə oxumayacaqlar. Minəcən institut var, gedib hazırlaşacaq, bu il də olmasa, gələn il birinə imtahan verəcəklər. Arxayın ol, ana, əsl oxumaq istəyənə qapılar açıqdı.

O gün Hüsniyyənin evində hər şey dəyişdi, nə isti, nə bürkü yada düşdü, qonşular da qarışdılar. Bayram şənliyi oldu. İki gün əvvəl sükuta batan otaqlardan musiqi, mahnı səsi ucaldı. Qonşudakı gənclər yığılıb gedənlərin şərəfinə çalıb-çağırdılar. Ehtiyat xala da "utanmaqdan keçib" deyə, ortalığa düşüb kolxoz havasında doyunca oynadı.

Avqustun iyirmi beşində Bakı vağzalında, Moskva qatarı vaxtında izdiham böyük idi. Burada Moskva tələbələrini, bu il təzə qəbul olunanları, onların məktəb yoldaşlarını, Ehtiyat xala kimi oğlunu birinci dəfə yola salan anaları, ataları görmək olardı.

Üçüncü siqnal veriləndə Ehtiyat xalanın qəlbi tərpəndi. Sanki bu həyəcanlı dəqiqədə onu güclü bir əl götürüb yoxladı, təkrar yerə qoydu. Sanki bunu imtahan üçün etdilər. Toxucu qadının ürəyini yoxlamaq, sınamaq üçün etdilər. O özünü toplayıb belini düzəltdi. Başını dik tutdu, gözlərini silib nəvəsinin üzünə bütün həsrəti və məhəbbəti ilə baxdı. Hafiz təcrübəli bir gənc kimi qollarını açıb, özünü qadının qucağına atdı. Ana öz Hafizini var gücü ilə bağrına basdı, qısa, qoca, tunc kimi bərk əllərini gəncin enli kürəyində, mehriban-mehriban gəzdirdi: "Ağrın alım, uğur olsun! Get, oğul!" Hafiz yoldaşları ilə də görüşüb vidalaşdı, qalxıb vaqonun pilləsində dayandı.

Qatar tərpəndi, ürəkləri də tərpətdi. Hafiz pilləkəndən anasına əl eləyir, vidalaşırdı. Qatar onu alıb aparır, uzaqlaşdırırdı. Uzaqlaşdıqca onun təbəssümlü nəzərləri anasının həyəcanlı simasından ayrılmırdı.

Ehtiyat xala heç bir zaman, heç bir qatar dalınca belə sevinc, iftixarla baxmamışdı. O baxırdı, həm həsrət, həm də iftixarla baxırdı. Dönəndə, tələbə yola salan ata-anaları, dostları görəndə, onların fərəh və sevincinə diqqət yetirəndə hansı bir hiss iləsə sinəsi qalxdı. Ona elə gəldi ki, indi onu, öz əlinin zəhməti ilə əsgər oğlunu böyüdüb, bu mərtəyə çatdıran qadını hamı tanıyır, hamı görür. O, başını daha da uca tutdu. Yavaşca, yerişinə yaraşmayan sürətli addımlarla vağzaldan uzaqlaşdı.

İndi Ehtiyat xala oğlunu yolda, qatarda yox, o möhtəşəm və müqəddəs binanın geniş, mərmər pilləkənlərində, dünyanın hər yerindən gəlmiş, müxtəlif dillərdə danışan və qardaşlaşan minlərlə gənclər sırasında görür, onun saf, şirin, səmimi, doğma səsini eşidirdi.

*1953*

# MƏRDİMAZAR

Hər kəs öz əməyinin məhsuluna baxıb həzz alır: neftçi göydə uçan təyyarənin səsindən fərəhlənir, pambıqçı top-top olan parçaları, paltarları görüb sevinir, aqronom kəhrəba taxılı ilə, bağban bol meyvəsi ilə, müəllim hünərli tələbəsi ilə, mühəndis tikdiyi əzəmətli binalarla fəxr edir. Azad, ictimai zəhmətdən doğan fərəh və iftixarı duymayan sovet adamı yoxdur.

Tarlada alaq otu olduğu kimi, içərimizdə köhnə dünyadan ilişib gələn çirkin niyyətli adamlar da vardır. Onlardan biri həmin Hacı Aslan oğludur. Ömrü boyu yazdığı iftira dolu ərizələri əskinas kimi büküb sığallayır, əzizləyir, dönə-dönə düzəldib ağardandan sonra paketə qoyur, marka vurur, axşamüstü, qaranlıq çökəndə şəhərin müxtəlif yerlərindəki poçt qutularından birinə salır. Böyük igidlik göstəribmiş kimi, sevincək əllərini ovuşdurub: "Hərifin atası yandı", – deyir.

Hacı oğlu çarpayısında uzanır. Müxtəlif adreslərə göndərdiyi imzasız yazıların hərəkətini, taleyini şirin-şirin düşünür: "Çox çəkməz səsi çıxar. Bu saat material mərkəzdədir. Dünən səhər poçta çatıb. Bu gün



katib dəftərə salıb. Axşamacan sədrə çatar. Sədr də yorğun olmasa, bu gün, deyək ki, sabah üstünə yazar. Birigün komissiya təyin olunar. Sabah-birigün hərifin vayına oturarlar."

Hacı oğlu bu hünəri ilə hamıdan, acığı gələn hər kəsdən intiqam almağa çalışır.

Zahiri görkəminə, döşündəki cib qələminə, qəhvəyi çeşməyinin dik duruşuna baxan güman edir ki, görəsən, bu, hansı əsər, hansı ixtira sahibidir. Doğrudan da, Hacı oğlunun əsəri çoxdur. Savad öyrənəndən bəri yazdığı ərizə, şikayət, məktub, xəbərlərin sayı-hesabı yoxdur. Qoçular camaatı xəncər, bıçaq, tapança ilə qorxudurlar. Bu "qəhrəman" da qələmi ilə qorxudur. Bir xidmətçinin işdən kənar edildiyini eşitdimi, ördək kimi yırğalanır, qaz kimi səs salırdı.

– Lələşin qələm işlətmişdi, səsi indi çıxır.

Birisi Hacı oğlunun təşəxxüsünə toxundumu, döşünə döyür:

– Səni qələmin ucuna qoyub fələkin dəminə vermək mənə borc olsun! Dünya borc-xərc dünyasıdır...

Hacı oğlunun həyat mülahizələri, iş planları belədir.

Hacı oğlunu indi ən çox məşğul edən mantyor Cahangirdir. İki gün əvvəl Cahangir həyətdə çıraq yandırmışdı. Demə, onun istirahətini pozmuşdu. Hacı oğlunun arvadı etiraz etmişdi ki: "Kişi yatır, pəncərədən işıq içəri düşüb mane olur."

Cahangir cavab vermişdi ki: "Bacı, pəncərəni örtün, işıq düşməsin. Axı həyəti qaranlıq eləmək olmaz. Yaydır, biz burada otururuq, oxuyuruq, danışırıq, gələn-gedən olur."

Mantyorun cavabı Hacı oğluna çox ağır gəlmişdi. "Bu hərif, deyəsən, mənim materiallarımın duzunu dadmayıb. Yaxşı!.."

İki gün sonra Hacı oğlu portfel qoltuğunda qapıdan çıxıb neçə addım getmişdi ki, cahangiri gecə növbəsindən qayıdan gördü. Cahangir salam verib keçmək istəyəndə Hacı oğlu onu saxladı, başını dik qaldırıb yenicə meyvə verməyə başlayan cavan tut ağacına baxdı.

– Qonşu, – dedi, – bu ağacı, deyirlər, keçən il sən əkmişsən?

– Keçən il yox, dörd il əvvəl əkmişəm.

– Çox nahaq yerə əkmişsən!

– Ağac əkmək ki, xeyir iş sayılır.

Hacı oğlu Cahangirin sözünü lağa qoydu:

– "Xeyir iş sayılır..." Bu köhnə patriarxal sözlərdən əl çəkin, canım! Sabah-bugün meyvəsi töküləndə bayağılanacaq, milçək şirəyə yığılacaq, oradan da qalxıb qonacaq mənim süfrəmə. Milçəyin necə azar yaydığını bilmirsənmi, kitab oxuyursanmı?

Cahangiri söz tutdusa da, istehza ilə soruşdu:

– Qonşu, siz heç ağac əkmişsinizmi?

– Mən niyə ağac əkəm gərək?

– Bu niyyət ki sizdə var, əksəniz də bitməz!..

Cahangir bunu deyib qapıdan içəri girdi. Hacı oğlunun isə küçədə əsəbi səsi eşidilirdi: "Mənim əkdiyim bitməz? Mən Hacı oğluna deyirsən bu sözü? Görərsən, mən sənin o qulluq yerinə bir toxum əkim ki, səni yerindən dingildətsin."

Hacı oğlu dərhal evinə qayıdıb portfelini hirslə stolun üstünə atdı, güləşməyə gedən bir pəhlivan kimi, cəld soyundu, arvadını səslədi:

– Tez qaba mürəkkəb tök, yazacağam!

Arvadı ərinin peşəsindən xəbərdar idi. Pəncərələri örtdü, kağız-qələmi sahmana saldı. Hacı oğlu oturub mantyor haqqında dörd surətli material yazdı: birini yerli milis şöbəsinə, birini elektrik idarəsinə, birini redaksiyaya, birini də Cahangirin işlədiyi idarəyə. Mal dili kimi uzun, ağ dili ilə paketləri yaşlayıb bərk-bərk yapışdırdı. Üstünü cızıqladı, sol əli ilə adresləri yazdı. Materialları üst-üstə qoyub qalın bir kitabla sıxdı. Var-dövlətinə baxan kimi, bir də diqqətlə baxıb fərəhləndi. Sonra özündən razı bir halda addımlayıb var-gəl elədi, gəlib divana uzandı, əllərini peysərində çataqladı, gözlərini paketlərdən ayırmadan yazdıqlarını zehnində təkrarladı:

"...Direktoruna məlumat,

Hörmətli direktor yoldaş, sizə məlum ola ki, cürbəcür fırıldaq yollarla idarənizə soxulmuş Cahangirin bizə yad bir ünsür olduğunu bütün şəhər bilir. Belə ki, bu adamın atası keçmişdə ikinci dərəcəli gildi sahibi ixlas baqqal olmuşdur. Deməli, yumurta da satmışdır. Tarixdən də bizə məlumdur ki, 1918-19-cu illərdə imperialist qoşunları Qafqazdan keçəndə bu adamın atası baqqal dükanında şirin alış-verişlə xalqı istismar edirmiş. Düşmən qoşunlarına yağ-yumurta satırmış. Həmin



bu gördüyünüz Cahangirin əti, qanı o yumurtaların qazancı ilə maya tutub, xahiş edirəm adına da diqqət yetirəsiniz! Cahangir – xalis imperialist adıdır. Əlbəttə ki, təsadüfi deyildir! Farsca bilənlərdən soruşun. Əminəm ki, belə bir xəbis mayadan yoğrulmuş adamın nə fəsad sahibi olduğu, bizə necə ziyan verdiyi hər kəsə məlumdur və birinci növbədə sizə, necə ki bir sayıq yoldaş!"

Hacı oğlu yazdıqlarını sətir-sətir zehnindən keçirərək, ildırım vurmuş kimi, dik qalxdı: "Ədə, mən nə qayırmışam, çort vazmi!" – dedi. Tez paketin birini açdı. Diqqətlə oxudu: "Bu adamın atası... xalqı istismar edirmiş. Düşmən qoşunlarına yağ-yumurta satırmış..."

Hacı oğlu barmağını dişlədi: "Gör mən nələr yazmışam!"

Hacı oğlu yazısının bu yerini tamam qaraladı. Paketlərin hamısını cırıb, surətlərini də təzələdi, yeni paketlərə qoydu.

Hacı oğlu öz peşəsində stajlı və mahir idi. Ərizənin axırında bir hədə gəlməyi də unutmadı: "Siz lazımi ölçü götürməsəniz, biz sovet adamları məcburuq yuxarı təşkilatlara müraciət edək".

O, məktubların hər birini ayrı xətlə yazır, paketləri ayrı rəngdə götürür, ayrı-ayrı qutulara salırdı.

Gözləyirdi ki, Cahangiri işdən qovsunlar, heç olmazsa, ora-bura çəksinlər, o da yuxarı pilləkəndə, əli cibində dayanıb papirosunu fısqırtsın, öskürsün və öz-özünə desin: "İndi gör Hacı oğlu əkən toxum necə bitər!"

Doğrudur, onu bir-iki dəfə müstəntiq çağırdı, prokuror maraqlandı. Ancaq Hacı oğlu hər dəfə qonşusu haqqında "şahid" kimi danışdı, bəlkə də yazdıqlarına bir şey artırmağa çalışdı.

Hacı oğlunun hesabına görə materiallar öz təsirini gərək göstərəydi. Gərək bu günlər Cahangiri çağıraydılar, "mitilini bayıra ataydılar..."

Deyəsən, onun xəyalından da keçəni bilirmişlər. Həyət qapısı cırıldadı. Ucaboy bir milis nəfəri içəri girib, onun adını və familiyasını soruşdu, dəftərə qol çəkdirib bir vərəqə verdi.

– Bağışlayın, hardandır? – deyə Hacı oğlu soruşdu.

– Məhkəməyə çağırılırsınız.

– Necə yəni?

– Necəsi yoxdur, oxuyun!

Hacı oğlu vərəqəni oxuyanda gözü bərəldi. Vərəqədə yazılmışdı: "Sovet adamlarına iftira atmaqda təqsirləndirilən Hacı oğlunun işinə ayın 4-də rayon xalq məhkəməsinin açıq iclasında baxılacaqdır."

Hacı oğlunun müşdüyü əlindən düşdü, dizi büküldü. O, elektrik vurmuş kimi, pilləkənlərdəcə yerə çökdü. Arvadı içəridən qışqırdı.

– Ay kişi, yaş yerdə oturma, rütubət çəkərsən!

*1953*



# QƏLƏM

İlyasın məktəbə gedən yolu meşədən keçirdi. Bu səhər İlyas tələsmiş, dərs şeylərini yaxşı yığmamışdı. Qələmi çantanın küncündən başını çıxarıb baxırdı. Meşədən keçəndə qələm çantadan düşdü.

Meşədəki ağaclar qələmin başına yığıldılar, ona "xoş gəldin" dedilər. Onlar qələmin düz boyuna, dəmir papağına, qara gözünə, əlvan rənginə, yaraşığına heyran-heyran baxıb soruşdular:

– Qələm qardaş, harada belə bəzənmişsən, səni kim geyindirib-kecindirib? Heç bizim uşaqlara oxşamırsan?

Qələm dedi:

– Mən məktəbdən gəlmişəm. Müəllimlərlə, şagirdlərlə oturub-durmuşam. Meşədə mən dilsiz-ağızsız idim. Şəhərdə başıma dəmir papaq qoydular, mənə rəngbərəng sular içirtdilər, danışmağa başladım.

– Bizi də oralara qoyarlarmı? – deyə ondan soruşdular.

Qələm dedi:

– Hər şey adamın özündən asılıdır. Şəhərdən gələnlər düz və möhkəm bitən ağacları seçirlər, götürüb aparırlar, təmizləyirlər, bəzəyirlər,

onlara ədəb öyrədirlər, böyük məclislərdə yer verirlər. Cins ağacları, möhkəm, düz budaqları yandırmırlar. Onlardan qələm düzəldib kitab yazırlar. Kürsü düzəldib geyindirir, məclislərə düzür, əziz qonaqları onların üstündə əyləşdirirlər. Şkaf eləyib içinə kitablar, paltarlar yığırlar, bayraqlar üçün ağac eləyirlər. Bayram günlərində onları mahnı, musiqilə gəzdirirlər.

Zoğal, şam, ağcaqayın, qarağac bu sözləri eşidib sevindilər. Heyva ağacı boynunu əyib soruşdu:

– Bəs əyri bitənləri şəhərə buraxmırlar?

Qələm dedi:

– Onları da buraxırlar, ancaq odun eləyib peçlərdə yandırırlar, ya da kötük eləyib dəhrə ilə başına döyürlər.

Söyüd ağacı qabağa yeridi.

– Düzlük məndə! Bəs heç məni çağıran, dindirən yoxdur! – dedi.

Qələm dedi:

– Söyüd əmi, sənin düzlüyün var, amma davamın yoxdur. Adamların işində düzlükdən başqa, möhkəmlik də lazımdır.

Qələm möhkəm olmasa, yazının gücü olmaz. Qələm yazanı gərək qılınc da poza bilməsin. Eşitməmişsənmi?..

*1953*



# ƏSKİNASIN TARİXİ

Xalça taciri Fərzixanov evə girən kimi arvadını səslədi:

– Səltənət xanım, yığışdır ev-eşiyi, gedirik.

– Hara gedirik?

Fərzixanov səsini bir az da ucaltdı:

– Yebropalara, nə çoxdu dünyada əmin-aman yerlər.

Səltənət xanım donmuş kimi dayanıb ərinə baxırdı. Əri də onu inandırırdı:

– Dünənəcən bolşeviklər fabrik-zavodu alırdılar, indi də evləri gəzirlər, gözə dəyəni əldən qoymurlar... Ömrüm uzunu çalışıb qazandığımı öz əlimlə tavarişlərə verə bilmərəm. Cəld ol, bu saat mənzili qiymət eləməyə adam gələcək. Cəld ol, sahmana sal, satıb-sovub gedək!

Səltənət xanım ərinin niyyətlərindən xəbərdar idisə də, quruyub qalmışdı:

– Ay kişi, deyirsən, amma mənim heç ürəyim gəlmir. Yenə vətən yaxşıdır.

– A qız, vətəni atmırıq ha! Hardansa bu od, yalovdu gəlib, biz də

düşmüşük. Dünya belə getməyəcək ki! Bir müddət kənar yerlərdə daldalanarıq, ara sakitləşər, qayıdıb ev-eşiyimizə gələrik. Cəld ol!

Fərzixanov var-yoxunu satıb əskinas elədi, Batum yolu ilə "Yebropalara" – Sovet İttifaqı ilə həmsərhəd şəhərlərin birinə getdi. Səltənət xanım xahiş etdi ki, qürbət qürbətdi, gedək Firəngistana, Parisə-filana!

Fərzixanov razı olmadı:

– Çox uzaq getmək nəyə lazımdır? Beş günlüyə gəlmişik də, qonaq kimi. Sabah-birigün bolşeviklər tərk olandan sonra qayıdacaqsan. Bir ətək pul niyə tökəsən!

Bu niyyətlə də Fərzixanov sandıq dolusu yığdığı əskinası üfürə-üfürə səliqə ilə saxlayırdı. Hərdən bir göygöz yüzlük çıxarıb sərraf yanına aparır, xırdalamaq istəyirdi. Sərraflar yarı qiymətinə istəyəndə Fərzixanov məzəmmətə başlayırdı:

– A filankəs, insaf yaxşı şeydir. Əlahəzrət imperatorun əskinasını belə gözdən salmaq tacirə yaraşmaz axı! Şükür, biz bolşevik deyilik, fəhlə deyilik, soldat deyilik. Biz öz pulumuzun, valyutamızın qədrini bilək gərək. Dünya belə getməz! Düzdür, imperatoru öldürüblər, ancaq ölkə durur, onun sahibi işləri belə qoymaz!..

Fərzixanovun mövizəsinə baxan kim idi! Sərrafların biri o birindən insafsız görünürdü. Çar dövrünün bank kağızları gündən yanan xəzəl kimi, günü-gündən heçə dönürdü.

İngilis hökuməti lord Kerzonun əli ilə Sovet hökumətinə nota verəndə Fərzixanovun sevincdən çiçəyi çırtlayırdı:

– Elə olar ha, dünya başına deyil! Tavarişlərin axır-uxurudu! Daha keçmiş ola! Sabah yarımdünya gəmilər gəlib Odesdə, Batumda dayananda, uzaqvuran toplar guruldayanda görüm bolşeviklərin harayına kim gələcək!

Həmin günlər Fərzixanov əskinaslarını sandıqdan çıxarıb ipək kimi ütüləyir, çin-çin büküb bağlayırdı: "Nikolayın puluna söz yoxdur. Üç yüz illik padşahlıq eləyən bir imperatorun pulu da batarmı?"

Ancaq həmişə olduğu kimi bu bayram da uzun sürmədi. Kerzondan bir şey çıxmadığını görəndə Fərzixanov yenə sərrafların qapısını döyməli oldu.

– A filankəs, bir az əskinasım qalıb, gərəyin ola bəlkə?

– Manata bir qəpik!



– Nə deyirsən, əşi, zarafat eləyirsən, nədi?

– Bir qəpik!

– A kişi, bu nə sözdü, bəyəm, imperator hökuməti öz möhründən əl çəkib? Bəyəm banklarda bu pulun da etibarı batıb?

– Soruşmamışam. İmperator hökumətini özün tap soruş, əgər tapa bilsən, soruş!

Fərzixanov müsahibinin üzünə nifrətlə baxıb, düz qayıtdı: "Bəyəm, dünya başınadı, Kerenski odur, Parisdə gur-gur guruldamır? Yaranallar sərhəddə qoşun yığmır? Dünya başlı -başınadı bəyəm? O boyda ölkə lütqomlara qalacaq?.."

Hitler Sovet ölkəsinə hücum edəndə Fərzixanov yenə bayram libası geydi. Əskinaslarını bir də sayıb yoxladıqdan sonra arvadına dedi:

– Yox, daha vətənə getməyimizin vaxtı çatıb. Səltənət xanım, sən darıxırdın, amma mən gələcəyi görən adamam. Nə yaxşı ki, sənin sözünə baxıb bunları dəyər-dəyməzinə xırdalamadım. İndi lap Bakının özündə mən Nikolay kağızını qızıla dəyişim, sən tamaşa elə!

– A kişi, Bakı hara, bura hara!

– Uşaq olma, Hitler, odu, basa-basa yeriyir, biz də onun dalınca intiqam almağa gedirik. Kefini kök elə!

1945-ci ildə müharibə Sovetlərin qələbəsi ilə qurtaranda Fərzixanov yorğan-döşəyə düşmüşdü. Səltənət xanım dava-dərman alsa da, kişisinin müalicəsini ayrı şeydə görürdü:

– A kişi, səni azara salan bu əskinaslardı, nahaq yerə bunları saxlayırsan!

– Saxlamayım, bəs nə eləyim?

– Yandır!

– Dilin qurusun, ay arvad, necə də ürəyin gəlir o sözü deyirsən! Ondansa deynən biryolluq özünü dənizə at da!

– Özünü niyə atırsan! Əskinasları atsan, canın dincələr!

– Nə elə canı istəyirəm, nə də elə dincəlməyi!

Bu dəfə Fərzixanov sərraf yanına əskinas aparanda gözləmədiyini gördü:

– Kişi, başına hava gəlib, nədi! Camaat bu kağızları süpürüb küllüyə tökəndə, sən ipək dəsmala bükürsən?

Fərzixanov gördü ki, adamlar onu hoydu-hoyduya götürəcək, din-

məz-söyləməz evinə qayıtdı. Səltənət xanım işin aqibətindən xəbərdar idi. Ərindən bir şey soruşmurdu. Söz isə Fərzixanovun ürəyini dəlirdi:

– Səltənət, ay Səltənət!

– Nə deyirsən?

– Deyirəm, bəs nə təhər eləyək! Burda qalaq – necə qalaq, qalmayaq – necə qalmayaq!

– Zəhrimarları rədd elədin, ya eləmədin?

– Bəyəm, sahib duran var!

– Sənə demədim, at çaya getsin!

– Atmağına atım. Bəs dalısı necə olsun?

– Mən deyirəm, bir ərizə yaz, Sovet konsulxanasına apar!

– A qız, bizi heç qapıdan içəri buraxmazlar.

– Deginən, qələt eləmişəm, anlamamışam.

– İnanmazlar.

– İnanmasalar da, səni yeməyəcəklər ki! Deginən, vətənə getməyə rüsxət istəyirəm.

– Deyəcəklər, casusluğa gedirsən.

– O acı dil ki, səndə var, nə desələr yaraşar. Mən ərizə vermişəm, rüsxət alacağam.

Fərzixanov bu xəbərdən dik atıldı, arvadında bu şücaəti xəyalına gətirməzdi:

– Qız, bəyəm mənsiz getmək istəyirsən?

– Sən sonra gələrsən. Atamın qəbri yadıma düşüb, bu günlərdə, icazəm çıxan kimi, gedəcəyəm.

– Ay Səltənət, ay qız, bəs məni qoyub gedirsən?

– Sən də gələrsən. Bəsdir, mən sənin ucundan ömrümü qürbətdə çürütdüm. Daha bəsdir!

Fərzixanov qulaqlarına inanmadı. Səltənətə diqqətlə baxırdı ki, görsün, bu həmişə onun sözünə qulaq asan Səməd qızı Səltənətdir, ya ayrı adamdır!

*1953*



# BUZ MAŞINI

Nənə qarışqa balalarını – Qaracanı, Sarıcanı, Xallıcanı işə göndərdi və:

– Bağda meyvələr yetişib, – deyə lazımi tapşırıq verdi. – Ətrindən dura bilmirəm. Ağaclara, tənəklərə dırmaşın, alma-armuddan, üzümdən doyunca yeyin, dişinizdə şirə gətirin!

Balalar düzülüb yuvadan çıxanda Nənə tapşırdı:

– Yol üstünə çıxmayın, kənar-küncdən gedin, suya da girməyin, səsdən qorxmayın!

Balalar meyvələri tapdılar. Qaraca alma gəmirirdi. Sarıca armud dişləyirdi. Xallıca onları çağırdı:

– Bura gəlin, qızlar! Qara şanının ayrı ləzzəti var.

Bacılar onun yanına keçdilər. Qara salxımın iri, dolu giləl변ərinə yapışıb sordular.

Bağban gəlib tənəkdəki yetişmiş salxımları dərəndə qarışqalar qorxuya düşdülər və "Bizi hara aparırlar?" – deyə düşündülər.

Xallıca tapşırdı:

– Gilələrin içinə girin! Gilədən bərk yapışın! Dişinizi ilişdirin, tərpənməyin!

Salxımı tənəkdən üzüb iri bir zənbilə qoydular, üstünü örtdülər. Səs kəsildi. Qaraca yavaşdan dilləndi:

– Qızlar, biz haradayıq? Mən lap darıxıram!

Xallıca dedi:

– Qaranlıq fürsətdir, işinizi görün!

Çox çəkmədi zənbilə işıq düşdü. Üzümləri götürdülər.

Xallıca pıçıldadı:

– Komalaşmayın, səs salmayın!

Üzümü ağ tasa qoydular. Salxım-salxım üstünə yığıldı. Xallıca bacılarına ürək verdi:

– Gilədən bərk tutun!

Tası gətirib ağ divarlı, işıqlı, təmiz bir yerə qoydular. Yeşiyə bənzəyən bir yerdə çıraq görəndə Xallıca düşündü: "Bura haradır görəsən!"

Qapı çalındı, işıq söndü. Bir xırıltı səsi gəldi, hava soyudu. Qaracanın səsi eşidildi:

– Mən üşüyürəm.

– Mən də! – deyə Sarıca pıçıldadı.

– Mən donuram! – deyə Xallıca əlavə etdi.

Qaraca özünə cürət verdi:

– Bəlkə qorxuruq!

Xallıca dedi:

– Mən ömrümdə qorxu bilmərəm. İndi əsirəm. Soyuq daha da artdı. Bacılar:

– Soyuqdan öldüm! Qış düşdü deyəsən! – deyə özlərini Xallıcanın üstünə atdılar.

Hara döndülərsə buz gördülər.

Bacılar titrəyə-titrəyə qaldılar.

Nənə qarışqa balalarını gözləyə-gözləyə qalmışdı. Axşam oldu gəlmədilər, gecə düşdü xəbər çıxmadı. Səhər tezdən Nənə axtarmağa getdi. Darvaza ağzında üzüm iyi duydu, çürük bir salxıma yaxınlaşanda



balalarını ölmüş gördü. Ağladı, saçını yoldu. Elə bildi balalarını əziblər. Diqqət edəndə gördü ki, bədənləri bütövdür. Tez həkim dalınca qaçdı.

Həkim gəlib baxdı, yoxladı və dedi:

– Nənə, bunlara azar dəyməyib, donub ölüblər.

– Yayın bu qızmarında da donmaq olarmı? – deyə Nənə təəccübləndi.

Həkim çiyinlərini çəkdi:

– Ona mən də məəttələm.

– Axı qışa altı ay var?

– Bunları qış dondurmayıb!

– Bəs bu şaxta nə işdir?

– Nə işdirsə, bu, insan işidir!

*1954*

# GƏRƏK OLAR

Elə düşüb ki, qonşum işdən gələndə mən işə gedirəm. O, gündüzlər işləyir, mən axşamlar. O, zavodların birində mühəndis, mən də məktəblərin birində müəlliməm. Doğrudur, qonşuluğumuzun on beş ildən artıq tarixi var, ancaq Mürsəllə yaxın əlaqəmiz, get-gəlimiz yoxdur. Demək olar ki, bizim tanışlıq və ya dostluğumuz qonşuluqla başlanır və qonşuluqla bitir.

İlk dəfə mən onu müharibədən əvvəl küçəmizdəki on bir nömrəli evə köçəndə görüb təbrik etmişəm. O da mənə ya qapıda rast gəlir, salamlaşır, ya ümumşəhər yığıncaqlarında görüşüb əhvallaşırıq. Yaxın münasibətimiz olmadığından bizim əhvallaşmağımız da dilucu və rəsmi olur. Söhbətimiz, bir-birilə o qədər də maraqlanmayan, ancaq qəbul olunmuş nəzakət qaydalarına riayət üçün edilən və qəlib şəklinə düşmüş müxtəsər və mülayim sual-cavabdan ibarət olur:

– Salam!

– Əleykəssalam!

– Necəsiniz?



– Sağ olun, duaçı varıq. Siz necəsiniz?

– Çox sağ olun!

– Ayrı nə var, nə yox?

– Sağlığınız.

– Havalar da pis deyil.

– Bəli, xoş keçir.

– Daha nə var, nə yox?

– Daha səlamətlik, bu yana tələsirəm.

– Di hələlik!

– Xoş getdiniz!

Deyə bilərəm ki, bu mükalimə Mürsəllə mənim aramda, yalan olmasın, hər görüşdə təkrar olunur. Bəzən bir-iki kəlmə o yan-bu yana olsa da, məzmun dəyişmir.

Bəs nə üçün biz söhbəti dərinləşdirmir, ya uzatmırıq. Bəlkə bizim bir-birimizlə danışmağa sözümüz yoxdur?

Belə deyil, danışmağa söz var.

Bəlkə işə tələsirik, bundan artıq dayanmağa vaxtımız olmur.

Belə də deyil. Ürəyin istəyən adamla danışmağa, əhvallaşmağa vaxt tapılar. Axşam işi də ki ləğv olunub.

Bəlkə bir-birimizi istəmirik, yaxınlıq etməyə meylimiz yoxdur?

Bunu da deyə bilmərəm. Çünki Mürsəl mənim üçün həm qonşu, həm də yaxşı bir mütəxəssisdir. Mənim texnika sahəsində çalışan mütəxəssislərin işinə və söhbətinə meylim, marağım çoxdur. Ola bilər ki, Mürsəlin məndən acığı gəlir, xoşlanmır? Haqqı danışmaq lazımdır, bunu mən hiss etməmişəm, kişiyə şər ata bilmərəm.

Soruşacaqsınız ki: "Yaxşı, bəs sizin aranıza daş dığırlayan kimdir? Niyə yaxınlaşmırsınız?"

Bunun səbəbini, əslinə baxsan, özüm də yaxşı bilmirəm. Ancaq son zamanlar Mürsəllə mənim aramızdakı bu sərinlik birdən-birə gözlənilmədən çəkildi. Buna da səbəb bir hadisə oldu ki, bu hekayədə onu sizə danışmaq istəyirəm.

Mürsəl ortayaşlı, boydan uca, candan sağlam, xoşsifət, ağbəniz, qalınqaş bir kişidir. Mən qapıdan çıxıb trolleybus ayağına yönəlməkdə, Mürsəl də trolleybusdan düşüb on bir nömrəli evin daş pilləkənlərinə

tərəf gəlməkdə.

Onu da deyim ki, Mürsəlin qazancı yaxşıdır. Çox yaxşıdır. Bunu mən nədən bilirəm. Əlbəttə ki, onun idarəsindən, vəzifəsindən, həmkarlar ittifaqı kitabçasından xəbərim yoxdur. Ondan bilirəm ki, Mürsəl işdən evə qayıdanda əlidolu gəlir. Gözümlə görmüşəm. Xüsusən hər il hökumət qərarilə mallar ucuzlaşandan sonra Mürsəlin bazarlığı çox olur. O, qoltuğu dolu, tər basmış bir halda özünü evə salır. Qapını ayağı ilə açır. Mürsəlin aldığı ərzaq şeyləri ilə işim yoxdur. Məni maraqlandıran bu olub ki, Mürsəl nə olsa (bahalı, ucuzlu, böyük, xırda), küçə qapısında açıb tökür, sanki bazarlığını qonum-qonşuya, yoldan ötənlərə göstərmək istəyir. Deyəsən, kişi bunu şöhrət bilir, bundan zövq alır. Görürsən, qapıya yetişən kimi, əlindəki iri qutunun kəndirini qırdı, ağzını açdı, oradan bir parıldayan elektrik çaynik, stol lampası, ya uşaq kino cihazı, ventilyator çıxartdı, qutunu kağızları ilə qapıda qoyub içəri getdi. Ya görürsən, çəkmə, papaq, üst köynəyi, yazı cihazı, stol saatı... Bunların da kağızını açıb tökəndən sonra içəriyə apardı.

Doğrusu, qonşumun bu xasiyyəti mənə qəribə gəlmişdi. Çünki belə bir hərəkət, yəni aldığı şeyləri camaat qabağında açıb tökmək, hamıya göstərmək, mənim fikrimcə, yaxşı deyil. Buna görməmişlik deyərlər.

Dünyada, əlbəttə ki, belə adamlar da var. Elə adamlar var ki, təzə paltosunu, kostyumunu göstərmək üçün şəhəri küçə-küçə gəzir, qaranlıqlaşana qədər gəzir. Yorulub dildən düşsə də, gəzir.

Nədənsə mənə elə gəlirdi ki, bu xasiyyət Mürsələ yaraşmır, heç yaraşmır. Bir adam gəlib qonşum haqqında bunları danışsaydı, mən inanmazdım və o adamı bəlkə də bir az danlardım.

İndi bunları mən öz gözümlə görürəm. Mürsəl içəri girəndə qapıda qoyub getdiyi, kənara atdığı cürbəcür biçimli, markalı, rəngli qutuları, iri qalın kağızları, bağlama kəndirlərini öz gözümlə görürəm, yenə də gözümə inanmağım gəlmir. Ona görə inanmağım gəlmir ki, belə bir "görməmişliyi", ya şöhrətpərəstliyi Mürsələ yaraşdıra bilmirəm.

Deyirlər, söz adamın ürəyini dələr. Günün birində qət etdim ki, bu işi hökmən qonşumun nəzərinə çatdıracağam. Acığı gəlsə də, deyəcəyəm. Qoy bilsin ki, kənardan baxanlar danışırlar, onun bu xasiyyətinə yaxşı demirlər. Qoy bilsin ki, bazardan bol-bol ev ləvazimatı, sənaye



malları alan minlərlə adam var. Amma heç kəs aldığını küçədə açıb elan etmir. Bu, mədəni adama yaraşan xasiyyət deyil. Bu, adamı hörmətdən salar.

Söz vaxtına çəkər. Aprelin əvvəlləri idi. Saat beş, ya altı olardı. Evdən çıxıb trolleybusa tərəf gedirdim. Mürsəlin yenə öz qaydasında, qapıda bir bağlamanı – kub şəklində, yaraşıqlı və üstü yazılı qutunu açdığını, içindən çıxartdığı uzun büllur vazaların kağızını soyub tökdüyünü gördüm. O, işarə ilə mənə salam verdi. Vazaları qucağına alıb içəri gedəndə mən onu haqladım.

– Mübarəkdir, büllur almışsınız! – dedim.

– Bəli, güldanlardan xoşum gəlir.

Mürsəl mənim ötəcəyimi güman edirdi. Mən isə səsimin ahəngini bir qədər dəyişdim:

– Qonşu, sizə bir söz deyəcəyəm, gərək acığınız tutmasın. Ya ərk bilin, ya da özünütənqid sayın. Çoxdan ürəyimdə gəzən bir sözü sizə deməyi qət etmişəm.

Mürsəl, gözləmədiyi bir söhbətə müntəzir, həm də xeyli maraq etdiyini gizlədə bilməyən bir tövrlə dayandı. Sonra qolumdan tutub içəri çağırdı:

– Buyurun, buyurun! Acığım tutmaz. Yaxşı məsləhətinizi eşitməyə həmişə hazıram. İllah da ki, sizin kimi bir müəllim yoldaşdan ola.

– Qonşu, görürəm, siz doğrudan da əsl qayğıkeş, ailəcanlı bir yoldaşsınız. Mən hər dəfə sizi qoltuğu dolu görəndə sevinirəm. Sevinirəm ki, bizim yaxşı ziyalılarımız bütün sevinc və şənliklərini, bayramlarını məhz ailələri ilə birlikdə keçirirlər. Sovet ailəsi də belə gərək olsun. Amma bir şey mənə qaranlıqdır ki, onu sizinlə, elə-belə sual şəklində məsləhətləşmək pis olmaz.

Mənim sözüm, deyəsən, Mürsəldə maraq oyatmışdı. O, müntəzir gözlərini diqqətlə mənə zilləmişdi. Mətləbi hara gətirəcəyimi aramsız gözləyirdi. Mən tənqidimə sual rəngi verdim:

– Bu ki siz aldığınız şeyləri qapıda hər dəfə açıb-tökür, qutudan, qəzetdən çıxarırsınız ha, doğrusu, bunun mənası mənə bir qədər aydın deyil axı. Şükür, sizin gözəl eviniz, otaqlarınız, ailəniz. Nə olar ki, aldıqlarınızı açmamış evə gətirəsiniz. Evdəkilərin özü də bir az maraqla-

nar, sonra mübarək deyərlər. Mən görürəm ki, siz bazarlığı, şübhəli sovqat kimi, lap qapı ağzında açırsınız, hamının gözü qabağında! Uşaqlar buradan həmişə qutu daşıyırlar. Bir dəfə ananızın onlara acıqlandığını da eşitmişəm...

Mən illərdən bəri ürəyimdə bir ağrı kimi yatıb qalan və qaldıqca ağırlaşan bu sözləri dedikcə, bir yüngüllük, rahatlıq duyurdum. Mənə elə gəlirdi ki, haçandan bəri zehnimə yüklənən bu ağırlıqdan indicə qurtarmışam. Qəddimi düzəldib, ətrafıma bir baxdım. Mürsəllə daha müfəssəl danışa bilərdim. Ancaq buna ehtiyac görmədim. Çünki mənim ilk işarəmin hərifə kifayət etdiyi məlum idi. Mürsəl qucağındakı vazaları ehmallıca taxtın üstünə qoyub fikirli-fikirli mənə baxır, daha nələr deyəcəyimi gözləyirdi. Mən isə əlavə bir söz deyəsi deyildim. Çünki oxum lap hədəfə dəymişdi. Qonşum rəngdən-rəngə düşürdü. Mənim susduğumu yəqin edəndən sonra göz qapaqlarını aşağı endirir, yerə, lap çəkmələrinin ucuna baxırdı. O, çətin suallara tutulan hazırlıqsız bir məktəbli vəziyyəti almışdı. Başını qaldırıb xoş bir nəzərlə dedi:

– Qonşu, gəl bu söhbəti ayrı vaxta qoyaq. Görürəm siz işə tələsirsiniz.

– Nə eybi var.

– Mən zəhmət verib sizi çağıracağam. Ərkim çatarmı?

– Xoşdur, xoşdur.

Mürsəl doğrudan da məni çağırdı. Mətləbi açıb danışdı. Budur, mən onun dediklərini onun öz sözü ilə sizə danışıram:

"Mənim anamda köhnədənqalma bir xasiyyət var. O çox yığımcıl qadındır. Əlinə keçən bir çöpü, mismarı, bir taxta parçasını, konserv qutusunu götürüb evə gətirir ki: "gərək olar". Bizim evdə olan qutu, karton, kağız, köhnə paltar, çəkmə, qaloş, qalstuk, stul qıçı, butulka, dərman şüşəsi, çatdaq boşqab, qırıq nəlbəki, xarab lampoçka, yazılı uşaq dəftəri, sınıq qələm, sökük zənbil... heç kəsin evində yoxdur. Yalan olmasın, anamın bəlkə lap gəlinlik günlərində geyib-dağıtdığı başmaqları, parça-parça etdiyi koftalar da evimizdə, sandıqların, yeşiklərin hansı küncündəsə durur. Mən hərdən cəsarət edib onları atmaq istəyəndə anam acıqlanır:

– Sənə bir maneçiliyi yoxdur ki!



– Axı bu zir-zibili niyə rədd eləmirsən ki, əl-ayaq açılsın, yer genişlənsin.

– Bunlar hamısı gərək olur.

Bəzən mən lap hövsələdən çıxıram, evi util daxmasına oxşadan bu qadınla az qalıram bir yad kimi rəftar edəm. Anam mənalı-mənalı mənim üzümə baxır. Sonra başımı sığallayır.

– Oğul, – deyir, – ev-eşik yığmaq asan deyil. Sən hələ uşaqsan, hələ dabanınla qapı açmamışsan. Sən bilmirsən ki, adam hər bir mismar üçün, bir iynə, bir şüşə üçün məəttəl qalır. Adam öz şeyinin qədrini bilər! Nə olar, köhnə olanda. Köhnənin köhnə, sınığın sınıq yeri var, təzənin də təzə. Niyə atıram, dəli-zad olmamışam ki, malımı çölə atam! Bir kənarda durub, məndən kirə-zad istəmir ki, təzə nəlbəkini qonaq qabağına qoyaram, ucuzunda özüm çay içərəm, köhnəsini də bağda işlədərəm...

Mən görürəm ki, qadın lap dağılıb heçə döndərdiyi paltarından da əl çəkmir. O bunlarla sanki qırılmaz bir ünsiyyət bağlamışdır. Sanki onun nəyi isə qiymətli bir şeyi bunlara bağlıdır. O, bu paltar, ya ayaqqabıda keçirtdiyi günlərdən, ömrünün ötüb-gedən günlərindən ayrılmaq istəmir. Qadının qəribə xasiyyəti var. Haçandan qalma köhnə qalstukları səliqə ilə yığıb saxlayır, yumurta bişirmək üçün aldığım təzə tayqulpa qıymır, konserv qutusunda bişirir.

Mən özümü saxlaya bilmirəm. Hirslənirəm, qutunu götürüb küçəyə atıram.

O mənim əsəbi vəziyyətimi görüb heç nə demir. Sakit görünür. Ancaq bir dəqiqə keçmədən xəlvəti oğurlanıb küçəyə getdiyini, qutunu götürüb ətəyinin altında gətirdiyini duyuram. O, bu qutunu gizlədib qiymətli şey kimi qoruyur.

Mən belə bir naxoşluğa tutulan adamın müalicəsini bilmirəm. Əlacım ona qalıb ki, bundan sonra evə qutu-qapaq gətirməyim. Qət etmişəm ki, evə alınan şeylərin qutusunu, kağızını, kəndirini qapıdaca rədd edim ki, ev zibilxanaya dönməsin".

Danışdıqlarından yüngüllük duymuş kimi Mürsəlin rəngi açıldı. O, bir qədər sükutdan sonra davam etdi:

– Sizi təəccübləndirən işlərim də ancaq bunun üçündür, yoxsa mə-

nim də şöhrətpərəstdən zəhləm gedər.

Mürsəlgilin ailə sirrini biləndən sonra məni heyrət götürdü:

– Bəlkə, – dedim, – qadının bu xasiyyəti irsidir, nəsildəngəlmədir.

– Necə irsidir ki, bu yazıq heç ata-ana görməyib, əmisinin evində qulluqçu böyüyüb.

– Yəqin, əmisi yaxşı saxlamırmış.

– Bəli, ona öz uşaqlarının köhnəsini geydirirmiş.

– Daha sən qadını niyə qınayırsan. Uşaqlıqdan həsrət gözü var.

Mürsəl güldü:

– Uşaqlıq yaşından qırx il keçir. Çobanlar gəlib alim olub. İndi ki, həsrət deyil! İndi onun nəyi çatışmır. Görmür ki, mənim bütün qazancım evə, onun əlinə gəlir...

– Adəti unutmaq naxoşluğuna səbəb olur.

– O, köhnə məsəldir.

– Anan da köhnə adam deyilmi?

Hər ikimiz çox danışandan sonra qadının köhnə azarına müalicə tədbiri düşündük.

Mürsəl bu yaxınlarda təzə evə köçməli idi. Güman edirdi ki, "Anamın barxanasını da qoyub gedirik". Ancaq qadın, deyəsən, bunu duymuşdu. Düyünçələrini bir-bir sahmanlayıb yığırdı: "Orada, deyirdi, – mənə otaqdan-zaddan verərsən, öz şeylərimi yığım, əl-ayağa dolaşmasın..."

Mən Mürsələ bir məsləhət gördüm: "Elə vaxtda köçməlisən ki, anan şəhərdə olmasın!" Mürsəl bu tədbiri xoşladı və əməl etdi: avqustun ortalarında qadın bağda olan zaman uşaqları futbola gətirmək məqsədilə şəhərə gəldi. Həmin günün səhəri tezdən də köçdü.

Ancaq köçəndə iki yük maşını çağırtdı: biri ev əşyasını təzə evə aparırdı, o biri də lüzumsuz şeyləri şəhər kənarına atmağa aparırdı.

Köçəndən bir həftə sonra anasını maşına qoyub təzə otaqlara gətirmişdi. O, parket döşəməsi parıldayan geniş, işıqlı otaqları gəzdikcə "pəh-pəh, – deyirdi, – oğul, sağlığına qismət olsun!"

Otaqları gəzdikcə gözü nəyi isə axtarırdı: – "Hanı bəs mənim şeylərim? Hara yığmışsınız onları?"

– Hansı şeylərini?



– Köhnə pal-paltarımı, dür-düyünçəmi!

– Odur, sandığında!

– Sandıq o qədər şey tutmazdı, köhnələri deyirəm!

– Köhnələri köhnə evdə qoyduq.

– Ədə, boş danışma, şeyləri göstər. Kağız qutunu görmürəm!

– Ana, o şeyləri buraya gətirmək olardımı?

Qadın birbaş köhnə evə cumdu. Evi bağlı gördü, sahibi bağda idi...

Bir müddət qadın dabanlarını çəkib köhnə evə ayaq döydü. Axırda təngə gəlib yerində oturdu. Dilindən düşməyən bircə şikayəti bu idi:

– Köhnə evdə mənim çox şeyim getdi. Mənə çox ağır oturdu...

Oğul da deyirdi:

– Düz deyirsən, ana, o ev səndən çox şey apardı. Amma yaxşı ki, apardı, səni yüngüllətdi.

*1954*

# İCLAS QURUSU

Əncil qurusu, ərik qurusu, zoğal qurusu – bunlar çox olur, iclas qurusu isə tək-tək olur.

Bir var ki, gün altında quruyan, bir də var ki, iclaslarda quruyan, suyunu çəkən, həyat hisslərini itirən.

İclas qurusunu siz tanıyırsınız. Adını bilməsəniz də, özünü yaxşı tanıyırsınız. Arıq bədənini qabağa əyib dizini bükərək, sürətli addımlarla gedən adamı siz küçədə, idarə qapılarında, pilləkənlərdə çox görürsünüz.

O haraya tələsir. İclasa!

Qoltuğundakı boz, sürtülmüş qovluq, səliqəsiz yığılmış kağız-kuğuzla doludur.

Bunlar nədir. Protokol! O bütün ömrü boyu başıaşağı, dünyadan bixəbər, qaşqabaqlı, sifəti bulud kimi tutulmuş, fikirli gəzir.

Nəyi düşünür. Qərarı!..

İclas qurusu üçün gecənin-gündüzün, yazın-payızın, istinin-soyuğun, yerin-göyün heç bir fərqi, əhəmiyyəti yoxdur. Suların səsindən, çiçəklərin ətrindən, quşların mahnısından, musiqidən, gülüşdən, şənlikdən uzaq olan bu qaradinməz adamı görəndə kimisi heyrət edir, çoxunun da acığı gəlir.



Güman etməyin ki, iclas qurusu ancaq ictimai yerlərdə belədir. Siz düşünürsünüz ki, evinə qayıdıb papağını çıxardanda, arvadı-uşağı ilə görüşəndə iclas qurusunun halı dəyişmiş olur, üzündə işıq, dodağında təbəssüm doğur.

Yox! Səhv edirsiniz! O, iradəli, prinsipli, müstəqim adamdır. Onun şəxsi ailə həyatı özü də bir növ iclasdır. O, bir dəfə qət etmişdir ki, iclas üçün yaranmışıq, başımız qərar hazırlamaq, barmaqlarımız protokol yazmaq, əllərimiz çəpik çalmaq, səsimiz çıxış etmək üçün bizə verilmişdir. Onun fikrincə, bütün kainat da mühüm bir iclasdan sonra yaranmış və imzalanmış bir qərar üstündə dayanır. İnanmırsan, başını qaldır, göyə bax. Gör neçə milyonlarla ulduzlar sədrlik edən ayın başına toplanmışdır. Minillərdən bəri göydə elə qızğın iclas gedir ki, bəzən gurultusu yerdə qulaqlara düşür.

İclas qurusu arvadı Meyransa ilə belə danışır:

– Yoldaş Meyransa, təklif var ki, mənim corablarımı yuyub qurudasınız!

Meyransa dinməyəndə o, ayağa qalxır, qələmin küt ucunu stola döyüb danışır:

– Cavab üçün söz verilir yoldaş Meyransaya!

İclas qurusunun iclaslar, qərarlar, nitqlər içində keçən və asanlıqla keçməyən həyatı neçə dəfə ailədə də silkələnmişdir.

On səkkiz il əvvəl Quru axşam iclasdan qayıdanda arvadını evdə görmədi. "Bu hansı iclasdadır gecənin bu vaxtında", – deyə ürəyində fikirləşdi. Çox keçmədi, qonşu qadın gəlib Qurunu təbrik etdi:

– Quru qardaş, gözünüz aydın, bir yaxşı qızınız oldu. Meyransa xanım xəstəxanada sizi gözləyir.

Quru qadına nə muştuluq verdi, nə də cavab. Qəzəb və dəhşət yağan üzü bir az da qaraldı, gözündə ildırımlar oynadı: "Bu nəyə lazımdır. Görəsən, bu barədə nə qərar olacaq. Eşidənlər nə deyəcəklər".

Uşağı bələyib evə gətirdilər. Quru kağızlar aləmindən baş qaldırıb baxmadı da. Meyransa ərindən xahiş etdi ki, bir yaxşı ad tapsın. İclas qu-

rusu bu məsələni kluba iclasa keçirdi. Orada çox ad təklif olundu, ata razı olmadı, öz təklifində təkid etdi:

– Məruzə!

İclasdakılar qəhqəhə çəkib gülüşdülər və sonra çəpik çaldılar.

Qızın adı qaldı Məruzə.

Məruzə bəsləndi, Məruzə böyüdü. Məruzə oxumağa, nəhayət, diqqətləri cəlb etməyə başladı.

Məruzəyə kitab, dəftər almaq lazım gələndə İclas qurusu bütün rəsmiyyəti gözləyirdi. Əvvəlcə qız atasına ərizə yazırdı. Sonra ərizə məktəbə, müəllimin təsdiqinə göndərilirdi. Daha sonra Meyransa qol çəkirdi. Nəhayət, İclas qurusu mağazindən kitab-dəftər alıb gətirir, qıza qol çəkdirəndən sonra siyahı ilə verir və vaxt qoyurdu. "Gələn ayın ikinci həftəsinin sonuna qədər" həmin siyahının bir surətini idarəyə, "nəzarət üçün" müdirə göndərir, bir üzünü də arxivində ehtiyat üçün saxlayırdı. Gələcəkdə yoxlasalar lazım olar.

Məktəb müdiri bir neçə dəfə Məruzəyə demişdi:

– Qızım, atanı çağır, vacib söz deyəcəyəm!

Quru cavab vermişdi:

– Mən iclasda olacağam!

Qız böyüyəndən sonra İclas qurusunun başağrısı daha da artdı. Qızı çox yerdən istədilər.

Elçilərin hamısına bir cavab verilirdi:

– Anket doldurun, yoxlayıb baxarıq.

Elçilər anket adını eşidib dağılışırdılar.

Ancaq məhəbbətində sadiq olan Əskər adlı bir şofer İclas qurusundan əl çəkmədi. Meyransa Əskərlə qohum olmağa razı idi. Kişinin qılığına girmək istədi:

– Kişi, Məruzəni istəyirlər axı.

– Konkret danış, kim istəyir və hansı şərtlərlə.

– Şofer Əskər!

– Ərizəsi hanı?

– Ərizəsi yoxdur.

– Bəs niyə havayı danışırsana? Meydanda nə ərizə var, nə anket, nə zəmanət. Niyə bəs gəlib başımı ağrıdırsan?



Meyransa xahiş ədası ilə dedi:

– Bəlkə, vaxt verəsən, iclasın olmayanda elçilər gəlsin, danışasınız.

– Elçini neyləyirəm. Qız istəyən adam şəxsi işini, şəklini göndərsin, tanış olum, sonra müzakirə edib baxarıq.

İclas qurusu oğlanın adını bir-iki dəfə təkrar edib Meyransaya baxdı, başını buladı:

– Adı köhnədir, çox köhnədir. Məruzəni almaq istəyənin adı Məruzəyə layiq olsun gərək!

– Sən deyərsən, dəyişər!

İclas qurusu öz qərarını təkrar etdi:

– Dedim, şəxsi işini göndərsin, baxıb müzakirə edərik, artıq danışmaq lazım deyil!

Meyransa bir söz deməyib çıxdı.

İclas qurusunun sözlərini Əskərə çatdırdılar. Əskər dedi:

– Anketimi getsin idarədən öyrənsin, ancaq mən bu işin daha asan yolla həllini bilirəm. O özünü belə zəhmətlərə nahaq salıb.

Bu axşam İclas qurusu oturub protokolları sahmana salırdı. Meyransa da şkafı açıb təzə paltarlarını geyinirdi. Kişi başını qaldıranda arvadını ayrı bir həvəs, ayrı bir sevinclə, tələsə-tələsə geyinib-kecinən gördü.

– Hara belə, ay arvad? – deyə, təəccüblə soruşdu.

– Heç, balaca iclasımız var!

– Bəs Məruzə haradadır?

– O da öz iclasına gedib, sənə də kağız göndərib.

Meyransa stolun üstündəki kitabın altından əl boyda bir kağız çıxarıb ərinə verdi:

– Deyəsən, uşaqların qərarı var. Oxu gör necədir.

İclas qurusu kağızı oxuyanda gözü kəlləsinə çıxdı: – "Ata, biz çox müzakirə elədik, düşündük, daşındıq. Sizə zəhmət vermədən ZAQS-a getdik. Sabah toyumuzdur, oğlan evində olacaq, iclasdan sonra vaxtın olsa buyurub gələrsən. Qızın Məruzə."

İclas qurusu daha da qurudu. Quru uzandı, dik ayağa qalxdı:

– Necə, necə... Özbaşına qərar çıxarıblar... Bu qərarı kim təsdiq edib?

Meyransa təmkinini və mülayimliyini pozmadan cavab verdi:

– Gərək sən təsdiq edəsən də!

İclas qurusu özündən çıxdı:

– Mən onun anketini oxumamış, işini yoxlamamış, müzakirə etməmiş, belə qərarı necə təsdiq edə bilərəm, bu nə intizamsızlıqdır...

Meyransa çəkməsini ayağına çəkib son sözünü dedi:

– Edərsən, etməzsən özün bilərsən. Mən Əskərgildə toyda olacağam, evdən muğayat ol. Qapı-bacanı açıq qoyma! – Meyransa bunu dedi, qapını çırpıb çıxdı.

Ev, dəyirman daşı kimi İclas qurusunun başına dolandı.

*1954*



# ÖZGƏ UŞAĞI

*Ünsiyyət insanlığın birinci şərtidir.*
*Atalar deyib: "Dağ-dağa qovuşmaz, adam adama qovuşar".*

Aprelin otuzunda hava dağ havası kimi açıq, duru və sərin idi. Axşam istirahətindən sonra Fərəməz arvadı Zivərlə sahilə, gəzməyə hazırlaşırdı. Zivər hamıdan əvvəl uşaqlarını – on yaşlı Yarpızı, üç yaşlı Aydını geyindirib həyətə buraxdı. Özü də paltarını dəyişib çıxırdı. Dəhliz ağzında çəkməsini düymələyirdi ki, qapının zəngi səsləndi.

– Ay qız, bəsdir! – deyə bir səs gəldi.

Zivər güman edirdi ki, zəngi vuran, anası ilə zarafatlaşan Yarpızdır. Ona görə də zəngin səsinə məna vermədi. Zəng təkrar olundu. Zivər qapını cəld açdı ki, qızına acıqlansın, ayrı bir səs gəldi:

– Qonaq istərdinizmi?

– Paho! Xoş gəlmişsiniz, çox səfa gətirmişsiniz! Həqiqət müəllimə, buyurun, buyurun!

Qonaq əl verib görüşsə də, ev sahibini gəzmək əzmində görəndə duruxdu:

– Zivər xanım, deyəsən, gedəsi yeriniz var. Gedək, mən mane ol-

mayım.

– Heç yerə getmirik, elə belə geyinikli idim, indicə gəlmişəm, keçin içəri!

Fəraməz içəri otaqdan gəlib qonağa əl verdi, xoş gəldin elədi:

– Keçin, Həqiqət xanım! Buyurun, əyləşin!

– Doğrusu, yaxşı olmadı...

– Lap yaxşı oldu. Yaxın əyləşin!

Qonaq əlindəki qutunu pəncərəyə qoydu, sumkasını çəngəldən asıb stul çəkdi, oturdu. Zivər mətbəxə keçib ocağı yandırdı. Çayniki, qazanı oda qoydu. Həyətə qaçıb qızının ovcuna nə isə sıxdı və tapşırdı:

– Qaç, Yarpız, bu yaxın budkadan bir banka qatıq al gətir! Yarpaq dolmamız var, tez get ki, axşamdır, bağlanar.

Yarpız ovcundakı üçlüyə baxdı, təkrar qatladı. Getmək istəyəndə Aydın ağladı: "Mən də gedirəm! Məni də apar!"

Yarpız qardaşının sözünə qulaq asmadan yeyinlədi. Aydın da ağlaya-ağlaya bacısının dalınca qaçdı.

– Mən də gedirəm, mən də gedirəm, – sonra anasını çağırdı.

– Ana, mən də gedirəm!

Zivər əziz qonağına başağrısı olmasın və uşağın səsi kəsilsin deyə qızına icazə verdi:

– Yarpız, əlindən tut onu da apar! Muğayat ol, səkidən aşağı düşməsin. Tez qayıdın!

Zivər bunu deyib cəld qonağın yanına qayıtdı.

Həqiqət xanım dedi:

– Uşağı göndərmə, tünlükdür, heç bir şey lazım deyil!

Zivər Həqiqət xanımı inandırdı ki:

– Budur, buradadır, yaxında, iki addımlıqdadır. Bir şey olmaz!

Fəraməz də gəlib stol başında oturdu.

Şübhəsiz ki, Zivər uşağı qatıq almağa göndərəndə Fəraməz eşitdi. Onun da fikrinə gəldi ki: "Bəlkə özüm gedəm". Sonra adəti üzrə düşündü: "Uşağı o qədər də əzizləməyin, ərköyün böyütməyin xeyri yoxdur. Sabah həyata çıxacaq, müstəqil vətəndaş olacaq. İndi bir stəkan qatıq almağı da öyrənməsə, on səkkiz yaşında da gərək ana qucağından ayrılmasın. Nə olacaq, uzağı satıcıya bir abbası, beş şahı artıq verəcək. Bunun heç eybi yoxdur..." Hətta batumlu bir dostunun sözü də yadına düşdü. Guya Batumda hambal çağıranda belə deyirdilər: "Ay ananın əziz oğlu, bura gəl!" Çünki əzizlənib, böyüyən, heç bir sənət dalınca getməyən cavanlar axırda hamballığa məcbur olurmuş.



Həqiqət xanım "uşağı göndərməyin" deyəndə Fəraməz istədi bu misalı çəksin, aralığa ayrı söhbət düşdü.

Həqiqət xanım Fəraməzin də, Zivərin də yaxın dostu və əzizi idi. Əvvəla, ona görə ki, Həqiqət xanım onların hər ikisinə dərs demişdi. Balacalıqdan onları yaxşı tanıyır, tərbiyələri ilə məşğul olurdu. Hətta onların toyunda da fəal iştirak etmiş, hər ikisinə böyüklük etmiş, oğlanın da, qızın da alnından öpüb, təbrik nitqi demiş, xeyir-dua vermişdi. İndi Fəraməzin, Zivərin belə bəxtiyar bir ailə qurmaları, gül kimi balalar böyütmələri onun üçün nə qədər fərəhli və xoş idi!

Həqiqət xanım bir də ona görə əziz idi ki, neçə ildən bəri Fəraməzin evinə ayaq basmamışdı. Çünki onu bir müddət rayon texnikumlarından birinə direktor təyin etmişdilər. Orada ikən əri vəfat eləmişdi, qadın tək qalmışdı, çox çətinlikdən sonra təkrar Bakıya işə təyin olunmuşdu. Fəraməz də, Zivər də bir teleqramla kifayətlənmiş, öz tələbəlik vəzifələrini layiqincə yerinə yetirib, Həqiqət xanımı yoxlamamış, vaxtında əhvalını soruşmamışdılar. İndi isə müəllim təşəbbüs edib, tələbələrinin evinə gəlmişdi. Buna görə də cavanlar müəllim yanında xəcalətli kimi idilər, üzrxahlıq eləməyə söz və fürsət axtarırdılar.

Üçüncü tərəfdən də Həqiqət xanımın gəlişi adi bir gəlişə oxşamırdı. Ona görə oxşamırdı ki, bu evi o, birinci dəfə görürdü.

Fəraməz bu evə köçəli bir il deyil. Moskva arxitektorlarının planı ilə, şəhərin mərkəz yerində, ali məktəb işçiləri üçün tikilən bu evin səliqə-sahmanı, şöhrəti hər yerdə deyilirdi. Həqiqət xanım, söz yox, təzə evin mübarəkbadlığını da nəzərdə tutmamış deyildi. Bu görüş hər iki tərəfin qəlbən arzu etdiyi sevincli, fərəhli bir görüş idi. Çünki müəllim övlad qədər sevdiyi tələbələrinin bəxtiyar həyatını seyr etməkdən, tələbələr də müəllimlərin səyinə minnətdarlıq etməkdən xüsusi bir həzz duyurdular.

Dostlar işıqlı, səliqəli evin eyvanında, süfrə başında əyləşməkdə, şirin söhbətdə olsunlar, biz də bir neçə dəqiqəliyə, qatıq dalınca gedən uşaqların yanına qayıdaq.

Uşaq zehninin böyük, maraqlı və bakir bir aləm olduğunu kim inkar edə bilər? Psixoloqlar, pedaqoqlar bu aləmi necə öyrənir, necə qiymətləndirir, onu bilmirəm. Onu bilirəm ki, bu aləm kainat qədər böyük, təbiət qədər zəngin və əlvandır. Bu aləmi təfsilatına qədər yaxşı bilən alimlər xoşbəxtdirlər. Ancaq inanmıram ki, bir alimin bilik tərəzisi bu ağırlığı çəkə bilsin. Çünki böyük rus şairi gözəl deyib: "Bir qəlbin tarixi bir xalqın tarixi qədər zəngindir."

Bir damcı suda kainat əks olunduğu kimi, bir uşağın zehnində də bütün bir mühit əks olunur. Bəzən ən xarakterik hərəkətlərimiz, xasiyyətlərimiz bizim saymadığımız, məna vermədiyimiz bir uşağın ilk baxışı ilə təyin olunur. Təyin olunur və həmişəlik onun zehnində həkk olunub qalır. Bir zaman haqqımızda soruşulanda uşaq adımızı, familiyamızı, ya peşəmizi yox, ona təsir edən hərəkətimizi xatırlayıb deyir:

– Hə, o dişiaçıq kişinimi deyirsən, tanıdım! Göyə baxan adamı mən həmişə köşk qabağında görərdim...

Uşaq zehninin qüdrəti, əhatə dairəsi və davamı da çoxdur. Güzgü qabağında duran hər predmet labüd əks olunduğu kimi, uşağa rast gələn hər şey onun zehnində öz təsirini buraxmalıdır və buraxır. Sizin yanınızdan quş kimi ötərək, bəzən oynaq gözlərini üzünüzə dikən, aşağıdan yuxarı diqqətlə baxan balacaları bala saymayın! Onların yanında özünüzü yığışdırın! Onlar gələcəkdə sizin haqqınızda hökm verənlərdir.

Nə isə, mətləbdən uzaq düşməyək.

Yarpız bankanı budkaçıya verib pulunu yoxlayanda küçənin o biri tərəfindən bir kişi keçirdi. Kişinin əlində bir oyuncaq qaz var idi. Kişi uşaq üçün aldığı oyuncağı həris kimi, deyəsən, oynadır, o yan-bu yanına diqqət yetirirdi. Aydın onu görən kimi, səkidən düşüb yüyürdü və kişinin əlindəki oyuncağa baxmağa, gülümsəyərək yeyin yeriməyə başladı.

Milis nəfəri körpə uşağın kişini izlədiyinə diqqət edirdi. Uşağın



atası saydığı kişinin etinasız getdiyini, tini dönəndə heç uşağı axtarmadığını, gözləmədiyini görüb yəqin etdi ki: "Özgə uşağıdır!" Uşağa yaxınlaşıb əl verdi:

– Nə yaxşı oğlansan, ə!

Uşaq güldü, kişi gedən tərəfə işarə etdi:

– Qusi, qusi, qa-qa-qa!

Milis nəfəri hansı ətrafa boylandısa, bəlkə uşağın böyüyünü görsün, heç kəs yaxın gəlmirdi, deyəsən, uşaq göydən düşmüşdü.

– Bəs sən... Bəs sən kimlə gəlmişsən? – deyə milis nəfəri uşaqdan soruşdu.

– Yarpıznan!

– Hanı bəs Yarpız?

Uşaq ətrafına baxındı və məyus bir cavab verdi:

– Yoxdur!

Milis nəfəri uşağı qucağına götürmək istədi:

– Gəl, səni evinizə göndərəcəyəm!

Uşaq balıq kimi silkinib onun əlindən çıxmaq istədi:

– İstəmirəm.

– Eviniz hayandadır?

– Buradadır!

– Hansıdır?

– Odur!

Milis nəfəri uşağın əlindən tutub binaya yaxın gəldi:

– Hansı qapıdır?

Uşaqdan cavab gəlmədi.

– Kimin oğlusan?

– Papanın!

– Papanın adı nədir?

– Fəriş.

Milis dayandı:

– Necə yəni Fəriş? Familiyan necədir?

– ...

– Bəs sənin adın nədir?

– Aydın!
– Harada olursunuz?
– Evdə.
– Evinizi göstər görüm!

Uşaq dayandı, kiçik barmağını ağzına apardı, altdan yuxarı milis nəfərinin üzünə baxdı.

– Atan harada işləyir?
– İclasda!

Milis nəfəri uşaqdan müəyyən bir cavab ala bilməyəcəyini yəqin etdi, düşündü ki: "Rayona aparmaq lazım gələcək, bu saat valideyni axtarır".

Uşağı qucağına götürüb getmək istəyəndə Aydın oyuncaq istədi:

– Qusi-qusi, qa-qa-qa!
– Gedək sənə, qusi-qusi qa-qa verəcəyəm!

Uşağın məyus sifətini sevincli bir gülüş işıqlandırdı.

Milis nəfəri postunu yoldaşlarından birinə tapşırdı, uşağı dilə tutub rayona gətirdi və onu növbətçiyə təhvil verəndə dedi:

– Kommunist küçəsinin başında, beşinci dalanın yanından tapılıb. Valideyni haqqında bir şey demir. Ancaq görünür, oxumuş ailə uşağıdır.

Qatıq almağa gedəndə Yarpız uşağın əlindən tutmuşdu. Budkaya yaxınlaşan kimi, buraxmalı oldu. Çünki satıcının qabağında adam çox idi. Uşağı kənarda qoyub özü növbədəkilərin dalında dayandı. Bankanı alanda da bir xeyli gözlədi. Satıcının xırda pulu yox idi, başqalarından alıb ona verməli idi.

Yarpız geri dönüb uşağı yerində görməyəndə təşvişə düşdü. Adını çağırdı. O tinə baxdı, bu dükana girdi, ətrafını yoxladı, Aydından bir əsər görmədi. Güman etdi ki, uşaq birbaş evə qaçıb. O evdən başqa bir yer tanımır, özü də qorxar, adamsız heç yana tərpəşməz. "Bəlkə də qohumlarımızdan birinə rast gəlib, götürüb aparıblar."

Bir tərəfdən də Yarpız anasından bərk qorxurdu: "Getdim, gördüm uşaq evdə yoxdur, onda bəs necə?"

O halda nə qiyamət qopacağını düşünəndə Yarpız evə getməyə



qorxdu. Əlində banka küçə aşağı getdi, küçə yuxarı qayıtdı, balaca boylu adamların hamısına yaxınlaşıb üzünə baxdı, bəzilərindən soruşdu, gördüm deyən olmadı. Küçənin ortasında Yarpızı ağlamaq tutdusa da, o, özünü saxladı. "Bəlkə, – dedi, – evdədir elə!"

Evə gəlib bankanı anasına verəndə qonaqla atası çay stolunun qabağında oturub şirin danışır, qah-qah çəkib gülürdülər.

Zivər bankanı açıb qatığı piyalələrə tökdü və soruşdu:

– Bəs uşaq hanı?

Saymazyana sorğusunun cavabı gecikəndə, Zivər bir də soruşdu. Yarpız donub qalmışdı, bir söz demirdi. Zivər bir az da bərkdən dedi:

– Uşağı hara ötürdün bəs, a qız?
– Uşaq məndən qabaq gəlib ki.
– Hara gəlib, hanı gəlib? – deyə Zivərin gözləri alacalandı.
– Mən qatıq aldım, dönəndə gördüm yoxdur, – deyə Yarpız başını aşağı dikdi.
– A qız, necə yoxdur, uşağa nə olub, açığını de!

Zivərin səsi get-gedə ucalır, rəngi dəyişir, həyəcanı artır, gözləri böyüyürdü:

– Hanı Aydın?

Yarpız əlləri ilə üzünü tutub ağladı. Zivər isə: "Uşağı harda itirdin, ay qız?" – deyə küçə qapısından, beş pilləkəni birdən hoppanıb yüyürdü, özünü küçəyə atdı.

İndi ananın qəlbində nə kimi bir tufan, təlatüm olduğunu oxucular yaxşıca təsəvvür edə bilərlər. Sağa-sola ötən dağ kimi maşınlar, ağır sürətli tramvay vaqonları, sürüb gedən trolleybuslar, dizellər... Bunlar Zivərin həyəcandan böyümüş gözünə görünəndə qadının səbri tükəndi, ürəyi üzülən yarpaq kimi əsməyə başladı. Ayağında ev başmağı, yaxası açıq, saçı dağınıq, tövşüyə-tövşüyə yüyürən Zivər hara getdiyini, necə getdiyini bilmirdi.

– Ay qardaş! Ay bacı! Körpə uşaq! Üç yaşında oğlan uşağı, üzündə də qara xal! – deyə-deyə adamların üzünə baxır, cavab gözləmədən ötürdü. Kim isə həyəcanını duymuşdu:

– Bacı, – dedi, – uşaq itibsə, rayona müraciət edin! Onlar bilərlər.

Zivər düz qayıdıb rayona yol aldı. Yol aldı, ancaq nə ayaqları ge-

dir, nə gözləri ətrafdan çəkilirdi.

O hər addımda, hər küncdə, hər tində Aydını axtarırdı, bütün küçəni diqqətlə nəzərindən keçirməmiş ötmək istəmirdi.

■ ■ ■

Milis nəfəri uşağı gətirib növbətçiyə təhvil verdikdən sonra öz postuna getdi.

Növbətçi Məhər Əliyev dərhal Mərkəzi milis və yaxın rayon milis idarələrinə zəng vurub məlumat verdi. O, dəstəyi yerə qoymamış Aydın qapıya tərəf üz qoydu. Məhər telefondan ayrılıb tələsik uşağın dalınca gəldi:

– Hara gedirsən, bala?

– Anamın yanına.

– Evinizi tanıyırsanmı?

– Hə!

Məhər sevincək uşağın əlindən tutub getdi:

– Gedək!

Qapıdan çıxıb böyük küçənin səkisinə çatanda Məhər dayanıb uşağın fəhmini yoxladı. Aydın da dayandı. O yan-bu yana baxdı:

– Eviniz hayandadır?

– O yanda.

– Hayanda?

– O yanda.

Aydın müəyyən bir cəhət göstərə bilmirdi. Ancaq balaca, girdə, ağ çənəsini tərpədib göyə işarə edirdi.

Məhər aşkar görürdü ki, uşaq heç bir yeri tanımır, ancaq anasını görmək üçün hansı tərəfə aparsan gedəsidir.

– Gedək, mən səni bir yaxşı yerə aparım, anan da ora gələcək.

Məhər uşağı idarənin həyətinə, üzbəüz qapıya, Nyura xalanın evinə apardı.

Aydın kimi bir qonaq Nyura xala üçün təzə hadisə deyildi. Onun evi belə azan çox körpə uşaqlar üçün bağça əvəzini görürdü.

Zotova Pavlovna Nyura otuz birinci məktəbin xadiməsi idi. Özünün



uşağı olmasa da, uşaq ruhuna bələd idi. Ömrünün çoxunu məktəblərdə xidmətdə keçirmişdi. Məhər də onun qonşuluğunda mənzil tutmuşdu. Zotovaya doğma xalası kimi ərki var idi.

Aydın Nyura xalanın evində axtardığını tapdı. Haradansa ona iri bir yük maşını (oyuncaq) gətirdilər, iki dənə də qaz balası. Quşları görən kimi, Aydın oxumağa başladı:

– Qusi-qusi, qa-qa-qa!

Yest xotite, da-da-da!

Aydın bir bulkanı doğrayıb quşların qabağına tökməkdə idi ki, Zivər özünü uşağın üstünə atdı:

– Aydın, can!

Ana uşağını götürüb öpə-öpə növbətçinin yanına gəldi, dəftəri imzaladı, bilmədi nə dillə təşəkkür etsin. Anaya elə gəldi ki, bu sadə, milis libası geymiş adamın sinəsində böyük və müqəddəs duyğularla zəngin bir qəlb döyünür. Bu qəlb anaların da, ataların da, uşaqların da, böyüklərin də həyəcanlarını dərindən duyur. Bu adam vətəndaş deyib əzizlədiyi deyil, qoruduğu hər kəsə eyni dərəcədə, eyni sədaqətlə xidmət edir. Zivər indi Məhərə minnətdarlıq etməyə kifayət və münasib söz tapmırdı.

Həqiqət xanım da evdə belə bir həyəcana səbəb olduğuna görə xəcalət çəkirdi. Aydının qarşısında oturub gileylənirdi:

– Bir də sizə gəlməyəcəyəm!

– Gələrsən!

– Sən məni qoyub gedirsən.

– Nyura xalagilə səni də apararam. Orda qusi, qusi, qa-qa-qa var!

Aydın Nyura xalanı indi də yadından çıxarmır. Atası ona yük maşını da, minik maşını da alır. Qusi, qusi, qa-qa-qa da gətirir. Yenə hər səhər yerindən duranda uşaq papağını götürüb yola düzəlir:

– Hara gedirsən, Aydın? – deyə ondan soruşanda:

– Nyura xala çağırır! – deyə cavab verir.

*1954*

# ÖZÜNDƏN NAXOŞ

*Людей одиноких по натуре, которые как рак-отшельник или улитка, стараются уйти в свою скорлупу, их на этом свете немало.*

**А.Чехов**

–Naxoş-maxoş bilmirəm. Kim getməsə, məsələsini ümumi iclasa qoyacağam!

– Bu nə danışır, e!

Mirzə Əsgər Abasəlinin dalınca baxa-baxa qaldı. "Ümumi iclasa qoyacağam!" sözlərini zehnində təkrar etdi, vahiməsi bir az da artdı.

Mirzə Əsgər Abasəlini yaxşı tanıyırdı. Bilirdi ki, dediyini eləyəndir. Onun adını evdə söyüşlə çəkəndə arvadı soruşurdu:

– Necə adamdır o?

– Əvvəla, demaqoqdur, lap yekəsindən. İkincisi, nanəcibdir. Üçüncüsü, həyasızdır. Dördüncüsü...

Arvadı onun sözünü kəsdi:

– Sayma, bəsdir, həyasızdan nə desən çıxar.

Abasəli trestdə yerli komitə sədri idi. Keçən həftə qərara alınmışdı ki, istirahət günü bütün işçilər yığışıb stansiyaya getsinlər, vaqonlardan tökülən taxta dirəyi maşınlara yükləməkdə vağzal fəhlələrinə kömək etsinlər. Tikinti materialı o qədər tökülmüşdü ki, yığıb-yığışdır-



maq üçün kollektivin bu qərarı elan olunanda Mirzə Əsgər adəti üzrə etirazını bildirdi:

– Əlbəttə ki, iməciliyə getmək məsələsində naxoşlar nəzərə alınmalıdır!

Bu söz Abasəlinin qulağına çatanda cin başına vurdu. "Belə də xeyrə-şərə yaramaz adam olarmı?" – deyə düşündü və üzünü hesabdarın otağına tutub ucadan dedi:

– Naxoş-maxoş bilmirəm. Kim getməsə, məsələsini ümumi iclasa qoyacağam!

Mirzə Əsgər iyirmi ildi trestdə hesabdar vəzifəsində çalışırdı. Bu iyirmi il müddətində bir gün olmayıb ki, o, başını qaldırıb desin: "Bu gün kefim sazdır, yaxşıyam!" Onu həmişə səhhətdən şikayət edən, boyun-başını tutub ufuldayan görərsiniz. Biri baş ağrısından danışanda Mirzə Əsgər şərik olardı: "Mənim başımın ağrısı kəsmir." Biri ürəkdən, bir başqası mədədən şikayətləndimi, Mirzə Əsgər qələmi yerə qoyar, çeşməyi çıxarar və deyərdi:

– Siz, deyəsən, mənim naxoşluğumdan xəbər verirsiniz. O şeylər məndə artıqlaması ilə baş verir. Dərman atmaqdan yorulmuşam.

Mirzə Əsgər həyatında çox ehtiyatlıdır. Yeməyinin, istirahətinin vaxtını keçirməz. Az qala özü yaşda bir stəkanı, qalaylanmış qaşığı, qəlyanaltı üçün ayırdığı xüsusi bir yeşiyi var. O yeşikdən butulka ilə qaynanmış su, kəklikotu, aspirin, cürbəcür vitaminlər çıxar.

"Qrip" sözünü yazanda dəsmalla ağzını tutar, səhər-axşam qoltuğuna termometr qoyub, hərarətini yoxlayar.

Bir dəfə tramvayda evinə gedəndə yanında oturan bir xanım şübhələndi.

– Yoldaş, – dedi, – sumkanızda toyuq var, nədi.

– Xeyr, mənim sumkam boşdur, bazara getməmişəm.

– Bəs bu qurultu səsi nədir ki, mən eşidirəm.

Mirzə Əsgər başa saldı:

– Qoltuğumda qrelka var. Ağrını kəsmək üçün məsləhət görüblər. Tramvay tərpənəndə zəhrimar yırğalanır. Suyun səsidir!

Axşamlar istirahət vaxtı adamlar kinoya, teatra, stadiona gedən-

də Mirzə Əsgər çarpayısında uzanıb özünü yoxlayardı. Uzunmüddətli və ağır işdən sonra təmirə gəlmiş maşını usta necə yoxlarsa, o da özünü eləcə diqqətlə yoxlayırdı. Termometrdə bir şey görməyəndə güzgü qabağına keçər, rənginə baxardı. Qoluna, qıçına nəzər salar, ağzını açıb boğazına baxar, "a" səsi çıxarardı. Evdəkilərin hamısının başına toplanmasını, onunla maraqlanmasını çox sevərdi. Qapı-pəncərənin düşməni idi. İstidə, küləkdə, qarda, yağışda evdən çıxmaq istəməzdi. Küçədə də kostyumunun boynunu qaldırar, belini əyər, divarların dibi ilə yeriyərdi. Çayı soyudub, suyu da qızdırıb içərdi. Vitamin yox idi ki, Mirzə Əsgər onun kimyəvi tərkibini bilməsin, dadını yoxlamasın. Onun getmədiyi yaylaq qalmamışdı. Bağ qalmayıb ayaqlamasın, palata qalmayıb yatmasın, sanatoriya qalmayıb yaşamasın. Putyovkalar elə tez-tez yazılıb möhürlənərdi ki, deyərdin bu yumru, yağlı gövdəli, çeşməkli kişinin vücuduna, Allah eləməsin, bir sədəmə toxunsa dünya alt-üst olar. Həkimlər də onu tanımışdılar. Diaqnoz qoymaq üçün çox əziyyət çəkirdilər. Daxili üzvlərin birini "şıltaqçı" yazar və soruşardılar:

– Gərək siz böyrəkdən şikayətli idiniz.

– Doktor, indi mədəm də, ürəyim də şıltaqlıq edir.

Mirzə Əsgər istədiyi kurortlara gedərsə, hamısından da narazı gələrdi. "Necə şeydirsə mənə düşmür – gün-gündən geri gedirəm", – deyə şikayətlənərdi.

■ ■ ■

İndi Abasəli də üzünü tutub belə bir adama deyirdi:

– Naxoş-maxoş bilmirəm.

Mirzə Əsgər bu dəfə məəttəl qalmışdı ki, getsin, ya getməsin. Güman edirdi ki, onu iməciliyə çağıranlar o qədər də nainsaf olmazlar. Onu taxta-şalban daşıtmağa qoymazlar. Olsa-olsa, ondan öz sənətində istifadə edərlər. Orada da yazı-pozu, hesab-kitab var axı. Orada da görülən işin hesabını aparan lazımdır, ya yox! "Məni ancaq bu məqsədlə apara bilərlər, ayrı cürə olmaz," – deyə düşündü.

Hərdən Mirzə Əsgəri qəzəbli vahimə basırdı: "Həyasızdan nə desən çıxar! Qorxuram ümumi iclasa qoya, özü də lap pis danışa. Ona məndə tab hanı? Oradaca ürəyim gedər..."

Bir də görürdün ki, Mirzə Əsgər vücudunda qalan cəsarəti yığıb öz-özünə belə düşünür:

– Dəli şeytan deyir ki, gəl get! Qoy səni lap iməciliyə aparsınlar. Naxoş bədən də dözməsin, yıxılıb ölsün. Qanın tökülsün bələlərinin – Abasəli kimi vicdansızların üstünə! Azı beş il həbs versinlər. Eybi yoxdur, mən qəbirdə yatanda o da getsin dustaqxanaların küncündə sürünsün! Dəli şeytan deyir ki, elə gəl get, qoy axır əncamı belə olsun!

■ ■ ■

Səhər tezdən üstüörtülü avtobus gəlib evin qabağında dayandı. Abasəlinin səsi eşidildi:

– Sabahın xeyir, Mirzə! Maşın sizi gözləyir!

Avtobusun içindən deyib-gülmək səsi gəlirdi. Deyəsən, adam çox idi, deyəsən, camaatın hamısı gedirdi. Mirzə Əsgər köynəkcək durub pəncərədən bir eşiyə baxdı, şikayətli bir dillə arvadına dedi:

– Görürsən də! Bu da mənim istirahət günüm.

– Kefin yoxdur, getmə!

– Necə getməyim, görmürsən aləmi yığıb qapıya! Bu vicdansızlığın hələ hamısını görmürsən, bunlar hamısı mənim üçün qurulub, getməsəm, bəyəm, canım rahat olacaq.

Qəlyanaltısını, dərmanlarını, borjom butulkasını sumkaya yığınca, geyinib çıxınca bir xeyli vaxt çəkdi. Avtobusdan səs gəlirdi:

– Ay Mirzə, tez ol, gün-günorta oldu ki!..

Mirzə Əsgərin əlindən yapışıb içəriyə saldılar. Avtobus sürətlə yoluna davam etdi. Mirzə Əsgər sağa-sola yırğalanaraq düşünürdü: "Necə eləyim ki, uçot işini mənə versinlər!"

■ ■ ■

Stansiyada tikinti ləvazimatı yol boyu dağ kimi tökülmüşdü. İdarələrdən səfərbərliyə alınmış dördtonluq maşınlar nəfəs almadan dolub şəhərə yollanırdılar.

Abasəli trest işçilərini sahələrə paylaşdıranda, hərəyə bir iş tapşıran-

da Mirzə Əsgər sevinirdi. Görürdü ki, bunu çağıran, taxta daşımağa göndərən yoxdur. "Deyəsən, elə mənimki uçot olacaq", – deyə şadlanırdı.

O, bu fikirdə ikən Abasəli uzun bir dirəyin başından tutub çağırdı:

– Mirzə, bura gəl, yapış, ataq maşına!

Mirzə Əsgərin gözü bərələ qaldı. "Onu götürməyə məndə can hanı", – deyə həyəcanla düşündü.

Abasəli macal vermədi:

– Qolum düşdü, tez ol, ay Mirzə!

Mirzə Əsgər istər-istəməz dirəyi götürməli oldu. Beş addımlıqda dayanan maşına aparanacan bəlkə ürəyində yüz dəfə Abasəliyə söydü. Dirəyi qoyandan sonra ona elə gəldi ki, bu saat yıxılıb özündən gedəcəkdir! Özünü yoxlamaq istəyirdi ki, Abasəlinin səsi eşidildi:

– Mirzə, tez ol, bizim maşın geri qalır, biabır olarıq, yaxın gəl!

Mirzə Əsgər dirəyin ikincisini, üçüncüsünü də götürüb maşına tullamalı oldu.

Axşam yorğun, əzgin bir vəziyyətdə evə dönən kimi, zarıldadı:

– Arvad, mənim yerimi sal! Məndən bir də adam olmaz! Baisin evi yıxılsın!

Yatağa uzanan kimi, onu şirin yuxu apardı. Arvad onun qoltuğuna termometr qoydu. Nəbzini yoxladı. Bircə şeyə heyran idi ki, həmişə yuxuya həsrət olan, yuxusuzluqdan şikayətlənən adam indi, deyəsən, div yuxusuna getmişdir!

Neçə saatdan sonra Mirzə Əsgər yuxudan qalxdı, yemək stoluna yanaşıb tələb elədi:

– Arvad, mənə yemək ver, yaman acmışam!

Qadın kişisinin ömründə görmədiyi şirin bir iştahla xörək yediyini görüb sevindi.

– Ay Mirzə, – dedi, – ağır iş sənə düşüb, gəlsənə, hesab-kitabı buraxıb, stansiyada iş götürəsən?

*1954*



# ULDUZ

Direktorla əl verib tanış olandan sonra Qələndərov bir silisçi ədası ilə soruşdu:

– Sizdə Ulduz Qələndərov adlı oğlan işləyirmi? – cavab gözləmədən əlavə etdi: – Qarayanız, arıq, uzun bir oğlan!

Direktor Ulduzun qız adı olduğunu zənn etsə də, zəngi basdı, katibəyə tapşırdı:

– Gör Dadaş getməyibsə, bura çağır.

Zavodun kadr şöbəsində çalışan Dadaş adamların anketini əzbər bilirdi. Hafizəsi iti olduğundan bir dəfə əmrə düşən adamın adını unutmazdı.

Əlində uzun açar oynadan gödək, ətlisifət, qarasaç bir adam içəri girdi. Ulduzun adını çəkən kimi, Dadaş tanıdı.

– Bizdədir. İki ay olar götürmüşük. Model sexinə göndərdik. Gərək ki, məktəbdən gəlmişdi.

– Özüdür, məktəblidir. Doqquzuncunu qurtarıb.

Qələndərov direktorun da, Dadaşın da bu arayışa maraqla yanaş-

dığını görüb stulunu qabağa çəkdi:

– Bilirsinizmi, Ulduz mənim tək bir oğlumdur. Ailədə söz olub, ondan küsüb gedib. İki aydır, axtarmamış yer qoymamışam. Sorağını buradan verirlər. Şükür ki, tapıldı. Yoldaş direktor, xahiş edirəm çağırtdırasınız, götürüm gedim, evdə nigarandırlar.

Direktor qonağın danışığından xoşlanmasa da, üzə vurmadı:

– Bəyəm, siz oğlunuzun burada işləməyinə razı deyilsiniz?

– Xeyr, canım, nə işləmək, onuncuya keçir. Nə işləmək! Onun maaşına qalmamışıq ki, səfehlik eləyib gəlib.

Direktor qonağın üzünə baxır, susurdu. "Öz iradəsi ilə gələn bir oğlan sizin sözünüzü eşidəcəkmi?" Bu sualı verməmiş Dadaş dilləndi:

– Fəhlələr işdən çıxıblar, zəhmət çəkin, sabah gəlin.

– Mən onun mənzilinə gedə bilərəm. Xahiş edirəm, adresini versinlər.

Qələndərov oğlunun adresini alıb çıxandan sonra Dadaş direktora, direktor Dadaşa baxdı. Direktor dedi:

– Bu adamdan gözüm su içmir. Öyrən, gör nə əhvalatdır.

Dadaş bir söz deməyib, kabinetdən çıxdı.

Qələndər Qələndərov boru zavodunun böyründən ötüb fəhlə mənzillərinə yaxınlaşanda Ulduz aşxanada oturub kotlet yeyirdi. Onun gözü pəncərədə idi. Atasını yerişindən tanıdı. Ayağa qalxıb diqqətlə baxdı. Bu yana gəldiyini yəqin edəndə rəngi dəyişdi, çətinliklə tikəsini uddu. Çəngəli atıb dəsmal ilə əlini sildi. Kassaya bir beşlik verdi, artığını almamış cəld qapıdan çıxdı.

■ ■ ■

Ata-oğul!

Yanaşı yazılan bu iki kəlmə hər kəs üçün müəyyən, məlum bir münasibətin ifadəsidir. Dünyada bir-birinə bundan yaxın kim ola bilər?

Oğul böyütməkdən, ayaq alıb yeriyən, dil açıb danışan, şirin-şirin qımışan bir körpənin simasında keçmişini, gələcəyini, bütün həyat və zəhmətini görməkdən, cəmiyyətə layiq bir adamın, budur, sənin evində, sənin gözünün qabağında böyüdüyünü, məhz sənin tərbiyən, sənin



adınla böyüdüyünü hər gün görməkdən xoş və fərəhli nə ola bilər!

Əsl məhəbbəti duyan gənclər öz sevgiləri üçün hər fədakarlığa gedirlər, çünki belə bir məhəbbət alovunu nə tufan, nə sel, nə ölüm, nə ayrılıq söndürər. Bu məhəbbətin bitməz dastanı cild-cild kitablarda yazılır! Ancaq onu deyən və yazan azdır ki, əsl ata əsl övladı, ciyərparası üçün oda girməkdən çəkinməz. Hər kəsə aydın olan bu söhbəti biz ona görə təkrar edirik ki, bəzən buna uymayan təsadüflər olur. Doğrudur, az olur, ancaq olur.

Məsələn, bu saat iti addımlarla aşxana qabağından ötüb, fəhlə mənzillərinə doğru gedən hesabdar Qələndərov özü də bir atadır. Atadır, ancaq bunun atalığında başqalıq var.

Qələndərov Ulduzu niyə itirmişdi və niyə axtarırdı? Aydın olmaq üçün başdan danışaq.

## I

Qələndər Qələndərov əvvəllər Xaçbulaqda qoyunçuluq fermasında hesabdar idi. Güllər adlı bir qadının evində yaşardı. Bu evdə ünsiyyət bağladı, Güllərin cavan qızı Böyükxanımla evləndi. Sonra Qələndərovu şəhərə mühasibat kurslarına göndərdilər. Hərçənd ki, bu kurslar altı aylıq idi, ancaq Qələndərov bir də qayıtmadı. Böyükxanımla həmişəlik vidalaşdı. Arada qalan körpə uşağa xərclik də vermək istəmədi. Məhkəmə uşağa xərclik kəsəndən altı ay sonra Böyükxanım yatalaq xəstəliyindən vəfat etdi. Uşağı Qələndərovun evinə gətirdilər. İndi o, rayon maliyyə şöbəsində müfəttiş idi. Əminə adlı bir tatar qızı ilə yaşayırdı. Əminə uşağı qəbul etmədi. Ulduzu uşaq evinə verdilər. Qələndərov bir müddət bunu və sonra başqa bir şeyi bəhanə edib: "uşağın olmur", – deyə, Əminəni də boşamağa müvəffəq oldu.

Günlərin, ayların, illərin necə keçdiyini bəzən hiss etmək olmur. Ulduz isə uşaq evində sanki xüsusi bir sürətlə böyüyürdü. Səkkiz yaşından sonra onu atasının evinə gətirdilər. Uşaq burada təzə bir ana gördü. Bu da özgə cür ana idi. Uca, kök, həmişə bəzəkli bir qadın idi. Bu qadın san-

ki bəzəyinin, yaraşığının pozulacağından qorxur, adama yovuşmurdu. Bir dəfə də Ulduzun əlindən tutmadı, başını tumarlamadı, üzündən öpmədi.

Ulduzun məktəb həyatı, təhsil illəri başlandı. Atasının, aylarla rayonlara yoxlamaya gedən meşin qovluqlu maliyyə müfəttişinin harada, kimlə, necə yaşadığını uşaq hiss etmirdi.

Evi süpürən, uşağa çay-çörək verən qonşu qadın Səkinə xala həmişə Qələndərovun dalınca deyinər və Ulduza təsəlli verərdi:

– Oğul, dərsində ol, atan da rayonlardan qurtarar, inşallah, sən böyüyənəcən, onun da ağlı başına gələr.

Doğrudan da, Qələndərov rayonlardan qurtardı. Bir müddət evdə çox göründü. Ulduzun yanında oturub dəftərlərinə baxdı, kitablarını varaqladı, uşağın cibinə bir üçlük qoydu.

– Oğul, – dedi, – məndən adam çıxmadı, heç olmasa, sən bişüur olma!

Birinci dəfə atasının nəvazişli səsini eşidən Ulduz nə qədər sevinib fərəhlənmişdi! Üçmanatlığı isə uşaq bəlkə otuz dəfə cibinə qoyub çıxartdı, gah iki, gah dörd qatlayır, gah sağ, gah sol cibində saxlayırdı, dəqiqədə bir əlini salıb yoxlayırdı...

Ulduz indi daha 9-cu sinifdə idi. Bir axşam dərsdən qayıdanda, atasını evdə başqa bir qadınla qabaq-qabağa oturan, yeyib-içən gördü. Soyunmamışdı ki, Qələndərov durub gəldi. Oğlunun qulağına pıçıldadı:

– Ulduz, sənə bir analıq gətirmişəm ki, doğma anadan yaxşı.

– Mən çox analıq görmüşəm.

– Beləsini görməmisən, gəl tanış ol! Adı da Aqibət. Atalar necə ki deyib, aqibətin xeyir olsun! Bu çox nəcib yerdəndir.

Ulduz soyuq bir şeyə toxunurmuş kimi, ürəksiz əl verdi, xoş gəldin elədi. Aqibət isə isti-ətli ovcunda Ulduzun əlini bərk-bərk sıxdı.

– Oğlumuz budurmu? – deyə soruşdu. Əyilib üzündən öpmək istəyəndə Ulduz ilan görmüş kimi, başını qaçırtdı.

Atası acıqlandı:



– Dəlilik eləmə, anandır!

Aqibət stəkanın dibinə bir az araq töküb Ulduza təqdim etdi:

– İç bunu görüm!

Qələndərov da təkid etdi:

– Ananın sağlığına iç! Aqibətin sağlığına!

Hər iki tərəfdən təzyiq görən Ulduz sıxıldı. Gəldiyinə peşman oldu. Nədənsə üzünü görmədiyi, səsini eşitmədiyi, ancaq şəkildən və Səkinə xalanın söhbətlərindən tanıdığı doğma anası Böyükxanım gəlib onun gözü qarşısında dayandı, həsrət-həsrət baxdı. Ev isə bu dəmdə Ulduzun başına dolandı. Elə sürətlə dolandı ki, deyirdin bu saat hər şey yerindən uçacaqdır. Ulduz cəld qayıtdı. Paltosunu geyindi, çantasını götürüb evdən çıxdı.

Qələndərov stəkanı Aqibətin stəkanına vurub başına çəkdi, iri, ağ bir soğanı dişləyib, sifətini turşutdu:

– Aqibət xanım, sən gərək onu bağışlayasan. Uşaqdır, anlamır, axı o nə qanır? Dünyada nə görüb ki!

## II

Haradansa azıb gələn bir qadının süni nəvaziş göstərməsi, ilk salamın dalınca araq təklif etməsi Ulduzu elə çaşdırdı ki, o hansı istiqamətdə və nə üçün getdiyini təyin edə bilmədi. Bir an küçələr, tramvaylar, binalar onun alacalanmış gözlərində oynadı. Qarışıq aləmdə Ulduzun gözünə yalnız bir şey, yalnız anası, o sakit, o məsum baxışlı bədbəxt gəlin göründü. Kənardan baxan dərhal düşünərdi ki, sahil kölgəliklərində tək və sürətlə gedən bu məktəblinin halı özündə deyil. O nə isə bir şey itirmişdi, ya fəlakətə düşmüşdü.

Ulduz, şirin uşaq qayğısızlığından yenicə xilas olan ey həssas gənc! Mən səni yaxşı başa düşürəm. Sən iki aləmin arasında böyümüsən. Ən xoş, qayğısız saatların yaşıdlar, yoldaşlar arasında keçib. Məktəb – səkkiz yaşından səni qoynuna alıb oxudan, böyüdən məktəb, səni təmiz, saf hisslər, açıq fikirlərlə bəsləyib silahlandırdı. Evdə, ehtiyac və övlad-

lıq ucundan bağlı olduğun Qələndər ailəsində isə sən tamam başqa bir aləm görürsən. Daşıdığın familiyanın fitrətinə, təhsilinə və gələcəyinə yad olduğunu sən böyüdükcə daha aydın duyub düşünürsən. İndi qət etmisən ki, yad bir tərbiyə ilə üzülüşmək vaxtı çoxdan çatmışdır. Sənin doğma atan olsa da, yenə də üzülüşməlisən.

Ulduz çanta çiynində sahil aşağı baş alıb gedirdi. Sərin yaz havasından səfalanan, deyib-gülən dalğa-dalğa adamları sanki görmür, səsləri eşitmir, heç nəyə diqqət etmədən gedirdi. Gedirdi, hara getdiyini özü də bilmirdi. Sanki ata xanimanından uzaqlaşdıqca onun başı ayazıyır, zehni durulur, fikri özünə gəlirdi: "Gərək İlyasa deyəydim. Gərək məktəbə bildirəydim..."

Bir də düşünürdü ki, məktəb və ya komsomol katibi 50 yaşlı bir əyyaşla nə danışacaq, nə nəticəyə gələcəkdi! Bu, bəlkə də kişini qəzəbləndirər, kim bilir, daha nələr baş verərdi! Ulduz əlini cibinə saldı. Xırda pulu var idi. Atılıb tramvaya oturdu. Vaqon divarlarından asılan elanları, adam axtaran idarələrin adresini təkrar-təkrar oxudu. Əl boyda bir kağızda iri hərflərlə yazılmışdı: "Sənət məktəbinə şagirdlər lazımdır. Burada yemək, paltar, mənzil də verirlər".

Yetirən kimi, bir ərizə, bir də məktəb vəsiqəsi ilə Ulduzu boru zavodunun model sexinə qəbul etdilər. Sex rəisi usta Murtuz onun təhsilinə, hesab bilməyinə, əlinin qabiliyyətinə bələd olub sevindi.

– Bu oğlan, – dedi, – işləyəcək. Bundan usta olacaqdır!

Ulduza şagirdlər yataqxanasında, 11-ci otaqda yer verdilər. Bu, birmərtəbəli, kluba oxşayan, uzun, geniş bir bina idi. Hər iki tərəfə pəncərələri var idi. On birinci otaqda cərgə ilə düzülən çarpayıların başı pəncərə qabağında idi. Ulduzun çarpayısı lap axırda, qapı ağzında qoyulmuşdu.

Otaqbaşı Viktor Ulduzla tanış olanda, onun təhsilini biləndə üzünü yoldaşlara çevirib dedi:

– Uşaqlar, qonağa xoş gəldin eləyək, özünü də mən deyirəm, bir qulluğa irəli çəkək!

– Bundan yaxşı...



– Yaxşı kulturnik olar.

Uşaqlar təsdiq etdilər. Viktor Ulduzun əlini sıxdı.

– Kitabxanada bir gödərək qız var. Bizimkilərə yaxşı kitablar vermir. Hər kəs gedirsə, uşaq kitabı verir. Murzilka, balıqçı nağılı... Sən yaxşı oğlansan, onun dilini bilərsən. Özü də ki, kinodu, konsertdi, stadiondu, gərək 11-ci otağı 11-ci dərəcəyə qaldırasan!

Viktor səsini ucaldıb otaqdakılardan soruşdu:

– Necə deyirəm, uşaqlar, pis deyirəm?

– Yaxşı deyirsən.

– Oxuyub-çalmaqla aran necədir?

– Niyə, sevənəm.

Viktor sanki uşaqlara muştuluq verirdi:

– Uşaqlar, xanəndəmiz də var!

Ulduz boynundan atdı:

– Oxumaq əlimdən gəlməz.

– Bacarmasan da, gərək tapasan, gətirəsən. İstəyirsən, şəhərdən Bülbülü, ya Rəşidi tap, istirahət axşamları bu otağın gurultusu gərək əskik olmaya!

Viktor mıxçadan asılan balalaykanı göstərdi:

– Bu balalayka da, mən də sənin ixtiyarında.

Ulduz bir ayın içində zavodda tanındı. Öz xətti ilə yazdığı divar qəzetinin 1-ci nömrəsini aparıb direktora göstərmişdilər. Xüsusən, karikaturalar hamının xoşuna gəlmişdi. Ulduzu rayon yürüşünə nümayəndə də seçmişdilər.

## III

Ulduz gedən günün səhəri Qələndərov bu məzmunda bir məktub aldı: "Ata, boynumdakı atalıq haqqınıza borcluyam. Ancaq bu haqq nə qədər böyük olsa da, vicdanımı cidarlaya, məni keçmiş adətlər girdabına çəkə bilməz. Haçandandır özüm-özümlə vuruşuram. Məktəb mənə ədəb öyrədir, evə gəlirəm çirkin mənzərələr görürəm. Əyyaş həyat, ana-

mın təhqir edilməsi məni məngənə kimi sıxır. Bir yandan da atalıq haqqı qabağımı kəsir. Dinə bilmirəm, susa da bilmirəm. Nəhayət, davam gətirmədim, getdim, belə bir ailəyə mənsub olmaq... Yox! İstəmirəm, arxa çevirib getdim. Məni axtarmayın. İşə düzəlmişəm, yerim rahatdır..."

Qələndərov adressiz məktubu təkrar-təkrar oxuyub o yan-buyana çevirirdi ki, qapı döyüldü. Gələn Ulduzun müəllimәsi Xuraman idi. O da Ulduzu axtarırdı. Qələndərov müəllimәyə belə cavab verdi:

– Rayona gedib, qohumlarının yanına. Bir həftəyə qayıdar.

Xuraman dedi:

– Hara getdiyini bilmirəm, yoldaş Qələndərov, ancaq onu bilirəm ki, ailədə onun günü yaxşı keçmir. Özünüz yaxşı bilirsiniz ki, övlad böyütmək şəxsi iş deyil, vətəndaşlıq işidir, özü də lap böyüyündən!

Qələndərov müəllimənin töhmətini anlasa da, özünü sındırmadı.

– Arxayın olun, – dedi, – müəllimə, mən onunla xüsusi məşğul olacağam, xüsusi... Mən daha yığışıb gəlmişəm.

Xuraman ona dik-dik baxan adama çox şey demək istəyirdi, ancaq bunu deyə bildi:

– Bəli, yığışmaq, özünü yığışdırıb, uşaqla məşğul olmaq! Özü də sizin kimi bir yoldaş...

Müəllimənin töhməti, Ulduzun məktubu qəfildən və bərk vurulmuş bir sillə kimi, Qələndərovun boz sifətini qızartdı. O ancaq indi anladı ki, oğlunda, sükut və üzüyolalıqla böyüyən uşaqda atasının hərcayı həyatına nifrət necə xırda-xırda böyüyüb, nə mərtəbəyə gələ bilərmiş!..

Səkinə xaladan soruşanda acıqla dedi:

– Ay sağolmuş, bəs bilmirdin ki, pərdəni götürəndə, evə gündə bir arvad gətirəndə övlad adamdan üz döndərər? İndinin uşaqlarını tanımırsan? Bilmirsən ki, məktəb onlara ayrı yol öyrədir!..

Qələndərov oğlundan soraq bilmək üçün bacısı evinə getdi. Orada ilk arvadı Böyükxanımın uşaqla yanaşı şəklini gördü. Deyəsən, bu şəkil o gün qəsdən lap açıq-aşkar, ayıq-sayıq dayanıb Qələndərovun yolunu gözləyirdi. Gözləyirdi ki, o gəlsin, yaxınlaşanda diqqətlə üzünə baxıb görsün utanır, ya yox.



Qələndərov xəcalət çəksə, yerə yıxılsa, Böyükxanım xəyal kimi uçub gedəcəkdi. Utanmasa, şəkildə böyüyüb canlanacaq, stoldan enəcək, barmaqlarını bu əyyaş kişinin gözünə soxacaq, deyəcəkdi: "Tfu sənin üzünə!"

Deyəsən, bu xəyal deyildi. Tamam həqiqət idi. Böyükxanımın qəzəb və nifrətlə dediyi bu sözlər Qələndərovun qulağında mis kimi cingildədi. Onu dəhşət götürdü. Karıxdığından bilmədi nə etsin, əllərini gizlətməyə yer axtardı. cibinə salanda məktubun xışıltısı əfi ilan kimi onu qorxutdu. Tez əlini cibindən çıxarıb ovuşdurdu. Dərhal geri qayıtdı.

Cürbəcür bəhanə ilə güman gələn tanış evləri bir-bir gəzdi, heç yerdə Ulduz haqqında bir xəbər eşitmədi. Heç kəsə də sirrini demədi.

Qələndərov Ulduzu axtarmaya bilərdimi? Yox! Xüsusən, indi axtarmalı idi. Ona görə axtarmalı idi ki, bu işin dalısından, məktəbin tələbindən, oğlunun atanı baykot etməyindən, adının qəzetlərə düşməyindən qorxurdu. Qorxurdu ki, axırıncı xidmət yerində də ondan məsuliyyət soruşalar.

Ancaq əsas qorxu bu deyildi. Qələndərov ömründə heç kəsə inanmadığı kimi, Aqibətə də inanmırdı. Güman edirdi ki, günün birində işdən qayıdıb evini məscid kimi boş görə bilər. Aqibətə ev tapşırmaq olmaz. Yeganə oğlu Ulduz isə çıxıb getmişdir.

Yaş da, iş də, vəziyyət də elə idi ki, Qələndərov özünü tənha və qaranlıq bir uçurum qarşısında hiss edir, bir-birini təqib edən qəbahətləri çoxdankı yaraları kimi dalbadal açılmağa başlayırdı. O, güman etməzdi ki, oğlu belə qəti tədbirə əl atsın. Onu da güman etməzdi ki, Ulduzun getməsi bu evə, illər boyu bəzənib qurulan bu evə bir məzar sükutu, yanvar şaxtası gətirmiş olsun. İndi o, rayonlara, zavod, fabrik, idarə qapılarına ayaq döyməkdə sanki Ulduzu yox, birdən-birə itirdiyi şənliyini, gələcəyini, ümidini axtarırdı.

Ulduz isə başına gələnləri zavod komsomol katibi İslama bildirmişdi.

İslam ona bir məruzə tapşıranda söhbət açılmışdı. Məruzənin

mövzusu belə idi: "Sovet adamının mənəvi-əxlaqi xüsusiyyətləri." Ulduz bu məruzəni hazırlasa da, gənclərə oxumazdan qabaq İslamla danışdı:

– Dünyada vicdan əzabından ağır şey yoxdur. Başqalarını əxlaq təmizliyinə çağıran adamın ailəsində belə bir təmizlik yoxsa, o adam ən çirkin işlərdən birini görür. Onun Əbdüləli bəydən fərqi nədir? Sabah məruzədə birisi qalxıb desə ki, yoldaş lektor, siz Qələndərovun oğlu deyilsinizmi? Mən nə cavab verim? Yox, İslam, mən bu şərəfdən çox-çox aşağıdayam. Qardaşımsan, bu işi başqasına tapşır!

## IV

Viktor çarpayısının üstündə oturub balalaykanı dınqıldadır, kinodan qayıdan gənclər isə filmdən söhbət edib gülüşürdülər.

Koridorda Qələndərovun səsi eşidildi:

– On birinci otaq bu deyilmi?

– Kimi axtarırsınız?

– Ulduz lazımdır, Qələndərov Ulduz!

Ulduz cəld qalxıb qapıya çıxdı. Atası onu çoxdanın, uzağın ayrılığından sonrakı kimi qucaqlayıb öpdü:

– Haradasan, ay oğul, səni axtarmaqdan dizimdə taqət qalmadı.

Ulduz onu otağa çağırdı, altına stul çəkdi.

– Yox, oturmağa gəlməmişəm, yığış gedək!

Uşaqlar qonağa təklif etdilər:

– Əyləşin!

Qələndərov öz hökmünə əmin bir əda ilə təklif etdi:

– Yığış, yığış gedək, maşın danışmışam!

Birdən yadına düşdü ki, Ulduzun yığışdırmalı bir şeyi də yoxdur. Yatacaq hökumət malıdır. Ulduzun kitablardan başqa nəyi ola bilər!

– Dur, – dedi, – yoldaşlarınla görüş, gecdir!



Müntəzir dayanıb tamaşa edən Ulduz yoldaşlarına baxdı və başını aşağı saldı. Sanki, o, qəlbinə müraciət etdi. Düşdüyü vəziyyətdən çarə axtardı. Başını qaldırıb təkrar atasının üzünə baxdı:

– Ata, mən işləyirəm axı!

– Sənin işləməyin mənə lazım deyil! Dur, çıxaq gedək!

Ulduz bu dəfə çox səbir və təmkinlə nə isə demək istəyirdi, uşaqlardan kim isə dilləndi:

– Sənə lazım deyil, hökumətə lazımdır!

Qələndərov ətrafına baxındı ki, bu sözü deyəni görsün, tapa bilmədi. Ona doğru çevrilən diqqətli nəzərlərdən elə hiss etdi ki, bunu bir adam yox, bütün otaqdakılar deyirlər. Oğluna sarı döndü:

– Ulduz, oğul, sən mənim evimdə bir puddan çox duz yemisən. Məni indi satacaqsanmı?

Ulduzun qəlbi qəfəsdəki quş kimi çırpınırdı. Daxilən dərin həyəcan keçirsə də, rəngi pul kimi qızarsa da, zahirdə təmkinini pozmadı.

– Sən də, mən də, ay ata, – dedi, – hökumətin bəlkə beş pud duzunu yemişik! Onun işini birinci tutmalıyıq. Özün işçisən, bilirsən. Mənim nəsihətim artıqdır!

Qələndərov səsinə hiddət verdi:

– Deməli, sən ata-anadan üz döndərirsən?

– Anamın adını nahaq çəkirsən. Onu heç olmasa, qəbirdə rahat qoy! Ata isə, ata qoy əvvəlcə öz barəsində düşünsün!

Bütün gənclər diqqət və maraqla Ulduzun sözlərini dinləyirdilər. Çarpayıda uzananların da gözündən yuxu qaçmışdı. Hamı dirsəklənib ata ilə oğulun ixtilafına diqqət verirdi.

Qələndərov heç vaxt belə vəziyyətə düşəcəyini düşünməzdi. Ona görə ki, öz evindən, ailəsindən kənar həyatı, ictimai həyatın əsl inkişaf istiqamətini dərk etməkdən uzaq idi. O, həmişə ailəsinə kor bir qüvvə kimi hakim idi. Düşünə bilmirdi ki, onun evdəki hökmü ancaq bacanı bağlamaqla günəş boğduğunu güman edən bir axmağın hərəkətinə bənzəyir. Ailəni də, övladı da ayaqlayıb yumşaltdığı bir palçıq kimi təsəv-

vür edirdi. Bu palçıqdan bitki göyərdiyini, həm də birdən-birə boy atıb ucaldığını kim gözləyə bilər, kim görə bilərdi!.

Qələndərov yalvarıcı bir ədа ilə dedi:

– Oğul, gəl belə eləmə, tək bir övladsan, evi-eşiyi mən kimin üçün yığmışam? Axı sənə şəhərdə nə məktəb, nə iş əskikdir. Yaxşı, nə deyirəm, razı deyilsən, arvadı da rədd eləyim getsin. Sən mətləbi niyə bu pilləyə mindirirsən?

– Ata, mən qət eləmişəm, daha nə danışım!

Ulduzun yanından məyus qayıdan Qələndərov bulud kimi tutulmuşdu. Öz doğma oğlunun nifrətinə layiq olacağını, adamlar yanında bu qədər heçə dönəcəyini xəyalına da gətirməzdi. İndi evi, yatacağı ona ilan-çayan yuvası kimi olmuşdu. Çarpayısından uzaqda, köhnə divan üstündə bir yorğana bükülüb süpürgə kimi düşmüşdü. Kiminsə bu saat onu götürüb küçəyə atacağını gözləyirdi. Səhər Aqibət onu çətinliklə oyadıb pəncərəni göstərdi:

– Kişi, yazdır, xalq günəşli havada gəzməyə çıxır, dursana!

– Arvad lap buzlanmışam. Sümüklərim gizildəyir. Üstümə bir yorğan da at!

Həmin bu dəqiqədə asfalt yollarla işə gedən fəhlə-gənclər Qələndərovdan danışırdılar:

– Keçmişdə ata tərbiyə verirdi. İndi də oğul tərbiyə verir.

– Adamına baxır!

– Kim kimi!

*1954*



# MÜNDƏRİCAT


Anaların üsyanı ........ 5
Ananın köynəyi ........ 9
Gülgəz ........ 13
Məşriq ........ 21
Boz adam ........ 35
Fitnə ........ 40
Ata ........ 47
Qardaş qanı ........ 52
Qorxu ........ 56
Susuzluq ........ 64
Vuran əllər ........ 70
Yol açıqdır ........ 75
Yollar ........ 78
Şahin və Sona ........ 82
Şərbət ........ 85
Ananın yarışı ........ 89
Havalı adam ........ 97
Mərcan nənə ........ 107
Ana ........ 112
Arxa əsgəri ........ 118
Atlı ........ 124
Baldan əvvəl ........ 129
Çupçik ........ 135
Çəkmə ........ 143
Göylər adamı ........ 155
Odlu mahnılar ........ 165
Ölümdən betər ........ 168
Axşam səfəri ........ 173

Vətən yaraları ..........182
Xəbər ətərsiz ..........192
Leyla ..........200
Muştuluq ..........209
Titrək bir səs ..........213
Ər və arvad ..........215
Barxudar ..........223
Çıraqlar yandı ..........227
Dissertasiya ..........232
Ailə ..........239
Həpəndovun məqaləsi ..........246
İki ananın bir oğlu ..........251
Oğul ..........259
Millətin "müalicəsi" ..........273
İki səs ..........276
Qələmdan ..........280
Silah qardaşları ..........293
Mənim də haqqım var ..........308
Salam ..........315
Gözətçi ..........323
Aqil ..........328
İmtahan ..........336
İki rəssam ..........339
İftixar ..........345
İlk vəsiqə ..........350
Gənc usta ..........355
Yaradan əllər ..........360
Çin qızı ..........365
Gilasın sevinci ..........370
Əsgər oğlu ..........375
Mərdimazar ..........388
Qələm ..........393
Əskinasın tarixi ..........395
Buz maşını ..........399
Gərək olar ..........402
İclas qurusu ..........410
Özgə uşağı ..........415
Özündən naxoş ..........424
Ulduz ..........429

**MİR CƏLAL. ƏSƏRLƏRİ. 5 CİLDDƏ**
**II CİLD**


Naşir: **HİDAYƏT ƏSGƏROV**
Nəşriyyat redaktoru: **İlahə HƏŞİMOVA**
Səhifələyəji: **Elvira NADİRQIZI**
Dizayner: **Aynur ƏSGƏRLİ**

Çapa imzalanmışdır: 10.01.2013
Kağız formatı: 70x90 1/16
Həcmi: 27 ç.v; Sifariş: 13 ; Sayı: 500

«ADİLOĞLU» nəşriyyatında nəşrə hazırlanmış
və ofset üsulu ilə çap edilmişdir.
Ünvan: Bakı şəh., Alatava I, Ə.Salamzadə küç 9C
Tel.: (050) 593 27 77, (055) 222-71-93
Web: www.adiloglu.az;